AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

**(pedaqogika, psixologiya, tarix, filologiya,
riyaziyyat və informatika, biologiya, incəsənət)**

№ 1 (67)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 27 dekabr 2004-cü il tarixdə (Şəhadətnamə № 1158) qeydiyyata alınmış və nəşrə edilmiş dəyişikliklər 20 iyun 2019-cu il tarixdə Reyestrə əlavə edilmişdir.

NAXÇIVAN – NMİ "Məktəb", 2022

REDAKSİYA HEYƏTİ

Baş redaktor: **Azad Sevindik oğlu Novruzov**
Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Baş redaktorun müavini: **Qurban Məmməd oğlu Qurbanlı**
Naxçıvan Müəllimlər İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent

Məsul katib: **Zöhrə İlham qızı Sadiqova**
"Məktəb" nəşriyyatının direktoru

SAHƏLƏR ÜZRƏ REDAKSİYA HEYƏTLƏRİ

PEDAQOGİKA

İsmayıl İsrafil oğlu ƏLİYEV – pedaqogika üzrə elmlər doktoru, professor – elmi redaktor;
Fərahim Balakişi oğlu SADIQOV – pedaqogika üzrə elmlər doktoru, professor;
Akif Nurağa oğlu ABBASOV – pedaqogika üzrə elmlər doktoru, professor;
Vahid Məmməd oğlu RZAYEV – pedaqogika üzrə fəlsəfə doktoru, dosent.
Rövşən Xəlil oğlu VƏLİYEV – pedaqogika üzrə fəlsəfə doktoru, dosent.

PSİXOLOGİYA

Çapay Qadir oğlu QULİYEV – psixologiya üzrə fəlsəfə doktoru, NMİ-nin prorektoru – elmi redaktor;
Bəxtiyar Həmzə oğlu ƏLİYEV – AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, Milli Məclisin deputatı, Milli Məclisinin Elm və təhsil komitəsinin sədri;
Gültac Bədəl qızı ƏLİYEVA – psixologiya üzrə fəlsəfə doktoru, professor.

TARİX

Elbrus Saleh oğlu İSAYEV – tarix üzrə fəlsəfə doktoru, dosent – elmi redaktor;
İsmayıl Muxtar oğlu HACIYEV – AMEA-nın həqiqi üzvü, tarix üzrə elmlər doktoru, professor, AMEA Naxçıvan Bölməsinin sədri;
Hacıfəxrəddin Yəhya oğlu SƏFƏRLİ – AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor, AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru;
Zəhmət Əbülfət oğlu ŞAHVERDİYEV – AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor;
İbrahim ETEM ATNUR – tarix üzrə elmlər doktoru, professor, Millî Savunma Üniversitesi, Türkiyə.

FİLOLOGİYA

Yusif Səfər oğlu SƏFƏROV – filologiya üzrə elmlər doktoru, professor – elmi redaktor;
İsa Əkbər oğlu HƏBİBBƏYLİ – AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın vitse-prezidenti;
Akif Kazım oğlu İMANLI – filologiya üzrə elmlər doktoru, professor;
Qurban Məmməd oğlu QURBANLI – filologiya üzrə fəlsəfə doktoru, dosent (rus dili üzrə mütəxəssis);
Həsənəli Cahangir oğlu EYVAZOV – filologiya üzrə fəlsəfə doktoru, dosent;
Şirməmməd Qüdrət oğlu QULİYEV – filologiya üzrə fəlsəfə doktoru, dosent (ingilis dili üzrə mütəxəssis).

RİYAZİYYAT VƏ İNFORMATİKA

Yaqub Yaqub oğlu MƏMMƏDOV – riyaziyyat üzrə elmlər doktoru, dosent – elmi redaktor;
Bilal Telman oğlu BİLALOV – AMEA-nın müxbir üzvü, riyaziyyat üzrə elmlər doktoru, professor;
Vaqif Sabir oğlu QULİYEV – AMEA-nın müxbir üzvü, riyaziyyat üzrə elmlər doktoru, professor;
Azad Sevindik oğlu NOVRUZOV – pedaqogika üzrə fəlsəfə doktoru, dosent;
Soltan Əli oğlu ƏLİYEV – riyaziyyat üzrə elmləri doktoru, professor;
Elşad Vəliqulu oğlu AĞAYEV – riyaziyyat üzrə fəlsəfə doktoru, dosent;

BİOLOGİYA

Lamiyə Telman qızı QULİYEVA – biologiya üzrə fəlsəfə doktoru – elmi redaktor;
Tariyel Hüseynəli oğlu TALIBOV – AMEA-nın həqiqi üzvü, biologiya üzrə elmlər doktoru, professor;
İsmayıl Bəqiyyət oğlu MƏMMƏDOV – biologiya üzrə elmlər doktoru, dosent;
Asif Həmzə oğlu AXUNDOV – biologiya üzrə fəlsəfə doktoru, dosent.

İNCƏSƏNƏT

Həbibə Rəşad qızı ALLAHVERDİYEVA – sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Ali Məclisin deputatı – elmi redaktor;
Ülviyyə Tapdıq qızı HƏMZƏYEVA – Azərbaycan Respublikasının əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı;
Məhəbbət Nizami qızı BABAYEVA – musiqişünas.

Ünvan: Az – 7003, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti-2
Tel.: (+994)545 32 02, (+994)544 04 41, (+994)544 04 29
E-mail: elmihisse@nmi.edu.az

M Ü N D Ə R İ C A T

PEDAQOGİKA: NƏZƏRİYYƏ VƏ TARİX

9-14	**ABDULLA MUSTAFAYEV İLQAR KƏNGƏRLİ**	Tərbiyəçi kimi ali məktəb müəlliminin rolu
15-19	**GÜNEL SƏMƏDZADƏ**	Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində ailənin bağça ilə birgə işi
20-23	**AYTƏN MÖVSÜMLÜ**	Tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işində şəxsiyyətyönümlü texnologiyalardan istifadənin imkanları
24-28	**SƏBİNƏ CƏFƏROVA**	"Dəbistan" jurnalında uşaqların ailədə təlim-tərbiyə məsələlərinin işıqlandırılması
29-33	**PƏRVİN CƏFƏROVA**	Repressiya qurbanlarının yaradıcılığında məktəb, elm, maarif və milli ruh problemi
34-36	**TƏRANƏ ƏLİYEVA**	Yeni təlim texnologiyaları tədqiqatçılıq bacarıqları formalaşdıran amil kimi
37-41	**ANAR YAQUBOV**	İnnovativ təhsil şəraitində gələcək müəllimlərin didaktik mədəniyyətinin inkişafının diaqnostikası
42-46	**ƏFSANƏ ƏLİZADƏ**	Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərində humanizm tərbiyəsi
47-52	**SƏYYAD VƏLİYEV**	Şagirdlərdə fəallığın formalaşmasında müstəqil işlərin əhəmiyyəti
53-56	**NİGAR İSMAYILOVA**	Nizami Gəncəvi yaradıcılığında mühüm əxlaqi dəyərlərin tərənnümü
57-60	**GÜLNAR ƏLİYEVA**	Kiçik yaşlı məktəblilərin fiziki tərbiyəsinin mahiyyətinə dair
61-66	**ÜLVİYYƏ NAĞIYEVA**	Avropa ölkələrində ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji təcrübəsinin təşkilinin standartlaşdırılması
67-70	**KÜBRA QULİYEVA**	Xalqın milli oyanış ideyasının inkişafında görkəmli maarifpərvər Ö.F.Nemanzadənin rolu
71-73	**TÜNZALƏ ƏLİYEVA**	Kiçik yaşlı məktəblilərin yaradıcı qabiliyyətlərinin xüsusiyyətlərinə dair
74-77	**XAQANİ İSMAYILOV**	Şəxsiyyətyönümlü təlim sistemində sağlamlığı qoruyan texnologiyaların həyata keçirilməsi

PEDAQOGİKA: FƏNLƏRİN TƏDRİSİ METODİKASI

78-83	**YAQUB MƏMMƏDOV AYTƏKİN ŞAHGƏLDİYEVA**	Riyaziyyat dərslərində qrafiklərin qurulmasında Excel proqramından istifadənin metodikasına dair
84-89	**AKİF ƏLİYEV MİRNAZİM SEYİDOV SEVİNC KƏRİMOVA**	Mürəkkəb reaksiyaların tədrisinə dair
90-94	**SÜDABƏ MƏMMƏDOVA**	II-III sinifdə riyaziyyat dərslərinin təşkilinə dair
95-98	**FATMA HACIYEVA**	I – IV siniflərdə həndəsə elementlərinin öyrədilməsi metodikasının bəzi məsələləri
99-105	**ARZU SƏFƏROVA**	V-VI siniflərdə ədədlər nəzəriyyəsi elementlərinin qoyuluşu və tədrisi xüsusiyyətləri
106-111	**SEYFƏDDİN CƏFƏROV**	Adiobatik prosesin yeni informasiya texnologiyaları vasitəsilə tədris edilməsinə dair
112-115	**TOFİQ MƏMMƏDOV**	Məsələ həllinin modelləşdirilməsi və informasiya-kommunikasiya texnologiyaları
116-120	**NURAY SƏFƏROVA**	Çoxhədlilər cəbrinin tədrisində didaktik prinsiplərə dair

121-124	**AYGÜN SULTANOVA NAİLƏ QARDAŞBƏYOVA**	Fizikanın tədrisində informasiya-kommunikasiya texnologiyalarından istifadə təcrübəsindən
125-128	**AYGÜN ƏSGƏROVA**	Yazı janrının növləri və xarici dildə yazı vərdişlərinin aşılanması yolları
129-132	**COŞQUN QURBANOV RÖVŞƏN BAĞIROV NİZAMİ QULİYEV**	Orta ümumtəhsil məktəblərində texnologiya fənninin tədrisinin hazırki vəziyyətinə dair bəzi mülahizələr
133-136	**ƏNNAĞI ƏSGƏROV ƏLİ SƏBZƏLİYEV**	Orta məktəb informatika kursunda artırılmış reallıq texnologiyalarının tətbiqi
	PSİXOLOGİYA	
137-144	**ELNARƏ ŞƏFİYEVA SEVİNC ALLAHYAROVA AYDAN SƏMƏNDƏROVA**	Məktəbli bullinqi iştirakçılarının psixoloji xüsusiyyətləri
	TARİX	
145-150	**İSMAYIL HACIYEV**	Zəngəzurun itirilməsi və Naxçıvanın muxtariyyət statusunun zəruriliyi
151-160	**ASLAN İBRAHİMOV**	1920-1921-ci illərdə Qərbi Azərbaycanda Abbasqulu bəy Şadlinskinin başçılığı altında daşnaklara qarşı aparılan mübarizəyə dair
161-169	**ƏLƏKBƏR CABBARLI**	Azərbaycanın parlamentarizm tarixində Naxçıvanın yeri (1991-1993-cü illər)
170-176	**AYTƏKİN QƏHRƏMANOVA**	Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası kənd əhalisinin ictimai fəallığının ailə və ailə məişətinə təsiri
	FİLOLOGİYA	
177-181	**SƏDAQƏT HƏSƏNOVA**	Zaur Vedili və ədəbi dilimiz
182-186	**GÜNAY ŞİRƏLİYEVA**	Asim Yadigarın lirik şeirləri
187-194	**ARİF ZEYNALOV**	Puşkinin dövründə rus poeziyasının qanadlı sətirləri
195-199	**ŞƏHLA FƏTƏLİYEVA**	Mürəkkəb feillərdə təsirlilik və təsirsizliyin araşdırılmasına dair
	RİYAZİYYAT VƏ İNFORMATİKA	
200-208	**ABDULLA HƏSƏNOV GÜLƏR ƏSƏDOVA**	Elementar həndəsədə ekstremal məsələlərinin həllində törəmənin tətbiqi
209-212	**AZAD MƏMMƏDLİ**	Tətbiqi riyaziyyatın bir məsələsi haqqında
213-216	**ELMAN MAHMUDOV**	Vahid çevrə ilə vahid hiperbola nöqtələri arasında qarşılıqlı əlaqə
	BİOLOGİYA	
217-220	**İSMAYIL MƏMMƏDOV SEVİLƏ RÜSTƏMOVA**	Bal arılarının aspergillyozuna qarşı profilaktik tədbirlər
221-225	**CABBAR NƏCƏFOV**	Üzüm bağının salınması üçünərazi seçimində nəzərə alınmalı əsas amillər
226-228	**TEYYUB PAŞAYEV**	Nəbatat bağında amerika çiçəkbaharı Phytolacca americana L. bitkisinin introduksiyası və bioekoloji xüsusiyyətlərinin öyrənilməsi
229-234	**AKİF BAYRAMOV MAHİR MƏHƏRRƏMOV**	Kiçik dağ çaylarının makrozoobentosu
235-240	**ƏLÖVSƏT İBRAHİMOV**	Müxtəlif canlı çəkiyə malik ətlik-yunluq ana qoyunların süd məhsuldarlığı və onun nəslin böyümə intensivliyinə təsiri
241-245	**XATIN AĞAYEVA**	Havanın hərarət və rütubətinin idmançının fiziki iş qabiliyyətinə təsiri

CONTENTS

PEDAGOGY: THEORY AND HISTORY

9-14	**ABDULLA MUSTAFAYEV** **ILGAR KANGARLI**	The role of the higher school teacher as an educator
15-19	**GUNEL SAMEDZADE**	Joint work of the family and kindergarten in the moral education of preschoolers
20-23	**AYTEN MOVSUMLU**	Opportunities to use personality-oriented technologies in the formation of students' artistic creativity
24-28	**SABINA JAFAROVA**	Coverage of the upbringing and education of children with in the family in the magazine “Dabistan”
29-33	**PARVIN JAFAROVA**	School, science, education and the national spirit problem in the creativity of victims of repression
34-36	**TARANA ALIYEVA**	New learning technologies as a factor in forming research skills
37-41	**ANAR YAGUBOV**	Diagnosis of the development of didactic culture of future teachers in the context of innovative education
42-46	**AFSANA ALIZADE**	The education of humanism in the "Treasure of Secrets" by Nizami Ganjavi
47-52	**SAYYAD VALIYEV**	In the formation of activity in students importance of independent work
53-56	**NIGAR ISMAYILOVA**	Development of important moral values in Nizami Ganjavi's creativity
57-60	**GULNAR ALIYEVA**	On the nature of physical education of young schoolchildren
61-66	**ULVIYYA NAGIYEVA**	Standardization of the organization of professional training and pedagogical experience of primary school teachers in European countries
67-70	**KUBRA GULIYEVA**	The role of outstanding educator O.F.Nemanzade in the development of the idea of national awakening of the people
71-73	**TUNZALA ALIYEVA**	On characteristics of creative skills of young schoolchildren
74-77	**KHAGANI ISMAYILOV**	Implementation of health-protecting technologies in a personalized training system

PEDAGOGY: METHODOLOGY OF TEACHING SUBJECTS

78-83	**YAGUB MAMMADOV** **AYTEKIN SHAHGELDIYEVA**	About the methods of using the Excel program when building tables in mathematics lessons
84-89	**AKIF ALIYEV** **MIRNAZIM SEYIDOV** **SEVINJ KARIMOVA**	On the teaching of complex reactions
90-94	**SUDABA MAMMADOVA**	On the organization of mathematics classes in II-III grade
95-98	**FATMA HACIYEVA**	Some questions of the methodology of teaching geometry elements in grades I-IV
99-105	**ARZU SAFAROVA**	Features of investing and teaching elements of the theory of numbers in grades V-VI
106-111	**SEYFADDIN JAFAROV**	On teaching adiobatic process through new informatization technology
112-115	**TOFIG MAMMADOV**	Problem solving modeling and information and communication technologies
116-120	**NURAY SAFAROVA**	On didactic principles in teaching polynomial algebra

121-124	**AYGUN SULTANOVA** **NAILA GARDASHBEYOVA**	From the experience of using information and communication technologies in teaching physics
125-128	**AYGUN ASGAROVA**	Genres of writing and inculcation of writing skills in a foreign language
129-132	**COSHGUN GURBANOV** **ROVSHAN BAGIROV** **NIZAMI GULIYEV**	Some considerations on the current state of technology teaching in secondary school
133-136	**ANNAGI ASGAROV** **ALI SABZALIYEV**	Application of augmented reality technologies in secondary school informatics course
	PSYCHOLOGY	
137-144	**ELNARA SHAFIYEVA** **SEVINJ ALLAHYAROVA** **AYDAN SAMANDAROVA**	Psychological characteristics of participants in school bulling
	HISTORY	
145-150	**ISMAYIL HAJIYEV**	Loss of Zangezur and necessity of Nakhchivan autonomy status
151-160	**ASLAN IBRAHIMOV**	On the fight against the dashnaks under the leadership of Abbasgulu bey Shadlinsky in Azerbaijan
161-169	**ALAKBAR JABBARLI**	The place of Nakchivan in the history of parliamentarism of Azerbai
170-176	**AYTEKIN GAHRAMANOVA**	The impact of social activity of rural population of Nakhchivan Autonomous Republic on family and family life during the years of independence
	PHILOLOGY	
177-181	**SADAGAT HASANOVA**	Zaur Vedili and our literary language
182-186	**GUNAY SHIRALIYEVA**	Lyric poems of Asim Yadigar
187-194	**ARIF ZEYNALOV**	Winged phrases of the Pushkin period's russian poetry
195-199	**SHAHLA FATALIYEVA**	On the study of effectiveness and inactivity in compound verbs
	MATHS AND INFORMATICS	
200-208	**ABDULLA HASANOV** **GULAR ASADOVA**	Application of derivative in solving extreme problems in elementary geometry
209-212	**AZAD MAMMADLI**	About a problem in applied mathematics
213-216	**ELMAN MAHMUDOV**	Interrelation between common circle and common hyperbola points
	BİOLOGY	
217-220	**ISMAYIL MAMMADOV** **SEVILA RUSTAMOVA**	Preventive measures against aspergilliosis of honey bees
221-225	**JABBAR NAJAFOV**	In choosing a territory for planting a vineyard key factors to consider
226-228	**TEYYUB PASHAYEV**	Instruction and study of bioecological characteristics of *phytolacca americana* L. plant in a botanical garden
229-234	**AKIF BAYRAMOV** **MAHIR MAHARRAMOV**	Macrozoobenthos of small mountain rivers
235-240	**ALOVSET IBRAHIMOV**	Milk producing ability of meat-wool ewes with different live weight and its influence on the offspring growth rates
241-245	**KHATIN AGAYEVA**	Affect of the temperature and humidity to the physical work of a sportsman

С О Д Е Р Ж А Н И Е

ПЕДАГОГИКА: ТЕОРИЯ И ИСТОРИЯ

9-14	**АБДУЛЛА МУСТАФАЕВ ИЛЬГАР КЕНГЕРЛИ**	Роль преподавателя высшей школы как воспитателя
15-19	**ГЮНЕЛЬ САМЕДЗАДЕ**	Совместная работа семьи и детского сада по нравственному воспитанию детей дошкольного возраста
20-23	**АЙТЕН МОВСУМЛУ**	Возможности использования личностно-ориентированных технологий в работе по формированию художественно-творческих способностей студентов
24-28	**САБИНА ДЖАФАРОВА**	Освещение в журнале "Дабистан" вопросов обучения и воспитания детей в семье
29-33	**ПАРВИН ДЖАФАРОВА**	Проблемы школы, науки, просвещения и национального духа в творчестве жертв репрессий
34-36	**ТАРАНА АЛИЕВА**	Новые технологии обучения как фактор формирования исследовательских навыков
37-41	**АНАР ЯГУБОВ**	Диагностика развития дидактической культуры будущих педагогов в условиях инновационного образования
42-46	**АФСАНА АЛИЗАДЕ**	Воспитание гуманизма в произведении «Сокровищница тайн» Низами Гянджеви
47-52	**САЙЯД ВЕЛИЕВ**	Значимость самостоятельной работы в формировании активности у учащихся
53-56	**НИГЯР ИСМАИЛОВА**	Воспевание важных моральных ценностей в творчестве Низами Гянджеви
57-60	**ГЮЛЬНАР АЛИЕВА**	О сущности физического воспитания младших школьников
61-66	**УЛЬВИЯ НАГИЕВА**	Стандартизация организации профессиональной подготовки и педагогической практики учителей начальных классов в европейских странах
67-70	**КЮБРА ГУЛИЕВА**	Роль видного просветителя О.Ф.Неманзаде в развитии идеи национального пробуждения народа
71-73	**ТУНЗАЛА АЛИЕВА**	Об особенностях творческих способностей младших школьников
74-77	**ХАГАНИ ИСМАИЛОВ**	Реализация здоровьесберегающих технологий в системе личностно-ориентированного обучения

ПЕДАГОГИКА: МЕТОДИКА ПРЕПОДАВАНИЯ ДИСЦИПЛИН

78-83	**ЯГУБ МАМЕДОВ АЙТЕКИН ШАХГЕЛЬДИЕВА**	О методике использования программы Excel для построения графиков на уроках математики
84-89	**АКИФ АЛИЕВ МИРНАЗИМ СЕИДОВ СЕВИНДЖ КЕРИМОВА**	К обучению сложным реакциям
90-94	**СУДАБА МАМЕДОВА**	К организации уроков математики во II-III классах
95-98	**ФАТМА ГАДЖИЕВА**	Некоторые вопросы методики преподавания элементов геометрии в I-IV классах
99-105	**АРЗУ САФАРОВА**	Особенности постановки и преподавания элементов теории чисел в V-VI классах
106-111	**СЕЙФАДДИН ДЖАФАРОВ**	К преподаванию адиобатического процесса с помощью новых информационных технологий
112-115	**ТОФИГ МАМЕДОВ**	Моделирование решения математических задач и ИКТ

116-120	**НУРАЙ САФАРОВА**	О дидактических принципах обучения алгебре многочленов
121-124	**АЙГЮН СУЛТАНОВА НАИЛЯ ГАРДАШБЕКОВА**	Из опыта использования информационно-коммуникационных технологий в обучении физике
125-128	**АЙГЮН АСКЕРОВА**	К вопросам о разновидностях письма и способах привития навыков письма на иностранном языке
129-132	**ДЖОШГУН ГУРБАНОВ РОВШАН БАГИРОВ НИЗАМИ ГУЛИЕВ**	Некоторые соображения относительно текущего состояния преподавания технологии в средних общеобразовательных школах
133-136	**АННАГИ АСКЕРОВ АЛИ САБЗАЛИЕВ**	Применение технологий дополненной реальности в курсе информатики в средней школе

ПСИХОЛОГИЯ

137-144	**ЭЛЬНАРА ШАФИЕВА СЕВИНДЖ АЛЛАХБЯРОВА АЙДАН САМАНДАРОВА**	Психологические особенности участников школьного буллинга

ИСТОРИЯ

145-150	**ИСМАИЛ ГАДЖИЕВ**	Потеря Зангезура и необходимость статуса автономии
151-160	**АСЛАН ИБРАГИМОВ**	О борьбе с дашнаками в 1920-1921 годах в западном Азербайджане под руководством Аббасгулу бека Шадлинского
161-169	**АЛЕКБЕР ДЖАББАРЛЫ**	Место Нахчывана в истории парламентаризма Азербайджана (1991-1993 годы)
170-176	**АЙТЕКИН ГАХРАМАНОВА**	Влияние общественной активности сельского населения Нахчыванской Автономной Республики на семью и семейный быт в годы независимости

ФИЛОЛОГИЯ

177-181	**САДАГАТ ГАСАНОВА**	Заур Ведили и наш литературный язык
182-186	**ГЮНАЙ ШИРАЛИЕВА**	Лирические стихи Асима Ядигара
187-194	**АРИФ ЗЕЙНАЛОВ**	Крылатые строки русской поэзии Пушкинской поры
195-199	**ШАХЛА ФАТАЛИЕВА**	К исследованию категории переходности/непереходности сложных глаголов

МАТЕМАТИКА И ИНФОРМАТИКА

200-208	**АБДУЛЛА ГАСАНОВ ГЮЛЕР АСАДОВА**	Применение производной при решении задач на экстремумы в элементарной геометрии
209-212	**АЗАД МАМЕДЛИ**	Об одной задаче прикладной математики
213-216	**ЭЛЬМАН МАХМУДОВ**	Взаимодействие между точками единичной окружности и единичной гиперболы

БИОЛОГИЯ

217-220	**ИСМАИЛ МАМЕДОВ СЕВИЛА РУСТАМОВА**	Профилактика асспергиллеза пчёл
221-225	**ДЖАББАР НАДЖАФОВ**	Основные факторы, влияющие на выбор участка для виноградников
226-228	**ТЕЙЮБ ПАШАЕВ**	Изучение интродукции и биоэкологических особенностей вида Phytolacca americana l. в ботаническом саду
229-234	**МАХИР МАГЕРРАМОВ АКИФ БАЙРАМОВ**	Макрозообентос малых горных рек
235-240	**АЛОВСАТ ИБРАГИМОВ**	Молочная продуктивность мясо-шерстных овцематок с разной живой массой и ее влияние на интенсивность роста потомства
241-245	**ХАТЫН АГАЕВА**	Влияние температуры и влажности воздуха на физическую работоспособность спортсмена

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 9-14
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 9-14
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с. 9-14

UOT 378.12

Tərbiyəçi kimi ali məktəb müəlliminin rolu

Müəlliflər:

Abdulla Mustafayev
Naxçıvan Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru, dosent
E-mail: abdulla.mustafayev.1965@mail.com

İlqar Kəngərli
Naxçıvan Dövlət Universiteti
E-mail: ilqarkengerli@mail.com

Açar sözlər:
ali məktəb, təlim-tərbiyə işi, elmi-tədqiqat işləri, əmək tərbiyəsi, peşə mədəniyyəti, özünü təhsil prosesi

Annotasiya. Məqalədə ali məktəb müəllimlərinin tərbiyəçi kimi fəaliyyətinin əsas istiqamətləri araşdırılmışdır. Qeyd olunmuşdur ki, hər bir elmin özünəməxsus anlayışları olduğu kimi, pedaqogika elminin də özünə xas olan anlayışları vardır ki, bunlardan da ən əsasları təlim və tərbiyə anlayışlarıdır. Ali məktəb müəlliminin qarşısında duran ən mühüm məsələ tələbələri layiqli şəxsiyyət kimi yetişdirməkdən, formalaşdırmaqdan ibarətdir. Bu prosesdə isə təlim-tərbiyənin böyük əhəmiyyətə malik olduğu göstərilmişdir. Qeyd olunur ki, tərbiyə prosesində iki tərəf – öyrədən (müəllim) və öyrənən (tələbə) iştirak edir. Ali məktəblərdə təhsilin həyata keçirilməsində təlim prosesi ilə yanaşı, tərbiyə prosesinin də rolu təhlil edilmiş və göstərilmişdir ki, təlim-tərbiyə prosesi vəhdət təşkil edir, bir-birləri ilə sıx bağlıdırlar. Məqalədə qeyd olunur ki, ali təhsi müəssisələrində müəllimlərin tərbiyə prosesində iştirak etmələrinin əsas forması hamilik-kuratorluqdur. Həmçinin, təlim-tərbiyə prosesində tələbə elmi-tədqiqat işlərinin, fiziki və əmək tərbiyəsinin, vətənpərvərlik tərbiyəsinin və s. əhəmiyyətindən bəhs edilmişdir.

Authors:

Abdulla Mustafayev
Nakhchivan State University
Doctor of philosophy in history,associate professor
E-mail: abdulla.mustafayev.1965@mail.com

İlgar Kangarli
Nakhchivan State University
E-mail: ilqarkengerli@mail.com

Key word:
higher school, educational work, scientific-research work, labor education, professional culture, self-education process

The role of the higher school teacher as an educator

Abstract. The article examines the main directions of higher school teachers' activities as educators. It was noted that just as every science has its own concepts, the science of pedagogy also has its own concepts, the most basic of which are the concepts of training and education. The most important issue of a higher school teacher is to educate and shape students as worthy personalities. It has been shown that training is of great importance in this process. It is noted that two parties participate in the educational process – the teacher (teacher) and the learner (student). In addition to the training process in the implementation of education in higher schools, the role of the upbringing process has been analyzed and it has been shown that the training and educational process is a unity and closely related to each other. It is mentioned in the article that the main form of participation of teachers in the educational process in higher education institutions is guardianship. Also, in the process of training and education, the importance of student scientific-research works, physical and labor education, patriotic education, etc. has been mentioned.

Авторы:

Абдулла Мустафаев
Нахчыванский государственный университет
Доктор философии по истории, доцент
E-mail: abdulla.mustafayev.1965@mail.com

Ильгар Кенгерли
Нахчыванский государственный университет
E-mail: ilqarkengerli@mail.com

Ключевые слова:
высшее учебное заведение, учебно-воспитательная работа, научно-исследовательская работа, трудовое воспитание, профессиональная культура, процесс самообразования

Роль преподавателя высшей школы как воспитателя

Аннотация. В статье рассмотрены основные направления деятельности преподавателей вузов как воспитателя. Было отмечено, что как каждая наука имеет свои специфические понятия, так и педагогическая наука имеет свои специфические понятия, из которых самыми основными являются понятия обучения и воспитания. Самый важный вопрос, стоящий перед преподавателем высшей школы, заключается в воспитании, формировании студентов как достойных личностей. Было показано, что обучение и воспитание имеют большое значение в этом процессе. Отмечается, что в воспитательном процессе участвуют две стороны - обучающий (преподаватель) и обучающийся (студент). Проанализирована и показана роль учебно-воспитательного процесса в осуществлении образования в высших учебных заведениях. В статье отмечается, что основной формой участия педагогов в процессе образования в высших учебных заведениях является попечительство-кураторство. Также была подчеркнута важность научно-исследовательской работы студентов, их физического, трудового, патриотического воспитания и др. в учебно-воспитательном процессе.

Hər bir elmin anlayışları olduğu kimi, pedaqogika elminin də anlayışları vardır ki. Bunlardan da ən əsası təlim və tərbiyədir. Təlim müəllimlərlə şagirdlərin qarşılıqlı fəaliyyəti, tərbiyə isə şəxsiyyətin məqsədyönlü və mütəşəkkil formalaşması prosesidir [3, s.7].

Müasir dövrdə ali məktəb müəlliminin qarşısında duran ən mühüm məsələlərdən biri tələbələrin milli mənlik ruhunda ləyaqətli bir şəxsiyyət kimi formalaşdırmaqdır. Tələbələrin şəxsiyyət kimi formalaşmasında ali məktəb müəlliminin çox böyük rolunun olması danılmazdır. Tərbiyə prosesində iki tərəf iştirak edir. Bir tərəfdən pedaqoji vəzifələri müəyyənləşdirərək uyğun vasitə və metodlar seçən və nəticələri yoxlayan, düzəlişlər edən, öz savadı, hərəkətləri, davranışı ilə tələbələrə təsir göstərmək gücünə malik olan müəllim və digər tərəfdən, tərbiyəvi təsirlərə məruz qalan tələbə [6].

Ali məktəb müəlliminin tərbiyəçi kimi rolu yalnız təlim prosesi ilə deyil, eyni zamanda tələbə kollektivinin təşkil edilməsi və onların tənzimlənməsi, nizama salınması funksiyaları ilə də şərtlənir. Tərbiyə üçün əlverişli mühitin yaranmasına şərait yaradan amillərin başında ali məktəb müəlliminin elmi və nəzəri, peşəkar hazırlığı, əqli inkişafı, onun həyat təcrübəsi, pedaqoji etikası və biliyi dayanır.

Ali təhsil ocaqlarında təhsil həm təlim prosesi yolu ilə, həm də geniş şəkildə həyata keçirilən xüsusi dərsdənkənar, təlimdənkənar tərbiyə prosesi yolu ilə reallaşdırılır. Bu baxımdan ali məktəb müəlliminin fəaliyyətinin bu istiqamətləri vəhdət təşkil edir. Dərsdənkənar keçirilən tərbiyəvi tədbirlər təlim prosesinin gedişində həyata keçirilən tərbiyə işinin davamı hesab olunur və onlar bir-birlərini tamamlayırlar. Bu iki proses arasında olan fərq onların tətbiq edilmə metodlarındadır.

Təlim və tərbiyəni ayrılıqda təsəvvür etmək olmaz. Onlar bir-birləri ilə üzvi surətdə bağlıdırlar, və ali məktəb müəlliminin uğurları bu iki prosesi birlikdə həyata keçirə bilməsinndən asılıdır. Müəllim tərbiyə məsələlərini müntəzəm, məqsədyönlü şəkildə. Eyni zamanda, təlim prosesində həll edir [7, s.21]. Tərbiyəçi müəllim tələbənin ən yaxın məsləhətçisi kimi ona yol göstərməli, düzgün istiqamət verməyi bacarmalıdır. Tələbə-müəllim münasibəti o zaman yüksək nəticələrə səbəb olur ki, onun əsasında qarşılıqlı hörmət və humanist münasibət dayanır [5].

Tərbiyə işi çox mürəkkəb bir proses olmaqla ali məktəb müəllimi qarşısında ciddi vəzifələr, tələblər qoyur. Ona görə də tərbiyəçi müəllim nəzarətçi rolunda deyil, nüfuzlu həyat tədqiqatçısı (avtoritet) rolunda iştirak etməlidir.

Ali təhsil müəssisəsində təlimin tələbə şəxsiyyətinin inkişafında çox önəmli rolu vardır. Bu ali təhsil müəssisəsində həyata keçirilən pedaqoji işin xüsusiyyətindən doğur. Əgər ümumtəhsil məktəblərində tərbiyə prosesinə geniş yer verilirsə, ali təhsil müəssisələrində bu iş məhdudlaşdırılır. Ona görə ki, ali təhsil müəssisələrində müəllim-tələbə əlaqələri fərqli, epizodik xarakter daşıyır. Bu, eyni zamanda, onunla bağlıdır ki, təlim və tərbiyə işlərini bilavasitə həyata keçirən orta məktəblərdən fərqli olaraq, ali təhsil müəssisələrində müəllim tərcüməçi (interpretator) deyil, elmin müxtəlif sahələrində bilavasitə tədqiqatlar aparan şəxsdir.

Ali təhsil müəssisələrində professor-müəllim heyətinin tərbiyə işində iştirak etmələrinin əsas forması hamilik, qəyyumluqdur (kuratorluq-A.M.). Onun əsas vəzifəsi müəyyən işlərin yerinə yetirilməsinə nəzarət etməkdir. Aparılan araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, əgər qəyyum yüksək imtellektual biliyə malik olan professor-müəllim heyətindən təyin olunursa, o zaman tələbələr arasında aparılan tərbiyə işlərinin keyfiyyəti daha yüksək olur. Ona görə ki, ali məktəb müəllimi tələbələrin nə ilə maraqlandıqlarını daha yaxşı bilir, onları daha yaxından tanıyır, tələbələrin bir-birlərinə olan münasibətlərinə bələddir. Əgər tərbiyəçi müəllim tələbələri nə qədər yaxşı tanıyırsa, onlara nə qədər yaxından bələddirsə, o zaman o, tələbələrdə bir o qədər elmə, təhsilə yaxşı maraq oyada bilir, onlarda bir o qədər yüksək səviyyədə dünyagörüşü formalaşdıra bilir. Bu baxımdan qəyyumlar təyin olunarkən, bütün bu keyfiyyətlərin nəzərə alınması vacib şərtlərdəndir.

Bəzi ali təhsil müəssisələrində qrupların qəyyumları tələbələrdən olan pedaqoji şuralar təşkil edirlər ki, bu pedaqoji şuralar tələbələrin təlim və tərbiyələri ilə, onların asudə vaxtlarını

səmərəli şəkildə keçirtmələri ilə, onların məişəti və s. ilə bağlı məsələlərin həllində yaxından iştirak və köməklik göstərirlər. Odur ki, tələbə tərbiyə prosesində çox fəal iştirakçı olmaqla bərabər, həm də tərəf müqabilidir.

Ali məktəb müəllimi tərbiyə işində nə qədər rəhbər və idarəedici rolunda çıxış edirsə etsin, o tələbələrə müstəqillik verməli, onların təşəbbüskarlıq göstərmələrinə şərait yaratmalı, keçirmək istədikləri tərbiyəvi tədbirlərdə onlara köməklik göstərməlidirlər. Əgər bütün bu qeyd olunanlar ali məktəb müəllimi tərəfindən nəzərə alınarsa, tələbələrdə bir o qədər təşəbbüskarlıq, təşkilatşılıq bacarıqları yaranar və formalaşar. Görkəmli pedaqoq və metodist A. Danilov göstərir ki, əsl tərbiyə odur ki, uşağın öz qüvələrini, istedadını, qabiliyyətini fəaliyyətdə ardıcıl surətdə üzə çıxarır, onu hərtərəfli inkişafın elə bir mərhələsinə hazırlayır ki, orada tərbiyə özünütərbiyəyə çevrilir [7, s.22].

Məlumdur ki, keçid dövründə bir sıra sahələrdə olduğu kimi, tərbiyə işində də həlli çətin olan məsələlər yaranmışdır. Ona görə də müasir tələbələr XX əsrin sonlarından başlayaraq mənfur qonşularımız olan erməni faşistlərinin xalqımızın başına gətirdikləri faciələrdən hərtərəfli məlumatları olmalı, xalqımıza qarşı ermənilərin həyata keçirdikləri soyqırımların tarixi kökləri, səbəbləri və nəticələri hərtərəfli onlara öyrədilməlidir. Bu gələcəkdə həmin tələbələrin bu hadisələri gənc nəslə çatdırmalarında, öyrətmələrində mühüm amil olacaqdır.

Ali təhsil müəssisələrində tərbiyə işi də unudulmamalı, bu iş elə təşkil edilməlidir ki, burada ölkəmizin ictimai, siyasi, mədəni həyatının bütün məsələləri öz əksini tapmış olsun. Bunun üçün isə mədəni mühit yaradılmalıdır. Bəllidir ki, mədəni mühit yaradılmadan təhsilin tərəqqisindən, inkişafından danışmaq mümkün deyil. Ali təhsil müəssisələrində professor-müəllim heyətinin qarşısında duran ən mühüm vəzifələrdən biri bu mühitin yaradılmasıdır. Təlim və tərbiyə insan psixologiyasını formalaşdıran ən mühüm amillərdən biri olduğundan onu düzgün yönəltmək lazımdır. Çünki uşaqların baxışları, qavrayışları, ailə tərbiyələri və s. eyni deyildir. Ümumiyyətlə, gənc nəsil ailə və məktəbdə formalaşır, mühitdə inkişaf edir. Bu baxımdan tərbiyə işi hər bir ali məktəb müəllimindən pedaqoji ustalıq tələb edir [1].

Bütün bunlarla yanaşı, ali təhsil müəssisələrində tərbiyəvi iş təşkil edərkən, bu müəssisələrə xas olan xüsusiyyətlər nəzərə alınmalıdır. Belə ki, ali təhsil müəssisələrində ixtisasların çox və müxtəlif olması tərbiyə işinin təşkilində tələbələrin maraqlarının nəzərə alınmasında çətinliklər törədir. Tərbiyə işinin təşkili üçün ali məktəb müəllimlərindən dərin nəzəri bilik tələb olunur. Ali məktəb müəllimləri çalışdıqları insanların (tələbələrin-A.M.) artıq müəyyən həyat təcrübəsinə malik olduqlarını, baş verən ictimai-siyasi hadisələri təhlil etməyi bacarqırlarını, özlərinə məxsus şəxsi mülahizə yürüdə bildiklərini bilməli, bu cəhətləri unutmamalı və təhsil prosesində bunları nəzərə almalıdırlar. Ona görə də, hər bir qrupun özünə xas olan xüsusiyyətləri əvvəlcədən müəyyənləşməli, yaş xüsusiyyətlərə nəzərə alınmalı, yeni təhsil prosesinə başlayan ilk kursların tələbələri ilə aparılan tərbiyə işlərinə xüsusi diqqət göstərməlidirlər. Aşağı kurs tələbələrinə ali təhsil müəssisəsində keçirilən təhsil, tərbiyə, təlim prosesi barədə geniş, hərtərəfli məlumatlar çatdırılmalıdır. Artıq tələbələr kursdan-kursa keçdikcə, onlar arasında aparılan tərbiyə işinin də istiqaməti fərqli xarakter alır.

Ali təhsil müəssisələrində mövcud olan vahid təlim və tərbiyə işinin quruluş elementləri sayılan təlim, elmi tədqiqat işləri, fiziki tərbiyə, əmək tərbiyəsi, ideya-siyasi tərbiyə və s. eyni bir məqsədə, yəni mənəviyyatca zəngin olan, yüksək mədəni davranışa, möhkəm iradəyə, vətənpərvərlik hisslərinə, elmi dünyagörüşə malik olan ixtisaslı kadrların yetişdirilməsinə xidmət edir. Bütün bu proseslərin həyata keçirilməsi zamanı mütləq tələbələrin yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Ali məktəb müəlliminin apardığı tərbiyə prosesinin əsasını hər bir tələbə ilə fərdi iş təşkil etməlidir.

Tələbələrlə aparılan tərbiyə prosesində əməksevərlik tərbiyəsinin aparılması nəzərə alınmalıdır. Çünki bu tərbiyənin rolu çox əhəmiyyətli və böyükdür. Əmək tərbiyəsi əməyin elmi əsasları, onun elmi təşkili haqqında sistemli məlumatlar verir, zəruri əmək bacarıq və vərdişləri, əməyə, əmək adamlarına, öz

əmək fəaliyyətinə münasibət formalaşdırır. Bu proses isə həm xüsusi dərslər, müxtəlif növ məşğələlər, həm də ayrı-ayrı fənlərin tədrisi prosesində həyata keçirilir [4, s.29]. Əmək tərbiyəsi tələbənin təhsilinin səmərəliliyini təmin edir, onlarda zəruri olan bacarıqların, vərdişlərin aşılanmasında, ali təhsil müəssisəsinin ictimai işlərinə fəal qoşulmalarında mühüm rol oynayır. Bu isə, gələcəkdə onların peşə fəaliyyətlərində uğur qazanmalarına şərait yaradan mühüm amillərdən biridir. Ona görə də, ali məktəbdə çalışan tərbiyəçi müəllim tələbələrdə əmək tərbiyəsinin inkişafına xüsusi diqqət yetirməli, xüsusilə də birinci kurs tələbələrinə əməklə bağlı bacarıq və vərdişlərin aşılanmasına çalışmalıdırlar.

Məhz tələbələrə əmək tərbiyəsinin aşılanması yolu ilə onların gələcəkdə öz peşə və ixtisaslarının çətinliklərini aradan qaldıra bilmələrində köməklik göstərmək mümkündür. Aparılan tədqiqatlar və təhlillər zamanı müəyyən edilmişdir ki, ali təhsil müəssisələrini bitirərək yeni peşə fəaliyyətinə başlayan məzunların böyük əksəriyyəti seçdikləri peşədən peşiman olublar. Sorğu nəticəsində onlarda peşə qabiliyyətlərinin olmadığı, əməyin ağırlığına dözə bilmədikləri, iş rejiminə alışmadıqları, hətta peşə hazırlıqlarının kifayət qədər olmadıqları aşkarlanmışdır. Təbii ki, qeyd edilən bu çatışmazlıqlar onu göstərir ki, ali təhsil müəssisələrində oxuyan tələbələrdə əmək tərbiyəsi düzgün qurulmamışdır.

Ali təhsil müəssisələrində çalışan tərbiyəçi müəllimlərin peşə fəaliyyətlərinin bir istiqamətini də tələbələrdə peşə mədəniyyətinin, peşə etikasının formalaşdırılması məsələsi təşkil edir. Əxlaqi və mənəvi dəyərləri heç zaman elm və texnikanın yüksək inkişafı kölgəsində saxlamaq olmaz, bu yolverilməzdir. Yəni, elmi-texniki tərəqqi nə qədər inkişaf edirsə etsin, mənəvi və əxlaqi dəyərlər ondan üstün olmalıdır. Ali məktəb müəllimi bütün vasitələrlə tələbələrdə peşə etikasının formalaşmasına çalışmalıdır. Peşə etikası odur ki, artıq təhsil müəssisəsini bitirən tələbə mütəxəssis kimi öz peşə fəaliyyətini yüksək səviyyədə icra edə bilir. Tələbələrə aşılamaq lazımdır ki, hər bir peşənin özünəməxsus xüsusiyyətlərinin olması ilə yanaşı, peşə etikası, peşə mədəniyyəti var və bütün bunlara riayət etmək vacibdir, əks təqdirdə bunlara əməl etmədən peşəkar mütəxəssis kimi yetişmək qeyri-mümkündür. Bu baxımdan, tələbələrə peşə etikasının aşılanması ali məktəb müəlliminin fəaliyyətin ən çətin sahələrindən birini təşkil edir.

Ali təhsil müəssisəsində müxtəlif adət-ənənələrin, tədbirlərin, məsələn, poeziya günlərinin, yubileylərin (görkəmli şəxsiyyətlərin, dastanların, ali məktəbin və s.) keçirilməsi, diplomların təqdim edilməsi, xalq bayramlarının (novruz bayramının, qurban bayramının, xıdır-nəbi bayramının və s.) qeyd olunması, viktorinaların, olimpiadaların keçirilməsi və s. tələbələrin gələcəkdə yüksək ixtisaslı kadrlar kimi yetişmələrinə çox böyük təsir göstərir. Qeyd olunan bu tədbirlərin həyata keçirilməsində tərbiyəçi kimi ali məktəb müəlliminin çox böyük rolu və əməyi vardır.

Tələbələrin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsi məsələsi də ali məktəblərin qarşısında duran ən mühüm məsələlərdən biridir. İnsan hissləri içərisində ən müqəddəsi, bəlkə də irsi, fitri mahiyyət daşıyanı, insanı tərəqqiyə, inkişafa, yaradıcılığa təhrik edəni Vətən sevgisidir, vətənpərvərlikdir [8, s.13.Tələbələr doğma vətənin keçikçisi kimi yetişdirilməlidirlər. Bu vəzifənin yerinə yetirilməsi isə tərbiyəçi müəllimin əsas vəzifəsidir. 2020-ci il sentyabr ayının 27-dən başlayaraq Ali Baş komandan, cənab prezident İlham Əliyevin komandanlığı altında mənfur düşmənlərə qarşı həyata keçirilən və torpaqlarımızın böyük bir hissəsinin işğaldan azad edilməsi ilə nəticələnən 44 günlük müharibə xalqımızda vətənpərvərlik hissinin nə qədər yüksək səviyyədə olduğunu əyani şəkildə göstərdi. Bu sahədə ali məktəb müəllimlərinin xüsusi əməyini qeyd etmək lazımdır. Bu sahədə tərbiyəvi işlər mütəmadi olaraq aparılmalıdır. Unutmaq lazım deyil ki, düşmən məğlub olsa da, düşmən olaraq qalır və hər fürsətdən istifadə etməyə hazırdır.

Sosial yönümlü işlər də ali təhsil müəssisələrində tələbələrlə aparılan işin əsas istiqamətlərindən birini təşkil edir. Tələbələrdə ictimai əhəmiyyətli keyfiyyətlərin aşılanması, cəmiyyətə, dövlət və hakimiyyət orqanlarına qarşı münasibətlər sisteminin formalaşdırılması sosial yönümlü işlərin əsasını təşkil edir. Sosial

yönümlü işlərin təsiri altında tələbələrdə intizam, mütəşəkkillilik, qətiyyətlilik, nəzakətli olmaq, həssaslıq və s. kimi mənəvi keyfiyyətlər formalaşır. Bu kimi yüksək əxlaqi keyfiyyətlərə malik gənclərin yetişdirilməsi dövrümüzün tələbidir.

Ali təhsil müəssisələrindən tələbələrin elmitədqiqat işlərinə cəlb edilməsi tərbiyə prosesinin ən mühüm istiqamətlərindən birini təşkil edir. O. Əfəndi yazır ki, "Tədqiqatçılıq fəaliyyəti tələbədə təşəbbüskarlıq, müstəqillikvə yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün daha əlverişli şərait yaradır" [2, s.37-40]. Ali məktəb müəllimi tələbələrdə TEC xətti ilə müstəqil tədqiqat işləri yerinə yetirməyə həvəs oyatmalı, onlara bu istiqamətdə lazımi məsləhətlər verməli, köməklik göstərməlidir. Tələbələrin kafedra elmi-nəzəri seminarlarında iştiraka cəlb etmək, onarla müxtəlif mövzularda diskusiyalar aparmaq, tələbələrin mühazirələrdə, seminarlada, müsabiqələrdə, konfranslarda fəal iştirakını təmin etmək tərbiyə işinin çox qüvvətli amilləridir, bu proses zamanı onlarda mənəviyyat zənginləşir, ağıllı, kamil mütəxəssislər kimi yetişirlər. Ali məktəb müəlliminin tədris etdiyi fənlər, oxuduğu mühazirələr tələbələrdə elmə münasibətin tərbiyə edilməsinin ən effektli metodlarından biridir. Mühazirənin tərtib edilməsinin formasından asılı olmayaraq, onlar tələbələrin qavramalarını təmin edir, onları yeni tədqiqatlara yönəldir. Ali məktəb müəllimləri mühazirələr oxuyarkən köhnə, saralmış vərəqələrdən istifadədən imtina etməlidirlər. Müasir dövrdə dünyada, o cümlədən respublikamızda tətbiq edilən Baloniya sisteminə uyğun olaraq tələbələrin mühazirələri yazmaları məqsədəuyğun hesab edilmir. Ona görə də ali məktəb müəllimləri bunları nəzərə almalı, tələbələri mühazirələri yazmağa məcbur etməməlidirlər. Bu sistemdə əsas şərt odur ki, tələbələr verilən tapşırıqları yerinə yetirsinlər, seminarlarda və imtahanlarda cavab verə bilsinlər. Nəzərə almaq lazımdır ki, müasir dövrümüzdə mühazirələr İKT vasitəsilə tədris olunur. Onu da qeyd etmək lazımdır ki, artıq Naxçıvan Dövlət Universitetində bir neçə ildir ki, LMS sisteminin yaradılması, mühazirələrin, sərbəst iş mövzularının, imtahan suallarının bu sistemə yerləşdirilməsi və tələbələrin bu sistem vasitəsilə mühazirələri oxumaq, öyrənmək imkanları irəliyə doğru atılmış bir addım olmaqla, elm və texnikanın yüksək inkişafının göstəricisidir. Artıq mühazirələr tələbələrə texniki vasitələrlə ötürülür. Burada əsas məsələ tələbələrin mühazirələri hansı səviyyədə mənimsəyə, qavraya bilməsi məsələsidir. Ona görə də, artıq bu sistemdə müəllim mühazirə mövzularını izah etməklə yanaşı, tələbələrin də müzakirələrdə iştirakını təmin etməlidir.

Tələbəni özünütəhsil prosesinə hazırlamaq ali məktəb müəlliminin tərbiyəvi fəaliyyətinin istiqamətlərindən birini təşkil edir. Ali məktəb müəllimi öz tələbələrinin fərdi xüsusiyyətlərinə, onların malik olduqları qabiliyyət və imkanlara, nə istədiklərinə, maraqlarına yaxşı bələd olduğundan tələbələrinə özünütəhsil sistemini, onun texnikasını öyrətməlidir. Ona görə də ali məktəblərdə tətbiq edilən məsləhətlər, kollekviumlar çox ciddi şəkildə təşkil olunaraq keçirilməlidir. Bunun üçün isə kollekvium sualları əvvəlcədən müəyyənləşərək tələbələrə çatdırılmalıdır. Mövzular seçilərkən tələbələrin zəif bildikləri mətnlərə geniş yer verilməlidir.

Ali məktəb müəllimi həmçinin tələbələrin təşkil etdikləri özfəaliyyət dərnəklərinə, tələbə gənclər təşkilatının fəaliyyətinə və s. fəal surətdə qoşulmalıdır. Çünki bütün bunlar tələbələrin bir şəxsiyyət kimi, bir mütəxəssis kimi yetişmələrində mühüm rol oynayır.

Beləliklə, ali məktəb müəllimlərinin tərbiyəçi kimi fəaliyyətləri çoxşaxəlidir və onların hamısını əhatə etmək, hamısından bəhs etmək qeyri-mümkündür. Zamanla yeni-yeni texnologiyalar həyatımıza, məişətimizə, elmimizə daxil olur. Ona görə də ali məktəb müəlliminin başlıca vəzifəsi həyatımıza daxil olan yeni-yeni texnologiyalardan istifadə etməyi, onu təhsilə tətbiq etməyi bacarmaq və tələbələri öyrətməkdən ibarətdir.

Ədəbiyyat

1. Azadlı Lamiyə. Gənclərin tərbiyəsində ailə, məktəb və ictimaiyyətin rolu//Azərbaycan müəllimi. – 2021, 8 noyabr.
2. Balayeva Püstəxanım. Ali məktəbdə təlim-tərbiyə işinin təşkili istiqamətləri. // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər, – 2018, cild 85, №7, – 265 s.

3. Bədəlova Əsmər. Təlim-tərbiyə (Mühazirə mətnləri), – Bakı, – 2015. – 294 s.
4. Əliyeva Zərifə. Pedaqogika (Mədəniyyət və incəsənət təmayüllü ali məktəblərin bakalavr pilləsində təhsil alan tələbələr üçün dərslik), – Bakı,– 2004. – 92 s.
5. Xəlilov Taleh. Ali məktəbdə pedaqoji ustalığın müəllim-tələbə münasibətlərinə təsiri // Şərq qapısı. – 2021, 08 noyabr.
6. İsmayılzadə O. Ali məktəbdə tərbiyə işinin təşkili. Oqtayismayıl.wordpres.com2016
7. Məmmədova Mətanət. Tarixin tədrisinin aktual problemləri (Bakalavr hazırlığı üçün dərs vəsaiti), – Bakı, – 2015, – 112 s.
8. Ağayev Məmmədəli Hənnan oğlu. Pedaqoji fikir tarixində tərbiyə və təhsil (dərs vəsaiti), – Bakı, – 2011, – 178 s.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 21.01.22, son daxilolma – 16.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 15-19
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 15-19
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.15-19

UOT 373.24

Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində ailənin bağça ilə birgə işi

Müəllif:

Günel Səmədzadə
Bakı Slavyan Universiteti
E-mail: semedzade.g@mail.ru

Açar sözlər:
məktəbəqədər təhsil müəssisələri, bağça, uşaq, valideyn, tərbiyəçi, ailə-ictimai mühit

Annotasiya. Məqalədə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində ailənin bağça ilə birgə işindən, valideyn-tərbiyəçi əməkdaşlığından, uşaqlarda tərbiyəçi nifuzunun ailədə möhkəmləndirilməsindən, uşaqların əxlaq tərbiyəsində valideynlərin tez-tez etdiyi səhvlərdən bəhs olunur. Qeyd olunur ki, ailədə qarşılıqlı, səmimi və mehriban münasibət, hörmət və tələbkarlıq olduqda uşaq da düzgün tərbiyə olunur. Bağça ilə ailə Vətənin şərəfini qoruyan, onun tərəqqisini düşünən və hərəkət edən insanlar tərbiyə etməli, tərbiyə olunan uşaqların intizamsızlığının özünəməxsus əlamətlərini və xüsusiyyətlərini aşkara çıxartmalı, onların intizamının yaş və fərdi xüsusiyyətlər nəzərə alınmaqla təlim, oyun və əmək prosesi ilə əlaqələndirilməsini təmin etməlidir. Tərbiyəçilərin valideyn nüfuzunu uşağın nəzərində yüksəltmək üçün səy göstərdikləri kimi, valideynlərin də tərbiyəçi əməyini düzgün qiymətləndirməli və onun nüfuzunu uşağın nəzərində yüksəltməli olduğu, valideynin tərbiyəçinin köməkliyi ilə uşağın fərdi xüsusiyyətlərini öyrənmə yolları qeyd edilir.

Joint work of the family and kindergarten in the moral education of preschoolers

Author:

Gunel Samedzade
Baku Slavic University
E-mail: semedzade.g@mail.ru

Key word:
preschool educational institutions, kindergarten, child, parent, educator, family-social environment

Abstract. The article discusses the joint work of the family with the kindergarten in the moral education of preschool children, the parent-educator cooperation, the strengthening of the influence of educators in the family, and the mistakes parents often make in the moral education of children. It is noted that if there is a mutual, sincere and kind relationship, respect and demand in the family, the child is brought up properly. The kindergarten and the family should educate people who protect the honor of the Motherland, think and act about its progress, reveal the unique signs and characteristics of the indiscipline of the children being brought up, and ensure that their discipline is connected with the process of training, play and work, taking into account age and individual characteristics. Just as educators strive to enhance the parent's image in the eyes of the child, so parents need to properly value the educator's work and raise his or her image in the child's eyes.

Совместная работа семьи и детского сада по нравственному воспитанию детей дошкольного возраста

Автор:

Гюнель Самедзаде
Бакинский Славянский Университет
E-mail: semedzade.g@mail.ru

Ключевые слова:
дошкольные учреждения, детский сад, нравственные качества, родитель, воспитатель, ребенок, семейно-социальная среда

Аннотация. В статье рассказывается о совместной работе семьи с детским садом по нравственному воспитанию детей дошкольного возраста, о сотрудничестве родителей и воспитателей, об укреплении в семье авторитета воспитателя у детей, о частых ошибках родителей в нравственном воспитании детей. Отмечается, что ребенок тогда правильно воспитывается, когда в семье есть взаимное, искреннее и доброжелательное отношение, уважение и требовательность. С детским садом семья должна воспитывать людей, защищающих честь Родины, думающих и поступающих на ее благо, выявлять присущие признаки и особенности недисциплинированности воспитываемых детей, обеспечивать связь их дисциплинированности с учебным, игровым и трудовым процессом с учетом возрастных и индивидуальных особенностей. Так же, как воспитатели прилагают усилия к повышению авторитета родителей в глазах ребенка, так и родители должны правильно оценивать труд воспитателя и повышать его авторитет в глазах ребенка. Также указываются пути, по которым родители с помощью воспитателя должны изучать индивидуальные особенности ребенка.

Böyük alim Nəsrəddin Tusinin insan orqanizminə bənzətdiyi ailənin uşaqların tərbiyəsində rolu müstəsna əhəmiyyətə malikdir. Ailədə qarşılıqlı, səmimi və mehriban münasibət, hörmət və tələbkarlıq olduqda uşaq da düzgün tərbiyə olunur. Ailə uşağın həm fiziki həm də psixi inkişafına müstəsna təsir göstərən ilk kollektivdir.

Gələcəyimiz olan uşaqları hərtərəfli inkişaf etdirib cəmiyyətə vermək ailənin vətən qarşısında, dövlət qarşısında ən ümdə vəzifəsidir. Bağça ilə ailə Vətənin şərəfini qoruyan, onun tərəqqisini düşünən və hərəkət edən insanlar tərbiyə etməlidir. İntizamlı nəsil tərbiyə etmək ailə ilə uşaq bağçasının müqəddəs borcudur.

Müşahidələr göstərir ki, möhkəm tələb və nəzarətin olmaması səbəbindən bəzi ailələrdə kobud, qoyulan qayda-qanunlara əməl etməyən, böyüklərlə qeyri-mədəni hərəkət edən, özünü hədsiz artıq dərəcədə sərbəst aparan uşaq və yeniyetmələrə az da olsa təsadüf edilməkdədir. Bəzən məktəbəqədər müəssisələrin pedaqoji zəifliyi ailə ilə əlbir işləməməsi üzündən məşğələlərdə, sözə qulaq asmayan, gəzinti və oyunlarda tez-tez intizamsızlıq edən, tərbiyəçi və yoldaşlarına qarşı kobud rəftar edən uşaqlara rast gəlmək olur. Əlbətdə, bu bağça ilə ailə - ictimai mühitdə aparılan tərbiyə işində buraxılmış nöqsanların nəticəsidir.

Məktəbəqədər müəssisələrdə tərbiyə olunan uşaqların intizamsızlığının özünə məxsus əlamətləri və xüsusiyyətləri olmaqdadır. Onların intizamı yaş və fərdi xüsusiyyətlər nəzərə alınmaqla təlim, oyun və əmək prosesi ilə əlaqələnir. Uşağın intizamlılığı üçün ailə və bağçada, küçədə, ictimai yerlərdə qoyulmuş qaydalara onun əməl etməsi ilə kifayətlənmək olmaz. Belə qeyri-fəal itizam bizi təmin edə bilməz. Qayda-qanunlara kor-koranə əməl edən uşaq söz və hərəkətlərində qəti olmaya bilər, o çətinliyi aradan qaldırmaqda tərəddüd göstərər və başqalarının təsiri altına tez düşər. Zahirən intizamlı görünən uşaq xudbin və fərdiyyətçi olmaqla öz mənafeyini kollektivin mənafeyindən üstün tuta bilər.

Həqiqi intizam kollektivin mənafeyindən irəli gələn intizamdı. Bu dərketmə üzərində qurulur və kifayyət etməyəcək qadər azdır. Uşaq dərk etməklə yanaşı, öz hərəkət və davranışında, əməllərində onu tədbiq etdikdə əsil mənada intizamlı sayıla bilər.

Əgər valideyn uşaqda intizamsızlıq hiss edərsə, o ilk növbədə uşaq davranışında nəzərə çarpan qüsurun səbəbini öyrənməli, tərbiyəçi ilə birlikdə düşünüb uşağın yaşına və fərdi xüsusiyyətlərinə müvafiq yollar tapıb birlikdə təsir göstərməli, onu aradan qaldırmalıdırlar.

Beləliklə, uşağın tərbiyəsində ailə ilə bağçanın əlaqəsinin böyük əhəmiyyəti vardır. Valideyn uşağın özünü necə aparmasını öyrənmək tərbiyəçi ilə mütəmadi əlaqədə olmalı və fikir mübadiləsi etməlidir. Uşağını hər kəsdən yaxşı tanıyan valideyin ələtdə onun fərdi xüsusiyyətləri, xarakteri, evdə özünü aparması ilə bağlı bütün lazimi məlumatları tərbiyəçiyə ötürməlidir.

Uşağa təsir etməkdə valideynlərlə tərbiyəçilər vahid mövqe tutmalıdırlar. Bəzi valideynlər müstəsna hallarda bağçaya gəlməklə işlərini bitmiş hesab edirlər. Bəzən də uşaq bağçası kollektivi valideynləri çox gec-gec görüşə dəvət edir. Bu, xüsusiylə uşaq intizamsızlıq edəndən sonra həyata keçirilir ki, gərgin əmək sərf edəndən sonra baş verir. Əksərən uşaq bağçalarına valideyinlərdən bəzən biri-ana gəlir ki, bu da uşaqların tərbiyəsində müəyyən boşluqlara gətirib çıxardır. Unutmaq olmaz ki, uşağın tərbiyəsində valideyinlərin hər ikisinin iştirakı və hər birinin eyni mövqeydə olması olduqca labüd şərtlərdən biridir. A.S.Makarenko ərlə arvadın bir-birinə qarşılıqlı münasibətini, qarşılıqlı hörmətlə yanaşmasını ailənin tərbiyəsində mühüm şərt adlandırmışdır [5, s.407].

Bağça uşağı təşəbbüskarlıq, səy göstərmək, dözümlülük, iradəlik, kollektivçilik və s. tərbiyəsi verir. Ailə isə uşağı nərmə-nazik və fərdiyyətçilik ruhunda tərbiyə edir. Halbuki, onlar bağçada tərbiyəçinin bir dəfə dediyi tapşırılmış işi icra edirlər. Bir çox valideynlər tərbiyə işində bunu yaxşı dərk etməyərək, uşağın bağçada intizamlı, tapşırıqlara əməl edən, ailədə isə özünü pis aparmasından, sözə baxmamasından şikayətlənirlər.

Kiçik Kərim üçün evdə fövqalədə şərait yaradılmışdır. O, tələb edir ki, heç kim onun oyuncaqlarına toxunmasın, hətta qonşuluqda xoruz banlamasın, evə uşaqlı qonaq gəlməsin

və s. Valideynləri bununla elə zənn edirlər ki, oğlanda dözümlülük, evdə sakit oturub oynamaq qabliyyəti tərbiyə edirlər. Guya bununla uşağın diqqəti gələcəkdə heç vaxt heç şeydən yayınmayacaqdır. Odur ki, onun üçün bütün şəraiti yaratmaq lazımdır. Günlər keçdikcə valideynlərin Kərim üçün gördükləri belə tədbirlər əks nəticə verir. Burada dözümlülük əvəzinə şıltaq tərbiyə olunur. Kərimin belə ailə tərbiyəsi ilə bağçanın tələbləri arasında ziddiyyət yaranır. Gələcəkdə bu məktəbdə, həyətdə yoldaşları ilə, hərbi xidmətdə və sonda isə cəmiyyətdə bir çox narazıçılığlara gətirib çıxardır. Əgər uşaqlar onun oyuncaqlarına və ya ona məxsus olan əşyaya toxunsalar, o, tez özündən çıxır, hətta kobud cavab verməkdən çəkınmır. O, ailədə olduğu kimi bağçada da fövqəladə şərait tələb edir. Nənəsi Kərimə deyir: "Başqaları ilə işin olmasın, özün haqqında fikirləş". Bağçada isə əksinə, bu oğlana başqa uşaqlar kimi kollektivilik, yoldaşlıq köməyi tərbiyəsi verilir. Kərim öz nənəsinin fikrini müdafiə edir. Axı o, ailədə şıltaq və fərdiyyətçi tərbiyə olunmuşdur. Bu oğlan sərəncam verməyi, tabe olmaqdan üstün tutur. O, bağçadakı müvəffəqiyyətsizlikləri, tez-tez rast gəldiyi uğursuzluqları tərbiyəçi və tərbiyəçi köməkçilərinin ona qarşı ədalətsiz münasibətləri ilə şərh edir. Əsassız olaraq oz uğursuzluqlarında onları günahlandırır. Onun bu haqsız fikrini valideynləri müdafiə edirlər. Bu təsir altında ana bağçaya gəlib vəziyyəti öyrənməyə çalışır.

Valideynlərin belə qeyri-taktiki hərəkəti ilə tərbiyəçilərin hörməti bu balacaların nəzərində hər gün aşağı düşür. Ana öz tərbiyəçi və müəllimlərini yerli-yersiz tərifləyir, indiki tərbiyəçiləri bacarıqsız adlandırır.

Məhs uşaqların tərbiyəsində ailənin bağçaya qarşı belə mövqe tutması nəticəsində uşaqlar özlərini ailədə bir cür və bağçada başqa cür aparırlar.

Valideynlər belə halların olmaması üçün uşağın intizam tərbiyəsində bağça ilə sıx əlaqə saxlamalı, tərbiyəçiləri tez-tez dinləməli və oların faydalı məsləhətlərini qiymətləndirib, uşaq tərbiyəsində tətbiq etməlidirlər.

Tərbiyəçilər valideyn nüfuzunu uşağın nəzərində yüksəltmək üçün səy göstərdikləri kimi, valideynlər də tərbiyəçi əməyini düzgün qiymətləndirməli və onun nüfuzunu uşağın nəzərində yüksəltməyə, onun adını əziz tutmağa çalışmalı və daim bunu nəzərdə saxamalıdırlar.

Unutmaq olmaz ki, ailədə uşaq intizamı üçün qoyuımuş qaydalar o vaxt tərbiyəyə müsbət təsir göstərir ki, uşaq təcrübədə bu qaydaların səmərəli olması əqidəsinə gəlsin. Eyni zamanda, uşaq qrupdan-qrupa keçdikcə onda yeni-yeni keyfiyyətlər yarandıqca, onun həyat şəraiti dəyişdikcə, qaydalar da dəyişib, təkmilləşdirilməlidir.

Uşaqların əxlaq tərbiyəsində ailənin bağça ilə əlaqə saxlaması, valideynlər və ictimayyət arasında iş aparması indi daha çox əhəmiyyət kəsb edir. Məhz bunu nəzərə alaraq, ailə həyatının bütün quruluşu uşaqları qaydaya, müəyyən vəzifələrin yerinə yetirilməsinə, düzgün rejimə riayət edilməsinə, öz arzularının başqalarının ehtiyac və mənafeyini tabe etdirmək bacarığı yaratmağa yönəltməlidir.

Bəzi valideynlər uşaqlarını yaxşı tanımır, onun maraq və meylini, arzu və istəyini, boş vaxtını necə keçirtməsini, kimlərlə dostluq etdiyini, sevimli oyununu bilmirlər.

Bəzi valideynlər isə uşağı hədsiz məhəbbətlə sevdikləri halda, onun fiziki inkişafı, daxili aləmi, marağı, meyli və s. keyfiyyətləri haqqında dəqiq məlumat verə bilmirlər.

Təcrübədə olduğum 248 sayı uşaq bağçasının böyük qrupunda keçirilən ümumi iclasında valideyn F. Bayramovanın dedikləri çox əhəmiyyətlidir: "Əgər biz analar öz uşaqlarımızı yaxşı tanısaq, zəif və qüvvətli cəhətlərini bilsək, onların tərbiyəsində xüsusilə intizam tərbiyəsində səhvə az yol verərik".

Valideynlərin əksəriyyəti, onları vaxtı ilə necə tərbiyə ediblərsə, uşaqlarını da o yolla tərbiyə edirlər. Əlbətdə, keçmişin bütün tərbiyə metodları indi yararlı sayıla bilməz. Onlardan bir qismi indi hətta gələcəkdə uşaqların azad, mübariz, öz mövqeyini müdafiyyə edən, şəxsi fikri olan bir şəxsiyyət kimi formalaşmasına zərərlidir. Köhnə metodlar əsasında yetişən qorxaq, yalançı, qeyri-təşəbbüskar uşaqlar işə yalnız ziyan vura bilərlər.

Hər bir valideyn öz uşağının keçirdiyi həyat yolunu, yaş xüsusiyyətlərini və bir uşağın

başqasından fərqli cəhətlərini düzgün və dəqiq bilməlidir.

Valideyn tərbiyəçinin köməkliyi ilə uşağın fərdi xüsusiyyətlərini aşağıdakı yollarla öyrənə bilər:

1. Bağça həkimi ilə əlaqə saxlayıb, uşağın səhəti haqqında məlumat almaqla;

2. Məşğələlərdə və məşğələdən kənar tədbirlərdə bilavasitə müşahidələr aparmaqla;

3. Uşağın tərbiyə aldığı qrupu, yoldaş və dostları ilə müsahibə keçirməklə;

4. Bağça müdiri, metodist, tərbiyəçilər və tərbiyəçi köməkçisi ilə söhbət etməklə;

5.Tərbiyəçilər tərəfindən verilmiş rəğbətləndirmə və cəzalandırmalarla;

6. Məşğələlərdə uşağın çəkdiyi şəkillər, gildən düzəltdiyi fiqurlar və s. tanış olmaqla;

7. Oyun, əmək və məşğələlərdə tapşırıqları icra etmə vəziyyətini, səhnəcik və bayramlarda nəyə daha çox meyl etməsini və bu sahədə qabiliyyətini və bacarığını bilməklə;

8. Bağça və ailədə uşağın davranışını, tapşırıqlara münasibətini müşahidə etmək və s.

A.S.Makarenka yazırdı: "Sizin öz davranışınız ən həlledici məsələdir. Elə bilməyin ki, siz uşağı yalnız onunla danışanda və ya onu öyrənəndə, yaxud ona əmr verəndə tərbiyələndirirsininz. Siz onu öz həyatınızın hər bir anında, hətta evdə olmadığınız zaman da tərbiyə edirsiniz. Siz necə geyinirsiniz, başqa adamlarla və özgə adamlar haqqında necə danışırsınız, necə sevinir və necə kədərlənirsiniz, dostlar və düşmənlərlə necə rəftar edirsiniz, necə gülürsünüz, qəzet necə oxuyursunuz – bütün bunların uşaq üçün böyük əhəmiyyəti vardır" [2, s.348].

Valideyn və tərbiyəçilər hər bir uşağın fərdi xüsusiyyətini öyrənmədən əxaq tərbiyəsini lazımı səviyyədə qura bilməz. Buna misal olaraqa aşağıdakıları qeyd edə bilərik:

1. Uşağın ailədə və uşaq bağçasında intizamsız olmasının başlıca səbəblərindən biri valideynin uşağa həddindən artıq yerli – yersiz məhəbbət göstərməsidir. Çox vaxt tək uşağa daha çox məhəbbət göstərildikdə uşaq şıltaq – intizamsız olur.

2. Uşağın əxlaqında qüsurların olmasının səbəblərindən biri ailənin onu nəzarətsiz buraxmasıdır. Nəzarətsiz uşaq pis uşaqların etdiyi əməlləri təkrar edər, qeyri-mədəni ifadələr işlədir, ümumi qaydalara alışmır.

3. Ailədə uşağın tərbiyəsində qüsurların olmasının səbəblərindən biri də valideynlərin uşağa qarşı vahid xətti – hərəkət tutmamasıdır. Çox vaxt valideynlər uşağa düzgün tələblər verdiyi halda, bu tələblər baba və nənə tərəfindən pozulur.

Hansı ailədə ki, məqsəd aydınlığı vardır, orada uşaqlar arasında şüurlu intizam özünə möhkəm yer tutur.

4.Bəzən də valideynlər uşaqların bu və ya digər müsbət keyfiyyətlərinə arxayınlaşaraq, onun tərbiyəsini başlı-başına buraxırlar. Bundan da ciddi uşaq intizamsızlığı başlayır.

5. Uşağı gücü çatan əməyə alışdırmadıqda da o, intizamsızlığa özü hiss etmədən yol verir. Məlumdur ki, əməyi sevən uşaqlar həm də intizamlı olurlar.

6. Nəhayət, intizamsızlığın səbəblərindən biri də valideynlərin özlərini pis nümunə göstərməleridir və s.

Deməli, uşaqda əxlaqı davranış normalarını pozma halları da müxtəlif səbəblərdən irəli gələ bilər. Bu cəhətdən hər bir intizamsızlıq halına qarşı seçilmiş tərbiyəvi tədbir də müxtəlif olmalıdır.

Uşaqların məktəbəqədər yaşlarından əməyə alışdırılması ailə və bağçanın vəzifəsidir. Bəzən ailələrdə valideyinlər uşaqlarin yerinə bütün işləri görməklə, onları özləri yedizdirməklə, geyindirib-soyundurmaqla, məişət əməyinə cəlb etməməklə tənbəl yetişdirirlər. Bu da gələcəkdə həmin uşaqların ləng, ərincək, əmək prosesindən qaçan biri olmaları ilə nəticələnir. R.Əfəndiyev vurğulayır ki, uşaqlar özlərini zəhmətə, əməyə alışdırmaqla öz xoşbəxt gələcəklərini qurmuş olacaqlar. Lakin tənbəllik insanı hər zaman fəlakət və zillətə sürükləyəcəkdir. Onun "Tənbəl" adlı şeiri uşaqları əməyə, zəhmətə səsləyir.

"Oyan qəflət yuxusundan,
Gəl əl götür yaman gündən,
Yapış get bir iş ucundan,
Dava tap dərdinə, tənbəl!
Çıx o rahat otağından,
Bu tənbəllik pis adətdir,
Çalışqanlıq nə dövlətdir" [3, s.27].

A.A.Bakıxanov da "Kitabi-Nəsihət" əsərində

qələmə aldığı 102 nəsihətdə gələcəyimiz olan uşaqları pis əməllərdən çəkindirməyi, uşaqları əməyə, zəhmətə alışdırmağı, onlarda ən yaxşı əxlaqi keyfiyyətləri formalaşdırmağı qarşısına məqsəd qoymuşdur [1, s.179].

İntizam tərbiyəsində uşağın fərdi xüsusiyyətləri mütləq nəzərə alınmalıdır.

Uşaqlarda öz hərəkət və davranışı üçün məsuliyyət hissi yaratmaq çox mühümdür. Bunun üçün uşağın hərəkətlərini düşüncəli surətdə müəyyən etmək lazımdır. Deməli, uşağa təsir etməkdə valideynlərlə tərbiyəçilər vahid mövqe tutmalıdır. Bağçanın verdiyi tələb ailədə alt-üst edilməməlidir.

Valideynlər uşağın intizam tərbiyəsində bağça ilə sıx əlaqə saxlamalı, tərbiyəçiləri tez-tez dinləməli və onların faydalı məsləhətlərini qiymətləndirib, uşaq tərbiyəsində tətbiq etməlidirlər.

Tərbiyəçilər valideyin nüfuzunu uşaqların nəzərində yüksəltmək üçün səy göstərdikləri kimi, valideynlər də tərbiyəçi əməyini düzgün qiymətləndirməli və onun nüfuzunu uşağın nəzərində yüksəltməyə çalışmalıdırlar. Bunun intizam tərbiyəsində böyük əhəmiyyəti vardır.

Beləliklə, uşaqlarda əxlaq tərbiyəsi yalnız bağça ilə ailənin əlbir işi nəticəsində formalaşıb, təkmilləşə bilər. Uşaq bağçalarının və ailənin tərbiyə funksiyaları eyni olmasa da, onların birgə fəaliyyəti uşaqların şəxsiyyət kimi formalaşması və düzgün inkşafında zəruridir.

Ədəbiyyat

1. Həsənov A. Məktəbəqədər pedaqogika. – Bakı, – 2000.
2. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri, – Bakı: Azərnəşr, – 1950.
3. Əfəndiyev R. Seçilmiş əsərləri. – Bakı: Şərq-qərb, – 2006
4. Mursaqulova R.N. Rüstəmova N. Məktəbəqədər pedaqogika. – Bakı, – 2012.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Akif Abbasov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –03.01.2022 , son daxilolma 15.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 20-23
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 20-23
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с. 20-23

UOT 371.036

Tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işində şəxsiyyətyönümlü texnologiyalardan istifadənin imkanları

Müəllif:

Aytən Mövsümlü
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Doktorant
E-mail: aytanm@gmail.com

Açar sözlər:
bədii yaradıcılıq, yaradıcı qabiliyyətlər, şəxsiyyətyönümlü texnologiyalar, intellektual inkişaf, mədəni istirahət, auditoriyadankənar tədbirlər

Annotasiya. Məqalədə ali məktəblərin auditroriyadankənar tədbirlərində tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması problemindən bəhs olunur. Göstərilir ki, auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılıq fəaliyyətinə istiqamətləndirilməsi zamanı onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üçün şəxsiyyətyönümlü texnologiyalardan istifadə etmək lazımdır. Bu zaman şəxsiyyətyönümlü texnologiyalar içərisində pedaqoji ünsiyyət texnologiyası, layihələşdirmə texnologiyası, inkişafetdirici texnologiya kimi texnologiyalardan istifadə etmək faydalıdır. Qeyd olunur ki, tələbələrin bədii yaradıcılıq fəaliyyətinə cəlb edilməsi zamanı onları günün aktual tələblərinə cavab verən yaradıcı işlərlə məşğul olmağa, bu sahədə şəraitə uyğunlaşmağa, hazırkı informasiya şəraitində inkişaf etmiş şəxsiyyət kimi fəaliyyət göstərməyə, ünsiyyət bacarığına yiyələnməyə, bədii yaradıcılıq nümunələri əsasında müvafiq qabiliyyətlər qazanmağa istiqamətləndirilməsi mühüm aktuallıq kəsb edir. Bu məsələlər məqalədə əsaslandırılmış elmi şərhini tapır.

Opportunities to use personality-oriented technologies in the formation of students' artistic creativity

Author:

Ayten Movsumlu
Institute of Education of the Republic of Azerbaijan
Doctoral student
E-mail: aytanm@gmail.com

Key word:
artistic creativity, creative abilities, personality-oriented technologies, intellectual development, cultural recreation, extracurricular activities

Abstract. The article discusses the problem of forming students' artistic creativity in extracurricular activities of universities. It is noted that in extracurricular activities, when directing students to artistic activity, it is necessary to use personality-oriented technologies to form their artistic creativity. In this case, it is necessary to use technologies such as pedagogical communication technology, design technology, development technology among personality-oriented technologies. It is noted that during the involvement of students in artistic creative activities, it is important to direct them to engage in creative work that meets the current requirements of the day, to adapt to the conditions in this field, to act as a developed personality in the current information environment, to acquire communication skills, and to acquire relevant abilities based on examples of artistic creativity. These issues find a justified scientific interpretation in the article.

Возможности использования личностно-ориентированных технологий в работе по формированию художественно-творческих способностей студентов

Автор:

Айтен Мовсумлу
Институт образования Азербайджанской Республики
Докторант
E-mail: aytanm@gmail.com

Ключевые слова:
художественное творчество, творческие способности, личностно-ориентированные технологии, интеллектуальное развитие, культурная рекреация, неаудиальные мероприятия

Аннотация. В статье рассматривается проблема формирования способностей вузовских студентов в художественном творчестве в процессе внеаудиторной деятельности. В ней отмечается, что в ходе внеаудиторной работы, направляя деятельность студентов на формирование способностей в художественном творчестве, необходимо пользоваться личностно-ориентированными технологиями. В этом случае особое внимание следует уделить использованию таких компонентов личностно-ориентированных технологий, как технология педагогического общения, технология проектирования и развивающая технология. Далее отмечается, что в процессе вовлечения учащихся в художественную творческую деятельность важное значение приобретает их ориентация на занятие творческой работой, отвечающей актуальным требованиям дня, адаптацию к условиям в данной сфере, деятельность как личность, развитая в современных информационных условиях, приобретение коммуникативных навыков, соответствующих способностей на основе образцов художественного творчества. Эти вопросы находят свою научно-обоснованную интерпритацию в статье.

Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə şəxsiyyətyönümlü texnologiyaların gücündən məqsədyönlü şəkildə istifadə etməklə tələbə şəxsiyyətinin günün tələbləri səviyyəsində yüksəldilməsi ilə əlaqədar bu sahədə çalışan mütəxəssislər qarşısında təxirəsalınmaz vəzifələr qoyulur. Azərbaycanda Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında da tələbə şəxsiyyətinin formalaşdırılması işində şəxsiyyətyönümlü texnologiyalardan səmərəli istifadə edilməsi mühüm aktuallıq kəsb edir. Bu mənada, ali təhsil müəssisələrinin auditoriyadankənar tədbirlərində tələbələrin bədii yaradıcılıq fəaliyyətinə cəlb edilməsi işində onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üçün şəxsiyyətyönümlü texnologiyaların imkanlarından istifadə edilməsi zəruri sayılır. Çünki auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin günün tələblərinə uyğun formalaşdırılması onların, hər şeydən əvvəl, şəxsiyyətyönümlü inkişafını təmin etmiş olur.

Təcrübə və müşahidələr göstərir ki, pedaqoji ali təhsil müəssisələrinin bakalavr səviyyəsində təhsil alan tələbələrin auditoriyadankənar tədbirlərə cəlb edilməsi və bu tədbirlərdə onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üzrə işin təşkili prosesində şəxsiyyətyönümlü texnologiyalardan istifadə edilməsi mühüm aktuallıq kəsb edir. Çünki bakalavr pilləsinin tələbələri auditoriyadankənar tədbirlərdə qazandıqları bədii yaradıcılıq qabiliyyətlərini inkişaf etdirərək təkmilləşdirməklə gələcəkdə çalışacaqları ümumtəhsil məktəblərində şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin təşkilində daha fəallıq göstərəcəklər. Məlum olduğu üzrə, ümumtəhsil məktəblərində şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması onların şəxsiyyətyönümlü inkişafının hərtərəfli inkişafının təmin olunmasına öz müsbət təsirini göstərir. Təsadüfi deyil ki, Azərbaycanda Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında əsas istiqamətlərdən biri şəxsiyyətyönümlü təhsilin yaradılması hesab olunur. Bu o deməkdir ki, hazırda ölkəmizin bütün təhsil müəssiələrində təhsil alanların şəxsiyyətyönümlü inkişafının təmin olunması əsas şərtlərdən biridir. Məhz bu baxımdan auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üzrə işin planlı və mütəşəkkil olaraq həyata keçirilməsi tələbələrin şəxsiyyətyönümlülük səviyyəsini yüksəltmiş olur. Bu mənada, şəxsiyyətyönümlü texnologiyaların ayrı-ayrı növlərindən istifadə olunması xüsusilə qeyd edilməlidir.

Pedaqoji təmayüllü ali məktəblərdə, yaxud ali məktəblərin pedaqoji fakültələrində tələbələrin auditoriyadankənar tədbirlərə cəlb edilməsi və bu tədbirlərdə onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması, auditoriyadankənar şəraitə uyğunlaşdırılması, həmin şəraitdə rəqabət qabiliyyətli olmağa istiqamətləndirilməsi, beləliklə, informasiya cəmiyyətində yaradıcı fəaliyyət göstərməsi, bədii ünsiyyət qabiliyyətlərinə yiyələndirilməsi də öz aktuallığı ilə fərqlənir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Təhsil Qanununda (Maddə 11.1.1.) göstərilir ki, təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq bacarığını formalaşdırmaq lazımdır [1, s. 22]. Deməli, tələbələrin bədii yaradıcılıq fəaliyyətinə cəlb edilməsi zamanı onları günün aktual tələblərinə cavab verən yaradıcı işlərlə məşğul olmağa, bu sahədə şəraitə uyğunlaşmağa, hazırkı informasiya şəraitində inkişaf etmiş şəxsiyyət kimi fəaliyyət göstərməyə, ünsiyyət bacarığına yiyələnməyə, bədii yaradıcılıq nümunələri əsasında müvafiq qabiliyyətlər qazanmağa istiqamətləndirilməsi mühüm aktuallıq kəsb edir.

Əlbəttə ki, ali məktəb tələbələrinin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsini onların hərtərəfli inkişaf etmiş intellekt kimi formalaşmasını təmin edən amillərdən biri kimi dəyərləndirmək gərəkdir. Bunun üçün ən müasir innovativ vasitələrdən, o cümlədən şəxsiyyətyönümlü texnologiyalardan faydalanmaq lazım gəlir.

Müasir təhsilimizdə gedən inkişaf proses-

lərinin, yaranan innovativ modellərin əsas mahiyyəti ondan ibarətdir ki, burada izahetmədən dərketməyə, yaddaşdan təfəkkürə və təxəyyülə, pedaqoji prosesin şəxsiyyətyönümlüyünə keçid baş verməkdədir. Bunlar pedaqoji prosesdə yeni metodologiyanın, pedaqoji hadisə və proseslərə yeni yanaşma üsulu olan sinergetik yanaşma metodologiyasının meydana gəlməsinə zərurət yaratmışdır [2, s.104]. Bu zərurətin reallaşdırılması isə ali məktəbin təlim prosesi ilə yanaşı, auditoriyadankənar tədbirlərində də tələbələrin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsinə rəvac verən məqsədyönlü işlərin həyata keçirilməsini tələb edir. Bu baxımdan, auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işində şəxsiyyətyönümlü texnologiyalardan istifadə etməyin əhəmiyyəti böyükdür.

Ali məktəblərin, o cümlədən pedaqoji təmayüllü ali təhsil müəssisələrində təhsil alan tələbələrin auditoriyadankənar tədbirlərdə bədii yaradıcılıq fəaliyyətinə istiqamətləndirilməsi və bu prosesdə onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prosesində onlar bir sıra bədii yaradıcılıq qabiliyyətlərinə yiyələnmiş olurlar. Onların bədii qiraətə yiyələnmək, şeir yazmaq, nəsr əsərləri, o cümlədən esselər, hekayələr, novellalar, povestlər, hətta romanlar yazmaq qabiliyyətləri qazanmaları onların hərtərəfli inkişafını təmin edir və şəxsiyyətyönümlülük səviyyəsini yüksəldir. Şəxsiyyətyönümlü texnologiyaların gücündən istifadə etməklə tələbələr dram əsərləri üçün ssenarilər hazırlamağı öyrənir və bir sıra aktyorluq keyfiyyətləri əldə edirlər. Bədii yaradıcılıqla məqsədyönlü, planlı və mütəşəkkil olaraq məşğul olan tələbələr təsviri sənət nümunələrin rəsm etməyi, dekorativ tətbiqi sənət nümunələrini hazırlamağı öyrənirlər. Şəxsiyyətyönümlü texnologiyaların gücündən məqsədyönlü şəkildə istifadə etməklə tələbələr rəqs etməyi, milli rəqslərə quruluş verməyi də öyrənirlər. Şəxsiyyətyönümlü texnologiyaların gücündən istifadə etməklə tələbələrə qazandırılan bədii yaradıcılıq qabiliyyətləri onların bilik, bacarıq və vərdişlər sisteminin inkişaf etdirilməsilə yanaşı, onların bir sıra yaradıcı keyfiyyətlərin aşılanmasına imkan yaratmış olur. Ona görə də şəxsiyyətyönümlü texnologiyalardan istifadə etməyə üstünlük vermək mühüm əhəmiyyət kəsb edir. Şəxsiyyətyönümlü texnologiya fəlsəfənin, psixologiyanın və pedaqogikanın humanist təcəssümüdür. Müəllim öyrənənin özünəməxsus, ayrılmaz şəxsiyyətinə yönəlir, qabiliyyətlərini maksimum dərəcədə reallaşdırmağa çalışır, yeni təcrübənin qavranılmasına sərbəst, müxtəlif həyat vəziyyətlərində şüurlu və məsuliyyətli seçim edə bilir [4, s.23]. Məhz ona görə də ali məktəblərin auditoriyadankənar tədbirlərdə bədii yaradıcılıq fəaliyyətinə istiqamətləndirilməsi prosesində şəxsiyyətyönümlü texnologiyalardan istifadə etməklə onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirmək lazımdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının "Təhsil Haqqında Qanunu". – Bakı: Qanun, – 2009. – 109 s.
2. İlyasov M.İ. Müasir təhsil: ənənədən innovasiyaya. Monoqrafiya. – Bakı: Elm və təhsil, – 2021, – 376 s.
3. Nəzərov M.H., Quliyev N.Z., Nəzərova X.M. Pedaqoji texnologiyalar. Dərs vəsaiti. – Bakı: ADPU, – 467 s.
4. Hüseynova G.A. Kurikulum təliminə praktiki baxış. III nəşr. – / Hüseynova G.A.– Bakı: Hədəf, – 2017, – 356 s.
5. Rüstəmov F.A. Ali məktəb pedaqogikası [Magistratura pilləsi üçün dərslik] / Rüstəmov F.A., Dadaşova T.N. – Bakı: Nurlan, – 2007, – 568 s.
6. İsmixanov M.A., Vəliyeva S.V., Mollayeva E.Ə. – Bakı: ADPU, – 2014, – 208 s.
7. Sadıqov F.B. Bədii yaradıcılıq dərnəkləri. / Sadıqov F.B. – Bakı: Təbib, – 1994, – 192 s.
8. Sadıqov F.B. Uşaqlarin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin elmi-pedaqoji əsasları /F.B. Sadıqov.– Bakı: ADPU, – 1994. – 221 s.

9. Sadıqov F.B., Mövsümlü A.M. Ali məktəb pedaqogikası. / Sadıqov F.B., Mövsümlü A.M. – Bakı: Rahim FS, – 2020, – 355 s.
10. Sadıqov, F.B. Ümumi pedaqogika. Dərs vəsaiti, / F.B. Sadıqov.– Bakı: Maarif,– 2012. – 552 s.
11. Şahbazov İ.H. Tədqiqat metodları. [Sosial elmlər və biznes araşdırmaları] / Şahbazov İ.H. – Bakı: TEAS Press, – 2019, – 336 s.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadıqov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 25.12.2021, son daxilolma – 10.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 24-28
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 24-28
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.24-28

UOT 37.01+371.121

"Dəbistan" jurnalında uşaqların ailədə təlim-tərbiyə məsələlərinin işıqlandırılması

Müəllif:

Səbinə Cəfərova
Bakı Slavyan Universiteti
E-mail:sabina_16_86@mail.ru

Açar sözlər:
jurnal, "Dəbistan", ailə, tərbiyə, bilik, valideyn

Annotasiya. Məqalədə Azərbaycan məktəbi və pedaqoji fikir tarixini zənginləşdirən "Dəbistan" jurnalında dərc olunan məqalə və pedaqoji hekayələrdən bəhs edilir. Qeyd olunur ki, xalqın maariflənməsi, ailələrdə təhsil, təlim-tərbiyə işinin düzgün təşkili, valideynlərin dövrün tələblərinə uyğun olaraq övladlarını tərbiyə edilməsi məsələləri bu jurnalda işıqlandırılırdı. "Dəbistan" jurnalı uşaq şəxsiyyətinin formalaşmasında və inkişafında öz dövründə olduğu kimi bu gün də öz mənəvi-didaktik əhəmiyyətini qoruyub saxlayır. "Dəbistan" jurnalında toplanmış atalar sözləri, hekayə, şeir və nağılların uşaqların maraq dairəsi, yaşı, qavrayışı, eləcə də ideya baxımından faydalı olması ideyası əsaslandırılır. "Dəbistan" jurnalının aylıq əlavəsi – "Valideynlər üçün əlavələr"də dərc olunan məqalələr uşaqların ailə tərbiyəsi, uşaqların tərbiyəsindəki nöqsanların aradan qaldırılması məsələlərinə, eləcə də təhsildə istifadə olunan üsul və formalara həsr olunub.

Author:

Sabina Jafarova
Baku Slavic University
E-mail:sabina_16_86@mail.ru

Key word:
journal, "Dabistan", family, upbringing, knowledge, parent

Coverage of the upbringing and education of children with in the family in the magazine "Dabistan"

Abstract. The article deals with the articles and pedagogical stories published in the "Dabistan" magazine, which enrich the history of the Azerbaijani school and pedagogical thought. It is noted that the issues of public education, education in families, proper organization of training and education, parents' upbringing of their children according to the requirements of the time were covered in this magazine. "The magazine of "Dabistan" still retains its moral and didactic significance in the formation and development of the child's personality as it was in his time. The idea is substantiated that proverbs, stories, poems and fables collected in the journal of "Dabistan" are useful in terms of children's interest, age, perception, as well as from the ideological and substantive aspect. The articles published in the monthly supplement of the magazine "Debistan" – "Additions for Parents", are devoted to the issues of family education of children, elimination of shortcomings in the upbringing of children, as well as the methods and forms used in education.

Автор:

Сабина Джафарова
Бакинский Славянский Университет
E-mail:sabina_16_86@mail.ru

Ключевые слова:
журнал, «Дабистан», семья, воспитание, знания, родители

Освещение в журнале "Дабистан" вопросов обучения и воспитания детей в семье

Аннотация. В статье говорится о статьях и педагогических рассказах, опубликованных в журнале «Дабистан», обогативших историю азербайджанской школы и педагогической мысли. Отмечается, что в этом журнале освещались вопросы народного просвещения, образования в семьях, правильной организации учебно-воспитательной работы, воспитания детей в соответствии с требованиями времени. Журнал «Дабистан» как в свое время, так и сегодня сохраняет свое морально-дидактическое значение в формировании и развитии детской личности. Обосновывается мысль, что пословицы, рассказы, стихотворения и басни, собранные в журнале «Дабистан», полезны с точки зрения кругозора, возрастного уровня, способности познания детей, а также с идейно-содержательного аспекта. Статьи, публикуемые в ежемесячном приложении журнала «Дабистан» - «Приложения для родителей», посвящены вопросам семейного воспитания детей, устранению недостатков в воспитании детей, а также методам и формам, используемым в воспитании.

XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik islahatının genişlənməsi, mətbu orqanlarının zəruriliyinə tələbin artması, bir sıra satirik jurnalların fəaliyyətə başlamasına təkan yaratdığı kimi, uşaq jurnallarının da fəaliyyyət göstərməsinə şərait yaratdı. Görkəmli maarifpərvər ziyalı Əli İskəndər Cəfərovun təşəbbüsü ilə 1906-cı il 16 aprel tarixində "Dəbistan" jurnalı fəaliyyətə başladı. "Dəbistan" jurnalı XX əsr Azərbaycan pedaqoji jurnalistikasında ilk uşaq jurnalı idi. Böyük ziyalı ordusunu ətrafında toplayan "Dəbistan" jurnalında dövrünün tanınmış pedaqoq və ziyalılarının, yazıçılarının imzalarına rast gəlmək mümkündür (H.Zərdabi, M.Ə.Sabir, F.Köçərli, R.Əfəndiyev, A.Səhhət, N.Nərimanov, S.M.Qənizadə və s.). Jurnalın əsas mövzusu təhsil məsələləri olmaqla yanaşı uşaqların ailədə tərbiyə məsələləri, valideyn-övlad münasibətləri idi ki, bu məsələlərə dair müxtəlif məqalələr valideynlərin maarifləndirilməsi istiqamətində nəşr etdirilirdi.

"Dəbistan" jurnalında valideynlərə kömək məqsədi daşıyan "Valideynə məxsus vərəqə" adlı əlavə nömrəsi də nəşr olunurdu ki, bu əlavənin nəşrində də əsas məqsəd valideynlərin uşaq təlim-tərbiyəsində doğru üsulların seçilməsi, onların tərbiyəsi ilə bağlı tövsiyələrin verilməsi, eyni zamanda uşaqlar üçün faydalı hekayə, tapmaca və nağılların nəşr etdirilməsi idi. Bu cür faydalı nəşrlər həm valideynlərin, həm uşaqların inkişafına, elmi dünyagörüşünün formalaşmasına müsbət nəticələr verirdi.

Jurnalın səhifələrində uşaq tərbiyəsinə dair rəngarəng məqalələr diqqətimizi cəlb etmişdir. Belə ki, jurnalın 1906-cı il tarixində 1-2 nömrəsində uşaqların tərbiyəsinə dair silsilə məqalə nəşr edilmişdir. Yazıçı və jurnalist Əli Ağa Hüseynzadənin "Uşaqlıqda kəsb olunmuş elm daşa nəql olunmuşdur" adlı məqaləsində qeyd edilir ki, uşaqların kiçik yaşlardan aldıqları biliklər bütün həyatı boyu onları müşayiət edəcək. İnsan müəyyən yaşa çatdıqda onun yaddaşı getdikcə zəifləyir, lakin uşaqlıqda qazanılan bilik hər zaman yaddaşda qalır. İnsan neçə yaşında olursa olsun balacalıqda öyrəndiyi şeir, nağıl, əhvalat hər zaman xatirində qalacaqdır. "Uşaqlıq insanın ömrünün baharıdır" [6, 8] deyən müəllif uşaqlıq illərinin qədrini bilməyi və onu tələf etməməyi məsləhət görürdü. Müəllif məqalədə mühüm məsələlərdən hesab edilən uşaqların tərbiyə məsələsinə toxunaraq valideynlərə məsləhət görürdü ki, övladlarınıza zamanında düzgün tərbiyə verin, onları elm, maarif işığında savadlı bir şəxsiyyət kimi yetişdirin. Vaxtında düzgün verilməyən tərbiyə, zamanı keçdikdən sonra nəticəsiz olacaq, övladlarınız cəhalətə, nadanlığa düçar olub, tərəqqidən geri qalacaqlar. Cəhalət isə elə bir əlaçı olmayan xəstəlikdir ki, ömür boyu insana yoldaş olacaq və heç bir vəchlə ondan xilas olmaq mümkün olmayacaqdır. Bu səbəbdən övladlarınızı cəhalətdən xilas edin, onların vaxtını, zamanını düzgün dəyərləndirib, bu gözəl fürsəti əldən verməyin

Məqalədə həmçinin qeyd edilir ki, valideynlər elmə və tərbiyəyə düzgün yanaşıb övladlarını doğru tərbiyə etsələr, bu ilk növbədə onların gələcək rahatlığının təməli, millətin xoşbəxtliyinin rifahı olacaqdır. Övladlarınız düzgün tərbiyə yiyələnməsələr böyüdükləri zaman öz nicat, haqq yolunu tapmayacaqlar.

Bundan başqa məqalənin müəllifi xatırladır ki, ata-anaların övladlarına verdikləri gözəl hədiyyə əxlaqi keyfiyyətlərlə bəzədilmiş nümunəvi tərbiyədir, bu isə millətin gələcəyini dərd-bəladan qurtarmağın yeganə yoludur. Millətin gələcəyi zamanında hərtərəfli biliklərə, tərbiyəyə yiyələnmiş gənclərdən ibarətdir. Bu səbəbdən övladlarınızı cəh-cəlal, naz-nemət icərisində deyil, təhsil verib tərbiyəli böyütməyə çalışın. Öz gözəl nəsihətlərinizlə onların əxlaqını zənginləşdirin. Onları məktəbə göndərin, bilikli müəllimlərdən elm almağın faydalarından bəhs edin.

"Dəbistan" jurnalının valideynlər üçün əlavə adlı aylıq əlavə nömrəsi 1906-cı il 17 aprel tarixində 1-ci № sində (4-cü rüb əlavəsi) 2 və 4-cü səhifələrdə Şəfiqə Əfəndizadənin "Tərbiyeyi-beytiyyə. Təsiri-ailə" adlı məqaləsi dərc edilmişdir. Məqalə ailədə uşaqların təlim-tərbiyə məsələlərinə həsr olunmuşdur. Məqalənin müəllifi vurğulayırdı ki, ilk növbədə uşaqların gələcək inkişafında ən başlıca vasitə onlara verilmiş düzgün ailə tərbiyəsidir. O qeyd edir ki, "Çünki insan əxlaq və ətvarına dair pis və ya yaxşı adət və xasiyyətlərin cümləsini və elm öyrənməsinin binasını əv-

vəlcə, ev tərbiyəsindən əxz və kəsb edir" [2, 2]. Müəllif xatırladır ki, insanda təcəssüm olunan bütün gözəl keyfiyyətlər, əxlaqi dəyərlər və ya pis hərəkətlərin çoxsunun özülü məhz ailə tərbiyəsində qoyulur. Düzgün verilmiş tərbiyə uşaqların gələcəkdə tərbiyəni düzgün mənimsəməsinə, cəmiyyətin qoyduğu qayda-qanunlara tabe olaraq nümunəvi şəxsiyyət kimi yetişməsinə səbəb olacaqdır. Çünki cəmiyyətin təməli yaxşı tərbiyə almış, ləyaqətli insanlardan ibarətdir. Əgər valideynlər bu özülü ailədə düzgün qoymasalar, o zaman cəmiyyət icəridən cürüyüb məhv olacaqdır. Müəllif xatırladır ki, valideynlər təlim-tərbiyə məsələlərinə diqqət etməli, özləri də övladlarının tərbiyəsində nümunəvi xarakterə malik olmalıdırlar. Bundan əlavə onların övladlarını tərbiyə edən şəxslər (dayələr) özləri də gözəl əxlaqi keyfiyyətlərə malik olub, tərbiyə etdikləri, bəslədikləri uşaqları nümunəvi yetişdirə bilsinlər. Uşaqlar ətrafındakı insanlara baxaraq böyüyür, böyüklərdən ibrət götürüb tərbiyə alırlar, məhz bu səbəbdən əgər valideynlər övladlarını şüurlu, əqidəli, kamil bir insan kimi yetişmələrini istəyirlərsə o zaman onların ətrafından bəd xasiyyət insanları uzaq tutmaldırlar.

Məqalənin müəllifi xatırladır ki, uşağın müəllimləri ilk öncə onların valideynləri, sonra müəllimləridir. Uşaq dünyaya göz açdıqda ətrafında olan hər şeyə maraq göstərir. Zamanla bu maraq artır, böyüklərdən gördüklərini, eşitdiklərini anlayıb dərk edirlər. Təbii ki, əgər uşaq tərbiyəli ailədə dünyaya gələrsə bu zaman onun gələcəyi də xoşbəxt olacaqdır. Çünki valideynlərin tərbiyəli olması övladlarının da əxlaqına sirayət edəcək, onlarda nəcib keyfiyyətlər formalaşdıracaqdır. Lakin uşaqlar naqis xislətli insanların əhatəsində yetişsələr o zaman bu onların təribyəsinin pozulmasına, gələcək bədbəxtliyinə səbəb olacaqdır.

Jurnalın 1906-cı il 16 aprel 1 №li buraxılışının 3-cü səhifəsində Ş.Əfəndizadənin qızların təlim-tərbiyəsi, əxlaq keyfiyyətləri, ailədə ədəb qaydalarına yiyələnməsi məsələlərinə həsr olunmuş "Dərsin eyni" adlı məqaləsi nəşr olunmuşdur. Məqalədə müəllif qızların zamanında təlimə, elmə yiyələnməyin vacibliyindən bəhs edir. Elmin fəzilətlərindən bəhs edən müəllif qızların, xanımların elmə, təhsilə yiyələnmələrinin zəruriliyindən bəhs edərək, bu dünyada elmə yiyələnən hər kəs şəfa tapacaqdır deyirdi. Əgər bir qadın, bir xanım və bir ana öz ana dilində biliklərə yiyələnməsə, savadını inkişaf etdirib artırmasa, ətrafında olan insanların yanında hər zaman gözü kölgəli olacaqdır. "Elm bir iqtidardır" söyləyən müəllif elmə yiyələnmək işıqlı dünyaya daha aydın, xoş və nikbin nəzərlərlə baxmaq deməkdir. Savadsız insan, elmsiz qadın bu dünyada cəhalət içində yaşayıb öz həyatını qaranlıqlar içərisində başa vuracaqdır. Müəllif qeyd edirdi ki, elmə və biliyə yiyələnməklə insan həm bu dünyada, həm o biri dünyada rahat yaşayacaqdır. Elmlərə yiyələnməklə övladlarımızı inkişaf etdirib, nümunəvi tərbiyə edib, ədəb-ərkan qaydalarına yiyələndirmək, kamilliyə yüksəltnək onların mənəvi zənginliyidir. Kamil insanın ən gözəl hədiyyəsi onun elmidir. Məqalənin müəllifi qeyd edirdi ki, xanımlar ailə həyatı qurduqdan sonra da elmlə məşğul olub, biliklərini artırsınlar, asudə vaxtlarında kitab oxuyub, öz evlərində kitabxanalar qursunlar. Öyrəndikləri bilikləri övladlarına ötrürüb, millətin gələcəyinə sərf etsinlər.

Uşaqların tərbiyəsində və inkişafında sosial mühitin mühüm təsir dairəsinin gücünü göstərən "Dəbistan"çılar ilk növbədə uşaqların sağlam ailə mühitinə ehtiyacları olduğunu düşünürdülər. Onlar hesab edirdilər ki, cəmiyyətin gələcəyi məhz aqil gənclərdən asılıdır. Hər bir valideyn övladına ən başlıca ədəb öyrətməli, ədəb qaydalarını mənimsətməli, sonra elm, təhsil-təlim məsələlərinə həddən-ziyadə yer ayırmalıdırlar. Ziyalı pedaqoqlar qeyd edirdilər ki, ilk növbədə ailələr özləri cəhalətdən qurtulub, müasir dövrün tələblərinə uyğun övlad tərbiyə etməli, uşaqları ilə zaman keçirməli, balalarının gələcəyini hərtərəfli təmin etməlidirlər.

Jurnalın 16 may 1906-cı il 2 №li buraxılışının "Valideynlərə məxsus aylıq əlavə"sinin 1-3-cü səhifələrində Ş.Əfəndizadənin "Tərbiyeyi-beytiyyə, Təsiri-həmnişinan" adlı məqaləsi dərc olunmuşdur. Uşaqların tərbiyəsində mühitin önəmli olduğunu vurğulayan müəllif qeyd edir ki, övladlarımızın tərbiyəsində ailənin tərbiyəvi təsiri çox mühüm əhəmiyyət kəsb edir, yəni valideynlərin övladlarına verdiyi

tərbiyə həyatı boyu onlarla olacaq və əbədi xarakter alacaqdır. Lakin bununla yanaşı uşaq tərbiyəsində önəmli rol oynayan digər tərbiyə ocağı olan məktəblərin də xüsusi əhəmiyyəti vardır. Uşaqlar evdə aldıqları tərbiyə ilə yanaşı məktəbdə təlim-tərbiyəyə yiyələnir, savada, biliyə hakim olurlar.

Müəllif vurğulayır ki, uşaqların gələcəkdə tərbiyəli və ya tərbiyəsiz olmalarına ailə nə qədər təsir göstərirsə, məktəb mühiti də bir o qədər təsir göstərir. Uşaq hər gün məktəbə gedib orada müxtəlif uşaqlarla ünsiyyət qurur və uşaqların rəftarı, tərbiyəsi bir-birinə təsir göstəri, mənfi və ya müsbət xüsusiyyətləri, hərəkətləri özlərində cəmləşdirə bilərlər. Çünki uşaq düşüncəsi elədir ki, onlar həmsöhbət olduğu insanların xarakter və xüsusiyyətlərini dərk etmədən yamsılaya bilərlər. Uşaqların yoldaşlarından götürdükləri əməllər onların əxlaqına müsbət və ya mənfi təsir göstərə bilər. Əgər uşaq gözəl əxlaqlı həmyaşıdı ilə dostluq etsə təbii ki, bu onun da əxlaqına müsbət təsir göstərəcək, onun kamil insana çevrilməsində yardımçı olacaqdır. Lakin uşaq mənfi xislətli, tufeyli həyat sürən biri ilə dostluq etdiyi zaman, əxlaqı pozulacaq, onun gələcək bədbəxtliyinə səbəb olacaqdır.

Məqalədən göründüyü kimi müəllif valideynlərə məsləhət görür ki, onlar övladlarına zamanında gözəl tərbiyə aşılasalar, doğrunu yalnışdan, düzü pisdən ayırmağı öyrətsələr gələcəkdə bu kimi problemlərlə üzləşməyəcəklər. Onların övladları özləri əxlaqı düzgün insanlarla dostluq edib, əqidəsi düzgün insanlarla oturub duracaqlar. Tərbiyəli dost uşağın səfalı gələcəyinə, pis dost isə gələcək bədbəxtliyinə səbəb olacacqdır. Cəmiyyətin səadəti və nicatı düzgün tərbiyə almış uşaqlardır.

"Dəbistan" jurnalı heç zaman kasıb, yetim, yoxsulluq icərisində yaşayan ailələri diqqətdən kənar qoymamışdır. Jurnalın rəhbərliyi ac, səfalət icində yaşayan ailələr üçün ianə dəftəri acaraq xeyriyyə məqsədli məqalələr dərc eləyib ordan gələn gəlirləri bu ailələrin azuqəsinə, geyimlərinə və uşaqların təhsilə cəlb olunmasına xərcləyirdilər.

"Dəbistan" jurnalının 20 dekabr 1906-cı il 17№li buraxılışının 13-15-ci səhifələrində Ə.Əfəndizadənin "Qış gecələrinin səfası ac, yetim uşaqların əhvalı" adlı pedaqoji hekayəsi dərc edilmişdir. Hekayədə qeyd olunur ki, uzun qış günlərinin ən gözəl çağları isti evində əyləşib öz valideynlərinin ətrafında onların dualarını, xoş arzularını, söhbətlərinin eşitmək, bir masa arxasında əyləşib yemək yemək, dincəlmək bu ailənin ən böyük xoşbəxtliyidir. Hekayənin müəllifi vurğulayır ki "bu cür hallar ümumiyyətlə bir ailənin, bir külfətin zövq və səfasıdır [5, 13]. Uşaqlar bu safalı gözəl günlərin qədrini bilməli, valideynlərindən aldığı tərbiyəyə dəyər verməlidirlər.

Müəllif xatırladır ki, özlərini ən əziz və xoşbəxt hesab edən uşaqlar bilməlidirlər ki, onların ailədəki bu rahatlığının, səfasının əksini yaşayan yüzlərlə ac, səfalət içində yaşayan uşaqlar, ailələr var. Bu gün öz isti yuvasında atasının min bir zəhmətlə alıb gətirdiyi təamları, anasının vaxt və güc sərf edib bişirdiyi yeməkləri bəyənməyib, ərköyünlük edən uşaqlar dərk etməlidirlər ki, o isti yuva olmadan, nimdaş paltar, çörək qırıntıları ilə bəslənən minlərcə uşaq soyuqda, qarın-qışın çovğununda ac-yalavacdırlar. Belə kasıb, yoxsul ailələrdə böyüyən balaca uşaqlar insanlardan imdad, kömək diləyir, geyinməyə paltar, yeməyə çörək tapmır, arzuladıqları məktəbxanalardan, elmdən, savaddan uzaq qalırlar. Bundan əlavə müəllif söyləyirdi ki, bu uşaqlar müxtəlif xəstəliklərə düçar olaraq, həyatdan vaxtsız köçürlər. Bu yoxsul 5-6 yaşlı uşaqlar küçələrdə dilənçilik edərək insanların arxasınca qaçaraq yemək pulu, çörək pulu dilənirlər. Lakin buna baxmayaraq o uşaqlar yenə də xoşbəxtdirlər. Çünki evlərinə aparmağa çörəkləri vardır.

Məqalənin müəllifi kiçik ibrətamiz hekayə paylaşmaqla uşaqları öz ailələrinin, valideynlərinin qədrini bilməyə səsləyir, kasıblara əl tutmağı cəmiyyətin insanlıq borcu olduğunu xatırladır.

Beləliklə, "Dəbistan" jurnalında nəşr edilən məqalə və pedaqoji hekayələr xalqın maarifləmməsi, ailələrdə təhsil, təlim-tərbiyə işinin düzgün təşkili, valideynlərin dövrün tələblərinə uyğun olaraq övladlarını tərbiyə edilməsi məsələləri işıqlandırılırdı. Bundan əlavə müasir yanaşmaları, baxışlarını və ideyaları məhz "Dəbistan" jurnalı vasitəsilə xalqa çatdırmaq istəyən ziyalılar pedaqoji jurnalistikanı və

mətbu orqanlarını aparıcı vasitə hesab edərək, ona böyük ümid bəsləyirdilər. "Dəbistan" jurnalı da belə jurnallardan biri idi.

Ədəbiyyat

1. Azərbaycan uşaq ədəbiyyatı ("Dəbistan", "Rəhbər", "Məktəb" jurnalları əsasında). – Bakı: Elm, – 1977, – 190 s.
2. Əfəndizadə, Ş. Tərbiyeyi-beytiyyə. Təsiri-ailə // – Bakı: Dəbistan (Valideynlər üçün alıq əlavə). – 1906, 17 aprel, №1, – s. 1-16.
3. Əfəndizadə, Ş. Dərsin eyni // – Bakı: Dəbistan jurnalı. – 1906, 16 aprel, №1, – s. 1-16.
4. Əfəndizadə, Ş. Tərbiyeyi-beytiyyə, Təsiri-həmnişinan // – Bakı: Dəbistan jurnalı. Dəbistan (Valideynlər üçün alıq əlavə).– 1906, 16 may, №2, – s. 1-20.
5. Əfəndizadə, Ə. Qış gecələrinin səfası ac, yetim uşaqların əhvalı // – Bakı: Dəbistan jurnalı. Dəbistan (Valideynlər üçün alıq əlavə). – 1906, 20 dekabr, №17, – s. 1-16.
6. Hüseynzadə, Ə.A. Uşaqlıqda kəsb olunmuş elm daşa nəql olunmuşdur // – Bakı:Dəbistan. – 1906. 16 aprel, №1, – s.1-16.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Akif Abbasov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –18.01.2022 , son daxilolma – 17.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 29-33
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 29-33
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с. 29-33

UOT 316.42 +94

Repressiya qurbanlarının yaradıcılığında məktəb, elm, maarif və milli ruh problemi

Müəllif:

Pərvin Cəfərova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: cafarova.p@mail.ru

Açar sözlər:
repressiya qurbanları; məktəb, elm və təhsil; maarifçi hərəkat; tərəqqi uğrunda mübarizə; milli-azadlıq hərəkatı; humanizxəlqilik prinsiplərinə bağlılıq

Annotasiya. Məqalədə repressiya qurbanlarının yaradıcılığında məktəb, elm, maarif və milli ruh probleminə baxış tədqiq və təhlil probleminə çevrilmişdir. Qeyd olunur ki, repressiya qurbanları nakam ömür yollarını ancaq və ancaq millətin maariflənməsinə həsr etmişlər. Repressiya qurbanları maarif, məktəb, təlim-tərbiyə, estetik görüş, qadın təhsili, uşaq ədəbiyyatı ilə bağlı fikirlər sistem-ləşdirmiş və bununla da böyüyən nəslin təlim-tərbiyəsində mühüm rol oynamışlar. Millət öndərləri siyasi-ictimai məramdan tutmuş, ayrı-ayrı mənəvi əxlaqi sifətlərə qədər, bütün varlığı ilə xalqa, ata-babaların mütərəqqi, gözəl, nəcib adət-ənənələrinə, doğma ana dilinə bağlı olmuş, qondarma olan ənənələrə, zalımlığa, qəddarlığa, irqçiliyə, mövhumatçılığa, tərəqqi meyllərə qarşı olanlara isə bəzən sərt, bəzən sarkazm, gahdan üstüörtülü, daha çox isə açıq bir dillə söhbətlər açmış, mütilik, üfunət iyi verən hallara qarşı barışmaz olmuşlar.

Author:

Parvin Jafarova
Azerbaijan State Pedagogical University
Philosophy in pedagogy doctor
E-mail: cafarova.p@mail.ru

School, science, education and the national spirit problem in the creativity of victims of repression

Key word:
victims of repression; school, science and education; enlightenment movement; struggle for progress; National Liberation movement; adherence to the principles of humanism, nationalism

Abstract. In the article, the problem of school, science, education and national spirit in the creativity of the victims of repression has become a problem of research and analysis. It is noted that the victims of repression have dedicated their lives to the enlightenment of the nation. Victims of repression systematized ideas about education, school, education, aesthetic view, women's education, children's literature, and thereby they played an important role in the education of the growing generation. Leaders of the nation, from the political and social level, to different social and economic aspects, with their whole existences, have been devoted to the people, to the progressive, beautiful, noble traditions of his ancestors, to his native mother tongue, but they have wrote about fictional traditions, cruelty, racisim, superstition, and those who are against progressive tendencies, sometimes harshly, sometimes sarcastically, sometimes covertly, and more often with an open language and They were intolerant of the situations that smelled of submissiveness and stench.

Автор:

Парвин Джафарова
Азербайджанский Государственный Педагогический Университет
Философия в педагогике доктор
E-mail: cafarova.p@mail.ru

Проблемы школы, науки, просвещения и национального духа в творчестве жертв репрессий

Ключевые слова:
жертвы репрессий; школа, наука и образование; просветительское движение; борьба за прогресс; национально-освободительное движение

Аннотация. В статье предметом исследования и анализа стал взгляд на проблему школы, науки, просвещения и национального духа в творчестве жертв репрессий. Отмечается, что жертвы репрессий посвятили свою жизнь исключительно просвещению нации. Жертвы репрессий систематизировали представления о просвещении, школе, обучении, воспитании, эстетическом видении, женском образовании, детской литературе и др., и тем самым сыграли важную роль в обучении и воспитании подрастающего поколения. Светлые умы нации, от политико-общественных интересов до отдельных морально-нравственных качеств, всем своим существованием были привязаны к прогрессивным, красивым, благородным традициям народа, предков, родному языку. Они противостояли так называемым традициям, тирании, жестокости, расизму, суеверию, антагонизму прогрессивных тенденций, бескомпромиссно выступали против покорности, несносному смраду, порой вели беседы жестким, иногда сарказмом или намеками, а чаще открытым языком.

Repressiya qurbanlarının (Firidun Bəy Köçərli, Salman Mümtaz, Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn və b.) mübarizəsində maarif məsələləri böyük yer tuturdu. 1905-1907-ci illər rus inqilabı məğlub edilsə də, Rusiya vətənimizdə başqa sahələrdə olduğu kimi, məktəb, elm, mədəniyyət, maarif, incəsənət və mətbuat sahəsində də dərin, sağalmaz yaralar açaraq öz işini görmüş, dərin, silinməz izli yaralar buraxmışdır. Bu dərin, silinməz yaralardan biri də şiə, sünni təriqətlərinin ortaya atılması və dini ədavəti qızışdırmaq idi.

Artıq 1828-ci ildən Azərbaycanın Şimali Azərbaycan və Cənubi Azərbaycan adlanaraq iki yerə parçalanması, eləcə də Şimali Azərbaycanda çarizmin ruslaşdırma siyasətinə xidmət üçün qəza məktəbləri (Şuşa (1830), Nuxa (1831), Bakı, (1832), Gəncə (1833), Naxçıvan (1837), Şamaxı (1837) və s.) fəaliyyətə başladı. Knyaz M.S.Voronsovun canişinliyi dövründə müsəlmanlar arasında dini ədavəti qızışdırmaq vasitəsilə Tiflisdə iki məktəb: şiə məktəbi (1847-ci il, dekabrın 13-də) və sünni məktəbi (1849-cu il yanvarın 15-də) açılmışdır. Çarizmin Qafqazda millətlər və dinlər arasında nifaq salmaq siya-sətini yerinə yetirən M.S.Voronsovun səyi nəticəsində bu məktəblərin şəbəkəsi (Quba, Şamaxı, Şəki və s.) tezliklə genişləndirildi.

M.A.Miropiyev çarizmin maarif xadimlərindən olmuşdur. O, XIX əsrin axırlarında Orta Asiyada müəllimlik etmiş, 1901-1909-cu illərdə Qori müəllimlər seminariyasının direktoru olmuşdur. Xırda xalqları ruslaşdırmaq siyasətinin tərəfdarı, təbliğatçısı olmaq və bu ideyanı əməli işdə həyata keçirməyə çalışmaqla məhşur olmuşdur.

Bildiyimiz kimi, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra F.Köçərli öz şəxsi təşəbbüsü ilə Qori seminariyasının Azərbaycan şöbəsini Qazaxda açır. Həmçinin, Firidunbəy Xalq Cümhuriyyətinin hörmətli və nüfuzlu üzvlərindən biri idi. Sovet hakimiyyəti qurulduqdan sonra çox müsavatçılar kimi Firidunbəy də ağır məhrumiyyətlərə məruz qaldı. 1920-ci il may ayının 10-da Köçərliyə müsavatçı, pantürkist damğası vurularaq Gəncə həbsxanasına məhkum edilir.

Heç bir ittiham irəli sürülmədən iki həftə həbsxanada saxlanılan Firidun bəy Köçərliyə bolşevik məmurlar tərəfindən qarayaxmalar, yalan-palan dolu arayışlar, danoslar, təqdimatlar, protokollar tərtib olunur.

Qazax İnqilab Komitəsi tərəfindən 1923-cü il may ayının 23-də Gəncənin Fövqəladə Komissarlığına (komissarına) göndərilən təqdimatda oxuyuruq: "İnqilab komitəsi bildirir ki, "Müsavat" partiyası Qazax şöbəsinin sədri Firidunbəy Köçərlinski, vergi müfəttişi Paşa bəy Vəkilov, mülkədar Nadir bəy Dağkəmmənski və pristav Məcid bəy Vəkilov Qazax qəzasında əks-inqilabçılar və Sovet hakimiyyətini istəməyən şəxslərdir. Çevrilişə qədər (inqilaba qədər – P.C.) geniş imkanları və hakimiyyətləri olan bu şəxslər özlərinin şəxsi burjua məfkurələri naminə hər növ əclaf addımlar atmış və xalqı hər cür üsullarla aldatmışlar...

Firidunbəy Qazağın o vaxtkı general-qubernatoru Əmir xan Xoyskinin möhkəm havadarlığına arxalanaraq özünün Qazax Müəllimlər Seminariyasının tərbiyəçisi kimi müqəddəs vəzifəsini unutmuş, qəza boyu agentlərini yaymış, onların köməyi ilə əhalinin pullarını qarət etmiş, Qazax əhalisini ermənilərə qarşı qaldırmiş, pul və qarşıdurmalar vasitəsilə "Müsavat" partiyasının devrilmiş hakimiyyətini möhkəmləndirməyə səy etmişdir. Həmin alçaq fəaliyyətlərinin nəticəsi olaraq, bu il aprelin əvvəlindəki, hamıya məlum olan erməni-azərbaycanlı toqquşmaları baş vermiş, nəticədə 8 azərbaycanlı kəndi müflis olmuş, yuxarıda göstərildiyi kimi, indi onlar İnqilab Komitəsi pəncərələri qarşısında kütləvi halda toplaşaraq, çörək və başqa maddi yardımlar istəyirlər".

Göründüyü kimi, heç bir əsasa söykənməyən saxta bir təqdimatla Azərbaycan xalqının əvəzsiz ağıl, bilik cövhəri Firidunbəy Köçərliyə cinayət işi tərtib edib güllələmişlər.

Tarixən ənənəyə çevrilmiş "əti sənin, sümüyü mənim" valideyn "xeyir-duası"nın bərəkətindən uşaq çox vaxt "ətdən və sümükdən" ibarət barsız ağaca, manqurta çevrilirdi. Şəki məktəbinin gənc müəllimləri ilk gündən bu ənənəni qırmağa çalışırdılar. Ömər Faiq Nemanzadə təzə açdığı bu üsuli-cədid məktəbində ana dili, tarix, coğrafiya, hesab və imla

dərslərini deyirdi ki, bunlar da yeni nəslin formalaşması üçün əsas fənlər idi.

Köhnə məktəblərin həyatdan və müasir elmdən ayrı düşməsi Salman Mümtazı da narahat edən başlıca məsələlərdən olmuşdur. "Molla Nəsrəddin" jurnalının 26-28, 38 və 48-ci nömrələrində ən böyük əsər kimi tanıdığımız "Mozalanbəyin səyahətnaməsi"ndə mədrəsələrdə fiqh, üsul, şəriət və s. heç bir məna kəsb etməyən dini elmlərin tədris edildiyi tənqid olunur. "Danosverənlər" felyetonunda bu məsələ daha ciddi qoyulmuşdur: "Aşqabadda Müzəffəri şkolasını keçən il mollalar danos verib bağlatdılar. Biçarə uşaqlar küçələrdə sərgərdan qaldı. Bu il yenə də Müzəffəri şkolasından danos veriblər. Biçarə iranlılar qalıblar başı əmmaməli qoçuların əlində". Salman Mümtaz hər yerdə yeni tipli məktəbləri qorumağın və onların sayını artırmağın tərəfdarı idi. O, xalqın nəzərini mollaxanalardan ayırıb məslək dostu Ömər Faiq dünyagörüşünə uyğun olaraq müasir, dünyəvi elmlər öyrədən yeni məktəblərə yönəltmək istəyirdi.

Həmçinin, Salman Mümtaz əsasən mollaxanalarda və ya köhnə məktəblərdə tətbiq edilən bədən cəzasının əleyhinə olmuşdur. Salman Mümtaz yazırdı ki, uşaqlarda hələ məktəb yaşlarından əvvəl öz mənliyinə, insanlıq şərəfinə hörmət tərbiyə olunmalıdır. Bunsuz heç bir əxlaq tərbiyəsi mümkün deyil. Döyülməyə, təhqir olunmağa adət etmişlərdən heç bir insanlıq ləyaqəti gözləmək olmaz. Salman Mümtaz məktəblərdə tətbiq edilən bədən cəzasının əleyhinə idi.

İnqilabi hərəkatın olduqca qüvvətləndiyi, çar hökumətinin vahiməyə düşərək xalq maarifinə qarşı kəskin hücumlar etdiyi bir dövrdə repressiya qurbanları və ya mollanəsrəddinçilər mətbuat səhifələrində çar hökumətinin maarif sahəsindəki siyasətini bəzən ciddi, çox zaman isə sarkazm əhval ruhiyyəsində atəşə tuturdu. Salman Mümtazın "Ədəbiyyat" [1], "Mərhum müəllim Naci həzrətlərinə bənzətmə", "Bu da yahu keçər" [2] adlı və s. şeirləri xalqı elmə, mədəniyyətə və məktəbə çağırır.

"Mərhum müəllim Naci həzrətlərinə bənzətmə" adlı şeirində şair yazır:

...Həp ömrünü ürfanə çalış, əhli-qəyur ol,
Mən fazili-əsrəm deyərək, yazma risalə.
İstər isən etmək füqəra milləti dilşad,
Evladlarını uşkolaya eylə həvalə.
Ey badi-səba, uğragilən Tiflis arayə,
Təzim elə Lağlağıya, Hərdəmxəyalə.
Qürbətdə nələr çəkdiyini aşiqi-zarin
Ərz eylə, kəmal ilə cavab al bu sualə.

Salman Mümtaz "Bu da yahu keçər" adlı şeirində mollanəsrəddinçi dostu Mirzə Ələkbər Sabir sayağı oxucularını dövrlə, həyatla ayaqlaşmağa çağırır, əsil bir vətənpərvər kimi öz xalqının, ölkəsinin tərəqqisinə, inkişafına can atır:

Qonşuların elmə həvəskar ola,
Tibb oxuya, fənnə xəbərdar ola,
Leyk müsürman gedə cindar ola
Dinmə, danışma, bu da yahu keçər.

Rus minə ominibosu, seyr edə,
Nems minə derjabili teyr edə,
Molla Cəfər həmzadı təsxir edə,
Dinmə, danışma, bu da yahu keçər.

Kərpic atan millətə salar ola,
Qatır satan ləşkərə sərdar ola,
Sırf avam şəxs süpəhdar ola
Dinmə, danışma, bu da yahu keçər.

Xalqının ideya-siyasi tərbiyəsində, elmi səviyyəsinin yüksəlişində irəliləyiş göstərməyən, dünyada baş verən sivil hadisələrə əhəmiyyət verməyən vətən övladlarını vətənpərvər şair tərəqqiyə səsləyirdi. Salman Mümtaz başqa xalqların mütərəqqi cəhətlərini öyrənməyə, həyatın müxtəlif sahələrində onlar-dan geri qalmamağı, "məktəbi, maarifi, elmi təbliğ edirdi" [3, s.103].

Yuxarıda qeyd etdiyimiz kimi, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan elmin tərəqqisində geridə qalırdı. Bunun bir səbəbi Rusiya imperiyasının düşünülmüş şəkildə apardığı milli müstəmləkə siyasətindən irəli gəlirdisə, digər səbəbi isə avam xalqın islam dininə kor-koranə baxışından irəli gəlirdi. Ömər Faiq də bunları görərək camaat arasında, mətbuat vasitəsilə geniş təbliğat işi aparır, elmin, maarifin əhəmiyyətini, mədəni yaşayış üstünlüyünü xalqa başa salır və qəflət yuxusundan oyatmağa çalışırdı.

Ömər Faiqin amal dostu Seyid Hüseyn də savadsızlıqdan, elm və maarifsizlikdən əziz

xalqının necə bəlalara düçar olduğunu, dözülməz olduğunu ürək ağrısı ilə "məşhəd xatiratımda" adlı əsərində belə ifadə edirdi: "Müsəlmanların uşaqları üçün məktəblər açılmasa, ən qərib zamanda müsəlmanlıqdan məhv olub gedəcəklər".

Seyid Hüseyn hələ 1907-ci ildə "Bəhlul", sonralar isə "Kəlniyət", "Qurtu-luş" jurnallarında, "İqbal" qəzetində maarif məsələlərinə, həmçinin, nəşr olunan tədris kitablarına xüsusi diqqət yetirmişdir. Naşiri olduğu "Kəlniyət" jurnalında da felyetonlar, satirik şeirlər dərc etdirmiş, həmçinin mollanəsrəddinçilərin əziz dostu sayılan Əzim Əzimzadənin dərin mənalı karikaturalarına geniş yer ayırmışdır.

Karikaturalardan birində şəhər duması təsvir edilir. Dumanın iclasında məktəb məsələsi müzakirəyə qoyulub. Rəyasət heyətində oturan "hacılardan" biri ayağa qalxaraq acıqlı tavrı ilə əlini irəli uzadaraq soruşur: "Müsəlmanlar üçün məktəb açanda bəs hamballığı kimlər edəcəklər!".

Seyid Hüseyn Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Firidunbəy Köçərli, Əbdürrəhim Bəy Haqverdiyev kimi böyük şair və mütəfəkkirlərin yaradıcılığını tədqiq-təhlil edib dəyər verdiyi kimi romantik şair Məhəmməd Hadinin də Kürdəmirdə məktəb açıb dərs deməsindən, uşaqların biliklisavadlı olması üçün elmi gücünü əsirgəmədiyindən ürək dolusu bəhs etmişdir. Seyid Hüseyn yazır ki, yalançı mollalar, axundlar yeni üsullu məktəblərin əleyhinə çıxsalar da, yeni üsullu məktəbləri "kafir ocağı" adlandırsalar da onların kütləvi gücündən qorxmamış, yeni təlim və təhsilə münasibətini birmənalı bildirmişdir. Seyid Hüseyn yazır ki, həmin dövrdə (1914-1915-ci illərdə) Məhəmməd Hadi yaradıcılıq şeirlərinin böyük bir qismini məktəbə, maarifə həsr etmişdir. Seyid Hüseyn Hadi haqqında öz fikirləri ilə yanaşı onun şeirlərindən bir qismini də qəzetdə işıqlandırır:

"Maarif bir səadətdir, edər məsud insani,
Kəmali-şövq ilə talib olaq kəsbi-kəmalətə.
Beşikdən qəbrədək təhsil edək adabi ürfani.
Yetər qəflət, yetər zillət, yetər bu xabi-bipayan,
Deyil yatmaq zamanı, sübh açılmış,
dəhr nurani".

Yaxud:

"Məkatib bildirir elmü fününi noi-insanə",
"Olubdur daqidari-qəm vətən nari-cəhalətdən
Sönüb nuri-məarif tündbadi-cəhlü qəflətdən".

"Qalx! Ey insan oğlu, qalx!" – deyə xalqın elmdən bixəbər, "ölmüş" nü-mayəndələrini ayıltmağa, elmə cəlb etməyə çalışaraq başqa həmvətənlərinə nümunə göstərməyi tövsiyə edən və Məhəmməd Peyğəmbərin "Elm Çində də olsa, tapıb öyrənin!" [5, s.185] kəlamını misal gətirən repressiya qurbanı Hüseyn Cavid də maarif və məktəb, elm və idrak, bilik və insan haqqında olan fikirlərə publisistik əsər sayılan "Həsbi-hal" adlı silsilə yazılarında da geniş yer ayırmışdır. Zəngin mənbə hesab etdiyimiz bu əsər maarif və məktəb tariximini öyrənmək baxımından çox faydalıdır. Hüseyn Cavid elm, bilik, təlim və tərbiyəyə malik olanları hər şeydən əziz tutur və onları "Azərbaycanın maarif zülmətində nur" adlandırırdı. "İşdə üstün gəliyor zülmətə nur" – deyərək "nur"un şöləsinin yayılacağına dərindən inanırdı.

Ümumiyyətlə repressiya qurbanları məktəbin, elm öyrənməyin və öyrət-məyin sadəcə carçısı olmamışlar. Onlar qabaqcıl bir müəllim, pedaqoq kimi təlim prosesində uşaqlara ana dilində müəyyən elmi biliklər verməyin, təbiət və cəmiyyətin müxtəlif hadisələri haqqında onlarda elmi dünyagörüşün formalaş-masının, idrak qabiliyyətlərinin inkişafının təminini əsas götürmüşlər.

Göründüyü kimi, artıq Üzeyir Hacıbəyovun sözləri ilə desək, 1905-1906-cı illərin təsirləri Azərbaycanda tərəqqi və təkamül mənbələrini yaratmışdı. Bu tərəqqi-təkamül mənbələrindən saçılan işıqların dairəsi hər il getdikcə böyüyüb cəhalət qaranlığının ən uzaq guşələrini işıqlandırır [5, 1915, №135]. Azərbaycanın qabaqcıl maarifçilərindən sayılan, xalqın tərəqqisi uğrunda yo-rulmadan çalışan və mübarizə aparan repressiya qurbanı Yusif Vəzir Çəmənzəminli qeyd edir ki, "əsrlərcə yuxuya getmiş qövmlər hərəkətə gəlib, ayılmağa başladılar. İslam aləmi də bu hərəkətə bac verib tərpəndi, gözlərini aç-dı, kəsalətli üzündə dirilik nişanələri göstərdi. Rusiya türkləri "maarif" deyə səsləndilər. Məktəb, mətbuat, xeyriyyə və maarif cəmiyyətləri ortalığa çıxdı" [6, s.350].

Repressiya qurbanlarının yaradıcılığında

məktəb, elm, maarif və milli ruh probleminə baxış və görüşlərimizi sonda belə ümumiləşdirə bilərik:

1. Repressiya qurbanları (Firidun Bəy Köçərli, Salman Mümtaz, Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn və b.) maarifçi hərəkatın aparıcı qüvvələri olmuşlar;

2. Repressiya qurbanları zamanla bizdən nə qədər uzaqdadırsa, xalqın maariflənməsi uğrunda yazdıqları əsərləri ilə, eləcə də apardıqları dönməz mübarizə ilə bizə o qədər də yaxındırlar;

3. Repressiya qurbanları Azərbaycan xalqının milli mənlik şüurunun oya-dılması üçün milli fikir, milli düşüncə hərəkatının öndərləri olmuşlar;

4. Repressiya qurbanları fikir cərəyanı yaratmaqdan daha çox iş, əməl, fəa-liyyət göstəricilərinə çevrilmiş, ictimai həyatın bütün sahələrini öz yaradıcılıq nümunələri ilə əhatə etmişlər;

5. Milli-azadlıq hərəkatından ilham alan repressiya qurbanları dünya xalqlarının humanist mədəni irsinə, xəlqilik prinsiplərinə bağlılığı da işdə və əməldə müdafiə etmişlər;

6. Repressiya qurbanları milli maarifçilik tarixində "dildə, fikirdə, işdə birlik" (İ.Qaspralı) ideyasının daşıyıcısı olmuşlar.

Ədəbiyyat

1. Molla Nəsrəddin jurnalı, – 1910, №15
2. Molla Nəsrəddin jurnalı. – 1910, №37, №38
3. Yaqubov Nəsiman. Ağrılı ömürlər. – Bakı: Yazıçı, – 1990
4. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. V cild. – Bakı: Lider, – 2005
5. Hacıbəyov Üzeyir. Ordan-burdan // Yeni iqbal, – 1915, №135
6. Çəmənzəminli Y.V. Əsərləri. [III cilddə]. – Bakı: Promat, – 2005.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadıqov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 30.12.2021, son daxilolma – 14.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 34-36
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 34-36
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.34-36

UOT 378.048

Yeni təlim texnologiyaları tədqiqatçılıq bacarıqları formalaşdıran amil kimi

Müəllif:

Tərənə Əliyeva
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-mail: taranae@gmail.com

Açar sözlər:
fəal təlim, pedaqoji texnologiya, tədqiqatcılıq, müasir dərs, təlim prosesi

Annotasiya. Təhsil sistemində aparılan islahatlar müasir dərsin məzmununun təkmilləşdirilməsi, yeni təlim strategiya və texnologiyalarının tətbiqini, müəllimin təkmilləşməsini, müasir texnologiya avadanlıqlardan səmərəli istifadəni zərurətə çevirmişdir. Məqalədə yeni təlim texnologiyaları əsasında qurulan dərsin təşkili və təlim prosesində öyrənənlərdə formalaşan bacarıqlardan bəhs edilir. Yeni təlim texnologiyalarının tətbiqi ilə keçirilən müasir dərslərin üstünlükləri, təlim prosesində istifadə edilən fəal təlim texnologiyasının əsaslandığı prinsiplər də məqalədə təhlil edilmişdir. Bu prinsiplərin məzmununun şagirdlərin özünüinkişaf prosesinə təsirləri qeyd edilmişdir. Şagirdlərin idrak fəaliyyətinin, dünyagörüşünün genişlənməsi, bilik və bacarıqların təcrübədə tətbiq edilməsi, müstəqil yaradıcılıq və peşəkarlıq keyfiyyətlərinin yaranması fəal təlim prosesinin uğurlu nəticəsi kimi dəyərləndirilir.

New learning technologies as a factor in forming research skills

Author:

Tarana Aliyeva
Nakhchivan Teachers Institute
Master
E-mail: taranae@gmail.com

Key word:
active learning, pedagogical technology, research, modern lesson, learning process

Abstract. The reforms carried out in the education system have made it necessary to improve the content of modern lessons, introduce new teaching strategies and technologies, improve the teacher, and use modern technology equipment effectively. The article deals with the organization of the lesson based on new learning technologies and the skills formed in the learning process. The article also analyzes the advantages of modern lessons with the application of new learning technologies, the principles on which the active learning technology used in the learning process. The effects of the content of these principles on the self-development process of students have been noted. The expansion of students' cognitive activity, worldview, application of knowledge and skills in practice, emergence of independent creativity and professional qualities are evaluated as a successful result of the active learning process.

Новые технологии обучения как фактор формирования исследовательских навыков

Автор:

Тарана Алиева
Нахчыванский институт учителей
Мастер
E-mail: taranae@gmail.com

Ключевые слова:
активное обучение, педагогическая технология, исследовательская деятельность, современный урок, процесс обучения

Аннотация. Реформы в системе образования сделали необходимым совершенствование содержания современного урока, внедрение новых стратегий и технологий обучения, совершенствование учителя, эффективное использование современного технологического оборудования. В статье говорится об организации урока, построенного на основе новых технологий обучения, и о навыках, которые формируются у учащихся в процессе обучения. В ней также были проанализированы преимущества современных занятий с применением новых технологий обучения, принципы, на которых основана технология активного обучения, используемая в процессе обучения. Отмечено влияние содержания этих принципов на процесс саморазвития учащихся. Расширение познавательной активности учащихся, кругозора, применение знаний и умений на практике, формирование самостоятельных творческих и профессиональных качеств оцениваются как успешный результат активного процесса обучения.

Qloballaşan dünyada baş verən texnoloji inkişaf təhsil sistemi yenilənməsinə, yeni təlim konsepsiyalarının yaranmasına və onlardan geniş istifadə edilməsinə səbəb olmuşdur. Təhsil sistemində aparılan islahatlar müasir dərsin məzmununun təkmilləşdirilməsi, yeni təlim strategiya və texnologiyalarının tətbiqini, müəllimin təkmilləşməsini, müasir texnologiya avadanlıqlardan səmərəli istifadəni zərurətə çevirmişdir. Sadalanan bu yeniliklər müasir dərsin daha yüksək səviyyədə təşkil edilməsini tələb edirki, bunun da nəticəsində görülən bütün tədbirlər təlim keyfiyyətinin yüksəldilməsinə, öyrənənlərin yüksək elmi bilikləri daha səmərəli metod, üsul və vasitələrlə əldə etməsinə xidmət edir. Yeni təlim texnologiyalarında istifadə təhsilin keyfiyyətinə öz təsirini göstərir, şagirdlərdə müstəqillik, işgüzarlıq, təfəkkür fəallığı, məsuliyyət, tədqiqatçılıq kimi keyfiyyətlərin formalaşmasına xidmət edir. Həyatın, elmin sürətlə inkişaf etməsi, elmi biliklərin inteqrasiyasının daha geniş şəkil alması bir sıra yeni yanaşma və pedaqoji texnologiyaların yaranmasına səbəb olmuşdur.

"Texnologiyaya görə təlimin məqsədi şagirdin vəziyyətini, onun biliklərini, fikirlərini, hisslərini, davranışını dəyişməkdir. Texnologiyanın vəzifəsi təlimedici sistemin bütün elementlərini öyrənmək və təlimin prosesini layihələndirməkdir. Bunun sayəsində müəllmin təhsil-tərbiyə işi az qaydaya salınmış hərəkətlərin məcmusundan məqsədyönlü prosesə çevrilir. Bunun üçün təlim texnologiyasının aşağıdakı spesifik əlamətlərini bilmək lazımdır:

1) qarşıya qoyulmuş məqsədlər;

2) bütün tədris əməliyyatlarının təlim məqsədlərinə nail olmağı təmin etməsi;

3) müntəzəm əks əlaqə (nəticələrin cari və yekun qiymətləndirilməsi);

4) öyrədici dövrənin təkrar olunması" [5, s.250].

Müasir pedaqogika peşə kompetensiyalarının və özünütəhsil bacarıqlarının formalaşmasına güclü təsir göstərən şəxsiyyətyönümlü innovativ pedaqoji texnologiyalardan istifadəni zamanın tələbi hesab edir. Bu texnologiyaların tətbiqi isə fəal təlim metodlarından istifadə etməklə təşkil edilir. "Fəal təlim hafizəyə əsaslanan ənənəvi təlimdən fərqli olaraq təfəkkürə əsaslanır. Məhz fəal təlim metodları şagirdlərin orta məktəbdən real peşə problemlərinin həllinə qadir olan, rəqabətə dözümlü mütəxəssis və şəxsiyyət kimi formalaşmasına şərait yaradır" [1, s.132].

Tədris prosesində müxtəlif ənənəvi və fəal təlim metodlarından istifadə edilir. Metod olaraq interaktivlik təlim prosesində müəllim və şagird arasında işin gedişindən, mövzudan, dialoqdan, şərhdən, rollu oyundan və eləçə də həmin anda pedaqoji prosesin gedişindən asılı olaraq meydana çıxan yanaşmanı nəzərdə tutur.

Bildiyimiz kimi, yeni təlim texnologiyalarının tətbiqi ilə keçirilən müasir dərslər bir çox üstünlüklərə malikdir. Bu üstünlükləri aşağıdakı kimi sıralamaq olar:

1. tədris prosesində müəllimin və tələbələrin qarşılıqlı fəaliyyət formasını əks etdirən yanaşmalar

2. şagirdlərin zehni fəaliyyətə, təzahür etməyə sövq edən pedaqoji təsir metod və üsulları

3. yaradıcı təhsil və elmi tədqiqat fəaliyyətinin müxtəlif vəzifələrinin həlli üçün yeni fikirlərin axtarışı.

Kompüter texnikasına əsaslanan təlim sistemlərinin istifadəsini əhatə edən fəal təlim texnologiyaları tədris prosesinin müasir formalarından biri hesab olunur. "Yeni təlim texnologiyaları tədris prosesinin təşkili və həyata keçirilməsi üsuludur, bu dərs zamanı hər bir tələbənin, müəllimlərin birbaşa rəyləri əsasında davamlı fokuslanmış və effektiv tədris və bilik fəaliyyətini təmin edir. Fəal təlim texnologiyaları yalnız mərkəzləşdirilmiş, fərdiləşdirilmişvə differensiallaşdırılmış təlim şəraitində həyata keçirilir" [3, s.76].

Pedaqoji mənbələrdə qeyd edildiyi kimi, təlimin aktivləşdirilməsi həm tədrisin forma və metodlarını inkişaf etdirməklə, həm də bütövlükdə tədris prosesinin təşkili və idarəetməsini təkmilləşdirməklə həyata keçirilə bilər.

Fəal təlim metodları bir sıra təlim məqsədlərinə nail olmaq üçün güclü vasitədir. Didaktik nöqteyi-nəzərdən idrak fəaliyyətinin, dünyagörüşünün genişlənməsi, bilik və bacarıqların təcrübədə tətbiq edilməsi, yaradıcı müstəqillik və peşəkarlıq kimi keyfiyyətlərin yaranması

fəal təlimin əsas üstünlüyü sayıla bilər. Yeni təlim metodlarından istifadənin digər üstünlüyü şagirdlərin cəmiyyətə hazırlığı, ünsiyyət qurması, fikirlərini ifadə etməsi, dinləmə, inandırma, sübüut etmə, özünüidarəetmə, empatiya, tolerantlıq kimi keyfiyyətlərə yiyələnməsidir.

Təlim prosesində istifadə edilən fəal təlim texnologiyası bir sıra prinsiplərə əsaslanır:

- fərdiləşdirmə - bu öyrənənlərin fərdi xüsusiyyətlərini nəzərə almağı özündə cəmləşdirir və səviyyəni yüksəltməyə imkan verir, hər kəsə bu qabiliyyətlərə uyğun təhsil almaq üçün istedadın açıqlanmasını maksimum dərəcədə artırmaq imkanı verir;

- çeviklik – öyrənənlərin istəklərinə uyğun olaraq və istəkləri nəzərə alınmaqla ixtisasslara bölünməyi və daha da spesifik olmasını təmin edən təlimin dəyişkənliyinin birləşməsi ehtimalını özündə cəmləşdirir.

- effektivlik – öyrənələrin müstəqillik əldə etməsi, bunun əsasında onların fərdi qabiliyyətlərinə, gələşək peşə fəaliyyətlərinin xüsusiyyətlərinə və ya sadəcə bilik maraqlarına cavab verən unikal biliklər əldə etmək imkanı verir.

- kontekstivlik – təlim məzmununu gələçək peşə fəaliyyətinin məzmunu və tətbiqi şərtlərinə tabe edir, nəticədə təlim peşəkar uyğunlaşmanın sürətlənməsinə töhfə verən bir kontekstual xarakter alır.

- əməkdaşlıq – nəticə üçün təşəbbüs və şəxsi məsuliyyətin təzahürü üçün şəraiti təmin etməklə, əlaqələrin inkişafını, prosesdə iştirakçıların qarşılıqlı yardım etməsini, həmçinin tələbəyə hörmət və inamın inkişafını nəzərdə tutur.

Pedaqoji ədəbiyyatlarda [1, 3,4] qeyd edildiyi kimi, yeni təlim texnologiyasının formaları şagirdlərin zehni fəallığını artırmaq, müxtəlif xüsusi problemlərin həllinə yaradıcı tədqiqat yanaşması nümayiş etdirmək məqsədi daşıyır. Fəal təlimin formalarının istifadəsi qarşıya məqsəd qoyur - şagirdlər arasında praktik fəaliyyətdə səmərəli həll yollarının tapılması və həyata keçirilməsi üçün tədqiq olunan problem müstəqil, sistemli təhlil etmək bacarıqlarını inkişaf etdirir.

Fəal təlim texnologiyasının müasir formalarına problem əsaslı təlim, rollu oyunlar, "dəyirmi masa", beyin həmləsi, "Ziqzaq" və s. aid edilir.

Fəal təlim texnologiyaları seçərkən aşağıdakı meyarlar yəni uyğunluq nəzərə alınmalıdır:

- təlim prinsiplərinə uyğun məqsəd və vəzifələr;

- öyrənilən proqramın məzmunu;

- öyrənənlərin imkanları: yaş, psixoloji inkişaf, təhsil və tərbiyə səviyyəsi və s.

- təlim üçün ayrılmış şərait və vaxt;

- müəllimin qabiliyyəti: təcrübəsi, peşəkarlığı, bacarıq səviyyəsi, fərdi keyfiyyətləri və s.

Təlim və pedaqoji texnologiyaların tədris prosesinə tətbiqinə nail olan müəllimlər yüksək bilik və təcrübə nümayiş etdirməklə tədris prosesində təşkilatçılığı öz üzərlərinə götürməklə, şagirdlərin fəallığını artırır, onları tədqiqatçılığa sövq edir, düşünmə, tapma qabiliyyətlərini dərinləşdirməyə səy göstərirlər.

Qeyd edilən fikirlərdən aydın olur ki, təlim və pedaqoji texnologiyalar sistemli, elmi və ardıcıl şəkildə tətbiq edildikdə o, təhsilin ayrılmaz bir hissəsinə çevrilir, öyrənənlərin təhlil etmə və onların yaradıcılıq qabiliyyətlərinin formalaşmasına kömək edir.

Ədəbiyyat

1. Əhmədov H., Zeynalova N. Pedaqogika. Dərslik. – Bakı: Elm və təhsil. – 2016, – 456 s.
2. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. Dərslik. [2 cilddə]. – Bakı: Mütərcim, – c.1. – 2013, – 708 s.
3. Mehrabov A., Abbasov Ə.,Zeynalov Z, Həsənov R. Pedaqoji texnologiyalar. – Bakı: Mütərcim, – 2006, – 372 s.
4. Nəzərov M., Quliyev N. Pedaqoji texnologiyalar. Dərs vəsaiti. – Bakı: ADPU, – 467 s.
5. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Yeni kurs. Bakı: "Elm və təhsil", 2012, 464 s.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 12.01.2022, son daxilolma –10.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 37-41
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 37-41
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.37-41

UOT 37.02+378

İnnovativ təhsil şəraitində gələcək müəllimlərin didaktik mədəniyyətinin inkişafının diaqnostikası

Müəllif:

Anar Yaqubov
Naxçıvan Müəllimlər İnstitutu
E-mail:
anaryagubov1980@gmail.com

Açar sözlər:
didaktik mədəniyyət, didaktik bacarıqlar, didaktik qabiliyyətlər, innovativ təhsil, innovasiya fəaliyyəti

Annotasiya. Məqalədə innovativ təhsil kontekstində gələcək müəllimlərin didaktik mədəniyyətinin inkişafının diaqnostikası problemi nəzərdən keçirilir. Burada innovasiya prosesi innovativ fəaliyyət əsasında araşdırılır. Qeyd olunur ki, innovasiyaların yaradılması, inkişafı və tətbiqi yolu ilə təhsilin inkişaf etdirilməsi prosesi kimi şərh etmək olar. İnnovasiya fəaliyyəti isə öz növbəsində yeni təhsil sistemlərinin və ya bu sistemin hər hansı komponentlərinin yaradılması, inkişafı və yayılması yolu ilə təhsil fəaliyyəti təcrübəsinin məqsədyönlü transformasiyası kimi müəyyən etmək olar. Məqalədə həmçinin, alimlərin müqayisəli metoddan istifadə edilməklə, gələcək müəllimlərin innovativ didaktik mədəniyyətinin meyar və göstəricilərinin təhlilinə müxtəlif yanaşmaları sistemləşdirilərək verilmişdir. Nəticədə, mövzu ilə bağlı tədqiqat aparan müəlliflərin didaktik mədəniyyətin inkişaf səviyyələrini necə müəyyən etdikləri və onları necə təsvir etmələri geniş şəkildə şərh edilir.

Diagnosis of the development of didactic culture of future teachers in the context of innovative education

Author:

Anar Yagubov
Nakhchivan Teachers Institute
E-mail:
anaryagubov1980@gmail.com

Key word:
didactic culture, didactic skills, didactic abilities, innovative education, innovative activity

Abstract. The article examines the problem of diagnosing the development of didactic culture of future teachers in the context of innovative education. Here, the innovation process is investigated on the basis of innovative activity. It is noted that innovation can be interpreted as a process of developing education through creation, development and application. Innovation activity, in turn, can be defined as a purposeful transformation of the experience of educational activity through the creation, development and dissemination of new educational systems or any components of this system. The article also systematizes various approaches of scientists to the analysis of the criteria and indicators of the innovative didactic culture of future teachers using the comparative method. As a result, how the authors of research on the topic define and describe the development levels of didactic culture are widely interpreted.

Диагностика развития дидактической культуры будущих педагогов в условиях инновационного образования

Автор:

Анар Ягубов
Нахчыванский институт учителей
E-mail:
anaryagubov1980@gmail.com

Ключевые слова:
дидактическая культура, дидактические умения, дидактические способности, инновационное образование, инновационная деятельность

Аннотация. В статье рассматривается проблема диагностики развития дидактической культуры будущих педагогов в условиях инновационного образования. Здесь инновационный процесс исследуется на основе инновационной деятельности. Отмечается, что инновации можно трактовать как процесс развития образования путем создания, развития и внедрения. Инновационную деятельность, в свою очередь, можно определить как целенаправленную трансформацию опыта образовательной деятельности путем создания, развития и распространения новых образовательных систем или каких-либо компонентов этой системы. В статье также систематизированы различные подходы ученых к анализу критериев и показателей инновационной дидактической культуры будущих педагогов с использованием сравнительного метода. В заключении трактуется то, как авторы, проводя исследования по теме, определяют уровни развития дидактической культуры и описывают их.

İnnovasiya prosesi innovativ fəaliyyət əsasında araşdırılır və onu innovasiyaların yaradılması, inkişafı və tətbiqi yolu ilə təhsilin inkişaf etdirilməsi prosesi kimi şərh etmək olar. İnnovasiya fəaliyyəti isə öz növbəsində "yeni təhsil sistemlərinin və ya bu sistemin hər hansı komponentlərinin yaradılması, inkişafı və yayılması yolu ilə təhsil fəaliyyəti təcrübəsinin məqsədyönlü transformasiyası kimi müəyyən etmək olar.

İnnovativ təhsil şəraitində bütov (integral) inkişaf edən sosial-pedaqoji hadisə kimi didaktik mədəniyyətin mahiyyəti onun meyar səviyyəli xarakteristikasında aydın şəkildə görünür. Didaktik mədəniyyəti araşdıran az sayda tədqiqatçı vurğulayır ki, elmdə onun formalaşma səviyyələrinin diaqnostikası üçün vahid meyarlar yoxdur. Elə bu səbəbdən, bu məqalənin məqsədi innovativ təhsil kontekstində gələcək müəllimlərin didaktik mədəniyyətinin meyarlarının təhlilinə dair tədqiqatçıların fərqli yanaşmalarını sistemləşdirməkdir.

Tədqiqat probleminin həlli, "müəllimin didaktik mədəniyyətinin formalaşdırılması" mövzusunu tədqiq edən yerli və xarici tədqiqatçıların yazdıqları dissertasiyaların avtoreferatlarının təhlili üçün bir-birini tamamlayan nəzəri metodlar toplusu, eləcə də peşə təhsilinin pedaqogikasına dair elmi-praktik konfrans materialları, elmi məqalələr və dərsliklər ilə təmin edilmişdir.

Müasir şəraitdə innovativ fəaliyyət təhsilin keyfiyyətinin yüksəldilməsi üçün ən mühüm vasitədir. R.Ataxanov və V.Zaqvyazinskinin haqlı olaraq qeyd etdiyi kimi, innovasiya cəmiyyətin inkişafının mütərəqqi tendensiyalarına cavab verən, qarşıya qoyulmuş vəzifələri həll etməyə (bəzən daha dəqiq vəzifələr qoymağa) imkan yaradan bir sistemdir və ya pedaqoji sistemin bir elementidir [1, s. 15]. Bu səbəbdən, innovasiya prosesi yalnız bir insanın müəyyən innovativ fəaliyyətlər həyata keçirməsi nəticəsində baş tutur. Elmi və pedaqoji ədəbiyyatın təhlili ilə bu nəticəyə gəlmək olar ki, innovasiya öz transformasiyasında bir-biri ilə əlaqəli iş formaları sistemini ortaya qoyur. Bu iş formalarının məcmusu isə real innovasiyaların meydana gəlməsini təmin edir, yəni:

1) bir şeyin necə ola biləcəyi ("kəşflər") və bir şeyi necə etmək olar ("ixtiralar") haqqında yeni biliklər əldə etməyə yönəlmiş tədqiqat fəaliyyəti;

2) verilmiş şəraitdə qarşıya qoyulan məqsədə çatmaq üçün, elmi nəticələrə əsaslanaraq, hansı addımların atılacağını müəyyənləşdirən xüsusi, instrumental və texnoloji biliklərin inkişaf etdirilməsi məqsədi daşıyan layihə fəaliyyəti ("innovativ layihə");

3) innovativ layihənin praktikaya çevrilməsi üçün nəyi və necə etməli olduqlarına dair hər bir şəxsi biliyin formalaşmasında müəyyən bir sahənin subyektlərinin peşəkar inkişafına yönəlmiş təhsil fəaliyyəti ("tətbiq") [12, s.16].

Ümumi kontekstdə innovasiya proseslərinin inkişafı innovasiyaların yaradılması, yayılması və mənimsənilməsi ilə əlaqədar baş verir. Hərəkətində hər bir yenilik fəaliyyət növünə görə müəyyən mərhələlərdən keçir. Pedaqogikada onlara innovasiyanın həyat dövranı deyilir. Yenilik yaranır, istifadə olunur və müəyyən müddətdən sonra başqa, daha təkmil yaradıcı nəticələrlə əvəz olunur. İnnovativ təhsil yalnız müəllimin inkişaf etmiş didaktik mədəniyyəti sayəsində mümkün olur. Didaktik mədəniyyətin inkişafının meyarları və göstəriciləri isə mübahisəlidir.

Belə ki, O.V.Bodakov müəllimin didaktik mədəniyyətini əks etdirən bir sıra göstəriciləri müəyyən etmişdir: 1) metodik hazırlıq; 2) müasir tədris texnologiyaları, təlim və tərbiyənin yeni üsulları haqqında ixtisaslı biliklər; 3) natiqlik; 4) öz fəaliyyətində psixoloji və pedaqoji elmlərin tövsiyələrini əks etdirmək bacarığı; 5) seçmə fənlərin aparılması, pedaqoji tədqiqatların aparılması metodologiyasına dair biliklər; 6) qabaqcıl pedaqoji təcrübəni öyrənmək və ümumiləşdirmək, pedaqoji biliklərin əhali arasında təbliği bacarıqları [3, s. 63].

N.M.Fatyanova isə öz növbəsində çoxşaxəli gimnaziya müəlliminin didaktik mədəniyyət səviyyəsinin diaqnostikası üçün üç meyar müəyyən etmişdir: 1) didaktik fəaliyyətə dəyər münasibəti (pedaqoji dünyagörüşü ilə müəyyən edilmiş, real peşəkar hərəkətlərdə özünü göstərən didaktik dəyərli istiqamətlər toplusu) , didaktik fəaliyyətin tənzimləyicisi kimi çıxış edən aktlar; 2) ona innovativ fəaliyyət göstərmək imkanı verən texnoloji və innovativ ha-

zırlıq dərəcəsi (mürəkkəb sistemli təhsil, müəllimin xüsusiyyətlərinin və keyfiyyətlərinin çoxşaxəli xarakteristikası); 3) didaktik fəaliyyətdə yaradıcı özünü həyata keçirmə dərəcəsi (didaktik fəaliyyətin yaradıcı mahiyyətinin özünü dərk etməsi prosesi və nəticəsi) [5, s. 36].

Bununla yanaşı T.V.Popova öz tədqiqatlarında belə nəticəyə gəlmişdir ki, didaktik mədəniyyətin formalaşması üçün meyarlar toplusunun müəyyən edilməsi ibtidai sinif müəlliminin didaktik mədəniyyətinin səmərəli formalaşdırılması üçün mühüm pedaqoji şərtdir. Bu müəllif didaktik mədəniyyətin formalaşması meyarlarını, onun tərifinə və struktur mənalı komponentlərinin ayrılmasına əsaslanaraq sistemli formalaşma kimi fərqləndirmişdir. Tədqiqatçı didaktik mədəniyyətin formalaşması meyarlarını müəllimin pedaqoji fəaliyyətə hazırlığının strukturundan və ibtidai sinif müəlliminin didaktik mədəniyyətinin məzmun modelindən istifadə etməklə müəyyən edilmiş bilik, bacarıq və şəxsi keyfiyyətləri kimi başa düşür. T.V.Popova didaktik mədəniyyətin formalaşması üçün aşağıdakı meyarları əsaslandırmışdır: 1) kiçik yaşlı şagirdlərin tədrisi prosesinin dəyər məqsədlərini və dəyər məzmununu müəyyən etmək bacarığı daxil olmaqla, metodoloji savadlılıq; 2) şəxsiyyətyönümlü pedaqoji texnologiyalara sahib olmaq; 3) fənnyönümlü pedaqoji texnologiyalara malik olmaq; 4) mədəni və yaradıcı pedaqoji texnologiyalara sahib olmaq; 5) təhsil vəziyyətinin, pedaqoji fərziyyənin, səhvləri qiymətləndirmək mədəniyyətinin, pedaqoji yardım mədəniyyətinin, (özünü) əks etdirmə mədəniyyətinin yaradılması ilə izlənilə bilən şəxsi-insani qarşılıqlı əlaqə strategiyalarının mənimsənilməsi [11, s.57].

O.A.İqumnov apardığı tədqiqatlarda belə bir qənaətə gəldi ki, texniki kollecdə müəllimin didaktik mədəniyyətinin formalaşması meyarlarının əsaslandırılmasının zəruri nəzəri şərti məvhumun formalaşması meyllərini və şərtlərini öyrənməkdir. O, hesab edirdi ki, texnikum müəlliminin didaktik mədəniyyəti aşağıdakı meyar-indikativ əlamətlər sistemi vasitəsilə ifadə olunur: 1) pedaqoji fəaliyyətin müxtəlif növlərinə yiyələnməyi və innovativ didaktik problemlərin həlli üçün üsullardan istifadə etmək bacarığını əhatə edən texnoloji hazırlıq; 2) müəllimin didaktik mədəniyyətinin formalaşması istiqamətində onun yaradıcı, nəzəri və metodoloji hazırlığına zəmin yaradan innovativ hazırlıq; 3) həm müəlliflərin, həm də həmkarlarının didaktik fəaliyyət zamanı təcrübə yolu ilə qazandıqları innovasiyaların daimi praktiki istifadəsini nəzərdə tutan tədris fəaliyyətinin innovativ istiqamətləri; 4) didaktik fəaliyyətin nəzəri və praktiki baxımdan dərk edilməsi və əks olunması səviyyəsi kimi pedaqoji təfəkkürün inkişaf dərəcəsi; 5) peşəkar və pedaqoji özünü təkmilləşdirmək və peşədə yaradıcı inkişaf arzusu [6, s. 76].

L.N.Makarova və A.A.Usov əlavə təhsil müəlliminin peşəkar və didaktik mədəniyyətinin meyarlarını və göstəricilərini müəyyən etməyə cəhd etmişlər. A.A.Usovun fikrincə, didaktik mədəniyyətin meyarları peşə və didaktik fəaliyyətə, biliklərin mövcudluğuna (peşəkar və psixoloji-pedaqoji), didaktik vasitələrin mənimsənilməsi və onların pedaqoji fəaliyyətdə həyata keçirilmə dərəcəsinə münasibəti özündə ehtiva edir [8, s. 28].

2008-ci ildə nəşr olunan bir neçə dərslikdə didaktik mədəniyyətin aşağıdakı göstəriciləri vurğulanmışdır:

- tədris prosesini optimal təşkil etmək bacarığı;
- şagirdlərin düzgün motivasiyasını təmin etmək bacarığı;
- müasir tədris metodları və formaları haqqında biliklər;
- tələbələri təhsil fəaliyyəti zamanı müstəqil axtarışa sövq etmə üsullarını bilmək və tədris prosesinin effektivliyinə nəzarət və uçotu səmərəli təşkil etmək bacarığı.

G.M.Krinitskaya bütün meyar və göstəricilərdən istifadə edərək didaktik mədəniyyəti tədqiq etmişdir. Digərləri arasında o, didaktik fəaliyyətə dəyərli münasibətə, didaktik fəaliyyətin həyata keçirilməsinə texnoloji hazırlığa, subyektlə subyektin qarşılıqlı əlaqəsinin qurulmasına, didaktik fəaliyyətdə yaradıcı özünü həyata keçirməyə, yaradıcı (innovativ) fəaliyyətlərə, layihələrə və texnologiyaya hazırlığa və eləcə də onların yaradıcı məhsuldarlığına əsaslanırdı [7, s.86].

Bəzi ukraynalı tədqiqatçılar öz tədqiqatla-

rında didaktik mədəniyyətin meyar və göstəricilərinin təhlilinə nail olmuşlar. Belə ki, V.İ.Grinev didaktik mədəniyyətin səviyyələrini aşağıdakı meyarlara görə fərqləndirmişdir: 1) didaktik fəaliyyətə marağın davamlılığı; 2) didaktik bilik, bacarıqların formalaşma səviyyəsi; 3) məsuliyyət və tələbkarlıq ölçüsü; 4) bacarıqların inkişafı; 5) özünə hörmətin adekvatlığı [4, s. 18].

O.Sinçişina və S.Morozov müəllimin didaktik mədəniyyətinin formalaşma səviyyələrini aşağıdakı meyarlar üzrə aşkar etmişlər: 1) didaktik dəyərlərin formalaşması; 2) didaktik fəaliyyətə texnoloji hazırlıq dərəcəsi; 3) motivlərin və ehtiyacların istiqamətləri və növləri; 4) fəallıq, yaradıcılıq və təşəbbüskarlıq dərəcəsi; didaktik bacarıqların formalaşma səviyyəsi; 5) didaktik fəaliyyətə münasibət; 6) nəzəri və metodoloji hazırlıq dərəcəsi; 7) didaktik mədəni yaradıcılığa hazırlıq dərəcəsi [9, s. 8].

U.V.Balaşova müəllimin didaktik mədəniyyətinin formalaşma səviyyəsini aşağıdakı meyarlara görə müəyyənləşdirmişdir: psixoloji və pedaqoji biliklərin mövcudluğu və keyfiyyəti; didaktik bacarıqların formalaşma dərəcəsi; şagirdlərə dəyərli münasibət; təhsil fəaliyyətlərinə maraq; pedaqoji yeniliklərə açıqlıq dərəcəsi [2, s. 4].

A.V.Perevozni hesab edir ki, müəllimin didaktik mədəniyyəti təhsil prosesinin bütün mərhələlərində, yəni nəticələrin hazırlanmasında, aparılmasında, təhlilində özünü göstərir. Tədris prosesinin bütün komponentlərində (məqsəd, məzmun, metodlar, alətlər, formalar) tələbələrin imkan və tələbatlarına nə dərəcədə uyğunlaşdırılması ilə mühakimə oluna bilər. Onun fikrincə didaktik mədəniyyət aşağıdakılarla ifadə olunur:

• tələbələrin əldə etdikləri təlim səviyyəsinin diaqnostikası və qiymətləndirilməsi;

• tədris metodlarının və ya təlim mətnlərinin seçilməsi;

• müəllimin tələbələrə təyin etdiyi vəzifə (aktiv və ya passiv);

• tələbənin formalaşan şəxsiyyətinə təsirini nəzərə alaraq qarşılıqlı əlaqə tərzinin seçilməsi necə həyata keçirilir [10, s. 126].

Tədqiqat məlumatlarını və didaktik mədəniyyətin inkişafının praktik nəticələrini ümumiləşdirsək, innovasiyaya təcrübənin zənginləşdirilməsi istiqaməti kimi yanaşa bilərik. Bu, təkcə subyektiv deyil, həm də obyektiv olaraq yeni pedaqoji təcrübələr yaratmaq bacarığıdır. Beləliklə, praktiki təcrübənin nəzəri təhlili və ümumiləşdirilməsi, təhsildə innovativ proseslərə dair elmi tədqiqatlar rus və xarici pedaqoji ədəbiyyatda didaktik mədəniyyətin öyrənilməsi üçün müəyyən nəzəri potensialın yığıldığını deməyə imkan verir. Fərqli nəticələrin ümumiləşdirilməsi onu deməyə əsas verir ki, didaktik mədəniyyətin meyar və göstəriciləri haqqında ilkin təsəvvürlər artıq formalaşmışdır.

Ədəbiyyat

1. Атаханов Р. и Загвязинский В. (2005). Методология и методы психолого- педагогического исследования. Россия, Москва: Академия.
2. Балашова, Ю.В. (2010). Дидактическая культура высших военнослужащих как педагогическая проблема. Хмельницкий, Украина: Национальная академия Государственной пограничной службы Украины имени Б. Хмельницкого.
3. Бодаков, А.В. (1976). Системный характер подготовки учителей-предметников. Гродно, СССР: Колосс.
4. Гринёв В. (2002). Формирование дидактической культуры будущего учителя (Диссертация кандидата педагогических наук). Украина, Харьков: Харьковский государственный педагогический университет.
5. Fatjanova, N.M. (1999). The formation of the didactic culture of a teacher of a multidisciplinary gymnasium (Dissertation of Candidate of Pedagogical Sciences). Ukraine, Kharkiv: Kharkiv State Pedagogical University.
6. Igymnov, O.A. (2003). The development of didactic culture of a technical college teacher (Dissertation of Candidate of Pedagogical Sciences). Russia, Belgorod: Belgorod State University.
7. Krinitskaja, G.M. (2011). The development of teacher's didactic culture in the process of continuing education (Dissertation of Candidate of Pedagogical Sciences). Russia,

Yaroslavl: Yaroslavl State Pedagogical University.
8. Makarova, L.N., & Usov, A.A. (2003). Professional didactic culture of a teacher of additional education. Russia, Tambov: Tambov State University.
9. Morozov, S., & Senchishina, O. (2009). Features of the methodology for determining the levels of the didactic culture of a teacher of a higher military educational institution. Ukraine, Ternopil: Ternopil National Pedagogical University.
10. Perevozniji, A.V. (2012). Didactic culture: essence, formation, development. Educational Innovation, 3, 122-133.
11. Popova, T.V. (2002). Pedagogical conditions for the formation of didactic culture of an elementary school teacher (Dissertation of Candidate of Pedagogical Sciences). Russia, Izhevsk: Udmurt State University.
12. Slobodchikov, V.I. (2003). Problems of formation and development of innovative education. Educational Innovation, 2, 4-28.
13. Uvarovskaja, O.V. (Ed.). (2008). Pedagogy.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 5.01.2022, son daxilolma – 01.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 42-46
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 42-46
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.42-46

UOT 373.5+94

Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərində humanizm tərbiyəsi

Müəllif:

Əfsanə Əlizadə
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: efsane95@gmail.com

Açar sözlər:
Nizami Gəncəvi, "Sirlər xəzinəsi" əsəri, humanizm, mənəvi dəyərlər, şəxsiyyətin formalaşması, həyat təcrübəsi

Annotasiya. Məqalədə görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərində humanizm tərbiyəsi haqqında görüşlər təhlil obyektinə çevrilmişdir. Qeyd edilir ki, Nizami Gəncəvi əsər boyu mənəvi zənginlik uğrunda mübarizə aparmış, həmçinin ikiüzlülüyü, riyakarlığı, yalanı və s. də tənqid atəşinə tutmuşdur. Göstərilir ki, Nizami Gəncəvi gəldi-gedərli dünyada oxucusunu səbirli olmağa, əqidəsində möhkəm və qətiyyətli olmağa səsləyir. Yalnız bunlarla insan həyatda qalib və xeyirxah ola bilər. Təhlilə cəlb olunan bu kimi fikirlər (tərbiyəvi, əxlaqi və mənəvi ideyalar) tədqiqatçı tərəfindən pedaqoji aspektdə təhlil edilir. Azərbaycan mədəniyyətinə məxsus əxlaqi keyfiyyətlər müstəvisində bu mədəniyyətin daşıyıcısı Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərindəki əxlaq və tərbiyə haqqında fikirləri öyrənilmiş, daha dəqiq desək, bu böyük xəzinənin pedaqoji əsasları üzə çıxarılmışdır.

Author:

Afsana Alizade
Nakhchivan Teachers Institute
E-mail: efsane95@gmail.com

Key word:
Nizami Ganjavi, "Treasure of Secrets", humanism, moral values, personality formation, life experience

The education of humanism in the "Treasure of Secrets" by Nizami Ganjavi

Abstract. In the article, the views on humanism education in the work "Treasure of Secrets" by the famous Azerbaijani poet Nizami Ganjavi became the object of analysis. It is noted that Nizami Ganjavi fought for spiritual wealth throughout the work, as well as hypocrisy, hypocrisy, lies, etc. also criticized. It is shown that Nizami Ganjavi calls his readers to be patient, to be firm and determined in their convictions in a changing world. Only with these, a person can win and be good in life. Such ideas involved in the analysis (educational, moral and spiritual ideas) are analyzed by the researcher in a pedagogical aspect. At the level of moral qualities belonging to Azerbaijani culture, the ideas of Nizami Ganjavi, the bearer of this culture, about morality and education in the work "Treasure of Secrets" were studied, and more precisely, the pedagogical foundations of this great treasure were revealed.

Автор:

Афсана Ализаде
Нахчыванский институт учителей
E-mail: efsane95@gmail.com

Ключевые слова:
Низами Гянджеви, произведение «Сокровищница тайн», гуманизм, духовные ценности, формирование личности, жизненный опыт

Воспитание гуманизма в произведении «Сокровищница тайн» Низами Гянджеви

Аннотация. В статье стали объектом исследования и анализа взгляды на воспитание гуманизма в произведении «Сокровищница тайн» выдающегося азербайджанского поэта Низами Гянджеви. В ней отмечается, что Низами Гянджеви всю жизнь боролся за духовное богатство, а он также подверг критике двуличие, лицемерие, ложь, неискренность и т.п. Показано, что Низами Гянджеви призывал читателя быть в этом бренном мире терпеливым, твердым и решительным в своих убеждениях. Только с ними человек может стать добрым и победителем в жизни. Такие идеи (воспитательные, нравственные и нравственные), привлекаемые к анализу, рассматриваются исследователем в педагогическом аспекте. В статье в плане нравственных качеств, присущих азербайджанской культуре, были изучены представления о нравственности и воспитании носителя этой культуры Низами Гянджеви в его произведении "Сокровищница тайн", а точнее, раскрыты педагогические основы этого большого сокровища.

N.Gəncəvi bu poema vasitəsilə özünün humanist fikirlərini insanlara çatdırmış, bəşər övladlarını ədalətli olmağa səsləmişdir.

Bir çox tədqiqatçılar N.Gəncəvini "inancsız" şair kimi qələmə almışlar. Buna səbəb onun humanist fikirləri olmuşdur. Araşdırmalara əsasən humanizmin insani məsələlərdə fövqəltəbii inancları rədd etməsi fikri irəli sürülmüşdür. Amma humanizm heç vaxt dini inancları hədəf olaraq seçməmişdir. Humanizmin məqsədi insanı hər cür asılılıqdan azad etməkdir. N.Gəncəvinin humanist fikirlərində məqsədi insanı günah əməllərdən, var-dövlət hərisliyindən azad etmək olmuşdur.

N.Gəncəvi bu poema vasitəsilə insanda olan bütün mənfilikləri, ona yaraşmayan hərəkətləri tənqid etmişdir. Belə hərəkətləri heç kimə yaraşdırmamışdır, buna görə də poemada fərqli və rəngarəng obrazlar yaratmışdır.

"Sirlər xəzinəsi" didaktik poema janrında yazılmışdır. Poemada şairin ictimai-fəlsəfi görüşlərini ifadə edən 20 söhbət və 20 hekayə yer alır. Hekayələr söhbətlərin ideyasına uyğun şəkildə bir növ söhbətlərin izahı rolunu oynayır

Adəmin yaradılmasına dair adlanan birinci söhbətdə N. Gəncəvi hələ günah işləməyən Adəm və Həvvanın birlikdə cənnətdə dolaşmasından danışır. Həzrəti Adəm mələk və pərilərin son yavrusu sayılır. Adəm səmada yaşayan mələklərin, pərilərin varisi və bütün bəşəriyyətin atasıdır və deməli yaşamaq aynasıdır.

Adəmin günahı buğdaya tamah salmasıdır. Bununla da Adəm Allah tərəfindən cənnətdən qovularaq yer aləminə göndərilir. Yer aləmində Adəm günəşin isti şüaları altında elə yanır ki, dərisi saman rənginə bənzəyir

Buğda yeyincə, üzü buğda rəngini aldı,
Bərk utandı, ay kimi, saman kimi saraldı.
Dəyərsiz bir buğdaya elə ki, tamah saldı
Özü də buğda kimi çılpaq, lüt -üryan qaldı [4, s.89].

Nizami oxucusunu nəfsinə tabe olmağa, nəfsinin qulu olmamağa səsləyir.

Öz arpa çörəyini qənaətlə ye ki sən
Adəm düşən buğdanın toruna düşməyəsən [4, s. 90].

N.Gəncəvinin fikrincə, cismani və mənəvi hüsnün atributlarından biri nəfsi bütövlükdür.Yalnız nəfsini cilovlamağı bacaran el içində hörmətli ola bilər. Alaq otu tikanı əkin sahəsində sevilmədiyi kimi, nəfsinə tabe olmayanlar da cəmiyyət arasında sevilmir. N.Gəncəvi isə fikini belə izah edir.

Dön bahar ruzigarına, çiçək gəmisi ol ki,
Bostandan qovmasınlar səni tikanlar təki [4, s.91].

Ümidsiz padşahın bağışlanması dastanı isə birinci söhbətin bir növ izahı mənasında yazılmış dastanda N.Gəncəvi Adil şahın yuxuda zalım bir sultan görməsindən danışır.. Həmin sultan vaxtı ilə qanlar tökmüş, evlər yıxmış, əhaliyə zülm etmişdir. Adil şah sultandan Tanrının ona nə kimi cəzalar verdiyini soruşur. Sultan cavabında bildirir ki, ömrünün sonlarında ətrafına baxır və heç kimin ona mərhəmət etmədiyini görür. Etdiyi zülmlərin günahını çiyinlərindən atmaq üçün Allaha pənah gətirir və dualar etməyə başlamış, əməllərindən peşiman olduğunu yalvarışlarında bildirmişdir. Allah onun yalvarışlarını qəbul etmiş və həmin zalım sultanı bağışlamışdır. Nizami onun bağışlamasını aşağıdakı poetik misra ilə bu şəkildə göstərir.

Feyzlə qəbul etdi mənim yalvarışımı,
Çiynimdən dağ götürdü, sığalladı başımı. [4, s.94]

Dastanın əsas ideyasında N.Gəncəvi, ömrünü var-dövlət yığmağa həsr edənlərə səslənir və dünyanın fani olduğunu söyləyir. Hər gün ömrümüzdən gedir. Onu boş işlərə sərf etməkdənsə, əbədi dünya üçün hazır olaq. Yığdığımız nə varsa paylayaq, insanlara yaxşılıq edək. Yalnız bu halda günahlarımız bağışlanar və beləliklə qul haqqından azad olarıq. Fikirlərini oxuculara bu şəkildə çatdırır.

Hər nə almısansa, ver cəm etməyə can atma!
Əlindən gələn qədər payla, bölüş uzatma!
Belin məzlum əlindən, boynun kölə haqqından,
Qurtulsa, qiyamətdə bəlkə taparsan aman. [4, s. 94]

Ədalətli və insaflı olmağa dair adlanan ikinci söhbətdə Nizami kainatın bəzəyi, mələklərin varisi hesab etdiyi insanı hər zaman zirvədə təsvir edir. Digər canlılardan fərqli olaraq Allah insana şüur, təmkin, ədalət vermişdir. Buna görə də, insan baş verən ha-

disələri ətraflı düşünməli, mərhəmətli olmalı, ömrünü yaxşı işlər görməyə sərf etməlidir. İnsan yer üzünün şahı sayılır, bir şahın ən böyük vəzifəsi isə ədalətli və xeyirxah olmasıdır. İnsan idrakından istifadə edərək hər iki dünyasını xoş əməllərilə zənginləşdirməlidir. Bunun yolu isə yalnız Tanrıya üz tutmaqla ola bilər. İnsan dünyada qazandığı maddi zənginlikdən əl çəkməli, əsl xəzinə olan mənəvi zənginlik uğrunda mübarizə aparmalıdır. N.Gəncəvi yaxşılıq etməyi alverə bənzədir və bir yaxşılığın qarşılığının on qat artıq insana geri dönəcəyini söyləyir.

Bu alverdə, bu yolda ruzuya çatmaq asan,
Bir alıb, on verirsən, düz on qat qazanırsan [4, s. 96].

Dinini qorumaq hər bir müsəlmanın borcudur. Dinimiz bizə Həzərti Adəmin qoyub getdiyi mirasdır. Bu miras uğrunda əsrlər boyu müharibələr baş vermiş, qanlar tökülmüşdür. N.Gəncəvi bu döyüşləri xatırladaraq deyir:

Dini sevib qorumaq sənin borcundu hər gün,
Bu yola can qoyublar haqsevərlər haqq üçün [4, s.97]

Zülm edən insan həyatda heç nəyə nail ola bilməz. İnsaflı, xeyirxah insanlar dünyada mülk sahibi olar və əbədi olaraq dünyada ad qazanar.

Zülm ilə tutmaq olmaz bu cahanı, bu mülkü,
Mülkü ələ gətirmək yalnız insafla mümkün!
Ədalət təşnəsidir, inan bu gözəl diyar,
Ədl ilə iş görənlər əbədi özül tapar [4, s.98]

Adil Nuşirəvan ilə vəzirin hekayətində Nuşirəvan vəziri ilə birlikdə ova çıxmağa qərar verir, onlar meşəyə yollanırlar, yolda qarşılarına bir xarabalıq çıxır, burada iki bayquşun səs-səsə verdiyini eşidən Nuşirəvan ayaq saxlayır və vəzirindən bayquşların söhbətinə qulaq asmağı tapşırır, daha sonra isə vəzirindən bayquşların söhbətini xəbər alır. Vəzir bayquşları dinlədikdən sonra onların söhbətini aşağıdakı şəkildə izah edir:

Bu quş verib qızını, başlıq umur o quşdan,
Gəlin başlığı istər bir az öncə, bu başdan.
Deyir: bu viran kəndi cehiz verirsən mənə,
Bir neçə xərabə də qoymalısan üstünə.
O biri quş deyir ki, əbəs alver etməyək,
Şahın zülmlərini görüb qüssədən əl çək [4, s.99].

Bu sözləri eşidən Nuşirəvan sanki qəflət yuxusundan oyanır xalqına nə qədər zülmlər etdiyini, günahsız insanları nə qədər incitdiyini anlayır. Tutduğu əməllərdən peşiman olan şah özünü bir anlıq cəhənnəmdə təsəvvür edir:

Barsız, miskin ömrümün mükafatı-cəhənnəm,
Mənim sümüyümü də yandıracaq bu sitəm [4, s.100].

Şah bu hadisədən sonra tamamilə dəyişir, xalqına ədalətlə davranır və onların qayğısına qalır. Şahın belə dəyişib ədalətli olduğunu görən əhali artıq şaha Adil Nuşirəvan adını verir və o dövrdə şahın adına yazılan sikkələrin üzərində adının önünə "Adil" sözü yazılır. N.Gəncəvinin hər bir əsərində olduğu kimi bu hekayəsində də ədalətli şah obrazı ön plandadır. Şahı bayquşların dili ilə tərbiyə edən N.Gəncəvi bu vasitə ilə dövrünün hökmdarlarına səslənir, onları ədalətli olmağa, xalqın yanında olmağa səsləyir, yalnız bu yolla könüllərdə əbədi yaşamaq olar.

Dünya hadisələrinə dair adlanan söhbətdə elə bir zəmanə gəlmişdir ki, istədiklərini əldə etmək üçün insanlar min bir oyuna əl atır, bir-birilərinə hiylə işlədirlər. Nəfsinin əsiri olub günah edənləri N.Gəncəvi "cılız, fikri dar" adlandırır. Çünki onlar bütün varlığı ilə bu dünyadan yapışmış, əsas aləmi unutmuşlar.

Min bir oyundan çıxır hoqqabaz fələk aşkar,
Gördüklərin göy boyda, amma, fikrin cılız, dar [4, s.104].

Şairin fikrincə insanlar yaşasa da insanlıq məhv olmuşdur, ədalətli, humanist dünyadan əsər-əlamət qalmamışdır. Zülmkarlıq dünyada hökm edir, əsl kişilər, mərd oğullar qeybə çəkilmişdir. Bu fikrini isə belə deyir:

Hanı ülfət, mərifət? İtib, tələf olubdur,
İnsanlar qalırsa da, insanlıq məhv olubdur.
Dünya uzaq düşübdür Süleyman dünyasından,
Sanki qeybə çəkilmiş gerçək insan, ər insan [4, s.105].

Süleyman peyğəmbərlə qoca əkinçinin hekayətində Süleyman peyğəmbər çöl səmtinə doğru yol alan zaman orada bir qocanın torpağa ovuc-ovuc dən səpdiyini görür. Bu hə-

rəkəti öz fikrincə acgözlük kimi qiymətləndirən Süleyman peyğəmbər, qocaya yaxınlaşıb ona gözütox olmağı, bu yaşda belə əziyyət çəkməməsini söyləyir. Əvvəlcə əkdiyini biçib yeməsini məsləhət bilir

Biraz mərdanə davran, gözütox ol, ey qoca!
Əkdiyini biçib ye, bəsdir, tər tökmə bunca [4, s.106]

Qoca cavabında onun işinin zəhmət olduğunu, bu yaşa kimi əməklə, zəhmətlə gəldiyini, halal zəhmətdən bir dənin ona yeddi yüz dən verəcəyini deyir. Çünki bu dənləri bir-bir torpağa basdırır və alnının təri ilə suvarır. Halal zəhmətlə insan bir ömür rahat yaşayır.

Bax, budur suyum mənim – alnımdan süzülən tər,
Lingim, belim, külüngüm – bu dırnaqlar, bu əllər.
Bu taxılı şeytanla şərik əkməmişəm mən,
Yəqin birə yeddi yüz verəcək bu halal dən [4, s.107]

Rəiyyətin haqqını padşahın qoruması adlı söhbətində N.Gəncəvi öz dili ilə dövrünün hökmdarlarını tənqid edir, onları ədalətli olmağa, öz vəzifələrini layiqincə yerinə yetirməyə səsləyir. Gününü kef məclislərində keçirən dinini, qılıncını bir kənara atan padşaha iradlar tutur onun əməllərini dul bir qadının mərdliyi ilə qarşılaşdırır.

Sən Quranı, qılıncı bir kənara atmısan,
Şərəfini bir xılta, bir qədəhə satmısan.
Saçlarıyla quyudan su çıxardan Rabiə,
Nicat verdi köpəyə - yeddi mərddən birinə [4, s.108]

Padşahdan mərdləri incitməməsini istəyir, çünki dünyanı yalnız mərd olanlar, ətrafındakılara yaxşılıq edənlər xilas edəcəklər. Mələlərdən belə yüksək zirvədə duran insanın, Allahın köməyi ilə yer üzündən zülmkarlığı qaldıra biləcəyini dilə gətirir. Dünyada ədalətsizlik baş alıb gedir, xalqa haqqın tərəfdarı olan padşahlar lazımdır.

Cahanın qəddarlığı onsuz da bəsdir bizə,
Yalnız haqqı qoruyan şahlar nəfəsdir bizə. [4, s.110]

Qarı ilə Sultan Səncərin hekayəsində yaşlı qarı bir gün Sultanın qabağını kəsir onun ətəyindən yapışaraq ah-nalə edir. Sultanın adamları günahı olmadığı halda qarının evinə girmiş ona kobud davranmış, hətta şillə vurub, birçəklərini yolmuşlar. Qarı bu ədalətsizliyin səbəbini sultanda görür, xalqına güc, qüvvət vermək yerinə onlara zülm edir.

Qaydadır ki, sultandan xalqa güc, qüvvət gələr,
Bəs niyə səndən bizə daim həqarət gələr? [4, s.111]

Nizami yaşlı qarının dili ilə dövrünün hökmdarlarını tənqid edir onları zülmdən, zorakılıqdan uzaq durmağa səsləyir. Hökmdar xalqı yalnız ədalətli davranmaqla özünə tabe edə və ölkəsində əmin-amanlıq yarada bilər. Amma qarının dedikləri Sultan Səncərə təsir etmir. N.Gəncəvi artıq ədalətin ərşə çəkildiyini deyir.

Xorasan ölkəsinin hökmdarı Səncərə,
Kar etmədi bu sözlər, düşdü başı cəncələ.
Bu dövrdə ədalət ərşə çəkilmiş inan,
Asılmışdır o yalnız Simruğun qanadından [4, s.112]

Qocalığın sifətləri adlanan beşinci söhbət insanın cismində cavanlığın və qocalığın daim bir-birilə mübarizə aparmasından danışılır. İllər ötmüş, yaş dolmuş bu mübarizəni artıq qocalıq qazanmışdır. Cavanlıq ömürdən bir axar çay kimi axıb getmişdir. Qara saçlar ağarmış, al yanaqlar solmuşdur. Nizami gəncliyi və qocalığı dörd ünsürlə yəni, torpaq, yel, od, su ilə müqayisə edir. Torpaq və yeli gənclik, od və suyu isə qocalıq əlaməti hesab edir.

Ömrün gözəl günləri ötüşdü, gecə düşdü,
Torpaq yellə öpüşdü, atəş suyla görüşdü [4, s.113]

Nizami bu söhbətdə artıq özünündə qocalığına işarə edərək deyir:

Axı, kimin gəncliyi döndü dədə mülkünə?
Mənə vəfa qılmadı, vəfa qılarmı sənə?
Gənclik sovuşdu getdi, heyhat, qəflət içində.
Təəssüflər yandırar məni, heyrət içində [4, s.114]

N.Gəncəvi qocalıqla yanaşı insanda olan mənəvi keyfiyyətlərə də toxunmuş, ikiüzlülüyü tənqid etmişdir. İkiüzlü insanları qışda yarpağını töküb, yazda çiçəkləyən ağaca bənzədir. Yavan duz-çörəyi yalanla, əluzunluqla

qazanılmış yeməkdən üstün tutur.

Suyun çörəyin varsa, ora-bura can atma,
Əlini kəfkir kimi hər qazana uzatma!
Halal duz-çörəyindən doymursansa əgər sən,
Otu, suyu samanı kimdir alan əlindən?
[4, s. 116]

Kərpickəsən qocanın hekayətində yaşadığı həyatın enişli-yoxuşlu yollarından keçməyən, çətinlik nədir bilməyən gənc bir dəliqanlının kərpickəsən qoca ilə qarşılaşmasından danışan N.Gəncəvi bu gənci əməkdar qocanın dili ilə tərbiyə edir. Gənc oğlan, qocanın min bir əziyyətlə kərpic kəsib satdığını görüb, ona iradlar tutur, heç kimin qocadan bir qarın çörəyi əsirgəməyəcəyini deyir:

"Bu nə işdir, görürsən?.. Bu nə düşkünlük, qoca,
Yalnız qullar, kölələr dözər zillətə bunca!
Qalx ayağa, torpağa qılınc vurma bu qədər,
Bir qarınlıq çörəyi səndən kim əsirgəyər?! [4, s.117]

Qoca cavabında gənc oğlana belə deyir: - "Bu sənəti ona görə öyrənmişəm ki, yaşlandığı zaman kiməsə möhtac olmayım, heç kimə ağız açıb bir tikə çörək istəməyim". Qocanın istəyi kərpic kəsməklə var-dövlət yığmaq deyil, sadəcə bir qarın çörək pulunu çıxarmaqdır. Halal zəhmətlə pul qazanmaq heç vaxt ar deyildir. Qocanın sadə, dərin və mənalı cavabı gənci utandırır. Həmin fikirləri N.Gəncəvi misralara bu şəkildə düzür:

Hər sənətin sahibi sənətilə yaşayar,
Qocalar kərpic kəsər, kölələr yük daşıyar.
Əziyyətli olsa da, öyrəndim bu sənəti
Ki, boynumda qalmasın bir kimsənin minnəti.
Xəzinə yığmıram ki, məsxərəyə qoyulum,
Əlimin zəhmətilə dolanıram ay oğlum! [4, s.118]

Yekunda qeyd edək ki, Nizami Gəncəvinin əsərlərində niyyət, adət, dəyərsizlik, ilham, şadlıq, mərdlik, namərdlik, qəzəb, arzu, kin, nifrət, təb, xəyal, tələb, nəfs, fitnə, tamah, həvəs, izzət, hökm, hünər, təkəbbür, fitrət və s. kimi psixopedaqoji məsələlər də öz əksini tapmışdır ki, bu məsələlərin izahında humanizt şair Nizami Gəncəvi mahir psixoloq kimi çıxış etmişdir.

Ədəbiyyat

1. Həşimov Ə. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. – Bakı: – 1970.
2. Azadə R. Nizami Gəncəvi
3. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. – Bakı: – 1982.
4. Nizami Gəncəvi. Sirlər xəzinəsi, Bakı: Lider, – 2004.
5. Araslı Nüşabə. Nizami və Türk ədəbiyyatı. – Bakı: – 1980.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 06.01.2022 , son daxilolma –17.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 47-52
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 47-52
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.47-52

UOT 378.147

Şagirdlərdə fəallığın formalaşmasında müstəqil işlərin əhəmiyyəti

Müəllif:

Səyyad Vəliyev
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: seyyadveliyev 75@gmail.com

Açar sözlər:
müstəqil iş, təlim prosesi, şəxsiyyət, zehni fəallıq, əməli fəallıq

Annotasiya. Müstəqil iş şagirdlərin fəaliyyətində çox faydalıdır və bunun faydası işin növləri müxtəlif olduqca daha da artmış olur. Burada şagird öz əməyinin nəticəsini görür və nəticə fərəhləndirici olanda əvvəllər ona naməlum olan zirvələri dərk etməyə bir addım atmış olur. Müəllimlərimiz müstəqil işlərin effektliyinin artırılmasına xüsusi diqqət yetirərək şagirdlərə texnologiya fənninin spesifik məzmununa görə müstəqil tapşırıqlar verməli və onları həmin tapşırıqların yaradıcı surətdə həllinə hazırlamalıdırlar. Bu isə məktəbdə təlimin səviyyəsini xeyli yüksəldər və şagirdlərdə fəallıq mövqeyinin formalaşdırılmasında mühüm rol oynayar. Şagirdlərdə şəxsiyyətin əsas keyfiyyətlərinin yaradılması, onlarda təşəbbüskarlığın, əməksevərliyin və nəhayət fəallıq mövqeyinin formalaşdırılmasında müstəqil işlərin təsiri mühüm əhəmiyyət kəsb edir ki, bütün bunların şərhi məqalədə öz əksini tapmışdır.

In the formation of activity in students importance of independent work

Author:

Sayyad Valiyev
Nakhchivan Teachers Institute
E-mail: seyyadveliyev 75@gmail.com

Key word:
independent work, learning process, personality, mental activity, practical activity

Abstract. Independent work is very useful in the activity of students, and its benefits increase as the types of work are varied. Here the student sees the result of his labor, and when the result is gratifying, he has taken a step towards understanding the heights previously unknown to him. Paying special attention to increasing the effectiveness of independent work, our teachers should give students independent tasks according to the specific content of the technology subject and prepare them to solve those tasks creatively. This will significantly raise the level of training in school and will play an important role in forming an active attitude in students. The effect of independent work on the creation of the main qualities of personality in students, the formation of initiative, diligence and finally the position of activity is of great importance, and the interpretation of all this is reflected in the article.

Значимость самостоятельной работы в формировании активности у учащихся

Автор:

Сайяд Велиев
Нахчыванский институт учителей
E-mail: seyyadveliyev 75@gmail.com

Ключевые слова:
самостоятельная работа, учебныйп роцесс, личность, мыслительная деятельность, практическая деятельность

Аннотация. Самостоятельная работа очень полезна в учебной деятельности учащихся, и польза от нее становится все больше из-за разнообразия видов работы. Здесь ученик видит результат своего труда, и когда результат становится радостным, он делает шаг к постижению ранее неизвестных ему вершин. Учителя, уделяя особое внимание повышению эффективности самостоятельной работы, должны давать учащимся самостоятельные задания по конкретному содержанию предмета «Технология» и готовить их к творческому решению этих задач. Это значительно повышает уровень обучения в школе и играет важную роль в формировании активной позиции у учащихся. Большое значение имеет влияние самостоятельной работы на формирование у учащихся основных качеств личности, на формирование у них инициативы, трудолюбия и, наконец, активной позиции, интерпретация которой нашла свое отражение в данной статье.

Orta ümumtəhsil məktəblərində şagirdlərin müstəqil işlərə cəlb olunmaları dərs və dərsdənkənar işlərin mühüm tərkib hissələrindən biridir. Müstəqil işlər vasitəsilə şagirdlər yeni biliklər və məlumatlar əldə edir, müstəqilliyi və yaradıcılıq qabiliyyəti inkişaf edərək formalaşır. Bu baxımdan şagirdlərdə fəallığın formalaşmasında və bir şəxsiyyət kimi inkişaf etməsində müstəqil işlərin rolu əvəzedilməzdir.

Qeyd etmək lazımdır ki, şagirdlərdə fəallığın inkişaf etdirilməsinin mühüm şərtlərindan biri onların müstəqil işlərə cəlb edilməsidir. Şagirdlərin müstəqil işi, həm bilik, bacarıq və vərdişlər sisleminə ytyələnməkdə, həm də zehni və fiziki əməkdə qabiliyyətlərini inkişaf etdirmək və təlimin keyfiyyətini yüksəltməklə, onlarda fəallığın yaranmasına kömək edir. Bu baxımdan əmək hazırlığı prosesində də şagirdlərin fəallığının yüksəldilməsi üçün onların müstəqilliyi və yaradıcılığa olan meyli artırılmalıdır. Belə fəaliyyət prosesində məktəblilərin fəallığının inkişaf etdirilməsi vəzifələrinin həyata keçirilməsi üçün şagird bilikləri hazır şəkildə almadan daha çox bu bilikləri düşünmək, axtarmaq, müstəqillik və yaradıcılıq göstərmək əsasında özləri əldə etməlidirlər. Bu zaman müəllimin vəzifəsi şagirdlərin diqqətini tədris materialına, ayrı-ayrı mövzulara, problemlərə cəlb etmək və bu yolla onlarda əmək fəallığını qüvvətləndirməkdən ibarət olmalıdır [2, s. 108].

Şagirdlərin müstəqil işi dərsdə əldə olunmuş bilik və bacarıqları möhkəmlətmək, sinifdə keçirilmiş tədris materialını genişləndirmək və dərinləşdirmək, verilmiş tapşırıqları müstəqil yerinə yetirmək üçün lazımi bacarıq və vərdişləri formalaşdırmaq, proqram materialı çərçivəsində fərdi tapşırıqları yerinə yetirmək yolu ilə təfəkkürü inkişaf etdirmək, iş prosesində müşahidələr aparmaq, dərs prosesində yeni mövzuları öyrənmək üçün material toplamaq və tədris vasitələri (modellər, maketlər, illüstrasiyalar) hazırlamaq kimi təlim funksiyalarının yerinə yetirilməsinə səbəb olur ki, bütün bunlar şagirdlərin fəallığının artırılmasına və bu fəallıq nəticəsində onların məntiqi düşüncə əsasında daha aktiv fəaliyyət göstərmələrinə şərait yaratmış olur.

Şagirdlərin dərsdə və dərsdənkənar vaxtlarda müstəqil işlərini təşkil etmənin aktuallığı inkar edilməz bir faktdlr ki, bu da elmi-texniki və sosial tərəqqinin təhsil sisteminə verdiyi tələblərlə, dövrün və müasir dərsin tələbləri ilə əlaqədardır. Bu da təsadüfi deyildir, çünki təlim prosesində müstəqil işin aktuallaşdırılmasını tələb edən səbəblərdən başqa, bunu, həm də təlimin yeni məzmunu ilə əlaqədar şagirdlərin idrak və əqli fəallığını gücləndirmək qayğısına qalmaq vəzifələri tələb edir [1, s. 168-169].

Qeyd etmək lazımdır ki, şagirdlərin müstəqil işi, həm bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməkdə, həm də zehni və fiziki əməkdə qabliyyətləri inkişaf etdirməkdə təlimin keyfiyyətini yüksəltməyə kömək edir. Təlim prosesi düzgün qurulduqda onun bütün mərhələlərində şagirdlərin fəallıq göstərmələri tələb olunur. Fəallığın yüksək dərəcəsi isə təlim-tərbiyə məqsədləri üçün təşkil edilən müstəqil iş vasitəsilə əldə edilə bilər.

Müstəqil fəaliyyət odur ki, onu şagird kənardan kömək almadan, öz biliyinə, təfəkkürünə, bacarığına, həyati təcrübəsinə, inamına əsaslanaraq icra edir, şagirdləri biliklərlə silahlandırır, onları inkişaf və tərbiyə edir, cəmiyyətin qurucusu və vətəndaşına zəruri olan müstəqillik keyfiyyətləri onda formalaşır. Bu baxımdan müstəqil fəaliyyət, idrak prosesinin keyfiyyəti, şagird şəxsiyyətinin əlaməti, təlimin təşkilat formasından ibarətdir [3, s. 40].

Hər hansı bir tapşırığı müstəqil yerinə yetirdikdə şagirdlər bu və ya başqa şəkildə səmərəlilik və yaradıcılıq ifadə edirlər. Burada, söhbət tapşırığı yerinə yetirərkən şagirdlərin fəallığı dərəcəsindən getməlidir, yəni şagird kənardan kömək görmədən məhz gərgin, zehni və fiziki əmək sərf etməklə tapşırığı yerinə yetirəndə yaradıcılıq göstərir. Məhz belə müstəqil iş şagirdlərdə xarakterin mühüm əlamətlərindən biri olan fəallığın formalaşdırılmasına imkan verə bilər.

Unutmaq olmaz ki, təlimin bu mühüm mikrotəşkilat formasının tətbiqi, orta və yuxarı siniflərdə deyil, məhz ibtidai siniflərdən başlamalıdır. Belə ki, müəllim təlimin ilk günlərindən etibarən təşəbbüskarlıq və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədilə

şagirdlərdə müstəqil işləmək vərdişləri yaradırsa və müstəqil işlərin sinifdə düzgün təşkilini təmin edə bilirsə, bu təlim məşğələlərinin səmərəli aparılması üçün ilkin mühüm şərt hesab edilə bilər.

Qeyd etmək lazımdır ki, ibtidai siniflərdə müstəqil işlərin təşkili təxirə salınmaz pedaqoji tələbdir və burada problemi yalnız aşağı siniflərlə tamamlamaq olmaz, çünki bu müstəqil işlərin orta və yuxarı siniflərdə təşkili üçün təməl sayılır. Müstəqil işin xüsusi çəkisi orta siniflərdə, xüsusən yuxarı siniflərdə isə xeyli artır.

Pedaqoji prosesdə təfəkkür müstəqilliyini inkişaf etdirmək üçün əsas yeri şagirdlərin fərdi müstəqil çalışmaları tutmalıdır. Hər bir şagirdə müstəqil iş verərkən onun marağı, gücü, qüvvəsi nəzərə alınmalıdır. Bunsuz şəxsiyyətin mühüm xassəsi olan müstəqilliyi və fəallığı formalaşdırmaq olmaz [1, s.188-189].

Şagirdlərin müstəqil işlərinin aktuallığı, o zaman aydın görünür ki, şəx-siyyətin müstəqilliyinin mahiyyəti, onun siyasi və əxlaqi cəhətləri açıq şərh olunsun. Məlum olduğu kimi şagirdlərin müstəqil işi heç olmazsa iki vəzifə daşımalıdır:

a) yaxın vəzifəsi - didaktik, idrak fəaliyyətinə xidmət etmək;

b) perspektiv vəzifəsi - xarakterin xassəsi olan müstəqilliyi formalaşdırmaq, daha doğrusu formalaşdırmağa kömək etməkdir [1, s.191].

Qeyd etmək lazımdır ki, şagirdlərin müstəqil işi nisbi xarakter daşıyır, çünki onları müstəqil işə müəllim yönəldir və ona rəhbərliyi həyata keçirir. Lakin bu prosesdə müəllimin rəhbərliyi şagirdlərin müstəqilliyinə mane olmamalı, əksinə, onun inkişafına xidmət etməlidir. Müstəqil işə yersiz müdaxilə və şagirdlərə hədsiz himayə onlarda passivlik, inamsızlıq və başqalarından asılılıq kimi mənfi keyfiyyətlərin yaranmasına gətirib çıxara bilər. Müəllim müstəqil işə düşünülmüş pedaqoji rəhbərliyi həyata keçirməli, şagirdlərin müstəqillik, təşəbbüskarlıq, yaradıcılıq və fəallıq göstərmələri üçün əlverişli şərait yaratmalıdır.

Bu baxımdan şagirdlərin müstəqil işlərinin uğurlu alınmasında müəllimin rolu böyükdür və onun üzərinə mühüm vəzifələr düşür. Belə ki, müəllim şagirdlərin güclü və zəif cəhətlərini müəyyənləşdirib, onlara lazımi istiqamət verməlidir. Bu işdə müəllimin vəzifəsi gələcəyin yüksək ixtisaslı mütəxəssisi olacaq şagirdlərin ən yaxşı keyfiyyətlərini görə və qiymətləndirə bilməkdən ibarətdir. Müəllim şagirdlərdə müstəqil işləməyə maraq oyatmalı, şagirdlərə müstəqil düşünməyi və hər hansı bir problemin həllinə yaradıcı yanaşmağı öyrətməlidir.

Şagirdlərin müstəqil işlərinin səmərəliliyi onun necə təşkil olunmasından və yerinə yetirilməsinə motivasiyanın səviyyəsindən, yerinə yetirilmə formalarından, həmçinin tapşırığın məzmunundan xeyli dərəcədə asılıdır.

Bu baxımdan şagirdlərin müstəqil işlərinin iki mərhələsini qeyd etmək mümkündür:

- birinci mərhələdə müəllim şagirdlərə müstəqil işin sadə üsullarını öyrədir. O, müxtəlif mənbələrdən bilikləri əldə etmək yollarını, onları qruplaşdırmağı, tutuşdurmağı, müqayisə və təhlil etməyi, ümumiləşdirmə aparmağı, müəyyən nəticəyə gəlməyi şagirdlərə başa salır.

Bu zaman müəllim məsləhətçi və təşkilatçı rolunu ifa edir.

- ikinci mərhələdə müstəqil iş üzrə müəyyən məlumatlar əldə etmiş şagird işin yerinə yetirilməsinə hazırlanır. Müvafiq məsələlərlə bağlı onun özünün bacarıqları təzahür edir.

Şagirdlərin müstəqil işini təşkil edən müəllim, əgər bunları, yəni hər şeydən əvvəl, müstəqilliyin fəlsəfi, siyasi və əxlaqi mahiyyətini bilməsə həqiqi məqsədlərə nail ola bilməz.

Bu baxımdan yeni proqramın tələbinə uyğun olaraq hər bir müəllim hər bir dərsdə müstəqil işlərin təşkilinə müəyyən yer verməli bunu yaradıcı şəkildə, yəni həm müxtəlif növlərdə, müxtəlif çətinliklərlə əlaqədar tapşırıqlar verməklə, şagirdlərin yaş xüsusiyyətlərini, hazırlıq səviyyələrini və s. nəzərə almaqla tətbiq etməlidirlər.

Müstəqil işlər şagirlərin texnika və texnologiyaya dair biliklərinin genişlənməsi, tədris materialının mənimsənilməsi, bacarıq və vərdişlərin möhkəmlənməsi və yoxlanılmasının ən mühüm vasitələrindəndir. Müstəqil işlər, eyni zamanda, böyük tərbiyəedici əhəmiyyətə malikdir. Təlim prosesində müstəqillik şagirlərdə əməkdə çətinlikləri aradan qaldırmaq üçün məqsədə yönəldici bacarıqlar verir. On-

ların yaradıcı qüvvəsini oyadır, işdə təşəbbüskarlığını artırır, diqqətini, iradəsini tərbiyə edir. Bu baxımdan texnologiya dərslərində praktik tapşırıqların yerinə yetirilməsində şagirlərin müstəqil çalışmalarına geniş yer verilməsi mühüm əhəmiyyət kəsb edir. Aparılan müşahidələr göstərir ki, dərsdə müstəqil öyrədilən bilik və bacarıqlar yaxşı dərk edildiyindən şagirlərin yadında uzun müddət qalır. Həmin biliklərin və bacarıqların qavranılması prosesində onlar maksimum fəallaşır. Müstəqil öyrədilən biliklər şagirlərin marağını gücləndirir, onların hərtərəfli inkişafına və fəallığına təsir göstərir [3, s. 41].

Müstəqil iş həm biliklə təcrübəni əlaqələndirməyə kömək edir, həm də şagirlərin müşahidəçilik qabiliyyətlərini artırır, təfəkkürünü inkişaf etdirir, bilik, bacarıq və vərdişlərini möhkəmləndirir. Aparılan müşahidələrlə müəyyən edilmişdir ki, müstəqil iş vasitəsilə əldə edilən bilik müəllimin şərhindən alınan biliyə nisbətən daha keyfiyyətli olur. Müstəqil iş şagirlərin orta məktəbi bitirdikdən sonra da öz biliyini artırmağa qabil olacağını təmin edir. Bu baxımdan texnologiya fənninin tədrisində şagirlərin fəallığını təmin etmək məqsədilə iş formalarından geniş istifadə edilməsi üçün yaradıcılıq qabiliyyəti tələb edən praktiki məşğələlərə daha çox yer verilməli, xüsusilə şagirlərdə yaradıcılıq və fəallıq qabiliyyətlərini inkişaf etdirmək məqsədilə tədqiqat üsullarından geniş isitfadə edilməlidir.

Məlum olduğu kimi şagirdlərin müstəqil işi, ancaq dərsin çərçivəsi arasında sıxışdırılıb qala bilməz. O, dərsdən kənarda da müxtəlif şagirdlərdə və müxtəlif didaktik vəzifələri həll etmək üçün tətbiq edilə bilər ki, bu da onun perspektiv üçün böyük əhəmiyyətini göstərir.

Dərslərdə və dərsdənkənar vaxtlarda şagirlərin müstəqil işlərinin təşkilinə nəzarət və rəhbərliyi gücləndirmək məktəbin iş planının yerinə yetirilməsində mərkəzi yeri tutur. Məktəb ona nail olmağa çalışmalıdır ki, hər bir müəllim birinci sinifdən başlayaraq öz şagirdlərinə "axtarmağı öyrətsin", onlarda məntiqi düşünmə qabiliyyəti formalaşdırsın, onların diqqəti, hafizəsi, iradəsi inkişaf etdirilsin, uşaqlarda müntəzəm surətdə biliklərə yiyələnməyə can atmaq kimi vərdişlər yaradılsın [3, s. 42].

Şagirdlərin müstəqil işi, biliyi mənimsəmə prosesində şagirləri fəallaşdır-manın ən vacib yolu kimi tanınmışdır. Şagirdlərin müstəqil təfəkkürünü fəallaşdıran metod və priyomlar az deyildir. Müxtəlif çalışmaları icra etmək, paylama materialları və dərsliklə işləmək, müxtəlif əməliyyat növlərini öyrənmək, çertyojlar üzərində işləmək, görüləcək işin planını tutmaq, texnoloji xəritə tərtib etmək, texniki vasitələrdən istifadə etmək və s. şagirlərdə yaradıcı fikir oyatmağa kömək edən müstəqil iş növlərindəndir. Müstəqil işlərin geniş tətbiqi yüksək keyfiyyət əldə etmək üçün möhkəm zəmin yaradır. Müstəqil işi dərsin bütün mərhələlərində, həm evə verilən tapşırıqların yoxlanmasında, həm yeni materialın şərhində, həm də onun möhkəmləndirilməsində tətbiq etmək lazımdır. Bütün bunlar isə şagirlərdə yüksək idrak fəallığının formalaşdırılmasını təmin etmək üçün geniş yollar açır.

Məktəblərimizin uzun illik təcrübəsi artıq çoxdan sübut edir ki, şagirdləri tam müstəqil işləməyə hazırlamaq üçün onları bu zirvəyə pillə-pillə qaldırmaq tələb olunur. Bu baxımdan onları yarımmüstəqil çalışmalar üzərində işlətmək müstəsna əhəmiyyət kəsb edir. Ona görə ki, şagirdləri vərdiş etmədən işin müstəqil icrası kimi çətinliyə salmaq pedaqoji cəhətdən düzgün nəticələr verməz, onlarda öz qüvvəsinə inam hissi tərbiyə edə bilməz. Bu barədə tədricilik və ardıcıllıqla hərəkət etməklə ancaq şagirdləri müstəqil düşünüb, müstəqil hərəkət etməyə, müstəqil fəaliyyət göstərməyə alışdırmaq, qarşılarında getdikcə daha çətin çalışmalar qoymaqla onları yaradıcı müstəqil əməyə alışdırmaq və onlarda fəallıq mövqeyinin formalaşdırılmasına nail olmaq mümkündür [3, s. 43].

Təlim prosesinin hər sahəsində olduğu kimi, burada da müstəqil işin səmərəli təşkili müəllimin özündən, onun hazırlığından, iradi keyfiyyətlərindən, rast gəldiyi çətinliklərə qalib gəlmək üçün ona sinə gərə bilmək qabiliyyətindən asılıdır. Şagirdlər müstəqilliyə o zaman xüsusi həvəs göstərirlər ki, onlar müəllimin özündə də müəyyən müstəqillik hiss etmiş olsunlar. Aparılan müşahidələrlə müəyyən edilmişdir ki, müəllim şagirdlərə əlavə biliklər

verəndə, onları dərsliklərdən fərqli çalışmalar üzərində çalışdırdıqda dərs daha maraqlı keçir, uşaqlar müstəqil işləməyə daha böyük həvəs göstərirlər.

Şagirdlərin müstəqil işlərini metodik cəhətdən yaxşı təşkil etmək üçün aşağıdakı qaydalara riayət edilməsi nəqsədəuyğun hesab edilə bilər:

a) hər bir müstəqil işi şagirdlərin əvvəllər almış olduqları bilik, bacarıq və vərdişlər üzərində qurmaq;

b) müstəqil işləri tədricən mürəkkəbləşdirmək və bununla da şagirdlərin zehni qabiliyyətlərini inkişaf etdirmək;

c) şagirdlərin hazırlığına müvafiq olmaqdan ötrü müstəqil iş üçün uyğun material və tapşırıq vermək;

d) müstəqil işi dərsin bütün mərhələlərində təşkil etmək.

Bütün bunlar dərsdə şagirdlərin fəallığını artırır və dərsin hər dəqiqəsindən səmərəli istifadə etməyə imkan verir [1, s. 210-211].

Şagirdlərin fəaliyyətini müstəqil iş prosesində fəallaşdırmaq məhz o zaman mümkün ola bilər ki, onların qarşısında müəyyən idrak vəzifəsi qoyulsun, elə vəzifə ki, onlardan düşünmək, biliklərini müstəqil tətbiq etmək bacarığı tələb edilsin. Diqqətəlayiq cəhət həm də ondan ibarətdir ki, müstəqil işlərin təşkilinə verilən bu tələblərin çoxu, heç də əvvəldən bəlli olan tələblərin sadəcə təkrarı deyil, onların idrak fəallığı mövqeyini formalaşdırmaq baxımından yenidən işlənib təkmilləşdirilməsinin ifadəsidir. Bu isə pedaqoji prosesi zənginləşdirən yeni faktlardır.

Bu baxımdan ilk öncə demək olar ki, müstəqil iş, təlim prosesinə geniş bir surətdə daxil edilməli, "axtarma" ilə "öyrənmə"ni uzlaşdırmalı, dərsin hər mərhələsinə və hər sinfə, həm sinif daxilində, həm də sinifdənxaric işlərdə səmərəli şəkildə və həcmini aşmadan daxil edilməlidir. Digər ikinci cəhət isə, təlim prosesində müstəqil işin ardıcıl qurulmasından, şagirdlərin həm yaş, həm də fərdi xüsusiyyətlərini, onların hazırlıq səviyyəsini və imkanlarını, fənnin xüsusiyyətlərini və s. nəzərə almaqla təşkil edilməsini məqsədə müvafiq hesab etməkdən ibarətdir [3, s. 43].

Müstəqil iş prosesində şagirdin özünün fəallığı onun qabiliyyətlərinin və istedadının inkişafının, həmçinin təlimdə və tərbiyədə uğur qazanmasının mühüm şərtidir. Uşağa məktəbdə nə qədər qəyyumluq edilsə də, müstəqil əməyi olmadan o, çox şeyə nail ola bilməz. Bu baxımdan şagirdin müstəqil iş prosesindəki fəallığı inkişaf üçün təkcə əsas deyil, həm də inkişafın nəticəsidir. Şagirdin müstəqil fəaliyyəti cəmiyyətə sevinc gətirən fəal, təşəbbüskar və yaradıcı şəxsiyyət formalaşdırırsa, onda qarşıya qoyulmuş məqsəd yerinə yetirilmiş olur. Bunun üçün uşaq çoxsahəli müstəqil fəaliyyətə cəlb edilməli, bu və ya digər yaş dövründə aparıcı fəaliyyət növündən şəmərəli şəkildə istifadə olunmalıdır [3, s. 43].

Müstəqil iş prosesində şagird fəallığının formalaşdırılmasına kömək göstərən bir çox amillər vardır ki, bunlardan aşağıdakıları qeyd etmək olar:

1. Müstəqil işin faydalılığı.

Şagird biləndə ki, onun hazırladığı müstəqil iş hər hansı bir sərgidə nümayiş etdiriləcək, onda o, öz işinə daha ciddi və məsuliyyətlə yanaşacaq, verilən tapşırığın daha keyfiyyətlə yerinə yetirəcək və ən əsası, öz əməyindən zövq alacaqdır.

Ona görə də müstəqil işlərin yerinə yetirilməsi prosesinə rəhbərlik edən və bu prosesi idarə edən müəllim şagirdi psixoloji cəhətdən bu işə hazırlamalıdır.

2. Şagirdlərin yaradıcılıq fəaliyyətinə qoşulmaları. Buraya onların yaradıcılıq, modelləşdirmə və maketləşdirmə bacarıqları daxildir.

4. Tədris fənləri üzrə tədbirlərdə, yaxud tətbiqi işlərdə iştirak etmək və s.

6. Şagirdlərin təlimdəki və yaradıcı fəaliyyətdəki uğurlarının qiymətləndirilməsi.

7. Sinifdə və sinifdən kənarda yerinə yetirilən tapşırıqların fərdiləşdirilməsi və daima yeniləşdirilməsi.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, müstəqil iş dərsdə qazanılmış bilik və bacarıqları möhkəmlətmək, keçirilmiş tədris materialını genişləndirmək və dərinləşdirmək, lazımi bacarıq və vərdişlərə yiyələnmək, təfəkkürü inkişaf etdirmək, müşahidələr aparmaq, tədris vasitələri hazırlamaq kimi təlim funksiyalarının yerinə yetirilməsinə və beləliklə

də şagirdlərdə fəallığın formalaşmasına səbəb olur.

Ədəbiyyat

1. Mehdizadə M.M.. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmil-ləşdirilməsi yolları. – Bakı: Maarif, –1982. – 383 s.
2. Vəliyev S.M. Məktəblilərdə əmək fəallığı mövqeyinin formalaşdırılmasında əmək təlimi və tərbiyəsinin rolu. Naxçıvan Müəllimlər İnstitutunun XƏBƏRLƏRİ CİLD: 8 № 4 2012. – Naxçıvan: Məktəb, – 2012. – s.107-110
3. Vəliyev S.M. Şagirdlərdə fəallıq mövqeyinin formalaşdırılmasına müstəqil işlərin təsiri. Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Cild: 11 №3. – Naxçıvan: Məktəb – 2015. – s. 40-44
4. Vəliyev S.M. Məktəblilərdə fəal həyat mövqeyinin formalaşdırılması haqqında. Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər seriyası № 2 (60) – Naxçıvan: Məktəb – 2020. – s. 65-69

Məqalə pedaqogika üzrə pedaqogika üzrə fəlsəfə doktoru,dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –08.01.2022 , son daxilolma – 18.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 53-56
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 53-56
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.53-56

UOT 373.55+ 821.512.162

Nizami Gəncəvi yaradıcılığında mühüm əxlaqi dəyərlərin tərənnümü

Müəllif:

Nigar İsmayılova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: niay.83@mail.ru

Açar sözlər:
Nizami Gəncəvi, "Xəmsə", insani keyfiyyətlər, yaradıcılıq, doğma yurd

Annotasiya. Məqalədə Nizami Gəncəvi yaradıcılığında mühüm əxlaqi dəyərlərin tərənnümü məsələlərindən bəhs olunur. Eyni zamanda ailədə uşağın tərbiyəsi, valideyn-övlad münasibətlərindən də danışılır. Nizami yaradıcılığında uşaqların tərbiyəsi, onların inkişafı məsələləri daima ön planda dayanan nüanslardan biri olmuşdur. Belə ki, kiçik yaşlı uşaqların ailə tərbiyəsi onun fikirlərində maraqlı sahələrdən hesab edilmişdir. Nizami Gəncəvinin pedaqoji sistemində insanın tərbiyəsinin ana bətnində yarandığı gündən başlanması və doğuluşundan bütün ömrü boyu aparılması məqalədə təhlil olunur. O, şəxsiyyət üçün əqli təhsili, elm öyrənməyi, əxlaqi-mənəvi kamilliyi, bədii-estetik inkişafı, fiziki hazırlığı vacib sayırdı. Elə buna görə də öz qəhrəmanlarında bu keyfiyyətləri nümayiş etdirirdi. Tədqiqatın məqsədi Nizami Gəncəvi yaradıcılığında mühüm əxlaqi dəyərlərin tərənnümü məsələlərinin müəyyənləşdirilməsidir. Tədqiqatın nəticələri: Məqalədən əldə olunmuş elmi nəticələr təhsilin hər bir pilləsində onlardan yararlanmaq üçün müsbət zəmin verir. Tədqiqatın praktiki əhəmiyyəti: Məqalənin nəticələrindən, irəli sürülən tövsiyələrdən təlim-tərbiyə işlərində, bakalavr hazırlığında, habelə bir sıra metodik işlərdə istifadə oluna bilər. Tədqiqatın elmi yeniliyi: Nizami Gəncəvi yaradıcılığında mühüm əxlaqi dəyərlərin tərənnümü haqqında məsələlər, Azərbaycan, o cümlədən xarici ölkələrdən olan şəxslərin N.Gəncəvi haqqında dediyi fikirlər də araşdırmaya cəlb edilir.

Development of important moral values in Nizami Ganjavi's creativity

Author:

Nigar Ismayilova
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Pedagogy
E-mail: niay.83@mail.ru

Key word:
Nizami Ganjavi, "Khamsa", human qualities, creativity, homeland

Abstract. The article deals with the issues of glorifying important moral values in Nizami Ganjavi's work. At the same time, the child's education and parent-child relations are discussed in the family. In Nizami's work, children's upbringing and their development have always been one of the nuances that have always been at the forefront. So, family upbringing of young children was considered one of the interesting areas in his opinion. In the pedagogical system of Nizami Ganjavi, the article analyzes the fact that the education of a person starts from the day he is born in the mother's womb and continues throughout his life. He considered intellectual education, learning science, moral-spiritual perfection, artistic-aesthetic development, and physical training to be important for personality. That is why he showed these qualities in his heroes. The aim of the study is to determine the issues of singing important moral values in the works of Nizami Ganjavi. Research results: The scientific results obtained from the article provide a positive basis for using them at every level of education. The practical importance of the research: The results of the article, the proposed recommendations can be used in educational work, bachelor's training, as well as in a number of methodical works. The scientific novelty of the research: the issues of the celebration of important moral values in the works of Nizami Ganjavi, the opinions of people from Azerbaijan and foreign countries about N. Ganjavi are also involved in the research.

Воспевание важных моральных ценностей в творчестве Низами Гянджеви

Автор:

Нигяр Исмаилова
Азербайджанский Государственный Педагогический Университет
доктор философии в области педагогики
E-mail: niay.83@mail.ru

лючевые слова:
Низами Гянджеви, «Хамсе», человеческие качества, творчество, родной край

Аннотация. В статье говорится о важных моральных ценностях в творчестве Низами Гянджеви. В то же время о воспитании ребенка в семье говорят и родительско-детские отношения. Одним из нюансов в творчестве Низами всегда были вопросы воспитания детей, их развития. Так, семейное воспитание детей младшего возраста считалось в его представлениях интересным направлением. В педагогической системе Низами Гянджеви анализируется начало воспитания человека со дня его рождения в утробе матери и проведение его от рождения до конца жизни. Он считал важным для личности умственное воспитание, изучение наук, морально-нравственное совершенствование, художественно-эстетическое развитие, физическую подготовку. Именно поэтому он проявлял эти качества в своих героях. Целью исследования является определение важных моральных ценностей в творчестве Низами Гянджеви. Научные результаты, полученные из статьи, дают положительную основу для их использования на каждом этапе образования. Практическая значимость исследования: результаты статьи, предложенные рекомендации могут быть использованы в учебно-воспитательной работе, подготовке бакалавров, а также в ряде методических работ. Научная новизна исследования: вопросы о признании важных моральных ценностей в творчестве Низами Гянджеви. К исследованию привлекаются и высказывания азербайджанских и зарубежных авторов о Гянджеви.

Azərbaycan 1991-ci ildə müstəqillik qazandıqdan sonra illər və əsrlər boyu unudulmuş, yaddaşlardan itmiş keçmişimizi, mədəni irsimizi, adət-ənənələrimizi bir daha araşdırmaq, tarixi həqiqəti bərpa etmək, milli ləyaqətimizə dəymiş yaraları sağaltmaq, bütünlüklə bir millət kimi əslimizə, kökümüzə qayıtmaq imkanı qazanmışdır. Sözsüz ki, bu sahədə tariximizi yaradan və yaşadan dahi şəxsiyyətlərin həyatı, əməlləri, elmi irsi hər birimiz üçün ən yaxşı nümunə, örnək məktəbidir. Bu baxımdan özünəqədərki bəşəri dəyərlərin ən uca zirvəsində dayanan Nizami Gəncəvi yaradıcılığı çox maraqlıdır. Nizaminin ölməz ədəbi irsi təkcə bir istiqaməti deyil, həm də əxlaqi, fiziki, humanizm, vətənpərvərlik kimi mühüm dəyərləri özündə birləşdirir. Qeyd etdiklərimin hər biri şəxsiyyətin ahəngdar inkişafının əsasını təşkil edən meyarlardır.

Nizaminin əxlaq və əxlaq tərbiyəsi ilə bağlı qiymətli fikir və düşüncələri, hikmətli sözləri bir çox nəsillərin mənəvi tərbiyəsində əhəmiyyətli rol oynamış və bu gün də öz aliliyini saxlamaqdadır. Belə ki, Nizami dostluq və yoldaşlıq, insanpərvərlik, Vətənə məhəbbət, ayrı-ayrı xalqlara və irqlərə xoş münasibət, zəhmətkeş olmaq və s. kimi mühüm insani dəyərləri həmişə əsas tutmuş və yazdığı "Xəmsə"sində də dönə-dönə vurğulamışdır.

İnsanpərvərliyi qeyd etmişkən onu da vurğulayım ki, buraya milli-mənəvi dəyərlərimizdən biri olan ata-anaya, övladlara hörmət və məhəbbət də daxildir. Bu anlamı yüksək qiymətləndirən N.Gəncəvi bütün poemalarında insanpərvərliyin parlaq nümunəsi kimi valideyn-övlad münasibətlərində olan qarşılıqlı məhəbbəti, hörməti, xüsusilə, aşılamış, gənc nəsli bu yolla tərbiyə etməyə çalışmışdır.

Fiziki tərbiyə anlayışı da sənətkarın yan keçmədiyi dəyərlərdən biridir. Nizami düşünürdü ki, fiziki kamilliyin ilkin şərti sağlamlıqdır. Fiziki kamillik anlayışı özündə hamının sağlam orqanizmə sahib olmasını, dözümlülüyünü, iradəli və gümrah olmasını birləşdirir. Onun hər bir qəhrəmanı üçün yuxarıda sadalanan və daha çox keyfiyyətlər xarakterikdir. Həmin qəhrəmanların heç biri qorxmur və cəsurdurlar.

Nizami dühasının dahiliyi bir çox yazıçı və dramaturqların diqqət mərkəzində olmuşdur. M.F.Axundzadə, A.A.Bakıxanov, M.İbrahimov, F.Köçərli, H.Araslı onun haqqında maraqlı fikirlər söyləmişlər.

"İnsanın qəlbini təlatümə gətirən Nizami lirikası, dünya şöhrəti qazanan "Xəmsə" şairin mənəvi dünyasına misilsiz nümunədir, öyrənilməsi zəruri olan zəngin bədii xəzinədir. Bütün şairlər onun ustalığını etiraf etmişdir". (Abasqulu ağa Bakıxanov tarixşünas, yazıçı-mütəfəkkir, tərcüməçi).

"Nizaminin yaradıcılığı bəşəriyyətin bədii inkişaf tarixinin qızıl səhifəsidir". Mirzə Fətəli Axundzadə. Azərbaycan və Şərq dramaturgiyasının və realist nəsrinin banisi.

"Şeyx Nizami böyük şairlərdən biri olub. Onun kimi fəcih, rəvantab və şirinzəban şair dünya üzərinə az gəlibdir. Heç bir şair o ləyaqət və zəriflikdə söz deməyibdir". Firudin bəy Köçərli. Azərbaycan ədəbiyyatşünaslığının banisi, pedaqoq, maarifçi.

"Nizami əsərlərini fars dilində yazmasına baxmayaraq, həmişə bir azərbaycanlı kimi düşünmüş, öz obrazlı ifadələrini həmişə xalqdan, canlı xalq dilindən almışdır. Təsadüfi deyildir ki, farslar Nizami və Xaqani şeirlərindən danışanda "buye tork miayəd" ("bunlardan türk qoxusu gəlir") deyirlər" (Həmid Araslı. Azərbaycan SSRİ EA həqiqi üzvü, akademik) [3].

Nizami yaradıcılığının sehri təkcə Azərbaycan ziyalılarının deyil, eyni zamanda, xarici ölkələrin tanınmış insanlarını da özünə məftun etmişdir.

"İnsana məhəbbət hissi Nizaminin əsərlərində dahiyanə ifadə olunmuşdur". Yohan Volfqanq Höte. Şair, filosof, dövlət xadimi.

"Nizami Gəncəvi 1188-ci il sentyabr ayının 24-də bitirdiyi "Leyli və Məcnun" əsərini türk dilində yazmaq istəyir. "Leyli və Məcnun"u türk dilində deyil, fars dilində yazmasını əmr verən Axsitanın hərəkətləri onu çox qəzəbləndirir, amma oğlu Məhəmmədin xahişi ilə əsəri farsca yazmağa razılıq verir. Şair öz etirazını əsərdə belə şərh etmişdi: "Nə cürətim vardır əmrdən qaçam, nə də könlün vardır xəzinə açam". Yevgeni Bertels. Şərqşünas alim, SSRİ EA müxbir üzvü, SSRİ Dövlət Mükafatı laureatı.

"Aydındır ki, Nizami farsca yazıb. Azərbaycan xalqının düşmənləri olan burjua tarixçiləri, İran millətçiləri tərəfindən Nizaminin fars şairi kimi qələmə verilməsi və onun Vətəni Azərbaycanla əlaqəsinin olmaması fikri yeni deyil. Ancaq bu həyasız yalan heç kimi aldada bilmədi". Nikolay Tixonov. Tanınmış Rusiya şairi, nasiri və ictimai xadimi.

"Azərbaycanın Gəncə şəhərində dünyaya göz açan Nizami Gəncəvinin əsərləri bütün dövrlər üçün əvəzsiz xəzinədir. Dahi Nizaminin yaradıcılığı digər xalqlar üçün də böyük əhəmiyyət daşıyır, italyan dilinə də tərcümə edilir, sevilir". Mineli Bernardini. Neapol universitetinin professoru, şərqşünas alim [3].

Azərbaycan pedaqoji fikir tarixində milli və ümumbəşəri ideyaların ahəngdarlığı ideyası bütün zamanlarda öznəməxsusluğu ilə seçilmişdir. Bu ideyanın dərin tarixi kökü vardır. Azərbaycan orta əsr mədəniyyəti və ictimai-fəlsəfi fikrində bu ideya daha da genişlənmiş, güclü təsirə malik olmuşdur. Odur ki, Xaqani, Nizami, Tusi, Əvhədi və digər görkəmli mütəfəkkirlərin əsərlərində milli, ümumbəşəri, dünyəvi və mənəvi dəyərlər açıq şəkildə təqdim edilmişdir.

Bu baxımdan tədqiqatçı Nigar Cərulla qızı yazır: "Ədəbiyyat və incəsənətdə intibah dövrünü səciyyələndirən insan mövzusu bu dövrün görkəmli nümayəndəsi, dahi şair və mütəfəkkir Nizami Gəncəvinin yaradıcılığında özünəməxsus yer tutur. Şərqdə insan barədə çox şairlər söz demişlər, lakin onların heç biri Nizami, sonralar isə Nəsimi qədər insana yüksək qiymət verə bilməmişdir" [1, s.98-99].

Nizami yaradıcılığında uşaqların tərbiyəsi, onların inkişafı məsələləri daima ön planda dayanan nüanslardan biri olmuşdur. Belə ki, kiçik yaşlı uşaqların ailə tərbiyəsi onun fikirlərində maraqlı sahələrdən hesab edilmişdir.

"Əsrlərdən bəri kiçik yaşlı uşaqları necə tərbiyə etmək, onlara necə qayğı göstərmək lazım olduğunu hər bir valideyn, hər bir kəs fikirləşmişdir və düzgün üsul, metod və vasitələr axtarmışlar. Həmçinin bu məsələ bir çox mütəfəkkirlərin, ziyalıların da diqqət mərkəzində olmuşdur. Onların tədqiqatları, təcrübələri əsasında çox qiymətli tərbiyə üsulları və metodları formalaşmışdır. Valideynlər, tərbiyəçilər, müəllimlər üçün bu dəyərli fikirlərin əhəmiyyəti böyükdür və uşaqların tərbiyəsində bu fikirlərdən istifadə olduqca səmərəli nəticə vermişdir. Çünki bu fikirlər zamanlardan bəri sınaqdan keçirilmiş və müsbət nəticələr əldə edilmişdir.

Görkəmli pedaqoqlar dönə-dönə təkrar etmişlər ki, tərbiyə işində asan bir şey yoxdur. O həmişə bütün cəmiyyətlərdə çətin, mürəkkəb və ziddiyyətli olmuş, bu gün də eynilə davam edir. Övlad tərbiyəsi ilə məşğul olan ata-ana mövcud tərbiyə işinin sirrinə yaxından yiyələnməlidir.

İnsan üçün müqəddəs sayılan keyfiyyətlərə uşaqlar ilk dəfə ailədə yiyələnirlər. Məhz ona görə də, uşağı insani münasibətlərin mürəkkəb aləminə daxil etmək tərbiyənin ən vacib məsələlərindən biridir. Ailə tərbiyəsi məsələləri hər zaman aktuallıq kəsb etmiş, Azərbaycan maarifçilərinin əsərlərində yer tutmuş və hər bir dövrdə özünəməxsusluğu ilə seçilmişdir" [2, 19-20].

Hətta məşhur rus pedaqoqu K.D.Uşinski qeyd etmişdir ki, uşaqları düzgün tərbiyə etməyin ən yaxşı yolu onu hərtərəfli öyrənib düzgün istiqamətləndirməkdən ibarətdir.

Bu baxımdan Nizami əsərlərində valideyn-övlad münasibətləri, ailə məsələləri "Xəmsə"də aydın şəkildə əks edilmişdir. Həmin məsələlərə "Leyli və Məcnun", "İskəndərnamə", "Yeddi gözəl" poemalarında şahid olmaq mümkündür.

"İsgəndərnamə" poemasında görürük ki, İsgəndər dünyaya göz açan zaman atası

Feyləqus qəmi, kədəri ataraq, öz mehrini-məhəbbətini oğluna salır, hamıya ləl-cəvahir paylayır, müşkü və meyi sel kimi axıdır. Atası İsgəndərə ox atmağı, kaman dartmağı, qılınc vurmağı öyrətdikdən sonra dövrünün ən bilikli filosofu olan Niqumaşı ona müəllim və tərbiyəçi təyin edir. Niqumaş İsgəndərə hikmətlərlə dolu dərin biliklər öyrədir, heç bir gəncin almadığı tərbiyə verir" [4].

Nizami Gəncəvinin pedaqoji sistemində insanın tərbiyəsi ana bətnində yarandığı gündən başlanır və doğuluşundan bütün ömrü boyu aparılır. O, şəxsiyyət üçün əqli təhsili, elm öyrənməyi, əxlaqi-mənəvi kamilliyi, bədii-estetik inkişafı, fiziki hazırlığı vacib sayırdı.

Elə buna görə də öz qəhrəmanlarında bu keyfiyyətləri nümayiş etdirirdi.

"Nizami ailə məsələsində daha humanist və orijinal mövqe tutmuşdur. Onun fikrincə, ailə bir-biri ilə vəhdətdə olan iki əsas məqsəd daşımalıdır: birincisi, ailə insanın maddi və mənəvi ehtiyaclarını ödəmək və qarşıya çıxan ictimai və şəxsi vəzifələri köməkli surətdə yerinə yetirmək, ikincisi valideynlərin özlərini əbədiyyətə qovuşdurmaq, övlad böyüdüb tərbiyə etməkdən ötəridir, həm də ailənin bu iki məqsədi bir çox hallarda çulğaşır və biri o birini həyata keçirilməsi üçün zəmin yaradır.

Ailə qurmaqla əsas məqsədin övlad böyütməkdən ibarət olmasını təsdiq etməklə, Nizami yalnız ayrı-ayrı situasiyalarda bədii ədəbiyyat qanunlarını yerinə yetirməyi nəzərdə tutmurdu. Nizami eyni zamanda həmin məqsədin şəxsən tərəfdarı olduğu üçün, o zamankı Azərbaycanda övladın ailədə bütün diqqətlərin mərkəzində dayandığını bildiyi üçün həmin məqsədi dönə-dönə nəzərə çarpdırırdı.

Nizamiyə görə, valideyn öz mövqeyindən asılı olmayaraq övladının gözəl gələcəyi üçün daim düşünməli, inkişafı ilə maraqlanmalıdır, onun məqsədəyönlü şəkildə böyüməsi üçün yeri gəldikdə bütün sərvətindən keçməlidir" [5].

Nizaminin pedaqoji düçüncələrində ümumbəşəri və milli dəyərlər bir-biri ilə vəhdətdədir. O, əsərlərində doğma yurdunun tarixini, onun adamlarını, təbiətini ilhamla tərənnüm edir. Qeyd edəcəyim cəhət onunla seçilir ki, o, qədim Çini, Hindistanı, Yunanıstanı, Rumu Azərbaycan kimi elm və sənət məbədləri hesab edir, eyni zamanda, bütün dünyanı bu məbədlərdən yararlanmağa çağırır. Nizamiyə görə, öyrənmək üçün məkan, yer, ölkə anlayışının fərqi yoxdur. Təki istək və məqsəd olsun.

Nizami Gəncəvi əsərlərində dövrün bütün problemlərinə toxunmuş, onların həlli yollarını da göstərmişdir. Nizami yaradıcılığının mərkəzində insan və onun taleyi məsələsi dururdu. Nizami əsərlərində ideal məhəbbətin tərənnümü, ədalətli cəmiyyət, zülm və haqsızlıqlara qarşı barışmaz münasibət, mənəvi cəhətdən saf və təmiz olmaq kimi məsələlər də yer almış, şair yaradıcılığı boyu da bu məsələləri böyük ustalıqla şərh etmişdir. Dahi şair öz yaradıcılığında insanların pis əməllərdən uzaq qaçması, yaxşı işlər ilə cəmiyyətə xidmət etməsi ideyasını həmişə önə çəkmiş, bütün yaradıcılığı boyu da bu amala sadiq qalmışdır. Ona görə də Nizami Gəncəvi yaradıcılığı sözün həqiqi mənasında örnək alınmalı və daima müraciət etməli olduğumuz bir mənbədir.

Ədəbiyyat

1. Cərulla qızı N. Mütəfəkkirlər şəxsiyyət haqqında. Cərulla qızı Nigar. – Bakı: Azərnəşr, – 1991. –160 s.
2. Əliyeva N.R. Məktəbəqədər yaşlı uşaqların ailədə tərbiyəsi. Dərs vəsaiti. N.Əliyeva. – Bakı: ADPU, – 2018. – 133 s.
3. https://aydinyol.aztc.gov.az/newsview/2094/GORKEMLI-ShEXSIYYETLER-NIZAMI-GENCEVI-HAQQINDA
4. https://naxcivanxeberleri.com/cemiyyet/53587-nizami-yaradiciliginda-trbiymsllri.html
5. http://www.anl.az/down/meqale/az_muellimi/2018/yanvar/573187.htm

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadıqov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 15.01.2022, son daxilolma – 02.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1,s. 57-60
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 57-60
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.57-60

UOT 378.147+796

Kiçik yaşlı məktəblilərin fiziki tərbiyəsinin mahiyyətinə dair

Müəllif:

Gülnar Əliyeva
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-mail:
aliyevagulum549@gmail.com

Açar sözlər:
kiçik yaşlı məktəbli, fiziki tərbiyə, fiziki iş qabiliyyəti, fiziki bacarıq, iradə möhkəmliyi və çeviklik

Annotasiya. Məqalədə ibtidai sinif şagirdlərinin fiziki cəhətdən təkmilləşməsi, onların fiziki fəallığı və inkişafı məsələləri öz əksini tapmışdır. Fiziki tərbiyə insanın sağlamlığının möhkəmləndirilməsində, kiçik yaşlı məktəblilərin normal və ahəngdar inkişafında mühüm xarakteristikaya malikdir. Fiziki tərbiyə prosesinin xarakteristik xüsusiyyətlərindən ən mühümü fiziki təhsil prosesidir. Fiziki təhsil mütəşəkkil proses olub, kiçik yaşlı məktəblilərin fiziki bacarıq və vərdişləri üzrə xüsusi biliklərə yiyələnməsinə yönəlmişdir. Fiziki tərbiyə prosesi ilə aşılanan biliklər informasiya mənbəyi olaraq daha çox peşəkar funksiya daşıyır. Bu proses kiçik yaşlı məktəblilərə təkcə sağlam və mütənasib bədən quruluşuna sahib olmaqla yanaşı, həmçinin onlarda milli və mənəvi hisslərin formalaşmasına da təkan verir. Bədən tərbiyəsi dərslərində həyat üçün vacib olan bir sıra hərəkətlər öyrədilir. Fiziki tərbiyə baxımından kiçik yaşlı məktəblilərə nə üçün bədən tərbiyəsi ilə məşğul olduqalarını, idmanın məna və əhəmiyyətini öyrətməkdə xüsusi təlim-tərbiyəvi əhəmiyyətə malikdir. Məqalədə qeyd olunur ki, kiçik yaşlı məktəblilərin fiziki tərbiyəsinin inkişafı, onların fiziki fəallığı və formalaşması üçün nəzərdə tutulan proses və imkanlardan məqsədyönlü şəkildə istifadə edilməlidir.

On the nature of physical education of young schoolchildren

Author:

Gulnar Aliyeva
Nakhchivan Teachers Institute
Master
E-mail:
aliyevagulum549@gmail.com

Key word:
elementary school students, physical education, physical work ability, physical skill, willpower and flexibility

Abstract. Physical improvement of elementary school students, their physical activity and development are reflected in the article. Physical education has an important characteristic in strengthening human health and normal and harmonious development of young schoolchildren. The most important characteristic of the physical education process is the physical education process. Physical education is an organized process aimed at acquiring special knowledge of physical skills and habits of young schoolchildren. The knowledge imparted through the process of physical education has a more professional function as a source of information. This process not only gives young schoolchildren a healthy and proportionate body structure, but also encourages the formation of national and moral feelings in them. Physical education classes teach a number of movements that are important for life. From the point of view of physical education, it has a special training-educational importance in teaching young schoolchildren why they are engaged in physical education, the meaning and importance of sports. It is mentioned in the article that the processes and opportunities intended for the development of physical education of young schoolchildren, their physical activity and formation should be purposefully used.

О сущности физического воспитания младших школьников

Автор:

Гюльнар Алиева
Нахчыванский институт учителей
Магистрант
E-mail:
aliyevagulum549@gmail.com

Ключевые слова:
младшие школьники, физическая культура, физическая работоспособность, физические навыки, сила воли и ловкость

Аннотация. В статье отражены вопросы физического совершенствования младших школьников, их физической активности и развития. Физическое воспитание имеет важную характеристику в укреплении здоровья человека, в нормальном и гармоничном развитии младших школьников. Важнейшей из характерных особенностей процесса физического воспитания является процесс физического воспитания. Физическое воспитание – это организованный процесс, направленный на приобретение младшими школьниками специальных знаний о физических навыках и привычках. Знания, привитые в процессе физического воспитания, несут в себе более профессиональную функцию источника информации. Этот процесс позволяет младшим школьникам не только иметь здоровое и пропорциональное телосложение, но и стимулирует формирование у них национальных и духовных чувств. На уроках физической культуры обучают ряду важных для жизни движений. С точки зрения физического воспитания имеет особое учебно-воспитательное значение в обучении младших школьников тому, почему они занимаются физической культурой, смыслу и значимости спорта. В статье подчеркивается, что следует целенаправленно использовать процессы и возможности, предназначенные для развития физического воспитания младших школьников, их физической активности и формирования.

Tərbiyə prosesi xüsusi proses olub, yaşlı nəslin əldə etdiyi sosial tarixi təcrübə və bacarıqların yetişməkdə və daim inkişafda olan nəslə məqsədyönlü şəkildə ötürülməsidir. Tərbiyə prosesi bir sıra tərkib hissələrindən ibarət olub, bunlardan ən mühümü isə fiziki tərbiyə prosesidir. Fiziki tərbiyə prosesi həm məktəbəqədər təhsil müəssisələrində həm də ümumi təhsil müəssisələrində uşaqların fiziki cəhətdən sağlam və gümrah yetişməsini təmin etməkdən ibarətdir. Təhsil müəssisələrində uşaqlara fiziki hərəkət və bacarıqların öyrədilməsinin xüsusi əhəmiyyəti vardır. Bu bacarıqlara yeriş, qaçış, tullanma, sıçrama, qol və ayaq əzələlərinin hərəki inkişafı və.s kimi bacarıqlar daxildir. Fiziki hərəkətlərlə müntəzəm məşğul olan kiçik yaşlı məktəblilər fiziki cəhətdən daha sağlam və gümrah olur, və bu kimi bir sıra prosesləri keyfiyyətlə yerinə yetirir. Fiziki tərbiyə prosesinin ən mühüm mahiyyətlərindən biridə məktəblilərə fiziki bilik,bacarıq və vərdişlərin aşılanmasıdır. Bu proses kiçik yaşlı məktəblilərin psixoloji və fiziki inkişafını sürətləndirməklə yanaşı onların əmək prosesinə hazırlanmasında da mühüm rol oynayır. Aparılan fiziolji və psixoloji tədqiqatlar göstərir ki, fiziki hərəkət və bacarıqlar nəinki məktəbəqədər yaşlı uşaqların həmçinin kiçik yaşlı məktəblilərində iş qabiliyyətini artırır, onların zehnini inkişaf etdirir və onların fiziki sağlamlıqlarına müsbət təsir göstərir. Kiçik yaşlı məktəblilərə fiziki cəhətdən aşılan bilik, bacarıq və vərdişlər sayəsində məktəblilər onlara tapşırılan prosesləri ardıcıl yerinə yetirir, onların ürək fəaliyyəti möhkəmlənir, maddələr mübadiləsi sürətlənir, görmə qabiliyyəti artır bir sözlə fiziki inkişafları əlverişli şəkildə formalaşır. "Kiçik yaşlı məktəblilərin fiziki cəhətdən inkişaf etməsinin ən mühüm xüsusiyyətlərindən biri də təbii amillərdir. Təbii amillər dedikdə (hava, torpaq, su, günəş və günəş vannaları) nəzərdə tutulur. Bu amillər kiçik yaşlı məktəblilərin əmək qabiliyyətlərini artırmaqla yanaşı onları yaşadıqları mühitə bağlayır, onlar da iradi keyfiyyətlərinin formalaşmasına, kollektiv bacarıqların yaranmasına şərait yaradır." [1, s.181-183]. Kiçik yaşlı məktəblilərin fiziki cəhətdən inkişaf etməsində mühüm xüsusiyyətlərdən digəri isə oyunlardır. "Uşaqlar hələ məktəqədər yaşlarında oyun metodu vasitəsi ilə dünyaya gözlərini açır. Məktəb illərində isə artıq bu bacarıqlar daha da formalaşaraq öz əksini tapır". Oyunlar uşaqların dünyagörüşünün artırılmasında,onların həyata daha müstəqil və yenilməzlik hissi ilə baxmasında vacib rol oynayır. "Elə oyunlar var ki, onlar uşaqları cəlb edir.məs:uzağa top atma,tək ayaq üstündə tullanma,topu qonşuna göndər,kim uzağa atar?, qurd dərədə, düz hədəfə at, zolaqlar üzərindən hoppanma və.s" [2, s.61-67]. Bu kimi oyunlar məktəblilərin sağlam şəkildə böyüməsinə zəmin yaratmaqla yanaşı onlar da intelektual fikirlərin,emosional hisslərin yaradıcı təfəkkürün və harmonik sferaların formalaşmasına əlverişli şərait yaradır. Oyunlar təkcə məktəbəqədər təhsil müəssisələrində deyil,məktəblərdə də təşkil olunur. Oyun prosesinə alışan kiçik yaşlı məktəbli bədən tərbiyəsi dərslərində müntəzəm şəkildə iştirak edir,əldə etdiyi bilik,bacarıq və vərdişlərdən oyun prosesində istifadə edir. Fiziki tərbiyə prosesini təkcə tərbiyəçi-müəllim uşaqlara aşılamır,uşaqların orqanizminin normal və sağlam inkişafı məhz ailədən başlayır. O, yeriməyi, qaçmağı, tullanmağı və bu kimi bir sıra hərəkətlərin ilk təməlini ailədən alır. Lakin uşaqların fiziki tərbiyə sferaları təkcə ailədə formalaşmaqla qalmır, bu məqsədyönlü prosesin inkişafı və formalaşması tərbiyəçi-müəllimin öhdəsinə düşür. "Məktəblərdə keçirilən fiziki tərbiyə dərslərində əsas komponentərdən biridə əlverişli mühitin yaradılmasıdır. Əlverişli mühitin başlıca vəzifəsi uşaqlar da fiziki gərginliyin aradan qaldırılması və xoş əhval-ruhiyyənin yaradılmasından ibarətdir." [3, s.102-105] Müəllim fiziki tərbiyə dərslərində nailiyyət qazanmaq üçün pedaqoji qanunauyğunluqlara və təlim prinsiplərinə əsaslanmalı, təlimin təşkili prosesində mövzuya uyğun yeni forma və metodlardan məharətlə istifadə etməlidir. "Müəllim fiziki tərbiyə dərslərində hərşeydən öncə kiçik yaşlı məktəblilərin qamət hərəkətlərinə xüsusi diqqət yetirməlidir. Çünki bu proses orqanizmin normal şəkildə inkişaf etməsi ilə yanaşı, skelet və skelet əzələlərinin də inkişafına müsbət təsir göstərir. Müəllim kiçik yaşlı məktəblilərə fiziki bacarıqları aşılamaqla yanaşı,onlar da bir sıra keyfiyyətlərin

yaranmasınıda stimullaşdırır.” [4, s.581-584]. Belə keyfiyyətlərdən ən başlıcasıda vətənpərvərlik hissidir. Vətənpərvərlik hissləri aşılanan kiçik yaşlı məktəbli öz doğma yurdunu sevir, canı bahasına yurdunu və torpaqlarını düşmənlərdən qoruyur. Fiziki tərbiyə prosesi kiçik yaşlı məktəblilərin təkcə fiziki və hərəki fəallığı ilə əlaqədar olmayıb, onların şəxsiyyətlərinin, dünyagörüşünün və psixoloji inkişafının formalaşması ilə də bilavasitə əlaqədardır. Kiçik yaşlı məktəblilərin fiziki tərbiyəsinin bir sıra mahiyyətləri vardır. Bu mahiyyətlər əsasən aşağıdakılardan ibarətdir.

1. Kiçik yaşlı məktəblilərə fiziki hərəkətləri: qaçmaq, hoppanmaq, yürüyüş, qaməti düzgün tənzimləmə və.s kimi xüsusiyyətləri aşılamaq;

2. Kiçik yaşlı məktəblilər arasında bədəncə daha zəif olan uşaqlara xüsusi qayğı və kömək ehtiyacının göstərilməsi;

3. Fiziki tərbiyə dərslərində kiçik yaşlı məktəblilərdə iradi və əxlaqi keyfiyyətlərin formalaşdırılması;

4. Fiziki tərbiyə məşğələləri zamanı ritimliliyin gözlənilməsi;

5.Kiçik yaşlı məktəblilərin ayrı-ayrı hərəki bacarıq və qabiliyyətlərinin müşahidə edilməsi və yoxlanılması;

6. Gəzinti, yürüyüş və ekskursiyalardan istifadə edərək uşaqların sağlam, gümrah və bədəncə daha çevik olmalarını tənzimləmək;

7. Kiçik yaşlı məktəblilərin fiziki inkişafını artırmaq məqsədi ilə valideynlərlə qarşılıqlı işgüzar əlaqələrin yaradılması;

Fiziki tərbiyə prosesinin kiçik yaşlı məktəblilərə aşılanmasında musiqi prosesinində özünəməxsus rolu vardır. Musiqi kiçik yaşlı məktəblilər də emosional və harmonik hisslər yaradaraq onları fiziki hərəkətlərə sövq edir. "Musiqi prosesi məktəblilərdə dostluq, qayğıkeşlik,özünəinam, məqsədyönlülük və.s kimi hissləri formalaşdırır. Bu proses onların fiziki hərəkət və qabiliyyətləri daha asan və yüngül şəkildə icrasına şərait yaradır. İstər məktəbəqədər təhsil müəssisələrində istərsə də ümumitəhsil müəssisələrində ilin müxtəlif vaxtlarında fiziki tərbiyə məşğələləri və dərsləri təşkil olunur”. [5 s.12-14] Bu dərslər yayda bağçada, parkda, təmiz havada, qışda isə idman zallarında və ya otaqlarda həyata keçirilir. Qışda elə hərəkətlər təşkil etmək lazımdır ki, bu hərəkətlər soyuq havalarda uşaqların ürək fəaliyyətinin tənzimlənməsinə, qan dövranın formlaşmasına şərait yaratsın. Qış aylarında həmçinin uşaqlara yorucu və mürəkkəb hərəkətlərin verilməsi məqsəduyğun deyildir, belə hərəkətlər zamanı uşaqlar ruhdan düşür və tez yorulurlar. Fiziki tərbiyə dərslərində diqqət yetirilməsi ən vacib komponentlərdən biridə kiçik yaşlı məktəblilərin zədələnməsinin qarşısını almaqdan ibarətdir. Bu prosesin qarşısının alınmasında ən böyük xüsusiyyət uşaqları müşahidə etmək və onların mühafizə edilməsidir. Bir sıra hərəkətlər icra olunarkən məsələn qaçarkən, tullanarkən və.s kiçik yaşlı məktəblilərin qorunması,onların yıxılma riskinin minimum dərəcədə azadılması və onlara dayaq olunması fiziki tərbiyənin başlıca amillərindəndir.

Fiziki tərbiyə prosesinin ən mühüm nəticələrindən biridə kiçik yaşlı məktəblilərin fiziki hərəkətlərlə düzgün əlaqələndirilməsi,onların fiziki və psixoloji keyfiyyətlərinin formalaşdırılması və idmana yaxşı münasibət bəsləmələri nəzərdə tutulur. Kiçik yaşlı məktəblilər fiziki tərbiyə sahəsində əldə etdikləri bilik, bacarıq və vərdişlər sayəsində fiziki, əxlaqi və elmi cəhətdən hazırlığını artırır və bu kimi proseslərdə artıq hərəkətlərə yol verməməyə çalışır. Fiziki tərbiyə prosesində müntəzəm iştirak edən məktəblilər ictimai faydalı işlərlə məşğul olur,əmək prosesinə rəğbət bəsləyir. Bu tərbiyə prosesi vasitəsilə məktəblilərin təfəkkür və təxəyyül prosesləri genişlənir,onlar gülür, əylənir, həyatdan zövq alırlar. Fiziki tərbiyə prosesini müsbət nəticəyə gətirən ən böyük amillərdən biridə oyun prosesidir. Bu prosesi təşkil etməklə kiçik yaşlı məktəblilərin idmana rəğbəti daha da artır, onlar keçirilən oyunlar vasitəsilə nəzəri və praktiki məlumatları daha yaxşı qavrayırlar. Bu prosesdən belə bir nəticəyə gəlmək olar ki, uşaqlar oyun prosesində necədirlərsə böyüdükdən sonra da, yəni müstəqil həyatda da bir çox iş sahəsində elə olacaqlardır.

Kiçik yaşlı məktəblilərdə beynəlmiləlçilik, vətənpərvərlik, mərdlik, əxlaqi və iradi keyfiyyətlərin müsbət şəkildə formalaşmasında

ən mühüm xüsusiyyət tərbiyə prosesinin və onun tərkib hissəsi olan fiziki tərbiyə prosesinin qarşılıqlı şəkildə əlaqələndirilməsi və məktəblilərlə bu barədə müntəzəm işlərin aparılması olduqca vacibdir. Tərbiyəçi-müəllim kiçik yaşlı məktəblilərdə fiziki tərbiyə prosesini aşılamaq və formalaşdırmaq üçün ilk növbədə yeni pedaqoji texnologiyalardan düzgün şəkildə istifadə etməli və dərs prosesini müəyyən ardıcıllıqla təşkil etməlidir. Kiçik yaşlı məktəblilərin fiziki tərbiyəsinin mahiyyəti prosesində tərbiyəçi-müəllim və valideynlərin üzərinə xüsusi diqqət düşür. Tərbiyəçi- müəllim valideynlərlə sıx əlaqə saxlamalı, uşaqların fiziki tərbiyə prosesində ortaya çıxan nöqsanları valideynlərə çatdırmalıdır. Tərbiyəçi-müəllim və valideynlər birlikdə qarşılıqlı əlaqə yaradaraq uşaqların fiziki tərbiyəsində ortaya çıxan nöqsanların mənbəyini araşdırmalı və bu problemlərin aradan qalxması üçün qarşılıqlı əlaqələr qurmalıdır. Bu əlaqələr nəticəsində tərbiyəçi-müəllim kiçik yaşlı məktəblilərin tərbiyəsində ki nöqsanları araşdırır, onların gün rejimi ilə maraqlanır və bu sahədə valideynlərə kömək edir. Nəticədə tərbiyəçi-müəllim və valideynlər birlikdə bu problemləri aradan qaldıraraq onları bərpa edir. Bu proses nəticəsində isə kiçik yaşlı məktəblilərin fiziki tərbiyə prosesi və bacarıqları fəallaşaraq qaydasına düşür. Beləliklə kiçik yaşlı məktəblilərin fiziki tərbiyəsində ən mühüm nəticələrdən başlıcası tərbiyəçi-müəllim və valideynlərin qarşılıqlı işgüzar əlaqədə olması və məktəblilərin ictimai həyata cəlb edilməsindən ibarətdir. Məqalədə qeyd edilən tədbirlər istər məktəbəqədər təhsil müəssisələrində istərsə də ümumitəhsil müəssisələrində kiçik yaşlı məktəblilərin fəaliyyətinin dəstəklənməsi və təhsil müəssisələrinin inkişafını sürətləndirməyə imkan verəcək.

Ədəbiyyat

1. Quliyev B.S. İbtidai sinif şagirdlərinin fiziki tərbiyə prosesinin aktual problemləri. – Bakı, – 2013.
2. Quliyev B.S. Mütəhərrik və əyləncəli oyunlar. – Bakı: ADPU, – 2011.
3. Qurbanov H.H. Fiziki tərbiyə nəzəriyyəsi və metodikası. – Bakı, – 2001.
4. Quliyev B.S. Fiziki tərbiyənin nəzəri-metodik və praktik işlərinin əsasları. – Bakı, – 2010.
5. Əliyev S., Əlihüseynov N. Fiziki tərbiyə. – Bakı, – 2019.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –28.12.2021 , son daxilolma –15.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 61-66
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 61-66
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.61-66

UOT
378+371.1+373.3

Avropa ölkələrində ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji təcrübəsinin təşkilinin standartlaşdırılması

Müəllif:

Ülviyyə Nağıyeva
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: ulviyyenagiyeva921@gmail.com

Açar sözlər:
Avropa, ibtidai sinif müəllimi, peşə, standart, pedaqoji təcrübə

Annotasiya. Məqalədə Avropa ölkələrində ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji təcrübəsinin təşkili məsələlərinə baxılır. Qeyd olunur ki, əksər inkişaf etmiş ölkələrdə ibtidai sinif müəllimlərinin hazırlığı orta və ya "natamam ali" təhsil müəssisələrində (pedaqoji kollec, normal məktəb, pedaqoji məktəb) həyata keçirilir. Təhsil müddəti məzmuna görə dəyişir və fərqlidir. Tədqiqatın məqsədi. Məqsəd Avropa ölkələrində ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji təcrübəsinin təşkilinin standartlaşdırılmasını öyrənməkdir. Tədqiqatın nəticələri. Azərbaycanda ibtidai sinif müəllimlərinin peşə-ixtisas hazırlığında Avropa ölkələrinin təcrübəsindən istifadə etmək mümkündür. Tədqiqatın praktiki əhəmiyyəti. Azərbaycanda ibtidai sinif müəllimlərinin peşə-ixtisas hazırlığı ilə bağlı standartların hazırlanmasında istifadə etmək olar. Tədqiqatın elmi yeniliyi. Avropa ölkələrində ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji təcrübəsinin təşkilinin standartlaşdırılması ilk dəfədir ki, müqayisəli şəkildə öyrənilir.

Standardization of the organization of professional training and pedagogical experience of primary school teachers in European countries

Author:

Ulviyya Nagiyeva
Nakhchivan Teachers Institute
E-mail: ulviyyenagiyeva921@gmail.com

Key word:
Europe, primary school teacher, profession, standard, pedagogical practice

Abstract. The article examines the organization of professional training and pedagogical experience of primary school teachers in European countries. It is noted that in most developed countries, primary school teachers are trained in secondary or "incomplete higher" educational institutions (pedagogical college, normal school, pedagogical school). The duration of the study varies and differs according to the content. The purpose of the study. The aim is to study the standardization of the organization of professional training and pedagogical experience of primary school teachers in European countries. Results of the study. It is possible to use the experience of European countries in the professional training of primary school teachers in Azerbaijan. Practical significance of research. It can be used in the preparation of standards related to professional training of elementary school teachers in Azerbaijan. Scientific novelty of the research. Standardization of the organization of professional training and pedagogical experience of primary school teachers in European countries is studied for the first time in a comparative way.

Стандартизация организации профессиональной подготовки и педагогической практики учителей начальных классов в европейских странах

Автор:

Ульвия Нагиева
Нахчыванский институт учителей
E-mail: ulviyyenagiyeva921@gmail.com

Ключевые слова:
Европа, учитель начальных классов, профессия, стандарт, педагогическая практика

Аннотация. В статье рассматриваются вопросы организации профессиональной подготовки и педагогической практики учителей начальных классов европейских стран. Отмечается, что в большинстве развитых стран подготовка учителей начальных классов осуществляется в средних или неполных высших учебных заведениях (педагогический колледж, обычная школа, пединститут). Продолжительность обучения варьируется и отличается в зависимости от содержания. Цель исследования заключается в том, чтобы изучить стандартизацию организации профессиональной подготовки и педагогической практики учителей начальных классов в европейских странах. Результаты исследования можно использовать в профессиональной подготовке учителей начальных классов в Азербайджане. Практическая значимость исследования состоит в том, что его можно использовать при разработке стандартов, связанных с профессионально-квалификационной подготовкой учителей начальных классов в Азербайджане. Научная новизна исследования заключается в том, что европейских странах стандартизация организации профессиональной подготовки и педагогической практики учителей начальных классов изучается в сравнительном аспекте впервые.

Müasir dövrdə ictimai həyatın müxtəlif sahələrində, o cümlədən təhsil sahəsində yeni bir istiqamət - qloballaşma baş verməkdədir. "Qloballaşma sadəcə olaraq müxtəlif dövlətlərin inteqrasiyası yox, təhsil, mədəniyyət, iqtisadiyyat, bütün düşüncə tərzinin yaxınlığı, mümkün olsa oxşarlığı deməkdir" [1,s.19]. Əslində qloballaşma tendensiyaları həmişə olub, amma müasir dövrdə məzmun və keyfiyyətcə yeni mərhələyə daxil olub. Bu səbəbdən də xarici ölkələrin təcrübəsinin öyrənilməsi aktuallıq kəsb edir.

Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan təhsilində əsaslı islahatlar aparmaq məqsədilə xarici ölkələrin təcrübəsinin öyrənilməsinə maraq artdı. Pedaqoji kadr hazırlığının məqsəd, məzmun və texnologiyasında ciddi dəyişikliklərin aparılmasını əsaslandıran araşdırmalar meydana gəldi. Azərbaycanda təhsil islahatları ümumi təhsil pilləsinin ibtidai təhsil səviyyəsindən başlandığına görə ibtidai sinif müəllimi hazırlığına da yeni tələblər verildi. Bu məqsədlə xarici ölkələrdə ibtidai sinif müəllimi hazırlığı problemi öyrənilməyə başlanıldı. Ali təhsilin modernləşdirilməsinin bütün istiqamətlərini deyil, gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığının vacib komponenti olan standartlaşdırmanı nəzərdən keçirməyi vacib hesab edirik.

Əksər inkişaf etmiş ölkələrdə ibtidai sinif müəllimlərinin hazırlığı orta və ya "natamam ali" təhsil müəssisələrində (pedaqoji kollec, normal məktəb, pedaqoji məktəb) həyata keçirilir. Təhsil müddəti məzmuna görə dəyişir və fərqlidir. Belə ki, Danimarka, İtaliya, Norveç və başqa ölkələrdə ibtidai sinif müəllimləri natamam orta məktəb bazasında hazırlanır və təhsil müddəti 4 ildir. İngiltərə, Almaniya və başqa ölkələrdə ibtidai sinif müəllimləri tam orta təhsil bazasında hazırlanır ki, burada da təhsil müddəti 2 ildir. Bu gün universitetlərin nəzdində fəaliyyət göstərən pedaqoji kolleclərdə ibtidai sinif müəllimi hazırlığı müddətinin 3-4 ilə qədər artırılması tendensiyası müşahidə olunur. Bəzi ölkələrdə təhsil müddəti 4 il olan belə kolleclər universitetlərin Təhsil fakültələrinə və ya onların filiallarına çevrilir.

İngiltərədə ali pedaqoji təhsilin standartlaşdırılmasının əsas istiqamətləri Müəllimlərin Milli Kvalivikasiya standartında öz əksini tapır. Müəllimlərin Milli Kvalivikasiya standartı üç bölməni əhatə edir:1) peşə keyfiyyətləri; 2) peşə bilik və bacarıqları; 3) peşə vərdişləri. Bununla yanaşı onlar geniş erudisiyası, müxtəlif mənəvi maraqları, yaradıcılıq qabiliyyəti ilə seçilməli, tədris edəcəkləri fənlər üzrə dərin bilik və bacarıqlara, həmçinin öz pedaqoji fəaliyyətlərini idarə etmək, təlim-tərbiyə prosesində xoş əhvali-ruhiyyə yaratmaq bacarığına yiyələnməlidir. Standartda müəllim hazırlığının proqramı və əsas fənlərin məzmunu da verilmişdir. İngiltərədə ibtidai sinif müəllimləri ümumi və pedaqoji kolleclərdə və universitetlərin pedaqoji fakültələrində hazırlanılır. Ölkədə dövlət və özəl pedaqoji təhsil müəssisələri fəaliyyət göstərir. Universitetlərdə istənilən fakültədə 3 il oxuduqdan sonra bir illik pedaqoji hazırlıq keçməklə də müəllim işləmək mümkündür. Pedaqoji kolleclərin müəllim kadrları hazırlığı ilə bağlı vahid proqramları yoxdur. Ümumi tədris yükünün 25%-i pedaqoji fənlərə ayrılır. Gələcək ibtidai sinif müəllimləri 2 müddətində psixologiya, təhsil fəlsəfəsi, təhsil sosiologiyası, ixtisas fənlərinin metodikası, pedaqogika tarixi, məktəb gigiyenası, məktəbşünaslıq, müqayisəli pedaqogika fənlərini mənimsəməli olur. Gənc müəllimlərə hami müəllimlər (tyutorlar) pedaqoji dəstək olur. Pedaqoji təcrübənin təşkili və keçirilməsinə xüsusi diqqət verilir. Gələcək ibtidai sinif müəllimləri təhkim olunduqları məktəbdə 14 həftə pedaqoji təcrübədə olurlar. Pedaqoji kolleci bitirənlər isə birillik internatura) keçməli olurlar.

Tanınmış ingilis pedaqoqu C.Uayt yazırdı ki, "müəllim ilk növbədə şagirdin – insanın və vətəndaşın maraqlarını nəzərə almalıdır" [2].

İngiltərədə müəllim kadrları hazırlığını tənzimləyən digər normativ sənəd Milli kurikulum hesab edilir ki, buraya da fənn proqramları, təlimin forma və metodları, tədris-metodiki resurslar daxildir [3, s.9-10]. Böyük Britaniyada ali pedaqoji təhsilin standartlaşdırılmasının əsas istiqamətlərindən biri məzunun - gənc müəllimin pedaqoji hazırlığı meyarlarının və peşə kompetensiyalarının müəyyən edilməsidir. Azərbaycan ümumtəhsil məktəblə-

rindən fərqli olaraq Böyük Britaniyanın müəllim hazırlığında iştirak edən məktəblərinin (əməkdaş məktəblərin) üzərinə ciddi məsuliyyət qoyulur. Belə ki, onlar peşəkar müəllim kadrları hazırlığına universitetlə birgə cavabdehdirlər. L.P.Puxovskayanın tədqiqatlarına görə, əməkdaş məktəb müəllim hazırlığı proqramlarının hazırlanmasında, pedaqoji təcrübənin strukturunu və məzmununun müəyyənləşdirilməsində, ixtisas fənlərinin tədrisi metodlarının və təlim nailiyyətlərinin yoxlanılması üsullarının seçilməsində, tələbələrin praktik işlərinin qiymətləndirilməsində, gələcək müəllimlərin peşə-pedaqoji hazırlığının yekun nəticəsinin dəyərləndirilməsində, təkmilləşdirmə proqramlarının hazırlanmasında iştirak edirlər [4, s.87].

İngiltərədə müəllim hazırlığı Təhsil Standartları Bürosu və Müəllim Hazırlığı Agentliyi tərəfindən qiymətləndirilir. Gələcək müəllimlərin peşə hazırlığının qiymətləndirilməsi həm daxili, həm də xarici yoxlamaları əhatə etdiyindən həm müfəttişlər, həm də universitet rəhbərliyi tərəfindən həyata keçirilir.

Son illərdə Fransada pedaqoji kadr hazırlığı sisteminin ən mühüm nailiyyəti müəllimlərin peşə hazırlığı ilə bağlı ixtisas standartlarının hazırlanması və tətbiqidir. Universitetlərdə bakalavriatura səviyyəsində müəllim hazırlığına 3 il, universitetlərin nəzdindəki institutlarda isə 2 il vaxt ayrılır. Tədrisin birinci ilində xüsusi və pedaqoji fənlər sahəsində tələbələrin peşə-nəzəri hazırlığı həyata keçirilir, ikinci tədris ilində isə əldə edilmiş biliklər əsasında sırf praktiki təlimlər keçirilir.

Gələcək ibtidai sinif müəllimləri təhsil müddətində Fransa Təhsil Nazirliyi yanında yaradılan Milli Komissiya tərəfindən təsdiq peşə standartları çərçivəsində müəyyən bilik, bacarıq əldə etməli, peşə kompetensiyalarına yiyələnməlidir. Müəllimlərin peşə-pedaqoji hazırlığının məzmununu ümumi təhsil, ixtisas fənləri və psixoloji-pedaqoji fənlərin inteqrasiyasında əldə edilmiş biliklər və onların təcrübədə tətbiqi təşkil edir. V.Laşıxinanın yazdığına görə, "Fransada ali pedaqoji təhsil müəssisələrində pedaqoji kadr hazırlığında pedaqoji-psixoloji fənlərin məzmununun müasirləşdirilməsi əsas prioritet hesab olunur". [3, s. 12–13].

Fransanın müəllim kadrları hazırlayan təhsil müəssisələrində peşə-pedaqoji hazırlığına təhsilin fəlsəfəsi, ümumi pedaqogika, pedaqogika tarixi, təhsilin sosiologiyası, psixologiya fənləri daxildir. Gələcək ibtidai sinif müəllimləri "Müəllimlik ixtisasına giriş" fənni ilə bağlı universitet müəllimlərinin mühazirələrini dinləyirlərsə, pedaqoji təcrübəni məktəb müəllimlərinin rəhbərliyi ilə keçirlər. Universitetdə pedaqoji təcrübəyə 3, məktəblərdə 20 həftə vaxt ayrılır.

İbtidai məktəb müəllimləri bu fənlərdən əlavə, təhsil sisteminin məktəbəqədər pilləsinin psixo-pedaqoji problemlərini özündə ehtiva edən inteqrativ "Ana məktəbi" və "Mühacir övladlarının təhsili" kursunu da öyrənirlər. "Ana məktəbi" nəzəri kursunun öyrənilməsi və məktəbəqədər təhsil müəssisələrində gələcək ibtidai məktəb müəllimlərinin pedaqoji təcrübə keçməsi fransız ibtidai sinif müəllimlərinin peşə-pedaqoji hazırlığının xarakterik xüsusiyyətidir. Belə yanaşmaya nə digər Avropa ölkələrinin, nə də Azərbaycanın müəllim kadrları hazırlığını həyata keçirən ali pedaqoji təhsil müəssisələrində rast gəlmək mümkün deyil. Bu kursun tədrisində gələcək ibtidai məktəb müəllimlərini məktəbəqədər yaşlı uşaqların yaş və anatomik-fizioloji xüsusiyyətləri, tərbiyə işinin vacib elementlərini və praktik istiqamətlərini həyata keçirən "ana məktəbi"nin özəllikləri və uşaqların məktəbəhazırlığının məzmunu ilə tanış olurlar. Müasir dövrdə Fransada gələcək müəllimlərin pedaqoji-psixoloji hazırlığının məzmunun təkmilləşdirilməsi istiqamətində xeyli işlər görülmüş, ən başlıcası, müəllim hazırlığının standartları yeniləşdirilmişdir.

Almaniyada uzun müddət ibtidai sinif müəllimləri təhsil müddəti 6 semestr (bəzən də 8 semestr) davam edən ali pedaqoji məktəblərdə hazırlanırdı. Formal olaraq ali pedaqoji məktəblər ali təhsil müəssisələri ilə bərabər tutulsa da, əslində "ikinci dərəcəli" ali məktəb olaraq qalırdılar. Müasir dövrdə pedaqoji institutların universitetlərə qoşulması prosesi gedir ki, bu da ölkədə müəllim hazırlığının yeni və mütərəqqi modellərinin yaranmasına səbəb olmuşdur. Qoşulmanın ən tipik forması, L.P.Pu-

xovskayanın da qeyd etdiyi kimi, "Təhsil fakültələrin yaradılması" [4,s.108] idi.

Ölkədə təhsil sisteminin qeyri-mərkəzləşdirilmiş şəkildə idarə edilməsi səbəbindən universitetlər bu problemi fərqli şəkildə həll etmişdir. Struktur dəyişikliyinə baxmayaraq Almaniyada müəllim kadrları hazırlığında iki mərhələ təlim dəyişməz olaraq qalır:1) akademik mərhələ; 2) praktik mərhələ. Birinci mərhələ ümumelmi, ixtisas və az da olsa pedaqoji-psixoloji hazırlığı və məktəb təcrübəsini (8 həftə) əhatə edir. Gələcək müəllimlərin peşə hazırlığının ikinci mərhələsi məktəbdə tyutorun (mentorun) rəhbərliyi altında sınaq dərsləri keçməkdən, əsas (ixtisas) fənlərin metodikası ilə bağlı ümumi seminar məşğələlərində iştirakdan, pedaqoji-psixoloji bilikləri pedaqoji təcrübədə tətbiq etməkdən ibarətdir. Bu mərhələ universitetdə imtahanla başa çatan hazırlıq xidməti adlanır. Müəllimlərin məktəbdə praktiki işə hazırlanmasının ikinci mərhələsinin əsas çatışmazlığı L.P.Puxovskayanın qeyd etdiyi kimi, "məktəblərin muxtariyyəti və universitetdən ayrı fəaliyyət göstərməsidir ki, bunun da nəticəsində nəzəri və praktiki hazırlıq arasında uçurum yaranır" [4,s.112]. Məktəblərdə gələcək ibtidai məktəb müəllimlərinin pedaqoji təcrübəsinin təşkilində yalnız məktəb məsuliyyət daşıdığından universitet tərəfindən tələbələrin irəliləyişləri mütəmadi olaraq izlənilmir və korreksiya işləri aparılmır. Xarici ölkə alimlərinin və təhsil mütəxəssislərinin əksəriyyəti iki mərhələli bu modelin təkmilləşdirilməsini vacib hesab etsələr də, onu olduğu kimi saxlamağın tərəfdarları da vardır. Son illərdə ali pedaqoji təhsilin inkişaf tendensiyaları Almaniyada da müəllim kadrları hazırlığının strukturunda, məzmun, forma və texnologiyasında yeniləşməni zəruri etmişdir. Gələcək müəllimlərin nəzəri biliklərinin inkişafında onun fundamentallaşdırılması və pedaqoji-psixoloji fənlərin funksiyasının artırılması tendensiyası müşahidə olunur. İbtidai sinif müəllimləri hazırlığında Hamburq və Hesse universitetlərinin pedaqoji şöbələrinin maraqlı ənənələri vardır. Hər yerdə hazırlıq müddəti, əsasən eynidir. 3 il müddətində tələbələr 1-2 məktəb fənnini və onun tədrisi texnologiyasını mənimsəyir, alman dili, ingilis dilli, riyaziyyat, tarix, siyasət, din və pedaqoji biliklərin əsaslarını öyrənir. Məktəb təcrübəsi zamanı dərslərin həftə ərzində müşahidəsi, müzakirəsi və dəyərləndirilməsi həyata keçirilir.

Norveçdə müəllim hazırlığına iki yanaşma mövcuddur: 1) kolleclərdə müəllim hazırlığı (4 il təhsil); b) universitetlərdə müəllim hazırlığı. Pedaqoji kolleclərdə və universitet kolleclərində ibtidai sinif müəllimi hazırlığının müddəti fərqlidir. Pedaqoji kolleclərdə ibtidai sinif müəllimi hazırlığı ilə bağlı təhsil müddəti 2-3, universitet kolleclərində isə 3-4 ildir.

Pedaqoji kadr hazırlığı mərhələlərlə həyata keçirilir:

- uşaq bağçasında işləmək hüququ verən pedaqoji təhsil. Əlavə bir il təhsil almaqla həmin müəllim ibtidai məktəbdə işləmək hüququ qazanır.

- ümumi pedaqoji təhsil. Belə bir təhsilə yiyələnənlərə ibtidai və əsas orta məktəbdə, yaşlılar məktəblərində dərs demək hüququ verir;

- diferensiallaşdırılmış pedaqoji təhsilə yiyələnənlər I-VII və ya V-X siniflərdə dərs demək hüququ qazanırlar.

Norveçdə müəllim hazırlığı Milli Kurikulumun tələbləri əsasında həyata keçirilir:

- uşaq bağçaları və ibtidai məktəb müəllimləri üçün üçillik proqram;

- ibtidai və əsas orta məktəb müəllimlərinin diferensial hazırlığı üçün dördillik proqram;

- ümumi müəllim hazırlığı üçün dördillik proqram [5, s. 52–54]

Danimarkada son illərdə orta məktəb müəllimlərinin sayında azalmalar müşahidə olunur. Bu məqsədlə ölkənin Təhsil Nazirliyi gələcək müəllimlərin hazırlanması üçün xüsusi layihə (kredit transferi proqramı) hazırlayıb. 4 illik təhsili nəzərdə tutan proqram icbari və seçmə fənləri əhatə edir. Əsas və seçmə fənlərə aşağıdakılar fənlər daxildir: humanitar elmlər (Danimarka, ingilis, fransız və alman dilləri, tarix, dinşünaslıq, sosial elmlər; dəqiq elmlər (biologiya, fizika, kimya, coğrafiya, riyaziyyat); təbiət elmləri, texnologiya, praktiki fənlər, estetik elmlər (təsviri incəsənət, musiqi, dizayn), idman, daxili iqtisadiyyat, metal emalı və ağac emalı. Tələbə təhsil müddətində məcburi olaraq ən azı iki fənn bloku seçməli və onları

dörd semestr ərzində öyrənilməlidir.

Müasir dövrdə Polşa Respublikasında müəllim kadrları hazırlığı 12 sentyabr 1990-cı il tarixli "Ali təhsil haqqında" qanunla tənzimlənir. Həmin qanuna görə, universitetlərdə müəllim hazırlığının iki mərhələli sistemi formalaşdırılmışdır. Birinci səviyyə – pedaqoji ixtisaslar üzrə üçillik ali peşə hazırlığını, ikinci səviyyə ikiillik pedaqoji ixtisasların məzunları üçün üçillik magistr hazırlığını və elmi istiqamətlər üzrə beşillik magistr hazırlığını nəzərdə tutur. Hər iki mərhələdə orta məktəb məzunları üçün qəbul imtahanı məcburidir.

Avropada ali peşə təhsilində islahatların inkişafında müasir yanaşmalar Avropa Kvalifikasiya Çərçivəsinin (2005-ci) və pedaqoji bacarıqların və kvalifikasiyaların müəyyənləşdirilməsi üzrə ümumi avropa prinsiplərinin (2006-cı ildə) yaradılmasına, gələcək müəllimlərin peşə hazırlığı üçün ümumi avropa standartlarının hazırlanmasına, pedaqoji kadr hazırlığını həyata keçirən milli universitetlərin əməkdaşlığının genişlənməsinə güclü təsir etdi.

Finlandiyada müəllimlik peşəsinin uğuru fin xalqının bu peşəyə münasibətindən qaynaqlanır. Bu ölkənin bütün insanları, vəzifəsindən və tutduğu mövqedən asılı olmayaraq müəllimə hörmət və etimad göstərirlər. Finlandiyada müəllimlik prestijli peşələrdən hesab olunur. Bu ölkədə müəllimlər fəal, azad və eyni zamanda məsuliyyətlidirlər. Milli əsasnaməyə görə, hər bir müəllim öz proqramını yazmaq, müvafiq dərsliyi seçmək hüququna malikdir. Məktəb təhsilində müəllimə nəzarət yoxdur.

Finlandiyada da abituriyent Azərbaycanda olduğu kimi test imtahanlarından keçməlidir. 4 illik təhsil müddəti olan bakalavriatura səviyyəsində I-II-III tədris ilində 4 həftə, sonuncu tədris ilində 5 həftə pedaqoji təcrübədə olurlar. Müəllim kadrları hazırlayan universitetlərin nəzdində gələcək müəllimlərin təcrübə keçdiyi pilot məktəblər fəaliyyət göstərir. Həm ibtidai sinif (I-VI siniflər), həm də fənn müəllimlərindən (VII-XII siniflər) magistratura səviyyəsində pedaqoji biliklər tələb olunur. Finlandiya yeganə Avropa ölkəsidir ki, müəllimlərin magistratura səviyyəsini bitirməsi tələb olunur. "Magistraturanı müvəffəqiyyətlə bitirənlər doktorluq dissertasiyası üzərində işləmək hüququ qazanırlar" [6, s.661]. Onlar dissertasiya müdafiə etməklə "doktor" elmi dərəcəsi alırlar. Bu ölkənin əsas ali məktəbləri Helsinki, Turku, Tampere və s. universitetləridir

Məktəbəqədər təhsil müəssisələri üçün müəllim hazırlığı proqramları 3 illikdir. Bu müddət ərzində tələbələrin 180 kredit toplaması tələb olunur.Uşaq bağçasının müəllim-tərbiyəçiləri magistratura səviyyəsində pedaqogika ixtisası üzrə təhsil alırlar. İbtidai sinif müəllimlərindən ayrı-ayrı fənn müəllimləri kimi bakalavriatura səviyyəsində 3, magistratura səviyyəsində 2 il təhsil alması tələb olunur. Bakalavriatura səviyyəsində tələbələr 180 kredit, magistraturada səviyyəsində 120 kredit toplayırlar [7, s. 149-156].

İsveçdə müəllim olmaq istəyənlər ixtisasından asılı olaraq hökmən 3,5-4,5 il müddətində ali təhsil almalıdırlar. Bu ölkədə 1991-ci ildən müəllimlər bələdiyyə işçiləri hesab olunurlar. Müəllimlərin məktəblərə qəbul olunmasında, pedaqoji fəaliyyətlərinin maliyyələşdirilməsində bələdiyyə məsuliyyət daşıyır. Müəllim işləmək istəyənlər İsveç dilini, təhsil sistemi ilə bağlı qüvvədə olan qanun və normaları bilməli, ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə pedaqoji təhsil almalıdır. Müstəsna hallarda müəllimliklə bağlı sertifikatı və təhsil müəssisələri üzrə dövlət idarəsinin xüsusi razılığı olanlar digər ixtisasın məzunları da müəllim işləyə bilərlər. Müəllim hazırlığında kredit sistemi mövcuddur. Hər bir kredit konkret mövzu üzrə 40 saatlıq kursu əhatə edir.

İsveçdə müəllimlər müxtəlif universitet və institutlarda hazırlanırlar. Stokholm Təhsil İnstitutu belə tədris müəssisələrindən biridir. Stokholm Təhsil İnstitutu müəllim hazırlığı, müəllimlərin ixtisasartırması və pedaqoji tədqiqatlar sahəsində ixtisaslaşmışdır. Stokholm Təhsil İnstitutu İsveçdə yeganə təhsil müəssisəsidir ki, müxtəlif səviyyəli məktəblər üçün müəllim kadrları hazırlayır.

Hər bir gələcək ibtidai sinif müəllimi təhsil müddəti ərzində 60 kredit toplamalıdır. 60 kreditin 10-u pedaqoji-psixoloji fənlərə aiddir. Bu fənlərə təhsilin fəlsəfəsi, təhsilin strukturu,

uşaq inkişafı daxildir. Əslində bu kurslarda pedaqogika, psixologiya və pedaqogika tarixi öyrədilir, əsas diqqət təcrübi biliklərin aşılanmasına yönəldilir.

Avropa ölkələrində gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığının standartlaşdırılması prosesi aşağıdakı ümumi tendensiyalara malikdir:

a) ibtidai sinif müəllimi hazırlığında pedaqoji kolleclərin payının azaldılması, kolleclərin universitetlərə qoşulması və ya universitetlərin pedaqoji fakültələrinə çevrilməsi;

b) pedaqoji-psixoloji hazırlığın məzmununun yeniləşdirilməsi, onun pedaqoji təcrübə ilə əlaqələndirilməsi;

c) pedaqoji kolleclərdə təlim müddətinin artırılması;

d) Avropa İttifaqı ölkələrində iki mərhələli (bakalavr və magistr) kadr hazırlığı sistemi.

Xarici ölkələrdə müəllim hazırlığında müəyyən eyniliklər olsa da fərqliliklər də vardır. Belə ki, bəzi ölkələrdə ibtidai sinif müəllimi hazırlığına 3, bəzi ölkələrdə 4 ilə vaxt ayrılır. Ayrı-ayrı ölkələrin ibtidai sinif müəllimliyi ixtisasının tədris planında və fənlərin məzmununda fərqliliklər nəzərə çarpır.

Beləliklə, xarici ölkələrdə gələcək ibtidai sinif müəllimlərinin hazırlığı ilə bağlı həyata keçirilən tədbirlərin müqayisəli şəkildə təhlili onu göstərir ki, müəllim hazırlığı ilə bağlı vahid standartların formalaşdırılması istiqamətində səylər birləşdirilməlidir.

Ədəbiyyat

1.Əliyev R.İ.Etnopsixologiya: qloballaşma və millilik. /R.İ.Əliyev. – Bakı:Nurlan, – 2007, – 180 s.

2. Jandhyala B and Tılak, G. (2005).Clobal trends in the funding of higher edication. IAU Horizons (World HigherEdication News), 1:1-3

3.Полищук, Л. П. Профессиональная подготовка учителей начальной школы Англии в условиях евроинтеграции: автореф. дис. ... канд. пед. наук: /Л.П. Полищук. - Житомир,– 2011. – 21 с.

4. Пуховская, Л.П.Профессиональная подготовка учителей в Западная Европа: общность и происхождение. / Л.П.Пуховская. – К.: Высшая школа, – 1997. - 170 с.

5.Модернизация педагогического образования в европейском и евроатлантическом образовательном пространстве: монография / авт. кол. : Н.М.Авшенюк, В. О. Кудин, О. И. Огиенко и др. – К.:Педагогична думка, – 2011. – 232 с.

6. Abbasov, Ə.M. İnkişaf etmiş xarici ölkələrdə təhsil. /Ə.M.Abbasov, –Bakı: Elm və təhsil, –2019. – 108 s.

7. Орлова, Л.В. Современное педагогическое образование в Финляндии и Швеции: структура и содержание. / Вестник Северного (Арктического) федерального университета. Серия: Гуманитарные и социальные науки. 2015.№ 2, – с.145-157.

8. Rüstəmov, F.A. Pedaqogika tarixi. / F.A.Rüstəmov. –Bakı: Elm və təhsil, – 748 s.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadıqov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 21.01.2022, son daxilolma – 19.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s.67-70
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 67-70
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.67-70

UOT
37.017.925+821.512.162

Xalqın milli oyanış ideyasının inkişafında görkəmli maarifpərvər Ö.F.Nemanzadənin rolu

Müəllif:

Kübra Quliyeva
Naxçıvan Dövlət Universiteti

E-mail:
k.guliyeva@yahoo.com

Açar sözlər:
Ömər Faiq Nemanzadə, milli şüur, milli oyanış, milli özündərk, mətbuat

Annotasiya. Məqalədə xalqın milli oyanış, milli şüur və özündərkinin inkişafında görkəmli yazar və pedaqoq Ömər Faiq Nemanzadənin rolu və xidmətlərindən bəhs olunmuşdur. Qeyd edilmişdir ki, XIX əsr Azərbaycan xalqı üçün milliləşmək adına atılan addımların başladığı bir dövr idi və bu sahədə bir çox dahi şəxsiyyətlərin əvəzedilməz rolları olmuşdur. Xalqın milli şüur və oyanışının inkişafında bir neçə qəzet və jurnalın adı çəkilmişdir. Xüsusilə məqalədə "Qeyrət" mətbəəsinin fəaliyyətindən bəhs edilmiş, eləcə də mətbəədə Ö.F.Nemanzadənin fəaliyyəti də öz əksini tapmışdır. Yazar mətbəədə çalışdığı müddətdə deyirdi ki, müəyyən biliklərə yiyələnmək, bədii, tarixi kitabları nəşr etdirməklə bizlər hazırki vəziyyətimizi dəyişdirə və milli şüuru inkişaf etdirə bilərik. Məqalədə həmçinin yazarın "Dəvət və təvəqqe" adlı məqaləsindən bəhs edilmişdir. Görkəmli yazar xalqın milli şüur oyanışına başlıca olaraq söz-qələm ustadlarının sadə və yığcam şəkildə fikirlərini xalqa çatdırmaqda görürdü. Bununla bağlı olaraq M.Ə.Sabir və Ə.Nəzminin ədəbi irsindən də nümunə gətirilmişdir.

The role of outstanding educator O.F.Nemanzade in the development of the idea of national awakening of the people

Author:

Kubra Guliyeva
Nakhchivan State University
E-mail:
k.guliyeva@yahoo.com

Key word:
Omar Faig Nemanzade, national consciousness, national awakening, national self-awareness, press

Abstract. The article deals with the role and merits of Omar Faig Nemanzade, a prominent writer and educator in the development of national awakening, national consciousness and self-awareness of the people. It was noted that the XIX century was a period when the steps taken in the name of nationalization began for the Azerbaijani people, and many great personalities played irreplaceable roles in this area. Several newspapers and magazines have been mentioned in the development of national consciousness and awakening of the people. In particular, the article deals with the activities of the" zeal " printing house, as well as in the Printing House.F.Nemanzade's activities are also reflected. During his work in the printing house, the writer said that by acquiring certain knowledge, publishing fiction and historical books, we can change our current situation and develop national consciousness. The article also deals with the author's article "invitation and solicitation". The outstanding writer saw the awakening of the national consciousness of the people mainly in the simple and concise way of communicating the thoughts of the Masters of the word-pen to the people. In this regard, M.A.Sabir and A.He was also cited as an example of Nazmi's Literary Heritage.

Роль видного просветителя О.Ф.Неманзаде в развитии идеи национального пробуждения народа

Автор:

Кюбра Гулиева
Нахчыванский государственный университет
E-mail:
k.guliyeva@yahoo.com

Ключевые слова:
Омар Фаиг Неманзаде, национальное сознание, национальное пробуждение, национальное самосознание, печать

Аннотация. В статье рассматривается вопрос о роли и заслугах выдающегося писателя и педагога Омара Фаига Неманзаде в национальном пробуждении, развитии национального сознания и национального самосознания. Было отмечено, что XIX век стал для азербайджанского народа периодом начала шагов, предпринятых во имя национализации, и в этой области многие гениальные личности сыграли незаменимую роль. В развитии национального сознания и пробуждения констатируются заслуги несколько газет и журналов. В частности, в статье говорилось о работе типографии «Гейрат», также нашла свое отражение деятельность Ф.Неманзаде в типографии. Во время работы в типографии писатель говорил, что, приобретая определенные знания, издавая художественные, исторические книги, мы можем изменить наше нынешнее положение и развить национальное сознание. В статье также упоминается статья автора «Приглашение и просьба». Пробуждение народного национального сознания выдающийся писатель видел главным образом в донесении до народа идей мастеров слова-пера простым и лаконичным способом. В связи с этим приведены образцы из литературного наследия М.А.Сабира и А.Назми.

XIX əsrin II yarısı Azərbaycan xalqı üçün elm, maarif, milli oyanış, milli özündərk, milli şüurun formalaşdırılması yolunda mühüm addımların atıldığı bir dövr idi və Cəlil Məmmədquluzadə, M.F.Axundzadə, Həsən bəy Zərdabi, N.Vəzirov, Ş.C.Əfqani, Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Qəmküsar, Ə.Nəzmi və s. kimi dahi şəxsiyyətlərin xalqın milli şüuru, milli oyanışın hərəkətə gətirilməsində əvəzedilməz rolları olmuşdur. Azərbaycanda milli hərəkatın ilk mərhələsi 1875-1904-cü illərə təsadüf edir və bu dövr milli oyanış dövrü adlandırılır. Maarifpərvər, ziyalılarımızın fəaliyyətində xalqı maarifləndirmək, milli şüuru oyatmaq, doğma ana dilini inkişaf etdirmək, cəhalətdən xilas kimi mühüm məqəsdlər qarşıya qoyulmuşdu. Bu dahi şəxsiyyətlər həmçinin Azərbaycan milləti ideyasını geniş şəkildə təbliğ etməyə başladılar.

Dahi yazar Ö.F.Nemanzadənin də milli oyanış, milli şüurun formalaşmasında məxsusi rolu vardır. Onun yaradıcılığına nəzər salsaq, əsərlərinin çoxu məhz milliləşmək, maarifl ənmək yolunda qələmə alındığını görə bilərik. Yazar Azərbaycan xalqının milli oyanışı, azadlığı, dirçəlişi və xoşbəxtliyi uğrunda adını tarixə yazdıran, mübarizə aparan şəxslərdən biri olmuşdur. Göstərilən təzyiqlərə, edilən təqiblərə baxmayaraq heç vaxt xalqı işıqlığa, maarifə, oyanışa aparacaq yoldan dönməmişdir. O, xalqa səsini çatdırmağın, milli oyanış və özündərkin formalaşdırmağın əsasını mətbuatda, qəzet və jurnalların dərc olunmasında görürdü. Ö.F.Nemanzadə yaşadığı müddətcə bir çox mətbuat orqanlarında fəaliyyət göstərmiş, mətbəəçilik və redaktorluqla məşğul olmuş, çoxlu məqalə və felyetonlarını bu orqanlarda çap etdirmişdir. Onun məhz sıx əməkdaşlıq etdiyi, mətbuat orqanlarına, qəzet və jurnallarına "Qeyrət" mətbəəsi, "Şərqi rus" qəzeti, "Molla Nəsrəddin" jurnalını və .s nümunə göstərə bilərik. Yazar bu qəzet və jurnallarda gördüyü haqsızlıqları, xalqa olan zülmları, nadanlıqları qələmə almışdır.

Yuxarıda qeyd etdiklərimizdən məhz belə bir nəticəyə gələ bilərik ki, xalqın milli şüurunun, milli oyanışının formalaşmasında açılan mətbuat orqanlarının, çap olunan qəzet və jurnalların rolu əvəzedilməz olmuşdur. Bu mətbuat orqanlarından Ö.F.Nemanzadə və C.Məmmədquluzadənin birgə əməkdaşlığı Naxçıvanlı tacir Məşədi Əlsəgər Bağırzadənin maddi dəstəyi ilə Tiflisdə "Şərqi Rus" qəzeti bazasında yaratdıqları "Qeyrət" mətbəəsidir. Bu iki dahi şəxsiyyət üçün mətbəə gəlir mənbəyi mövqeyində deyildir. "Qeyrət" mətbəəsi milli oyanış, mədəni tərəqqi üçün başlıca vasitə idi. Onlar öz gücləri hesabına məətbəəni ayaq üstə saxlamağa çalışırdılar. Bu işdə onlara daha çox qələm-söz sahibləri, millət qeyrəti çəkənlər köməklik etməli idilər, lakin mətbəənin açılması söhbəti ortaya atılandan hər kəs sanki görünməz adam mövqeyində çıxış edirdi. İmkanlı olanların, əli qələm tutanların çoxu ancaq özünü düşünür, xalqın işindən uzaq qaçır, milli təşəbbüsə qoşulmurdular. Bununla bağlı Ö.F.Nemanzadə yazırdı: "Ağızlarından çıxardıqları arabir "vamillətə" sözləri dillərinin ucundadır. Əksər sözləri quru hayküydür. Millətə lazım olduqları vaxt yüz vest uzaq qaçırlar. "İntelligent" liyi qıraxmallı köynəkdən, başa şapka keçirməkdən, millətin ağır işlərində qaçmaqdan ibarət bilirlər. Avam camaatın qabağında nümunə olub millətə faydalı bir iş görmürlər. Duaları, təfəkkürləri, asıb-kəsmələri ancaq dillərindədir, xəyallarındadır... Xülasə bizə dua və söz bəsdir. İş görməliyik. İş, iş, iş..." [3].

Ö.F.Nemanzadə "Qeyrət" mətbəəsinin bahar çiçəkləri kimi rəngarəg açmasına, mətbəənin adına layiq təzə fikirlərin meydana gəldiyi yerə çevrilməsinə və bu yolda fəaliyyətinə davam etdirməsinə ümidvar idi. O, deyirdi ki, əlimizdən gəldiyi, gücümüzün çatdığı qədər elmə, biliklərə yiyələnək, ədəbi, tarixi, bədii kitabları nəşr etdirək, oxuyaq. Bununla biz hazır ki vəziyyətimizi dəyişdirə və milli şüurun inkişafına doğru yol ala bilərik. Mətbəədə həmçinin intibahnamələr də çap olunurdu. Bu intibahnəmələr siyasi yönümlü idi və çap olunub Bakıya da göndərilirdi. "Qeyrət" mətbəəsində çap olunan bu intibahnamələrin birində Bakı fəhlələrin zülmlərindən azad olunmaq üçün çalışmaları, ciddi səy və nəticələri də öz əksini tapmışdı. Bu intibahnamələr geniş mövzu dairəsinə malik idi və Zaqafqaziya inqilabçıları ilə də məhdudlaşmırdı. Ö.F.Nemanzadə bu intibahnamələrin təkcə Tiflis xalqı

üçün yox, Osmanlıyada göndəriləcək intibahnamələr olduğunu deyirdi. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvlərindən biri olan Əziz Mirəhmədov göstərirdi ki, həqiqətən Azərbaycanın qabaqcıl yazıçı və xadimləri, o cümlədən Ömər Faiq İran və Türkiyə inqilablarının hazırlanmasında iştirak etmişlər [1, s.205].

Ö.F.Nemanzadə xalqın milli şüurun oyanışında müstəsna dərəcədə rolu olan "Qeyrət" mətbəəsinin proqramını, niyyəti və təşkil olunma məqsədi ilə bağlı "Dəvət və təvəqqe"adlı məqaləsində izah etmişdir. Xalqı elmə, maarifə səsləmişdir. Məqalənin başlanğıcından, elmsizlik və cahillik, dumanın dağıdılması ilə başlayır. Camaatın bir neçə nəfərin əlində acizliyindən şikayətlənir. Bunun səbəbini yenidən yazar cəhalətdə, öz xeyir və zərərini bilməməkdə görür. Camaat onlara edilən təhqirlərə dözür, özünü öz əli ilə kəsir, səbəbini başqasında axtarır, boyunlarından asılan zülm boyunduruğundan xilas yolu axtarmaq istəmirlər. Yazar onu da qeyd edir ki, zalimlər camaatın qəflət və cəhalətindən istifadə edərək kəskin dişlərini onların qəlblərinə qədər batırıb, açdıqları istibdal meydanında istədikləri qədər oynayırlar. O, deyirdi ki, edilən zülmlərə qarşı xalqların bir çoxu qılınc və boşuna lazımsız şeylər ilə yox, öz bilikləri hesabına davaya çıxa bildilər.

Digər maarifçilər, ziyalılar hekayə və təmsillərdə xalqların gözünü açmağı, zülmə qarşı birləşməyə dəvət edirdilər. Bunun üçündə ən yaxşı vasitə xalq üçün kiçikhəcmli, dili sadə və güclü təsir edəcək hekayələrdir. Necə olur olsun çalışmalıyıq ki, camaat zalımların zülmünü, milli özündərkin formalaşdırılmasına mane olan qüvvələrin zərərini, elm, maarif yolunda cəhalətdən xilas olmağın müsbət xüsusiyyətlərini özləri dərk etsinlər. Öz xeyrini, ona lazım olan müsbət keyfiyyətləri, vətəni, milləti üçün gərəkli olan və ölkəni irəliyə doğru götürəcək halları özü cəlb edə bilsin.

Ö.F.Nemanzadə düşünürdü ki, XX əsr inqilab ərəfəsində yaranan yeni qəzet və jurnallar, açılan məktəblər, yeni dövrlə uyğunlaşmalı və mübariz olmalı, əsərlər elə qələmə alınmalıdır ki, xalqın milli şüurunun oyanışına inkişaf yolu tapsın, xalqı onları gerilədəcək, yarı yolda qoyacaq qüvvələrə qarşı mübarizəyə hazırlaya bilsin. O, şeirə, sənətə, xalqı işıqlığa doğru aparan elm yoluna ciddi yanaşmağın vacibliyini vurğulayırdı. Dahi yazar onu da deyirdi ki, ilk növbədə xalqın milli şüurun oyanışı və ideyaların formalaşdırılması üçün söz-qələm ustadları, sənətkarların cəsarəti, sadəlik və yığcamlıq əsasında ideyaların xalq kütləsinə çatdırılması vacib məsələlərdəndir. Bununla bağlı "Tuti" jurnalında dövrün görkəmli şairlərindən olan M.Ə.Sabir və Ə.Nəzminin ölməz ədəbi irsi nümunə göstərilərək yazılırdı:

"Cənab Mair..Həmişə qələmi əlinə almaqdan qabaq aşağıda göstərdiyimiz şərtləri mülahizə eləməyi sənə tövsiyyə ediriz:

1. Heç kəsdən qorxma çünki qorxu başa bəladır.

2. Yazılmış və deyilmiş sözlərə də yaxın durma, yoxsa şair olarsan.

3. Köhnə vəzi və qafiyələr işlətmə. Yazını elə bir qafiyədə yaz ki, adam onu oxuyanda əmmaməsini yerə qoyub oynamağı gəlsin.

4. Söz arasında diş sındıran çətin kəlimələr işlətmə

5. Yazmaq istədiyin bir məsləbi on-on beş xətdə qurtarmağa çalış vəssalam.

Əgər bu tövsiyyələrimizi gözləyib işə başlasan... Kəblə Honhon, Məşədi Sijimqululular tapan dərəcəni taparsan." [2].

Beləliklə demokratik, müasir ruhlu mətbuatın yeni ədəbiyyata, xalqın təfəkkürünə, şüurun inkişafına, milli oyanışa dair fikirləri Ö.F.Nemanzadə, C.Məmmədquluzadə, Ə.Nəzmi, Ə.Qəmküsar, M.Ə.Sabir və s. dahi şəxsiyyətlərin yaradıcılığında daha da dərinləşmiş və inkişaf etmişdi. Görkəmli yazar Ö.F.Nemanzadə bu sahədə əvəzedilməz xidmətlərini göstərmiş, həyatının sonrakı illərində də xalqın milli oyanış yolunda mühüm addımlar atmış, pedaqoq-müəllim kimi fəaliyyətini davam etdirmişdir. Onun məqalələri, felyetonları, birbirinin ardınca əsərləri qələmə alması xalqı milli oyanışa çağırmağın aparıcı nidalarından biri idi.

Ədəbiyyat

1. Ə.Mirəhmədov. Azərbaycan Molla Nəsrəddini. – Bakı, – 1980.

2. “Tuti” jurnalı, – 1916. № 18.
3. www.azmaster.biz. Qeyrət mətbəəsi

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –15.12.2021 , son daxilolma –16.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 71-73
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 71-73
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.71-73

UOT 372.4

Kiçik yaşlı məktəblilərin yaradıcı qabiliyyətlərinin xüsusiyyətlərinə dair

Müəllif:

Tünzalə Əliyeva
Naxçıvan Dövlət Universiteti
E-mail:
tunzaleeliyeva69@gmail.com

Açar sözlər:
kiçik yaşlı məktəblilər, yaradıcılıq, təsviri qabiliyyətlər, yaradıcılıq fəaliyyətinin növləri, yaradıcı yanaşmada şəxsi keyfiyyətlər

Annotasiya. Məqalədə kiçik yaşlı şagirdlərin yaradıcılıq fəaliyyətində təsviri qabiliyyətlərin inkişaf etdirilməsi məsələlərindən bəhs olunur. Burada təsviri qabiliyyətlər üzrə şagird fəaliyyətinin növləri, uşağın yaradıcı iş prosesinə onun şəxsi keyfiyyətlərinin təsiri məsələləri də araşdırılır. Qeyd edilir ki, "yaradıcılıq" anlayışı altında yeni maddi və mənəvi "məhsulun" analiz və sintezi üzrə hərəkətlər, təsirlər, metodlar, priyomların məcmusu başa düşülür. Yaradıcılıq fəaliyyətini fərqləndirən çox mühüm cəhət yerinə yetirilməsi nəzərdə tutulan məsələnin çox əhəmiyyətli informasiyalar şəraitində, yekun nəticələri qiymətləndirmə meyarları əsasında axtarılmasıdır. Bu isə xüsusi metodların köməyi ilə həyata keçirilir. Yaradıcılıq fəaliyyəti prosesində fiziki və əqli əmək fəaliyyyəti ahəngdar şəkildə uzlaşır, biri-biri ilə bağlı olur. Kiçikyaşlı məktəblilərin yaradıcılığı onların orijinal, özünəməxsus fəaliyyət məhsuludur.

On characteristics of creative skills of young schoolchildren

Author:

Tunzala Aliyeva
Nakhchivan State University
E-mail:
tunzaleeliyeva69@gmail.com

Key word:
young schoolchildren, creativity, descriptive abilities, types of creative activity, personal qualities in creative approach

Abstract. The article deals with the issues of developing descriptive abilities in the creative activity of younger students. Here are also examined the types of student activity on descriptive abilities, the issues of the influence of his personal qualities on the process of creative work of the child. It is noted that under the concept of "creativity" is understood a set of actions, influences, methods, primes on the analysis and synthesis of a new material and spiritual "product". A very important aspect that distinguishes creative activity is the search for the intended issue in the conditions of very important information, based on the criteria for evaluating the final results. And this is done with the help of special methods. In the process of creative activity, physical and mental activity are harmoniously combined and connected with each other. The creativity of younger schoolchildren is their original, peculiar product of activity.

Об особенностях творческих способностей младших школьников

Автор:

Тунзала Алиева
Нахчыванский государственный университет
E-mail:
tunzaleeliyeva69@gmail.com

Ключевые слова:
младшие школьники, творчество, изобразительные способности, виды творческой деятельности, личностные качества в творческом подходе

Аннотация. В статье рассматриваются вопросы развития изобразительных способностей в творческой деятельности младших школьников. Здесь также рассматриваются вопросы видов деятельности ученика по изобразительным способностям, влияния его личностных качеств на процесс творческой работы. Отмечается, что под понятием «творчество» понимается совокупность действий, воздействий, методов по анализу и синтезу нового материального и духовного «продукта». Очень важным аспектом, отличающим творческую деятельность, является поиск окончательных результатов на основе критериев оценивания в условиях очень важной информации, которую предполагается выполнить. А делается это с помощью специальных методов. В процессе творческой деятельности физическая и умственная трудовая деятельность гармонично сосуществуют, они взаимодействуют. Творчество младших школьников-продукт их оригинальной, своеобразной деятельности.

Müasir psixologiyada yaradıcılıq qabiliyyətləri anlayışından geniş şəkildə istifadə edilir. Bu anlayış yaradıcılıq anlayışı ilə sıx əlaqə və vəhdətdədir. Hazırkı dövrdə psixologiya üzrə tədqiqatlarda məktəbli yaradıcılığının müxtəlif növləri fərqləndirilir. Hamı tərəfindən qəbul edilmiş elmi, texniki, ədəbi, musiqi, təsviri sənət və s. bu kimi qabiliyyətlərlə yanaşı oyun, təlim, məişət, hərbi, idarəçilik, situativ yaradıclıq qabiliyyətləri də ayırd edilir.

Yaradıcılıq anlayışı altında yeni maddi və mənəvi "məhsulun" analiz və sintezi üzrə hərəkətlər, təsirlər, metodlar, priyomların məcmuyu başa düşülür. Yaradıcılıq fəaliyyətini fərqləndirən çox mühüm cəhət yerinə yetirilməsi nəzərdə tutulan məsələnin çox əhəmiyyətli informasiyalar şəraitində, yekun nəticələri qiymətləndirmə meyarları əsasında axtarılmasıdır. Bu isə xüsusi metodların köməyi ilə həyata keçirilir.

Bir cəhəti də qeyd edək ki, insan yaradıcı yanaşmaya yiyələnərkən bir sıra üstünlüklərə malik olur. Bunlardan bir neçəsini göstərək.

1. Yaradıcılıq həyat məqsədlərinin və özünü ifadə qabiliyyətlərinin təşəkkülü, yeni əlamət və formalar alması prosesidir.

2. Yaradıcı yanaşmaya yiyələnərək ailədə, cəmiyyət kollektivində baş verən ziddiyyətlərin uğurla həll edilməsi, yeni şəraitə müvəffəqiyyətlə adaptasiya olmaq imkanları yaranır.

3. Yaradıcılıq fəaliyyəti prosesində şəxsi keyfiyyətlər - əməksevərlik, məqsədə çatmaq əzmi, inadlı və iradəli olmaq, tənqidə dözümlülük və s. keyfiyyətlər formalaşır.

4. Yaradıcılıq fəaliyyəti prosesində fiziki və əqli əmək fəaliyyyəti ahəngdar şəkildə uzlaşır, biri-biri ilə bağlı olur və s.

Kiçikyaşlı məktəblilərin yaradıcılığı onların orijinal, özünəməxsus fəaliyyət məhsuludur. Təlim prosesində müstəqil olaraq mənimsənilmiş bilik, bacarıq və vərdişlərin tətbiqi, o cümlədən həyata keçirilməsi, həmçinin məlum fəaliyyət üsullarının kombinə edilməsi, qarşıya qoyulmuş vəzifələrin həllinə yeni yanaşmaların müəyyən edilməsi və s. şagirdlərin yaradıcı fəaliyyəti kimi qiymətləndirilir.

Şagirdin müstəqil yaradıcılıq fəaliyyəti onun qarşıya qoyulmuş vəzifələri öyrənməsi, həll edə bilməsidir. Uşaqları yaradıcılıq fəaliyyətinə qoşmaq -modellər, maketlər yarada bilmək, bədii və təsviri yaradıcılıq işləri ilə məşğul olmaq, müəyyən texniki vasitələr hazırlamaq, riyazi məsələləri həll edə bilmək prosesinə qoşmaqdır. Yaradıcılıq fəaliyyəti prosesində uşağın əvvəllər mənimsədiyi bilikləri tətbiq edə bilməsi, onları müxtəlif şəraitdə və müxtəlif məqsədlər üçün istifadə etməyi bacarması, fəaliyyət üsullarının kombinə edilməsinə səy göstərməsi, müəyyən məqsəd və vəzifələrin həllinin yeni yollarını tapa bilməsi olduqca vacibdir.

Şagirdlərin yaradıcılıq fəaliyyətinə qoşulması onalrın şəxsi yaradıcılıq keyfiy-yətlərinin inkişafına, yəni sürətlə oxumalarına, əqli fəallığına, fəhmli və zirək olmasına, özünün bilik ehtiyyatlarına yeni biliklər əlavə etməyə səy göstərməsinə, və beləliklə də uşaqların axtarış üsullarına yiyələnməsinə imkan yaradır. Bu zaman belə kompleks keyfiyyətlərin formalaşdırılması uşaqların müxtəlif yaradıclıq məhsullarının yaranması ilə nəticələnir ki, bu da şagirdlərin minimum ümumixtisas biliklərinə yiyələnməsini, onların yaradıcılıq haqqında az da olsa fikir və məlumatları mənimsəməsini təmin edir.

Şagirdlərin yaradıcılıq işinə istiqamətləndirilməsi təlimin ilk günlərindən başlamalı, bütün mövzuların tədrisi prosesində və praktik işlərin gedişi zamanı həyata keçirilməlidir. Unutmaq lazım deyil ki, hər bir uşaq oyun fəaliyyətində belə "yaradıcılıq" nümayiş etdirmək istəyir. Ona görə də uşaqların yaradıcılıq imkanlarını üzə çıxarmaq, qorumaq və inkişaf etdirmək ibtidai sinif müəllimlərinin ümdə vəzifəsi olmalıdır.Çünki təsviri fəaliyyət prosesində kiçik yaşlı məktəblilərin yaradıcılıq qabiliyyətlərinin inkişafına müasir təlimdə prioritet sahə kimi baxılır.

Ədəbiyyat

1. Məmmədov A. İdrak prosesləri, – Bakı, – 2005.

2. Psixologiya (Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə), – Bakı, – 2007.
3. Лейтес Н.С.Способности и одаренность в детские годы. – Москва, – 1984.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –07.01.2022 , son daxilolma –17.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 74-77
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 74-77
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.74-77

UOT
371.3:372.016+613

Şəxsiyyətyönümlü təlim sistemində sağlamlığı qoruyan texnologiyaların həyata keçirilməsi

Müəllif:

Xaqani İsmayılov
Naxçıvan Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail:
xaqaniismayılov@gmail.com

Açar sözlər:
şəxsiyyətyönümlü təlim, idrakı fəaliyyət, pedaqoji proses, psixoloji hazırolma, pedaqoji fəaliyyət

Annotasiya. Məqalədə sağlamlığı qoruyan pedaqoji prosesinin lahiyələşdirilməsinə hazır olmanın bütöv elementlər sistemində səfərbəretmə elementinin əhəmiyyətini lazımınca qiymətləndirməyin zərurətindən bəhs olunur. Bu fəaliyyətə hazırolma şəxsiyyətin elə vəziyyətinə deyilir ki, subyektdə lahiyələşdirilən pedaqoji prosesin obrazının olduğunun və şüurun daimi bu obrazın reallaşdırılmasına yönəlişliyini nəzərdə tutur. Burada sağlamlığı qoruyan pedaqoji prosesin lahiyələndirilməsinə hazırolmanın refleksiya və səfərbəretmə elementləri ayrıca olaraq qeyd edilir. Bunu da qeyd etmək lazımdır ki, bu elemntlər müəyyən bacarıq və vərdişlərin qabiliyyəti şərtləndirir. Ədəbiyyat mənbələrinin təhlilinə söykənərək onları tədqiq etdiyimiz problemlə əlaqələndirərək, biz aşağıdakı nəticələrə gəldik. Öyrənilən fəaliyyət növünə hazırolmanı biz bütöv bir hadisə kimi nəzərdən keçiririk. Həmçinin sağlamlığı qoruyan texnologiyaların inkişafının müasir tendensiyalarının nəzərdən keçirilməsi göstərdi ki, hazırda təlimə ən səmərəli yanaşmalardan biri şəxsiyyətyönümlü təlimin tətbiq edilməsidir.

Author:

Khagani Ismayilov
Nakhchivan State University
Doctor of Philosophy in Pedagogy, Associate Professor
E-mail:
xaqaniismayılov@gmail.com

Key word:
personality-oriented training, cognitive activity, pedagogical process, psychological preparation, pedagogical activity

Implementation of health-protecting technologies in a personalized training system

Abstract. The article deals with the need to properly assess the importance of mobilization element in the whole system of elements of readiness for the development of the pedagogical process of preserving health. The readiness for this activity is called the state of the personality, which implies the presence in the subject of the image of the projected pedagogical process and the constant orientation of consciousness to the realization of this image. Here, reflexion and mobilization elements of preparation for the design of the pedagogical process protecting health are mentioned separately. It should also be noted that these elements are conditioned by the ability of certain skills and habits. Relying on the analysis of literature sources and linking them with the problem we are studying, we came to the following conclusions. We consider readiness for the studied type of activity as a whole. Also, a review of modern trends in the development of health-preserving Technologies showed that one of the most effective approaches to training at present is the use of personality-oriented training.

Автор:

Хагани Исмаилов
Нахчыванский государственный университет
доктор философских наук в области педагогики, доцент
E-mail:
xaqaniismayılov@gmail.com

Ключевые слова:
личностно-ориентированное обучение, познавательная деятельность, педагогический процесс, психологическая подготовленность, педагогическая деятельность

Реализация здоровьесберегающих технологий в системе личностно-ориентированного обучения

Аннотация. В статье говорится о необходимости адекватной оценки важности мобилизационного элемента в системе целостных элементов готовности к проектированию здоровьесберегающего педагогического процесса. Подготовкой к этой деятельности называют такое состояние личности, которое предполагает наличие у субъекта образа проектируемого педагогического процесса и направленность сознания на постоянную реализацию этого образа. Здесь отдельно выделяются рефлексивные и мобилизационные элементы подготовки к проектированию здоровьесберегающего педагогического процесса. Следует также отметить, что эти элементы обусловливают способность определенных навыков и привычек. Опираясь на анализ литературных источников и соотнося их с исследуемой нами проблемой, мы пришли к следующим выводам. Подготовку к изучаемому виду деятельности мы рассматриваем как целое событие. Также обзор современных тенденций развития здоровьесберегающих технологий показал, что в настоящее время одним из наиболее эффективных подходов к обучению является применение личностно-ориентированного обучения.

Yaxşı məlumdur ki, ali məktəb pilləsi bütöv təhsil sisteminin mühüm mərhələsini təşkil edir. Məhz bu mərhələdə şəxsiyyətin intellektual, fiziki, mənəvi, bütövlükdə mədəni inkişafının əsasları formalaşır. Burada təhsilin keyfiyyəti təhsil prosesinin subyektlərinin sağlamlığından çox asılı olduğundan ondan kənarda nəzərdən keçirilə bilməz. Ona görədə ulu öndərimiz Heydər Əliyevin 1993-cü ildə Mütəqil ölkəmizə yenidən rəhbərliyə qayıdışından sonra bu sahəyə diqqət daha da artmışdır.

Pedaqoji proses insanın sağlamlığına zərər yetirirsə, təhsilin də mənası itir. Çoxsaylı tədqiqatların nəticələri isə onu göstərir ki, məktəblilərin yalnız 60%-ni praktiki olaraq sağlam hesab etmək olar. Məktəb məzunlarının sağlamlığı sahəsində vəziyyət bu gün təhsilin əsas strateji problemlərindən biri olaraq qalır. Xəstəliklərin strukturunda tənəffüs orqanları xəstəliyi, sinir sistemi və hiss orqanları xəstəlikləri, yoluxucu xəstəliklər, zədələr, zəhərlənmələr, dəri xəstəlikləri aparıcı yer tutur. Tədqiqatlar göstərir ki, görmə patologiyası da intensiv surətdə artmaqdadır. [1, s.82]

Məhz bu səbəbdən də hazırda sağlamlığı qoruyan təhsil texnologiyaları üzrə çox geniş tədqiqatlar açırlar.

Ümumiyyətlə, təhsildə sağlamlığı qoruyan texnologiyalar dedikdə, təlim-tərbiyə prosesində təhsil proqramlarının şagirdlərin fərdi sağlamlığı, yaş, psixofizioloji, mənəvi inkişaf xüsusiyyətlərini nəzərə almaqla təşkil edilməsi üsulları nəzərdə tutulur.

OM Solovyov qeyd edir ki, sağlamlığı qoruyan texnologiya tolim alanların təlim-idraki və praktiki fəaliyyətinin təşkili üsullarinin funksional sistemi olmaqla, elmi və praktiki baxımdan sağlamlığın qorunub saxlanmasını və möhkəmləndirilməsini təmin edir.

MƏSƏLƏNIN QOYULUŞU.

1. Tələbələrin psixoloji və mənəvi sağlamlıq öyrənilməsi

2. Ali məktəb pedaqoqlarının təlim alanlarının sağlamlığının qorunmasına hazır olmaları səviyyəsinin öyrənilməsi və təhlili.

3. Humanitar ixtisas tələbələri üçün "Şəxsiyyətyönümlü təlim və sağlamlıq" proqramının işlənib hazırlanması.

4. Ali məktəb dövründə tələbələrin sağlamlığının qorunmasına təsir edən didaktik şərtlərin müəyyənləşdirilməsi

TƏTQİQAT METODU

Apardığımız tədqiqat işinin nəticəsi göstərir ki, təhsilin yüksəldilməsi araşdırdığımız mövzu sahəsində səmərəli elmi-tədqiqat işi aparılmasından çox asılıdır. Bu da ali məktəblərin praktik fəaliyyətində aşağıdakı bir sıra ziddiyyətlərin həll edilməsi ilə sıx sürətdə bağlıdır. Təhsil sisteminin müasir inkişaf səviyyəsi ilə təlim alanların dərs və fənn yükünün elmi təmzinlənməsi zərurəti və arasındakı ziddiyət nəzərə alınmalıdır.

Məqalədə tədqiqat bu problem üzərində qurulmuş və aparılmışdır. Tədqiqatın obyekti ali məktəbdə tədris dövründə tələbələrin sağlamlığı müəyyənləşdirilmişdir.

Tədqiqatın predmeti olaraq ali məktəbdə tədris dövründə tələbələrin sağlamlığının qorunması prosesi götürülmüşdür.

Tədqiqatın məqsədi ali məktəb tədris dövründə tələbələrin sağlamlığını qoruyan pedaqoji prosesin lahiyələndirilməsi və ona hazırlığının formalaşdırılması sisteminin müəyyənləşdirilməsi təşkil edir.

Qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı metodlardan istfiadə olunmuşdur: tədqiq olunan problem üzrə ədəbiyyatın öyrənilməsi və elmi-nəzəri təşkili; sənədlərin öyrənilməsi, statistik metodlar, eksperiment metodları; sintez və ümumiləşdirmə əsas şərtlərdəndir.

Tədqiqatçıların çoxu bu fikirdədirlər ki, tələbələrin sağlamlığının formalaşmasının ən mühüm amillərindən biri pedaqoqların özünün sağlamlıq səviyyəsidir. Mahiyyət etibarı ilə bu, doğrudan da, belədir, çünki statistikaya görə, pedaqoqlar ölkəmizin müxtəlif, o cümlədən, peşə xəstəliklərindən əziyyət çəkən ən böyük əhali kateqoriyasındandır.

Sağlamlığı qoruyan texnologiyanın həyata keçirilməsinə hazır olmanın formalaşdırılması prosesini biz ümumilikdə gələcək pedaqoq şəxsiyyətinin formalaşdırılması prosesinin bir tərəfi kimi nəzərdən keçiririk. Bu, psixologiyada hamı tərəfindən qəbul olunmuş o müddəaya əsaslanır ki, məhz fəaliyyət şəxsiyyəti səciyyələndirir: şəxsiyyət məhz fəaliyyətdə formalaşır (Ə.Bayramov, Ə.Əlizadə, Y.Talıbov,

Ə.Ağayev və b.). Şəxsiyyət-fəaliyyətli yanaşmanın işlənməsində görkəmli rus psixoloqları S.L.Rubinşteyn, A.N.Leontyev, B.A.Ananyev, L.S.Viqotskinin rolu olduqca böyükdür. Onlar öz əsərlərində müəyyən fəaliyyətin köməyi ilə şəxsiyyətin ayrı-ayrı keyfiyyətlərinin dəyişdirilməsinin mümkün olduğunu birmənalı şəkildə göstərmişlər. Şəxsiyyət fəaliyyətə hazır olmadıqda, bu fəaliyyətə hazırlaşdıran təsirlər sisteminin köməyi ilə şəxsiyyətin lazımi keyfiyyətlərini formalaşdırmaqla onu konkret fəaliyyətə gətirmək mümkündür [2, s.90].

Qeyd edək ki, sağlamlığı qoruyan texnologiyanın həyata keçirilməsinə hazır olma probleminə həsr olunmuş tədqiqatlarda bu anlayis müxtəlif baxımdan səciyyələndirilir. M.İ.Dyaçenko və LA Kandihovic qeyd edirlər ki, hazırda psixoloji ədəbiyyatda hazır olmanın təyin edilməsi probleminə iki əsas yanaşma mövcuddur: funksional və şəxsiyyətli. Birinci vanaşmada psixoloji hazırolma

Birinci yanaşmada psixoloji hazırolma fəaliyyətdə yüksək nəticələr əldə etmək üçün zəruri olan psixi funksiyalarla əlaqədə nəzərdən keçirilir. Bu yanaşmanın nümayəndələri fəaliyyətə hazırolmanı «psixi proseslərin baş verdiyi fon» kimi, funksional bir durum kimi səciyyələndirirlər. Bu çərçivədə hazırolma fəaliyyətə quraşdırma (ustanovka) ilə əlaqədə nəzərdən keçirilir. Qeyd edək ki, psixologiyada quraşdırma dedikdə, müəyyən bir fəaliyyətə şəxsiyyət tərəfindən dərk edilməyə hazırlıq vəziyyəti nəzərdə tutulur. Q.Olporq belə hesab edir ki, quraşdırma əvvəlki təcrübə əsasında yaranan və fərdin əlaqəli olduğu obyekt və ya situasiyalara dair reaksiyalarına yönlü təsir göstərən psixi hazırlıq vəziyyətidir. Hazırlığın «quraşdırma»lı xarakterindən D.N.Uznadzenin də əsərlərində bəhs edilir. O da qeyd edirdi ki, quraşdırma fəaliyyətə hazırlıq kimi izah edilməlidir. Dediklərimizdən heç də belə çıxmır ki, quraşdırma cüzi bir psixoloji fenomendir. Quraşdırma subyektin özünəməxsus bir durumudur. Quraşdırma obyektiv şəraitin təsiri nəticəsində yaranan psixi fəallığa səbəb olur. Deməli, quraşdırma sırf subyektiv durum deyil, o, obyektiv situasiyanın sanki subyektə keçirilməsidir. Deməli, o, obyektiv vəziyyətin subyektə keçməsini təmin edir. Mahiyyət etibarı ilə V.N.Myasişev də oxşar mövqe tutur. O, müəyyən etmişdir ki, insanın fəaliyyətə hazırolması onun bu fəaliyyətə fəal müsbət münasibətindən asılıdır. Həm münasibətə, həm də quraşdırmaya şəxsiyyətin daxili qüvvələrinin səfərbər edilməsi səciyyəvidir. [3, s.46]

Beləliklə, birinci (funksional) istiqamətdə hazır olma müəyyən bir psixi durum kimi nəzərdən keçirilir.

İkinci cərəyanın nümayəndələri isə hazır olmanı şəxsiyyətin fəaliyyətinin səmərəliliyini təmin edən şəxsiyyət törəməsi kimi nəzərdən keçirirlər. M.İ.Dyaçenko, L.A.Kandıboviç, İ.A. Zimnyaya, V.A.Slastenin və başqaları). Bu yanaşma şəxsiyyətin məhsuldar fəaliyyət üçün lazım olan psixi proseslərinin,

təkmilləşdirilməsini nəzərdə tutur.

K.K.Platonovun fikrinə görə, hazırolma şəxsiyyətin inteqral xassəsidir. Onun formalaşması ilk növbədə bilik, bacarıq və vərdişlərlə şərtlənir. R.A.Nizamov bu fikirdədir ki, hazırolma öz əməyini təşkil etmək, inkişaf perspektivlərini görmək qabiliyyətini, sərbəst işləmək bacarığını daxil edir.

L.V.Kondraşova hazırolmanı şəxsiyyətin psixi xüsusiyyətlərinin və mənəvi keyfiyyətlərinin ahəngliyi kimi xarakterizə edir.

NƏTİCƏ

Haqqında danışdığımız yanaşma konsepsiyası pedaqoji fəaliyyətdə hazırolmanın spesifikliyini açıqlayan əsərlərdə də inkişaf etdirilmişdir (L.V.Kondraşova, N.V.Kuzmina, Y.N.Kulyutkin, R.A.Nizamov, V.A.Slastenin, T.A.Voronova, Q.A.Alfyorova və b.). Məsələn, V.A.Slastenin pedaqoji əməyə hazırolmanı şəxsiyyətin peşə funksiyalarının uğurla yerinə yetirilməsini təmin edən keyfiyyətlərinin məcmusu kimi şərh edir. Onun fikrinə görə, hazırolma pedaqoji məsələnin şəxsiyyət tərəfindən dərk edilməyə hazırlıq vəziyyətini ehtimal davranış modellərini, qarşıda duran çətinliklər müqabilində öz imkanlarını qiymətləndirmək bacarığını ehtiva edir. T.A.Voronova isə belə fikirdədir ki, şəxsiyyətin mürəkkəb və dinamik törəməsi kimi hazırolma müəllimin fəaliyyətinin uğurlu olub-olmamasında təzahür edir. K.M.Duray-Novakova hazirolma dedikdə, şəxsiyyətin keyfiyyət, xassə, bilik və vərdişlər sistemini nəzərdə tutur. Onun fikrincə, pedaqoji hazı-

rolmanın məzmununu şəxsiyyətin sosial məsuliyyət rolunu dərk etməsi, peşə məsələlərini fəal yerinə yetirməyə səy göstərməsi, bilik, bacarıq və keyTiyyətlərini həyata keçirməyə yönəlişliyi təşkil edir.

Beləliklə, hazır olmanın mahiyyətinə olan ikinci (şəxsiyyətli) Yanaşmada hazır olma uğurlu fəaliyyətin şəxsiyyətlə bağlı ilkin sərtləri ilə əlaqələndirilir. Müəlliflərin çoxu bu fikirdədirlər ki, Hazirolma fitri keyfiyyət deyil, o, peşə hazırlığının məqsəd və nəticəsidir.

Ədəbiyyat

1. Ağayev Ə.Ə. Azərbycanın elmi pedaqoji fikrində şəxsiyyətin formalaşması problemləri
2. S.Axundov, Təlim prosesində şagirdlərə fərdi yanaşma. – Bakı: Maarif, – 1975. 200 s.
3. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. – Bakı:Çaşıoğlu, – 1999. – 65 s.
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Əlizadə psixologiya. – Bakı: Maarif, – 1989. – 438 s.
5. Əhmədov H.M. Azərbaycan məktə v pedaqoji fikir tarixi.– Bakı: ABU, – 2001.– 320 s.
6. Əhmədov H.M., Həsənov A.V., Bayramov N.B. İdarəetmənin pedaqogika və psixologiyası. – Bakı. – 2004. – 386 s.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –08.01.2022 , son daxilolma –12.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 78-83
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 78-83
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.78-83

UOT 372.851

Riyaziyyat dərslərində qrafiklərin qurulmasında Excel proqramından istifadənin metodikasına dair

Müəlliflər:

Yaqub Məmmədov
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə elmlər doktoru
E-mail:
yagubmammadov@yahoo.com

Aytəkin Şahgəldiyeva
Naxçıvan Müəllimlər İnstitutu

Açar sözlər:
funksiyanın qrafiki, ofis proqramları, Microsoft Excel proqramı, alqoritmik bilik, dairəvi diaqramlar

Annotasiya. Ümumtəhsil məktəblərinin mövcud riyaziyyat proqramları, dərslikləri və metodiki ədəbiyyatın təhlilinin göstərdiyi kimi, məktəb riyaziyyat kursunda biliklərin tətbiqinin proqramlarla öyrədilməsinə az yer ayrılmışdır. Riyaziyyat təlimində qrafiklərin qurulmasında EXCEL proqramından istifadə etməklə şagirdlər həm informatik biliklərə sahib olurlar, həm də riyaziyyatdan öyrəndiklərini möhkəmləndirirlər. Burada təkcə öyrənilən biliklər möhkəmlənmir, həm də dərsə maraq yaranır, az vaxtda daha çox praktik iş yerinə yetirirlər. Ənənəvi qaydada öyrəndikləri bilikləri kompüter vasitəsilə yerinə yetirməklə həllin düzgünlüyünü yoxlaya bilirlər. Bu onlarda həm də özlərinə inam hissini formalaşdırır. Məqalədə ümumtəhsil məktəblərində riyaziyyat fənninin tədrisi prosesində qrafiklərin qurulmasında EXCEL proqramından istifadə etməklə şagirdlərdə riyazi bilik, bacarıq və vərdişlərin formalaşdırılması, riyazi təfəkkürü inkişaf etdirməyin imkan və yolları araşdırılaraq müəyyən edilmiş və digər fənlərin tədrisində də səmərəliliyin yüksəldilməsi yolları göstərilmişdir.

Authors:

Yagub Mammadov
Nakhchivan Teachers Institute
Doctor of Sciences in mathematics
E-mail:
yagubmammadov@yahoo.com

Aytekin Shahgeldiyeva
Nakhchivan Teachers Institute

Key word:
function graph, Office programs, Microsoft Excel program, algorithmic knowledge, circular diagrams

About the methods of using the Excel program when building tables in mathematics lessons

Abstract. As the analysis of the existing mathematics programs, textbooks and methodological literature of Secondary Schools shows, little space is devoted to teaching the application of knowledge in the school mathematics course with programs. By using the EXCEL program in constructing graphs in mathematics training, students acquire both informatic knowledge and consolidate their learning from mathematics. Here, not only the knowledge learned is consolidated, but also interest in the lesson arises, they perform more practical work in less time. They are able to check the correctness of the solution by performing the knowledge learned in the traditional way through a computer. This also forms a sense of self-confidence in them. The article identifies the formation of mathematical knowledge, skills and habits of students by using EXCEL program in the construction of graphs in the process of teaching mathematics in secondary schools, exploring opportunities and ways to develop mathematical thinking, and ways to improve efficiency in teaching other subjects.

Авторы:

Ягуб Мамедов
Нахчыванский институт учителей
Доктор наук по математике
E-mail:
yagubmammadov@yahoo.com

Айтекин Шахгельдиева
Нахчыванский институт учителей

Ключевые слова:
график функции, офисные программы, программа Microsoft Excel, алгоритмические знания, круговые диаграммы

О методике использования программы Excel для построения графиков на уроках математики

Аннотация. Как показывает анализ существующих математических программ, учебников и методической литературы общеобразовательных школ, в школьном курсе математики мало места отводится преподаванию применения знаний по специальным программам. Используя программу EXCEL для построения графиков в обучении математике, учащиеся приобретают как информатические знания, так и закрепляют то, что они изучают в математике. Здесь не только закрепляются полученные знания, но и возникает интерес к занятию, они выполняют больше практических работ за меньшее время. Они могут проверить правильность решения, выполняя знания, полученные традиционным способом, через компьютер. Это также формирует у них чувство уверенности в себе. В статье изучены возможности и способы формирования математических знаний, умений и навыков у учащихся, развития математического мышления с использованием программы EXCEL для построения графиков в процессе преподавания математики в общеобразовательных школах, а также показаны пути повышения эффективности преподавания других предметов.

Tədqiqatın aktuallığı. Təhsil sahəsində aparılan islahatlar pedaqoji elmlərin və tədris təcrübəsinin qarşısında təlimin məzmunu və üsullarının təkmilləşdirilməsini tələb edir. Tədrisin keyfiyyətinin yaxşılaşdırılması üçün yeni vasitələr yaranır, bu vasitələrdən istifadəyə uyğun ediləcək hərəkətlər və qaydalar sistemi hazırlanır. Bu qaydalar və hərəkətlərin müvəffəqiyyətlə həll edilməsi zamanın tələbidir. Sagidlərdə elmi dünyagörüşün formalaşması, məntiqi təfəkkürün inkişafı, praktik bacarıq və vərdişlərin təkmilləşdirilməsi və s. kimi aktual problemlərin işlənilməsi lazımdır. Belə aktual problemlər arasında riyaziyyatın təlimində şagirdlərdə informatik biliklərdən istifadə mühüm yer tutur. İnformatika fənni bütün fənlərin inkişaf etdirilməsində aparıcı rol oynayır, özünün formalaşması və inkişaf etdirilməsində resursları və imkanları daha çoxdur.

Müasir tətbiqi proqramlardan riyaziyyat dərslərində istifadə məktəbliləri praktik fəaliyyətə, maddi istehsalatda əməyə, riyaziyyat, fizika, astronomiya və kosmonavtikanin müasir problemlərini başa düşməyə sövq edir. Tətbiqi proqramların sayının çoxluğuna baxmayaraq, ən çox istifadə olunanları əsasən ofis proqramlarıdır ki, onların içərisində MS Excel proqramı xüsusi yer tutur.

Tədqiqatın mövzusunun aktuallığı bir sıra səbəblərlə izah oluna bilər:

- riyaziyyat fənninin təlimində son illərin geriləmələri və kurikulum islahatı ilə əlaqədar fənnin məzmununun dəyişdirilməsi;
- riyaziyyatın tədrisi prosesində qoyulmuş məsələlərin həllinin kompüterlə reallaşdırılmasına daha çox zərurətun yaranması;
- müasir şəraitdə riyaziyyatdan şagirdlərin bilik, bacarıq və vərdişlərinə verilən tələblərin yüksəlməsi.

Ümumtəhsil məktəblərinin mövcud riyaziyyat proqramları, dərslikləri və metodiki ədəbiyyatın təhlilinin göstərdiyi kimi, məktəb riyaziyyat kursunda MS Exceldə qrafiklərin qurulmasına az yer ayrılmışdır.

Riyaziyyat təlimində tətbiqi proqramlardan istifadə edilməsi şagirdlərin informatik mədəniyyətinin yüksəldilməsi üçün geniş imkanlar açır. Ənənəvi təlimlə riyaziyyat fənnini aparmaq şagirdlərdə bu fənnə marağı söndürəcəkdir. Lakin kompüterlə nümayiş formasında biliklərin mərhələ-mərhələ verilməsi, şəkillər, animasiyalar və sair avtomatik olaraq şagirdlərin marağını dərsə yönəldəcəkdir. Ona görə tətbiqi proqramlar, xüsusilə də Microsoft Excel proqramı riyazi biliklərin verilməsi üçün ən yaxşı vasitə hesab olunur.

Respublikamızın məktəblərində şagirdlərdə riyazi biliklər və bacarıqların formalaşması və təkmilləşdirilməsi üzrə iş formalarının hazırlanmasında əhəmiyyətli təcrübə toplanmışdır. Riyaziyyatın təlimi prosesində alqoritmik bacarıq və vərdişlərin formalaşması və inkişafı üzrə çox sayda konkret – metodik məsələlərin həlli ilə Ə.Q.Pələngov [10], İ.N. İsmayılov [3], M.Alışov [2], M.V.Abdullayeva [1], S.İsmayılova [4], S.Q.Kərimov [5], A.M.Qasımova [12], R.Ə Mahmudzadə [6,7,8,9], R.Qasımov [13] və bir sıra digər riyaziyyatçı – pedaqoqlar tədqiqat işləri aparmışlar. Bu tədqiqatların sayəsində riyaziyyat təlimi prosesində alqoritmik bilik, bacarıq və vərdişlərin formalaşdırılması və inkişaf etdirilməsinin müxtəlif üsulları məktəb təcrübəsində tətbiq edilir. Lakin göstərilən tədqiqatlar əsasən riyaziyyat təlimi prosesinin ümumi məsələləri üçün işlənmişdir. Riyaziyyat təlimi prosesinin aktivləşdirilməsi və yeniləşdirilməsi üçün yalnız ayrı-ayrı məqalələr şəklində materiallar və tövsiyyələr verilmişdir.

Tədqiqatın məqsədi. Ümumtəhsil məktəblərində riyaziyyat dərslərində qrafiklərin qurulmasında EXCEL proqramından istifadə şagirdlərdə riyazi bilik, bacarıq və vərdişlər formalaşdırmağın, riyazi təfəkkürü inkişaf etdirməyin imkan və yollarını araşdırıb müəyyən etmək və bununla da diğər fənlərin tədrisində də səmərəliliyi yüksəltməkdir.

Bir çox hallarda həm informatikanın, həm də riyaziyyatın oxşar mövzularını birgə tədris edirlər. Bu fənlərarası üfiqi inteqrasiya adlanır. Təcrübədə şagirdlərdə maraq oyatmaq məqsədi ilə dəfələrlə sınaqdan keçirilmişdir. Öyrənmək və öyrətmək məqsədi ilə bəzən riyaziyyat və informatika müəllimləri öz aralarında belə təcrübə mübadiləsi edirlər. Bu həm müəllimlər üçün, həm də şagirdlər üçün maraqlı olur. Belə dərslərin aparılmasından əvvəl hazırlıq gedir və təcrübə mübadiləsi aparmaqla ciddi problem olmursa, iş reallaşdırılır.

Məlumdur ki, sadə funksiyalarla şagirdlər VI siniflərdən başlayaraq tanış olurlar. Dərsin kurikulum tələbləri ilə tədrisi zamanı, möhkəmləndirmə mərhələsində Excel-dən istifadə tövsiyyə edilir. Bu zaman şagirdlər ənənəvi qaydada işini yerinə yetirdikdən sonra aşağıdakı nümunələr əsasında onlara tapşırıqlar verilir:

Misal 1: Gəlin birlikdə $y = 2x$ asılılığına uyğun qrafik quraq. Burada Excel proqramından istifadə etməsək asılılıq cədvəlini qurmalıydıq. Sonra $y = 2x$ düsturunda x-in qiymətini daxil edib y-in qiymətini tapmalıydıq. Daha sonra düzbucaqlı dekard koordinat sistemi çəkmək lazımdır. Sonra üfüqi oxu x, şaquli oxu y hərfi ilə işarə etməliyik. Daha sonra cədvəldəki qiymətlərə uyğun koordinatlar cütünü koordinat sistemində qeyd etməliydik. Bunu bir iki nümunə ilə etdikdən sonra bizim təqdim etdiyimiz üsulla vermək məsləhətdir.

Excel proqramında $y = 2x$ asılılığının qrafikini qurmaq üçün Excel proqramını başladırıq. Sonra x - in qiymətini xanalara yazırıq. y-in qiymətini tapmaq üçün əvvəlcə $y=2x$ funksiyasını yazırıq. x yazdığımız xananın qarşısında = yazırıq, sonra 2 * x-in yazıldığı xananı seçirik. B4 Enter vurduqda 

yazılacaq. 

xanasının sağ aşağı küncündəki doldurma düyməsini tutub çəkdikdə y –in qiymətləri avtomatik hesablanır.

Qrafiki qurmaq üçün ədədlər seçilir. Alətlər zolağından 

bölümünü seçirik, aşağıdakı pəncərə açılacaqdır (Şəkil 1). Artıq qrafikimiz hazırdır (Şəkil 2).



Şəkil 1.



Şəkil 2.

Riyaziyyat dərsliyində funksiyaların verilməsi üsullarından ətraflı yazılmışdır və şagirdlər topladıqları bu bilikləri informatikada Excel vasitəsilə məsələlərin icrasına baxaraq



özlərini yoxlaya bilərlər. Məsələn, eyni qayda ilə $y = 2x + 1$ funksiyasının qrafikini qururuq (Şəkil 3).

Şəkil 3.

Misal 2. İndi də $y= 2x^2$ asılılığına uyğun qrafik quraq.

Excel proqramında $y = 2x^2$ asılılığının qrafikini qurmaq üçün Excel proqramını başladırıq. Sonra x-in qiymətini xanalara yazırıq. y-in qiymətini tapmaq üçün əvvəlcə $y = 2x^2$ funksiyasını yazırıq. x yazdığımız xananın qarşısında = yazırıq, sonra 2 * x -in yazıldığı xananı seçirik A3, yenidən vurma işarəsini yazırıq və x-in yazıldığı xananı seçirik. Enter vurduqda

yazılacaq və bu xananın sağ aşağı küncündəki doldurma düyməsini tutub çəkdikdə y – in qiymətləri avtomatik hesablanır. Qrafiki qurmaq üçün ədədlər seçilir. Alətlər zolağından 

bölümünü seçirik. Qurulmuş qrafikə ad vemək üçün

seçirik. Açılan pəncərədən 

seçirik.

Adın harada yazılacağını seçirik və adını yazırıq. Nəticədə aşağıdakı şəkildə qrafik alınır.



Şəkil 4.

Beləliklə, bu misallar əsasında ümumiləşdirmə aparırıq.

Verilənləri qrafik formada əyani təsvir etmək üçün diaqramlardan istifadə olunur. Elektron cədvəl redaktorunda xətti, dairəvi, sütunlu və başqa növ diaqramlar qurmaq olar. Xətti diaqram verilənlərin qiymətlərinin düz xətlərlə birləşdiyi diaqram növüdür. Dairəvi diaqram faiz qiymətlərini diskin sektorları kimi göstərən diaqram növüdür. Histoqram - sütunlu diaqram verilənlərin müəyyən qiymətinə və onların kəmiyyətlərinə nisbətlini müşahidə etməyə imkan verən diaqram növüdür. Proqramı başlatdıqdan sonra iş vərəqinə cədvəl verilənləri daxil edilir. Daxil edilən verilənləri qeyd etdikdən sonra *İnsert* (əlavə et) menyusunda *Chart* (diaqramlar) bölməsində verilən diaqram kateqoriyalarından istifadə olunur. Diaqramı klaviaturada qısa yol kombinasiyasından da istifadə etməklə qurmaq olar. Bunun üçün cədvəl qeyd olunduqdan sonra klaviaturada funksional düymələrdən, F11 düyməsindən istifadə olunur. Məsələn 4 şagirdin topladığı balların diaqramını quraq (Şəkil 5):



Şəkil 5.

Daxil edilmiş diaqramların parametrlərini dəyişdirmək üçün menyu sətrində *Chart tools* (diaqram alətləri) adı altında *Design, Layout* və *Format* menyusunun komandalarından istifadə olunur. Excel proqramında dairəvi diaqram qurmaq üçün sahə qeyd edildikdən sonra İnsert menyusunda chart boölməsində Pie diaqram növündən istifadə olunur (Şəkil 6).



Şəkil 6.

Göründüyü kimi, şagirdlər həm informatik biliklərə sahib olurlar, həm də riyaziyyatdan öyrəndiklərini möhkəmləndirirlər. Burada təkcə öyrənilən biliklər möhkəmlənmir, həm də dərsə maraq yaranır, az vaxtda daha çox praktik iş yerinə yetirirlər. Ənənəvi qaydada öyrəndikləri bilikləri kompüter vasitəsilə yerinə yetirməklə həllin düzgünlüyünü yoxlaya bilirlər. Bu onlarda həm də özlərinə inam hissini formalaşdırır.

Nəticə

Nəticə olaraq ümumtəhsil məktəblərində riyaziyyat fənninin tədrisi prosesində tətbiqi proqramlardan istifadə etməklə qrafiklərin və diaqramların qurulmasında şagirdlərdə riyazi bilik, bacarıq və vərdişlərin formalaşdırılması, riyazi təfəkkürü inkişaf etdirməyin imkan və yolları araşdırılaraq müəyyən edilmiş və bununla da diğər fənlərin tədrisində də səmərəliliyin yüksəldilməsi yolları göstərilmişdir.

ƏDƏBİYYAT

1. Abdullayeva M.V.Ümumtəhsil məktəblərin riyaziyyat kursunun tədrisində şagirdlərdə qrafik bacarıqların formalaşdırılması üzrə işin sistemi:Ped. üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dis. avtoref. – Bakı, – 2012, – 25 s.

2. Alışov M.Ə. Kompüter texnologiyasının köməyi ilə şagirdlərdə idrak fəaliyyətinin fəallaşdırılması (X-XI siniflərdə riyaziyyatın tədrisi nümunəsində): Ped. elm. namizədi alimlik dərəcəsi almaq üçün dis. avtoref. – Bakı, – 2001, – 21s.
3. İsmayılov İ.M. VI-VIII siniflərdə riyaziyyat dərslərinin alqoritm və proqramlar (Nümunələr əsasında). – Bakı: ADPU, – 1995, – 80 s.
4. İsmayılova S., Hüseynova A. Riyaziyyat. Müəllimlər üçün metodik vəsait. – Bakı, Şərq – Qərb, 2013. – s.199-2.
5. Kərimov S.Q., Həbibullayev S.B., İbrahimzadə T.İ., İnformatika: Dərslik. – Bakı: – 2011, – 434 s.
6. Mahmudzadə R., Sadıqov İ., İsayeva N., İnformatika: ümumtəhsil məktəblərinin 5-ci sinifləri üçün dərslik, – Bakı: Bakı, – 2012, – 96 s.
7. Mahmudzadə R., Sadıqov İ., İsayeva N., İnformatika: ümumtəhsil məktəblərinin 6-ci sinifləri üçün dərslik, – Bakı: Bakı, – 2013, – 112 s.
8. Mahmudzadə R., Sadıqov İ., İsayeva N., İnformatika: ümumtəhsil məktəblərinin 7-ci sinifləri üçün dərslik, – Bakı: Bakı – 2017, – 78-83 s.
9. Mahmudzadə R., Sadıqov İ., İsayeva N., İnformatika: ümumtəhsil məktəblərinin 8-ci sinifləri üçün dərslik, – Bakı: Bakı -2008, 128 s.
10. Pələngov Ə.Г., Abdullayeva M.V., İnformatikanın tədrisi metodikası, Bakı: Elm-2015, 187 s.
11. Osman Gündüz, Əfəndiyev Q., Rüstəmov N. Kompüter, informasiya texnologiyalarının əsasları, "Multimedia", – Bakı, – 2006, 303 s.
12. Qasımova A.M., Altıncı sinifdə tənliklərin həlli mövzusunun alqoritmləşdirmə və proqramlaşdırma vasitəsilə tədrisi. // "Azərbaycan müəllimlər institunun xəbərləri", – Bakı: ARTN, – 2009, №3, – s. 138-141
13. Qasımov R., İnformatika (sabaha açılan pəncərə). – Bakı: – 2001, – 78 s.
14. Далингер В.А. Компьютерные технологии в обучении геометрии: Методические рекомендации. – Омск: Изд-во ОмГПУ, – 2001, – 28 с.
15. Прайс Д. Программирование на языке Паскаль. – М.: Мир, – 1987, – 232 с.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 19.01.2022, son daxilolma – 14.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 84-89
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 84-89
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.84-89

UOT 372.854

Mürəkkəb reaksiyaların tədrisinə dair

Müəlliflər:

Akif Əliyev
Naxçıvan Dövlət Universiteti
Kimya üzrə fəlsəfə doktoru, dosent
E-mail: a.aliyev@gmail.ru

Mirnazim Seyidov
Naxçıvan Dövlət Universiteti
Kimya üzrə fəlsəfə doktoru, dosent
E-mail: m.nazimseyid@ gmail.ru

Sevinc Kərimova
Naxçıvan Dövlət Universiteti
E-mail: sevinck@gmail.ru

Açar sözlər:
Mürəkkəb reaksiyalar, paralel reaksiyalar, ardıcıl reaksiyalar, əlaqəli reaksiyalar, dönən reaksiyalar, aktor, akseptor, induktor

Annotasiya. Məqalə mürəkkəb reaksiyaların tədrisinə həsr olunmuşdur. Məqalədə bu və ya digər formada bir-birləri ilə əlaqəli olub, aralarındakı əlaqənin formasından və sürətlərinin nisbətindən asılı olan iki və ya çox qayda sadə reaksiyalardan ibarət mürəkkəb reaksiyaların kinetikasına baxılmışdır. Göstərilir ki, belə tipik formalı əlaqələr paralel, ardıcıl, əlaqəli və dönən reaksiyalarda mövcuddur. Məqalədə qeyd edilir ki, onların hamısının nəzəriyyəsi ona əsaslanır ki, sistemdə eyni zamanda bir neçə reaksiya getdikdə onlardan hər biri üçün ayrılıqda sadə reaksiyaların kinetikası tətbiq edilə bilir. Məqalədə izah olunur ki, paralel reaksiyalarda eyni zamanda məlum ilkin maddə və ya ilkin maddələr müxtəlif istiqamətlərdə reaksiyaya daxil olurlar. Əgər reaksiyalar sürətlərinə görə bir-birlərindən kifayət qədər fərqlənirsə, onda adətən böyük sürətə malik reaksiya əsas qalanları isə əlavə adlanır. Məqalədə izah olunur ki, ümumi halda ardıcıl reaksiyalarda mərhələlərin sayı ikidən çox ola bilər və mərhələlərdən hər biri monomolekulyar deyil, daha mürəkkəb olar.

On the teaching of complex reactions

Authors:

Akif Aliyev
Nakhchivan State University
Doctor of philosophy in chemistry, associate professor
E-mail: a.aliyev@gmail.ru

Mirnazim Seyidov
Nakhchivan State University
Doctor of philosophy in chemistry, associate professor
E-mail: m.nazimseyid@ gmail.ru

Sevinj Karimova
Nakhchivan State University
E-mail: sevinck@gmail.ru

Key word:
compound reactions, parallel reactions, sequential reactions, coherent reactions, rotating reactions, actor, acceptor, inductor

Abstract. The article is devoted to the teaching of complex reactions. The article considers the kinetics of complex reactions, consisting of two or more rules of simple reactions, which in one form or another relate to each other and depend on the form of the relationship between them and the ratio of their speeds. It is shown that such typical shaped relationships exist in parallel, sequential, coherent and rotating reactions. The article notes that the theory of all of them is based on the fact that when there are several reactions in the system at the same time, the kinetics of simple reactions can be applied separately for each of them. The article explains that in parallel reactions at the same time, the known initial substance or primary substances enter into reactions in different directions. If the reactions differ enough from each other in their speed, then usually the reaction with a large speed is called the main ones, and the main ones are called additional ones. The article explains that in the general case, the number of stages in sequential reactions can be more than two, and each of the stages will be more complex than monomolecular.

К обучению сложным реакциям

Авторы:

Акиф Алиев
Нахчыванский государственный университет
Доктор философии по химии, доцент
E-mail: a.aliyev@gmail.ru

Мирназим Сеидов
Нахчыванский государственный университет
Доктор философии по химии, доцент
E-mail: m.nazimseyid@ gmail.ru

Севиндж Керимова
Нахчыванский государственный университет
E-mail: sevinck@gmail.ru

Ключевые слова:
сложные реакции, параллельные реакции, последовательные реакции, связанные реакции, вращающиеся реакции, актор, акцептор, индуктор

Аннотация. Статья посвящена обучению сложным реакциям. В статье рассмотрена линетика сложных реакций, состоящих из двух или более простых реакций, которые в той или иной форме взаимосвязаны между собой и зависят от формы связи между ними и соотношения их скоростей. Показано, что такие типичные по форме связи существуют в параллельных, последовательных, реляционных и вращательных реакциях. В статье отмечается, что теория всех их основана на том, что, когда в системе происходит несколько реакций одновременно, кинетика простых реакций может быть применена отдельно к каждой из них. В статье объясняется, что в параллельных реакциях известное исходное вещество или исходные вещества одновременно вступают в реакцию в разных направлениях. Если реакции достаточно отличаются друг от друга по скорости, то обычно реакцию с большой скоростью называют основной, а остальные - дополнительной. В статье объясняется, что в общем случае число стадий в последовательных реакциях может быть больше двух, и каждая из стадий будет не мономолекулярной, а более сложной.

Məqalənin elmi yeniliyi: Məqalədə müasir təlim texnologiyaları tətbiq etməklə mürəkkəb reaksiyaların tələbələrə öyrədilməsi imkanları araşdırılmış, öyrənmə və yadda saxlama proseslərinin optimallaşdırılması yolları izah edilmişdir.

Nəticə: Mövzunun göstərilən ardıcıllıqla tədris edilməsi tələbələrin materialı yaxşı mənimsəməsinə və uzun müddət yadda saxlamasına səbəb olar.

Universitetlərin "kimya" ixtisaslarında "Fiziki kimya" fənni tədris olunur. Bu fənnin tədris proqramlarında maraqlı mövzulardan biri mürəkkəb reaksiyalardır. Bu reaksiyaların mahiyyəti, növləri və əhəmiyyəti haqqında məlumatın tələbələrə verilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə "Fiziki kimyanın" tədrisi zamanı mürəkkəb reaksiyaların növləri və onların kinetikası haqqında məlumatın tələbələrə verilməsini məqsədə uyğun hesab edirik.

Müəllim izah edir ki, mürəkkəb reaksiyalar müxtəlif elementar aktların konbinasiyalarından ibarət olur. Belə reaksiyaların kinetikasını öyrənərkən hesab edilir ki, hər növ elementar akt başqalarından asılı olmadan baş verir. Bu aksiom ***mürəkkəb reaksiyaların mərhələlərinin müstəqilliyi prinsipi(və ya asılı olmamazlıq prinsipi)*** adlanır. Mürəkkəb reaksiyaların bəzi tipik növləri aşağıdakılardır:

1. Paralel reaksiyalar 2. Ardıcıl reaksiyalar 3. Əlaqəli reaksiyalar 4. Dönər reaksiyalar [4,s. 162]

İndi isə paralel reaksiyaları nəzərdən keçirək. İlkin maddələr eyni zamanda bir neçə istiqamətdə reaksiyaya girirsə belə reaksiyalar ***paralel reaksiyalar*** adlanır. [4,s. 163]

Paralel reaksiyalara Bertole duzunun parçalanmasını misal göstərmək olar: [1,s. 47]

$$6KClO_3 \rightarrow 2KCl + 3O_2 \quad (1)$$
$$6KClO_3 \rightarrow 3KClO_4 + KCl \quad (2)$$

Paralel reaksiyalarda əsas reaksiya məhsullarının alındığı reaksiyaya ***əsas reaksiya*** adlanır. Digər reaksiyalara isə ***əlavə reaksiyalar*** deyilir. Alınan reaksiya məhsullarına isə ***əlavə reaksiya*** məhsulları deyilir. Bizim göstərdiyimiz misalda oksigen əsas reaksiya məhsuludur. [5,s. 30]

Birinci tərtib dönməyən iki paralel reaksiyanı ümumi şəkildə aşağıdakı kimi ifadə etmək olar:



t=0 yəni başlanğıc anda A maddəsinin ilkin qatılığı C_A^0-dır. Hər hansı t anında A maddəsinin C_x hissəsi reaksiyaya girmişdir. Bu zaman A maddəsinin reaksiyaya girməyən hissəsi $C_A^0 - C_x$ olar. t anında əmələ gələn B maddəsinin miqdarı C_{x_1} və D maddəsinin əmələ gələn miqdarı C_{x_2} olur. [1,s.48]

$$C_x = C_{x_1} + C_{x_2}$$

Birinci və ikinci reaksiyaların sürətlərinin tənliklərini yazaq:

$$\frac{dC_{x_1}}{dt} = k_1 \left(C_A^0 - C_x\right) \quad (1)$$
$$\frac{dC_{x_2}}{dt} = k_2 \left(C_A^0 - C_x\right) \quad (2)$$

Kimyəvi reaksiyanın ümumi sürəti parallel reaksiyaların sürətləri cəminə bərabərdir:

$$\frac{dC_x}{dt} = \frac{dC_{x_1}}{dt} + \frac{dC_{x_2}}{dt}$$
$$\frac{dC_x}{dt} = k_1 \left(C_A^0 - C_x\right) + k_2 \left(C_A^0 - C_x\right) \quad (3)$$

(3) tənliyindən aşağıdakını almaq olar.

$$\frac{dC_x}{dt} = (k_1 + k_2)\left(C_A^0 - C_x\right) \quad (4)$$

Əgər (4) ifadəsini inteqrallasaq onda aşağıdakını alırıq:

$$k_1+k_2=\frac{1}{t}\ln\frac{C_A^0}{C_A^0-C_x} \qquad (5)$$

(5) tənliyi vasitəsilə bir tərtibli dönməyən iki paralel reaksiyanın sürət sabitləri cəmini hesablaya bilərik. Bir tərtibli dönməyən iki paralel reaksiyanın sürət sabitlərini ayrı-ayrılıqda hesablamaq üçün aşağıdakı kimi edirlər. (2) tənliyini (1) tənliyinə bölürlər.

$$\frac{dC_{x_2}}{dC_{x_1}}=\frac{k_2}{k_1} \qquad (6)$$

(6) tənliyini 0-dan C_{x_1}-ə; 0-dan C_{x_2}-yə qədər inteqrallasaq onda aşağıdakını alarıq: [5,s. 32]

$$\frac{C_{x_2}}{C_{x_1}}=\frac{k_2}{k_1} \qquad (7)$$

(7) və (5) tənliyini birgə həll etsək k_1 və k_2-ni ayrı-ayrı hesablaya bilərik.

İndi isə ikinci tərtib dönməyən iki paralel reaksiyanın kinetikasını öyrənək. İkinci tərtib dönməyən iki paralel reaksiyanı ümumi şəkildə aşağıdakı kimi yaza bilərik: [5,s. 31]

$$A+B \xrightarrow{k_1} D+E$$
$$A+B \xrightarrow{k_2} R+Q$$

Deyək ki, başlanğıc anda t=0 anında A maddəsinin qatılığı C_A^0, B maddəsinin C_B^0-dir. Hər hansı t anında A maddəsinin C_x miqdarı reaksiyaya girmişdir. Onda t anında A maddəsinin reaksiyaya girməyən miqdarı C_A^0- C_x olar. Kimyəvi reaksiyanın tənliyindən görünür ki, B maddəsinin reaksiyaya girən miqdarı C_x, reaksiyaya girməyən miqdarı isə C_B^0- C_x olur. Birinci tərtib dönməyən iki paralel reaksiya üçün dediyimiz mülahizələrə əsaslansaq onda ikinci tərtib dönməyən iki paralel reaksiyanın sürətini aşağıdakı tənliklə ifadə etmək olar:

$$\frac{dC_x}{dt}=k_1\left(C_A^0-C_x\right)\left(C_B^0-C_x\right)+k_2\left(C_A^0-C_x\right)\left(C_B^0-C_x\right) \quad (8)$$

$$\frac{dC_x}{dt}=(k_1+k_2)\left(C_A^0-C_x\right)\left(C_B^0-C_x\right) \qquad (9)$$

(9) tənliyini 0-dan t-yə; 0-dan C_x-ə qədər inteqrallasaq onda aşağıdakı ifadəni alarıq:

$$k_1+k_2=\frac{1}{t}\frac{1}{C_A^0-C_B^0}\ln\frac{C_B^0(C_A^0-C_x)}{C_A^0\cdot(C_B^0-C_x)} \qquad (10)$$

(10) tənliyi vasitəsilə ikinci tərtib dönməyən iki paralel reaksiyanın sürət sabitləri cəmini hesablaya bilərik. k_1 və k_2 sabitlərini ayrı-ayrılıqda hesablamaq üçün birinci tərtib dönməyən iki paralel reaksiyalarda etdiyimiz kimi edirik.

Müəllim nəzərə çatdırır ki, iki və daha çox ardıcıl mərhələdə gedən reaksiyalar ***ardıcıl reaksiyalar*** adlanır.Başqa sözlə desək aralıq mərhələlərlə gedən reaksiyalara ***ardıcıl reaksiyalar*** deyilir. Dietiloksalatefirinin qələvi mühitdə hidrolizi ardıcıl reaksiyadır. Məsələn, [1,s. 50]

$$\begin{matrix}COOC_2H_5\\|\\COOC_2H_5\end{matrix} \xrightarrow{NaOH} \begin{matrix}COOC_2H_5\\|\\COONa\end{matrix} + C_2H_5OH \xrightarrow{NaOH} \begin{matrix}COONa\\|\\COONa\end{matrix} + C_2H_5OH$$

Karbohidrogenlərin termiki parçalanması ardıcıl reaksiyadır.Yüksək molekullu karbohidrogenlər ardıcıl olaraq kiçik molekullu karbohidrogenlərə parçalanırlar. Ümumi şəkildə birinci tərtib dönməyən iki mərhələdən ibarət ardıcıl reaksiyanı aşağıdakı kimi yaza bilərik. $A\rightarrow B\rightarrow D$ [3,s. 54]

Başlanğıc anda t=0 olduqda A maddəsinin ilkin qatılığı C_A^0 olarsa, hər hansı t anında A maddəsinin C_x miqdarı reaksiyaya girməlidir. A maddəsinin reaksiyaya girməyən miqdarı isə C_A^0- C_x= C_A olmalıdır. Zaman keçdikcə A maddəsi sərf olunduğundan onun qatılığı azalır. Reaksiya məhsulu olan D maddəsinin qatılığı isə artır. A maddəsinin qatılığının azalması yəni birinci mərhələnin sürəti aşağıdakı tənliklə ifadə olunur: [5,s. 34]

$$- \quad \frac{dC_A}{dt} = k_1 C_A \qquad (11)$$

D maddəsinin qatılığının artması yəni ikinci mərhələnin sürəti isə aşağıdakı tənliklə ifadə olunur.

$$\frac{dC_D}{dt} = k_2 C_B \qquad (12)$$

B maddəsinin qatılığının zamandan asılı olaraq dəyişməsi isə aşağıdakı tənliyə bərabər our:

$$\frac{dC_B}{dt} = \upsilon_1 - \upsilon_2 = k_1 C_A - k_2 C_B \qquad (13)$$

Proses başladıqda A maddəsinin qatılığı çox olduğundan, B maddəsinin qatılığı isə cüzi olduğundan $\upsilon_1 >> \upsilon_2$ olur. Zaman keçdikcə A maddəsinin qatılığı azaldığından və B maddəsinin qatılığı artdığından υ_1 azalır υ_2 isə artır. Nəhayət $\upsilon_1 = \upsilon_2$ olur. Bu anda B maddəsinin qatılığı maksimum olur. Bundan sonra zaman keçdikcə $\upsilon_2 > \upsilon_1$olur. Bu zaman $\frac{dC_B}{dt} < 0$ olacaq. Yəni B maddəsinin qatılığı maksimumdan keçərək azalacaqdır. Dediklərimizi yekunlaşdırsaq aşağıdakı nəticəyə gələrik:

A maddəsi sərf olunduğundan zaman keçdikcə onun qatılığı azalır. B maddəsinin qatılığı isə əvvəlcə artır sonra maksimumdan keçərək azalır. D maddəsinin qatılığı isə zaman keçdikcə artır. Qrafiki olaraq göstərsək aşağıdakı əyriləri alarıq. [1,s. 53]



Qrafikdən görünür ki, D maddəsinin qatılığının zamandan asılılıq əyrisinin başlanğıcı absis oxunun üzərinə düşür. Bu müddətə ***induksiya müddəti*** deyilir. Bu məsələni aşağıdakı kimi izah etmək olar. Reaksiya başladıqdan sonra müəyyən müddət keçməlidir ki, sistemdə B maddəsi toplansın və o da D maddəsinə çevrilsin. Həmin bu müddətə ***induksiya dövrü*** və ya ***induksiya müddəti*** deyilir.

Qeyd edilir ki, sistemdə öz-özünə gedən reaksiyanın, həmin sistemdə başqa bir ikinci reaksiyanın getməsinə səbəb olması hadisəsinə ***kimyəvi induksiya hadisəsi*** deyilir. Hansı ki, bu zaman sistemdə öz-özünə gedən birinci reaksiya olmasaydı ikinci reaksiya getməzdi. İki reaksiyadan biri digər ikinci reaksiyanın getməsinə səbəb olarsa bu cür iki reaksiyaya ***əlaqəli reaksiyalar (qoşulmuş reaksiyalar)*** deyilir. Məsələn, yodid turşusuna xromat turşusu ilə təsir etdikdə bunlar arasında reaksiya getmir. Lakin sistemə FeO əlavə etdikdə, dəmir-2oksidlə xromat turşusu arasında başlayan reaksiya xromat turşusu ilə yodid turşusu arasında da reaksiyanın getməsinə səbəb olur. Deməli, xromat turşusu ilə FeO arasındakı reaksiya öz-özünə gedən reaksiyadır. Xromat turşusu ilə HJ arasındakı reaksiya isə birinci reaksiyadan asılı reaksiyadır. [5,s. 178]

Arsenit turşusuna bromat turşusu ilə təsir etdikdə bunlar arasında reaksiya getmir. Lakin sistemə sulfit turşusu əlavə etdikdə sulfit turşusu ilə bromat turşusu arasındakı reaksiya arsenitlə bromat turşuları arasında da reaksiya getməsinə səbəb olur.

Nəzərə çatdırılır ki, ilkin maddələrdən biri ilə reaksiyası digər ilkin maddənin də reaksiyaya girməsinə səbəb olan maddəyə ***induktor*** deyilir. İnduktorla reaksiyaya girən ilkin maddə ***aktor*** adlanır. İnduktorun iştirakı ilə aktorla reaksiyaya girən ilkin maddəyə isə ***akseptor*** deyilir. [5,s. 178]

Birinci misalımızda FeO induktor, H_2CrO_4 aktor, HJ isə akseptordur.

İkinci misalımızda isə H_2SO_3 induktor, $HBrO_3$ aktor, H_3AsO_3 isə akseptordur. Dediklərimizdən aydın olur ki, aktor həm birinci, həm də ikinci reaksiyada iştirak edir.

Əlaqəli reaksiyaları ümumi şəkildə belə yazmaq olar: [4,s. 70]

$$A + İn \rightarrow M \quad (1)$$
$$A + B \rightarrow N \quad (2)$$

A-aktordur, İn- induktor, B isə akseptordur. Müəyyən olunmuşdur ki, əlaqəli reaksiyalar o halda mümkün olur ki, birinci reaksiyanın reaksiya məhsulu ikinci reaksiyanın başlanğıc maddələrindən biri olsun. [5,s. 179]

$$H_2SO_3 + HBrO_3 \rightarrow H_2SO_4 + HBrO_2$$
$$H_2SO_3 + HBrO_2 \rightarrow H_2SO_4 + HBrO$$

N.A.Şilov əlaqəli reaksiyaları induktorun qatılığının dəyişməsinə görə üç qrupa bölmüşdür:

- Reaksiya zamanı induktorun qatılığı dəyişmir.
- Reaksiya zamanı induktorun qatılığı artır.
- Reaksiya zamanı induktorun qatılığı azalır.

Diqqətə çatdırılır ki, dönən reaksiyaların sürəti düzünə və əksinə gedən reaksiyaların sürətləri fərqinə bərabər olur.

$A \rightleftharpoons B$ (birinci tərtib dönən reaksiya)

$A + B \rightleftharpoons D + E$ (ikinci tərtib dönən reaksiya)

$$\upsilon = \upsilon_1 - \upsilon_2$$

Tarazlıq yarananda $\upsilon_1 = \upsilon_2$ olur. Birinci tərtibli dönən reaksiyaya misal olaraq aşağıdakı reaksiyanı göstərə bilərik: [1,s. 43]

$$NH_4CNS \rightleftharpoons (NH_2)_2CS$$

İkinci tərtib dönən reaksiyaya isə isəaşağıdakı reaksiyanı missal göstərə bilərik: [1,s. 45]

$$CH_3COOC_2H_5 + H_2O \rightleftharpoons CH_3COOH + C_2H_5OH$$

Birinci tərtib dönən reaksiyanı ümumi şəkildə aşağıdakı kimi yaza bilərik:

$$A \underset{k_2}{\overset{k_1}{\rightleftharpoons}} B$$

t=0 anında A maddəsinin başlanğıc qatılığı C_A^0 , B maddəsinin başlanğıc qatılığı C_B^0 , t anında A maddəsinin reaksiyaya girən miqdarı C_x olur. Onda, t anında A maddəsinin reaksiyaya girməyən miqdarı $C_A^0 - C_x$, həmin anda B maddəsinin miqdarı isə $C_B^0 + C_x$ bərabər olur. Onda reaksiyanın ümumi sürəti üçün kinetikanın əsas postulatı və kimyəvi reaksiyaların asılı olmaması prinsipinə uyğun olaraq yazmaq olar: [1,s. 43-44]

$$-\frac{d(C_A^0 - C_x)}{dt} = k_1\left(C_A^0 - C_x\right) - k_2\left(C_B^0 + C_x\right) \quad (14)$$

(14) tənliyinin tam diferensialını alsaq aşağıdakı ifadəyə bərabər olacaq:

$$\frac{dC_x}{dt} = k_1\left(C_A^0 - C_x\right) - k_2\left(C_B^0 + C_x\right) \quad (15)$$

(15) tənliyinə birinci tərtib dönən reaksiyanın sürətinin diferensial tənliyi deyilir.

(15) tənliyində bir sıra cəbri əməliyyatlar aparsaq onda aşağıdakı tənliyi yaza bilərik:

$$\frac{dC_x}{dt} = (k_1 + k_2)\left(\frac{k_1 C_A^0 - k_2 C_B^0}{k_1 + k_2} - C_x\right) \quad (16)$$

(16) tənliyində aşağıdakı əvəzetməni aparmaq olar:

$$\frac{k_1 C_A^0 - k_2 C_B^0}{k_1 + k_2} = L \quad (17)$$

$$\frac{dC_x}{dt} = (k_1 + k_2)\left(L - C_x\right) \quad (18)$$

(18) tənliyini 0-dan t-yə və 0-dan C_x-ə qədər inteqrallasaq onda aşağıdakını alarıq:

$$k_1 + k_2 = \frac{1}{t}\ln\frac{L}{L - C_x} \quad (19)$$

(19) tənliyi vasitəsilə birinci tərtib dönən reaksiyanın sürət sabitləri cəmini hesablaya bilərik. (19) tənliyində $k_1 + k_2$ cəmini hesablamaq üçün L-in qiymətini bilmək lazımdır. L-in qiymətini hesablamaq üçün (17) tənliyinin sürət və məxrəcini k_2-yə bölürlər.

$$L = \frac{\frac{k_1}{k_2}C_A^0 - C_B^0}{\frac{k_1}{k_2}+1} = \frac{K\,C_A^0 - C_B^0}{K+1} \qquad (20)$$

Burada K- tarazlıq sabitidir. (20) tənliyi vasitəsilə L-in qiymətini hesablamaq olar. Lakin bunun üçün K tarazlıq sabitinin qiymətini bilmək lazımdır. (15) ifadəsini tarazlıq halı üçün yazsaq onda aşağıdakı tənliyiyazmaq olar:

$$k_1\left(C_A^0 - C_{X\ tarazlıq}\right) - k_2\left(C_B^0 + C_{X\ tarazlıq}\right) = 0 \qquad (21)$$

(21) tənliyini aşağıdakı kimi yazmaq olar:

$$K = \frac{k_1}{k_2} = \frac{C_B^0 + C_{X\ tarazlıq}}{C_A^0 - C_{X\ tarazlıq}} \qquad (22)$$

Təcrübi olaraq tarazlıq anı üçün C_x-i təyin etdikdən sonra (22) ifadəsindən tarazlıq sabitinin qiymətini hesablamaq olar. Beləliklə, təcrübi olaraq tarazlıq anı üçün tarazlıq sabitinin qiymətini tapdıqdan sonra (20) tənliyi vasitəsilə L-in qiymətini hesablayırıq. L-in qiymətini tapdıqdan sonra (19) tənliyindən sürət sabitlərinin cəmini tapırıq. (19) və (22) tənliklərini birgə həll etsək onda k_1 və k_2 qiymətlərini də ayrı-ayrılıqda hesablaya bilərik.

Beləliklə, deyilənlərdən aydın olur ki, mövzunun bu ardıcıllıqla tədris edilməsi tələbələrin mürəkkəb reaksiyalar və onların kinetikası haqqında məlumatları yaxşı mənimsəməsinə və üzün müddət yadda saxlamasına səbəb ola bilər.

Ədəbiyyat

1. Əhmədov E.İ. Fiziki kimya. II hissə. Dərslik. / E.İ. Əhmədov, S.E. Məmmədov, Y.İ. Cəfərov, N.A. Rzayeva. – Bakı: UniPrint, – 2014, – 412 s.
2. Əhmədov E.İ. Kimyəvi kinetika və kataliz. Dərs vəsaiti. / E.İ. Əhmədov, N.A. Rzayeva. – Bakı: UniPrint, – 2005, – 165 s.
3. Cəfərov Y.Y. Fiziki və kolloid kimya. Dərs vəsaiti. – Bakı: UniPrint, – 2008, – s. 272
4. Əliyev A.S. Fiziki kimya. Dərslik. A.S. Əliyev, F.M. İmanov, D.M. Qənbərov. – Bakı: Çaşıoğlu, – 2002, – 260 s.
5. Герасимов Я.И. Курс физической химии. Том II. Учебного пособия. – Москва: Химия – 1973. – 624 с.

Məqalə pedaqogika üzrə pedaqogika üzrə fəlsəfə doktoru Qızıllı Əliyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 09.01.2022, son daxilolma – 10.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 90-94
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 90-94
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с. 90-94

UOT 372.851

II-III sinifdə riyaziyyat dərslərinin təşkilinə dair

Müəllif:

Südabə Məmmədova
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: s.mammadova@list.ru

Açar sözlər:
riyaziyyat, təlim, üsul, forma, dərs

Annotasiya. Məqalədə II və III sinifdə riyaziyyat dərslərinin təşkili məsələlərinə baxılır. Burada hesab əməllərinin təlimi, onların məlum xassələrinin öyrədilməsi məsələləri əsas yer tutur. Riyaziyyatın ibtidai kursunun konsentrlərlə təliminin təşkili, uyğun fənn və mövzuların inteqrasiyalı tətbiqi – müasir kurikulumun tələblərinə və ibtidai siniflərin psixoloji-anatomik xüsusiyyətləri ilə uzlaşan dərslərin müasir tələblərə uyğun təşkili şagirdlərdə riyazi anlayışları asan qavrama yollarına zəmanət verir. Riyaziyyatın tədrisində riyazi əməllər şagird şüurunda mücərrəd simvolların yazılışı kimi deyil, müxtəlif həyati situasiyalarda gərəkli olan bilik və bacarıq kimi qalmalı və o, daha mürəkkəb bilikləri mənimsəmək üçün hazır olmalıdır. Pedaqoji prosesin bu istiqamətləri məqalədə mühüm yer tutur, analiz və sintez edilir, ümumiləşdirmələr aparılır, uyğun tövsiyələr formulə edilir.

Author:

Sudaba Mammadova
Nakhchivan Teachers Institute
Doctor of philosophy in pedagogy, associate professor
E-mail: s.mammadova@list.ru

Key word:
mathematics, training, method, form, lesson

On the organization of mathematics classes in II-III grade

Abstract. The article considers the issues of organizing mathematics lessons in Grade II and III. The main place here is occupied by the issues of teaching arithmetic operations, teaching their known properties. The organization of training of the elementary course of mathematics with concentrations, the integrated application of appropriate subjects and topics – the organization of classes in accordance with modern requirements, consistent with the requirements of the modern curriculum and the psychological and anatomical features of the elementary grades, guarantees students easy ways of perceiving mathematical concepts. In teaching Mathematics, Mathematical deeds should remain in the student's mind not as the writing of abstract symbols, but as knowledge and skills necessary in various life situations, and he should be ready to master more complex knowledge. These directions of the pedagogical process occupy an important place in the article, they are analyzed and synthesized, generalizations are made, appropriate recommendations are formulated.

Автор:

Судаба Мамедова
Нахчыванский институт учителей
Доктор философии по педагогике, доцент
E-mail: s.mammadova@list.ru

Ключевые слова:
математика, обучение, метод, форма, урок

К организации уроков математики во II-III классах

Аннотация. В статье рассматриваются вопросы организации уроков математики во II и III классе. Здесь основное место занимают вопросы обучения счетным действиям, их известным свойствам. Организация концентрированного обучения основному курсу математики, интегрированное применение соответствующих предметов и тем самим организация занятий в соответствии с требованиями современной учебной программы и психолого-анатомическими особенностями начальных классов гарантирует учащимся пути легкого восприятия математических понятий. При обучении математике математические действия должны оставаться в сознании ученика не как написание абстрактных символов, а как знания и умения, необходимые в различных жизненных ситуациях, и он должен быть готов к усвоению более сложных знаний. Эти направления педагогического процесса занимают важное место в статье, анализируются и обобщаются, делаются обобщения, формулируются соответствующие рекомендации.

Yeni dövrün təlim nəzəriyyələri bir şəxsiyyət olaraq müasir insanlarda, digər inkişaf etmiş ölkələrdə olduğu kimi, intellektual səviyyənin önə çıxarılmasının, yeni təlim metod və texnologiyalarının interaktiv təlim metodlarından istifadəyə geniş yer verilməsi məsələlərini nəzərdə tutur. İndi ümumi intellektual bacarığın (analiz, sintez, konkretləşdirmə, ümumiləşdirmə, xüsusiləşdirmə və s.) formalaşdırılmasının zəruriliyi daha çox dərk edilməyə başlanmışdır.

Təqdirəlayiqdir ki, təhsilimizin məzmununda aparılan yeniləşmə tədbirləri təlim-tədris sahəsinə də xeyli yenilik gətirmişdir. Belə ki, təlimin əsas təşkilat forması olan dərsə yanaşmalar dəyişmiş, dərsin öyrədicilik funksiyasını asanlaşdıran, dərsi maraqlı və dinamik edən, müəllimi daim yenilik axtarışına sövq edən, şagirdləri daha da fəallaşdıran interaktiv təlim metod və üsulları geniş tətbiq olunmağa başlanmışdır. III sinifdə istər natural ədədlər və istərsə də onlar üzərində aparılan şifahi və yazılı hesablamanın öyrədilməsində müasir riyaziyyat təliminin təşkili forması və üsulları şagirdlərin məntiqi təfəkkürünün inkişafına təsiri ilə mühüm əhəmiyyət kəsb etməlidir. Son üç ildir ki, ibtidai sinif riyaziyyat dərsliyinin formaları və tədris üsulları ilə əlaqədar müzakirələrin təşkili, problemin müasirliyindən xəbər verir.

İdrak dünyanın insan şüurunda əks olunması prosesidir. Riyazi təlim prosesinin metodoloji əsasını fəlsəfənin idrak nəzəriyyəsi təşkil edir. Dünyanın dərk olunması hissi idrakdan, yəni duyğu və qavrayışdan başlayır. Əldə olunan praktik materiallar məntiqi olaraq mücərrəd təfəkkürdə təhlil olunur, ümumiləşdirilir və nəticə çıxarılır. Çıxarılan nəticə isə praktikada yoxlanılır. Bütün qanunauyğunluqlarin öyrənilməsi yolu budur və bu əsasda elmi qanunlar müəyyən edilir.

Respublikamızın təhsil sisteminin müxtəlif mərhələləri arasında qarşılıqlı ardıcıllıq mövcuddur. Təhsil sisteminin hər bir mərhələsi və hər bir pilləsi öz işini əvvəlki mərhələ əsasında və əvvəlki pillənin davamı kimi quraraq, onu tamamlayır, inkişaf etdirir və dərinləşdirir. Biz I sinifdən etibarən təlimin metodik sisteminin düzgün qurulması və sonrakı təhsilin təməlinin keyfiyyətini təmin etmək üçün tədqiqatımıza başladıq və indi III siniflər üçün bu metodik sistemi davam etdiririk.

Fənn üzrə standartlar nəticəyönümlü və şagirdyönümlü olduğundan, riyaziyyat dərsinin təşkili forma və üsullarının reallaşdırılmasında fəal təlim metodlarından istifadə edilməsi məqsədəuyğun hesab edilir. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi informasiya ilə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materialının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını əldə edirlər.

Riyaziyyat dərsinin təşkili forma və üsullarında hansı xüsusiyyətlərlərə fikir verməyi lazım bilir?

1. Tədris müddətində bütün diqqət şagird şəxsiyyətinin formalaşdırılmasına yönəlir. Orta məktəblərdə şagirdlərə bal sistemilə qiymət verilmir. Bu elə şagird şəxsiyyətinin formalaşdırılması anlamı daşıyır. Müəllim şagird münasibətlərinin subyekt - subyekt formasına uyğun üfiqi qurulması qiymətləndirmə aparılmasını lüzumsuz edir. Qiymətləndirmə formativ şəkildə aparılır.

2. Müəllimin fasilitasiya fəaliyyəti, onun təlim fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi rolunu önə çıxarır.

3. Problemin həlli prosesində şagirdlər fəal tədqiqatçı olur. Müəllim isə şagirdlərin müstəqil tədqiqat aparma yollarına istiqamət verir.

4. Bilik və bacarıqlar şagirdlər tərəfindən

müstəqil əldə edilir. Yəni yaxşı müəllim bilikləri hazır verən yox, biliklərin şagirdlərin özləri tərəfindən müstəqil əldə edilməsinə imkan yaradandır.

5. Müəllim-şagird, şagird-şagird arasında əməkdaşlıq üçün şərait yaradılmalıdır. Biliklərin şagirdlər tərəfindən müstəqil əldə edilməsi və qarşılıqlı əməkdaşlıq üçün əlverişli şərait yaradılmalıdır. Bu zaman elə yeni yanaşma meydana çıxa bilər ki, müəllim üçün də bir yenilik olar.

6. Dərslərin inteqrativ təşkilinə üstünlük verilir. Bu zaman həm üfiqi, həm də şaquli əlaqələrə yer verilməlidir.

7. Qeyri-standart dərslərin tətbiqinə geniş yer verilir. Qeyri-standart dərslərdə iş üsulları və formaları şagirdlərin dərs zamanı fəallıqlarını artırmağa və tam səmərə ilə fəaliyyət göstərmələrinə stimul verir (Artıq silsilə yazı olduğu üçün iş formaları haqqında geniş məlumatın verilməsini məqsədəuyğun saymırıq. Lazım gələrsə bu haqda əvvəlki məqaləmizdən məlumat əldə edə bilərsiniz).

Lakin, fərdi, cütlərlə, böyük və kiçik qruplarla iş formalarının hər biri II və III sinif riyaziyyat dərslərinin də təşkilində geniş istifadə olunur.

II və III sinif riyaziyyat kurslarını 4 konsentrdə hesab materialı, kəmiyyətlər, həndəsə materialı və cəbr elementlərinin inteqrativ şəkildə düzülü təşkil edir.

Riyaziyyatın ibtidai kursunun konsentrlərə ayrılması - onun bir tədris fənni kimi xüsusiyyətlərindən və kiçik yaşlı məktəblilərin psixoloji-anatomik xüsusiyyətlərindən irəli gəlir.

Şagirdlər 100 və 1000 dairəsində vurma və bölmə hallarının şifahi şəkildə yerinə yetirilməsini 3-cü sinifdə mənimsəyirlər və bu əməllərin qarşılıqlı əlaqədə öyrənilməsi daha məqsədəuyğun sayılır. Bəzən riyaziyyatçılar toplama ilə vurmanı, çıxma ilə bölməni də bir-biri ilə qarşılıqlı əlaqədə öyrənməyi məsləhət görürlər. Lakin hər nə qədər toplama ilə vurma, çıxma ilə bölmə əlaqədə olsa da, əməllərin öyrədilməsi sırasına müvafiq olaraq, birinci və ikinci pillə əməllərinin öz aralarındakı uyğunluğundan istifadə etmək daha məqsədəuyğundur.

III sinifdə "tezhesablama" bacarıqları yaratmaq üçün şagirdlər onluq yaranan hal (onluq ayrılan hal) üçün "mötərizə" anlayışı ilə tanış olur, I və II pillə əməlləri qarşılıqlı əlaqədə və müqaisəli ("=", "<", ">" və "≠" işarələri vasitəsilə) şəkildə çalışmalarla ümumiləşdirilir.

Deməli, II sinifdə natural ədədlərin nömrələnməsi işi şagirdlərin ədədlər mərtəbəsilə tanışlıqlarından başlayır. Hər səhifədə çalışmaların düzülüş formasının, hardasa məzmun xətlərinin ardıçıllığı gözlənilməklə yerləşdirilməsi təlimin səmərəsini artıran istiqamətlərdəndir. Dərslərin qeyri-standart dərs formalarından istifadə etməklə təşkili isə daha keyfiyyətli təlim üsulu hesab olunur. Nömrələmə işini asanlaşdıran vasitələrdən biri həndəsi fiqurlar və ya əşyalardan istifadə etməyə geniş yer verilməsidir.

Əşya ilə ədədlər arasında funksional asılılıq yaradaraq ədədlərin müqaisəsini aparmaq şagirdlərin təfəkküründə verilən tapşırıqla əlaqədar illüstrasiya yaradır.

Vurma və bölmə əməllərini II sinfin sonunadək şagirdlər qarşılıqlı şəkildə "6" dairəsində öyrənməyə başlayırlar və III sinifdə bütün təkrəqəmli ədədlərin vurulması öyrənilir. Şagird vurma əməlini eyni toplananların cəmi formasında öyrənərsə, onda o, hasili tapmağı bacarmaqla vurma əməlinin mahiyyətini eyni toplananların cəmi kimi anlamış olar. Bölmə isə bərabər hissələrə ayırma və ya bölmək kimi başa düşülür. Bununla da riyazi əməllər şagird şüurunda mücərrəd simvolların yazılışı kimi deyil, müxtəlif həyati situasiyalarda gərəkli olan bilik və bacarıq kimi qalır və o, daha mürəkkəb bilikləri mənimsəmək üçün hazırlıqlı olur. Vurma və bölmənin qaşılıqlı tərs əməllər olmasını da "ədəd evi" və "ədəd ailəsi" formasında öyrənmək daha səmərəli olur və 3-cü sinifdə də vurma və bölmənin tədrisində öz əhəmiyyətini saxlayır. "Ədəd ailəsi"ni təşkil edən ədədlərin köməyilə iki bölmə və bir vurma düzəltmək olur. Bu bölmə və vurmanın necə düzəldiyi şagirdlərin diqqətinə çatdirilir: ən böyuk ədəd digər ədədlərin hasilindən alındığından onu qurulmuş "ədəd evi"nin "dam"ında yazmaq, vuruqlari isə bu ədədin tərkibi kimi hissələrə salmaq olar. Qaydaları möhkəmləndirmək məqsədilə cavabı

səhv olan misallar da vermək olar. Burada səhvlərin nədən irəli gəldiyini tapmağı şagirdlərə tapşırmaq lazımdır.

Vurma və bölmənin cədvəl halının və cədvəldənkənar halın öyrənilməsi işi əsasən 3-cü sinifdə tam olaraq başa çatdırılır. Vurma və bölmənin cədvəl halının öyrənilməsi başa çatdıqdan sonra, cədvəldənkənar vurma və bölmə, həmçinin vurma və bölmənin xüsusi halları öyrənilir:

1. Sıfra vurma;
2. Sıfra bölmə;
3. Sıfrı vurma;
4. Sıfrı bölmə.
5. 100 dairəsində onluqların vurulması və bölünməsi. (Sonu "0" – la bitən ədədlərin və ya onluqların vurulması və bölünməsi asanlıqla vurma və bölmənin cədvəl hallarına gətirilir)

Vurma və bölmə əməllərinin cədvəldənkənar hallarının öyrədilməsi mövzunun öyrənilməsi aşağıdakı məqsədləri lardır:

1. 100 dairəsində şifahi vurma və bölmənin aşağıdakı hallarına dair hesablama üsullarının formalaşdırılması:

a) ikirəqəmli ədədin birrəqəmli ədədə vurulması və bölünməsi (24:6; 24•6);

b) birrəqəmli ədədin ikirəqəmli ədədə vurulması (3•13);

c) ikirəqəmli ədədin ikirəqəmli ədədə bölünməsi (36:12).

2. Cəmin ədədə vurulması və bölünməsi, vurmanın yerdəyişmə, qruplaşdırma və paylama xassələrinin izah edilməsi: ((a+b) •c; ((a+b) :c) -bu xassələr hesablama üsullarının əsasını təşkil edir;

3. Qalıqlı bölmə əməlinə dair bacarıqların formalaşdırılması.

Cədvəldənkənar vurma şifahi hesablamalara aiddir. Burada 3 mərhələ ayırd edilir:

1) I vuruğun mərtəbə toplananların cəmi şəklində göstərilməsi;

2) Toplananların hər birinin II vuruğa vurulması;

3) Alınan hasillərin cəminin tapılması.

Hər bir xassəni müəllim əyani –illüstrativ materiallarla izah etməlidir.

Cədvəldənkənar vurmanın ardından analoji qayda ilə cədvəldənkənar bölmə öyrədilir. İkirəqəmli ədədin birrəqəmli ədədə bölünməsi, cəmin ədədə bölünməsi kimidir. Bir şərtlə ki, qismət ikirəqəmli ədəd olsun. Cədvəldənkənar bölmədə 2 hal qeyd olunur:

1) Bölünən ikirəqəmli ədəd mərtəbə toplananların cəmi şəklində yazılır və hər bir toplanan verilən ədədə bölünür: 48:4 = (40+8):4 = 40:4+8:4 = 12;

2) Bölünən ikirəqəmli ədədin mərtəbə toplananları verilən birrəqəmli ədədə bölünmür: 72:4 (70+2):4.

Yəni, 70 və 2 ayrılıqda 4-ə bölünmür. Lakin 72 ədədi 4-ə bölünür. Belə hallarda bölünəni 2 əlverişli toplananın cəmi şəklində göstərmək lazımdır. Məsələn: 72:4 = (60+12):4 və ya 72:4 = (40+32):4.

Eyni qayda ilə 84:7 və s. kimi misalların həlli verilə bilər. Belə çalışmalar şagirdlərdə riyazi yaradıcılığı, induksiyanı və riyazi marağı inkişaf etdirir.

Ədədlərin tərkibindən asılı olaraq müxtəlif üsullar tərtib etmək olar. Bunlardan biri bölünəndən bölənin misilləri sayda onluq ayırmaq və yerdə qalan ədədi isə 2-ci toplanan kimi göstərmək olar:

52:3 misalında cədvəl üzrə vurma və bölməyə dair biliklərə istinad edilməli olduğundan:

52:3 = (24+28):3 = 24:3+(27+1):3 və ya;

52:3 = (30+22):3 = 60:3+12:3 kimi də götürə bilərik.

Bundan sonra qalıqlı bölmə öyrənilir – öz mahiyyəti etibarilə yazılı bölmənin əsasını qalıqlı bölmə təşkil edir. Yazılı bölmə alqoritmi isə IV sinifdə öyrədilir. Ona hazırlıq işi III sinifdən başlayır. "Qalıqlı bölmə" təlimi aşağıdakı plan əsasında təşkil edilə bilər:

1. Hesab əməlləri kimi – vurma və bölmənin təkrarı;

2. Vurma və bölmə əməlləri arasındakı əlaqənin və bu əməllərin komponentləri ilə nəticəsi arasındakı əlaqənin təkrar edilməsi;

3. Konkret verilən ədədə bölünənlər ardıcıllığı cədvəllərinin tərtibi. Məsələn: bölən 5 olduqda 0, 5, 10, 15, 20, 25,. . . olur.

Diqqətəlayiq haldır ki, son illər təhsilimizin məzmununda aparılan yeniləşmə tədbirləri təlim-tədris sahəsinə də xeyli yenilik gətirmiş, təlimin əsas təşkilat forması olan dərsə yanaşmalar dəyişmiş, dərsin öyrədicilik funksi-

yasını asanlaşdıran, dərsi maraqlı və dinamik edən, şagirdləri daha da fəallaşdıran, müəllimi daim yenilik axtarışına sövq edən fəal interaktiv təlim metod və üsulları geniş tətbiq olunmağa başlanmışdır.

Ədəbiyyat

1. I-IV siniflərin riyaziyyat kurikulimu. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. – Bakı: Təhsil, – 2008. – s. 53-104.
2. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. – Bakı: Kövsər, – 2008. – 224 s.
3. Məmmədova S.K. I sinifdə riyaziyyat dərslərinin təşkilinə dair // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, – 2019. №4(58), – s.39-43.
4. Məmmədova S.K. Riyaziyyatın ibtidai kursu tədrisinin ümumi metodikası üzrə dərs vəsaiti. – Bakı: Elm və təhsil, – 2017.
5. Бантова М.А. Методика преподования математики в начальных классах. – Москва, – 2003.
6. İnternet http:// www.qooqle.az.
7. http:// www.psi.lib.ru

Məqalə riyaziyyat üzrə elmlər doktoru, dosent Yaqub Məmmədov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –08.01.2022 , son daxilolma –10.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 95-98
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 95-98
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.95-98

UOT 372.851

I – IV siniflərdə həndəsə elementlərinin öyrədilməsi metodikasının bəzi məsələləri

Müəllif:

Fatma Hacıyeva
Naxçıvan Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: fhacıyeva@gmail.com

Açar sözlər:
məsələ həlli, çertyojlar, üçbucaqlar, kvadratlar, fəza fiqurları

Annotasiya. Məqalədə qeyd edilir ki, məktəb həndəsə kursunun öyrədilməsi canlı müşahidə, mücərrəd təfəkkür və praktika məsələləri ilə bilavasitə bağlıdır. Həndəsədən nəzəri materilın öyrədilməsi müxtəlif metodlarla həyata keçirilir. Nəzəri biliyin praktikda tətbiqini reallaşdırmaq üçün məsələlərin həllindən istifadə edilir. Lakin məktəb həndəsə kursunda birbaşa nəzəri biliklərin, yeni anlayışların şagirdlər tərəfindən dərk edilmə səviyyəsi məsələ həlli prosesində aşkar edilir. Məqalədə ibtidai siniflərdə həndəsə elementlərinin məsələ həlli vasitəsilə öyrədilməsi, fəza təsəvvürlərinin formalaşdırılması, məsələ həlli prosesində həndəsi intuisiyadan daha tez-tez istifadə olunması, məsələ həllində çertyojlardan daha geniş istifadə olunması və digər məsələlər öz əksini tapmışdır.

Some questions of the methodology of teaching geometry elements in grades I-IV

Author:

Fatma Haciyeva
Doctor of philosophy in pedagogy
Nakhchivan State University
E-mail: fhacıyeva@gmail.com

Key word:
junior schoolchildren, geometry, problem solving, drawings, triangles, squares, spatial figures

Abstract. The article notes that the teaching of a school geometry course is directly related to the issues of live observation, abstract thinking and practice. Teaching geometry on theoretical material is carried out by various methods. Problem solving is used to implement theoretical knowledge in practice. But in the school geometry course, the level of direct theoretical knowledge, students' understanding of new concepts is revealed in the process of solving the task. The article discusses the issues of teaching elementary geometry in elementary grades through problem solving, the formation of spatial representations, the more frequent use of geometric intuition in the process of solving problems, the wider use of drawings in solving problems and other issues.

Некоторые вопросы методики преподавания элементов геометрии в I-IV классах

Автор:

Фатма Гаджиева
Доктор философии по педагогике
Нахчыванский государственный университет
E-mail: fhacıyeva@gmail.com

Ключевые слова:
младшие школьники, геометрия, решение задач, чертежи, треугольники, квадраты, пространственные фигуры

Аннотация. В статье отмечается, что преподавание школьного курса геометрии напрямую связано с вопросами живого наблюдения, абстрактного мышления и практики. Обучение геометрии на теоретическом материале осуществляется различными методами. Для реализации теоретических знаний на практике используется решение задач. Но в школьном курсе геометрии уровень непосредственных теоретических знаний, понимания учащимися новых понятий раскрывается в процессе решения поставленной задачи. В статье рассматриваются вопросы обучения элементарной геометрии в начальных классах через решение задач, формирование пространственных представлений, более частое использование геометрической интуиции в процессе решения задач, более широкое использование чертежей в решении задач и другие вопросы.

Müstəqil Azərbaycanın xalq təsərrüfatında müasir tələblərə cavab verən kadrlara böyük ehtiyac vadır. Məlumdur ki, kadrların ilkin hazırlığı orta məktəbdən başlayır.

Müasir həyatda kadrlardan ümumi və ixtisasla bağlı bilikləri ilə yanaşı mütəxəssisin müstəqil surətdə ideya irəli sürməsi, hər hansı məsələnin həllinə yaradıcı yanaşması, təşəbbüskarlıq göstərməsi tələb olunur. Bu kimi kəmiyyətlərin tərbiyə olunması və formalaşdırılması ilk növbədə ümumtəhsil məktəblərində dəqiq və təbiət elmlərinə aid fənlərin tədrisi prosesində həyata keçirilir. Gənc nəslin yaradıcı və müstəqil fəaliyyətə məqsədyönlü şəkildə hazırlanmasında məktəb həndəsə kursu tədrisinin də böyük rolu, imkanları və əhəmiyyəti vardır [1, s. 4-9].

Həqiqətən, məktəb həndəsə kursunun tədrisi məqsədləri şagirdlərin fəza təsəvvürlərinin inkişaf etdirilməsi, onların müvafiq bacarıq və vərdişlərə yiyələnmələrindən ibarətdir. Həmin bacarıq və vərdişlərin həyatda tətbiqi – reallaşdırılması şagirddən müstəqil əqli və praktik fəaliyyət, yaradıcı təfəkkür tələb edir. Buna nail olmaq üçün şagirdlərin riyaziyyatdan, o cümlədən həndəsədən yaradıcı fəaliyyətlərini inkişaf etdirmək lazımdır.

Bu cəhətdən həndəsə məsələləri ən mühüm və səmərəli vasitə olmaqla, geniş imkanlara malikdir. Məlum olduğu kimi məktəb riyaziyyat kursunda anlayışların tərifləri əsasən əyani – induktiv verilir və tərifərin çoxu intuitiv səviyyədə olur.

Riyazi anlayışlara tərifərin verilməsinə aid tələblər həmişə metodistlərin diqqət mərkəzində olmuşdur. Orta məktəb şagirdləri üçün intuitiv səviyyədə tərifin mənimsənilməsi daha asandır. Çünki intuisiya – təfəkkürün elə keyfiyyətidir ki, müəyyən mühakimə və isbatdan istifadə etmədən, həndəsə və ya faktın mahiyyətini dərk etmək qabiliyyəti şəklində təzhür edir.

Həndəsi anlayışların tərifləri, mənimsənilməsi, inkişaf etdirilməsi məsələ həlli problemində müvəffəqiyyətlə həyata keçirilir.

Bunun üçün də məsələ həllindən müvəffəqiyyətlə istifadə etmək olar. Məsələ həlli prosesində həndəsi intuisiyadan daha tez-tez istifadə olunur. İntuisiya özlüyündə əsaslı riyazi biliklərin təminatçısı olmasa da, təlim prosesində materialın əvvəlcə intuitiv dərk edilməsinə, sonra isə daha formal deduktiv isbat metodlarının tətbiqi ilə mənimsənilməsinə nail olmaq lazımdır. Həndəsə məsələlələrinin həllində çertyoj (şəkil) əyanilik rolunu oynayır, əyanilik isə riyazi qanunauyğunluqları aşkar etmək üçün intuitiv əsas yaradır. İntuitiv təfəkkür çox vaxt analogiya əsasındakı əqli nəticə çıxarmaq prossində də aşkar olunur.

Məktəb həndəsə kursunda anlayışların öyrədilməsində məsələ həlli mühüm rol oynayır. Məsələ həllində çox vaxt anlayışın xassələrindən istifadə edildikdə növdən cinsə istiqamətində hərəkət edilir. Bundan əlavə, dördbucaqlılarla bağlı məsələlərin həllində üçbucaqlara aid biliklərdən istifadə olunur. Bu zaman:

1) anlayış haqqında şagirdin təsəvvürü genişlənir;

2) anlayışın tətbiq sahəsi göstərilir;

3) anlayışın həcmi və məzmunu haqqında biliklər konkretləşir;

4) anlayış inkişaf etdirilir.

Məlumdur ki, həndəsədən məsələ həll edərkən və ya teorem isbat edərkən, bizə qabaqcadan məlum olan ilk anlayışlardan, ilk münasibətlərdən, aksiomlardan və daha sonra həndəsi fiqurların tərifərindən, əsaslandırılmış və ya isbat edilmiş təkliflərdən istifadə edirik.

Bəzi anlayışlara müxtəlif tərifər verilir. Məsələ həllində münasib olanını tərtib etmək lazımdır.

Həndəsə dərslərində məsələ həll edilməsi təkcə proqram materialına dair şagirdlərin biliklərini məşq etdirmək deyil, həm də onların təsəvvürlərini, təxəyyülünü və təfəkküründü inkişaf etdirməkdən ibarətdir. Bunun üçün həndəsədən tədris materialının məzmununa uyğun olaraq:

1) suallar;

2) sual məsələlər;

3) hesablama məsələləri;

4) qurma məsələləri daxil etmək lazımdır [2. s. 30-32].

Məktəb təcrübəsində bir qrup məsələləri həll etmək üçün onların məzmununa görə çertyoj çəkilir: digər qrup məsələlərdə hazır çertyoj verilir. Üçüncü qrup məsələlərdə fən-

ləarası əlqələrdən istifadə olunur. I-IV siniflərdə həndəsə materilanın öyrədilməsi, ilk növbədə, şagirdlərdə kifayət qədər tam həcmdə həndəsi təsəvvürlərin formalaşdırılmasına xidmət edir. Bunun əsasında fəza təsəvvürlərinin və təxəyyülünün formalaşdırılması və inkişaf etdirilməsi həyata keçirilr.

Şagirdlərdə həndəsi təsəvvürlərin formalaşdırılması üçün aparılan təlim işinin sistemi aşağıdakı kimi olmalıdır:

1) şagirdlər müşahidə etməklə həndəsi fiqurun xassələrini aşkar edirlər;

2) müvafiq terminləri öyrənir və zəruri praktik vərdişlər qazanırlar.

Həndəsi fiqurlar olduqca müxtəlifdir. Şagirdlərdə ən sadə müstəvi və fəza fiqurları haqqında təsəvvürləri inkişaf etdirmək üçün həndəsə elementlərinin hesab materialı ilə əlaqəli tədrisinin böyük əhəmiyyəti vardır. Hələ I sinifdən üçbucaqlar, kvadratlar, dairələr, kublar say vahidləri kimi işlədilir və eyni zamanda şagirdlər həmin fiqurlar haqqında əyani təsəvvürlər əldə edirlər. Təlimin sonrakı mərhələsində həmin fiqurlar öyrənmə obyektinə çevrilir. Onlar məsələlər həllində həm illüstrasiya rolunu, həm də obyekt rolunu oynayır.

Məktəb riyaziyat kursunda konqruyent "bərabərtərkibli fiqurlar", "eynitərkibli fiqurlar" anlayışları nadir hallarda tətbiq edilir və bunlara aid yuxarı siniflərin "Həndəsə" məzmun xətlərində ancaq konqruyent fiqurlar anlayışlarına rast gəlinir. Əslində - sahələri eyni, formaca müxtəlif olan fiqurlar vardır və bəzi məsələlərdə öz əksini tapmışdır.

Bəzi nəzəri materialın tədrisindən əvvəl şagirdlərə məqsədəuyğun və yeni materialı mənimsəməyə kömək edən praktik məsələlər həllindən başlamaq olar. Praktik xarakterli məsələlərdə real obyektin həndəsi xarakteristikalarını müəyyən etmək tələb olunursa, onda şagird həmin obyektləri həndəsi obyektlər şəklində təsvir etməyi bacarmalıdır.

Həndəsə elementlərinin təlimi şagirdlərdə aşağıdakı keyfiyyətlərin formalaşmasına xidmət etməlidir [3, s.19-21]:

1) fəza təsəvvürlərinin formalaşdırılması;

2) müşahidə və müqayisəetmə bacarıqlarının formalaşdırılması;

3) ümumiləşdirmə və mücərrədləşdirmə bacarıqlarının yaradılması;

4) həndəsi biliklərin həyatda, praktikada tətbiq edilməsi.

Həndəsənin deduktiv elm olması – məktəbdə təlim prosesində özünü göstərir, müəllimdən yeni yanaşma tələb edir. Ona görə də, həndəsə təlimində psixoloji faktor nəzərə alınmalıdır. Baxmayaraq ki, həndəsi anlayışlar həm də şəkil çertyojlarla müşayiət olunur, lakin mənimsəmə keyfiyyəti digər fənlərdəkindən aşağı olur. Həndəsi fiqurların standart çertyojları şagirdlərin fəza təsəvvürlərini zənginləşdirmir. Məhz buna görə də həndəsədən nəzəri materialın şərhində, məsələ həllidə çertyoj lazımi dəstəyi vermir. Həndəsi fiqurun variasiyalı təsviri şagirdlərin fəza təsəvvürlərini zənginləşdirir [4, s.20-22].

Məktəb həndəsə kursunun öyrənilməsi canlı müşahidə - mücərrəd təfəkkür və praktika məsələləri ilə bilavasitə bağlıdır. Həndəsədən nəzəri materilın öyrənilməsi müxtəlif metodlarla həyata keçirilir. Nəzəri biliyin praktikda tətbiqini reallaşdırmaq üçün məsələlər həllindən istifadə edilir. Lakin məktəb həndəsə kursunda birbaşa nəzəri biliklər, yeni anlayışlar məsələ həlli prosesində aşkar edilir. Deməli, həndəsə təlimində məsələ həlli həm də təlim metodu funksiyasını yerinə yetirir. Həndəsə təlimində məsələ həlli bir metod kimi tətbiq olunur. Lakin bu metodun digər təlim metodlarından fərqli cəhətləri vardır. Belə ki, məsələdə kəmiyyətin bəzi qiymətlərinə və onların arasındakı asılılığa əsasən məchul kəmiyyəti tapmaq tələb olunur və bunu tapmaq üçün müxtəlif metodların elementləri – özünəməxsus bir metod kimi müəyyən formaya və məzmuna malikdir. D.Roya məsələ həlli prosesinin dörd mərhələyə ayırır:

1. Məsələnin məzmununun mənimsənilməsi;

2. Məsələdəki verilən və axtarılanlar arasındakı əlaqələrin aşkar edilməsi;

3. Məsələ həlli planın tətbiq edilməsi və həlli;

4. Həll olunmuş məsələ üzərində iş.

Məktəb həndəsə kursunda məsələ həlli təlim metodu rolunu oynayırsa, onda aşağıdakı tələblər ödənilməlidir:

1) Şablon xarakterli məsələlərə yol veril-

məməlidir;

2) Məsələnin həlli məqsədi və aidiyyatı sahəsi geniş olmlıdır [3, s.4-6];

3) Məsələ həlli vasitəsilə təlimin metodikası təkmilləşdirilməlidir;

4) Məsələ həlli şagirdlərin təfəkküründün inkişafına təsir göstərməlidir;

5) Didaktik və həyati əhəmiyyəti olmayan məsələlərə yer verilməməlidir.

Həndəsədə maraqlı, əyləncəli məsələlər, riyazi sofizmə aid məsələlər şagirdlərdən qeyri-standart şəkildə mühakimə aparmaq, mümkün halları yoxlamaq, forma ilə məzmunun dəqiq uyğunluğunu tapmaq xüsusiyyətlərini tələb edir. Bu tipli məsələlərin tədrisə daxil edilməsi şagirdlərdə həm də riyazi tədqiqatlara marağı artırır.

Ədəbiyyat

1. Həmidov S.S., Həndəsə məsələlərinin həlli metodikası, – Bakı:– 1998, – s. 4-9
2. Həmidov S.S., Tağıyeva S., Həndəsi fiqurlar və onların xassələri. – Bakı: ADPU, – 2012, – s. 19-21
3. Həmidov S.S., Rüstəmov İ., Həndəsə məsələlərinin həlli metodikasına dair. – Bakı: – 1998, – s.4-6
4. Məmmədov Z., Riyaziyyatdan ibtidai sinif müəllimlərinə kömək. – Bakı: – 2013, – s. 30-31
5. Tağıyeva S., Məmmədov Z., İbtidai siniflərdə həndəsə elementlərinin öyrədilməsi, – Bakı, ADPU, – 2018, – s. 20-22

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 15.01.2022 , son daxilolma – 11.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 99-105
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 99-105
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.99-105

UOT 372.851

V-VI siniflərdə ədədlər nəzəriyyəsi elementlərinin qoyuluşu və tədrisi xüsusiyyətləri

Müəllif:

Arzu Səfərova
Naxçıvan Müəllimlər İnstitutu
E-mail:
rzusafarova027@gmail.com

Açar sözlər:
sadə və mürəkkəb ədədlər, kəsrlərin toplanması və çıxılması, natural ədədlərin bölünməsi, ƏBOB və ƏKOB arasında əlaqə

Annotasiya. Məqalədə V-VI siniflərdə ədədlər nəzəriyyəsi elementlərinin qoyuluşu və tədrisi xüsusiyyətləri nəzərdən keçirilir. Tədqiqat işində belə qənatə gəlinmişdir ki, bölünmə əlamətləri, ədədin sadə vuruqların hasılı şəklində göstərilməsi, verilmiş natural sıra parçasında ayrı-ayrı ədədlərə bölünənlərin sayının tapılması; ƏBOB və ƏKOB kimi anlayışlar kompleks şəkildə standart olmayan maksimum və minimum və xətti proqramlaşdırmaya aid və s. məsələlərin həllərində müvəffəqiyyətlə tətbiq olunur. Qeyd olunur ki, nəqliyyat sistemlərinin hərəkət qrafiklərinin tərtib edilməsində, dövrü xarakterli proseslərin fəaliyyət cədvəllərinin tərtib edilməsində natural ədədlərin bölünmə qabilyyəti ilə bağlı biliklər şagirdlər üçün olduqca həyati olduğundan həmin biliklər məsələlər həlli vasitəsilə möhkəmləndirilməlidir. Məqalədə məktəb təcrübəsi əsasında belə bir fikir xüsusi qeyd olunur ki, V-VI siniflərin şagirdləri bu mövzu ilə bağlı məsələlərin həllinə çox böyük maraq göstərirlər. Bu isə ona əsaslanır ki, ədədlər nəzəriyyəsi elementləri öz təbiətinə görə şagirdləri evristik fəaliyyətə cəlb etmək xüsusiyyətinə malikdir.

Author:

Arzu Safarova
Nakhchivan Teachers Institute
E-mail:
rzusafarova027@gmail.com

Features of investing and teaching elements of the theory of numbers in grades V-VI

Key word:
simple and complex numbers, addition and subtraction of fractions, division of natural numbers, relationship between "ƏBOB" and "ƏKOB"

Abstract. The article considers the features of investing and teaching elements of the theory of numbers in grades V-VI. In the research work it was proved that the signs of division, the representation of a number as a product of simple multiplications, the finding of the number of divisors by separate numbers in a given natural Series fragment; concepts such as "ƏBOB" and "ƏKOB" are complex, related to non-standard maximum and minimum and linear programming, etc. successfully applied in solutions of issues. It is noted that the knowledge of the ability to divide natural numbers in the compilation of traffic graphs of transport systems, tables of activity of cyclical processes is very vital for students, so this knowledge should be strengthened through the solution of issues. The article specifically notes such an opinion on the basis of school experience that students of grades V-VI show great interest in solving issues related to this topic. And this is based on the fact that the elements of the theory of numbers, by their nature, have the property of involving students in heuristic activity.

Автор:

Арзу Сафарова
Нахчыванский институт учителей
E-mail:
rzusafarova027@gmail.com

Особенности постановки и преподавания элементов теории чисел в V-VI классах

Ключевые слова:
простые и комплексные числа, сложение и вычитание дробей, деление натуральных чисел, связь между «ƏBOB» и «ƏKOB»

Аннотация. В статье рассмотрены особенности постановки и преподавания элементов теории чисел в V-VI классах. В исследовательской работе говорится о том, что деление как выражение числа в виде решений простых умножений, нахождение числа делимых на отдельные числа в заданном фрагменте натурального ряда, также такие понятия, как НОД (наибольший общий делитель) и НОК (наименьшее общее кратное), относящиеся к комплексному нестандартному максимуму и минимуму и линейному программированию и т.д., успешно применяются при решении поставленных задач. Отмечается, что поскольку знания о возможности деления натуральных чисел при составлении графиков движения транспортных систем, составлении графиков деятельности циклических процессов чрезвычайно важны для учащихся, эти знания должны быть подкреплены решением задач. В статье на основе школьного опыта особо отмечается такое мнение, что учащиеся V-VI классов проявляют очень большой интерес к решению вопросов, связанных с этой темой. Это основано на том, что элементы теории чисел по своей природе имеют свойство вовлекать учащихся в эвристическую деятельность.

Riyaziyyatda dörd hesab əməlindən bölmə əməli ədədlər nəzəriyyəsi ilə bağlı bir sıra məsələlərin həllində daha çox tətbiq olunur və problemlərin bir qismi məhz bölmə əməli ilə bağlıdır. Natural ədədlərin müxtəlif xassələri vardır. Bunların bir qismi aşkar görünür, bir qismi tədqiqat obyektinin komponentləri olan bölünən və bölən arasındakı müxtəlif miqdar münasibətləri bir sıra hallarda ədədlərin nəzəriyyəsi ilə bağlı problemlərin həllində, iqtisadi-tətbiqi xarakterli məsələlərin həllində mühüm rol oynayır. Şifahi hesablamanın ümumi və xüsusi üsullarının tətbiqi hesablamalarının səmərələləşdirilməsinə xidmət edir.Ədədlərin bölünmə qabiliyyəti ilə bağlı konkret təkliflər məhz hesablama və isbat xarakterli məsələlərin həllində müvəffəqiyyətlə tətbiq olunur. Natural ədədlərin bölünmə əlamətləri didaktik əhəmiyyəti ilə yanaşı, həyati tətbiqi əhəmiyyəti də vardır.

V-VI siniflərin riyaziyyat kursunda bu mövzunun tədrisi iki məqsəd daşıyır:

1) V sinifdə şagirdlərin şifahi hesablama bacarıqlarını və vərdişlərini inkişaf etdirmək üçün zəruri biliklərin verilməsi;

2) VI sinifdə kəsrlərin toplanması və çıxılması ilə əlaqədar bölünmə ələmələri və ədədlərin sadə vuruqlara ayrılmasına dair kompleks biliklərin verilməsi.

Qeyd etmək lazımdır ki, bölünmə əlamətləri, ədədin sadə vuruqların hasılı şəklində göstərilməsi, verilmiş natural sıra parçasında ayrı-ayrı ədədlərə bölünənlərin sayının tapılması, ƏBOB və ƏKOB- kimi anlayışlar kompleks şəkildə standart olmayan, maksimum və minimuma aid, xətti proqramlaşdırmaya aid və s. məsələlərin həllində müvəffəqiyyətlə tətbiq olunur. Nəqliyyat sistemlərinin hərəkət qrafiklərinin tərtib edilməsində, dövrü xarakterli proseslərin iş, fəaliyyət cədvəllərinin tərtib edilməsində natural ədədlərin bölünmə qabilyyəti ilə bağlı biliklər şagirdlər üçün olduqca həyatidir və həmin biliklər məsələlər həlli vasitəsilə möhkəmləndirilməlidir. [1, s. 56]

Hesabdan tədris materilanın VI sinifdə yekunlaşmasını nəzərə alıb, ona aid mühüm təklifləri – tərif və qaydaları , sadə mühakimələrlə aşkar olan isbatları, əsaslandırmaları şagirdlərə öyrətmək lazımdır. Bu məqsədlə, məktəbin V və VI sinif şagirdləri üçün yazılmış riyaziyyat dərsliklərində, tədqiq etdiyimiz problem baxımından həmin məsələlərin qoyuluşuna münasibətimizi bildirməklə, öz metodiki sistemimizi irəli sürməyi lazım bilirik.

V sinifin riyaziyyat dərsliyində ədədlərin bölünməsi ilə əlaqədar aşağıdakı mövzular verilmişdir: "Natural ədədlərin bölünməsi", " Ədədin bölənləri və bölünməsi" ,"10-a,5-ə, 2-yə bölünmə əlamətləri"," 9-a və 3-ə bölünmə əlamətləri". Bu mövzuları hər biri dərslikdə bir və ya iki konkret misal üzərində şərh edildikdən sonra, "qayda" və ya "əlamət" ifadə olunur.Məsələn,"9-a və 3-ə bölünmə əlaməti" 657 ədədi üzərində şərh olunur və müvafiq "bölünmə əlaməti"ifadə olunur.Bu əlamətin əsaslandırılmasında "cəmin bölünmə ərələmətindən " istifadə olunur. Həmin əlamət isə qabaqcadan verilməli idi.Lakin bu haqda dərslikdə heç nə deyilmir.

Məlumdur ki, konkret ədədlərə bölünmə əlamətləri 10-luq sistemində nəzərdən keçirilir.Cəmin, fərqin, hasilin bölünmə əlamətləri isə say sisteminin əsasından asılı deyil.Cəmin bölünmə əlaməti iki təklifdən (teoremdən) ibarət olub, düz təklif həmişə doğrudur: "toplananların hər biri verilən ədədə bölünürsə,cəmdə həmin ədədə bölünür".[2, s. 76]Tərs təklif isə həmişə doğru olmayada bilər: " verilmiş ədədlərin cəmi verilən ədədə bölünürsə , toplananlar həmin ədədə bölünməyədə bilər". Məsələn,

18+12=30;18:3, 12:3 üçün, 30:3 ödənir.

Lakin 17+13=30 misalında 30 ədədi 3-ə böləndüyü halda, onun toplananları 3-ə bölünür. Müəlliflər bölünmə əlamətlərinin " isbatından" həmin əlamətdən istifadə edirlər;

Lakin onun varlığı haqqında heç nə demirlər.

V sinifdə ədədlər nəzəriyyəsi elementlərinin bu şəkildə, bu məzmunda verilməsini qənaətbəxş hesab etmirik.

V sinifdə bilavasitə ədədlərin bölünmə əlamətləri ilə bağlı aşağıdakı mövzuların tədris olunmasını vacib hesab edirik:

1. Natural ədədin mərtəbə toplananlarının cəmi şəklində və ya kanonik şəkildə göstərilməsi;

2. Natural ədədin ümumi şəkildə yazılışı

ilə tanışlıq

354=300+50+4=3· 10^2+5·10+4

abc =a·100+b·10+c=a·10^2+b·10+c;

3. Bölünmə münasibəti və onun xassələri. Ədədin bölənləri;

4. Natural ədədlərin bölənlərinin sayına görə təsnifi. Sadə ədədlər və mürəkkəb ədədlər;

5. Cəminin, fərqin və hasilin .bölünmə əlamətləri;

6. 2-yə, 5-ə və 100-a bölünmə əlamətləri.

Yuxarıda göstərilən mövzular konkret və induktiv yolla şərh olunur və nəzəri ümumiləşdirilmələr əsasında nəticə (qayda və ya əlamət) çıxarılır

Bu mövzuların şərhində hərfi ifadələrdən də istifadə olunmalıdır. Çünki şagirdlərin yaş və səviyyələri buna imkan verir.

V sinif şagirdləri ədədlər nəzəriyyəsi elementlərinə dair aşağıdakıları bilmələdirlər;

1) hesab əməllərinin tərifləri, komponentləri və nəticələrinin adları;

2) hesab əməli nəticəsi ilə komponentləri arasında asılılıqlar;

3) hesab əməlinin nəticəsinin dəyişməsi komponentlərin dəyişməsindən asılı olması;

4) Hesab əməllərinin xassələri;

5) Şifahi hesablamanın ümumi və xüsusi hesablamanın üsulları;

6) Sadə və mürəkkəb ədədlər;

7) Natural sıra parçası;

8) Cəmin, fərqin və hasilin bölünmə əlamətləri;

9) 2-yə, 5-ə və 10-a bölünmə əlamətləri;

10) 4-ə və 25-ə bölünmə əlamətləri;

11) 3-ə və 9-a bölünmə əlamətləri;

12) 11-ə bölünmə əlaməti;

Sadaladığımız mövzuları diffensiasiyalı təlim şəraitində tədris etməyi də nəzərə almaq lazımdır. Məktəbin hazırki riyaziyyat proqramında differensiasiyalı təlim metodunun tətbiq edilməsi nəzərə alımışdır. Bu cəhətdən riyaziyyat müəllimi müxtəlif variantlı testlər tərtib etməklə, şagirdlərin bilik səviyyələrinə görə qruplaşdırılmalıdır. Çünki ədədlər nəzəriyyəsi elementlərinə ait çalışmalarının əksəriyyəti maraqlı olub, hər birini, sadə də olsa, müəyyən bir problemi ifadə edir.

Natural ədədlərin xassələrinə ait biliklər riyaziyyatən digər bölmələrində müvəffəqiyyətlə öz tətbiqini tapır. Fənlərarasə əlaqələrin reallaşdərəlmasənda hesaba ait praktik və nəzəri biliklər mühüm rol oynayır. [3, s.90]

Həqiqətən, V sinifin riyaziyyat kursu interaqtiv kurs olduğundan, hesab materialının nəzəri səviyyəsini qaldırmaq üçün cəbri bilikləedən istifadə olunur. Konkret ədədlər və ya ifadələr arasında aşkar edilən təklifə ümumi xarakter vermək üçün cəbri ifadələrdən istifadə olunur. Məsələn "2-dən fərqlə iki sadə ədədin cəmının cüt ədəd olduğunu göstərin" – məsələnin həllində tək ədədlərin ümumi şəkildə yazılışından istifadə etmək lazımdır: 2k+1, 2n+1 kimi tək ədədləri topladıqda: 2(k+n)+2 və ya 2(k+n+1) hasilində vuruqlardan biri 2 olduğu üçün, hasil cüt ədədlər olacaqdır.

Bölünmə əlamətlərinə ait olan məsələlərin həllində də cəbri simvollardan istifadə edilməsi isbat və ya əsaslandırma prosesinə konkretlik gətirir.

V sinifdə "qalıqlı bölmə" mövzusundan sonra adi siniflədə "ədədin bölənləri və bölünənləri", 2-yə, 5-ə, 3-ə, 9-a, və 10-a bölünmə əlamətləri, seçmə siniflərdə həmdə 4-ə, 6-a,7-ə,8-ə,11-ə, və 13-ə bölünmə əlamətləri tədris edilir.

Qeyd etmək lazımdır ki, natural ədədlərin vurulması və bölünməsi sonra ədədin bölənləri və bölünənləri ənlayışları verilsə, onda natural ədədlər çoxluğunu bölənlərininsayına görə təsnif etmək lazımdır.

Ədədlərin bölünmə əlamətlərini iki qrupa bölmək lazımdır:

1.Cəminin, fərqin və hasilin bölünmə əlamətləri;

2. 2-ə,5-ə,10-a,3-ə,9-a bölünmə əlamətləri verilməlidir;

3. Seçmə siniflərində həmdə 4-ə, 8-ə, 6-ya, 7-yə, 11-ə və 13-ə bölünmə əlamətlari verilməlidir;

Seçmə siniflərdə həm də 4-ə, 8ə, 6-ya, 7-yə, 11-ə və 13-ə bölünmə əlamətləri verilməlidir.

Tədris proqramında böıünmə əlamətləri sistemsiz verilmiştir Belə ki, 2-yə və 5-ə bölünmə əlamətləri sistemsiz verilmişdir. Belə ki, 2-yə və 5-ə bölünmə əlamətləri 9-a və 3-ə bölünmə əlamətləri ilə birgə verilməlidir.

Çünki onların əsaslandırılması (isbatı) yolları eynidir. 2-yə və 3-ə bölünmə 10-a bölünməni təmin edir və tərsinə

9-a bölünmə 3-ə bölünməni təmin etdiyi halda , 3-ə bölünmə 9-a bölünməni həmişə təmin etmir.

7-yə ,11-ə və 13-ə bölünmə əlamətlərini şagirdlərə öyrətmək çətindir. Buna 1001 ədədi timsalında şərh etmək olar. Lakin 11-ə bölünməni ayrılıqdada öyrətmək olar.

Tədris proqramında nəzərdə tutulur ki, V sinifdə tədris olunmuş "Ədədlərin bölünmə qabiliyyəti" təkrar edilsin. Proqramən ikinci nəslinin 1-ci paraqrafı " Ədədlərin bölünməsi" adlanır. Buradakı məzmun belədir "Sadə və mürəkkəb ədədlər. Ədədlərin sadə vuruqlarla ayrılması. Ən böyük ortaq bölən. Ən kiçik ortaq bölünən"

Proqram müəllifləri ədədlər nəzəriyyəsi elementdlərinə - kəsrlər üzərində əməllərin icrasında bir didaktif vasitə kimi baxırlar. Bu o deməkdir ki, riyaziyyat eliminin ən mühüm bölməsi olan və böyük və qədim inkişaf tarixinə malik olan ədədlər nəzəriyyəsinin V-VI- siniflərin riyaziyyat təlimində elmi və metodiki əhəmiyyəti və rolu sanki nəzərə alınmır. Halbuki Riyaziyyat təlimi özünəməxsus xüsusiyyətlərə malikdir. Bu da riyaziyyatın spesifikasından irəli gəlir. Pedoqogika elmi müxtəlif didaktik prinsiplər irəli sürmüşdür. Bunlardan biri də tədris prosesinin fəallaşdırılması prinsipidir. Riyaziyyat təlimi prosesində şagirdlərin təfəkkürünün fəallaşdırılması bilikləri mənimsəmə keyfiyyətini təmin edən ən vacib amildir. Çünki riyaziyyat təlimi prosesində görmə və eşitmə təfəkkürü oyadan, fəallaşdıran vasitələrdir. Bu analizatorlar vasitəsilə əldə edilən informasiyalar riyazi həqiqətləri dərk etmək üçün təfəkkür prosesini sürətləndirir.

Bölünmə əlamətlərinin hamısı üç teoremə əsaslanır:

1. Cəmin bölünmə əlaməti haqqında teorem: " toplananların hər biri verilən ədədə bölünürsə, onda cəmdə həmin ədədə bölünür";

2. Cəm verilən ədədə bölünürsə , toplananlar həmin ədədə bölünməyədə bilər;

3. Vuruqlardan biri verilən ədədə bölünürsə, onda hasildə həmin ədədə bölünür

Hasilin verilən ədədə bölünməsi ilə əlaqədar qeyd edilməlidir ki, hasil verilən ədəd bölünürsə, vuruqlar həmin ədədə bölünməyədə bilər. Ona görədə vuruqların tərkibinə diqqət yetirmək lazımdı. Məsələn, 8·15·7=840 ədədi 10-a bölünür, lakin vuruqların heç biri ayrılıqda 10-a bölünmür.

Ədadlərin bölünmə məsələləri onların bölənlərinin sayına görə təsiri ilə sıx bağlıdır. Çünki təsnifata əsasən əldə edilən biliklər bölünmə əlamətlərində isbat məsələləri həllində ən çox tətbiq olunan təkliflərdir. Bu cəhətdən natural ədədlərin bölənlərini sayına görə təsnifində yeni anlayışlara düzgün tərif verilməsi mühüm rol oynayır.

Bu təsnifatda əsas məqsəd yeni anlayışların

1) Sadə ədəd

2) Mürəkkəb ədəd

3) 1 (vahid)

Şagirdlər tərəfindən düzgün mənimsənilməsidir.

Dərsliklərdə sadə və mürəkkəb ədədlərə iki variantda tərif verilir.

1. Yalnız iki natural böləni olan ədədlərə sadə ədədlər deyilir. Məsələn, 2, 3, 5, və s. ədədlərin yalnız iki böləni var (1 və həmin ədədin özü)

2. İkidən çox böləni olan ədədlərə mürəkkəb ədədlər deyilir.Məsələn, 6-nın bölənləri 1, 2, 3-dür.

İkinci variantda verilən tərif belədir.

1. Vahiddən fərqli hər bir natural ədəd yalnız 1-ə və özünə bölünürsə, belə ədədlərə sadə ədədlər deyilir.

2. 1-ə və özünə və həmdə başqa ədədlərə bölünən ədədlərə mürəkkəb ədədlər deyilir.

Göründüyü kimi, bu tərifdə "1" və "ədədin özü" natural əədədlərdir.Məktəb təcrübəsində çox vaxt tərifdə rast gəlirik:

1. Yalnız iki müxtəlif böləni olan ədədlərə sadə ədədlər deyilir;

2. İkidən çox böləni olan ədədlərə mürəkkəb ədədlər deyilir.

Bu tərifdə elmi-metodik qüsur yoxdu və praktik xarakter daşıyır.

Bəzən mürəkkəb ədədə "1-dən və özündən fərqli heç olmazsa bir böləni olan ədədlərə mürəkkəb ədədlər deyilir". Bu tərifin praktik əhəmiyyəti ondan ibarətdir ki, ədədləri sadə

vuruqlarıına ayırmada birinci növbədə həmin fərqli böləni tanımağa çalışır.

Natural ədədi sadə vuruqlara ayrılmasında bölünmə əlamətləri tətbiq olunduğundan, əvvəlcə 2-yə, 5-7, 3-7, 9-a, 4-ə, 8-ə və s. ədədlərə bölünmə əlamətlərini konkret misallar üzərində şərh edibib, yekun təklifi ifadə etmək lazımdı.Qeyd etmək lazımdır ki, hər bir mürəkkəb natural ədədi, yeganə şəkildə sadə vuruqların hasili şəklində göstərmək olar.Əslində bu təklif riyaziyyatda "hesabın əsas teoremi" adlanır və isbat olunur. VI sinifdə bu təklif konkret ədədlər üzərində şərh olunur.

İndi isə ədədin sadə vuruqlara ayrılmasının praktik tətbiqlərini nəzərdən keçirək.

Verilmiş hər hansı ədədi sadə vuruqların hasili şəklində göstərmək üçün məcburi deyil ki, ardıcıl sürətdə sadə vuruqlar tapılsın, şagird ədədi ixtiyari iki vuruğun hasili şəklində göstərə bilər və alınan vuruqları sadə ədədlərin hasili şəklində göstərmək şətinlik yaratmır.Məsələn,

$240=24\cdot10=6\cdot4\cdot2\cdot5=2\cdot3\cdot2\cdot2\cdot2\cdot5=2^4\cdot3\cdot5$

Göründüyü kimi,şagird bölünə əlamətlərindən deyil, ümumi riyazi hazırlıqdan istifadə etməklə verilmiş ədədi sadə vuruqlarına ayırır.

Elə ədədlər var ki, dərslikdəki sadə ədədlər cədvəlində yoxdur, ya da cədvəl yoxdur. Həmin sadə və ya mürəkkəb oldugunu bilmək üçün iki üsuldan istifadə etmək olar.

Ədədin son rəqəmi 1, 3, 7, 9 ilə qurtara bilər Əlbəttə bu zəruridir, amma kafi deyil, yəni bütün sadə ədədlərin son rəqəmi həmin dörd rəqəmdən biri olmalıdır lakin elə ədədlər var ki, son rəqəmi həmin dörd rəqəmdən biri olub, lakin sadə deyil.

Məlumdur ki, şagirdlər bölən, bölünən və qismət anlayışlarını hələ ibtidai siniflərdən bilirlər. Həmin anlayışlar bir cüt ədəd ilə bağlı idi. Burada isə "bölən", "bölünən" anlayışları ədədlər ədədlər çoxluğunda nəzərdən keçirilir və müqayisə edilir. Yəni verilən ədəd dəyişmir, onun bölənləri və ya bölünənləri çoxluğu nəzərdən keçirilir.

Məsələn,

12-nin bölənləri: 1,2, 3, 4, 6, 12

12-nin bölünənləri: 12, 24, 36, 48,....

Alınan ədədlər sıralarını müqayisə etməklə, aşağıdakı nəticələrə gələ bilərik:

1. ədədin bölənləri sayı sonlu olub, ən kiçiyi 1, ən böyüyü isə həmin ədədin özüdür;

2. ədədin bölənləri sayı sonsuz olub, ən kiçiyi həmin ədədin özü, ən böyüyü isə yoxdur.

Deməli, ədədin özü həm özünün ən böyük böləni və həmdə ən kiçik bölünənidir.

Bundan sonra iki müxtəlif ədəd götürülür və onların bütün bölənləri yazılır.

Məsələn,

24-bölənləri- 1, 2, 3, 4, 6, 8, 12, 24

68-bölənləri- 1, 2, 4, 17, 34, 68.

Aldığımız ədədlər ardıcıllığında ortaq olan ədədləri qeyd edək. 24 və 68 ədədlərinin ortaq bölənləri 1,2, 4-dür. Bubölənlər içərisindəən böyüyü 4-dür. Deməli. 24 və 68 ədədlərinin ən böyük ortaq böləni 4-dür.24 və 68-i 4-ə bölüb, qismətləri müqayisə edirik:

24:4=6

68:4=17

Müəyyən edirik ki, verilmiş ədədləri onların ən böyük ortaq böləninə bölükdə, alınan qismətlər qarşılıqlı sadə ədədlərdir.

$$a:d=\begin{cases} a:d=a \\ b:d=b \end{cases}1$$

burada d - ən böyük ortaq böləndir.

ƏBOB(a1, b1)=1. Yəni a1,b1 ədədləri sadə ədədlərdir.

Bölmə nəticəsində alınan qalıqların hər ikisi sadə və ya biri sadə ola bilər və ya heç biri sadə ola bilməz. "Qarşılıqlı sadə " ifadəsi- onların ən böyük orrtaq böləninin 1- olduğuna görə işlədilir.

Iki natural ədədin ən böyük ortaq bölənini nə üçün tapırıq?

Bu suala cavab verməklə, şagirdlər öyrəndikləri anlayışların nə qədər lazımlı olduğunu dərk edir.

Belə bir məsələ təqdim etmək olar: VI sinif şagirdləri Zəfər günü və qələbə günü münasibəti ilə 87 şar və 58 Azərbaycan bayrağı hazırladılar. Buhədiyyələri III sinifin şagirdlərinə bərabər payladdılar. III sinifdə neçə nəfər şagird var idi?"

Məsələ standart olmayan məsələdir və şagirdlər hansı əməllə və hansı nöqtədən başlamağa çətinlik çəkirlər.Müəllimə göstəriş verir ki, əgəgr 87 şar şagirdlərə bərabər paylanıbsa,

deməli 87 ədədi şagirdlərin sayına bölünür. Deməli 87 və 58-in ortaq böləni olan ədədə bərabərdir.Onda 87 və 58-in bölənlərin tapmalıyıq.

87--------1, 3, 29, 87

58--------1, 2, 29, 58

Hər iki ədədin ortaq böləni 1 və 29- dur. Aydındır ki, sinifdə 29 şagird var.

87 və 58 ədədlərinin ƏBOB-unu tapaq

ƏBOB (87,58)=29

Cavab: 29 şagird. Hər şagirdə 3şar və 2 bayraq çatdı.

Tərif: 1. a və b natural ədədlərinin hər birinə bölünən ədədə həmin ədədlərin ortaq bölünəni deyilir.

Tərif: 2. a və b natural ədədlərinin hər birinə bölünən ən kiçik ədədə , həmin ədədlərin ən kiçik ortaq bölünəni deyilir və ƏKOB(a,b) kimi işarə edilir.

18 və 24 ədədlərinin ƏKOB-nu tapaq:

$18=3^2\cdot2$

$24=3\cdot2^3$

$ƏKOB(18, 24)=3^2\cdot2^3=72$

Burada iştirak edən vuruqlardan qüvvət üstü şox olanları götürürük. Həqiqətən, 3^2 ədədi 3-ə bölünür, ancaq 3 ədədi 32-na bölünmür. Ona görədə 3^2-ni və 2^3-ü götürüb onların hasili hesablayırıq: 72.

ƏKOB-un tərifindən aşkardır ki, verilmiş ədədlərin qalan ortaq bölünənlərini asanlıqla tapmaq olarş Məsələn, ƏKOB(18,24)=72 olduğundan, ortaq bölünənlər 144, 216, 288..... olacaqdır.Ortaq bölünənlərin hər biri ƏKOB-a bölünür.

ƏKOB-un tapılması üsulları:

1. Sadə vuruqlarına ayırma üsulu. Bu zaman hər iki ədədin sadə vuruqlarından ortaq olanlar ən böyük üstü ilə götürülür. Əgər verilən ədədlər qarşılıqlı sadədirsə , yəni ƏBOB(a,b)=1 isə onda ƏKOB(a,b)=a·b olacaqdır.

2. ƏBOB-la ƏKOB arasındakı əlaqə düsturundan istifadə etməklə.

Bu zaman a,b ədədləri və onların ƏBOB-u məlum olduqda, vuruqları ayırmadan istifadə etmədən, ƏKOB-u tapmaq olar.

ƏKOB(a,b)·ƏBOB(a,b)=a·b

Bu bərabərliyin doğruluğunu konkret ədəd üzərində götürək.

ƏKOB(28,94)=

Həlli: $28=2^2\cdot7$

$94=2\cdot47$

ƏBOB(28,94)=2

$ƏKOB(28,94)=2^2\cdot7\cdot47|$

$28\cdot94=(2^2\cdot7\cdot47)\cdot2=$ƏKOB(28,94)·ƏBOB(a,b)

Beləliklə ümümi şəkildə bərabərliyin xüsusi halını aldıq. Ədədlərin xüsusi həllinə çoxlu standart olmayan məsələlərin həllini vermək olar. Bu məsələlər həm həyati həmdə praktik məsələlərdir.

V-VI siniflərin riyaziyyat kursunda "Ədədlərin bölünmə qabiliyyəti "mövzusuna daxil olan riyazi anlayışlar kursun sonrakı bölmələrində, yuxarı siniflərin riyaziyyat kursunda və həyatda böyük tətbiqi əhəmiyyətə malikdir. Bu bölməyə aid, lakin onun məzmununa daxil edilməyən çoxlu tətbiqi xarakterli və şagirdlər üçün biliklər vardır.

Bölünmə əlamətləri(say sistemi əsasından asılı olmayan)

1.7-yə, 11-ə, 13-ə, bölünmə əlamətləri,

2.Qarşılıqlı sadə ədədlərin hasilinə bölünmə əlamətləri,

3.Sadə ədədlərin sonsuzluğu haqqında teorem,

4.Verilən natural sıra parçası ədədləri hasilinin sadə vuruqlara ayrılması,

5.ƏBOB ƏKOB-un tətbiqilə həll olunan məsələlər,

6.Eyni qalıqlı ədədlər və bölünmə əlamətləri.

VI sinifdə "Ədədlərin bölünmə qabiliyyəti" mövzusunu aşağıdakı məzmunda tədris etmək daha yaxşıdır.

Sadə və mürəkkəb ədədlər

4-ə, 8-ə, 11-ə, 25-ə, 50-ə bölünmə əlamətləri;

Ədədlərin sadə vuruqlara ayrılması;

Hər hansı natural ədədin sadə vuruqların hasili şəklində göstərilməsi (hesabın əsas teoremi)

İki və daha çox ədəddin ortaq bölənləri və tapılması üsulları. Ən böyük ortaq bölən. Qarşılıqlı sadə ədədlər;

İki və daha çox ədəddin ortaq bölünənləri və tapılması üsulları;

Verilmiş ədədlərin ƏBOB və ƏKOB-nun müqayisəsi;

ƏBOB və ƏKOB arasında əlaqə düsturu;

ƏBOB və ƏKOB-un tətbiqi ilə məsələlər həlli.

Yuxarıda göstərilən ardıcıllıqla mövzuların tədrisinə dair göstərişlər verək:

1. Sadə və mürəkkəb ədədlər haqqında V sinifdə verilən məlumata əsaslanaraq,

a) 4-ə və 25-ə

b) 8-ə və 125-ə

c) 11-ə

d) 6, 12, 15 və s. kimi mürəkkəb ədədlərə bölünmə əlamətlərinin elmi əsasları konkret ədədlər üzərində aşkar edilir.Bu zaman verilmiş natural ədədin kanonik şəkildə göstərilişindən istifadə olunur.

1. 4-ə və 25-ə bölünmə əlaməti

abcd ədədini kanonik şəkildə yazaq:

$abcd=a\cdot10^3+b\cdot10^2+c\cdot10+d=10^2(a\cdot10+b)+(c\cdot10+d)$

Verilmiş ədədi iki toplanan cəmi şəklində göstərdik. I toplanan 5-ə və 25-ə bölünür , çünki 100:4 və 100:25

Verilmiş ədədin 4-ə (25-ə) bölünməsi üçün ikinci toplanan da (c·10+d) 4-ə

(25-ə) bölünməlidir.

Deməli, verilən ədədin 4-ə (25-ə) bölünməsi üçün onun son iki rəqəminin ifadə etdiyi ədəd 4-ə (25-ə) bölünməlidir. Məsələn 2816 ədədi 4-ə bölünür, çünki 16 ədədi 4-ə bölünür.

Verilmiş ədədin 25-ə bölünməsi üçün onun son ikirəqəmli ədədi 00, 25, 50, 75, şəklində olmalıdır.

2.8-ə və 125-ə bölünmə əlamətləri ədədin son üç rəqəminin ifadə etdiyi ədədlə əlaqədardır;

3.11-ə bölünmə əlamətinin isbatsız şərhi konkret ədədlər üzərində vermək olar.

10=11·1-1

102=112·9+1

103=11·91-1

10-nun qüvvətlərinin qiymətlərini ədədin kanonik yazılışında nəzərə aldıqda, aşağıdakı əlamət alınır:

Verilmiş ədədin cüt yerdə duran mərtəbə rəqəmləri cəmindən tək yerdə duran mərtəbə rəqəmləri cəmini çıxsaq, alınan fərq 11-ə bölünürsə, deməli, verilən ədəd 11-ə bölünür.

VI-cı sinifdə "Ədədlərin bölünmə əlamətləri" mövzusunun məzmununa daxil olan əsas məsələləri konkret şəkildə nəzərdən keçirdik və təlimdə differensiasiya tətbiq etməklə, bölünmə əlamətlərindən bəzilərinin sadə şəkildə isbatlarını verdik.

Məktəb təcrübəsi göstərir ki, V-VI siniflərin şagirdləri bu mövzu ilə bağlı məsələlərin həllinə çox böyük maraq göstərirlər, çünki ədədlər nəzəriyyəsi elementləri öz təbiətinə görə şagirdləri evristik fəaliyyətə cəlb etmək xüsusiyyətinə malikdir.

Ədəbiyyat

1. Mərdamov M.S. və b. Riyaziyyat-6, – Bakı: Çaşıoğlu, – 2003. – 334 s.
2. Yaqubov M.H. və b. Riyaziyyat-5, – Bakı: Çaşıoğlu, – 2006. – 272 s.
3. Гусев В.А. и др.Внеклассная и равота по математикае в 6-8 классах. – М.: Просв, – 1977. – 288 с.
4. Пойа Д., Математическое открытие, – М.: Наука, – 1970. – 452 с.
5. Кузнецова Л.В. и др. Об учебниках по математике V-VI классов «МШ» (ж), – М.: – 2002. №5, – с. 11-17.

Məqalə riyaziyyat üzrə elmlər doktoru, dosent Yaqub Məmmədov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 06.01.2022, son daxilolma –16.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 106-111
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 106-111
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.106-111

UOT 372.853

Adiobatik prosesin yeni informasiya texnologiyaları vasitəsilə tədris edilməsinə dair

Müəllif:

Seyfəddin Cəfərov
Naxçıvan Dövlət Universiteti
E-mail: cafarovs@gmail.com

Açar sözlər:
fizika, termodinamika, molekul, adiobatik, istilik tutumu, daxili enerji

Annotasiya. Məqalədə laboratoriya və praktikumların yerinə yetirilməsində kompüterin tətbiqi zamanı müəllim və şagirdlərin iş sistemi, laboratoriya işlərinin yerinə yetirilməsi imkanları, həmçinin elektron dərsliklərlə keçirilən laboratoriya işlərində fərdiləşmə, fərdi yanaşmanı, daha doğrusu, prosesin tam intensivləşdirilməsini təmin etməsi məsələləri geniş şərh edilmişdir. Son vaxtlar kompyuterdən bir sıra fiziki cihazların, məsələn, osilloqraf, səs generatoru və ölçü cihazları (indikator), maddənin kristal quruluşunun diaqnostikası funksiyalarını yerinə yetirən qurğu kimi istifadə olunması haqqında da məlumat verilir. Təqdim olunan məqalədə isə adiobatik proses mövzusunu praktik olaraq tədris edilməsidir. Qeyd olunur ki, molekulyar-kinetik nəzəriyyə makroskopik cisimlərin xassələrini və onlarda baş verən istilik hadisələrini molekulların hərəkəti və qarşılıqlı təsiri əsasında öyrənir. Lakin makroskopik cisimlər elə xassələrə də malikdir ki, onları maddənin molekulyar quruluşunu nəzərə almadan da öyrənmək olur.

On teaching adiobatic process through new informatization technology

Author:

Seyfaddin Jafarov
Nakchivan State University
E-mail: cafarovs@gmail.com

Key word:
physics, thermodynamics, molecule, adiobatic, heat capacity, internal energy

Abstract. In the article, the system of work of teachers and students during the application of computer in the implementation of laboratories and practices, the possibilities of performing laboratory works, as well as the issues of individualization, individual approach, or rather, ensuring full intensification of the process in laboratory works conducted with electronic textbooks are widely commented. Recently, the computer has been used as a device that performs the functions of a number of physical devices, for example, oscillograph, sound generator and measuring devices (indicator), diagnostics of the crystal structure of the substance. In the article presented, however, the topic of the adiobatic process is practically taught. It is noted that molecular-kinetic theory studies the properties of macroscopic bodies and thermal phenomena occurring in them on the basis of the movement and interaction of molecules. However, macroscopic bodies also have such properties that they can be studied even without taking into account the molecular structure of matter.

К преподаванию адиобатического процесса с помощью новых информационных технологий

Автор:

Сейфаддин Джафаров
Нахчыванский государственный университет
E-mail: cafarovs@gmail.com

Ключевые слова:
физика, термодинамика, молекула, адиобатика, теплоемкость, внутренняя энергия

Аннотация. В статье широко рассматриваются система работы учителя и учащихся при применении компьютера при выполнении лабораторных и практикумов, возможности выполнения лабораторных работ, а также вопросы персонализации в лабораторных работах с электронными учебниками, обеспечивающие индивидуальный подход, а точнее, полную интенсификацию процесса. В последнее время также сообщается об использовании компьютера в качестве ряда физических устройств, например, осциллографа, звукового генератора и измерительных приборов (индикаторов), устройств, выполняющих функции диагностики кристаллической структуры вещества. В представленной статье констатируется практический аспект изучение адиобатического процесса. Отмечается, что молекулярно-кинетическая теория изучает свойства макроскопических тел и происходящие в них тепловые явления на основе движения и взаимодействия молекул. Но макроскопические тела обладают и такими свойствами, что их можно изучать даже без учета молекулярной структуры вещества.

Termodinamika və Molekulyar Fizika", "Adiabatik Proses" seçin. Daxili pəncərədə səhifənin şəkli olan düyməni basın.. Nəzəriyyəni [Savelyev, cild 1, §82.97] kitabın-dan.oxuyun və laboratoriya dəftərində qeydlərinizə yazın. Daxili pəncərənin yuxarı sağ küncündə xaç işarəsi olan düyməni sıxaraq nəzəriyyə pəncərəsini bağlayın

Bilirsiniz ki, molekulyar-kinetik nəzəriyyə makroskopik cisimlərin xassələrini və onlarda baş verən istilik hadisələrini molekulların hərəkəti və qarşılıqlı təsiri əsasında öyrənir. Lakin makroskopik cisimlər elə xassələrə də malikdir ki, onları maddənin molekulyar quruluşunu nəzərə almadan da öyrənmək olur.

Fizikanın, maddənin molekulyar quruluşunu nəzərə almadan makroskopik cisimlərin ən ümumi istilik xassələrini öyrənən bölməsi termodinanıika adlanır. Termodinamik araşdırmalar əsasında təcrübi yolla tapılan və termodinamik qanunlar adlanan bir neçə müddəa durur. Bu müddəalar bütün makroskopik cisimlər üçün doğrudur. Termodinamikanın tədqiqat obyekti termodinamik sistemdir.

İstənilən makroskopik cisim və ya cisimlər sistemi termodinamik sistem adlanır.

Termodinamik sistemin halı makroskopik və ya termodinamik parametrlər adlanan fiziki kəmiyyətlərlə xarakterizə olunur. Həcm, təzyiq, temperatur, kütlə və s. belə parametrlərdir.

Sistemin verilmiş andakı halı ilə və ya həmin ana uyğun sistemin məxsusi parametrləri ilə təyin olunan kəmiyyətlər hal funksiyası adlanır. Belə kəmiyyətlərdən biri daxili enerjidir. Makroskopik cisimlərin daxili enerjisi termodinamik tədqiqatlarda mühüm rol oynayır. Bu, təbiətin fundamental qanunu - enerjinin saxlanma qanununun mövcud olması ilə əlaqədardır.

Daxili enerji – cismi təşkil edən zərrəciklərin hərəkət və qarşılıqlı təsir enerjisidir.

Daxili enerji 9.1-ci cədvəldə göstərilmiş tərkib hissələrdən ibarətdir.

1. Zərrəciklərin xaotik istilik hərəkətinin kinetik enerjisinə onların irəliləmə və fırlanma hərəkətlərinin enerjisi daxildir (Cədvəl 1.)

2. Zərrəciklərin xaotik hərəkətinin kinetik enerjisi qeyd edilən hərəkətlərə uygun kinetik enerjilərin cəmindən ibarətdir. Cismi qızdırdıqda onun zərrəciklərinin kinetik enerjisi və deməli, daxili enerjisi artır.

3. Zərrəciklərin qarşılıqlı təsiri ilə müəyyən olunan potensial enerji elektrostatik təbiətli olub, zərrəciklərarası məsafədən və həcmdən asılıdır. Həcmin dəyişməsi nəticəsində molekullararası məsafə və qarşılıqlı təsirin potensial enerjisi dəyişir.

4. Zərrəcik, digər zərrəciklərin yaratdığı sahədə müəyyən tarazlıq vəziyyəti ətrafında, rəqsi hərəkət edir. Məsələn, bir atomdan təşkil edilmiş maddələrdə atomlar kristalın (digər atomların) sahəsində rəqsi hərəkət edir. Bu hərəkətə uyğun kinetik və potensial enerji daxili enerjinin müəyyən hissəsini təşkil edir.

Cədvəl 1.

	2	3	4	5	6	7
Zərrəciklərin xaotik istilik hərəkətinin kinetik enerjisi	Zərrəciklərin qarşılıqlı təsiri ilə müəyyən olunan potensial enerji	Atom və molekulların rəqsi hərəkətinin kinetik və potensial enerjisi	Molekul - daxili qarşılıqlı təsir enerjisi (kimyəvi enerji)	Atom və ionların elektron örtüyündəki elektronların enerjisi	Nüvə - daxili enerji	Zərrəciklərin qravitasiya qarşılıqlı təsirinin potensial enerjisi

4. Kimyəvi reaksiyalarda molekulların yenidən qruplaşması baş verir. Bu zaman molekulun daxilindəki atomların qarşılıqlı təsir enerjisi (kimyəvi enerji) - cismin daxili enerjisi dəyişir.

5. Atom və ionların elektron örtüyünün enerjisi dedikdə, elektronların kinetik enerjisi ilə onların bir-biri ilə və nüvələrlə qarşılıqlı təsirinin potensial enerjisinin cəmi başa düşülür.

Temperaturun dəyişməsi və deformasiya bu enerjinin hissediləcək qədər dəyişməsinə səbəb olmur. Lakin kimyəvi reaksiyalar atom və ionların elektron örtüyünün yenidən qurulmasına və enerjisinin dəyişməsinə səbəb olur.

6. Nüvə zərrəcikləri arasında güclü qarşılıqlı təsir qüvvələri mövcuddur. Bu səbəbdən nüvə enerjisi cismin daxili enerjisini təşkil edən digər enerjilərdən qat-qat çoxdur (milyon, hətta milyard dəfələrlə).

7. Zərrəciklərin qravitasiya qarşılıqlı təsiri çox-çox kiçik olduğundan, ona uyğun potensial enerjini nəzərə almamaq olar.

Bundan sonra yalnız zərrəciklərin qarşılıqlı təsiri və müxtəlif növ hərəkətləri ilə bağlı daxili enerjiyə baxılacaqdır.

Termodinamik sistemin daxili enerjisi onun halını müəyyən edən temperatur və həcmin funksiyasıdır: U (T, V).

Heç olmasa bir makroskopik parametrin dəyişməsi ilə termodinamik sistemdə baş verən istənilən dəyisiklik temodinamik proses adlanır.

Termodinamik prosesin xarakteri makroskopik parametrlərin necə dəyişməsindən asılıdır. Sistem bir haldan digər hala keçdikdə isə, daxili enerjinin dəyişməsi yalnız sistemin ilk və son hah ilə təyin olunur və bu halın dəyişmə prosesinin formasından asılı deyildir. Daxili enerji prosesin deyil, halın funksiyasıdır.

$$\Delta U = U_2 - U_1 \qquad (1)$$

Qeyd edildiyi kimi, daxili enerji sistemin hal funksiyasıdır. Sistemin halı dəyişəndə daxili enerji də dəyişir. Termodinamik sistem bir haldan başqa ha-la keçəndə daxili enerjisinin dəyişməsi onun son və başlanğıc hallarındakı daxili enerjiləri fərqinə bərabərdir:

$$\Delta U = U_2 - U_1 \qquad (2)$$

VIII sinfin «Fizika» dərsliyindən məlumdur ki, sistemin daxili enerjisini iki üsulla dəyişmək olar: işgörmə və istilikvermə (istilik mübadiləsi) yolu ilə.

9.2-ci cədvəldə daxili enerjinin dəyişmə üsulları və həmin üsulların müxtəlif növləri verilmişdir.

İşgörmə vasitəsilə daxili enerjinin dəyişməsinə aid bir neçə təcrübəyə baxaq.

Təcrübə 1. Sürtünməyə qarşı iş görməklə daxili enerjinin dəyişməsi.

Nazik divarlı bürünc boru universal ştativin dayağma bərkidilir. Borunun içərisinə 3-4 sm^3 efir tökülür və ağzı tıxacla kip qapanır. Möhkəm qaytanı borunun ətrafına bir dəfə dolayaq, onun hər iki ucundan 9.1-ci şəkildəki kimi tutub gah bir, gah da digər tərəfə hərəkətə gətirək.



Şəkil 1.

Müəyyən vaxtdan sonra daxili enerjisi kifayət qədər artan efir qaynayır. Əmələ gələn buxar tıxacı borunun ağzından kənara atır. İş görməklə daxili enerjinin artmasını əlləri bir-birinə sürtməklə də hiss edə bilərsiniz. Bu zaman əllər isinəcəkdir. Qədim insanlar od əldə etmək üçün quru ağac parçalarını bir-birinə sürtürdülər.

Təcrübə 2. Deformasiya zamanı daxili enerjinin dəyişməsi. Çox da sərt olmayan dəmir məftili eyni yerdən bir neçə dəfə o tərəf - bu tərəfə əyin. Bir azdan məftilin qızdığını hiss edəcəksiniz.

Təcrübə 3. Zərbə ilə daxili enerjinin dəyişməsi.

Kiçik zindan üzərinə ikiqatlanmış qurğuşun lövhə qoyulur. İstilik izolyasıyası üçün, yəni zindanla qurğuşun arasında istilik mübadiləsinin olmaması üçün zindan kartonla örtülür. Qurğuşuna çəkiclə bir neçə zərbə vurduqdan dərhal sonra, o (qurğuşun) mikromanometrin istilik qəbuledicisinin qara səthinin üzərinə qoyulur (şəkil 1). Mikromanometrin əqrəbi temperaturun yüksəlməsini aşkara çıxararaq, nəzərə çarpacaq dərəcədə yerini dəyişir.

Yuxarıdakı misallardan görünür ki, cisim üzərində iş görüləndə onun daxili enerjisi artır. Cisim (məsələn, qaz) özü iş görərsə, onun daxili enerjisi azalar. Bu hala qazlar üzərində gedən adiabat prosesə aid bölmədə baxılacaqdır.

Daxili enerjinin istilikvermə vasitəsilə dəyişməsinin müxtəlif növləri haqqında ətraflı məlumatınız var . Burada biz daxili enerjinin bu üsulla dəyişməsinə aid bir təcrübi misalla kifayətlənəcəyik.

Təcrübə 4. 2-cü şəkildə göstərilmiş sadə qurğu yığılır. Təcrübə 1-də istifadə olunan metal boruya 3-4 sm^3 su tökülür və ağzı rezin və ya parafinləşdirilmiş taxta tıxacla möhkəm bağlanır. Boru ştativə maili vəziyyətdə elə bərkidilir ki, ondakı su borunun yan divarı boyunca yerləşsin (yaxşı qızması üçün). Boru spirt lampası vasitəsilə qızdırılır. Müəyyən vaxtdan sonra borudakı su qaynayacaqdır. Bu zaman əmələ gələn buxarm təzyiqi kəskin artdığından tıxac xarakterik fışıltıyla kənara atılır. Təcrübədən görünür ki, daxili enerji mexaniki iş görmədən, təkcə istilikvermə vasitəsilə dəyişə bilər



Şəkil 2.

İŞİN MƏQSƏDİ:1. Kompüter modeli ilə İdeal qaz üçün adiabatik prosesi öyrənmək.

2. Adiabatik prosesin qanunauyğunluqlarının eksperimental təsdiqi

3. Bu modelin köməyilə sərbəstlik dərəcələrinin sayının və qaz molekullarının quruluşunun eksperimental təyini.

Məlumdur ki , İdeal qazın üçün Mendeleyev-Klapeyron tənliyi

. $$.PV = \frac{m}{\mu}RT \qquad (3)$$

Ifadəsidi.

Cismin istilik tutumu isə ədədi olaraq cismə verilən d'Q istilik miqdarının bu vəziyyətdə baş verən b cismin istiliyindəki dT dəyişməsinə nisbətinə bərabərdir,yəni

$$C_{cisim} = \frac{dQ}{dT} \qquad (4)$$

Cismin həcmini dəyişirsə, o zaman iş görmür, buna görə də cismin sabit həcmi ilə cismə ötürülən istilik dQ ' daxili enerjisini dəyişdirməyə sərf olunur dU.onda sabit həcmdə istilik tutumu. $C_V = \left(\frac{dQ'}{dT}\right)_V = \frac{dU}{dT}.$ (5)

İdeal qaz üçün Molekulları i sərbəstlik dərəcələrinə görə sabit təzyiqdə istilik tutumu

$$C_P = \left(\frac{dQ}{dT}\right)_P = \frac{dU}{dT} + P\left(\frac{dV}{dT}\right)_P = \frac{i}{2}\frac{m}{\mu}R + \frac{i+2}{2}\frac{m}{\mu}R \qquad (6).$$

$\frac{C_P}{C_V} = \gamma$ İdeal qaz üçün sabitdir. Bu sabit adiabatik dərəcə adlanır

QAz molekullarilə sərbəstlik dərəcəsi arasında əlaqə $\gamma = 1 + \frac{2}{i}$ (7) Sərbəstlik dərəcəsinin sayı adi hal üçün üçə bərabərdir.Molekulların fırlanma hərəkətinə görə 2-yə bərabərdir.Rəqsi hərəkət üçün iki atomlu Molekuşşar üçün

Adiabatik tənlik

$PV^{\gamma} = const$ (8).

Adiabatik proses üçündür.

Ğlçmə metodikası, ADIABATİK xarici mühitlə istilik mübadiləsi olmadan baş verən prosesdir (d'Q = 0). Adiabatik tənlik

$PV^{\gamma} = const$ (9).

İzotermik, izobar və izoxorik prosesləri ayırmaq olar.

İşin gedişi;

Şəkildə , adiabatik prosesin həyata keçirildiyi elementin diqqətlə araşdırın , onun istilik tutumuna diqqət yetirin. İstilik tutumunun vəziyyətinin riyazi düsturunu tapın. Şəklin sağ tərəfindəki qrafiklərə baxın. Laboratoriya dəftərinizə qrafiki qeyd edin Ölçmə a **ÖLMƏLƏR:**Həcmin başlanğıc qiymətini $V_{BAŞ.} = 40$ дм^3 götürək, T_1 başlanğıc temperaturunun cədvəl – 1 –dəki qiymətə yaxın götürək. Bunun üçün "SEÇ" düyməsini sıxın, mausu elə hərəkət etdirin ki, onun ucu termometrdə sütunun sərhəddinə yaxın müəyyən edilmiş nöqtədə olsun və mausun sol düyməsini qısa müddətə basıb saxlayın və sütunu hərəkət etdirin. Ekranda "START" düyməsini basın və modelin sol şəklindəki pistonun hərəkətini və adiyabatın qırmızı əyrisi boyunca nöqtənin hərəkətini müşahidə edin. STOP düyməsini basaraq prosesi dayandırmağa çalışın. Prosesin sonrakı başlanğıcı "START" düyməsini basmaqla həyata keçirilir. Prosesin avtomatik dayandırılmasından sonra adiabatda (qırmızı əyri) çarpaz çubuq aşağıdakı həcm dəyərlərinə yaxın olduqda "START" düyməsini sıxmaqla onu yenidən başladın və "STOP" düyməsini basaraq dayandırın:Həcmi 15 , 20, 25, 30, 35 və 40 dm3 6 qiymətdə təkrar edin. Həcm, temperatur və təzyiq qiymətlərini cədvəl 2-də yazmaqla. T_2 temperaturunun yeni qiymətini təyin edin,Cədvəl-1 bu temperturları götürün.Hesablamanı bir neçə dəfə təkrar edin və nəticələri cədvəl -3 -ə yazın



Şəkil 10.

Cədvəl 2. İlkin temperatur

Dəstə	1	2	3	4	5	6	7	8
T_1	50	70	100	120	140	170	200	220
T_2	230	240	250	260	270	280	290	300

Cədvəl 3. Ölçmə nəticələri

T[K]						
V[dm^3]						
p[кПа]						

NƏTİCƏLƏRİN YOXLANMASI VƏ HESABATI

Təzyiq loqarifminin hər iki adiabat üçün həcmin loqarifmindən eksperimental asılılıqlarının qrafiklərini bir şəkildə tərtib edin (ilkin temperaturları göstərən).

Hər bir adiabat üçün düsturdan istifadə edərək eksponentin eksperimental qiymətini tərtib edin.Bu kompüter modelində öyrənilən qaz molekulunun sərbəstlik dərəcələrinin sayını

$$\gamma = -\frac{\Delta(\ln p)}{\Delta(\ln V)}$$. (10) düsturundan istifadə edərək müəyyən edin.

Müşahidə olunana yaxın molekulyar quruluşa malik ümumi qazı seçin

Ədəbiyyat

1. Murquzov M.İ., Abdurazaqov R.R., Yeni nəsil multimedia dərsliyi, Elektrodinamika .III hissə, – Bakı: Bakınəşr, – 2007.
2.Сивергин М. Ю. – Телевизионные образовательные технологии. Ж-л“Дистанционное образование”. – 2001.
3. Белянин М. Д. – Успехи и проблемы ИКТ – индустрии. Ж-л “Сети и связь”, №3, – 2004 – с.10
4.Cəfərov S.A., Hacıyeva B.X. Fizikadan laboratoriya məşğələlərində yeni informasiya texnologiyalarından istifadə metodikasının ümumi məsələləri // – Naxçıvan: Elmi Əsərlər. Naxçıvan Müəllimlər İnstitu, – 2021. № 2(64), – s.109-113.
5. İsmayılov İ. Fizikanın tədrisində yeni informasiya texnilogiyalarından istifadə (Laboratoriya praktikumu). – Bakı: – 2008, – 170 s.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 19.01.2022, son daxilolma – 14.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 112-115
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 112-115
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.112-115

UOT 372.851+ 681.3

Məsələ həllinin modelləşdirilməsi və informasiya-kommunikasiya texnologiyaları

Müəllif:

Tofiq Məmmədov
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail:
tmammadov@gmail com

Açar sözlər:
innovativ təlim texnologiyaları, təlimin modelləşdirilməsi, məsələ həlli, İKT-dən istifadə, öyrənənlərin idrak fəaliyyəti, təlimin inkişafetdirici xüsusiyyətləri

Annotasiya. Məqalə riyazi məsələlərin həllinin modelləşdirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə imkanlarına həsr edilmişdir. Riyazi məsələlərin həlli onların növlər üzrə: a) sadə məsələlər, b) mürəkkəb məsələlər, c) tipik məsələlərə ayrılması istiqamətində aparılmışdır. Hazırkı tədqiqat işində mövzunun elmi yeniliyi və aktuallığı nəzərə alınmaqla riyazi məsələlərin modelləşdirilməsində İKT-dən istifadənin rolu və yeri əsaslandırılmış, tədqiqatın obyekti, məqsəd və vəzifələri, nəzəri və praktik əhəmiyyəti şərh edilmişdir. Məqalədə İKT-dən istifadə etməklə təlimin modelləşdirməsinin şagirdlərin idrak fəaliyyətinin inkişaf etdirməsi qeyd edilməklə yanaşı, həm də öyrədici komputer proqramlarının köməyi ilə təlimin səmərəliliyinin artırılması və keyfiyyətinin yüksəldilməsinin nəzəri və praktik əhəmiyyəti geniş şərh edilmişdir. Bu istiqamətdə qabaqcıl dünya təcrübəsi, xüsusilə Sinqapur təhsil sisteminində innovativ təlim texnologiyalarının tətbiqi məsələlərindən örnək kimi istifadə məsələləri işıqlandırılmışdır.

Problem solving modeling and information and communication technologies

Author:

Tofig Mammadov
Nakhchivan Teachers Institute
Doctor of philosophy in pedagogy, associate professor
E-mail:
tmammadov@gmail com

Key word:
innovative learning technologies, training modeling, problem solving, ICT use, cognitive activity of learners, developmental features of training

Abstract. The article is devoted to the possibility of using information and communication technologies in modeling the solution of mathematical problems. The solution of mathematical problems was carried out in the direction of their separation by Types: a) simple problems, b) complex problems, c) typical problems. In the present research work, taking into account the scientific novelty and relevance of the topic, the role and place of using ICT in modeling mathematical problems is substantiated, the object, goals and objectives of the study, its theoretical and practical significance are interpreted. The article highlights the development of cognitive activity of students in learning modeling using ICT, as well as the theoretical and practical importance of increasing the efficiency and improving the quality of training with the help of educational computer programs. The issues of using advanced world experience in this direction, especially the application of innovative learning technologies in the Singapore education system, as an example were highlighted.

Моделирование решения математических задач и ИКТ

Автор:

Тофиг Мамедов
Нахчыванский институт учителей
Доктор философии по педагогике, доцент
E-mail:
tmammadov@gmail com

Ключевые слова:
инновационные технологии обучения, моделирование обучения, решение проблем, использование ИКТ, познавательная деятельность учащихся, развивающие свойства обучения

Аннотация. Статья посвящена возможности использования информационно-коммуникационных технологий в моделировании решения математических задач. Решение математических задач осуществлялось в направлении их разделения по видам: а) простые задачи, б) сложные задачи, в) типичные задачи. В настоящей исследовательской работе обоснована роль и место использования ИКТ в моделировании математических задач с учетом научной новизны и актуальности темы, прокомментированы объект, цели и задачи исследования, его теоретическое и практическое значение. В статье не только отмечается, что моделирование обучения с использованием ИКТ способствует когнитивной активности учащихся, но и широко комментируется теоретическое и практическое значение повышения эффективности и повышения качества обучения с помощью обучающих компьютерных программ. В этом направлении освещены вопросы использования передового мирового опыта в качестве примера, в частности, вопросы внедрения инновационных технологий обучения в системе образования Сингапура.

Riyaziyyat təliminin müvəffiqiyyəti xeyli dərəcədə şagirdlərin məsələ həll etmə bacarığı ilə müəyyən edilir [1].

Məsələnin qoyuluşundan (şərtindən) asılı olaraq şagirdlər onu müxtəlif üsullarla həll edə bilər. Həll üsullarına görə məsələləri qruplaşdırmaq olar. Bu qruplardan bir neçəsinin adları aşağıda verilmişdir.

1. Məsələni nizamlı ardıcıllıq qurmaqla həll et.
2. Fikrində hesabla sonar həll et.
3. Cavab dəqiq olmalıdır, yoxsa təxmini.
4. Məsələni model qurmaqla həll et.
5. Məsələnin həllində mümkün qədər İKT-dən istifadə et.
6. Əməlləri düzgün seç.
7. Məsələni məntiqi seçimlə həll et [3].

Kəmiyyətlərin verilmiş qiymətlərinə və onların arasındakı sözlərlə ifadə olunmuş asılığa görə kəmiyyətin məchul qiymətini tapmaq tələbinə hesab məsələsi deyilir "Məsələ həlli sərbəst təfəkkürün xarakterik və spesfik növlərindən biridir"(U.Ceyms). Adətən, məsələlər didaktik məqsədlərinə görə üç növə ayrılır:

1.İdrakı məsələlər-bu tip məsələlərin həlli prosesində şagirdlər yeni biliklər əldə edirlər və belə məsələlər vasitəsilə nəzəri materialların məzmunu açılır.

2.Məşqedici məsələər- bu tip məsələlərin həlli nəticəsində şagirdlər bacarıq və vərdişlər əldə edir, nəzəri materialın praktikaya tətbiqini əyani olaraq hiss edirlər.

3.İnkişafetdirici məsələlər- bu tip məsələlərin həlli nəticəsində şagirdlərin dünyagörüşü formalaşır və yaradıcı təfəkkürü inkişaf edir [4].

Məsələ həllinin modelləşdirilməsində İKT-dən istifadə etməklə bəzi nümunələrinə baxaq;

1. Tərəvəz dükanında gün ərzində hər birinin kütləsi eyno olan 6 yeşik xiyar, 8 yeşik pomidor satıldı. Satılan pomidorun kütləsi xiyarın kütləsin- dən 16 kq çox olarsa, gün ərzində satılan pomidor və xiyarın kütləsi ayrıq- da neçə kiloqram olar?

Məsələnin şərtinə uyğun tam-hissə modeli çəkilir.

Pomidor 2 yeşik çoxdur və bunların kütləsi birlikdə 16 kq-dır.

Blok-sxemdə bu kütlə qeyd olunur.



1)1yeşik pomidorun kütləsi: 16 kq:2=8 kq

2) 8 yeşik pomidorun kütləsi: 8x8=64 kq

3) 3 yeşik xiyarın kütləsi: 6x8=48 kq

2. Ayselin, Günelin və Vaqifin birlikdə 156 manat pulu var. Günelin pulu Ayselin pulundan 2 dəfə çox, Vaqifin pulu isə Ayselin pulundan 3 dəfə çoxdur. Onların hər birinin nə qədər pulu var?



Ən az pul Ayseldədir. Ayselin pulu 1 hissə, Günelin pulu 2 hissə Vaqifin pulu isə 3 hissə olacaq. Cəmi 6 hissə.

1)1 hissə pul, yəni Ayselin pulu 156:6=26 (manat)

2)Günelin pulu 26x2=52 (manat)

3)Vaqifin pulu 26x3=78 (manat)

3. . Gənc təbiətçilər 900 ağcaqayın, palıd və cökə agacı çubuğu əkib, böyütdülər. Ağcaqayın palıddan 2 dəfə, cökə agacları isə ağcaqayından 3 dəfə çox becərilmişdir. Ağcaqayın, ağacından neçə çubuq becərilmişdi?

Məsələnin şərtinə uyğun tam-hissə modeli çəkilir.



1) Cəmi ağaclar neçə pay təşkil edir? 2+1+6=9

2)Palıd ağaclarının sayı: 900:9=100

2)Ağcaqayın ağaclarının sayı: 100x2=200

3)Çökə ağaclarının sayı: 900-(100+200)=600

Cavab: 600

4.Qalay və qurğuşundan 300 q ağırlığında bir ərinti hazırlanmışdır. Ərintidə 1 pay qalay 5 pay qurğuşun vardır. Ərintidə neçə qram qalay və neçə qram qurğuşun bardır?



1)Ərinti neçə hissədir? 1+5=6 (hissə)

2) Qalay neçə qramdır? 300:6=150(q)

3)Qurğuşun neçə qramdır? 900-150=750q və y 150x5=750(q)

Məsələlərin həllində komputerin formula proqramından istifadə edilmişdir.

Tədqiqatın elmi yeniliyi. Riyazi məsələlərin həllinin modelləşdirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə təlimin səmərəliliyinin və keyfiyyətinin artırılmasında **yeni məzmunlu metodik sistem** müəyyən edilmişdir.

Nəticə

1. Riyazi məsələlərin həllinin modelləşdirilməsi təlimin əyaniliyini təmin edir.
2. İKT-dən istifadə tələn səmərəliliyini artırır.

3. Təlimdə İKT-nin tətbiqi vaxta qənaət edilməsini təmin edir..

4. Riyazi məsələlərin həllinin modelləşdirilməsində informasiya və kommuni kasiya texnologiyalarından istifadə təlimin əyanliyini təmin etməklə yanaşı, kompüter proqramlarının öyrənilməsinə şagirdlərə geniş imkanlar yaradır.

Ədəbiyyat

1. Məmmədov T.Ə. Riyaziyyatın tədrisi metodikası. – Naxçıvan: Əcəmi, – 2017, – s.75-98.
2. Adıgözəlov A., Əhmədov İ. İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi metodikası. Dərs vəsaiti. – Bakı: Mütərcim, – 2001. – s.137-174.
3. Qəhramanova N., Əsgərova C., Qurrbanova L., Rəhimova M. Riyaziyyat 3. Müəllimlər üçün metodik vəsait. – Bakı: Altun, – 2010. – s.10-11.
4. Əsədov M. Fizika, Riyaziyyat və İnformatika tədrisi məcmuəsi. – Bakı: – 2011. №3, – s.31-35.

Məqalə riyaziyyat üzrə elmlər doktoru, dosent Yaqub Məmmədov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 19.01.2022, son daxilolma – 14.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 116-120
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 116-120
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с. 116-120

UOT 372.851

Çoxhədlilər cəbrinin tədrisində didaktik prinsiplərə dair

Müəllif:

Nuray Səfərova
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: nurays@gmail.com

Açar sözlər:
çoxhədli, təlim, didaktik prinsiplər, elmlik, əyanilik

Annotasiya. Çoxhədlilər cəbri cəbr kursunun mühüm bölmələrindən biridir. Tələbələr çoxhədlilər, çoxhədlilər üzərində əməllər və bir sıra digər məsələlərlə məktəb riyaziyyatından, elementar riyaziyyat və riyazi analiz kurslarından tanışdırlar. Cəbr kursunda çoxhədlilər nəzəriyyəsinin elementlərinin öyrənilməsində məqsəd çoxhədli anlayışı və ona aid münasibətlərə ciddi riyazi baxış yaratmaqdan ibarətdir. Bunun nəticəsində çoxhədlilər cəbrinin təlimində bir sıra məsələlərin öyrənilməsi və tədqiq edilməsi aktual əhəmiyyət daşıyır. Təqdim olunan məqalədə çoxhədlilər cəbrinin təlimində riayət olunan didaktik prinsiplər diqqə yetirilmiş, həmin prinsiplərin əsas cəhətləri konkret şəkildə şərh edilmişdir. Qeyd edək ki, işdə birdəyişənli çoxhədlilər nəzəriyyəsinin elementləri nəzərdən keçirilmişdir. Konkret olaraq elmlik didaktik prinsipi, sistematiklik və ardıcıllıq prinsipi, əyanilik prinsipi şərh edilmişdir.

Author:

Nuray Safarova
Nakhchivan Teachers Institute
E-mail: nurays@gmail.com

Key word:
polynomial, teaching, didactic principles, science, nobility

On didactic principles in teaching polynomial algebra

Abstract. Polynomials algebra is one of the important sections of the algebra course. Students are familiar with polynomials, deeds on polynomials and a number of other issues from school mathematics, courses in elementary mathematics and mathematical analysis. The purpose of studying the elements of the theory of polynomials in the course of algebra is to create a strict mathematical view of the concept of polynomial and the relationships related to it. As a result of this, the study and study of a number of issues in the training of polynomial algebra is of actual importance.The presented article focuses on the didactic principles observed in the training of polynomial algebra, and concretely interprets the main aspects of these principles. It should be noted that the elements of the theory of one-variable polynomials were considered in the work. Specifically, the didactic principle of Science, the principle of systematicity and consistency, the principle of nobility were interpreted.

Автор:

Нурай Сафарова
Нахчыванский институт учителей
E-mail: nurays@gmail.com

Ключевые слова:
многочлены, обучение, дидактические принципы, принцип научности, принцип систематичности и последовательности, принцип наглядности

О дидактических принципах обучения алгебре многочленов

Аннотация. Алгебра многочленов – один из важных разделов курса алгебры. С многочленами, операциями над многочленами и рядом других задач студенты знакомы со школьной математики, с курсами элементарной математики и математического анализа. Цель изучения элементов теории многочленов в курсе алгебры состоит в том, чтобы создать строгий математический взгляд на понятие многочлена и связанные с ним отношения. В результате этого в обучении алгебре многочленов актуальным становится изучение и исследования ряда вопросов. В представленной статье были изложены дидактические принципы, которые соблюдаются при обучении алгебре многочленов, а также конкретизированы основные аспекты этих принципов. В работе рассмотрены элементы теории одномерных многочленов. В частности, интерпретируется дидактический принцип научности, принцип систематичности и последовательности, принцип наглядности.

*1.**Çoxhədlilər cəbrinin təlimində elmlik prinsipi.** "Çoxhədli"* anlayışı və çoxhədlilər üzərində aparılan əməllər, bu əməllərin müəyən xassələri ilə tələbələr orta məktəbdən tanışdırlar. Riyaziyyat ixtisaslarında tədris olunanan elementar cəbr kursunda çoxhədlilər nəzəriyyəsinə yenidən qayıdırlar. Məqsəd, çoxhədlilər nəzəriyyəsinin məlum nəticələrini əsaslandırılmış şəkildə öyrənmək və genişləndirməkdir. Lakin elementar cəbrdə öyrənilən çoxhədlilər cəbrinin elementar nəzəriyyəsi müasir cəbr elminin səviyyəsi ilə uzlaşmır. Ona görə "Cəbr" kursunda mücərrəd cəbr elementləri baza olmaqla çoxhədlilər nəzəriyyəsi ciddi şəkildə öyrənilir. Çoxhədlilər halqası təyin edilməklə birdəyişənli çoxhədliyə kommutativ halqanın sadə transendent genişlənməsinin elementi kimi baxılır.

Bu məsələ aşağıdakı kimi həll edilir [1, s.431].

Fərz edək ki, $\mathcal{R}$ kommutativ $\mathcal{L}$ halqasının althalqasıdır (biz halqa dedikdə, vahidli halqanı başa düşəcəyik).

Tərif1: $u \in L$ elementi və istənilən $\alpha_0, \alpha_1, \ldots, \alpha_n \in K$ elementləri üçün

$$\alpha_0 + \alpha_1 u + \ldots + \alpha_n u^n = 0 \qquad (1)$$

bərabərliyi yalnız $\alpha_0 = \alpha_1 u = \ldots = \alpha_n = 0$ halında doğru olarsa, onda u elementi K halqası üzərində transendent element, (1) bərabərliyi $\alpha_i (i = 0,1,\ldots,n)$-lərin heç olmasa birinin safardan fərqli olduğu halda da doğru olarsa, onda u elementi K halqası üzərində cəbri element adlanır.

Tərif 2 . Əgər $u \in L$ elementi K halqası üzərində transendent element olarsa, onda

$$K[u] = \{\alpha_0 + \alpha_1 u + \ldots + \alpha_n u^n \mid \alpha_0, \alpha_1, \ldots, \alpha_n \in K\}$$

çoxluğuna K halqasının u elementi vasitəsilə sadə transendent genişlənməsi deyilir.

Beləliklə $K[u]$ çoxluğu K halqasının u elementi vasitəsilə sadə genişlənməsi adlanır.

Lakin halqanın genişlənməsi çoxluq ola bilməz. Həmin çoxluqda əməllər də təyin olunmalıdır.

Həmçinin $K[u]$ çoxluğunda əməllər təyin olunmadan, ayrılış teoremi olan [1, səh.431] aşağıdakı teoremin isbatı mümkün deyildir.

Teorem 1. Əgər $K[u]$ sadə transendent genişlənmədirsə onda istənilən $a \in K[u]$ elementinin

$$a = \alpha_0 + \alpha_1 u + \ldots + \alpha_n u^n \qquad (2)$$

şəkilində ayrılışı yeganədir.

Yuxarıda göstərilənlərin düzgün şərhi aşağıdakı qayda ilə aparılmalıdır.

$K[u]$ çoxluğunda $\mathcal{K}$ halqasının əsas çoxluğunun u elementi vasitəsilə sadə transendent genişlənməsi deyilir.

$K[u]$ çoxluğunda bərabərlik münasibəti, elementlərin toplanması, vurulması, $K[u]$ - nin elementin K - nın elementinə vurulması əməli təyin olunduqdan sonra, [1, s.432] 1- ci teorem isbat edilir.

Bundan sonra $\mathrm{K}[u] = < K[u], +, -, \cdot, 1 >$ cəbri strukturundan danışmaq olar. Bu cəbri struktur $K[u]$ sadə transendent genişlənməsi üzərində qurulmuş cəbri strukturdur. Onun kommutativ halqa olması isbat olunduqdan sonra $\mathrm{K}[u]$ - ya K halqasının sadə transendent genişlənməsi deyilir. Göründüyü kimi, K halqasının sadə transendent genişlənməsinin tərifi aksiomatik tərifdir. Ona görə verilən nəzəriyyənin elmilik prinsipi əsasında qurulması prinsipi aşağıdakı suallara cavab verilməsi tələbini qarşıya qoyur.

1) $\mathcal{K}$ halqasının sadə transendent genişlənməsi varmı ?
2) $\mathcal{K}$ halqasının sadə transendent genişlənməsi yeganədirmi ?
3) Sadə transendent genişlənmənin qurulması məsələsi həll ediləndirmi ?

Bu suallara aşağıdakı kimi cavablar verilir.

Nəticə 1 [1, s.435]. $\mathcal{K}$ - kommutativ halqasının ixtiyari iki $\mathcal{K}[x]$ və $\mathcal{K}[y]$ transendent genişlənmələri izomorfdurlar.

Teorem 3 [1, səh. 435]. Hər bir kommutativ halqanın sadə transendent genişlənməsi vardır.

Əgər $\mathcal{K}[u]$ $\mathcal{K}$ halqasının u – nın köməyi ilə sadə transendent genişlənməsidirsə, onda $\mathcal{K}$ $[u]$halqas ına habelə $\mathcal{K}$ üzərində u – nın çoxhədlilər halqası deyilir. $K[u]$ halqasının hər bir elementinə $\mathcal{K}$ üzərində u dəyişənindən asılı çoxhədli və ya K üzərində çoxhədli deyilir.

Çoxhədlilər üzərində əməllər (bərabərlik, toplama, vurma və skalyar vurma), halqanın sadə transendent genişlənməsinin elementləri üzərində uyğun əməllər kimi təyin edilir.

Çoxdəyişənli çoxhədli anlayışı da, oxşar yolla verilir. Belə ki, o tamlıq oblastının çoxqat transendent genişlənməsinin elementi kimi təyin edilir.

2. Çoxhədlilər cəbrinin təlimində şüurlu mənimsəmə, fəallıq və müstəqillik prinsipi. Tələbələrin bilikləri şüurlu mənimsəməsini həyata keçirmək üçün verilən anlayışların tərifl ərinə, təkliflərə müxtəlif yöndən yanaşmaqla, onların ətraflı araşdırılmasına diqqət yetirmək vacibdir. Məsələn $\mathcal{K}$ $[x_1,...,x_m]$ halqasının tərifini izah edək (4.1.5, 1- ci tərif) .

L kommutativ halqasına baxılır. $\mathcal{K}$ onun sıfırdan fərqli althalqasıdır. $x_1,...,x_n \in L$ elementləri verilmişdir. $x_1,...,x_n$ elementləri ümumiyyətlə desək K - ya mənsub deyildirlər.

$\mathcal{K}$ $[x_1,...,x_n]$ - $\mathcal{L}$ - in $\mathcal{K}$ halqası və $x_1,...,x_n$ elementləri tərəfindən yaradılmış althalqasını işarə edir. O aşağıdakı şərtləri ödəyir.

1) $\mathcal{K}$ - nın minimal genişlənməsidir;

2) $\mathcal{L}$ – in althalqasıdır.

3) $\mathcal{L}$ – in $x_1, x_2,...,x_n$ elementlərini saxlayan althalqasıdır.

Belə hissələrə parçalamaqla qoyulan şərtləri ayrıca göstərməklə anlayışın mahiyyətinin tələbələr tərəfindən şüurlu mənimsənilməsi həyata keçirilir, bununla da tələbələrin fəallığı təmin olunur.

Şüurlu mənimsəmə dedikdə, tələbələrin biliklərə elə dərindən yiyələnməsi başa düşülür ki, onlar aldığı bilikləri yeni konkret situasiyalarda tətbiq etməyi bacarsınlar.

Tutaq ki, $\mathcal{K}_1 = \mathcal{K}[x]$ vahidi ex^0 olan halqadır. Onun elementləri K üzərində psevdosonsuz ardıcıllıqdır. Bu halqa birdəyişənli çoxhədlilər halqasıdır.

İndi $\mathcal{K}_1[y]$ çoxhədlilər halqasını yuxarıdakı qayda ilə quraq. $K_1[y]$ halqasının elementləri

$$(a_0(x), a_1(x),...,a_n(x),...), \quad a_i(x) \in R_1 \qquad (1)$$

şəkilində bütün ardıcıllıqlardır, onlardan sonlu sayda istisna olmaqla, bütün hədlər $0 \cdot x^0$ - ra bərabərdir, y dəyişəni

$$y = (0x^0, ex^0, 0x^0, ...)$$

bərabərliyi ilə təyin olunur.

$R_1[y]$ - də bərabərlik münasibəti toplama və vurma əməlləri, (1) şəkilində ardıcıllığın $a(x) \in R_1$ elementinə vurma əməli L_1 çoxluğundakı kimi aparılır. Bu əməllərdən istifadə etməklə $\mathcal{R}_1[y]$ halqasının istənilən elementi

$$a_0(x) + a_1(x)y + ... + a_n(x)y^n \qquad (2)$$

şəkilində yazıla bilər, burada $n \in N_0$ elə seçilir ki, (1) – də bütün $i > n$ - lər üçün $a_i(x)$ olur. $a_j(x)$ çoxhədlilərindən hər birinin

$$a_j(x)=a_{0j}+a_{1j}x+\ldots+a_{mj}x^m,\quad a_{ij}\in K,\quad a_{ij}=0,\quad i>m$$

kanonik yazılışından, (1) şəkilində ardıcıllığın R_1- in elementlərinə vurulmasının distrubutivliyindən istifadə edərək, (2) cəmini $a(x,y)$ ilə işarə edərək, yazmaq olar.

$$a(x,y)=\sum_{j=0}^{n}\sum_{i=0}^{m}a_{ij}x^i y^j=\sum_{i=0}^{m}\sum_{j=0}^{n}a_{ij}x^i y^j \qquad (3)$$

3. Çoxhədlilər təlimində əyanilik prinsipi. Çoxhədlilərin təlimində aparıcı prinsiplərdən biri də əyanilik prinsipidir. Praktik məşğələlərdə əyanilik prinsipinin simvolik əyanilik növü ilə özünü daha qabarıq göstərir. Belə ki, çoxhədlilərə aid bir sıra məlumatları müəyyən edərkən hesablamaların sxemlər, cədvəllər çəkilində aparılması əyaniliyi təmin etməklə bərabər, hesablamalarda baş verə biləcək mexaniki səhvlərdən qaçmağa imkan verir.

Bir neçə nümunə göstərək.

1. $f(x)=a_0x^n+a_1x^{n-1}+\ldots+a_{n-1}x+a^n$

çoxhədlisini $x-c$ ikihədlisinə böldükdə alınan

$$q(x)=b_0x^{n-1}+b_1x^{n-2}+\ldots+b_{n-2}x+b_{n-1}$$

qismətinin əmsalları və $r(x)$ qalığı Horner sxemi üzrə tapılır.

a_0	a_1	a_2	....	a_n
b_0	$b_1=b_0c+a_1$	$b_2=b_1c+a_2$	....	$r=b_{n-1}c+a_n$

2. Çoxhədlilər üçün $(x-c)$- nin qüvvətlərinə görə Teylor düsturunun Horner sxemi ilə tapılması sərfəlidir. Tutaq ki, $f(x)=a_0x^n+a_1x^{n-1}+\ldots+a_{n-1}x+a^n$ verilir.

$$f=f(c)+f'(c)(x-c)+\frac{f''(c)}{2!}(x-c)^2+\ldots+\frac{f^{(n)}(c)}{n!}(x-c)^n$$

düsturunda əmsallar aşağıdakı sxemlə tapılır.

a_0	a_1	a_2	....	a_{n-2}	a_{n-1}	a_n
$b_0=a_0$	$b_1=b_0c+a_1$	$b_2=b_1c+a_2$	....	$b_{n-2}=b_{n-3}c+a_{n-2}$	$b_{n-1}=b_{n-2}c+a_{n-1}$	$r_0=b_{n-1}c+a_n$
$c_0=b_0$	$c_1=c_0c+b_1$	$c_2=c_1c+b_2$	....	$c_{n-2}=c_{n-3}c+b_{n-2}$	$r_1=c_{n-2}c+b_{n-1}$	
$d_0=c_0$	$d_1=d_0c+c_1$	$d_2=d_1c+c_2$	....	$r_2=d_{n-3}c+c_{n-2}$		
....	....	....	....			
a_0	r_{n-1}					
$r_n=a_0$						

$$f(c)=r_0,\quad f'(c)=r_1,\quad f''(c)=2!\cdot r_2,\ldots,\quad f^{(n)}(c)=n!\cdot a_0 \qquad (1)$$

düsturlarından istifadə etməklə $f(x)$ çoxhədlisi üçün alınmış olur. (1) – dən həmçinin görünür ki, Hormer sxeminin köməyi ilə sıfır xarakteristikalı meydan üzərində $x=c$ olduqda $f(x)$ çoxhədlisini və onun bütün törəmələrinin qiymətlərini hesablamaq olar.

3. $f(x)=a_0x^n+a_1x^{n-1}+\ldots+a_{n-1}x+a^n$

çoxhədlisi üçün

$$f(c)+f'(c)=\ldots f^{(k-1)}(c)=0 \quad \text{və} \quad f^{(k)}(c)\neq 0$$

olursa onda deyilir ki, c $f(x)$ çoxhədlisinin k dəfə təkrarlanan köküdür. Kökün təkrarlanma dərəcəsinin tərifi və çoxhədlinin və onun törəmələrinin tapılmasına əsaslanaraq, belə nəticəyə gəlmək olar ki, kökün təkrarlanma dərəcəsini Horner sxemi ilə tapmaq olar.

Çoxdəyişənli çoxhədlilər nəzəriyyəsində simmetrik çoxhədlilər haqqında əsas teorem aşağıdakı kimi ifadə edilir [1, səh. 477].

Teorem: P meydanı üzərində $x_1,\ldots,x_n$ dəyişənlərinin istənilən simmetrik çoxhədlisini $\sigma_1,\sigma_2,\ldots,\sigma_n$ elementar simmetrik çoxhədlilərin çoxhədlisi kimi göstərmək olar.

Bu teoremin isbatı prosedurasını təkrarlayaraq, f simmetrik çoxhədlisinin elementar simmetrik çoxhədlisinə ifadə edilməsi, müəyyən çətinliklərlə müşayiət olunur və bu zaman hesablama prosesi əyani olmur. Lakin müəyyən hesablama cədvəlləri tərtib edərək bu məsələnin həllini daha əyani şəkildə yazmaq olar.

Ədəbiyyat

1. Baxşəliyev Y.R., Əbdülkərimli L.Ş. Cəbr və ədədlər nəzəriyyəsi kursu. – Bakı: Nurlan, – 2008. – 560 s.
2. Baxşəliyev Y.R., Əbdülkərimli L.Ş. Cəbr kursu. – Bakı: Elm və təhsil, – 2011. – 448s.
3. İsmixanov M.A., Bəxtiyarova R.Ə. Ali məktəb pedaqojikası. Mühazirə kursu. – Bakı: – 2010. 236 s.
4. Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqojikası. Magstra pilləsi üçün dərslik. – Bakı: Nurlan, – 2007. – 568 s.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azad Novruzov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 19.01.2022, son daxilolma – 14.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 121-124
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 121-124
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.121-124

UOT 372.8.53

Fizikanın tədrisində informasiya-kommunikasiya texnologiyalarından istifadə təcrübəsindən

Müəlliflər:

Aygün Sultanova
Naxçıvan Müəllimlər İnstitutu
Fizika üzrə fəlsəfə doktoru, dosent
E-mail: sultanova1@gmail.com

Nailə Qardaşbəyova
Naxçıvan Dövlət Universiteti
Fizika üzrə fəlsəfə doktoru, dosent
E-mail: naileq@gmail.com

Açar sözlər:
fizika, informasiya-kommunikasiya texnologiyaları, dərslərin modelləşdirilməsi, müasir təlim metodları, avtomatlaşdırılmış təlim sistemi, elektron dərslik

Annotasiya. Məqalədə göstərilir ki, fizikanın ümumi inkişafında bu gün termodinamikanın artan rolu nəzərə alındığından, onun öyrənilməsi metodikasının gələcəkdə daha da təkmilləşdirilməsi üçün problemin həllinə tamam yeni yanşma tələb olunur. Müasir fizikanın model xarakteri yalnız təbiətə istiqamətlənmiş müəyyən biliklər vermək deyil, həm də onların öyrənilmə metodika və texnologiyasını adekvat əks etdirməklə, fizika metodologiyasının əsas inkişaf istiqamətlərinin təqdimatını təmin etməkdir. FİzikanIn tədrisində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi dərslərin modelləşdirilməsini, hər cür əyaniliyi (statik və dinamik), fərdiləşdirməni, fərdi yanasmanı və istənilən formalı əks əlaqəni həyata keçirməklə müasir təlim metodlarının, o cümlədən interaktiv təlimin tətbiqinə geniş imkan açır. İnformasiya texnologiyalarının inkişaf istiqaməti, texnika və texnoloji əsasların formalaşdırılması üçün avtomatlaşdırılmış təlim sistemindən ekspet sistemdən, elektron dərslikdən, fəal təlim üsullarından optimal istifadə fizika təlim prosesində əsaslı dəyişiklərin edilməsinə imkan verir.

Authors:

Aygun Sultanova
Nakhchivan Teachers Institute
Doctor of philosophy in physics, associate professor
E-mail: sultanova1@gmail.com

Naila Gardashbeyova
Nakhchivan State University
Doctor of philosophy in physics, associate professor
E-mail:
naileq@gmail.com

Key word:
physics, information and communication technologies, lesson modeling, modern training methods, automated training system, electronic textbook

From the experience of using information and communication technologies in teaching physics

Abstract. The article shows that taking into account the increasing role of thermodynamics in the general development of physics today, a completely new approach to solving the problem is required in order to further improve the methodology of its study in the future. The model character of modern physics is not only to provide certain knowledge oriented to nature, but also to provide a presentation of the main directions of development of the methodology of physics, with an adequate reflection of the methods and technology of their study.The application of information and communication technologies in the teaching of physics opens up wide opportunities for the application of modern training methods, including interactive training, through the implementation of modeling of lessons, all kinds of kinks (static and dynamic), customization, individual combustion and any form of feedback. The optimal use of an automated training system, an express system, an electronic textbook, active training methods for the formation of the direction of development of information technologies, techniques and technological foundations allows fundamental changes to be made in the physics training process.

Авторы:

Айгюн Султанова
Нахчыванский институт учителей
Доктор философсии по физике, доцент
E-mail: sultanova1@gmail.com

Наиля Гардашбекова
Нахчыванский государственный университет
Доктор философии по физике, доцент
E-mail: naileq@gmail.com

Ключевые слова:
физика, информационно-коммуникационные технологии, моделирование уроков, современные методы обучения, автоматизированная система обучения, электронный учебник

Из опыта использования информационно-коммуникационных технологий в обучении физике

Аннотация. В статье показано, что модельный характер современной физики заключается не только в предоставлении определенных знаний, ориентированных на природу, но и в обеспечении представления основных направлений развития методики физики путем адекватного отражения методики и технологии их изучения. Применение информационно-коммуникационных технологий в преподавании физики открывает широкие возможности для применения современных методов обучения, в том числе интерактивного обучения, путем реализации моделирования уроков, всевозможных вариаций (статических и динамических), индивидуализации, индивидуального подхода и обратной связи любой формы. Направление развития информационных технологий позволяет вносить принципиальные изменения в процесс обучения физике за счет оптимального использования автоматизированной системы обучения, электронного учебника, активных методов обучения для формирования технико-технологических основ физических знаний.

Ənənəvi təlim bir sıra çatışmazlıqları ilə: müəllimin orta səviyyəli şagirdin gücünə müvafiq dərsi tədris etməsi; şagirdlərin qiymət növbəsi gözləməsi; reproduktiv təlimə istinad edilərək təlimin əsasən yaddaşa əsaslanması; tədris prosesində əks əlaqənin zəif həyata keçirilməsi (müəllim üçün şagirdin beyninin qara qutu olaraq qalması "Kibernetikada qara qutu nəzəriyyəsi"); bir sıra fiziki proseslərin (mikro və makro) mahiyyətinin kifayət qədər açılmaması; bütün biliklərin vahid prinsipdə tərtib edilmiş dərslik əsasında formalaşdırılması və s. səciyyələnir. Bütün bu kimi çatışmazlıqların aradan qaldırılması ilə əlaqədar pedaqoq və metodist alimlər yarım əsrdən çoxdur ki, ciddi işlər aparırlar.

XX əsrin 60-80-ci illərində bu vasitə və qurğuların tədris prosesinə geniş tətbiq olunmasına baxmayaraq, onların bir sıra pedaqoji, texniki və iqtisadi çatışmazlıqları daha mükəmməl cihaz və qurğuların (EHM-lərin) tədris prosesinə tətbiqini aktuallaşdırdı.

Deməli, təlimin texniki vasitələrinin (TTV) çatışmazlıqları daha mükəmməl qurğuların tətbiqi zərurətini meydana çıxardı. İndi bunlar hələlik stasionar və fərdi komputerlər, planşetlərdir ki, onların da yaxın gələcəkdə sürətlə təkmilləşərək inkişaf edəcəyi qaçılmazdır. Təlim prosesində bu vasitələrdən istifadə Yeni İnformasiya Texnologiyaları (YİT), son vaxtlar isə İKT adlanır. Bir çox hallarda "komputer təlimi" və yaxud "elektron təlim" adı ilə tədris prosesində geniş tətbiq olunur. Bunlar xarici ölkələrdə 1960-cı illərdən, respublikamızın məktəblərində 1980-ci illərdən istifadə edilməyə başlanmışdır.

Respublika məktəblərinin İKT ilə təchizi məsələnin bir tərəfidir. Həmin texnologiyaların məktəblərimizdə səmərəli tətbiqi şagirdlərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməklə təlimin fundamentallaşdırma, informatlaşdırma, sosiallaşdırma və ekologiyalaşdırma kimi fundamental pedaqoji problemlərinin həllinə yönəldilməlidir [1].

Fizika tədrisinin "Baza təhsili" səviyyəsində olduğu kimi, "Təmayül siniflər üçün" tərtib edilmiş materiallarda da relyativistik mexanikanın əsas anlayışlarının öyrənilməsi dünyanın mexaniki mənzərəsindən bəhs edən bölmənin quruluşuna daxil edilmişdir. Burada materiya, məkan, zaman və hərəkət haqqında klassik və relyativistik təsəvvürlərin tətbiq sərhədləri göstərilmiş, relyativistik dinamika kütlə və enerji, tam enerji ilə impuls arasındakı əlaqələrin öyrənilməsi planlaşdırılmışdır. Şagirdlərdə fizika elminin inkişaf tarixinə dair tam təsəvvür formalaşdırmaq məqsədi ilə ümumi nisbilik nəzəriyyəsi - ətalət anlayışı ilə cazibə anlayışının ekvivalentlik prinsipi haqqında lakonik məlumat verilir.

Təhsilin informatlaşdırılması pedaqoji prosesin aktual problemi kimi. XX əsrin ikinci yarısında cəmiyyət özünün yeni inkişafından – sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid mərhələsindən çıxış etməyə başladı. Bu keçid prosesi "İnformatlaşma" adlandırıldı. İnformatlaşma ictimai həyatın bütün sahələrində informasiyanın qəbulu, saxlanması, emalı və ötürülməsi vasitə və texnologiyaları əsasında idarəetmə proseslərinin avtomatlaşdırılmasını nəzərdə tutur.

Azərbaycanda cəmiyyətin fəaliyyət sahə-



Sxem 2. Təhsilin informatlaşdırılmasının komponentləri.

lərinin informatlaşması prosesi 1998-ci ildən öyrənilməyə və tədricən inkişaf etdirilməyə başlandı. Respublikanın prezidenti cənab İlham Əliyev 2008-ci ildə keçirilən Davos görüşündə İKT-ni energetikadan sonra dövlət siyasətinin ikinci prioritet sahəsi elan etmişdir. Bu sahənin intensiv inkişafı daha çox onun kadr təminatından asılıdır. Belə kadrların hazırlanması təhsil sisteminin mühüm vəzifələrindən biridir. Respublikada təhsilin informatlaşdırılması siyasəti ilə tanış olduqda məlum olur ki, burada əsas məqsəd təkcə texniki təchizat deyil, məhz vahid informasiya təhsil məkanının (VİTM) formalaşdırılmasıdır (müxtəlif təyinatlı elektron kontentin yaradılması), yəni İKT yalnız köməkçi vasitə olmalıdır [4].

Yaşadığımız əsrin səciyyəvi xüsusiyyəti təkcə qlobal texnologiyaya yiyələnməklə maddi bazanın yaradılması deyil, cəmiyyət üzvlərinin yeni bilikləri bacarıqla mənimsəmə tətbiq etməyi və qoruyub saxlamağı bacarmasındadır ki, bu da cəmiyyətin intellektual səviyyəsi və informasiya mədəniyyətini müəyyənləşdirir. Odur ki, müasir təhsil möhkəm, dayanıqlı və perspektivli olması ilə informasiya cəmiyyətində qabaqlayıcı olmalıdır [2].

Təhsilin informatlaşdırılması uzun müddətli mürəkkəb proses olmaqla üç ardıcıl mərhələ ilə xarakterizə olunur:

1) İKT vasitəsinin, kompüterləşmənin həyata keçirilməsi və kütləvi mənimsənilməsi;

2) Respublikanın bütün regionlarında təhsil sistemində İKT-dən düzgün istifadəni təmin edən infrastrukturun formalaşdırılması;

3) İKT-yə əsaslanan, məzmun və formaca modernləşdirilmiş fasiləsiz təhsilin bütün mərhələlərində yeni metodologiyanın müəllim və şagirdlər tərəfindən mənimsənilməsi.

Məktəb fizika eksperimenti (təcrübə) və təsvirlərin nümayişində İKT-dən istifadə. Fizikanın tədrisi metodikası tələb edir ki, təcrübələrin aparılmasında İKT-dən istifadə şagirdləri həmin eksperimentin nəticələrini müstəqil analiz və sintez etməyə məcbur etsin. Eksperimentin qoyuluşu və alınan nəticələr şagirdlərin passiv müşahidəsilə deyil, onların əqli fəaliyyətlərinin fəal işi ilə yerinə yetirilsin.

Son dövrlərdə eksperimentlərin avtomatik aparılmasını təmin edən çoxlu sayda pedaqoji proqram vasitələri hazırlanmışdır. Belə elektron dərsliklər şagirdləri eksperimentin gedişi ilə tanış etməklə elm və texnikanın müasir nailiyyətləri, maşın-mexanizmlərin quruluşu, iş prinsipilə əlaqədar geniş məlumat verir, onlarda düzgün elmi dünyagörüşün formalaşmasını təmin edir [3].

Son vaxtlar komputerdən bir sıra fiziki cihazların, məsələn, ossilloqraf, səs generatoru və ölçü cihazlarının (indikator) funksiyalarını yerinə yetirən qurğu kimi də istifadə olunur. Bu sahədə aparılan təcrübələr göstərir ki, komputerlə qeyd edilən istiqamətlərdə aparılan işlər şagirdlərdə çox böyük həvəs və maraq yaradır, fiziki proseslərin mahiyyəti dərin təhlil əsasında öyrənilir. Bu işlərin aparılmasında şagirdlərdə eksperimentin gedişinə qoşulmuş komputerin idarə olunması ilə əlaqədar bacarıqlar formalaşır ki, bunlar fizika təhsilinin əsas komponentlərini təşkil edir.

Qeyd etdiklərimizin hamısını ümumiləşdirərək deyə bilərik ki, laboratoriya praktikumlarının aparılması zamanı müəllim komputerdən hansı məqsədlə istifadə edəcəyini əvvəlcədən dəqiq müəyyənləşdirməklə planlaşdırmalıdır.

Fizikadan məsələ həllində İKT-dən istifadə. Fizikadan məsələ həllində səmərəli təlim metodlarından biri də komputer modelləşdirməsidir. Bu metod məsələ həlli təliminin didaktik imkanlarını inteqrasiya etməklə şagirdlərin əqli və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən vasitə hesab edilir.[5]

Fizika məsələlərinin həllində komputerdən istifadənin zərurəti şərtlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

1) Fizikadan məsələ həllində "mexaniki hesablama aparmaq", cədvəl və qrafik üzrə hesablama aparmaq tələb olunduqda, başqa sözlə, müəyyən edilmiş son düstur əsasında hesablama aparıldıqda, yaxud cavabın təhlilində (məsələn, ilkin verilənlərin variasiyasında);

2) Sistemin halının xarakteristikası və parametrlərinin dəyişməsində, "yüksələn sonluqlu", "diskret" proseslərdə, dövri tsiklik təkrarlanan sistemin təsvirində;

3) Məsələnin cavabı üçün həllin addım-

addım axtarılması tələb olunduqda;

4) Obyekt, yaxud prosesin özbaşına (qoyulmuş uzun müddətli eksperimentlərdə və s.) fəaliyyəti tələb olunduqda.

Bunun üçün aşağıdakılar tələb olunur:

a) Obyektin (buraxıla bilən səhvlər daxilində) ideal hesab oluna bilən əsas tərkib elementlərinə bölünməsi;

b) İdeal hesab edilən proses və alt komponentlərin müvafiq qanunlarla ifadə edilməsi mümkün olduqda, yəni bu prosesə ideal, diskret və təkrarlanan proseslərin "yeni" başlanğıc verilənlərinin cəmi kimi baxılması;

c)Cavabın axtarışında addım-addım fəaliyyətin həyata keçirilməsi.

Kompüterlə fizika məsələlərinin həlli əməliyyatları müəyyən ardıcıllıqla təsvir edilən bir neçə mərhələdə aparılır. Bu mərhələlərin ardıcıllığını aşağıdakı kimi göstərmək olar:

• Məsələnin qoyuluşu;

• Alqoritmləşdirmə (alqoritmin tərtibi);

• Modelləşdirmə;

• Proqramlaşdırma (alqoritmin həyata keçirilməsi);

• Proqramın sınaqdan keçirilməsi üçün testləşdirmə;

• Cavabın həlli.

Bu ardıcıllıq fizika məsələlərinin komputerlə həllinin texnoloji zənciri adlanır.

Nəticə

1. Tədris prosesində İKT dən istifadənin mahiyyətini fizikadan dərslərin modernizə edilməsi, əyaniləşdirilməsi, intensiv əks əlaqənin, fərdiləşmə, fərdi yanaşma və diferensiallaşdırmanın, fəal interaktiv təlimin yüksək səviyyədə həyata keçirilməsi, daha doğrusu TTV nin çatışmazlıqlarının asanlıqla aradan qaldırılması kimi göstərmək olar.

2. İKT-dən tədris prosesində istifadədə əsas məqsəd dərsin hansı formada keçirilməsindən asılı olmayaraq prosesdə yüksək əyaniliyin yaradılmasını, müəllim əməyinin elmi təşkilini, tədris prosesini intensivləşdirərək optimallaşdırılmasını təmin etməkdir.

3 Fİzikanın tədrisində İnformasiya Kommunikasiya texnologiyalarının tətbiqi dərslərin modelləşdirilməsini, hər cür əyaniliyi fərdiləşdirməni,fərdi yanasmanı və istənilən formalı əks əlaqəni həyata keçirməklə müasir təlim metodlarının, o cümlədən interaktiv təlimin tətbiqinə geniş imkan açır.

4. İnformasiya texnologiyalarının inkişaf istiqaməti, texnika və texnoloji əsasların formalaşdırılması üçün avtomatlaşdırılmış təlim sistemindən ekspet sistemdən, elektron dərslikdən, fəal təlim üsullarından optimal istifadə fizika təlim prosesində əsaslı dəyişiklərin edilməsinə imkan verir.

5. Fizikadan məsələ həllində səmərəli təlim metodlarından biri də komputer modelləşdirməsidir. Bu metod məsələ həlli təliminin didaktik imkanlarını inteqrasiya etməklə şagirdlərin əqli və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən vasitə hesab edili

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. // Azərbaycan müəllimi, – Bakı: – 2009, 11 sentyabr.
2. Orucov V.Y. Fizikanın tədrisi metodikasının aktual problemləri. – Bakı:– 2007. –100 s.
3. İmanov S.Ş.Orta məktəbdə fizikanın tədrsi metodikası. – Bakı: – 2004. – 492 s.
4. İsmayılıv İ.N. Fizikanın tədrisi metodikasının müasir problemləri. – Bakı: – 2016. – 456 s.
5. İsmayılov İ. Ümumtəhsil məktəblərində fizika təliminin müasir texnologiyaları. – Bakı: – 2012.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 25.01.2022, son daxilolma – 12.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 125-128
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 125-128
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.125-128

UOT
811.111+378.147

Yazı janrının növləri və xarici dildə yazı vərdişlərinin aşılanması yolları

Müəllif:

Aygün Əsgərova
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: askerova_a@hotmail.com

Açar sözlər:
yazı, qrammatologiya, yazının növləri, yazı mədəniyyəti, izahlı yazı, məntiqi (inandırıcı) yazı, təhkiyə xarakterli yazı və təsviri yazı, akademik yazı, esse

Annotasiya. Məqalədə yazı mədəniyyəti və onun növlərindən, yaranma tarixindən, inkişafından bəhs olunur, öyrənənlərdə yazı vərdişlərinin aşılanmasının əhəmiyyəti göstərilir. Yazının dörd əsas tipi haqqında ümumi və hər biri haqqında xüsusi məlumatlar məqalədə öz əksini tapır. Bundan başqa, yaradıcı və akademik yazının faydaları, yazı mədəniyyətinin əhəmiyyəti də vurğulanır. Məlumdur ki, şifahi nitqin də düzgün qurulmasının, ünsiyyət əlaqələrinin yaradılmasının, fikrin aydın və səlis olmasının əsas səbəblərindən biri də yazı qabiliyyətlərinin inkişaf etdirilməsidir. Eyni zamanda, yaddaşın möhkəmlənməsində, fikrin düzgün ifadəliliyində və özünə inamın artırılmasında da bu sənətin rolu danılmazdır. Əlavə olaraq, məqalədə düzgün yazı sənəti üçün qısaltmalardan istifadə etməmək tövsiyə olunur. Qeyd olunur ki, vaxtilə yazı mədəniyyəti hər bir kəsin, xüsusilə ziyalıların səviyyəsinin göstəricisi olmuşdur. Ziyalı hesab olunan hər bir kəsin bir göstəricisi də onun yazı mədəniyyətinin səviyyəsi ilə ölçülürdü. Yazı olmasa, minillər boyu yaranmış tarixi, ədəbiyyatı və mədəniyyəti öyrənmək olmaz.

Genres of writing and inculcation of writing skills in a foreign language

Author:

Aygun Asgarova
Nakhchivan Teachers Institute
E-mail: askerova_a@hotmail.com

Key word:
writing, Grammatology, types of writing, writing culture, expository writing, persuasive (convincing) writing, narrative writing and descriptive writing, academic writing, essay

Abstract. The article dealts with the art of writing and its types, history, development, as well as instillation of writing abilities. It is stated that there are four basic forms of writing, and information about each of them is reflected in the article. In addition, the benefits of creative and academic writing and the importance of writing culture have been emphasized. It is known that one of the key reasons for the setting up of the correct structure of oral speech, communication, clear and fluent thinking is the development of writing skills. At the same time, the role of this art in strengthening memory, correct expression of thoughts, and building self-confidence is undeniable. Furthermore, the article recommends against using abbreviations for proper writing.
Historically, the culture of writing was an indicator of the level of everyone, particularly intellectuals. The writing culture is also an indicator of everyone who is considered intelligent. It is impossible to study thousands of years of history, literature, and culture without writing.

К вопросам о разновидностях письма и способах привития навыков письма на иностранном языке

Автор:

Айгюн Аскерова
Нахчыванский институт учителей
E-mail: askerova_a@hotmail.com

Ключевые слова:
письмо, грамматология, типы письма, культура письма, пояснительное письмо, логическое (убедительное) письмо, повествовательное письмо и описательное письмо, академическое письмо, эссе

Аннотация. В статье рассказывается о культуре письма и ее разновидностях, истории возникновения, развития, указывается на важность привития навыков письма у обучающихся. Общая информация о четырех основных типах письма и конкретная информация о каждом из них отражена в статье. Кроме того, подчеркиваются преимущества творческого и академического письма, а также важность культуры письма. Отмечается, что в свое время культура письма была показателем уровня каждого человека, особенно интеллигенции. Показатель каждого человека, которого считали интеллектуалом, также измерялся уровнем его письменной культуры. Без письма нельзя было бы изучать историю, литературу и культуру, возникшие на протяжении тысячелетий. В статье подчеркивается, что одной из основных причин правильного построения устной речи, создания коммуникативных связей, четкости и беглости мысли является развитие навыков письма. В то же время неоспорима роль этого искусства в укреплении памяти, правильной выразительности мысли и повышении уверенности в себе. Кроме того, в статье не рекомендуется использовать сокращения для правильного письма.

Dil çox-çox qədim zamanlarda toplu halında yaşayan insanların bir-birinə söz demək ehtiyacından, bir-biri ilə ünsiyyət saxlamaq zərurətindən ortaya çıxmışdır. Qədim zamanlarda insanlar ayrı-ayrı qruplar şəklində yaşamışlar. Bu qruplar arasında əlaqələr zəif olmuşdur. Lakin sonrakı dövrlərdə ictimai quruluş formalaşdıqca insan qrupları arasında siyasi, iqtisadi, və s. əlaqələr yarandı. Tayfalar müəyyən məqsədlər üçün əlaqə saxlamalı oldular. İnsanlar şifahi dilin köməyi ilə yalnız müəyyən yaxın məsafədə, bir-birləri ilə ünsiyyət saxlaya bilmişlər. Bəşəriyyətin ilk dövründə ünsiyyət yalnızca şifahi formada idi. Zaman keçdikcə insanlar səsin çatmadığı yerlərlə də əlaqə saxlamağa ehtiyac duymuşlar. Bu ehtiyacın nəticəsi olaraq yazı yaranmışdır. Yazı səsli dilin norma ilə qavrayışını təmin edən işarələr sistemidir. Yazının yaranmasının çox qədim tarixi var. İlk yazı nümunələri 7000 ilə yaxın tarixə malikdir və o vaxtdan bugünə qədər uzun inkişaf yolu keçərək bu günkü formaya gəlib çatmışdır. Buna görə də ikinci köməkçi ünsiyyət vasitəsi olaraq yazı yaranmağa başladı. Onun başlanğıc yolu heç bir xüsusi plan üzrə deyil, tədricən yaranmışdır. Burada belə nəticəyə gəlmək olar ki, yazı insanların dillə, şifahi ünsiyyət saxlamaları mümkün olmadığı şəraitdə, ünsiyyətə olan tələbatdan yaranmışdır. Dilin əmələ gəlməsində olduğu kimi yazının yaranmasında da kollektivin əməyi var. Yəni yazı ayrı-ayrı şəxslər tərəfindən deyil, ümumi kollektiv tərəfindən yaradılmışdır [1, s.1-2].

Qrammatologiya yazı haqqında elmin adıdır. Bu elm hərf ilə danışıq səsi arasındakı münasibəti araşdırır. Yazının tipləri çoxdur, bunlardan ən mükəmməli akademik yazıdır. Akademik yazının növlərindən bəhs edərkən, dörd əsas növü fərqləndirilir: izahlı yazı, məntiqi (inandırıcı) yazı, təhkiyə xarakterli yazı və təsviri yazı.

İzahlı yazıda müəllifin məqsədi mövzunu oxucuya izah etmək və ya məlumat verməkdən ibarətdir. Belə yazılar oxucunu hadisələrin izahı və ya gizli sirrin açılması ilə baş başa qoyar. Bu növ yazılara esselər, qəzet və jurnal məqalələri, təlimat kitabçaları, dərsliklər, ensiklopedik məlumatlar və ya istənilən izahedici yazılar aiddir. İzahlı esselər əsasən girişdən, girişdə verilən məlumatı izah edən bir neçə abzaslardan və sonluqdan ibarət olur.

Məntiqi və ya inandırıcı yazıda müəllif oxucunu öz fikirlərinə inandırmağa çalışır. Təhkiyə xarakterli yazı müəllifin oxucuları üçün yazdığı real (yəni faktlara əsaslanan) və ya qeyri-real (yəni uydurma xarakterli) hekayədən ibarətdir. Təhkiyə üslublu yazılarda baş vermiş hadisələrin hekayə şəklində təsvir edilir. Belə hekayələr dialoq formasında yazılmamalıdır, vasitəsiz nitqli cümlələrin qarşısında defis qoyula bilməz.

Təsviri yazı isə bəzən izahlı yazının növü də adlandırılır, müəllifin utopik fikirlərini təsvir etdiyi yazılardır [3, s. 211-212]

İşgüzar və rəsmi sənədlərin, o cümlədən elmi yazılar, təqdimatlar, mühazirələr, rəsmi danışıqların dili bir qayda olaraq akademik ingilis dil üslubunda olmalıdır. Bəs onda "akademik ingliscə" nədir? Akademik ingilis dili cümlələrin quruluşu, sözlərin düzgün istifadəsi və yazı tərzi ilə gündəlik danışıqda işlədilən ingilis dilindən fəqlənir. Yəni gün ərzində ətrafdakı insanlarla, dostlarla söhbət edərkən və ya film izləyən zaman dili anlamaqda və danışmaqda heç bir əziyyət çəkməyən insan məqalə, qəzet materialları və.s kimi rəsmi üslubda yazı oxuyarkən müəyyən çətinliklərlə qarşılaşır. Qeyd etdiyim kimi, gündəlik ingilis dilində danışıq üslubu (Qeyd: buna General English deyilir) ilə akademik ingilis dili eyni deyil, buna rəsmi yazılarda, məqalələrdə rast gəlinir. Mükəmməl səviyyədə yazı yazmaq və nitq söyləmək istəyən şəxs işlətdiyi hər sözünə, cümləsinə, başlıcası dil üslubuna diqqət etməlidir, yəni rəsmilik akademik yazılarda çox vacibdir. Məsələn, müəllif məqalə yazan zaman müəyyən hadisələrə öz münasibətini bildirərkən "I think" işlətməsi qəbul olunmazdır. Digər bir nüansa nəzər yetirək, gündəlik danışıqda dildə çox eşitdiyimiz "don't, won't" kimi ifadələr rəsmi formada "do not, will not" ilə ifadə olunmalıdır.

Qeyd etmək istərdim ki, dili mükəmməl tərzdə öyrənmək xaricdə ingilis dilində təhsil almaq istəyən, davamlı məqalə oxuyub yazan, konfrans, seminarlarda iştirak edən və çıxış edən tələbə və digər şəslər üçündür. Akademik yazı sahələrinə məqalələrin qısa xülasələrinin

təhlili, məqalələr, işgüzar məktublar, təqdimatlar, esselər, tezislər, elmi işlər və.s aiddir.

Akademik ingilis dilini öyrənənlər nələrə diqqət etməlidir:

1. Gündəlik danışıqda istifadə edilən arqo, jarqon, vulqar ifadələrdən uzaq durmaq lazımdır.

2. Akademik səviyyədə yazı yazmaq istəyən şəxsin ilk növbədə mükəmməl səviyyədə qrammatik biliyi olmalıdır və çalışmalıdır ki, yazdığı cümlələrdə qrammatik cəhətdən heç bir səhv olmasın.

3. Gündəlik istifadə zamanı fikrimizi qısa, lakonik, sadə cümlələrlə ifadə etməyə çalışsaq da, akademik formada uzun əhatəli cümlələrin işlədilməsi labüddür, sadə, primitiv formada cümlələrə yer verilmir.

4. Geniş kütlənin başa düşdüyü sözlər yerinə terminologiyadan istifadə etmək daha məqsədə uyğundur. Tibb, fizika, kimya, texnologiya, sosiologiya və.s kimi elm sahələrinin hər birinin özünəməxsus terminləri var. Bütün terminləri eyni zamanda öyrənmək, tətbiq etmək çox çətindir, lakin məşğul olunan sahənin terminlərini bilmək vacibdir.

5. Akademik mətnlər, danışıqlar, məqalələr rəsmi və ya elmi üslubda yazılmalıdır. İlk olaraq, yazılacaq mətnin mövzusu əhatə olunmalı, dəqiq arqument göstərilməlidir. Mətnlər giriş ilə başlamalı, sonda nəticə ilə qurtarmalıdır. Məqsəd oxucuya əsas mövzudan uzaqlaşmadan veriləcək məlumatı ətraflı izah etmək, onu inandırmaqdan ibarətdir.

6. Məqalələr yalnız müəllifin şəxsi fikrindən ibarət ola bilməz. Başqa müəlliflərin məqalələrindən, kitablarından və ya araşdırmalarından edilən sitatlarla yazılan məqalə daha məqsədəuyğundur. Müəllif akademik məqalədə tez – tez müxtəlif qaynaqlara müraciət etməlidir.

Referansı olmayan məqalə digər müəllifin fikirlərini oğurlamaq hesab olunur və belə olan halda plagiarizmə qəti surətdə yol verilmir. Hazırda bunu yoxlayan bir neçə kompüter proqramları da var. Bu məqsədlə də, müəllif plagiarizmə yol verməmək üçün sitatları göstərməli, eyni zamanda öz fikirləri ilə digər müəlliflərin fikirlərini qarşılaşdırmalıdır [2, s.366-367]

İngilis dilində müəyyən bir mövzuda esse və ya məqalə yazarkən aşağıdakı məqamlara mütləq diqqət yetirilməlidir:

• Yazılacaq mövzuya dəqiq, düzgün və oxucunu maraqlandıran ad seçilməlidir.

• Yazarkən mövzunun üslubuna diqqət yetirilməlidir.

• Hər abzasın ilk cümləsinə xüsusi fikir verilməlidir. Çünki abzasın ilk cümləsi çox vacibdir, ilk cümlədən oxucuya həmin abzasın nədən bəhs etdiyi bəlli olur.

• Əsas mövzudan uzaqlaşmaq olmaz.

• Nitq hissələrinin düzgün və yerində işlədilməsinə diqqət yetirmək lazımdır.

• Lüğətlərlə işləyərkən diqqətli olmaq lazımdır ki, sözlərin düzgün şəkildə və yerində işlənsin.

Son olaraq qeyd etmək istərdim ki, yazı mədəniyyəti olmasa, insanların əlaqəsinin sərhədi çox məhdud ola bilər. Yazı bu məhdudluğun çərçivəsini genişləndirir. Hətta nəsillər arasındakı əlaqə yazı mədəniyyəti olmadan mümkün deyildir. Belə ki, hər birimiz bizdən əvvəlki nəsillərin yaratdıqlarını yazı vasitəsilə öyrənirik. Yazı olmasa, minillər boyu yaranmış tarixi, ədəbiyyatı və mədəniyyəti öyrənmək olmaz. Bizim hər birimiz öyrəndiklərimizə görə yazı mədəniyyətinə borcluyuq. Bunların hamısı işin bir tərəfidir. Başqa bir tərəfi və ən əsas tərəfi isə odur ki, yazı mədəniyyəti olmadan gələcək nəsillərə heç nəyi ötürmək mümkün deyildir. Bizim hər birimiz keçmiş haqqında nəyi biliriksə, yazıya borcluyuq. Vaxtilə yazı mədəniyyəti hər bir kəsin, xüsusilə, ziyalıların səviyyəsinin göstəricisi olub. Ziyalı hesab olunan hər bir kəsin bir göstəricisi də onun yazı mədəniyyəti ilə ölçülüb. Yazı mədəniyyətini isə insanlar birdən-birə əxz etməyib, uzun müddət bu istiqamətdə təcrübə keçiblər. Deməli, yazı vərdişlərinin formalaşması ilə bağlı görüləcək işlərin aktuallığı öz əhəmiyyətini itirmir. Dili yaxşı öyrətməyin bir yolu da tələbələrə yazı vərdişlərini aşılamaqdan başlayır.

Ədəbiyyat

1. Alexander L. G. “Essay and Letter Writing”. Printed in Hong Kong. Published in October, 1967.
2. Jeremy Harmer “The Practice of English

language teaching". Csmbridge, UK
3. George Yule "The study of language". Cambridge University Press 2010

Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Quliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 16.01.2022, son daxilolma – 15.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 129-132
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 129-132
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.129-132

UOT 372.862

Orta ümumtəhsil məktəblərində texnologiya fənninin tədrisinin hazırki vəziyyətinə dair bəzi mülahizələr

Müəlliflər:

Coşqun Qurbanov
Naxçıvan Müəllimlər institutu
E-mail:
cosqun1993@outlook.com

Rövşən Bağırov
Naxçıvan Müəllimlər institutu
E-mail: rovshanb@outlook.com

Nizami Quliyev
Naxçıvan Müəllimlər institutu
E-mail: nizamiq@outlook.com

Açar sözlər:
məktəb, texnologiya fənni, müəllim, məktəb, texnologiya, forma, müasir, tədris, üstün, çatdırma, fərq, vəzifə, mövzu, tələbə

Annotasiya. Orta ümumtəhsil məktəblərində texnologiya fənninin bügünə olan vəziyyəti haqqında ümumi məlumat verilmişdir. Məqalədə "Müasir dövrdə texnologiya fənninin qarşısında hansı tələblər qoyulur?", "Texnologiya fənnin tədris edən müəllimlər nələrə daha çox diqqət etməlidirlər?", "Texnologiya müəllimləri tədris etdikləri fənni çagirdlərə sevdirmək üçün hansı metod və üsullardan istifadə etməlidirlər ki, müsbət nəticələr əldə edə bilsinlər?" kimi və sair suallara cavab axtarılır. Qeyd olunur ki, bəzi məktəblərdə texnologiya fənninə ögey münasibətin olması və dərsi az olan müəllimlərə, yəni qeyri-ixtisas müəllimlərinə verilməsi hal-hazırda ən böyük problərdən biridir. Həmin müəllimlər isə bu fənni şagirdlərə sevdirə bilmirlər. Bununla belə, müşahidələr və təmaslar göstərir ki, öz fənnini şagirdlərə sevdirən bir çox texnologiya müəllimləri də vardır. Məqalədə həmin müəllimlərin iş təcrübəsindən müəyyən qeydlər öz əksini tapmışdır.

Some considerations on the current state of technology teaching in secondary schools

Authors:

Coshgun Gurbanov
Nakhchivan Teachers Institute
E-mail:
cosqun1993@outlook.com

Rovshan Bagirov
Nakhchivan Teachers Institute
E-mail: rovshanb@outlook.com

Nizami Guliyev
Nakhchivan Teachers Institute
E-mail: nizamiq@outlook.com

Key word:
school, technology subject, teacher, school, technology, form, modern, teaching, superior, delivery, difference, task, subject, student

Abstract. The article "What are the requirements for the subject of technology in modern times?", "Technology what should teachers who teach the subject pay more attention to?", "What methods and techniques should technology teachers use to endear the subject they teach to apprentices so that they can achieve positive results?"search for answers to such and other questions. It is noted that the presence in some schools of a step-by-step attitude towards the subject of technology and its transfer to teachers with few classes, that is, non-specialized teachers, is currently one of the biggest probes. And they do not know what to do with it. However, observations and contacts show that there are also many technology teachers who endear their subject to students. The article reflects certain notes from the work experience of those teachers.

Некоторые соображения относительно текущего состояния преподавания технологии в средних общеобразовательных школах

Авторы:

Джошгун Гурбанов
Нахчыванский институт учителей
E-mail:
cosqun1993@outlook.com

Ровшан Багиров
Нахчыванский институт учителей
E-mail: rovshanb@outlook.com

Низами Гулиев
Нахчыванский институт учителей
E-mail: nizamiq@outlook.com

Ключевые слова:
школа, учитель, ученик, предмет, технология, преподавание

Аннотация. В статье дана общая информация о состоянии преподавания предмета «Технология» в средних общеобразовательных школах. В ней изыскиваются ответы на такие вопросы, как «Какие требования предъявляются к дисциплине «Технология» в современный период?», «На что учителя, преподающие технологии, должны обращать больше внимания?», «Какие методы и приемы должны использовать учителя технологии, чтобы сделать свой предмет приятным для учащихся, чтобы они могли добиться положительных результатов?» и так далее. В ней отмечается, что в некоторых школах пренебрежительное отношение к предмету «Технология» и предоставление их учителям, у которых мало уроков, то есть неквалифицированным учителям, в настоящее время является одной из самых острых проблем. А эти учителя не могут содействовать, чтобы ученики полюбили этот предмет. Однако наблюдения и контакты показывают, что есть также много учителей технологии, которые делают свой предмет любимым для учащихся. Статья содержит определенные заметки из опыта работы этих учителей.

Hal hazır ki, dövrdə texnologiya fənninin tədrisi heçdə bütün məktəblərdə eyni formada tədris olunmur. Bunun bir çox səbəbləri vardır. Nəzərə alsaq ki, müasir dövrdə bütün fənlərin ixtisaslı müəllimlər tərəfindən tədris olunması qarşıya bir məqsəd kimi qoyulsada bu əsasən belə deyildir. Bütün məktəb direktorlarında belə bir fikir formalaşmışdır ki, texnologiya dərslərini nisbətən az dərsi olan müəllimlər arasında bölmək daha yaxşı olardı.

Bu isə hal hazır ki, dövrdə texnologiya fənninə ögey bir münasibətdir. Qeyd etməliyəm ki, hər bir müəllim öz ixtisası üzrə daha faydalı ola bilər. Buna həmişə diqqətlə yanaşmaq faydalı olar. Əgər müasir dövrdə hər bir texnologiya müəllimi tədris etdiyi mövzunu şagirdlərə çatdırmaq üçün səmərəli yollardan istifadə etmirsə demək həmin müəllim şagirdlərin sevimlisinə çevrilə bilməz. Bu bütün fənlərin tədrisində tələb olunur, nəyə görə texnologiya fənninin tədrisində bu üsül tətbiq edilməsin.

Texnologiya müəllimi hər şeydən əvvəl tədrisində İKT-dən istifadə etməklə müasir texnologiyaların üstünlüyü haqqında və eləcədə fənninə aid bütün yenilikləri şagirdlərə çatdıra bilməzmi. Şatdırmağa çalışmalı bu kimi əyani vasitələrdən həmişə istifadə etməlidir. Çünki şagirdlər bütün yeniliklər haqqında nəisə eşitdikdə öz işlərində yəni dərsdən kənar vaxtlarında istifadə etməyi və yaxud tətbiq etməyi sevirlər.

Əgər deyilənlərə diqqət yetirsək onda görərik ki, heçdə həmişə asan olmur. Deyilənlərə qiqqət yetirmək və işdə tətbiq etmək isə texnologiya müəlliminin metoduna və istifadə etdiyi üsula bağlıdır.

Texnologiya müəllimi tədris etdiyi mövzu üzrə şagirdə nə isə yeni bir iş, fikir və yeni maraqlı bir yön göstərmirsə şagird həmin dərsdən diqqəti digər tərəfə yönəldəcək, fikirı müəllimdə olmayacaq. Bunu aradan qaldırmaq üçün hər bir texnologiya dərsi praktik olmalıdır. Bu zaman müəllim şagirdlərin qabiliyyətinə dah çox fikir verməli və ortaya çıxan qabiliyyətin inkişafına təkan verməlidir. Bu müəllimin gündəlik işində daha dəqiq olmaqla yerinə yetrilməlidir. Hər bir şagird dərsdə nəyisə öyrənməlidir ki gələcəkdə ona texnologiya fənni daha maraqlı gəsin. öyrənmək üçün daima can atsın. Əgər keçirilən dərsdə texnologiya müəllimi yeni nəyisə öyrədirsə dərs maraqlı olmaqla yanaşı öyrədici dərsə çevrilir. Bu da müəllimilərin həmçinin texnologiya müəlliminin bu gün qarşısına qoyulan vəzifələrdən biri deyilmi.

İndi isə aparılan tədqiqatın nəticələrinə diqqət yetirək. Həm Azərbaycan Respublikasının təqribən bütün təhsil müəssələrində texnologiya dərslərini ixtisaslı müəllimlər tədris etmir. Bu həmdə Naxçıvan Muxtar Respublikasındakı təhsil müəssələrinə də aitdir. Hələ bir neçə il əvvəl Naxçıvan Dövlət Universitetində keçirilən tədbirlərin birində bu məsələ Təhsil Nazirinin diqqətinə çatdırılmışdır. Ancaq hələlik demək olar ki, heç bir yenilik yoxdur.

Həm şəhər məktəblərində həmdə rayon daxilindəki təhsil müəssələrində texnologiya dərsləri ixtisas sahibi olan texnologiya müəllimləri tərəfindən aparılmır. Bu da texnologiya dərslərinə şagirdlər tərəfindən diqqətsizliyə ehtinasızlığa gətirib çıxarır. Bunu aradan qaldırmaqla həm bütüb təhsil müəssələrində yeni biliyə malik, bütün tüxnologiyaların iş prosesinə yiyələnmiş gənc müəllimlərin işlə təmin olunması və həmin məktəblərdə ixtisaslı müəllimlərin yerləşdirilməsi ilə yanaşı texnologiya dərslərinə şagirdlərin marağını da artırmış oluruq.

Həqiqət naminə demək lazımdır ki, həm rayon daxilindəki təhsil müəssələrində həm də Naxçıvan şəhərindəki, məktəblərdə ixtisasını sevən və sevdirən çox dəyərli müəllimlər vardır. Texnologiya müəllimliyini bitirib yeni yeni fəaliyyət göstərən gənc müəllimlərdə həmişə öz işlərində yenilikçi olmağa çalışırlar. Yeniliyin texnologiya dərslərində tətbiqi isə dərsə marağı tamamilə dəyişir. Buna misal olaraq Şərur rayonunun 1 saylı tam orta məktəbində texnologiya müəllimlərinin eləcədə Çomaxtur kənd tam orta məktəbində texnologiya müəlliminin fəliyyətini nümunə kimi demək yerinə düşərdi. Dişər tərəfdən isə Naxçıvan şəhərindəki, 14 saylı tam orta məktəbində texnologiya müəllimlərinin müsbət işindən danışmamaq mümkün deyildir. Ordubad rayonunda yerləşən internat məktəbinin texnologiya müəlliminin işininə qeyd etsək yerinə

düşmüş olur. İşinə məsuliyyətlə yanaşan bir çox texnologiya müəlliminin adlarını və yaxud işini misal gətirmək olardı. Həmin təhsil müəssələrində işləyən müəllimlər gündəlik işlərində diqqətli və tələbkardırlar ki, bu da dərslərin tamamilə səmərəli keçməsinə və maraqlı olmasına səbəb olur.

Təhsil Nazirliyinin proqramı əsasında mövzuların dəqiq yerinə yetrilməsi üçün və həmin mövzunun tam qavranması üçün texnologiya müəllimləri daha cox əyaniliyə fikir verməli və buna nail olmağa çalışmalıdırlar. Dərsdə həmin qabaqcıl müəllimlər yeni metodlardan istifadə etməklə işlərini günün tələbləri səviyyəsində qurmağa çalışmalı və digər həmkarlarının da buna nail olmasına can atmalıdırlar. Bu isə hal hazır ki, mərhələdə məktəbdə şagirdlərin diqqətini peçələrə yönəltməklə onların həmin peşəni sevməsinə səbəb olurlar. Texnologiya müəllimlərinin qarşısına bugünkü qoyulan məsələlərdən biridə şagirdlərin müasir peşələrə istiqamətləndirilməsi vəzifəsi qoyulmuşdur. Keçmiş peşələrdən fərqli olaraq indiki , dövrdə elə dünyəvi əhəmiyyətə malik peşələr vardır ki, şagirdlərimizin müəyyən faizini ora yönəltməklə həm dövlətimizə həm də xalqımıza böyük köməklik etmiş oluruq. Dediklərimizin həyata keçrilməsi isə ilk növbədə müəllimin dərsinə və işinə vicdanla yanaşmasından asılıdır. Əgər dərsi tədris edən müəllim işinə vicdanla yanaşmırsa demək heçbir nəaliyyətə çatmaq və yaxud yiyələnmək olmaz

Məyər yuxarıda dediklərimiz hazır ki, dövrdə texnologiya müəllimlərinin qarşısına qoyulan müasir tələblər deyilmi. Texnologiya dərslərinin hazırki, vəziyyəti dedikdə bir istiqamətidə yaddan çıxarmaq lazım deyil. Nədir bu istiqamət. Gəlin görək texnologiya dərslərində istifadə olunacaq dəzgahlar, tərtibatlar və avadanlıqlar bütün məktəblərdə vardırmı. Əlbəttdə buna tam müsbət cavab verməkolmaz. Elə məktəblərimiz var ki, orda texnologiya dərslərində heç həmin avadanlıqların və yaxud dəzgahların şəkili belə yoxdur. Bax bu məktəblərdə hansı müasir texnologiya dərsinin səmərəliliyindən keyfiyyətindən danışmaq olar. Bu mümkün olmayan bir işdir. Azərbaycan Respublikasının və Təhsil Nazirliyinin bugün bir tələbi nvardddır. Səmərəli dərs keçmək, savadlı xalqına və millətinə xeyir verə biləcək kadırlar hazırlamaq. Buna nail olmaq üçün isə hər bir müəllim üzərinə düşən işi layiqincə yerinə yetirməlidir. Bir tədris müəssəsində texnologiya müəllimi istifadə edə biləcək bir əyani vəsait yoxdursa həmin müəllim bugünkü gündə texnologiya dərslərində tələb olunanlara necə cavab verəcək. Digər tərəfdən isə texnologiya müəllimi düdiklərimizin olmaması qarşısında əlacsız qalmamalıdır. Burda bir sual meydana şıxır. Müəllim nə edə bilər? Həmin təhsil müəssəsində fəaliyyət göstərən texnologiya müəllimi ən azından əl qabiliyyətindən istifadə edərək (burada şagirdlərin əl qabiliyyətindəndə) dəzgahların, tərtibatların, avadanlıqların və alətlərin şəkillərini cəkməklə dərsi nisbətən maraqlı edə bilər. Digər tərəfdən texnologiya dərslərində müasir texnologiyalardan istifadə etməklə yəni texnologiya dərsində İKT- dən istifadə edərək bütün dəzgahların, avadanlıqların və alətlərin iş prosesindən danışaraq onu əyəni göstərərək dərsin daha canlı keçməsinə nail ola bilər. Bu isə həm dərsə əyanilikdən istifadəni təmin edir.

Bugün texnologiya tərslərində daha bir yenilik tətbiq edilir. Bu STEAM adlanır. Buradan görünür ki, zaman geçdıkcə texnologiya müəllimlərinin qarşısına taha çox tələblər qoyulur ki, şagirdləri bu peşələrə yönləndirn. Texnologiy dərsləri həmdə STEAM-ın tətbiqi ilə yəni müasir avadanlıqların proqramlaşdırma yolu ilə tətbiqinə üstünlük veməklə tədris olunğı vacib sayılır.

STEAM-ın tətbiqi daha maraqlı təşkil olmalı şagirdlər yeniliklərə yiyələnmək üçün çox əzimkarlıqla çalışmalı və öyrənməlidirlər. Bunun öyrənilməsi üçün sadəcə maraq və həvəs yetərli deyildir. Şagirdin digər fənlərlədə əlaqəsi mükəmməl olmalıdır. Yeni avadanlıq, İKT-dən istifadə texnologiya dərslərində modelləşdirməni də ön plana çıxarır. STEAM-da əsas məsələ proqramlaşdırmanı mükəmməl bir şəkildə öyrənməyi vacib sayır və əsas məsələ kimi qarşıya qoyulur.

Burdan belə nəticəyə gəlirik ki, müasir dövrdə texnologiya müəllimlərinin qarşısında çox böyük tələblər qoyulur. Bunların yerinə yetrilməsi üçün isə hal hazır ki, dövrdə texnologiya dərslərinin bugün ki, vəziyyətini kö-

kündən dəyişmək əsas məqsəd olmalıdır.

Texnologiya dərslərinin hazırki vəziyyəti bir o qədərdə pis olmasada yaxşı da deyildir.

Texnologiya müəllimləri qarşıya qoyulan məsələnin tam müsbət həlli üçün işlərində dönüş yaratmalı, dərslərin səmərəliliyini artırmalı və yeniliklərin dərslərində tətbiqinə nail olunmalıdır. Aydin məsələdir ki, hər yeni texnologiyanın tətbiqi asan olmur. Ancaq bunu həyata keçirmək üçün var qüvvə ilə çalışmaq vicdanla işləmək üzərimizə düşən işləri layiqincə yerinə yetirmək əsəs məsələ olmalıdır

Bu isə bugünkü gündə texnologiya dərslərinin hazırki vəziyyətinin dahada yaxşılaşdırılmasına xidmət edir.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru Qızıllı Əliyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –23.01.2022 , son daxilolma –10.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 133-136
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 133-136
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.133-136

UOT 372.8.+004

Orta məktəb informatika kursunda artırılmış reallıq texnologiyalarının tətbiqi

Müəlliflər:

Ənnağı Əsgərov
Naxçıvan Dövlət Universiteti
E-mail:
askerov_a1970@mail.ru

Əli Səbzəliyev
Naxçıvan Dövlət Universiteti
E-mail: ali_zmh@mail.ru

Açar sözlər:
model, informasiya, məktəb, texnologiya, tədris, sistem

Annotasiya. Müasir informasiya texnologiyalarının əsas texniki vasitəsi kompüterdir, onun aparat və proqram təminatı bir çox informasiya proseslərini, o cümlədən telekommunikasiya vasitələrinin qarşılıqlı əlaqəsini avtomatlaşdırmağa imkan verir. Məktəbdə informatika fənninin tədrisini təkmilləşdirmək üçün artırılmış reallıq texnologiyasının dörd əsas komponentdən ibarət olması vacibdir: aparat, brauzer, tanınma sistemi və məzmun. Artırılmış reallıq sistemlərinin təsnifatı üçün meyarlar onların istifadəçi ilə qarşılıqlı əlaqə növü, hərəkətlilik dərəcəsi və funksional məqsədi ola bilər. Digər məktəb fənləri ilə müqayisədə ümumtəhsil informatika kursunun özünəməxsus xüsusiyyəti var - informasiya texnologiyaları (daha dəqiq desək, bu texnologiyaların vasitələri) təkcə təlim vasitəsi deyil, həm də öyrənmə obyektidir.

Authors:

Annagi Asgarov
Nakchivan State University
E-mail:
askerov_a1970@mail.ru

Ali Sabzaliyev
Nakchivan State University
E-mail: ali_zmh@mail.ru

Key word:
model, ınformation, school, technology, teaching, system

Application of augmented reality technologies in high school informatics course

Abstract. The main technical means of modern information technology is a computer, the hardware and software of which allows you to automate many information processes, including the interaction of telecommunication means. To improve the teaching of computer science at school, it is important that augmented reality technology consists of four main components: hardware, browser, recognition system and content. The criteria for the classification of augmented reality systems can be the type of their interaction with the user, the degree of their mobility and functional purpose. Compared to other school subjects, the comprehensive Informatics course has its own peculiarity - information technology (more precisely, the means of these technologies) is not only a means of training, but also an object of study.

Авторы:

Аннаги Аскеров
Нахчыванский государственный университет
E-mail:
askerov_a1970@mail.ru

Али Сабзалиев
Нахчыванский государственный университет
E-mail: ali_zmh@mail.ru

Ключевые слова:
модель, информация, школа, технология, обучение, система

Применение технологий дополненной реальности в курсе информатики в средней школе

Аннотация. Основным техническим средством современных информационных технологий является компьютер, аппаратное и программное обеспечение которого позволяет автоматизировать многие информационные процессы, в том числе и взаимодействие средств телекоммуникаций. Для улучшения преподавания информатики в школе важно, чтобы технология дополненной реальности состояла из четырех основных компонентов: оборудования, браузера, системы распознавания и контента. Критериями классификации систем дополненной реальности могут быть тип их взаимодействия с пользователем, степень мобильности и функциональное назначение. В сравнении с другими школьными дисциплинами общеобразовательный курс информатики имеет свою уникальную особенность - информационные технологии (точнее, средства этих технологий) являются не только средством обучения, но и объектом изучения.

İnsanın informasiya ilə nə qədər səmərəli işləyə bilməsi onun informasiya cəmiyyətinə inteqrasiyasından asılıdır. Bundan əlavə, müasir mütəxəssislərin naviqasiya etməli olduqları məlumat axınları durmadan artır, informasiya ilə işləmək üçün yeni texnologiyaların (bir sıra alətlər və metodlar) inkişafını stimullaşdırır. Müasir informasiya texnologiyalarının əsas texniki vasitəsi kompüterdir, onun aparat və proqram təminatı bir çox informasiya proseslərini, o cümlədən telekommunikasiya vasitələrinin qarşılıqlı əlaqəsini avtomatlaşdırmağa imkan verir.

Müasir məktəbdə müxtəlif fənlərin tədrisində müxtəlif informasiya texnologiyaları vasitələrindən istifadə olunur. Təhsilin informasiyalaşdırılması vasitələrinə ədəbiyyat və tarix dərslərində təqdimatlar və virtual arxivlər, həndəsə dərslərində üçölçülü modellər, rəsm və əmək dərslərində kompüter dizayn sistemləri, fizika dərslərində fiziki simulyatorlar və ya astronomiya dərslərində günəş sisteminin modelləşdirilməsi misal ola bilər. Bu hallarda məktəblilər informasiya texnologiyaları vasitələrinin köməyi ilə təhsil alırlar, lakin eyni zamanda, informasiya texnologiyalarının özü və ona daxil olan alətlər (məsələn, qrafika və ya multimedia ilə işləmək üçün texnologiya və alətlər) yalnız "alət" rolunu oynayır. ".

Digər məktəb fənləri ilə müqayisədə ümumtəhsil informatika kursunun özünəməxsus xüsusiyyəti var - informasiya texnologiyaları (daha dəqiq desək, bu texnologiyaların vasitələri) təkcə təlim vasitəsi deyil, həm də öyrənmə obyektidir. İnformatika dərslərində məktəblilər bunun üçün informasiya texnologiyası vasitələrindən istifadə edərək bilavasitə informasiya texnologiyalarını öyrənirlər. İnformasiya texnologiyaları kimi, kompüter də məktəb informatika kursunda "ikiqat rol" oynayır. Beləliklə, kompüter həm öyrənmə vasitəsi (məktəblilər kompüter texnologiyasından istifadə edərək öyrənirlər), həm də öyrənmə obyekti (məktəblilər kompüterin özünü - onun aparat və proqram təminatını öyrənirlər) kimi çıxış edir.

Artırılmış reallıq texnologiyası ümumiyyətlə təhsildə, xüsusən də informatikanın tədrisində hələ də geniş yayılmayıb. Bu cür vasitələrin tədrisi və istifadəsi metodologiyasını hazırlamaq üçün ilk növbədə öyrənilən texnologiyanın mahiyyətini və xüsusiyyətlərini daha ətraflı nəzərdən keçirmək lazımdır.

Bu günə qədər artırılmış reallığın xüsusiyyətlərinin təhsildə sonrakı istifadəsi baxımından öyrənilməsinə həsr olunacaq tədqiqatlar və xüsusən də dissertasiyalar yoxdur. Eyni zamanda, virtual reallıq texnologiyası artırılmış reallıq texnologiyasının prototipi hesab olunur.

Fəlsəfi tərəfdən virtual reallıq M.Y.Openkovun kompüter texnologiyasının inkişafının dialektikasını və onun sosial inkişafa təsir aspektlərini göstərən doktorluq dissertasiyasında ətraflı nəzərdən keçirilmişdir. Onun qənaətlərinə görə, virtual reallıq və onun törəmələri, o cümlədən artırılmış reallıq sosial münasibətlərin və təhsilin inkişafı üçün əhəmiyyətli potensiala malikdir [1].

Bu texnologiyaların və onların müvafiq alətlərinin hər ikisi çoxlu ortaq cəhətlərə malikdir. Hər iki texnologiya müəyyən interaktiv informasiya sahəsini təşkil edir. Eyni zamanda, birinci texnologiya insanı real obyektlərdən və proseslərdən maksimum dərəcədə uzaqlaşdırır, ikincisi isə əksinə, onlarla qarşılıqlı əlaqəyə əsaslanır. Virtual reallıq (Virtual Reallıq) artırılmış reallıqdan (Augmented Reality) kompüter texnologiyasından istifadə etməklə əmələ gələn obyektlərin nisbətindəki fərqə və ətraf mühitlə qarşılıqlı təsirinə görə fərqlənir. Virtual reallıq kontekst cəhətdən müstəqildir (real obyektlərdən, proseslərdən və hadisələrdən nisbətən müstəqildir), əhatə dairəsi daha dardır.

Məktəblilərə informatika fənninin tədrisi üçün qurulmuş metodik sistem çərçivəsində "artırılmış reallıq" termininin istifadəsi bu anlayışın dəqiq tərifini tələb edir. Eyni zamanda, bu termin üçün vahid, universal, hərtərəfli və ya ümumi qəbul edilmiş tərif yoxdur. Beləliklə, məsələn, eyni texnologiyaya istinad etmək üçün tez-tez başqa bir ad istifadə olunur: "artırılmış reallıq".

Tipik artırılmış reallıq sistemi belə görünür: kompüter videokameradan istifadə edərək ətrafdakı məkanı təhlil edir, sistem ona tanış olan real dünyanın obyektlərini tapmağa çalışır.

Sistem fiziki obyekti tanıdıqdan sonra kompüter ekranında müəyyən rəqəmsal məlumatları (virtual obyekti) göstərir, bir qayda olaraq, bu, real dünya obyektinə "üst-üstə qoyulmuş" 3D modeldir. Sistem Virtual obyekti real obyektə "bağlayır" və real obyektlə fiziki qarşılıqlı əlaqə zamanı (məsələn, fırlananda və ya hərəkət edərkən) istifadəçi dərhal virtual obyektlə qarşılıqlı əlaqəyə girir (o da fırlanır və ya hərəkət edir) [2-3]. Eyni zamanda kompüter ekranına baxan istifadəçi virtual obyektin real dünyada mövcud olduğunu hiss edir. Artırılmış reallıq obyekti şəklində real və virtual obyektlərin birləşdirilməsi nümunəsi aşağıdakı şəkildə göstərilmişdir.



a) real obyekt (marker) b) virtual obyekt (3D model) c) artırılmış reallıq obyekti

Artırılmış reallıq obyekti şəklində real və virtual obyektlərin birləşməsi

Yuxarıdakı təsvirdə "real obyekt" terminləri və "virtual obyekt", onun da müəyyən edilmiş tərifləri yoxdur. Bu anlayışlar çoxqiymətlidir və onların şərhi istifadə sahələrindən asılıdır.

Artırılmış reallıq texnologiyalarının inteqrasiyası hesabına məktəb fənlərinin, o cümlədən informatikanın tədrisi üçün metodik sistemlərin təkmilləşdirilməsinə ehtiyac iki əsas səbəblə əsaslandırılır:

• müəyyən şərtlər daxilində artırılmış reallıq texnologiyasından istifadə təlimin effektivliyinə təsir edə bilər;

• artırılmış reallıq texnologiyasının insanın peşə fəaliyyətinə və gündəlik həyatına tədricən nüfuz etməsi bu texnologiyanın daxili strukturunun xüsusiyyətlərini deyil, həm də onun praktiki tətbiqinə yanaşmaları öyrənməyi zəruri edir.

Bundan əlavə, təhsil və ictimai sahə ilə bağlı tədqiqatlarda artıq qeyd edildiyi kimi, hər hansı bir virtual reallığın şagirdlərin sosiallaşmasına, onların kommunikativ və yaradıcılıq qabiliyyətlərinin inkişafına təsirinin əhəmiyyətini qeyd etmək və nəzərə almaq vacibdir [4].

Hazırda informatika fənninin tədrisi zamanı kompüter savadlılığının inkişafının tətbiqi problemlərinin həlli əvəzinə, informatikanın fundamental əsaslarının mənimsənilməsinə və onların informasiya mədəniyyətinin formalaşdırılmasına üstünlük verilməsinə xüsusi diqqət yetirilir. İnformatikanın ümumtəhsil kursunun məzmun-metodiki xətləri arasında xüsusi yeri "İnformasiya texnologiyaları" xətti tutur.

Məktəbdə informatika fənninin tədrisini təkmilləşdirmək üçün artırılmış reallıq texnologiyasının dörd əsas komponentdən ibarət olması vacibdir: aparat, brauzer, tanınma sistemi və məzmun. Artırılmış reallıq sistemlərinin təsnifatı üçün meyarlar onların istifadəçi ilə qarşılıqlı əlaqə növü, hərəkətlilik dərəcəsi və funksional məqsədi ola bilər.

Artırılmış reallıq təlimi müxtəlif məktəb fənləri əsasında kompleks şəkildə həyata ke-

çirilməli, informatika isə əsas inteqrasiya rolunu oynamalıdır. Bu yanaşma informatikanın tədrisinin metodik sisteminin məqsədlərinin, məzmununun və digər komponentlərinin dəqiqləşdirilməsini tələb edir.

Artırılmış reallıq vasitələri müxtəlif fənlərin, o cümlədən informatikanın tədrisini daha effektiv edə bilər [6]. Bunu nəzərə alaraq məktəbdə informatika fənninin tədrisi sistemi müvafiq vasitələrdən və tədris metodlarından istifadə istiqamətində genişləndirilməlidir.

Ədəbiyyat

1. Опенков М.Ю. Виртуальная реальность. Диссертация доктора философических наук: 09.00.01 / М.Ю. Опенков //, 1997, с.246
2. Dong, Suyang and Behzadan, Amir H and Chen, Feng and Kamat, Vineet R. "Collaborative visualization of engineering processes using tabletop augmented reality". Advances in Engineering Software. Elsevier. – 2013. 55: 45-55
3. Livingston, Mark A. "Evaluating human factors in augmented reality systems". IEEE Computer Graphics and Applications. – 2005. IEEE. 25 (6): 6-9
4. Гвинтовкин А.Н. Виртуальное пространство как среда социализации молодежи в условиях становления информационного общества на примере Ростовской области : диссертация ... кандидата социологических наук: 22.00.04 / А.Н. Гвинтовкин // [Место защиты: Юж. федер. ун-т]. - Ростов- на-Дону, – 2013, – 198 с.
5. Гриншкун А.В. Возможности использования технологий дополненной реальности при обучении информатике школьников/А.В. Гриншкун // Вестник МГПУ. Серия информатика и информатизация образования. – М.: МГПУ, – 2014. №3 (29), – с.87-93

Məqalə riyaziyyat üzrə elmlər doktoru, dosent Yaqub Məmmədov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 18.01.2022, son daxilolma – 15.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 137-144
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 137-144
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.137-144

UOT 159.9

Məktəbli bullinqi iştirakçılarının psixoloji xüsusiyyətləri

Müəlliflər:

prof. Elnarə Şəfiyeva

dos. Sevinc Allahyarova

dos. Aydan Səməndərova

Açar sözlər:
məktəbli bullinqi, buller, qurban, aqressiya, özünüqiymətləndirmə, intihar

Annotasiya. Məqalədə məktəb bullinqinin strukturu nəzərdən keçirilir. Bu prosesin iştirakçılarını xarakterizə edən psixoloji xüsusiyyətlər təsvir olunur. Məktəb bullinginin bütün iştirakçılar üçün psixoloji nəticələri təhlil edilir. Bu fenomenə qarşı mübarizədə profilaktik tədbirlərin rolu qeyd olunur. Tədqiqatın məqsədi məktəb mühitində bulling iştirakçılarının fərdi-psixoloji xüsusiyyətlərini öyrənmək və onların qarşısının alınması və psixo-korreksiyasına dair psixoloji tövsiyələrin hazırlanmasıdır. Tədqiqatın nəticələri pedaqoji, yaş, sosial psixologiya, şəxsiyyətin psixologiyası sahəsində praktiki əhəmiyyətə malikdir. Tədqiqat zamanı əldə edilən məlumatlar təhsil mühitinin psixoloji təhlükəsiz təminatı proqramının yaradılmasında, habelə təhsil mühitində bullinq iştirakçıları ilə psixokorreksiya işinin təşkil olunmasında, onların psixoloji xüsusiyyətlərinə istinad etməklə istifadə edilə bilər. Elmi yenilik ondan ibarətdir ki, indiyədək aparılmış tədqiqatlardan fərqli olaraq məqalədə məktəb bullinqinin dəqiq rol strukturu təqdim edilmiş, bullinq iştirakçılarının fərdi-psixoloji xüsusiyyətləri ətraflı öyrənilmişdir.

Psychological characteristics of participants in school bulling

Authors:

Elnara Shafiyeva

Sevinj Allahyarova

Aydan Samandarova

Key word:
school bullying, persecutor, victim, aggr ession, self esteem, suicide

Abstract. The article considers the structure of school bullying. The psychological characteristics characterizing the participants in this process are described. The psychological consequences of school bulling for all participants are analyzed. The role of preventive measures in the fight against this phenomenon is noted.The purpose of the study is to study the individual-psychological characteristics of bulling participants in the school environment and develop psychological recommendations for their prevention and psycho-correction.The results of the study are of practical importance in the field of pedagogical, age, Social Psychology, psychology of personality. The data obtained during the study can be used in the creation of a program for the psychological safe provision of the educational environment, as well as in the organization of psychocorrectional work with bulling participants in the educational environment, with reference to their psychological characteristics. The scientific novelty is that, unlike the studies carried out so far, the article presents the exact role structure of school bullying, and the individual-psychological characteristics of bullying participants are studied in detail.

Психологические особенности участников школьного буллинга

Авторы:

Эльнара Шафиева

Севиндж Аллахбярова

Айдан Самандарова

Ключевые слова:
школьный буллинг, буллер, жертва, агрессия, самооценка, суицид

Аннотация. В статье рассматривается структура школьного буллинга. Описываются психо-логические особенности характеризующие участников этого процесса. Анализи-руются психологические последствия школьного буллинга для всех участников. Отмечается роль профилактических мероприятий в борьбе с этим явлением. Цель исследования заключается в изучении индивидуально-психологических особенностей участников буллинга в школьной среде и разработке психологических рекомендаций по их предупреждению и психокоррекции. Результаты исследования имеют практическое значение в области педагогической, возрастной, социальной психологии, психологии личности. Полученные в ходе исследования данные могут быть использованы при создании программы обеспечения психологической безопасности образовательной среды, а также для организации психокоррекционной работы с участниками буллинга в образовательной среде, с опорой на их психологические особенности. Научная новизна состоит в том, что в отличие от проведенных до сих пор исследований, в статье представлена точная ролевая структура школьного буллинга, подробно изучены индивидуально-психологические особенности участников буллинга и т.п.

Məlum olduğu kimi, məktəbdəki qarşılıqlı münasibətlər sistemi yeniyetmənin bir şəxsiyyət kimi gələcək inkişafı üçün son dərəcə əhəmiyyətlidir. Elə bu səbəbdən də son zamanlar dünyanın bütün ölkələrinini təhsil müəssisələ-rinin ciddi probleminə çevrilmiş məktəbli bullinqi xüsusi diqqət tələb edir. Belə ki, məhz məktəbdəki situasiya yeniyetmələrin gələcək inkişafını və şəxsiyyət xüsusiyyətlərinin formalaşmasını müəyyən edir. Yeniyetmə bullinq situasiyasında müəyyən davranış nümunəsini mənimsəyərək, bütün həyatı boyu həmən nümunəyə əməl edə bilir. Özü də bullinq situasiyası təkcə bullinq qurbanlarına deyil, eləcə də onu həyata keçirən bullerlərə də neqativ təsir edir. Bu zaman təzahür edən aqressiya səmərəli olursa, gələcəkdə həmin yeniyetmələrin davramış üslubu kimi möhkəmlənə bilir.

Məktəbli bullinqi probeliminin bu baxımdan aktuallıq kəsb etməsinə baxma-yaraq, yerli ədəbiyyatlar demək olar ki, çox az işıqlandırılmışdır. Qərb olkələrində isə bullinq problemi bir nömrəli problemdir.

Bullinq probleminin ilk sistematik tədqiqi Norveçli ailmlərdən D.Olveus, P.Heinemann, A.Pikas, E. Rolandın adi ilə bağlıdır.

ABŞ-da isə məktəb bullinqi probleminə 1990-cı illərin əvvəllərindən diqqət yetirilməyə başladı. ABŞ-ın məktəb işçilərinin milli assosiasiyası öz tədqiqatları əsasında bullində belə tərif verdilər ki, bullinq bir və ya bir neçə şagirdin digər şagirdə münasibətdə nümayiş etdirdiyi, qəsdən ziyan yetirməyə çəhd göstərdiyi verbal və qeyri-verbal davranışın dinamik və təkrarlanan modelidir.

Müəlliflərdən E.Rolan isə məktəbli bullinqinin strukturu məsələsinə diqqəti cəlb edərək, sadəcə buller və bullinq qurbanlarının deyil, bu sturktura daxil olan, orda müxtəlif rollardan çıxış edən bütün bullinq iştirakçılarının şəxsi xüsusiyyətlərinin öyrənilməsinin əhəmiyyətini virğulayırdı.

Son zamanlar bu istiqamətdə tədqiqat aparan bir sıra müəlliflər də eyni mövqedən çıxış edirlər. Belə ki, bullinq sadəcə onun qurbanlarına deyil, bullinqin bütün iştirakçılarına özünəməxsus şəkildə təsir göstərir.

Başqa uşaqları bullinqə məruz qoyanlar bullinq qurbanları ilə müqayisədə əllərində olan bu "hakimiyyətdən" və yüksək statusdan böyük məmnunluq duyurlar. Bu səbəbdən də bullerlərdə başqa insanlara münasibətdə empatiyanın inkişafı ilə bağlı problemlər yaranır. Bu da sonrayı yaş dövründə onların deviant və kriminal davranışına səbəb ola bilər [6, s.35–54.].

Bullinq iştirakçılarının fərdi-psixoloji xüsusiyyətlərini daha yaxşı dərk etmək üçün ilk növbədə bullinq situasiyasında onların hansı mövqe tutub, hansı rolları icra etmələrinə aydınlıq gətirmək lazımdır. Müəlliflərdən P.Smit və K.Ananiad məktəbli bullinqinin iştirakçılarının aşağıdakı təsnifatını təklif edir [7, s. 189-192]:

Bullinqin təsəbbüskarı (buller və ya təqibçi), bullerin yardımçısı (o bulerə yardım etməyə onu təqlid etməyə çalışır), qurbanın müdafiəçisi (bir qayda olaraq müdafiəçilər sinifdə yüksək avtoritetə malik olurlar), qurban, müşahidəçi (neytral iştirakçı).

Adətən bullinqi sinifdə şagirdlərdən biri başlayır. Bir qayda olaraq o, sinfin lideri, təlimdə uğur qazanmış, yaxud da əksinə çox aqressiv və uğursuz şagirdlərdən biridir. Bullinqin müşahidəçiləri isə bullinqdən zövq almır, məmnunluq duymur. Lakin qurbana çevrilməmək üçün bu prosesə cəlb edilmək, yaxud qorxudan susmaq məcburiyyətində qalırlar. Müşahidəçilərdən cəsarətliləri isə qurbanın müdafiəsinə qalxır. Lakin qurbanların passivliyi, böyüklərin bu situasiyanı susaraq dəstəkləməsi onları geri addım atmağa məcbur edir. Beləcə, bullinq qurbanı bullerlərlə və izdirabları ilə təkbətək qalır.

Məktəbli bullinqinin hər bir iştirakçısını səciyyələndirən psixoloji xüsusiyyətlərə nəzər yetirək:

1. Bullerlər – buller rolunda bir çox hallarda narsis xarakter xüsusiyyətlərinə malik uşaqlar çıxış edir. Narsistin isə əsas xüsusiyyəti hakimiyyətə cəhd, başqalarının hesabına özünü təsdiq etməkdir. Hakimiyyəti sevən bu şagirdlər aktiv və passivlər olmaqla iki yerə bölünür. Aktivlər davamlı olaraq təkcə şagirdlərə deyil, müəllimlərə də söz atır. Müxtəlif taktikadan istifadə edirlər: bilərəkdən hər şeyi çox ləng edir, dərs zamanı bitməmiş yarımçıq işi təhvil

verirlər. Müəllimin tələbləri ilə hesablaşmırlar [5, s.185-187].

Passivlər isə müəllimlə normal davranır, lakin özlərini yaşıdları və ya daha kiçik yaşlı uşaqlar üzərində təsdiq edir. Onlar tamaşaçı olmadan hərəkət etmir. Hakimiyyətlərini mütləq nümayiş etdirmək üçüm tamaşaçıya ehtiyac duyurlar.

Müəlliflərdən D.Olveus də bullerlər üçün səciyyəvi olan bir neçə əlaməti fərq-ləndirir: bullerlər əmindirlər ki, bütün sinif yoldaşlarını özlərinə tabe etsələr istə-diklərinə daha asan nail ola bilərlər; tez özlərindən çıxırlar, qurbanlarına qarşı empatiya hissi yoxdur, diqqət mərkəzində olmağı sevirlər. Əgər bullinq situasiyasının tamaşaçıları yoxdursa, bullinq baş verməyəcək. Bullerlər özlərinin qurbandan daha yüksəkdə olduğunu hesab edir. Əgər sinifdə lider deyillərsə, liderliyə can atırlar. Aqressivdirlər. Ünsiyyətdə kompromisə getmirlər. Zəif özünənəzarətə malikdirlər. Böyüklərlə, valideyn və müəllimlərlə qarşı aqressiv davranırlar. Yaşıdları ilə müqayisədə təlim prosesində ciddi çətinliklər yaşayır. Qurbanlarından fiziki baxımdan güclüdürlər.

Bullerlər-fəaldırlar, ünsiyyətlidirlər, sinifdə liderliyi ələ almaq istəyirlər, diqqət mərkəzində olmağa çalışırlar, özlərini təsdiq üçün zəif qurbandan istifadə edirlər, digərlərinə yuxarıdan aşağı baxır, şagirdləri "bizimkilər" "yadlar" olmaqla fərqləndirir (bu da əslində müvafiq ailə tərbiyəsinin nəticəsidir). Onlar maksimalistdirlər, əsla kompromisə getmirlər. Aşağı özünə nəzarətə malikdirlər. Öz davranışlarına görə məsuliyyəti üzərilərinə götürməyi öyrənməyiblər.

Bullerlər üçün impulsivlik, əsəbilik, emosional qeyri-sabitlik, yüksək özünüqiymətləndirmə, ədavətlilik, yalançılığa meyl, kommunikativ vərdişlərin olmaması xasdır.

Bütün bullerlər üçün ümumi cəhət zahirən qabarıq təzahür edən narsist əlamətlərdir. Onların bütün diqqətləri özlərinə yönəlib. Hörmətə və dəstəyə ehtiyac duyurlar. Lakin bu dəstəyi valideynlərindən ala bilmirlər. Onların çoxu sosial baxımdan uğursuz ailədə tərbiyə olunur. Bu səbəbdən də özlərini zorakılıq və terror yolu ilə tanıtmağa cəhd edirlər. Bundan başqa bullerlərə özünəvurğuluq, müvazinətsizlik, impulsivlik, qeyri-adekvat özünü qiymətləndirmə xasdır. Onlar özləri haqqında pis fikir yarada biləcək istənilən stimulu şəxsi hədə kimi qəbul edir və dərhal hərəkətə keçirlər. Bullerlər öz avtoritetlərini şəxsi nailiyyətlər hesabına deyil, digərlərini alçaltmaq yolu ilə yüksəldirlər.

Bullerlər hər zaman güc və zorakılıq kultunu dəstəkləyir. Sosial normalar onun üçün heçdir. Onlara riayət etmək vacib deyil. Özündən zəiflərə nifrət edir. Bullerlər bütün məsələləri konflikt, şantaj, fiziki hədə-qorxu, döymə vasitəsilə həll edir. Bullerlərin bəzisində sadistik meyllə müşahidə olunur.

Norveç psixoloqu Dan Olveusa görə, bullinq təşəbbüskarlarına (bullerlərə) aşağıdakılar xasdır [4, s.72-75]:

Onlar əmindirlər ki, hökmranlıq edərək, kimisə özünə tabe edərək məqsədlərinə çatmaq asan olacaq, qurbanlarına qarşı empatiya duymur, fiziki baxımdan güclü oğlanlardırlar, tez özlərindən çıxır, impulsivdirlər və aqressiv davranışa meyllidirlər, diqqət mərkəzində olmağı sevirlər, qurbandan üstün olduqlarına əmindirlər, yüksək iddia səviyyəsinə malikdirlər, sinifdə lider olmaq istəyirlər, özlərini təsdiq etmək üçün qurbana ehtiyac duyan aqressiv uşaqlardırlar, kompromissləri qəbul etməyən uşaqlar, özlərinə nəzarəti aşağı olan uşaqlar, hansı sinif yoldaşlarının onlara müqavimət göstərməyəcəklərini intuitiv hiss edən uşaqlardır.

Beləliklə, bullerə sinifdə lider olmaq istəyən ünsiyyətli və fəal, özünütəsdiq üçün özünü müdafiə edə bilməyən qurban tapmış aqressiv uşaqlar, var qüvvələri ilə diqqət mərkəzində olmaq istəyən, ətrafdakıları "bizimkilər" "yadlar" prinsipinə görə bölən, başqalarına empatiya duymayan eqosentriklər, kompromissə getmək istəməyən maksimalist uşaqlar çevrilə bilər.

Onlar bullinqin digər iştirkaçılarından daha avtoritardırlar. Bu xüsusiyyətləri onlara yardıçmılarını özlərinə tabe etmək imkanı verir. Bu da onlara imkan verir ki, qurbanı bullinqə məruz qoyan zaman daxilən özlərinə haqq qazandıraraq subyektiv olaraq haqlı olduqlarını hiss etsinlər. Təqibçilər öz icra etdikləri rollarına baxmayaraq, özlərini çox mülayim mehriban xeyirxah hesab edir. Dözümlü olmağa çalış-

mırlar. Onların yüksək özünüqiymətləndirməsi və iddia səviyyəsi var.

Oğlan bullerlər daha çox fiziki aqressiyaya, ləğəblər vermə, məsxərəyə qoymaya meyllidirlər.

Tədqiqatçıların oğlan bullerlərin şəxsi keyfiyyətləri haqqında fikirləri fərqlidir. Bir qisim müəlliflər hesab edir ki, oğlan bullerlər üçün qorxu, həyəcan qərar qəbulu zamanı mühakimə və yönəlişlərdə konformluq, daxili aləmin qapalılığı, özündən narazı olma, öz haqlılığına şübhə, etdiyi əmələ görə peşmanlıq, özünütəsdiq meyli səciyyəvidir. Digər müəlliflər isə oğlan bullerləri impulsiv və müxtəlif ailə tərbiyə üslubunda böyümüş oğlanlar kimi xarakterizə edir. Onların aqressiv davranışı valideynlərinin nümunəsindən öyrəndiklərini də inkar etmək olmaz. Xüsusilə də əgər ailədə fiziki cəza, zorakılıq tətbiq edilirsə, ailə üzvləri arasında isə emosional bağ yoxdursa.

Qızların bullinqə meylinin səbəbləri də müxtəlif ola bilər. Harmonal problemlər, avtoritar ata yaxud ananın olmaması, feminist dəyər və baxışlara bağlılıq, onlar üçün müəyyən edilmiş gender roluna qarşı etiraz, yaşıdlar qrupunda lider olmaq istəyi, yaşanılmış zorakılıqdan sonra bu zorakılığa qarşı müdafiə reaksiyası, kişilərə xas idman növləri ilə məşğul olmaq.

Qız bullerlər üçün aşağıdakı şəxsi keyfiyyətlər səciyyəvidir: eqosentrizm, həyəcanlılıq, demonstrativlik, özünə diqqəti cəlb etmək, infantillik, emosional qeyri-yetkinlik. Adətən onlarda ətrafdakılara qarşı qeyri-sabit münasibət, kimisə günahlandırmaq meyli, neqativ emosiyaların tez baş qaldırması, frustrasiyaya qarşı aqressiv reaksiya, özünüqiymətləndirmənin qeyri-sabitliyi müşahidə olunur [5, s. 185].

Qız bullerlər qurbanı məsxərəyə qoyma, onlara ləqəb vermə, onlar haqqında dedi-qodu yayamağa meyllidirlər. Maskulan keyfiyyət daşıyıcısı olan qızlarda isə bullinqin fiziki formaları təzahür edə bilər.

Yaş artdıqca oğlanlarda aqressiv davranış zəifləyir, qızlarda isə əksinə güclənir.

Ümumilikdə, yeniyetmələrin ümumi aqressivliyi ədavət, söyüş, neqativizm, yalan, vandalizm şəklində təzahür edir. Bu cür yeniyetmələr xuliqanlıq formasında olan öz antisosial davranışlarını gizlətmir. Bəzi hallarda isə onlarda oğurluq yaşıdlarına qarşı fiziki zorakılıqda da təzahür edir [3, s: 251-255].

Aqressiv yeniyetmələr üçün aşağı özünüqiymətləndirmə, başqalarını müdafiə etməklə tələb olunan situasiyalardan uzaqlaşma xasdır. Onlar öz mənfəətləri üçün digər insanlarla manipulyasiya edir. Bununla yanaşı, onlar frustrasiyaya meyllidir, onlarda hipertrofiya olunmuş asılılıq tələbatı var. Onlar nizam intizama tabe olmur.

Aqressiv-tənha tiplə yanaşı, İ.Furmanov qrup halında olan aqressiv tipdən bəhs edir. Onlar evdən kənarda yaşıdlar kompaniyasında qrup halında aqressiv davranış nümayiş etdirir. Onlar bu qrupla birlikdə dərsdən qaçır, vandallıq aktları, digərlərinə qarşı fiziki zorakılıq, oğurluq, əhəmiyyətsiz qanun pozuntuları, antisosial əməllər törədir [1, s: 25-30].

2. Bullerin köməkçiləri (təqibçilər) – Bir çox hallarda bullinqə təqibçilər. davamçılar qrupu qoşulur. Buller məhz onlarla birlikdə öz aqressiyasını həyata keçirir. Onların sinifdə sosiometrik statusu çox aşağıdır. Onlar təqibçilərə yardım etməklə sinifdə hörmət qazana bilmir. Onlar da asılı tipdirlər. Bunun hesabına təqibçilər onları özlərinə tabe edir. Eyni zamanda köməkçilər həm də kifayət qədər avtoritardırlar. Bu da onlarda daxili diskomforta səbəb olur. Bilavasitə bullinq şkalası üzrə ən yüksək göstəricilər məhz köməkçilərdə müşahidə olunur. Belə ki, çox vaxt məhz onlar digər şagirdləri döyür, onlara ləğəb qoyur. Təqibçilər isə sadəcə məqsədi müəyyən edir və plan qururlar. Bullerin köməkçilərində ataları ilə ünsiyyətdə ciddi problemlər müşahidə olunur. Güman ki, onlar məhz təqibçilərdə atalarına aid keyfiyyətləri görür və məhz bu səbəbdən də təqibçilərə yardım etmyə çalışır. Köməkçilərin özünüqiymətləndirmə və iddia səviyyəsinin göstəriciləri orta səviyyədədir.

Bəs bullerlərin köməkçisiləri kimlərdir?

- Qeyri müstəqil, ətrafdakıların təsirinə asanlıqla düşən, qeyri-təşəbbüskar uşaqlar;

- Həmişə qaydalara riayət etməyə çalışan uşaqlar

- Baş verənlərə görə öz məsuliyyətini qəbul etmək istəməyən uşaqlar (onlar baş verənlərdə

çxo vaxt başqalarını günahlandırır);

- Çox vaxt böüyk uşaqların sərt nəzarətinə məruz qalan uşaqlar (onların vali-deynləri çox tələbkardır və fiziki cəza tətbiq etməyə meyllidirlər);

- Eqosentrikdirlər, özlərini başqasının yerinə qoya bilmirlər;

- Özlərinə əmin deyillər, dostluqlarına, sinifdəki liderin ona göstərdiyi etimada xüsusi dəyər veirir;

- Qorxaq və acıqlı uşaqlar.

Bu yeniyetmələr nə üçün təqibçiyə çevrilir?

Birincisi- onların çoxu kütlə psixologiyasına tabe olur – hər kəs vurdu, mən də vurdum. O, baş verənlər haqqında düşünmur. Sadəcə ümumi əyləncədə iştirak edir. O an, qurbanın nələr hiss etdiyini isə ağlından belə keçirmir.

İkincisi, bəzi yeniyetmələr liderin hörmətini qazanmaq üçün belə davranır.

Üçüncüsü, bəziləri darıxdığı üçün, əyləncə xatirinə bullinqdə iştirak edir.

Dördüncüsü, təqibçilər bullinqdə eynən qurbanın vəziyyətinə düşə biləcəkləri qorxusundan aktiv iştirak edir. Çoxluğa qarşı getməyə cəsarət etmirlər.

Və nəhayət, təqibçilərin az faizi bu yolla özünü təsdiq edir. Hansısa sahədəki uğursuzluqlarının əvəzini burda çıxır. Bu o uşaqlardır ki, çox vaxt küçədə böyüklər tərəfindən qapazaltıya çevrilir, evdə valideynləri tərəfindən sərt fiziki cəzalanır. Onlar dərsdə uğur qazana bilmir və sinif yoldaşlarının simpatiyasını da qazana bilmirlər.

Təqibçilərə aşağıdakı psixoloji xüsusiyyətlər xasdır:

- Qeyri-müstəqillik, qeyri-təşəbbüskarlıq, ətrafdakıların təsiri altına asanlıqla düşmə;

- Konformizm. Onlar hər zaman qaydalara, müəyyən standartlara əməl etməyə çalışır;

- Baş verənlərə görə öz məsuliyyətlərini qəbul etməyə meylli deyillər (onların valideynləri çox tələbkardır, fiziki cəzaya əl atır);

- Böyüklər tərəfindən sərt nəzarətə məruz qalırlar;

- Eqosentrikdirlər. Özlərini başqalarının yerinə qoya bilmir. Öz davranışlarının nəticələri haqqında düşünməyə meylli deyillər;

- Özlərinə əmin deyillər. Liderlə "dostluqlarına" dəyər verirlər;

- Qorxaqdırlar.

3. Bullinq qurbanları – məktəb bullinqinin tipik qurbanı mövcud deyil. Istənilən şagird bullinq qurbanına çevrilə bilər. Daha zəif mövqedə olmaq və ya yüksək statuslulardan kiminə "ayağını taptaması" yetər ki, şəxs qurbana çevrilsin. Lakin bununla belə, bullinq qurbanına çevrilmə riski özünə əmin olmayan, həyəcanlı, kollektivdə dostu olmayan şagirdlər üçün daha yüksəkdir. Qurbanlar sağlamlıq və davamiyyətlə bağlı çətinliklər yaşayır, öz yaşıdlarından 3 dəfə çox həyəcanlı-depressiv pozuntulardan, apatiya, baş ağrılarından əziyyət çəkir, intihar cəhdləri edir. Onlar dünyanı təhlükə dolu, özünü isə baş verənlərə təsir göstərməyə qabil olmayan biri kimi görür. Beləliklə, bullinq qurbanı kateqoriyasına öz yaşıdlarından hansısa xüsusiyyətinə görə fərqlənən uşaqlar daxil olur: fiziki xüsusiyyət, maddi vəziyyət, hətta sadəcə xarakterə görə.

Bullinq qurbanlarının sinifdəki sosiometrik statusu və ünsiyyətdən məmnunluq göstəricisi aşağıdır. Bu da onların sinifdəki aşağı mövqeyindən xəbər verir. Qurbanlar digər bullinq iştirakçıları ilə müqayisədə daha zəif və asılıdırlar. Onların özünüqiymətləndirməsi daha aşağıdır, iddia səviyyəsi isə kifayət qədər yüksəkdir. Daha dəqiq desək qurbanlar özlərindən narazıdırlar. Özlərini qəbul etmir, güman ki, dəyişmək istəyirlər. Həyəcanlılıq səviyyəsi, ünsiyyətdə çətinliklər və konfliktlilik də qurbanlarda daha yüksəkdir.

Müşahidələr göstərir ki, bullerlərin 50%-i özləri evdə zorakılığa məruz qalır. Ataları tərəfindən döyülən, eləcə də anaları atası tərəfindən incidilən oğlanlar məktəbə gəldikdə daxildə ataya qarşı toplanmış aqressiyalarını daha zəiflərə yönəldir.

Ümumiyyətlə, bullinq qurbanı üçün müdafiə olunmama, qorxaqlıq, aşağı özünüqiymətləndirmə, yüksək aqressivlik, psixoloji və sosial problemlər səciyyə-vidir. Məhz bullinq prosesi bu sadalanan amillər üst-üstə düşdükdə baş verir:

1. Müdafiənin olmaması – bullinq o halda baş tutur ki, qurbanı kimsə müdafiə etmir. Əks halda bullinqə tez son qoyulur məsələn, əgər aşağı sinif şagirdini kimsə ayaqyolunda döyürsə, yuxarı siniflərdən heç kim buna re-

aksiya vermirsə, ona qarşı bullinq davam edəcək. Fiziki zəif oğlanlar da daha güclü yaşıdları tərəfindən hücuma məruz qalır. Lakin əgər valideyn və müəllimlərin sərt reaksiyası olursa, bullinq təkrarlanmır. Bu səbəbdən də bullerlər hiyləgərcəsinə davranır: onlar ya müdafiə oluna bilməyən qurbanı seçir, ya da ətrafdakıların ona qarşı simpatiyasını məhv edir.

2. Qorxaqlıq – bullerlər qorxduğu üçün özünü müdafiə edə bilməyəcəkləri, zəif şagirdləri qurban olaraq seçir. Əslində onların özləri də qorxaqdır. Ona görə də özlərindən zəif qurban seçir. Qurban isə bir neçə səbəbdən bullerə qarşı dayanmır: buller daha qüvvətlidir, qarşı tərəfdən daha güclü aqressiya ilə qarşılaşacağından qorxur. Bəzi uşaqlar isə valideynlərinin onlara tələqin etdiyi "dava etməkpisdir" ustanovkası üzündən özlərini müdafiə etmir.

3. Aşağı özünüqiymətləndirmə - bullinq qurbanları özlərindən narazıdırlar. Bu daha çox özünü o uşaqlarda göstərir ki, onlarda hiperaktivlik, diqqət əskikliyi sindromu, kəkələmə müşahidə olunur. Risk qrupuna həm də o uşaqlar aiddir ki, onları ailələri dəstəkləmir, yaxınları ilə etibarlı münasibətləri yoxdur. Uşaq başlı başına qalıb və vaxtı küçədə keçir.

4. Yüksək aqressivlik – bəzən bullinq qurbanına istənilən irada emosional reaksiya verən uşaqlar çevrilir. Bu halda aqressivlik reaktiv xarakter daşıyır və yüksək oyanıqlıqdan və müdafiəsizlikdən irəli gəlir.

5. Psixoloji və sosial problemlər – tənhalıq, sosial uğursuzluq, depressivlik, yaşıdları ilə ünsiyyətə girə bilməmək, qüsurluluq kompleksi, dünyanın mənzərə-sinin neqativ olmasına dair dərin inam, öz ailəsində zorakılıq, zorakılığa passiv olaraq boyun əymək. Bütün bunlar uşağın məktəbdə bullinq qurbanı rolunda çıxış etməsinin əsas şərtləridir. Qorxaqlıq, həyəcanlılıq, həssaslıq, fərdi xarakter xüsusiyyətləri kimi uşağı mühafizəsiz edir, bullerlərin diqqətini cəlb edir.

Göründüyü kimi, bullinq qurbanı istənilən şagird ola bilər. Ən çox da öz mövqeyini müdafiə edə bilməyən uşaqlar. Onlar özlərinə əminliyi nümayiş etdirə bilmir. Onlar öz ünvanlarına deyilən təhqirlərin xoş olmadığını ətrafdakılara bəlli etməməyə çalırşır. Lakin onların davranışı bunun əksini göstərir. Bullerlər qurbanın emosional reaksiyasını görür, incidiyini müşahidə edir və buna görə də öz təhqirlərini təkrar edir.

D.Olveus qurbanın 2 tipini fərqləndirir [2, s: 159-165]:

Birinci tip öz fiziki zəifliyini gizlədə bilmir (bu uşaqlar sinif yoldaşlarından fiziki baxımdan zəifdirlər. Özlərinə əmin deyillər, həyəcanlıdırlar. Emosiyalarını cilovlaya bilmir, çox vaxt yaşıdlarının deyil, özlərindən yaşca böyüklərin əhatəsini seçir. Onlara həyəcanlılıq, həssaslıq, özünə qapanma, depressiyaya meyllilik, bullerdən fiziki baxımdan zəiflik səciyyəvidir. Bu qurbanlarda özünü-qiymətləndirmə aşağıdır. Ona dəstək ola biləcək dostları da yoxdur.

Ikinci tip uşaqlar özlərinə qarşı neqativ münasibətə təhrik edirlər. Bu uşaqlara aqressivlik, hiperaktivlik, provakasiyaya emosional reaksiya xasdır.

Bullinq qurbanları bir çox hallarda məktəbdəki problemləri valideynlərindən gizlədir.Valideynlər bu haqda çox gec, iş intihar cəhdinə gəlib çıxdıqda - xəbər tutur.

4. Bullinqin şahidləri (müşahidəçiləri) - onları bəzən tamaşaçı, yaxud neytral iştirakçı da adlandırırlar. Onların sinifdə sosiometrik statusu kifayət qədər yüksəkdir. ən az asılılığa düşən onlardır. Bu səbəbdən də onlar konfliktlərə qarışmırlar. Sadəcə kənardan onu izləyirlər. Lakin bir çox hallarda məhz onların hərəkətsizliyi, qarışmamaları bullinqi provakasiya edir. Bundan əlavə bir çox hallarda təqibçilər neytral iştirakçıların istəklərinin icraçısı olurlar.

Bu rolda həm uşaqlar, həm də böyüklər ola bilər – gözləri qarşısında bullinq baş verən zaman bu prosesə qarışmayan texniki personal, müəllimlər. Sinif rəhbərləri sinifdəki situasiyanı gözəl anlasalar da, bullinq situasiyasının tənzimlənməsi üçün heç bir şey etmirlər.

Baxmayaraq ki, bullinqin şahidləri gördüklərinə reaksiya vermir, onlar da gördüklərinin təsiri altında olur: məktəbdə olarkən tez-tez qorxu hissi keçirir, özlərini köməksiz hiss edir, çünki bullinqi durdura bilmirlər. Eyni zamanda onlar hərəkətsizlik göstərdikləri üçün günah hissi keçirir.

Bullinqin şahidləri "güclə" "zəiflik" arasında seçim etməli olurlar. Qurbanlar çox vaxt gülünc və yazıq görünür. Və bu səbəbdən də tamaşaçılar zəiflərlə assosiasiya olmaq istəmirlər. Tamaşaçılar çox vaxt öz şəxsi məsuliyyətlərini hiss etmirlər. Belə ki, bullinq hər kəs kimi davranmağa təşfiq edir.

Bullinq şahidlərində onlara qarşı da bullinqin törədilə biləcəyi qorxusu var. Yaranmış situasiyada onlar özlərini köməksiz hiss edir. Digər tərəfdən onlar qurbana yardım göstərəcəkləri təqdirdə baş verə biləcək mümkün nəticələrdən qorxurlar. Müşahidəçilər bullinq situasiyasından qaçmağa cəhd edirlər ki, bullinqə cəlb edilməsinlər, beləcə daxili konfortlarını mühafizə edirlər.

Göründüyü kimi, müşahidəçilər məktəb bullinqinin əsas kütləsidir. Onlar çox vaxt buller qarşısında qorxu və köməksizlik hiss edir. Onları çox vaxt alçaldılan qurbanların maraqlarını müdafiə etmədiklərinə görə günah hissi narahat edir. Lakin təzahür edən bu günah hissi uzun müddətli deyil. Tədricən sinifdəki qarşılıqlı münasibətlər dəyişir və bu uşaqlar da qurbana qarşı amansız olmağa başlayır.

5. Müdafiəçilər- müdafiəçilərin sinifdə sosiometrik statusu çox yüksəkdir. Onlar ümumilikdə tutduqları mövqedən razıdırlar. Onlar digərlərindən daha az sinif yoldaşlarına qarşı bullinqi təzahür etdirir və özləri də bullinqə məruz qalmır.

Onların özünüqiymətləndirməsi yüksəkdir. İdealda onlar xeyirxah olmaq istəyirlər. Bu xüsusiyyətləri onlara qurbanı başa düşməyə ona yardım etməyə imkan verir.

Tədqiqatlar göstərir ki, bullinq qurbanı olan yeniyetmələr onlara münasibətdə təzahür edən aqressiyanı gizlətməyə meyllidirlər. Özlərini köməksiz hiss edir, davamlı olaraq hər kəs qarşısında təhlükə hiss edir. Onlar özlərinə inamsızdır. Nəticə etibarı ilə özünə hörməti və öz gücünə inamı itirir.

Bullinq çox yoluxucudur. Tədricən bullinq elə adiləşir ki, insan buna görə şəxsi məsuliyyətini hiss etmir. Bullinq sadəcə hər şeyi hər kəs kimi etməyə vadar edir. Qurbanın izdirabları isə təkrarlanır. Bullinqin ona məruz qalmış uşaqlarda izləri isə həyatlarının sonuna qədər mühafizə olunur, bəzi hallarda isə ciddi posttravmatik stress pozuntusunun inkişafına səbəb olur.

Beləliklə də, məktəbli bullinqinin şagirdlərin fiziki və xüsusilə də psixoloji sağlamlığına ciddi ziyan vurması, hətta bəzi hallarda intihara səbəb olması böyü-məkdə olan gənc nəslin psixoloji sağlamlığını və təhlükəsizliyini ön plana qoyur, belə neqativ hallarla fəal mübarizə aparmağı eləcə də, bullinq iştirakçılarının hər birini səciyyələndirən fərdi-psixoloji xüsusiyyətləri nəzərə almaqla bu istiqamətdə səmərəli kompleks tədbirlər planının, psixoloji tövsiyələrin, profilaktika və korreksiya proqramlarının hazırlanmasını tələb edir.

Ədəbiyyat

1. Воликова С.В. Школьное насилие и суицидальное поведение детей и подростков / Воликова С.В., Нифонтова А.В., Холмогорова А.Б.// – Москва: Вопросы пихологии. – 2013, № 2, – с. 25-30.

2. Глазман О.Л. Психологические особенности участников буллинга// – Санкт Петербург: Известия Российского государственного педагогического университета им. А. И. Герцена. – 2009, № 105, – с.159-165.

3. Гуттенбюль А. Зловещее очарование насилия. Профилактика детской агрессивности и жестокости и борьба с ними. / Гуттенбюль А. – СПб: Питер, – 2000, – 320 стр.

4. Кутузова Д.А. Травля в школе: что это такое и что можно с этим делать //. – Москва: Журнал практического психолога. – 2007. Вып.1, – с. 72-90.

5. Макарова Ю.Л. Гендерные особенности поведения участников под-ростковой буллинг-структуры // - Омск: Психология. Историко-критический обзор и современные исследования. – 2017. Т 6, № 5А, – с. 181-192

6. Ahmed Eliza Bullying and victimization: cause for concern for both families and schools / Ahmed E., Braithwaite V. // Social Psychology of Education. – Cambridge, UK: Cambridge University Press, – 2004. № 7, – p. 35–54.

7. Smith Peter K. The Nature of Bullying

and the Effectiveness of School-Based Interventions / Smith P.K, Ananiadou K. // – New Jersey: Journal of Applied Psychoanalytic Studies. – 2003. Vol. 5, № 2, – p. 189-209

Məqalə psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –01.02.2022 , son daxilolma –14.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 145-150
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 145-150
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.145-150

UOT 94(479.24)

Zəngəzurun itirilməsi və Naxçıvanın muxtariyyət statusunun zəruriliyi

Müəllif:

İsmayıl Hacıyev
AMEA Naxçıvan Bölməsinin sədri, akademik
E-mail: hacıyev.i1951@gmail.com

Açar sözlər:
Zəngəzur, Naxçıvan, muxtariyyət, B.Şahtaxtinski, Moskva və Qars müqavilələri, ərazi-sərhəd məsələləri, Konstitusiya

Annotasiya. Məqalədə Sovet Rusiyası ilə Ermənistan arasında bağlanmış hərbi-siyasi saziş əsasında Zəngəzurun bir hissəsinin Ermənistan SSR-yə verilməsi şəraiti təhlil edilir, Naxçıvanın Azərbaycandan ayrı düşməsi, quru əlaqələrinin pozulması ilə Naxçıvana muxtariyyət statusunun verilməsi zəruriliyi əsaslandırılmışdır. Burada Naxçıvan əhalisinin müəyyən dövlətlərin maraqlarına qarşı çıxmaları, Naxçıvanın ermənilər tərəfindən işğal etmələrinə qarşı mübarizəsi, Moskva və Qars müqavilələrinin Azərbaycanın tərkibində Naxçıvana muxtariyyət statusun verməsi, Naxçıvan MSSR-in yaradılması, keçdiyi tarixi inkişaf yolu və uğurlarından bəhs edilmişdir.

Author:

Ismayil Hajiyev
Chairman of Nakhchivan Branch of ANAS, academician
E-mail: hacıyev.i1951@gmail.com

Key word:
Zangezur, Nakhchivan, autonomy, Behbud Shakhtakhtinsky, Moscow and Kars treaties, territorial and border issues, Constitution

Loss of Zangezur and necessity of Nakhchivan autonomy status

Abstract. The article analyzes the conditions for the transfer of a part of Zangezur to the Armenian SSR on the basis of a military-political agreement between Soviet Russia and Armenia, justifies the need to grant Nakhchivan the status of autonomy due to the rupture of land ties and the separation of Nakhchivan from Azerbaijan. It spoke about the opposition of the population of Nakhchivan to the interests of certain states, the struggle against the occupation of Nakhchivan by Armenians, the granting of Nakhchivan the status of autonomy within Azerbaijan by the Moscow and Kars Treaties, the creation of the Nakhchivan ASSR, the historical path of development and the achievements through which it passed.

Автор:

Исмаил Гаджиев
Председатель Нахчыванского отделения НАНА, академик
E-mail: hacıyev.i1951@gmail.com

Ключевые слова:
Зангезур, Нахчыван, автономия, Бехбуд Шахтахтинский, Московский и Карсский договоры, территориально-пограничные вопросы, Конституция

Потеря Зангезура и необходимость статуса автономии Нахчывана

Аннотация. В статье анализируются условия передачи части Зангезура Армянской ССР на основании военно-политического соглашения между Советской Россией и Арменией, обосновывается необходимость предоставления Нахчывану статуса автономии в силу разрыва сухопутных связей и отделения Нахчывана от Азербайджана. В нем говорилось о противодействии населения Нахчывана интересам определенных государств, борьбе с оккупацией Нахчывана армянами, о предоставлении Нахчывану статуса автономии в составе Азербайджана Московским и Карсским договорами, о создании Нахчыванской АССР, об историческом пути развития и достижениях, через которые она прошла.

Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutan Naxçıvan Muxtar Respublikasının yaradılmasının 98-ci ildönümü tamam olur. Naxçıvanın muxtariyyət məsələsinin siyasi gündəmdə yerini almasının əsas səbəbi 1920-ci il dekabrın 2-də Rusiya ilə Ermənistan arasında bağlanmış hərbi-siyasi saziş olub. Həmin sazişə əsasən, qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan məqsədli şəkildə Azərbaycanın əsas ərazisindən ayrı salındı. Bununla da Naxçıva-nın muxtariyyət məsələsi gündəliyə gəldi. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, "Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi" [8, s.75].

Sovet Rusiyası Ermənistanı sovetləşdirmək üçün Azərbaycanın bir sıra torpaqlarını Azərbaycanın xəbəri və iştirakı olmadan Ermənistana verirdi. Bunun əsası hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuşdu. Sovet Rusiyasının təzyiqi ilə İrəvan şəhəri paytaxt kimi 1918-ci il mayın 29-da Ermənistana verilmişdi [2, s.51]. Bundan sonra Ermənistanın ərazi iddiaları artmışdı. Onlar açıq-aşkar bildirirdilər ki, Ermənistan bu kiçik ərazidə yaşaya bilməz, ona yeni torpaqlar verilməlidir. Ermənistan SSR himayədarlarının köməyi ilə 1918-1920-ci illərdə qonşu Azərbaycan ərazilərini Ermənistana birləşdirmək üçün açıq silahlı mübarizəyə başladılar. Azərbaycan Xalq Cümhuriyyəti naxçıvanlılara lazımi köməklik göstərə bilmirdi. Siyasi və diplomatik sahədə Naxçıvanı müdafiə etsə də, hərbi və maddi yardım göstərə bilmirdi. Bununla belə naxçıvanlılar öz qüvvələrinə arxalanaraq ermənilərə qarşı qətiyyətli mübarizə aparırdı. Bu işdə onlara Naxçıvan Milli Komitəsi və Araz-Türk Cümhuriyyəti rəhbərlik edirdi. Təsadüfi deyildir ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışında deyirdi ki, hökumət yaranmış şəraitdə Naxçıvana real yardım göstərə bilmədi, "...igid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər; onlar həyatlarını, ailələrinin şərfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..." [19, s.810].

Ermənilərin Naxçıvan və Şərur iddiaları bitib tükənmədiyindən Naxçıvan əhalisi ciddi-cəhdlə Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışır, onunla birləşmək üçün müxtəlif yol və vasitələr axtarırdı. Bütün bunlar isə AXC tərəfindən razılıqla qəbul olunur, müəyyən tədbirlər görülürdü.

1919-cu ilin əvvəllərində ingilislər Naxçıvana gəlmiş, onlar öz fəaliyyətində Naxçıvanı Ermənistana vermək üçün çalışırdılar. AXC bunun qarşısını almaq üçün Səməd bəy Cəmillinskinin başçılığı ilə Naxçıvanda general-qubernatorluq yaratdı. İngilislərdən sonra, ABŞ nümayəndələri Naxçıvana gəldi. Onların məqsədlərini bilən qəhrəman naxçıvanlılar və Milli Komitənin üzvləri onlara imkan vermədilər. Amerikalılardan yardım alan daşnak Ermənistanı 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün yeni cəhdlər etdi. Lakin Naxçıvan əhalisinin misilsiz qəhrəmanlığı sayəsində Şərur, Naxçıvan, Ordubad əraziləri 1920-ci ilin ortalarına doğru tamamilə ermənilərdən təmizləndi.

1920-ci ilin iyulunda XI Ordu qüvvələri Naxçıvana göndərildi və hakimiyyət bolşeviklərin ixtiyarına keçdi. Bu zaman türk qoşun hissələri də Veysəl Ünüvarın başçılığı ilə Naxçıvanda yerləşmişdi [6, s.46-49, 50-52].

Beləliklə, bölgə əhalisinin inadlı mübarizəsi nəticəsində erməni silahlı quldur dəstələrinə layiqli cavab verildi və ərazi qorunub saxlanıldı. Sonradan – 1923-cü ildə bu məsələdən bəhs edən Ermənistanın birinci baş naziri O.Kaçaznuni etiraf edirdi ki, "müsəlman Naxçıvanı və Şərurunda..., müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik (işğal edə bilmədik – İ.H.), silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq. ...Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik" [18, s.56].

Sovet Rusiyasının Milli İşlər komissarı İ.Stalin Rusiyanın maraqlarından çıxış edərək, həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. O, 1920-ci il noyabrın 4-də Bakıda keçirilən bir müşavirədəki çıxışında deyirdi: "Əgər bilmək istəyirsinizsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar" [4, s.55]. İ.Stalinin bu fikri əslində Naxçıvanı Ermənistana vermək istiqamətinə yönəlmişdi, 24 gündən sonra Ermənistan sovetləşdirildi. Rusiyanın təzyiqi ilə noyabrın 30-da Nəriman Nərimanovun verdiyi bəyanatın qəzetlərdə saxtalaşdırılmış şəkildə nəşri ortaya çıxdı. Guya belə çıxırdı ki, N.Nərimanov Zəngəzur və Naxçıvanın Ermənistana verilməsinə tərəfdardır.

1920-ci il dekabrın 5-də Naxçıvan əhalisinin etirazları başlandı. Vəziyyətin bu cür kəskinləşdiyini görən Azərbaycan rəhbərliyi Xalq Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi [14, v.15]. B.Şahtaxtinski əhali ilə görüşlərində vəziyyəti izah etdi, çıxış yollarını göstərdi. O, hələ 1920-ci ilin əvvəllərindən başlayaraq V.Leninə göndərdiyi məktub və teleqramlarda Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsini əsaslandırırdı. 1921-ci ilin əvvəlində Naxçıvanda keçirilən referendumda əhalinin 90 faizindən çoxu Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi [12, v.79]. Referendumun nəticəsi əslində problemin həllində mühüm rol oynadı və Sovet Rusiyası bunu nəzərə almaya bilməzdi. B.Şahtaxtinskinin 1921-ci il martın 1-də Leninə göndərdiyi məktub və arayışda Cənubi Qafqazla, eləcə də Naxçıvanla bağlı mühüm məsələlər qaldırılırdı [3, v.1-2]. Artıq Moskvada Sovet Rusiyası ilə Türkiyə Böyük Millət Məclisi nümayəndələri arasında danışıqlar gedirdi. Bu danışıqlarda Naxçıvan məsələsi də müzakirə olunurdu. Müqavilədə Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması, ona muxtariyyət statusu verilməsi və üçüncü dövlətə verilməməsi məsələləri öz əksini tapdı. RSFSR ilə Türkiyə arasında 1921-ci il martın 16-da bağlanmış müqavilədə bunlar təsbit edildi [7, s.49]. Moskva müqaviləsi, eyni zamanda Rusiya və Türkiyə arasında mövcud olan problemləri də həll etdi. Lakin Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında həll olunmamış məsələləri nizama salmaq mühüm bir iş kimi qarşıda dururdu. Bunun üçün yeni bir konfrans çağırmaq və orada bu məsələləri həll etmək lazım idi. Dövlətlər arasındakı razılığa əsasən belə bir konfrans Qars şəhərində keçirildi. Qars konfransı sentyabrın 26-dan oktyabrın 13-dək baş tutdu və Qars müqaviləsinin bağlanması ilə yekunlaşdı. Konfransda Azərbaycanı xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud ağa Şahtaxtinski və Naxçıvan SSR-in XKS-nin göndərdiyi Tağı Səfiyev təmsil edirdi. Konfransda Türkiyə nümayəndələri çalışırdılar ki, hər respublika ilə ayrı-ayrılıqda müqavilə bağlanılsın. Lakin Rusiya nümayəndəsi Y.Qanetski buna imkan vermədi və respublikalar ilə vahid müqavilə bağlandı. Rusiyanın iştirakı ilə 20 maddə və 3 əlavədən ibarət olan Qars müqaviləsi Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında imzalandı [9, s.39-40].

Müqavilənin beşinci maddəsi bilavasitə Naxçıvanla bağlı idi. Bu maddəyə görə, "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet Respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirdilər" [10, s.26]. Bu maddəyə görə, Ermənistan Naxçıvanın Azərbaycanın himayəsinə verildiyini, Azərbaycan isə, bu himayəni qəbul etdiyini təsdiq edirdi. Müqavilənin "Naxçıvan ərazisi" adlanan III əlavəsində onun sərhədləri dəqiq müəyyən edilirdi: Sərhəd Urmiya kəndindən düz xətt ilə Arazdəyən stansiyasına, oradan Daşburun dağına və Moskva müqaviləsi ilə müəyyən edilmiş sərhədlər əsas götürülərək keçmiş Naxçıvan qəzasının Şərq inzibati sərhədlərində qurtarırdı [10, s.37-38]. Moskva müqaviləsi ilə müəyyən edilmiş ərazi Rusiyanın təhriki ilə Qars müqaviləsində bir qədər azaldılmışdı. Bununla belə, Qars müqaviləsinin nəticələrindən narazı qalan ermənilər yenə də öz qonşularına, ilk növbədə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürürdülər.

Müqavilənin Cənubi Qafqaz respublikaları üçün əhəmiyyətli cəhətləri vardır. Bu respublikaların Türkiyə ilə ərazi məsələləri həll

edildi, onunla mehriban qonşuluq münasibətlərinin əsası qoyuldu. Ermənistan Naxçıvanı Azərbaycan ərazisi kimi qəbul etdi.

Qars müqaviləsinin ən əhəmiyyətli tərəflərindən biri onun müddətsiz imzalanması idi. Artıq bu müqavilənin bir əsrlik tarixi vardır. Qars müqaviləsi ilə Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdir – bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular.

Xalqımızın ümummilli lideri Heydər Əliyev çox böyük uzaqgörənliklə Naxçıvanın muxtariyyət əldə etməsinə və bu sahədə Moskva və Qars müqavilələrinə böyük əhəmiyyət verərək demişdir: "Naxçıvanın muxtariyyəti tarixi hadisədir. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın, Azərbaycanın bütövlüyünü, təhlükəsizliyini, dövlət-çiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir..." [11, s.153].

Qeyd etmək lazımdır ki, əgər Naxçıvanda keçirilən 1921-ci il referendumu olmasaydı, Naxçıvanın muxtariyyət məsələsi gündəlikdən çıxarılacaq, Moskva və Qars müqavilələrində öz əksini tapa bilməyəcəkdi.

Qars müqaviləsinin əhəmiyyətindən bəhs edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: "Qars müqaviləsi dünən olduğu kimi, bu gün də, gələcəkdə də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir" [15, s.509].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında 2021-ci il fevralın 8-də Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "1921-ci il oktyabrın 13-də Azərbaycan, Ermənistan və Gürcüstan sovet sosialist respublikaları ilə Türkiyə arasında imzalanmış Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən və bu gün də əhəmiyyətini itirməyən mühüm sənəddir. Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, o cümlədən görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, Türkiyə dövlətinin məsələyə ədalətli yanaşması nəticəsində bu müqavilə Naxçıvanın ərazisi və bu ərazinin beynəlxalq müqavilə ilə qorunan toxunulmazlıq hüququnu təsbit etmişdir" [17, 2021, 9 fevral].

Beləliklə, keçirilmiş ümumxalq səsverməsi və beynəlxalq müqavilələr bölgənin gələcək taleyini müəyyənləşdirdi. 1924-cü il fevralın 9-da məhz bu sənədlər əsasında Naxçıvan Muxtar Respublikası yaradıldı.

Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində təsdiq edilmiş Əsasnamə və 1926-cı il aprelin 18-də qəbul olunmuş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının birinci Konstitusiyası ilə təsbit edildi. Konstitusiyanın ikinci maddəsində deyilirdi: "Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının protektoratlığında olmaqla onun tərkib hissəsidir" [13, v.1]. Naxçıvan MSSR-in sonrakı konstitusiyalarında da Naxçıvan Azərbaycan SSR-in tərkibində muxtar respublika kimi göstərilmişdir.

Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu oldu. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: I."Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. II.Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. III. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir" [1, s.53].

Naxçıvan Muxtar Respublikasının 1998-ci il yeni Konstitusiyasında Naxçıvan muxtar dövlət kimi ifadə olunmuş və onun Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublika olduğu təsbit edilmişdir [16, s.6].

Müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının ildönümləri dövlət səviyyəsində qeyd olunmuşdur. Həmin yubiley tədbirlərində ulu öndər Heydər Əliyev və ölkə Prezidenti İlham Əliyev iştirak etmişlər.

Muxtar respublikanın statusunun və sər-

hədlərinin beynəlxalq təşkilatlar səviyyəsində tanıdılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvan Muxtar Respublikası ilə bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, regionu çiçəklənən diyara çevirmişdir.

Muxtariyyət illərində Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Naxçıvana səfərləri, Zəngəzur dəhlizinin Naxçıvana açılması istiqamətində həyata keçirdiyi qətiyyətli tədbirlər, muxtar respublikaya göstərdiyi diqqət və qayğı bölgənin dayanıqlı və kompleks inkişafına, ən öncül regiona çevrilməsinə səbəb olmuşdur.

Burada Ali Məclis Sədrinin yüksək idarəetmə səriştəsi, məqsədyönlü fəaliyyəti də qeyd edilməlidir. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası hərtərəfli və dinamik inkişafa nail olmuş, 2017 və 2018-ci illərdə mühüm iqtisadi göstəricilərinə görə Azərbaycan Respublikasının regionları arasında liderliyi qazanmışdır.

Naxçıvan tarixin heç bir mərhələsində indiki qədər abad və kompleks inkişafa nail olmamışdır. Naxçıvan aqrar bölgədən sənaye-aqrar regionuna çevrilmişdir. Muxtar respublika bütün istiqamətlər üzrə rekordçu bölgəyə çatıb, müdafiə, ərzaq və enerji təhlükəsizliyi təmin olunub. 2021-ci ildə ümumi daxili məhsulun həcmi 3 milyarddan çox olmuşdur ki, bu da 2020-ci illə müqayisədə 2,4 faiz çoxdur. ÜDM-un 59 faizindən çoxu istehsalın payına düşür. 1 milyard 69 milyon manatlıq sənaye məhsulu, 573 milyon manatdan artıq kənd təsərrüfati məhsulları istehsal edilmiş, 312 sosial və inzibati obyekt istifadəyə verilmişdir [5, 2022, 29 yanvar]. Bütün sahələrdə artım faizlə yox, dəfələrlə özünü göstərib.

Bütövlükdə Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində ölkəmizin daha böyük inkişafına doğru inamla və qətiyyətlə irəliləyir, abad və çiçəklənən bir diyara çevrilir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı, – 2016, – 68 s.
2. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.970, siy.1, d.1, v.51-60
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1022, siy. 5, iş 56, v. 1-2.
4. Azərbaycan tarixi. Yeddi cilddə. 6-cı cild (aprel 1920 – iyun 1941). – Bakı: Elm, – 2008. – 568 s.
5. // Azərbaycan, – 2022, 29 yanvar.
6. General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). – Naxçıvan: Əcəmi, – 2006, – 104 s.
7. Hacıyev İ. Moskva və Qars beynəlxalq müqavilələri. – Naxçıvan: Əcəmi, – 2021, – 152 s.
8. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. [c.14].– Bakı: Azərnəşr, – 2005. – 520 s.
9. İsmayil Soysal. Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin Siyasal Antlaşmaları. I Cilt (1920-1945). 2 Baskı. – Ankara: TTKB, – 1989. – 704 s.
10. Qars müqaviləsi. Azərbaycan, rus, türk və fransız dillərində. Tərtib edən və ön sözün müəllifi İsmayıl Hacıyev. – Naxçıvan: Əcəmi, – 2021, – 90 s.
11. Qədim Naxçıvanda bayram – 75. – Bakı: Azərnəşr, – 1999. – 298 s.
12. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f.1, siy.3, iş 13, v. 79-81.
13. NMR DA, f.40, siy.4, iş 15, v. 1-10.
14. NMR DA, f.314, siy.5a, iş 18, v. 15-21.
15. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər. 1996-2011. – Naxçıvan: Əcəmi, – 2011, – 526 s.
16. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. – Naxçıvan, – 2018, – 56 s.
17. //Şərq qapısı, – 2021, 9 fevral.
18. Kaçaznuni Ov. Taşnak partisinin yapacağı bir şey yok (1923 Parti konferansına rapor). Çeviri: Arif Acaloğlu. İkinci basım. – İs-

tanbul, – 2005, – 119 s.
19. Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (Стенографические отчеты). – Баку: Азербайджан, – 1998, – 992 с.

İlkin daxilolma –19.01.2022 , son daxilolma –13.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 151-160
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p.151-160
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.151-160

UOT 94(479.24)

1920-1921-ci illərdə Qərbi Azərbaycanda Abbasqulu bəy Şadlinskinin başçılığı altında daşnaklara qarşı aparılan mübarizəyə dair

Müəllif:

Aslan İbrahimov
Naxçıvan Müəllimlər İnstitutu
E-mail:
aslanibrahimov@gmail.com

Annotasiya. 1920-1921-ci illərdə Abbasqulu bəy Şadlinskinin rəhbərliyi altında "Qırmızı tabor"un Qərbi Azərbaycanda daşnak cəlladlarına qarşı apardığı mübarizə bolşevik bayrağı altında aparılsa da, milli mövcudluq müharibəsi kimi qiymətləndirilməlidir. O, səbəbdə görə ki, daşnak ağalığı zamanı Qərbi Azərbaycan əhalisinin mütləq əksəriyyəti öz doğma yurdlarından didərgin düşməyə məcbur olmuşlar. Daşnaklar 1921-ci ilin fevralında Qərbi Azərbaycanda sovet hakimiyyətini devirib, mübarizəyə başlayırlar. Bu zaman Qızıl ordunun hissələri ilə birgə Abbasqulu bəy Şadlinskinin taboru da daşnaklara qarşı mübarizə aparır. Bu mübarizənin ən mühüm nəticəsi bu ərazilərin əzəli sakinlərinin öz doğma yurdlarına qayıtması üçün əlverişli şərait yaratması olur. İndiyə qədər bu dövrlə bağlı yazılan elmi əsərlərdə Abbasqulu bəy Şadlinskinin fəaliyyəti daha çox Naxçıvanla bağlanmış, onun başçılıq etdiyi taborun bu bölgənin daşnaklardan azad edilməsindəki rolu önə çəkilmişdir. Ancaq Naxçıvan MR Dövlət Arxivinin müvafiq fondunda saxlanılan sənədlərlə tanışlıq, "Qırmızı tabor"un təkcə Naxçıvanın deyil, Qərbi Azərbaycanın Vedibasar, Dərələyəz və Zəngəzur bölgələrinin erməni daşnaklarından təmizlənməsində fəali iştirak etdiyini açıq şəkildə göstərir.

Açar sözlər:
Qərbi Azərbaycan, Ararat Respublikası, Qırmızı tabor, XI Qızıl Ordu, "Ermənistan SSR"in Xalq Hərbi Komissarı, RSFSR XİK

Author:

Aslan Ibrahimov
Nakhchivan Teachers Institute
E-mail:
aslanibrahimov@gmail.com

On the fight against the dashnaks under the leadership of Abbasgulu bey Shadlinsky in the Western Azerbaijan in the years 1920-1221

Abstract. The struggle of the "Red Battalion"under the leadership of Abbasgulu Bey Shadlinsky in 1920-1921 against the Dashnak executioners in western Azerbaijan, although under the Bolshevik flag, should be regarded as a war of national existence. He noted that during the Dashnak reign, the absolute majority of the population of western Azerbaijan was forced to be expelled from their native lands. Dashnaks overthrew Soviet power in western Azerbaijan in February 1921 and began to fight. At this time, the battalion of Abbasgulu Bey Shadlinsky, together with the parts of the Red Army, is fighting against the Dashnaks. The most important result of this struggle is the creation of favorable conditions for the return of the primordial inhabitants of these territories to their native lands. So far, in the scientific works written in connection with this period, Abbasgulu Bey Shadlinsky's activity was more connected with Nakhchivan, and the role of the Battalion headed by him in the liberation of this region from the Dashnaks was highlighted. However, familiarization with the documents kept in the relevant Fund of the State Archive of the Nakhchivan AR clearly shows that "Red tabor"actively participated in the cleansing of vedibasar, Daralyaz and Zangazur regions of western Azerbaijan from Armenian Dashnaks.

Key word:
western Azerbaijan, Ararat Republic, Red Battalion, XI Red Army, people's military commissar of "Armenian SSR", "XİK" of "RSFSR"

Автор:

Аслан Ибрагимов
Нахчыванский институт учителей
E-mail:
aslanibrahimov@gmail.com

О борьбе с дашнаками в 1920-1921 годах в западном Азербайджане под руководством Аббасгулу бека Шадлинского

Аннотация. Борьба «Красного табора» под руководством Аббасгулу Бека Шадлинского в 1920-1921 годах против дашнакских палачей в Западном Азербайджане, хотя и велась под большевистским знаменем, должна рассматриваться как война национального существования. За то, что абсолютное большинство коренного населения Западного Азербайджана во время дашнакского господства было вынуждено покинуть свои родные очаги. Дашнаки начинают борьбу в феврале 1921 года, свергнув советскую власть в Западном Азербайджане. В это время вместе с частями Красной армии против дашнаков ведет борьбу и табор Аббасгулу Бека Шадлинского. Важнейшим результатом этой борьбы является создание благоприятных условий для возвращения коренных жителей этих территорий на родину. До сих пор в научных трудах, написанных в связи с этим периодом, деятельность Аббасгулу Бека Шадлинского была больше связана с Нахчываном, подчеркивалась роль возглавляемого им табора в освобождении этого региона от дашнаков. Однако знакомство с документами, хранящимися в соответствующем фонде Государственного архива Нахчыванской АР, наглядно показывает, что «Красный табор» принимал активное участие в очищении от армянских дашнаков не только Нахчывана, но и Ведибасарского, Даралаязского и Зангезурского регионов Западного Азербайджана.

Ключевые слова:
Западный Азербайджан, Араратская Республика, Красный табор, XI Красная армия, Армянская ССР, НКИД РСФСР

1918-ci ilin may ayında Qərbi Azərbaycanda Ararat Respublikasının təşkil olunmasından sonra, hakimiyyətdə olan daşnaklar keçmiş İrəvan quberniyasının ərazilərdə yaşayan müsəlman-türk əhaliyə qarşı məqsədyönlü soyqırım və deportasiya siyasəti həyata keçirməyə başladılar. O dövrə aid arviv sənədlərindən məlum olur ki, ermənilər yuxarıda adı qeyd olunan quberniyanın ərazisində yaşamış insanları öz yaşayış verlərinin qovmaları nəticəsində yerli əhalinin böyük bir hissəsi Naxçıvana, Azərbaycanın digər bölgələrinə və İrana köçməyə məcbur oldular.

1918-ci ilədək indiki Ermənistan ərazisində (Qars vilayəti ilə birgə) 500 mindən artıq azərbaycanlı əhali yaşadığı halda 1920-ci ilin sonunda həmin ərazidə cəmisi 12 min azərbaycanlı qalmışdı [1, s. 61-67].

Təkcə 1919-cu ildə 29 min əhalisi olan İrəvan şəhərində 14 min nəfər, Eçmiədzin qəzasında isə 6 ay ərzində 4 min nəfər aclıqdan həlak olmuşdu. Təbii ki, aclıqdan həlak olanların hamısı azərbaycanlılar olmuşdular. Çünki həmin dövrdə azərbaycanlılar evlərindən çıxa bilmədiklərindən ölümə məhkum idilər. Halbuki, həmin dövrdə Ermənistanda doktor Yarrounun sədrliyi ilə Amerikanın Ermənistana Yardımı Komitəsi fəaliyyət göstərirdi. Yalnız erməni qaçqınlarına maddi yardım edən bu komitə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra bütün heyəti ilə birgə Qarsa köçürülmüşdü. Həmin komitə bir neçə min erməni yetimini toplayaraq uşaq evi açmışdı [2].

Qarabağdan qovulub çıxarılmış daşnak quldur silahlılarının rəhbərləri Dro və Njde Zəngəzurda qüvvə toplayaraq Qərbi Azərbaycanın Naxçıvan bölgəsi üzərinə hücum edirlər. əvvəllər bu quldur dəstələrə qarşı ciddi mübarizə aparıb onları yerlərində oturdan Kəlbəli xan və Veysəl bəyin komandanlığı altındakı Naxçıvan könüllüləri və türk qüvvələri erməni qüvvələrinin təzyiqi altında dayana bimirlər və Şahtaxtı stansiyasına doğru geri çəkilirlər.

Böyük Vedidə çox ciddi müqavimətə rast gələn daşnak qoşunlarının komandanlığı, 1920-ci ilin iyun ayının axırlarında Vediyə qarşı daha güclü qoşun göndərir. Çox zəif silahlanan dəstə ilə təcrübəli nizami qoşunlara qarşı vuruşmaq qeyri-mümkün olduğundan A.Şadlinskinin başçılığı ilə özünümüdafiə taboru və Vedi əhalisi kəndi tərk edir [3].

A.Şadlinski Şahtaxtıya çatanda burada çox böyük bir qaçqın ordusunun yığışdığını görür. O, burada Vedibasardan olan insanların bir hissəsini də tapır. Abbasqulu bəy erməni daşnak dəstələrinin səylə Şahtaxtıya can atdıqlarını sezib, bu qədər dinc insanın burada saxlamağın çox təhlükəli və burada qalmağın mümkünsüz olduğunu görür.

Şahtaxtı körpüsünün yanına gəlib çıtanda Abbasqulu bəy öyrənir ki, İran tərəf qaçqınların o taya keçməsinə icazə vermir. Bu zaman məlum olur ki, daşnak quldur dəstələri Şahtaxtı stansiyasına yaxınlaşmaqdadırlar. Belə vəziyyətdə Abbasqulu bəy İran keşikçiləri ilə danışıqlara girir və tələb edir ki, hökumət nümayəndələrinə çatdırsınlar ki, burada Abbasqulu bəy Şadlinskidir, o öz ailəsi ilə İrana keçmək istəyir.

Abbaqqulu bəyin adını eşidən keşikçilər yolu açaraq onun körpüdən keçməsinə şərait yaradırlar. Abbasqulu bəy Arazın o biri sahilində toplanmış Vedibasar, Zəngibasar, Dərələyəz, Şərur qaçqınlarını ilk növbədə körpüdən keçirib, axırda öz dəstəsi ilə Arazın o tayına keçir. Qaçqınların sonuncu dəstələri bu zaman Şahtaxtı stansiyasına daxil olmuş daşnak zrehli qatarından atılan mərmi və atılan atəşlərin yaratdığı vahimə altında körpüdən keçirlər.

Vedibasar qaçqınları Cənubi Azərbaycanda ilk köçlərini Ərəblər kəndinin kənarında Sarısı adlanan ərazidə salırlar. Vedibasar, Zəngibasar, Çivə və Şərur əhalisinin bir hissəsi, təxminən yüz min nəfər, el-obasından qaçqın düşmüş insan bu əraziyə sığınmışdı.

Qaçqınların yaşamağa örtülü yeri, yeməyə çörəyi, yatmağa yatacağı yox idi. Belə çətin vəziyyətdə olan qaçqınların üzərinə Ərəblər kəndinin valisi Bəbir xan və sərkərdə Mir Abdullanın quldur dəstəsi hücum edir və hər vəchlə onları tərksilah etmək istəyirdi. Lakin qaçqınlar sayca çox, silahlı və mütəşəkkil olduqlarından hücum edənlər öz niyyətlərinə çata bilmirdilər. Həmin toqquşmaların birində Vedibasar müdafiəçilərinin tanınmış nümayəndələrindən biri böyük Vedili Bəhram Kələş oğlu həlak olmuşdur.

Bu müddətdə Abbasqulu bəyin rəhbərliyi

ilə qaçqınların hörmətli adamlarının İran hökuməti ilə apardığı bir neçə günlük danışıqlardan sonra, öz yurd yerlərindən didərgin düşmüş insanların Çaypara mahalında, Çorsda, Bəydərvişdə, Xoyda və Xoy şəhəri ətrafındakı kəndlərdə yerləşdirilməsi barədə razılıq alınır. Bundan sonra qaçqın axını Abbasqyulu bəy Şadlinskinin başçılığı altında hərəkətə başlayır [4, s.133].

Ərəblər kəndindən uzaqlaşan qaçqınlar Oruc Məmməd, Məryəmlər kəndlərinin yanından keçib, 1920-ci ilin avqust ayının sonunda Çorc mahalının Qəmişkan kəndinə yaxınlaşır. Həmin kəndin kənarında dayanıb, gecəlməyi qərara alırlar. Gecə ikən Qəmişkan kəndinin quldur dəstələri mal-qaranı oğurlamaq üçün qaçqınların düşərgəsinə soxulmağa çalışsalar da baş verən atışma zamanı itki verib geri çəkilməyə məcbur olurlar.

Qaçqın kütləsi gecə olmasına baxmayaraq, səhərə qədər Qəmişkan gədiyini aşır. Yol boyu qulurların hücumlarına məruz qalsalar da Şahbulaq kəndinə qədər irəliləyib orada dayanmağa məcbur olurlar. Çünki, qaçqınların arasında qoca, arvad-uşaq, xəstə, yaralı çox idi.

Qaçqınların hərəkəti zamanı onların təhlükəsizliyini Abbasqulu bəyin rəhbərliyi ilə keşikçi-kəşfiyyatçı dəstə həyata keçirirdi. Bu dəstəyə Abbasqulu bəyin oğlanları İsgəndər və İsfəndiyar, Böyük Vedidən Fərməz Mahmudbəyov, Çimənkənddən İbrahim Fərzəliyev, Çivədən Balo bəy Vəkilov, Danzikdən Miryusif Seyidov və.b rəhbərlik edirdilər.

Davam edən yorucu köçdən sonra qaçqınlar 1920-ci ilin sentyabrın əvvəllərində Xoy şəhərinin ətrafına gəlib çatırlar. Bu zaman Abbasqulu bəyə məlumat verilir ki, şəhərin valisi Nəmo xan və yavəri İsmayıl ağa qaçqınların şəhərə daxil olmasına mane olurlar. Abbasqulu bəy vali ilə danışıq aparmaq istəsə də bu baş tutmur. Bir qədər sonra məlum olur ki, qaçqınların şəhər daxil olmağa icazə verilməməsinin səbəbi silahlı dəstələrin tərksilah edilməsi istəyirdir.

Şəhər valisi Abbasqulu bəyi qonaq dəvət edir. O, valinin səmimiliyinə inanmasa da, dəvəti qəbul etməməyi özünə sığışdırmayıb, onun dəvətini qəbul edir. Valinin evində söhbət zamanı o, Abbaqulu bəydən silahı yerə qoymağı tələb edir. Abbasqulu bəy silahları yalnız qiymət etdikdən sonra və satış pulunu aldıqdan sonra verəcəyini bildirir. Abbasqulu bəyin bu sözlərindən arxayın düşən vali öz adamlarını da götürüb qaçqın düşərgəsinə Abbasqulu bəylə qayıdır. Düşərgəyə çatan kimi Abbadqulu bəy döyüşçülərinə silaha sarılmaq barədə əmr verir. Belə bir vəziyyətlə rastlaşacağını gözləməyən vali əvvəl özünü itirir, sonra isə heç bir şeyə nail olmayaraq geri dönməli olur. Tərksilah baş tutmur [5].

Bu hadisədən sonra vali Nəmo xan və adamları qaçqınları silahlı hücum yolu ilə tərksilah etmək niyyətinə düşürlər. Abbasqulu bəyin göstərişi ilə silahlı hissələr ətraf təpələrdə, Qəzənfər dağının ətəklərində, "Köşksaray" adlanan yerdə müdafiə üçün səngərlər qazaraq, müdafiə mövqeyi yaradırlar. Bütün bunlardan sonra valinin qaçqınları zorakılıqla tərksilah etmək niyyəti uğursuzluğa düçar olur.

Valinin axırıncı hətkətlərindən bərk qəzəblənən Şadlinskinin əmri ilə Xoy şəhərinin dəmir darvazaları dağıdılır və şəhər qaçqınların üzərinə açılır. Ertəsi gün qaçqınlar Xoy şəhərini tərk edib Mərənd şəhərinə gəlirlər. Qaçqınlar Mərənd şəhərinin özündə və ətrafdakı Hecevan,ördəkli, Yamçı, Əbülkan, Yekan kəndlərində müvəqqəti məskunlaşırlar.

1920-ci il avqustun 28-də Naxçıvan şəhərinə daxil olan XI qızıl ordu hissələri burada sovet hakimiyyətinin yaradıldığını elan edirlər. N.Nərimanovun təşəbbüsü ilə 1920-ci il avqustun sonunda Bahadur Vəlibəyov rəhbərlik etdiyi 300 nəfərlik süvari qoşunla Naxçıvana fövqəladə komissar göndərilir. O, Naxçıvanın möhkəmləndirilməsi və bütün Naxçıvan və Qərbi Azərbaycanın digər bplgələrindən daşnakların qovulub çıxarılması üçün tədbirlər görməyə başlayır.[6, s.333]

Burada vəziyyətlə yerində tanış olan Vəlibəy onladı ki, daşnakların hücunlarından qorunmaq üçün Araz çayının o tərəfinə köç etmiş əhalini qeri qaytarmadıqdan sonra, qarşısına qoyduğu məqsədləri yerinə yetirmək, yəni güclü ordu yaradıb, erməni daşnaklarını qərbi Azərbaycandan qovmaq mümkün olmayacaqdır.

Yaranmış vəziyyətlə əlaqədar olaraq öz yurd yuvalarından didərgin düşərək Arazın o tayına getməyə məcbur olmuş insanları adi

bir çağırışla geri qaytarmaq mümkün olmayacaqdır. Bunun üçün yerli əhalinin etibar etdiyi, nüfuz sahibi olan insanların köməkliyi lazımdır. Belə nüfuzlu şəxslər arasında Vedibasar Komitəsinin sədri və Vedibasar özünümüdafiə qüvvələrinin komandiri Abbasqulu bəy Şadlinski fərqlənirdi.

Istər Zəngibasar, Gərnibasar, istərsə də Dərələyəz, Şərur və Naxçıvan əhalisi, bu bölgələrin Araz çayının o tayındakı qaçqın camaatı arasında Abbasqulu bəy çox böyük hörmət və nüfuza sahib idi. Bundan başqa, Abbaaqulu bəy Şadlınski erməni daşnaklarına qarşı 1917-1920-ci illərdə apardığı qanlı müharibədə böyük təcrübə qazanmış bacarıqlı və cəsarətli bir sərkərdə idi. Bunlarla yanaşı indi onun sərəncamında bir neçə yüz nəfərlik silahlı qüvvə var idi. Buna görə də Bahadur Vəlibəyovun başçılığı ilə Naxçıvanda qurulmuş sovet hökumətinin məqsədi Cənubi Azərbaycana Abbasqulu bəyin yanına nümayəndə göndərib, onun hərbi hissəsi ilə Naxçıvana qayıtmasına nail olmaq idi. Belə bir fikir mövcuddur ki, Bahadur Vəlibəyov Abbasqulu bəyi Naxçıvana çağırmaq və daşnaklara qarşı mübarizədə ona şərait yaratmaq tapşırığını birbaşa Nəriman Nərimanovdan almışdır. [4,s.140]

Sovet hakimiyyətinin elan olunmasından sonra Naxçıvanda yaranmış hərbi-siyasi vəziyyət barədə Abbasqulu bəy Şadlinskiyə dolğun məlumat vermək, xüsusilə Azərbaycan bolşevikləri tərəfindən bölgənin erməni daşnaklarından təmizlənməsinin təxirəsalınmazlığına onu inandırmaq üçün Abbasqulu bəyin özünü tanıdığı, həm də Naxçıvandakı sovet hakmiyyətinin etimadını qazanmış üç nəfəri-Seyfulla Süleymanov, Əli Eyvazov və Məmməd Rəhimov adlı birisi Cənubi Azərbaycanın Mərənd şəhərinə Abbasqulu bəy Şadlinskinin yanına göndərilir. Onların apardığı məktubda Naxçıvan bolşevik hökuməti adından Bahadur Vəlibəyov şəxsən Abbasqulu bəyi və bütün qaçqın əhalini Naxçıvana dəvət edir.

Abbasqulu bəy Mərənddə Naxçıvandan gəlmiş nümayəndələri nəzakətlə qarşılayır. Ona göndərilən Vəlibəyoyovun məktubu ilə yaxından tanış olur və bölgədəki hərbi-siyasi vəziyyətlə bağlı çoxlu suallar verir. Naxçıvanda mövcud vəziyyəti özü üçün aydınlaşdırdıqdan sonra Abasqulu bəy Şadlinski dinc əhalini Mərənddə qoyaraq, özün 200 nəfərlik hərbi qüvvəsi ilə Naxçıvana qayıtmaq barədə qərar qəbul edir. Böyük oğlu İsgəndər Şadlinski, İbrahim Fərzəliyev, Məhərrəm Pənah oğlu, Bilas Şadlinski və indiyədək döyüşlərdə sınaqlardan çıxmış digər Vedibasar igidləri də bu dəstənin tərkibinə daxil idi.

A.Şadlinskinin Naxçıvana gəlməsi ilə bağlı müxtəlif tarixlər göstərilir. V.Şadlinski "Şadlinskilər (Şəddadi, Şadı, Şadlılar)" adlı əsərində yazdığına görə A.Şadlinski 1920-ci il sentyabrın 12-də yaxud sentyabrın 17-də öz silahlı dəstəsi ilə Araz çayını keçərək Naxçıvan Culfasına gəlir [4, s.141]. Tədqiqatçı Fəxrədin Cəfərov öz əsərində göstərir ki, 1920-ci il sentyabrın 25-də Naxçıvanda A.Şadlinskinin Naxçıvana çağırılması barədə məsələ müzakirə edilir və onun Naxçıvana dəvət edilməsi üçün Seyfulla Süleymanov və Məmməd Rəhimov İrana göndərilir [7, s.55].

"Qırmızı tabor"un tərkibində daşnaklara qarşı vuruşmuş partizanlardan biri Bilas Şadlinski xatirələrində yazırdı ki, sentyabrın axırları idi. Hər yerə xəbər yayıldı ki, Naxçıvandan nümayəndələr gəlib. Naxçıvan İnqilab Komitəsi adından Abbasqulu bəyə məktub göndəriblər. Onu öz dəstəsi ilə Naxçıvana dəvət etmişlər. Mərənd vilayətində ayrı-ayrı kəndlərdə məskunlşamış qaçqın əhalinin fəalları dərhal Mərənd şəhərinə toplaşırlar. Abbasqulu bəy müraciətlə: hamınız 2-3 günə tam hazır olun, birlikdə Naxçıvana yola düşüb məslək qardaşlarımız ilə birləşək. Izdihama toplaşan mübarizlər bir səslə biz hazırıq deyə, sevinclə izdihamdan ayrılaraq yaşadığımız yerlərə qayıtdıq. Mən də Kecavana, öz yaşadığım kəndə gedib yol tədarükü işinə başladım [8]. B.Şadlınskinin xatirələrindən də göründüyü kimi A.Şadlınski Naxçıvana sentyabrın sonlarında gəlmişdir.

Şadlinski Culfada Naxçıvan vilayətinin fövqəladə komissarı Bahadur Vəlibəyov və XI Qızıl Ordunnun 28-ci diviziyasının komandiri Studnev tərəfindən böyük təntənə ilə qarşılanır.

Naxçıvana qayıdan Abbusqulu bəyə Naxçıvan Hərbi İnqilab Komitəsinin qərarı ilə öz silahlı dəstəsini "Qırmızı tabor" adı ilə təzədən

təşkil etmək və onu daha da gücləndirib, daşnaklarla başlanacaq gələcək döyüşlərə hazır vəziyyətə gətirmək tapşırığı verir. Abbasqulu bəyin Naxçıvana qayıdıb daşnaklara qarşı müharibə aparmaq üçün yeni silahlı dəstə təşkil etdiyini eşidən qaçqınlar, ətraf bölgələrin vətənpərvər oğulları hər tərəfdən axışıb Naxçıvana gəlirlər.

1920-ci ilin oktyabrın axırlarında Naxçıvan bölgəsinin daşnak işğalı altında olan müsəlman kəndlərini erməni işğalından azad etmək üçün Naxçıvandakı qoşun hissələrinə hərbi əməliyyatlara başlamaq barədə əmr verilir. "Qırmızı tabor"un qarşısında Əznəbürd -Qarabağlar dağ ətəkləri ilə irəliləyib, qırmızı ordu hissələri ilə birgə Şərur və Vedibasar mahallarını ermənilərdən azad etmək vəzifəsi qoyulur.

192-ci ilin noyabr ayı ərzində plan üzrə bir sıra uğurlu hərbi əməliyyatlar həyata keçirilir. Şahtaxtı və Xok uğurunda xüsusilə qanlı döyüşlər aparılır və bu döyüşlərdə ermənilərdən 1200 nəfər əsir alınır, daşnaklara məxsus xeyli sayda silah və hərbi sursat qənimət götürülür.

1920-ci il dekabrın 1-də (Şərur ermənilərdən azad olunan gün) Qərbi Azərbaycanda mövcud olan daşnak hökuməti öz iclasında bolşeviklərə qarşı mübarizəni dayandırmaq və XI Qızıl Ordu qüvvələrinə müqavimət göstərməmək barədə qərar qəbul edir. Daşnak hökumətinin 2 dekabr 1920-ci il tarixli iclasında qəbul etdiyi qərar erməni millətçiliyinin gizli niyyətlərindən xəbər verən daha bir neçə məqamı aydınlaşdırır. Belə ki, erməni hökumətinin həmin iclasda verdiyi bəyanatdan məlum olur ki, 2 dekabr 1920-ci ildə daşnak hökuməti özünü buraxır və "bütün hərbi və mülki hakimiyyəti baş komandan təyin edilən Droya verir". Beləliklə, daşnaklarla onların bolşevik cildinə girmiş soydaşları arasında əvvəldən olmuş gizli danışıqların "quyruğu" görsənir. Bu danışıqlara əsasən erməni daşnak ordusu Qızıl Ordu hissələrinə, Dro isə bu qoşunun komandanına çevrilməli idi.

Ancaq Dro daşnak cəlladı kimi kifayət qədər "ad çıxardığından" minlərlə, on minlərlə dinc müsəlman əhalisinin qətlə yetirilməsində bir-başa müqəssir olduğundan, əvvəllər bolşeviklərə qarşı da xeyli amansız davrandığından onu hakimiyyət başında saxlamaq xeyli təhlükəli iş olardı və bu da A.Mikoyan kimi bolşevik cildinə girmiş erməni millətçilərinin gələcək planları üçün pis nəticələr verə bilərdi.

Bu zaman Ermənistan-Türkiyə münaqişəsində Sovet Rusiyasının mövqeyi bir sıra mühüm xüsusiyyətlərə malik idi. 20 iyul 1920-ci il tarixli Çiçerinin N. Nərimanova teleqramının məzmunundan göründüyü kimi, Moskvadakı bolşevik rəhbərliyi M. Atatürk hökumətinin Antanta istiqamətində mövqeyini dəyişməsindən daim qorxurdu. Moskva hesab edirdi ki, Türkiyənin Ararat Respublikası ilə münaqişənin gedişində uğur əldə etməsi onun nüfuzunu nəinki, burjua Ermənistanı və Gürcüstanında gücləndirər, hətta Sovet Azərbaycanında güclü mümkün siyasi istiqamətin dəyişməsinə səbəb ola bilərdi. Bu barədə 5 noyabr 1920-ci ildə Q.Çiçerin İ.Stalinə məktubda yazırdı: "Biz müsəlmanlığa inanmağımızda həmişə nəzərə almalıyıq ki, yaxşı bir gündə müsəlmanlarda anti bolşevik meyli güclü olabilər ki, nainki anti ingilis mövqeyi. Mən Nəriman Nərimanovun təmsil etdiyi bir müsəlmanlığa birtərəfli inam göstərilməsinin əleyhinə həmişə xəbərdarlıq etmişəm və xəbərdarlıq edirəm". Bu səbəbdən də hətta daşnakların hakimiyyətdə olduğu Ermənistan Sovet Rusiyasının mühüm forfostu, türklərin hücümuna qarşı mübarizədə və digər tərəfdən Azərbaycan SSR ilə Türkiyə arasında yaxınlaşma yolunda potensial müttəfiq və regional maneə kimi nəzrdən keçirilirdi [9, s. 55].

1920-ci ilin oktyabrında İrəvanda Ararat Respublikasının nümayəndələri RSFSR arasında danışıqlar aparıldı. Bu zaman danışıqlarda RSFSR-nin əsas məqsədi Orconikidzenin çıxışında aydın ifadə olunmuşdur, " belə bir ehtimal istisna deyil ki, Ermənistan müəyyən siyasi vəziyyətdə bizə lazım ola bilər". Daşnak hökuməti ilə danışıqlar 28 oktyabr 1920-ci ildə sülh müqaviləsinin imzalanması ilə başa çatdı. Bu müqaviləyə görə, Ermənistan Qarabağdan imtina edir, ancaq Zəngəzur və Naxçıvanı alırdı və həmçinin ona qızıl 2,5 milyon rubl kredit söz verilmişdi. Leqran 1 noyabr 1920-ci ildə Çiçerinə teleqramda yazırdı: "Bizim razılaşmamızı məqbul hesab etmək və Antantanın Ermənistanı öz silahlarına çevirmək cəhdlərini iflic etmək üçün real imkan yarat-

dığını hesab etmək olar". Bəzi erməni tarixçiləri iddia edirlər ki, 28 oktyabr 1920-ci ildə imzalanmış sənəd yalnız gələcəkdə imzalanacaq sülh müqaviləsinin şərlərini müəyyən edirdi. Ancaq, RSFSR XİK VIII Sovet qurultayında məhz daşnak Ermənistanı ilə Sovet Rudiyası arasında aydın şəkildə sülh müqaviləsinin imzalandığını göstərir. Bu faktı həmçinin 4 noyabr 1920-ci ildə keçirilmiş birgə AK(b)P və RK (b)P MK Qafqaz Büro iclasının mətlərinin stenoqramları da təsdiq edir. Orada Stalin, Orcanikidze, Qabrelyan və başqalrı iştirak edirdilər. İrəvanda aparılmış danışıqların nəticələrinin müzakirə edilməsindən sonra, aşağıdakı qərar qəbul edilmişdir: "Müqavilədə Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi barədə təklif olunmuş bənd, nə siyasi, nə də strateji baxımdan əlverişli deyil, ən son halda verilə bilər" [9, s.56].

Türk ordusunun sürətli hücumu və daşnak Ermənistanının hərbi məğlubiyyəti Sovet Rusiyasını məcbur edildi ki, diplomatik saylərinə hərbi səyləri də əlavə etsin. H. Çiçerin 8 noyabr 1920-ci il tarixli teleqramında İ.Stalin cari dövrün vəzifəsini son dərəcə dəqiq müəyyən etmişdir: "dərhal hərbi hissələr Ermənistan sərhədlərinə doğru hərəkət etməli və zərurət yarandıqda İrəvana daxil olmalıdır". Bu zaman Azərbaycan SSR-də Ermənistana göndərilmək, üçün kommunist-ermənilərin toplanması başa çatdırılmışdı. Bundan başqa Sovet Azərbaycanın sərhəddində Ermənistanda sovet hakimiyyətinin qurulmaslnda iştirak edəcək erməni üsyançı polku formalaşdırılmışdır. 29 noyabr 1920-ci ildə Qırmızı Ordunun hissələri Qazax, İcevan və Dilican istiqamətindən keçərək Ermənistanın ərazisinə daxil oldu. Daşnak hökuməti devrildi. Ermənistanda sovet hakimiyyəti quruldu. 2 dekabr 1920-ci ildə İrəvanda RSFSR-in nümayəndəsi Leqranla erməni kommunist rəhbərləri arasında "Müstəqil Ermənistan Sovet Sosialist Respublikasının" elan olunması haqqında müqavilə imzalandı. "Aşxatar" qəzeti 9 yanvar 1921-ci il tarixli nömrəsində bunula əlaqədar yazırdı: " Ermənistana inqilabı türklər və ruslar gətirdilər, hakimiyyət isə Bakıdan göndərildi" [10].

Belə bir dönüş bolşevik ermənilərdən fərqli olaraq daşnak ermənilər qane etmədiyindən onlar gizli fəaliyyətə keçərək, "Ermənistan" ərazisində bolşevik hakimiyyətinə qarşı əksinqilabi çevrilişə hazırlaşırlar.

1921-ci il fevralın 13-də Dərələyəz mahalı ərazisindəki daşnak qrupları birləşərək mahalın Keşişkəndini ələ keçirir, oradakı bolşeviklərə və müsəlman əhalisinə divan tutur. Daşnak komandanı Njdenin əmri ilə onlarla qızıl əsgər və zabit öldürülür, bir çoxunu isə diri-diri Qndevaz qayasından uçuruma atırlar. Sonra daşnaklar Yelpin-Çivə kəndləri istiqamətində hücum edib, neçə-neçə müsəlman kəndini dağıdır, əhalini qılıncdan keçirirlər.

Daşnakların böyük bir hissəsi "xmbabet" (daşnak partiyasının üzvü-A.İbrahimov) Yaponun komandanlığı altında Dərələyəzdən Şərura doğru irəliləmək əmri alır. Şərur bütövlükdə Naxçıvan torpaqlarının Azərbaycan bolşeviklərinin əlində olması ilə heç cür barışmaq istəməyən daşnaklar əsas qüvvələri ilə Şərurun Noraşen nahiyəsinin sərhədində yerləşən Danzik kəndi istiqamətində toplayırlar. Daşnakların məqsədi buradan endirilən güclü zərbə ilə Şəruru ələ keçirmək idi.

Bu dəfə Şəruru işğal etməkdə daşnakların başqa məqsədi də var idi. Məsələ odur ki, fevralın 18-də keçən gecə İrəvanda da daşnaklar qəfil bir şəkildə dövlət çevrilişi edərək, hakimiyyəti ələ keçirmişdilər. Hadisələrin belə gedişini gözləməyən bolşeviklər İrəvan şəhərindən sıxışdırılaraq Qəmərliyə tərəf geri çəkilməyə məcbur olmuşdular. İrəvanın bir neçə kilometrliyində yerləşən Ağahəmzəli kənində (Zəngibasar mahakı-A.İbrahimov) bolşeviklərin bir qrupu mühasirəyə alınaraq məhv edilmişdir. Burada olan vəziyyət bolşeviklər üçün çox çətin idi.

İrəvan -Qəmərli döyüş bölgəsidə daşnaklarla bolşeviklərin hərbi gücü arasında fərq böyük idi. Bolşeviklər İrəvanı tərk edərkən cəmi üç vaqon hərbi sursat çıxara bilmişdilər. Ərzaq çatışmırdı, sabun yox idi. Qəmərlidə qüvvələrini bir yerə yığan bolşeviklər İrəvan istiqamətində fevralın 25-i üçün nəzərdə tutulmuş hücumdan ötrü 1700 piyada, 70 süvari, 2 zirehli qatar, 11 top, 64 pulemyot toplaya bilmişdilər. Buna qarşı daşnakların həmin istiqamətdə 4500 piyadası, 700 süvarisi, 20 topu, başqa sözlə desək üç dəfə çox piyadası, on dəfə çox

süvarisi və.s. var idi. Buna görədə 25 fevralda başlanan döyüş bolşeviklərə uğur gətirmədi.

Bu vaxt Dərələyəz istiqamətindən hücuma keçməyə çalışan daşnakların əsas niyyəti də Şəruru tutmaqla Naxçıvan bolşevikləri ilə Qəmərli bolşeviklərini bir-birlərindən ayırmaq idi. Bununla da daşnaklar bir tərəfdən Naxçıvandan Qəmərliyə yardım göstərilməsini dayandıracaq, digər tərəfdən isə Şərurdan Vedibasara doğru irəliləyərək Vedibasarda və Qəmərlidə İrəvandan geri çəkilən bolşeviklərə arxadan zərbə vurub, İrəvanda qiyam qaldırmış daşnaklarla birləşəcəkdilər.

Belə bir çətin dövrdə Abbasqulu bəy hərbi komandanlıqdan Dərələyəz istiqamətində irəliləmək, daşnakların Şərura doğru irəliləməsinə imkan verməmək barədə əmr alır. Abbasqulu bəy gecikmədən "Qırmızı tabor"un bölüklərini daşnakların Dərələyəzdən hücum edə biləcəkləri bütün cəbhə boyu-Şərura gedən əsas yolda, Danzik və Arazdəyən kəndləri istiqamətində, Zəncirli-Çanaxçı xətti boyunca yerləşdirir.

A.Şadlinski özü isə mühafizə dəstəsi ilə 1921-ci ilin fevralında Danzik kəndinə gəlir və kəndin kənarındakı köhnə palçıq divarlı evlərdən birini özünə qərargah seçir.

Abbasqulu bəy qərargah olaraq seçdiyi evdə dəyirmi masa arxasında "Qırmız tabor"un bölük komandirləri əyləşmişdilər. O, müdafiə tədbirlərinin yerinə yetirilməsi vəziyyəti barədə komandirlərdən məlumat aldıqdan sonra əlini masanın üzərində yerləşdirilmiş xəritənin üzərində gəzdirərək izah edirdi.

Daşnaklar təkcə Keşişkəndə yox, həm də Aynadzor, Arpa və Rind kimi mühüm yaşayış məntəqələrini ələ keçirmişlər. Onların məqsədi həm əsas yolla həm də dağ cığırları ilə Noraşen stansiyasına çıxmaq, Şəruru yenidən işğal etmək idi. Əgər bu baş verərdisə, Naxçıvanla İrəvanın arası kəsiləcək və iki istiqamətdə daşnaklar hərbi əməliyyatlar aparmaq üçün əlverişli şərait qazanmış olacaqlar. Eyni zamanda Yaponun daşnak dəstələri Qəmərli cəbhəsindəki bolşevik hissələrinin arxasına keçmək imkanı əldə edəcəkdir. Bundan sonra İrəvandan Şərura qədər təzədən işğal altına keçən torpaqlarımızı daşnaklardan azad etmək bizim üçün qat-qat çətin olacaqdır. O səbəbdən də necə olursa olsun, daşnak Yaponun hərbi hissələrinin Şərura doğru irəliləməsinə imkan verməməliyik.

Abbasqulu bəy Şadlinski bölük komandirlərinə döyüş mövqelərini gücləndirmək və gözlənilən döyüşlərə tam hazır olmaq barədə tapşırıqlar verir və onları döyüş mövqelərinə yola salır. Abbasqulu bəy dördüncü bölüyün komandiri İbrahim Fərzəliyevlə söhbəti zamanı bildirir ki, bu dəfə ki, döyüşlərimiz də Vedibasar döyüşlərindən asan olmayacaq. O səbəbdən ki, Zəngəzurda daşnak Dronun və Njdenin quldur dəstələri hələ də hökmranlıq edirlər. Dərələyəzin arxası Zəngəzura söykənir. Biz Yaponun qarşısını mütləq almalı və darmadağın etməliyik. Bizim gücümüz buna yetər. Ikincisi isə bizim bundan başqa çıxış yolumuz yoxdur. Təkcə, Şərurun, Dərələyəzin yox, Vedibasarın, İrəvanın, hətta Naxçıvanın, Zəngəzurun da taleyi bu gün həll olunur [12, s.168].

Bu zaman otağa daxil olan əli tüfəngli keşikçi 17 nəfər erməni silahlısının Danzikə tərf keçdiyi və "Qırmızı tabor"un komandiri ilə görüşmək istəmələri barədə məlumat verirlər. Abbasqulu bəy keşikçiyə ermənilər içəri gətirməyi əmr edir. Ermənilər içəri daxil olub salam verir, daşnakların təqibindən qaçdıqlarını, bolşeviklərə təslim olmaq istədiklərini və Yaponun dəstəsinə qarşı vuruşmağa hazır olduqlarını bildirilər, Abbasqulu bəydən aman istəyirlər.

Ermənilər sorğu-suala tutan Abbasqulu bəy onlardan bolşevik qoşunlarının Çivə kəndi istiqamətində Yaponun quldur dəstələri tərəfindən mühasirəyə alındığını və məhv edilmək təhlükəsi qarşısında qaldıqlarını öyrənir. O, təslim olmağa gələn ermənilərdən daşnakların bütün mövqeləri barədə ətraflı məlumat alaraq, onların çoldə gözləməsini tapşırır.

Ermənilər otaqdan çıxdıqdan sonra, Abbaqulu bəy İbrahim Fərəzliyevə erməni əsgərlərini özünün və Yusif Seyidovun bölüklərinin ayrı ayrı bölmələri arasında tək-tək bölüşdürüb, gözdən qoymamaq şərti ilə onlardan bələdçi kimi istifadə etmək barədə göstəriş verir.

Abbasqulu bəyin əmri ilə dərhal Yusif Seyidovun bölüyü Çivə kəndi istiqamətində hərbi əməliyyata hazır vəziyyətə gətirilir. Onun qarşısında cəbhənin bu xəttində mühasirəyə düşmüş qırmızı ordu hissələrinə köməyə

çatmaq vəzifəsi qoyulur. Digər bölmələr isə onun bülüyün dayaq vermək məqsədləilə müxtəlif istiqamətlərdə hərəkət etmək əmri alır.

Daşnakların gözlənilən hücumunun qarşısını ala bilmək üçün isə İbrahim Fərzəliyevin və Məhərrəm Pənahovun bölükləri döyüş mövqelərinə çıxarılır. Bu bölüklər "Qırmızı tabor" Danzik kəndinə gələn gündən Keşişkənddən Noraşen stansiyasına gedən dağ keçidlərini və şose yolunu tam nəzarət altında saxlamaq üçün etibarlı müdafiə xətti yaratmışdı. Abbaqulu bəyin əmri ilə atəş nöqtələri qayalıqlarda, dağ keçidlərində yerləşdirilmişdi. Əsgəri hissəlin və atəş nöqtələrinin belə yerləşdirilməsi bütün dağ, dərə və yol boyunda əlverişli idi və hakim mövqeni təmin etmişdi. Belə mövqe yolda görünən hər hansı hədəfə atəş açmaqağa imkan verirdi.

Yusif Seyidovun Çivə kəndi istiqamətində irəliləyən bölüyü düşmənin sağ cinahına çıxmalı idi. Hər yerdə Abbaqulu bəyin ayırdığı kəşfiyyatçı taborçular, o cümlədən Yetim Əli oğlu Əkbərin kəşfiyyatçıları "Qırmızı tabor"çuların müəyyən olunmuş mövqelərə vaxtında çatması üçün qabaqda əlverişli şərait yaradırdılar. Bu döyüşçülərin fəali iştirakçılarının sonralar qələmə aldıqları xatirələrdən məlum olur ki, "xmbabet" Yapon özünün ən çox etibar edib, ümid bəslədiyi piyada və qoşun hissələrini Abbasqulu bəyin "Qırmızı tabor"unun qarşısına şıxarmışdır.

Erməni mühasirəsində qalmış bolşeviklərin köməyinə çatan "Qırmızı tabor"çular həmin gün şiddətli döyüş aparırlar. Daşnakların "Qırmızı tabor"un müdafiə xəttini yarmaq üçün etdiyi güclü hücum onların İbrahim Fərzəliyevin dördüncü bölüyünün hər tərəfdən yağdırdığı atəş altına düşməsi ilə nəticələnir. "Qırmızı tabor"çuların müqavimətini qırmaqdan ötrü daşnak Yaponun təkrar-təkrar irəli göndərdiyi qoşun hissələri hər dəfə darmadağın edilərək geri oturdulur.

Bu döyüçlərin iştirakçısı olan, Danzik kəndində özünü Abbasqulu bəyə təslim etmiş həmin 17 nəfər erməni silahlısından biri Qaregen Sarkisyan öz xatirələrində yazmışdır: "Yaponun dəstəsi bu gün qüvvələri ilə irəlilməyə can atırdı. Vuruşmalar isə misli görünməmiş inadçılıqla gedirdi. Düşmən bizi (burada "Qırmızı taborçular nəzərdə tutulur"- A.İbrahimov) tutduğumuz mövqelərdən vurub çıxarmağa can atırdı. Doxsan əsgərdən ibarət olan bölüyümüz düşmənin bütün həmlələrini cəsarətlə dəf edirdi. Vuruşma gecədən xeyli keçənədək davam etdi. Daşnaklar çoxlu pulemyota və hərbi sursata malik olduqları, canlı qüvvə sarıdan xeyli üstünlük təşkil etdikləri halda, bizim tüfəngimiz, məhdud miqdarda patronumuz, bir az da qumbaramız var idi. Lakin biz daşnaqların malik olmadıqları daha güclü silaha malik idik. Bizim qələbəyə inamımız və möhkəm etibarlı arxamız vardı...daşnakların ayaqları altında torpaq alışıb yanırdı, onların cəbhə arxası möhkəm deyildi, kəndlərin əksəriyyəti daşnaklara nifrət bəsləyirdi" [4, s.149].

Bütün gecəni davam edən döyüş ermənilərin məğlubiyyəti ilə nəticələnir. Səhərə yaxın daşnaklar atəş nöqtələrindən geri çəkilməyə, daha sonra qaçmağa başlayırlar. Abbasqulu bəy bütünlüklə düşməni təqib etmək əmri verir. Bütün istiqamətlərdən əks hücum başlanılır. Abbasqulu bəyin əmri ilə "Qırmızı tabor"çuların bir hissəsi sürətlə hərəkət edərək düşmənin arxasına keçir. Arxadan qumbaraların partlayışı ilə qarşılaşan daşnaklar vahimə içərisində sağa-sola qaçmağa başlayırlar. Dağdan üzüaşağı qaçan daşnakları təqib edən "Qırmızı tabor"çular onların arxasınca iri daş, qaya parçaları yuvarladırdılar. Beləliklə, Yaponun silahlı dəstələri görünməmiş itkilərə məruz qalaraq geri çəkilirlər.

Fevral 1921-ci ildə qiyam qaldıran daşnaklar artıq Qərbi Azərbaycanın digər bölgələrində də baş qaldırırdılar. Baş Gərni, Abaran, Gümrü bölgələrində də daşnaklar hakimiyyəti bərpa olunmuşdu. Qəmərli-İrəvan cəbhəsində bolşeviklərin vəziyyətinin nə dərəcədə ağır olduğunu faktlar da təsdiq edir. Məsələn daşnak komandiri polkovnik Tarxanovun 18 mart 1921-ci il tarixdə imzaladığı sənəddə göstərilirdi ki, Qəmərli cəbhəsində bolşeviklərin hərbi sursatı və arzağı qurtarmaq üzrədir, qəti döyüşə girib, Qəmərli cəbhəsini yarmaq, bolşevikləri məhv etmək, bundan sonra Yaponun qoşunları ilə birləşib, bütün qüvvələri Yelenovka (Göyçə gölü sahilində yaşayş məntəqəsi-A.İbrahimov) cəbhəsinə yönəltmək lazımdır.

Naxçıvan MR Dövlət Arxivində saxlanılan

sənəddə qeyd olunur ki, Danzik döyüşləri ərəfəsində həmin kəndinin yaxınlığında yerləşən Arpa kəndində Yaponun əmrində 200, Çivə kəndində 400 nişançı, Aşağı Çanaxçıda 100 nəfər piyada, bütünlüklə dəstə də 1700 nəfər əsgər və 2 top var idi [12].

Danzik-Çanaxçı istiqamətində duran Qırmızı taborda 450-500-dən artıq adam yox idi. Lakin bu döyüşçülərdə mənəvi üstünlük var idi. 1921-ci il martın əvvəllərində Yapon gözlənildiyi kimi geniş miqyaslı hücuma keçir. Düşmənin hücum hədəfi İbrahim Fərzəliyevin müdafiə etdiyi Danzik yaşayış məntəqəsi idi. Yaponun hücumuna ciddi qarşılıq verilir. Bu döyüşlərdə Ələkbər Sadıqov, Qasım Hüseynov Nəcəf Əliyev, Zeynalabdin Həsənov, Qafar Qədimov (Sədərək), Əli Əhmədov (Zeynəddin), İsmayıl Məmmədov, İsmayıl Hacı Bayramqulu oğlu (Yaycı), Cəlal Məmmədov (Kərimbəyli), Ələsgər Kərimov (Hortun) xüsusilə fərqlənirlər[13].

19 mart 1921-ci ildə daşnaklar bütün cəbhə boyu hücuma keçirlər. Artıq bu zaman Abbasqulu bəy Danzik-Çivə istiqamətində hərbi əməliyyatları uğurla başa çatdıraraq dördüncü bölüyün komandiri İ.Fərzəliyevi Danzik müdafiə xəttində qoyub qalan dəstə ilə Vedibasar-Qəmərli istiqamətinə getmişdi.

1921-ci il martın ikinci yarısında təkcə İrəvan-Qəmərli yox, Dərələyəz-Şərur cəbhəsindədə vəziyyət gərginləşir. Abbasqulu bəy yenə də sovet qoşunları komandanlığının təklifi ilə bütün qüvvələrini təzədən Dərələyəz istiqamətinə yönəldir. Yaponun yenidən baş qaldıran quldur dəstələrinin hücunlarını dəf etmək üçün 40 km-lik möhkəm müdafiə xətti yaradılır.

24 mart 1921-ci ildə dan yeri ağaranda erməni daşnakları 700 nəfərdən çox piyada, artilleriya və pulemyotların köməyi ilə Arpa, Yelpin və Qoltan kəndləri istiqamətindən Abbasqulu bəyin rəhbərlik etdiyi "Qırmızı tabor"un müdafiə qüvvələri üzərinə hücuma başlayırlar. Şiddətli vuruşma başlanır. Düşmən verdiyi itkiləri nəzərə almadan "Qırmızı tabor"un müdafiə mövqelərinə yaxınlaşır. "Qırmızı tabor"çular öz mövqelərini inadla müdafiə edirlər. Düşmən qüvvələri sayca çox olsa da, onların hücumları Ardıc və Cənnətəpə dağlarında müdafiə mövqryi tutan "Qırmızı tabor"un ikinci (komandiri-Məhərrəm Pənahov) və üçüncü (komandiri-Ələkbər Sadıqov) bölükləri tərəfindən qəhrəmanlıqla dəf edilir. Çoxlu itki verməsinə baxmayaraq, düşmən hücumları bir-birini əvəz edir. Göstərilən ciddi müqavimətə baxmayaraq, günün ikinci yarısında daşnaklar Qızılqayə təpəsi rayonunda birinci bölüyün müqavimətini çox çətinliklə qırmağa və Danzik kəndini tutub, Sədərək kəndinə doğru irəliləməyə müvəffəq olurlar.

Düşmənin irəliyə doğru hərəkətinin qabağını təcil almaq məqəsdili Abbasqulu bəy dördüncü bölüyün komandiri İbrahim Fərzəliyevə əmr edir ki, Danzik kəndi rayonunda düşmənə qarşı əks hücuma keçsin və birinci bölüklə birgə həmin bölgədə olan düşməni məhv edərək Arpa istiqamətində əvvəlki vəziyyəti bərpa etsin.

İbrahim Fərzəliyev öz bölüyü ilə yubanmadan Danzik kəndinə doğru sürətlə hərəkət edir və şimal-qərb tərəfdən kəndə yaxınlaşaraq, birinci bölüklə birgə həmin rayonda düşmən üzərinə hücuma keçir. Qısa, lakin inadlı döyüşdən sonra dördüncü və birinci bölüklər düşməni Danzik kəndindən vurub çıxarmağa, Ardıc və Qızılqaya rayonunda əvvəlki müdafiə xəttini bərpa etməyə nail olurlar.

Bu döyüşdə Abbas Əjdərovun və Qafar Əliyevin taqımları ilə özlərinin cəsarətli əməliyyatları ilə döyüşlərdə fərqlənirlər. A.Ədərovun taqımı birinci olaraq Danzik kəndinə daxil olur və daşnaklardan 15 nəfərə qədərini məhv edir, yeddi nəfərini əsir götürür, həmçinin bir pulemyot ələ keçirir. Qafqar Əliyevin taqımı isə Danzik kəndindən qaçmaq istəyən daşnaklarla süngü döyüşündə onun 25 nəfərini məhv edir və 5 daşnakə əsir alır.

Bundan sonra daşnaklar "Qırmızı tabor"u tutduğu mövqelərdən uzaqlaşdırmaq məqsədilə hücumlar etsə də məqsədlərinə nail ola bilmirlər, əksinə "Qırmızı tabor"un əks həmlələri nəticəsində Yaponun daşnak dəstələri məğlubiyyətə düçar olaraq Arpa, Əynəzur, Malışkə, Yelpin və İstisuya tərəf geri çəkilməyə məcbur oldular.

Bu zaman Rind kəndi uğrunda qanlı döyüşlər baş verdi. Burada daşnaklar "Qırmızı tabor"çuların bir hissəsini mühasirəyə almağa nail oldular. Lakin Abbasqulu bəyin hərbi bacarığı və qətiyyəti sayəsində mühasirə xəttini yarmaq

mümkün olur. Həmçinin bu günə qədər "Qırmızı tabor"çular ən ağır itkiyə məruz qaldılar. Bu kənddə 18 nəfər şəhid verildi. Bütün bunlara baxmayaraq sağ qalanlar şəhid olmuş döyüş yoldaşlarının qanını yerdə qoymayaraq, düşməni tutduğu mövqelərdən qovub çıxarırdılar. Dərələyəz cəbhəsindəki uğurlar daşnakların Şərur üçün təhlükəsi tamamilə aradan qaldırılır [4,153].

Qərbi Azərbaycanın daşnak quldur dəstələrindən təmizlənməsi üçün aparılan döyüşlərdə "Qırmızı tabor"un komandiri və onun 18 nəfər döyüşçüsü "Qırmızı bayraq" ordeni ilə təltif edilmişdilər. Təltiflər Qərbi Azərbaycanda bolşeviklır tərəfindən təşkil edilmiş "Ermənistan SSR"in Xalq Hərbi Komissarı A.Vis və Baş Qərargah rəisi Krito Mukovun İrəvan şəhərində imzaladığı 25 aprel 1921-ci il tarixli 11 saylı təqdimatına əsasən "Ermənistan SSR"in MK-nin 1921-ci il 30 may tarixli 56 saylı qərarı ilə təsdiq edilmişdir. [4, 154].

1921-ci ilin fevralından- aprelinə qədər Abbasqulu bəy Şadlinskinin rəhbərliyi ilə "Qırmızı tabor"un erməni daşnaklarına qarşı apardığı müharibə, o zaman nəinki Şərur, həm də Qərbi Azərbaycanın (indiki Ermənistan ərazisi nəzərdə tutulur-A.İbrahimov) bir daha daşnak işğalına məruz qalmaması üçün aparılan bir mübarizə idi. Düzdür o dövrdə yaranmış siyasi vəziyyətlə əlaqədar olaraq Abbasqulu bəy bolşeviklərlə birgə daşnaklara qarşı mübarizə aparmışdır. Bu mübarizənin ən mühüm nəticəsi fikrimizcə, daşnakların Qərbi Azərbaycandan qovulmasından sonra vaxtilə həmin ərazidə 1918-ci ilin mayından 1920-ci ilin dekabrına qədər davam etmiş daşnak hakimiyyəti zamanında öz dədə-baba yurdlarından qovulmuş qərbi azərbaycanlıların öz ata yurdlarına qayıtması üçün imkanlar yaratmış olmasıdır.

Ədəbiyyat

1. Мустафа Н. Репрессии против азербайджанцев на территории нынешней Армении в 1920-1930 гг. // Журнал, Азербайджан и азербайджанцы, – 2001. №7-8, с.61-67.
2. Azərbaycan SSR XXİK məlumat bülleteni //Azərbaycan Respublikası Dövlət Arxivi, Fond №28, siyahı №1, iş №213, vərəq-50.
3. Naxçıvan MSSR MİK yanında Qırmızı qvardiya və Qırmızı partizanları nəzərdən keçirən komissiyanın sənədləri, Naxçıvan MR DA f.574. siy.1, iş 20, vər. 1-3,72.
4. Şadlinski, V. Şadlinskilər (Şəddadi, Şadı, Şadlılar) – Bakı: Təhsil, – 2011. – 228 s.
5. Ə.Əliyevin fondu, Naxçıvan MR DA. f.582. siy.l. iş.48. vər. 241.
6. Naxçıvan tarixi (XVIII əsrin 40-cı illərindən XX yüzilliyin 30-cu illərinin sonunadək): [II cild] / (müəlliflər kollektivi) – Naxçıvan: Əcəmi, – c.2. – 2014. – 528 s.
7. Cəfərov F. Erməni vəhşiliyi, – Bakı: – 2009. – s. 186.
8. Naxçıvan MSSR MİK yanında Qırmızı qvardiya və Qırmızı partizanları nəzərdən keçirən komissiyanın sənədləri, Naxçıvan MR DA f.574. s.1. iş 20. vər. 1-3
9. Нифталиев И.В. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы XX века), Б 2010, 292 с.
10. "Aşxatar" qəzetinin (9 yanvar 1921-ci il), Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), fond №28, siyahı №1, iş №219.
11. Ələkbərli Ə.Y., Abbasqulu bəy Şadlinski, – Bakı:– 1998, – 320 s.
12. Naxçıvan MSSR MİK yanında Qırmızı qvardiya və Qırmızı partizanları nəzərdən keçirən komissiyanın sənədləri, Naxçıvan MR DA f.582. s.1. iş. 24.vər.168
13. Naxçıvan MSSR MİK yanında Qırmızı qvardiya və Qırmızı partizanları nəzərdən keçirən komissiyanın sənədləri, Naxçıvan MR DA. f. 574. siy.2. iş.94. vər.4-5.

Məqalə AMEA-nın həqiqi üzvü, tarix üzrə elmlər doktoru, professor İsmayıl Hacıyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –17.01.2022 , son daxilolma –10.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 161-169
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 161-169
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.161-169

UOT 94(479.24)

Azərbaycanın parlamentarizm tarixində Naxçıvanın yeri (1991-1993-cü illər)

Müəllif:

Ələkbər Cabbarlı
Naxçıvan Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru, dosent
E-mail: cabbarlıe@gmail.com

Açar sözlər:
Azərbaycan, Heydər Əliyev, Naxçıvan, parlament, tarixi qərarlar, dövlətçilik, müstəqillik

Annotasiya. XX əsrin 90-cı illəri və XXI əsrin ilk illəri Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı tarixində mühüm mərhələdir. Naxçıvan MR Ali Məclisinin 1991-ci il sentyabrın 3-də keçirilən sessiyasında Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri seçilir. Məqaqlədə tarixi-müqayiləli metoddan istifadə etməklə Ulu öndərin Naxçıvandakı fəaliyyəti tədqiq edilmiş, dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər şərh edilmişdir. Heydər Əliyevin Naxçıvanda hakimiyyətə gəlişi ilə Naxçıvan parlamenti formalaşdı, Milli dövlətçilik ənənələrinin bərpası və yaradılması istiqamətində tarixi qərarlar qəbul edildi. Naxçıvanın müdafiəsinin hərbi-siyasi və diplomatik yollarla təşkili sayəsində muxtar respublika erməni təcavüzündən qorundu, sosial-iqtisadi sahədə mühüm tədbirlər həyata keçirildi. Bir sözlə, Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil dövlətçiliyini, siyasi varlığını məhv olmaq təhlükəsindən xilas etməklə bərabər, Azərbaycan parlamentinin tarixində yeni bir dövrün başlanğıcını qoydu. Bu artıq müstəqil Azərbaycanın gələcək inkişafına xidmət edən parlamenti idi.

The place of Nakchivan in the history of parliamentarism of Azerbaijan

Author:

Alakbar Jabbarli
Nakhchivan State University
Doctor of philosophy in history, associate professor
E-mail: cabbarlıe@gmail.com

Key word:
Azerbaijan, Heydar Aliyev, Nakhchivan, Parliament, historical decisions, statehood, independence

Abstract. The 90s of the XX century and the first years of the XXI century are an important stage in the history of socio-political, socio-economic and cultural development of Nakhchivan. In 1991, at the session of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic held on September 3, Heydar Aliyev was elected chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic. In the article, the activities of the great leader in Nakhchivan were studied using the historical-comparative method, and the measures implemented in the direction of strengthening statehood were commented. With the coming to power of Heydar Aliyev in Nakhchivan, the Nakhchivan Parliament was formed, historical decisions were made to restore and establish national statehood traditions. Thanks to the organization of the defense of Nakhchivan by military-political and diplomatic means, the autonomous republic was protected from Armenian aggression, important measures were taken in the socio-economic sphere. In short, Heydar Aliyev's return to power, along with saving the independent statehood and political existence of Azerbaijan from the threat of destruction, marked the beginning of a new era in the history of the Azerbaijani parliament. It was already the Parliament serving the future development of independent Azerbaijan.

Место Нахчывана в истории парламентаризма Азербайджана (1991-1993 годы)

Автор:

Алекбер Джаббарлы
Нахчыванский государственный университет
Доктор философии по истории, доцент
E-mail: cabbarlıe@gmail.com

Ключевые слова:
Азербайджан, Гейдар Алиев, Нахчыван, парламент, исторические решения, государственность, независимость

Аннотация. 90-е годы XX века и первые годы XXI века являются важным этапом в истории общественно-политического, социально-экономического и культурного развития Нахчывана. На сессии Верховного Меджлиса Нахчыванской АР, состоявшейся 3 сентября 1991 года, Гейдар Алиев был избран председателем Верховного Меджлиса Нахчыванской АР. В статье с использованием историко-сравнительного метода была изучена деятельность великого лидера в Нахчыване, прокомментированы меры, предпринятые им в направлении укрепления государственности. С приходом Гейдара Алиева к власти в Нахчыване был сформирован Нахчыванский парламент, приняты исторические решения по восстановлению и созданию традиций национальной государственности. Благодаря военно-политической и дипломатической организации обороны Нахчывана автономная республика была защищена от армянской агрессии, осуществлялись важные мероприятия в социально-экономической сфере. Одним словом, возвращение Гейдара Алиева к власти, наряду с спасением независимой государственности, политического существования Азербайджана от угрозы разрушения, положило начало новой эпохе в истории азербайджанского парламента. Это уже был парламент, который служил дальнейшему развитию независимого Азербайджана.

XX əsr Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı tarixində mühüm bir mərhələ təşkil edir. Bu mərhələ, milli dövlətçilik ənənələrinin bərpası və inkişafı baxımından, eyni zamanda, Azərbaycanın siyasi və dövlətçilik mühitində silinməz izlər qoyan Heydər Əliyevin ölkədə rəhbərliyə gəlməsi ilə bağlı oldu. Böyük dövlət idarəçiliyi təcrübəsinə sahib olan görkəmli siyasi xadimin ölkədə hakimiyyətə qayıdışı bütün ictimai-siyasi proseslərin axarının müstəqilliyimiz üçün arzu olunan istiqamətdə inkişaf etməsində həlledici amil oldu.

XX əsrin 90-cı illəri və XXI əsrin ilk illərində Naxçıvanın təhlükəsizliyinin təmin edilməsi, muxtariyyət statusunun möhkəmləndirilməsi, dövlətçilik istiqamətində yeni tarixi qərarların qəbul edilməsi, burada elmin və təhsilin inkişa-fı, bölgənin tarixinin, arxeoloji abidələrinin öyrənilməsi, əsaslı tədqiqatların aparılması məhz Heydər Əliyevlə, onun müəyyənləşdirdiyi siyasi xətlə bağlıdır.

Naxçıvan MR Ali Məclisinin 1991-ci il sentyabrın 3-də keçirilən fövqəladə sessiyası muxtar respublikanın müasir tarixində dönüş nöqtəsi oldu. Sessiya müstəqilliyin bərpasına dair bəyanata əsaslanaraq belə hesab edirdi ki, Azərbaycan Respublikası özünün tam milli, dövlət müstəqilliyinə nail olmalı və mövcud SSRİ əsasında hər hansı bir formada yaradılacaq yeni dövlət ittifaqına daxil olmamalıdır [17, 2006, 1 noyabr].

Lakin sessiyanın Azərbaycanın müasir dövr tarixindəki əhəmiyyəti başqa bir hadisə ilə əlaqədardır. Belə ki, məhz həmin sessiyada qəbul edilən başqa bir qərar öz onu tariximizin əlamətdar gününə çevirdi. Həmin gün deputatların təkidli xahişi və parlament binası önündə mitinq keçirən xalq kütlələrinin tələbi ilə Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri seçildi. Heydər Əliyev özü sonralar Ali Məclisin Sədri seçildiyi tarixi məqamı belə xatırlayırdı: "Azərbaycana hakimiyyətə qayıtmaq üçün gəlməmişəm. Mən ancaq Azərbaycanın bu ağır dövründə, çətin vaxtında xalqıma kömək etmək, xidmət etmək üçün gəlmişəm. Mənə bir neçə dəfə Moskvada, elə burada da sual verilmişdi ki, bəs, siz öz köməyinizi nədə görürsünüz? Cavab vermişdim ki, mən Azərbaycan xalqının hər bir tapşırığını yerinə yetirməyə hazıram. Mənim razılığım olmadan, mən bunu qətiyyətlə deyirəm və bunu hamı bilməlidir, məni Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçdilər. Sədr seçiləndən sonra da mən sessiyaya sədrlik etməkdən imtina etdim. İclası axıra qədər sədrin müavini apardı. Çox böyük əziyyət, mənəvi əziyyət içərisindəydim ki, mənim razılığım olmadan məni sədr seçdilər" [17, 2005, 10 may].

Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinə Sədr seçilməsi bütövlükdə Azərbaycanın milli maraqları baxımından böyük hadisə idi. Hadisənin əhəmiyyəti yalnız bunda deyildi ki, o, böyük dövlət idarəçiliyi təcrübəsinə və zəngin siyasi biliklərə malik dünyada tanınan məşhur siyasi xadim idi. Bundan heç də az əhəmiyyətli olmayan məqam bunda idi ki, Heydər Əliyev vətənə Azərbaycanda milli azadlıq hərəkatının müqavimətinin qırıldığı, xalqın müstəqillik ideyalarına inamının səngidiyi bir dövrdə qayıtmış və öz şəxsi həyatı üçün heç bir təhdiddən çəkin-məyərək müstəqil dövlətçilik uğrunda mübarizəyə qoşulmuş, ilk növbədə Naxçıvanda fəal və peşəkar fəaliyyəti ilə milli dövlətçiliyə inam hissini formalaşdıra bilmişdi.

Heydər Əliyevin Ali Məclisə Sədr seçilməsindən dərhal sonra gərgin ictimai-siyasi şəraitdə bir sıra çevik və ciddi qərarlar qəbul olundu. Ali Məclisin 1991-ci il 4 sentyabr tarixli qərarı ilə sentyabrın 8-ə təyin olunmuş Azərbaycan Respublikası Prezidentinin seçkilərinin keçirilməsi Naxçıvan MR ərazisində dayandırıldı [9, s.130]. Yaranmış mürəkkəb dövrdə prezident seçkilərinin keçirilməsini səhv addım kimi qiymətləndirən Ali Məclisin sessiyası seçkilərin başqa vaxtda keçirilməsini respublika parlamentindən xahiş etdi. Hələ avqustun 29-30-da Azərbaycan Ali Sovetinin sessiyasında da bununla bağlı müvafiq təkliflər səsləndirilmişdi.

Azərbaycan rəhbərliyi Naxçıvan MR Ali Məclisinin qərarına tamamilə mənfi münasibət bəsləyərək Naxçıvana ciddi təzyiqlər göstərməyə başladı. Daxili İşlər Nazirliyinin bir qrup zabiti, Azərbaycan parlamentinin deputatlarından ibarət böyük bir qrup muxtar res-

publikanın hakimiyyət orqanlarını bu qərarı dəyişməyə məcbur etmək məqsədi ilə Naxçıvana göndərildi. Lakin öz mövqeyini qətiyyətlə müdafiə edən Heydər Əliyev yerli televiziya vasitəsi ilə bəyanat verdi və xəbərdarlıq etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr muxtar respublikanı tərk etməlidirlər, əks təqdirdə əhali ayağa qalxacaqdır [2, s. 88]. Sentyabrın 8-də Azərbaycanda keçirilən prezident seçkiləri Naxçıvan MR ərazisində baş tutmadı.

Bir tərəfdən Heydər Əliyevin Naxçıvanda milli dövlətçilik ənənələrinin bərpası ilə bağlı həyata keçirdiyi tədbirlərə, digər tərəfdən isə onun xalq arasındakı böyük nüfuzuna görə bu böyük dövlət xadiminə Azərbaycanın o zamankı iqtidar sahiblərinin bəslədiyi mənfi münasibət o dərəcəyə çatdı ki, onlar artıq Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gələ biləcəyindən təşvişə düşdülər və bunun qarşısını almaq üçün real addımlar atmağa başla-dılar. Əvvəlcə prezident seçkiləri haqqında qanunda prezi-dentliyə namizədə qoyulan tələblər sırasına yaş senzi daxil edildi. Azərbaycan Ali Sovetinin 1991-ci il oktyabrın 8-11-də keçirilmiş fövqəladə sessiyasında isə Konstitu-siyanın 112-ci maddəsindən "Naxçıvan Muxtar Respubli-kası Ali Məclisinin Sədri Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavinidir" cümləsi çıxarıldı. Bununla, həm də Naxçıvanda prezident seçkisi baş tutmadığından guya Heydər Əliyevdən qısas alınmış olurdu.

Azərbaycanda xalqın etimadını itirmiş siyasi iqtidarın öz hakimiyyətinin ömrünü uzatmaq və legitimləş-dirmək üçün hər cidd-cəhdlə prezident seçkilərinin baş tutmasına çalışdığı bir vaxtda Heydər Əliyev xalqı həmrəyliyə və milli mənafelər naminə birliyə səsləyir, torpaqlarımızın müdafiəsi ilə bağlı ciddi tədbirlər həyata keçirirdi. 1991-ci il sentiyabrın 5-də Naxçıvan televiziyası ilə çıxış edən Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Azərbaycanın bütövlüyü, onun bölünməzliyi haqqında qətiyyətli fikirlər söyləmiş, "Naxçıvan MR Azərbaycan Respublikasının tərkib hissəsidir" kimi fikirləri ilə Azərbaycan xalqını birliyə və milli razılığa səsləmişdi.

Həmin ictimai-siyasi cəhətdən gərgin və taleyüklü günlərdə Naxçıvan MR Ali Məclisinin Naxçıvanda Müdafiə Komitəsinin yaradılması ilə bağlı sentyabrın 7-də qəbul etdiyi qərar muxtar respublikanın düşmən təcavüzündən mütəşəkkil və nizamlı müdafiəsinin təşkili üçün vaxtında atılmış çox mühüm addım idi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı elan edil-miş müstəqilliyin konstitusion-hüquqi əsaslarının yaradılması baxımından zəruri və mühüm bir tarixi sənəd idi. Heydər Əliyev "Həyat" qəzetinin 1991-ci il 23 oktyabr tarixli sayında bu tarixi hadisə ilə bağlı dərc olunan teleqramında xalqı təbrik edirərək deyirdi: "Naxçıvan Muxtar Respublikasının əhalisi adından 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı münasibəti ilə bütün Azərbaycan xalqını təbrik edir və bunu tarixi hadisə kimi qəbul edir... Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addımlar atıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər".

Heydər Əliyev özünün milli birlik və həmrəyliklə bağlı ideyalarını da inkişaf etdirir və bu birliyin yalnız ölkə hüdudları daxilində deyil, habelə bütün dünyada yaşayan milyonlarla azərbaycanlının simasında təcəssüm etdirilməsini zəruri sayırdı. Bu məqsədlə onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclisi "31 dekabr dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü" haqqında qərar qəbul etdi [10, s. 271-274]. Bu qərarla "sərhəd hərəkatı" adı ilə tarixə düşmüş 1989-cu il dekabr ayının sonlarında Azərbaycanın İranla dövlət sərhədlərinin sökülməsi prosesinin milli mənafelərə uyğun uğurlu şəkildə tarixiləşdirilməsi həyata keçirildi.

Azərbaycan Respublikası 1992-ci ilə müstəqil dövlət kimi qədəm qoysa da, ölkədə gedən hakimiyyət çarpışmaları Xocalı soyqırımına daxili zəmin yaradır, Şuşa və Laçının

ermənilər tərəfindən daha asanlıqla işğal edilməsinə yol açırdı. May ayının əvvəllərindən erməni silahlı birləşmələrinin Naxçıvana da qarşı irimiqyaslı hərbi əməliyyatlara başladı. Paytaxt Bakıdan fərqli olaraq Naxçıvanda xalqla rəhbərliyin vəhdəti düşmənə rəşadətlə sinə gərərək torpaqları qoruyub saxlmağa kömək etdi. Bu dövrdə məhz Heydər Əliyevin siyasi bacarığı, uğurlu diplomatik gedişləri və Türkiyə Cümhuriyyəti ilə yaratdığı əlaqələr Ermənistanın hərbi təcavüzünü dünya ictimaiyyətinin pisləməsinə, Naxçıvanın isə xilasına səbəb oldu.

1992-ci il Naxçıvan MR üçün də çox mürəkkəb və məsuliyyətli il idi. Bu dövrdə Ali Məclisin Sədri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanın müdafiəsi, sosial-iqti-sadi və ictimai-siyasi vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra mühüm addımlar atılmışdı. Qonşu Türkiyəilə İrana olan səfərləri və həmin səfər-lər zamanı imzalanan iqtisadi-mədəni əməkdaşlıq barədə protokollar, Araz çayı üzərində Azərbaycanla (Naxçıvan ərazisində) Türkiyə arasında Sədərək-Dilucu "Ümid körpüsü"nün açılması iki qardaş ölkə arasında əlaqələrin uzun illərdən sonra bərpa edilməsi sonrakı mərhələdə Naxçıvanın yalnız iqtisadi həyatında deyil, həmçinin siyasi həyatında da müstəsna rol oynayırdı.

Naxçıvan MR Ali Məclisinin 1992-ci il aprelin 6-da keçirilən sessiyası iqtisadi sahədə islahat xarakterli proseslər baxımından maraq doğurur. Sessiyada "Zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictmai mal-qarasının özəlləşdi-rilməsi haqqında" qərarlar qəbul edilmişdi. Novator dövlət xadimi olan Heydər Əliyevin böyük uzaqgörənliyi ilə atılmış bu addım Azərbaycanda yeni dövrün tələblərinə uyğun və bu gün aparılan iqtisadi islahatların başlanğıc mərhələsi oldu.

1992-ci ildə Azərbaycanda hakimiyyət dəyişikliyi baş verdi. Xalqın təhlükəsizliyinin təmin edilməsində birbaşa məsuliyyət daşıyan prezident A.Mütəllibov Xocalı faciəsindən sonra, xalqın və siyasi qüvvələrin ciddi təzyiqləri altında martın 6-da istefaya getməyə məcbur oldu. May ayının 14-də onun yenidən hakimiyyətə qayıtmaq cəhdi də iflasa uğradı. Şuşanın işğalından sonra mövcud iqtidarın xalqın arasında tam nüfuzdan düşməsi ilə Bakıda siyasi mövqeyi güclənən Azərbaycan Xalq Cəbhəsi-Müsavat birliyi Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə bağlı bütün təşəbbüsləri süni şəkildə boğaraq parlament sədri vəzifəsini ələ keçirdi. Düşmənin cəbhə bölgəsində aktiv hərbi əməliyyatlar keçirərək Laçın rayonunu işğal etdiyi gündə paytaxt Bakıda siyasi qüvvələr hakimiyyət məsələsi uğrunda mübarizə aparırdılar. Məhz həmin gün, mayın 18-də Müsavat partiyasının sədri İ.Qəmbərov Ali Sovetin sədri, 1992-ci il iyunun 7-də keçirilən prezident seçkilərində isə AXC sədri Ə.Elçibəy prezident seçildi. Azərbaycanın əvvəlki kommunist rejiminin Heydər Əliyevə qarşı mənfi münasibəti ilə səciyyələnən siyasətini davam etdirən yeni siyasi iqtidar da prezident seçkilərində iştirakla bağlı yaş senzini aradan qaldırmadığından Heydər Əliyevin seçkilərdə iştirakı mümkün olmadı.

Azərbaycanın yeni siyasi iqtidarı sələfindən daha da irəli gedərək Naxçıvan MR-də dövlət çevrilişi hazır-ladı. 1992-ci il oktyabrın 24-də AXC Naxçıvan vilayət və Ordubad rayon şöbələrinin 300 nəfərdən ibarət qanunsuz silahlı dəstələri [13, s.99] bilavasitə Azərbaycan Respublikasının o zamankı daxili işlər naziri İ.Həmidovun göstərişi və dəstəyi ilə Naxçıvan MR Daxili İşlər Nazirliyini, Dövlət Tele-Radio Şirkətinin inzibati binalarını zəbt edərək Naxçıvanda hakimiyyət çevrilişi haqqında bəya-natla çıxış etdilər. Qiyamçıların başlıca məqsədi Naxçıvan MR Ali Məclisinin binasını ələ keçirməklə Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırmaq idi. İ.Həmidov hətta bir qədər də irəli gedərək Heydər Əliyevin fiziki cəhətdən məhv ediləcəyi ilə bağlı fikirlər də səsləndirmişdi. Lakin Naxçıvan əhalisi özünün seçdiyi qanuni hakimiyyətin müdafiəsinə qalxdı və Heydər Əliyevin başçılığı altında elə həmin gün qiyamçılar tutduqları inzibati binalardan qovuldular.

24 oktyabr çevrilişinə şəxsən daxili işlər naziri İ.Həmidovun başçılıq etməsi, həmin həyəcanlı günlərdə Heydər Əliyevin Azərbaycan prezidentinə və parlamentin sədrinə AXC-nin Naxçıvandakı qanunsuz əməlləri

barədə dəfələrlə etdiyi telefon zənglərinə etinasız yanaşılması sübut edirdi ki, Naxçıvanda həyata keçirilən bu çevriliş cəhdi ölkənin ali rəhbərliyi tərəfindən müdafiə olunur.

1992-ci il oktyabrın 25-də keçirilən Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında dövlət çevrilişi cəh-di qətiyyətlə pisləndi və və ölkə rəhbərliyindən bu fakta hüquqi-siyasi qiymət verilməsi və AXC-nin qanunsuz silahlı dəstələrinin buraxılması tələb edildi [5, s. 37], 24 oktyabr hadisələri dövlət çevrilişinə cəhd kimi qiymətləndirildi. Ali Məclisin həmin gün qəbul etdiyi qərarda deyilirdi: "Muxtar respublika əhalisinin iradəsini ifadə edərək Ali Məclis Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarının sarsılmazlığını bəyan edir və onların pozul-masına cəhd göstərənlərin hamısına məsuliyyətləri haqqında xəbərdarlıq edir" [10, s.414].

Belə bir şəraitdə Azərbaycan siyasi mühitində yeni siyasi qüvvəyə, ölkənin problemlərinin həllini aydın görən və bu problemləri həll etmək iqtidarında olan partiyaya ehtiyac duyulurdu. Ölkədəki siyasi qüvvələrin və azçox tanınan siya-sətçilərin müxtəlif kiçik partiyalarda təmsil olunduğunu nəzərə alsaq, belə bir partiyanın Heydər Əliyevin rəhbərliyində və onun ətrafında yaranacağı şübhə doğurmurdu. Bu, həm də xalqdan və geniş ictimai təbəqələrdən gələn, həyata keçirilməsi zərurətə çevrilmiş ciddi və qaçılmaz sosial sifariş idi.

Bu sifarişin həyata keçirilməsi istiqamətində ilk addım ölkənin 91 nəfər ziyalısının Yeni Azərbaycan Partiyasının yaradılması və ona rəhbərlik etməsi xahişi ilə 1992-ci il oktyabrın 16-da "Səs" qəzetində Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" adlı müraciəti oldu. Səkkiz gün sonra, oktyabrın 24-də elə həmin qəzetdə Heydər Əliyevin müraciətə müsbət cavabı dərc edildi. Ölkənin taleyindən ciddi narahatlıq keçirən böyük lider cavabında Azərbay-canın qarşısında duran həlli vacib və təxirəsalınmaz olan problemləri sadalayır və yeni yaranacaq partiyanın həmin problemlərin həlli ilə məşğul olmasını zəruri sayırdı.

Beləliklə, yaradılan bütün maneələrə baxmayaraq 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Azərbaycanın müxtəlif regionlarından gəlmiş nümayəndələrin iştirakı ilə Yeni Azərbaycan Pariyasının (YAP) təsis konfransı keçirildi. YAP-ın Proqram və Nizamnaməsi qəbul edildi, Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçildi. Konfransda qəbul edilən bəyanatda deyilirdi: "Yeni Azərbaycan Partiyası parlament tipli siyasi partiya olub, qanunun aliliyi, hamının qanun qarşısında bərabərliyi, dövlət və vətəndaşın qarşılıqlı məsuliyyəti və konsti-tusiya ilə təsbit edilmiş normalara hörmət edilməsi prinsi-pini əldə rəhbər tutur" [10, s.513].

YAP-ın Azərbaycanın müstəqillik tarixində müstəsna missiyası ölkənin ən ağır, faciəli günlərində, onun taleyi, ölüm-dirim məsələsi həll olunduğu bir vaxtda xalq-la, geniş kütlələrlə onun yeganə nicatı olan Heydər Əliyev arasında körpü salmasında, "Heydər-xalq, xalq-Heydər" birliyinin təminatçısına çevrilməsində idi. Dövlətçiliyimizin qorunmasında və möhkəmləndirilməsində, yeni iqtisadi münasibətlərin formalaşdırılmasında, ictmai-siyasi sabitliyin bərqərar olmasında, demokratik cəmiyyət quruculuğunda YAP və onun lideri Heydər Əliyev böyük rol oynadı.

1993-cü ilin may-iyun aylarında Gəncədə qiyamçı polkovnik S.Hüseynovun qanunsuz əməlləri və ona qarşı hökumət qüvvələrinin həyata keçirdiyi qeyri-peşəkar və qan tökülməsi ilə nəticələnən hadisələr Azərbaycan dövlətçiliyini məhvolma təhlükəsi, cəmiyyəti isə vətəndaş müharibəsi ilə üz-üzə qoydu. Belə bir vəziyyətdə siyasi iqtidara inamını itirmiş xalq bütün ümidini Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevə bağlamışdı. Artıq özünün yaratdığı siyasi anarxiyanın və real hərbi təhdidlərin girovuna çevrilən o zamankı iqtidar da özünün və ölkənin xilası üçün, cəmi bir il əvvəl hər vasitə ilə hakimiyyətə gəlməsinə böyük əngəllər törətdiyi Heydər Əliyevə müraciət etməkdən başqa çarə görmürdü. Beləliklə, prezident Ə.Elçibəyin xahişi və dəvəti ilə 1993-cü il iyunun 9-da Heydər Əliyev Naxçıvandan Bakıya getdi [9, s. 777].

Gəncəyə səfər edərək baş vermiş hadisə və nəticələri barədə yerində məlumat alan Heydər Əliyev 1993-cü il iyun ayının 15-də Azərbaycan parlamentinin iclasında böyük səs çoxluğu ilə Azərbaycan Respublikası Ali

Sove-tinin Sədri seçildi. İyunun 17-dən 18-ə keçən gecə Prezident Ə.Elçibəy naməlum şəraitdə paytaxt Bakını tərk edə-rək doğulduğu Naxçıvan MR-in Ordubad rayonunun Kələki kəndinə getdi. Nə qədər qəribə olsa da, milli dövlətçiliyimiz üçün son dərəcə taleyüklü anda paytaxtı tərk edən dövlət başçısı Kələki kəndindən guya ölkəni idarə etdiyi barədə məsuliyyətsiz bəyanatla çıxış etdi. Lakin artıq bu siyasi avantüraya vaxt itirmək məqamı olmadığından 1993-cü il iyun ayının 24-də Milli Məclis Prezident səlahiyyətlərinin hamısını Ali Sovetin Sədrinə verilməsi haqqında qərar qəbul etdi. Beləliklə, parlament 630 №li qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiy-yətlərinin icrasını Ali Sovetin Sədrinə həvalə etdi [12, s.438]. 1993-cü ilin oktyabrın 3-ə təyin olunan növbədənkə-nar seçkilərdə çox böyük səs çoxluğu ilə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Bununla da milli dövlətçiliyimizin xilası, müstəqilliyimizin möhkəmləndirilməsi və inkişafı prosesi başlandı.

1997-ci il iyul ayının 27-də Milli Məclis xalqın müxtəlif zümrələrinin, minlərlə seçicinin müraciətlərini, arzu və istəklərini nəzərə alaraq görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin respublikada hakimiyyətə qayıtdığı 15 iyun gününün Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilməsi barədə qərar qəbul etdi. Bu qərar Azərbaycanın böyük oğlu, görkəmli siyasi xadim Heydər Əliyevə ümumxalq məhəbbətinin parlaq təzahürü idi.

1990-cı illərin ortalarında Azərbaycan Respublikası, habelə onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan dövlət quruculuğu sahəsində keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Prezident Heydər Əliyevin sədrliyi ilə 1995-ci il iyun ayının 2-də Konstitusiya Komissiyası yaradıldı. Komissiya Azərbaycan Respublikasının Konstitusiyasının layihəsini hazırlayıb 1995-ci il oktyabrın 15-də ümumxalq müzakirəsinə verdi. Müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası 1995-ci il noyabr ayının 12-də referendum yolu ilə qəbul olundu. Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan Muxtar Respublikasına Azər-baycanın tərkibində muxtar dövlət statusu verdi [6, s.54].

Azərbaycan Respublikasının yeni Konstitusiyasının VIII fəsli Naxçıvan Muxtar Respublikasına həsr edildiyinə görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 23 dekabr 1995-ci il tarixli qərarı ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiya yaradıldı. Komissiya muxtar respublikanın yeni Konstitusiya layihəsini hazırlayaraq Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan Komissiyaya təqdim etdi. Konstitusiya layihəsi üzərində 3 ilə yaxın müxtəlif səviyyələrdə müzakirələr getdi. Nəhayət, qanunvericiliyə uyğun olaraq 1998-ci il iyunun 30-u və dekabrın 29-da iki dəfə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunan Naxçıvan MR Konstitusiyası elə həmin gün Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalandı [1, 1998, 30 dekabr] və 1999-cu il yanvar ayının 8-də nəşr olunaraq qüvvəyə mindi.

Azərbaycan Respublikasının Prezidenti olduğu illərdə Heydər Əliyev Nax-çıvana xüsusi münasibət bəsləyir və muxtar respublikanın hərtərəfli inkişafı üçün zəruri diqqət və qayğı göstərirdi. Onun dövlət başçısı kimi Naxçıvana ilk səfəri 1996-cı ilin oktyabrında baş tutdu. Naxçıvanda həmişəki kimi böyük məhəbbət və hərarətlə qarşılanan Heydər Əliyev Naxçıvana olan münasibətini belə açıqlamışdı: ”Məni naxçıvanlılara bağlayan təkcə bu torpaqda doğulmağım, böyüyüb həyata atılmam deyil, həm də muxtar respublika üçün ağır dövrdə – 1990-1993-cü illərdə onlarla bir yerdə yaşamam, Naxçıvanı birgə qorumam idi” [3, s. 477].

Səfər zamanı böyük Azərbaycan şairi və dramaturqu H.Cavidin məzarı üzə-rində tikilmiş məqbərənin açılışında iştirak edən Prezident Heydər Əliyev ictimaiy-yətin nümayəndələri, əsgər və zabitlərlə, Ali Məclisin üzvləri ilə görüşlər keçirdi. Muxtar respublikanın ictimai-siyasi, iqtisadi, mədəni həyatı ilə yaxından maraqlandı və öz tövsiyələrini verdi. O, bu səfəri zamanı Azərbaycanın dövlətçiliyi istiqamətində həyata keçirilən tədbirlərdə Naxçıvanın həmişə öncül yerlərdə olduğundan bəhs edərək deyirdi: “Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz bir hissəsi kimi milli azadlıq uğrunda, dövlət müstəqilliyimiz uğrunda gedən mübarizədə həmişə ön

sırada olmuş, təşəbbüskar olmuşdur. Azərbaycanda dövlət müstəqilliyi, milli azadlıq yolunda gedən mübarizənin dayağı olmuşdur və bu gün də dayağıdır, gələcəkdə də belə olacaqdır".

Naxçıvanda səfərdə olarkən Heydər Əliyev İran İslam Respublikası Prezidentinin birinci müavini doktor Həsən Həbibi ilə görüşmüş və Naxçıvan Muxtar Respublikasının problemlərinin həlli ilə bağlı məsələləri müzakirə etmişdi [14, s. 90].

Heydər Əliyev Naxçıvana bu səfəri zamanı blokadanın ən ağır dövründə özünün də burada yaşadığını, həmin məşəqqətli günlərin çətinliyini və xalqla rəhbər-liyin, özünün birlikdə, torpağa, vətənə dərin məhəbbət və sədaqət hissi bəsləyərək bütün çətinliklərə sinə gərdiyi keçmiş günləri xatırlayaraq deyirdi: "Bəli, günlər vardı ki, biz həftələrlə elektrik enerjisindən məhrum olurduq. Gecə saat ikiyə-üçə qədər iş otağımızda az işıq verən neft lampası ilə oturub işləyirdim, bunu hamı bilirdi. Evlərə elektrik, istilik vermək üçün heç bir imkan yox idi. İn-sanlar həqiqətən donurdular. Bizim bir çox müşavirələrimiz, hətta Ali Məclisin sessiyaları qış vaxtı keçiriləndə insanlar paltoda, papaqda otururdular, çünki vəziyyət həqiqətən çox ağır idi. Amma yenə də deyirəm, naxçıvanlıların dözümlülüyü hamımızı bu vəziyyətdən çıxartdı. O illər bir-birimizə sədaqətimizi sübut etdik. Siz sübut etdniz ki, öz torpağınıza, xalqınıza, millətinizə, müqəddəs, müstəqil Azərbaycana sədaqətlisiniz və mənim də həm Azərbaycan xalqına, həm də Azərbaycan torpağına, həm də Naxçıvana sədaqətimin şahidi oldunuz" [1, 1996, 2 noyabr].

Naxçıvanın muxtariyyət statusuna həmişə böyük əhəmiyyət verən Prezident Heydər Əliyev 1999-cu il fev-ralın 4-də "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" fərman, fevralın 12-də isə "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" Sərəncam imza-ladı. Sərəncamla "Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş elmi-praktik konfransların, yaradıcılıq ittifaqlarının, yubiley sessiyalarının, Naxçıvana həsr olun-muş musiqi və rəngkarlıq əsərlərindən ibarət festival və sərgilərin keçirilməsi, "Naxçıvan statistika güzgüsündə" tarixi-statistik məcmuəsinin hazırlanması və nəşri nəzərdə tutul-muşdu. 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının təşkil edilməsinin 75 illiyi ilə əlaqədar Bakı şəhərində, müxtəlif rayonlarda tədbirlər, elmi konfranslar keçirildi.

Heydər Əliyev Naxçıvan MR-nın 75 illiyi müna-sibəti ilə keçirilən dövlət tədbirlərində iştirak etmək üçün 1999-cu il oktyabr ayının 10-da Naxçıvana gəldi. Naxçı-vanda "Kazım Qarabəkir Paşa məscidi"nin, Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun, Tədris-ticarət mərkəzinin, C.Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialının, C.Məmmədquluzadənin ev muzeyinin, akademik Zərifə Əliyeva adına Naxçıvan şəhər poliklinikasının və digər yeni müəssisələrin açılışında iştirak və çıxış etdi. Heydər Əliyev çıxışlarında Naxçıvanın tarixinə və inkişafı məsələlərinə toxunaraq deyirdi: "Doğrudur, 75 il ərzində quruculuq işində Naxçıvanın çətinlikləri də çox olubdur. Bir çox illərdə Azərbaycan rəhbərliyi tərəfindən Naxçıvana ögey münasibət olubdur. Amma bunların hamısına baxmayaraq, Naxçıvan yaşayıb, Naxçıvan inkişaf edibdir. Hər halda, 1969-cu ildən sonra Naxçıvanda, bir şəhərdə yox, Naxçıvan Muxtar Respublikasının bütün ərazisində aparılmış quruculuq işləri, inşaat, tikintilər, yaradılmış binalar, qəsəbələrin, şəhərlərin simasının dəyişməsi buna əyani sübu-tdur. Ancaq 1988-ci ildə Ermənistanın Azərbaycana təcavüzü başlayandan Naxçı-vanın da ağır günləri başladı... O ağır illəri bir yerdə keçirdik. Çünki mən öz doğma torpağımda, öz həmvətənlərimlə birlikdə Naxçıvanın qorunub saxlanması uğrunda mübarizə apardıq və bu mübarizədə də biz qalib gəldik" [4, s.174].

1999-cu il oktyabrın 12-də muxtar respublikanın 75 illiyinə həsr olunmuş təntənəli yubiley iclası keçirildi. Heydər Əliyev həmin iclasda geniş məzmunlu nitq söylədi və bildirdi ki: "Son illər Naxçıvanın həyatında böyük dəyişikliklər əmələ gəlibdir. Baxmayaraq ki, elektrik enerjisi çatmır, qaz yoxdur. Bakı ilə əlaqələr məhduddur. Bütün bunlara baxmayaraq Türkiyə ilə, İranla əlaqələr genişdir. Xüsusən naxçıvanlıların öz fədakarlığı, işgüzar-lığı hesabına Naxçıvan yaşayır, inkişaf edir və Nax-

çıvanda quruculuq prosesi gedir" [11, s. 150].

Heydər Əliyev 1990-cı illərin əvvəllərində ölkədəki kəskin və mürəkkəb ictimai-siyasi şəraitdə Naxçıvanda qəbul edilmiş tarixi qərarlara münasibət bildirərək deyirdi: "Yanvarın 19-da Naxçıvan Muxtar Respublikasının Ali Soveti yığışdı, iradə göstərdi və Naxçıvan Muxtar Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi. Bu, təsadüfi hal deyildi. Bu, Naxçıvanda milli ruhun, müstəqilliyə bağlılığın, müstəqillik üçün çalışmağın, azad olmağın rəmzi idi. 1991-ci ilin mart ayında Azərbaycanda sessiya keçirilirdi ki, Sovet İttifaqı saxla-nılsın, ya saxlanılmasın... Naxçıvan Muxtar Respublikası Azərbaycanın yeganə bölgəsidir ki, SSRİ-nin saxlanması ilə əlaqədar 17 mart 1991-ci ildə keçirilən referendumda iştirak etmədi... Ona görə də Naxçıvanda müstəqil qərarlar qəbul edilirdi" [4, s.203-206].

Prezident Heydər Əliyevin Naxçıvana növbəti səfəri 2002-ci il iyunun 15-də oldu. O, Naxçıvanda Olimpiya-idman kompleksinin açılışında, "N" saylı hərbi hissədə keçirilən mərasimdə iştirak etdi, C.Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialında müdavimlərlə görüşdü. İyunun 17-də Heydər Əliyev Naxçıvan MR-da yerləşən hərbi hissələrin komandirləri ilə müşavirə keçirdi, bir gün sonra isə görkəmli Azərbaycan rəssamı Bəhruz Kəngərlinin xatirəsinə yaradılmış muzeyin açılış mərasimində iştirak və çıxış etdi.

Heydər Əliyev 2002-ci il avqust ayının 10-da Naxçıvana həmin ildə ikinci, ümumiyyətlə isə, Prezident kimi dördüncü dəfə səfər etdi. Avqustun 11-də o, Şahbuz rayon ictimaiyyəti ilə görüşdü, onlar qarşısında çıxış etdi. Azərbaycan Respublikası Prezidentinin avqustun 7-də AMEA Naxçıvan Bölməsinin yaradılması haqqında imza-ladığı Sərəncamla bağlı avqustun 12-də Naxçıvan MR Ali Məclisində keçirilən müşavirədəki çıxışında ulu öndər blokada şəraitində yaşayan Naxçıvanın inkişafından danışaraq deyirdi: "...Naxçıvanda inkişaf Azərbaycanın başqa bölgələrindən heç də aşağı səviyyədə deyil, bəlkə də yuxarıdır. Bu da çox sevindiricidir" [1, 2002, 13 avqust].

Bu səfər zamanı muxtar respublika üçün son dərəcə böyük əhəmiyyət daşıyan Naxçıvan Hava Limanının yenidən qurulması məsələsi müzakirə edildi və bu işin 2003-cü ilin sonunadək başa çatdırılması qərara alındı. Avqustun 12-də Vayxır su anbarında əsaslı yenidənqurma və bərpa işlərinin gedişi ilə yaxından tanış olan Azərbaycan Prezidenti iki gün sonra 14-də Sədərək, Şərur və Babək rayonlarının sakinləri ilə görüşlər keçirdi.

Bu səfərlərdən də göründüyü kimi, Heydər Əliyev Azərbaycan Respublika-sının Prezidenti olduğu 1993-2003-cü illərdə Naxçıvana böyük qayğı ilə yanaşmış, muxtar respublikanın siyasi-hüquqi, sosial-iqtisadi, elmi-mədəni cəhətdən yüksəlişi və tərəqqisi yolunda mühüm qərarlar qəbul etmiş, ardıcıl tədbirlər həyata keçirmişdir.

Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil dövlətçiliyini, siyasi varlığını məhv olmaq təhlükəsindən xilas etməklə bərabər, Azərbaycan parlamentinin tarixində yeni bir dövrün başlanğıcını qoydu. Bu artıq müstəqil Azərbaycanın müstəqil və xalqın mənafeyinə xidmət edən parlamenti idi.

Ədəbiyyat

1. // Azərbaycan qəzeti.
2. Azərbaycan Respublikası – 1991-2001. – Bakı: XXI-Yeni nəşr evi, – 2001. – 360 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. [43 cilddə]. – Bakı: Azərnəşr, – c.VII , – 1998. – 520 s.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. [43 cilddə]. – Bakı: Azərnəşr, – c.XXII, – 2007, – 528 s.
5. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasında siyasi proseslər (1988-2007-ci illər) // Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). – Bakı: Nurlan, – 2008. – s. 31-45.
6. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). – Naxçıvan: Əcəmi, – 2011. – 272 s.
7. Əliyev Heydər. Şəxsi mövqe. – Bakı: Azərbaycan, – 1994, –24 s.
8. Hüseynova İ.M. Müstəqilliyimizin təminatçısı. – Bakı: Təhsil, – 2003. – 504 s.

9. Qayıdış (1990-1993). Sənədlər toplusu. – Bakı: Azərbaycan, – 1996, – 780 s.
10. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr. – Bakı: Azərbaycan, – 2008. – 840 s.
11. Qədim Naxçıvanda bayram – 75. – Bakı: Azərbaycan, – 1999, – 288 s.
12. Qətiyyətin təntənəsi(sənədli xronika).Tərtibçi Ş.Yaqubov. – Bakı: Qorqud, – 1995. – 846 s.
13. Məmmədov M.Y. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). – Bakı: Şirvannəşr, – 2005. – 208 s.
14. Ömrün üç günü. – Bakı: Ergin, – 1997, – 90 s.
15. // Səs qəzeti.
16. // Sovet Naxçıvanı qəzeti.
17. "Şərq qapısı" qəzeti.

Məqalə tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 29.12.2021, son daxilolma – 15.02.2022, qəbulolunma –21.02.2022

1
Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 170-176
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 170-176
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.170-176

UOT 94(479.24)

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası kənd əhalisinin ictimai fəallığının ailə və ailə məişətinə təsiri

Müəllif:

Aytəkin Qəhrəmanova
AMEA Naxçıvan Bölməsi
Tarix üzrə fəlsəfə doktoru
E-mail: aytekin1962@mail.ru

Açar sözlər:
Naxçıvan Muxtar Respublikasınının kəndləri, ictimai fallıq, məişət, təhsil, ailə təsərrüfatları, məşğulluq

Annotasiya. Məqalə müstəqillik illərində muxtar respublika kənd əhalisinin ictimai fəallığından bəhs edir. Aparılan araşdırmalar nəticəsində kənddə əhalinin ictimai fəallığın artmasına müəyyən amillərin təsir göstərməsi aydınlaşdırılmışdır. Müəyyən edilmişdir ki, kənd əhalisinin fəallığının artmasına, onların ictimai əməyə cəlb edilməsinə ilk növbədə dövlətin təsərrüfat sahiblərinə güzəştli şərtlərlə kreditlərin, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların verilməsi, əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması, kənd əhalisinin savadlılıq səviyyəsinin yüksəlməsi, kişilərlə yanaşı, qadınların ictimai həyatda fəal iştirakı, gənclərin ictimai-siyasi həyatda fəaliyyətlərinin getdikcə artması, ailə-məişət şəraitinin yaxşılaşması, yeni informasiya- texnologiya nailiyyətlərinin kənd əhalisinin məişətinə daxil olması, kənddə şəhər rahatlığının yaranması və s. təsir etmişdir. Nəticə etibarı ilə belə qənaətə gəlinmişdir ki, müstəqillik illərində dövlət tərəfindən həyata keçirilən tədbirlər, kompleks quruculuq işləri, yaradılan yeni iş yerləri kənddə ictimai fəal əhalinin artmasına səbəb olmuş, bu isə ilk növbədə həm kənd əhalisinin kənddə məskunlaşmasına, ailələrinin maddi gəlirlərinin artmasına, həyat səviyyəsinin və məişət şəraitinin yaxşılaşmasına, həm də şəhərlə kənd arasında olan fərqlərin aradan qaldırılmasına yüksək təsir göstərmişdir.

The impact of social activity of rural population of Nakhchivan Autonomous Republic on family and family life during the years of independence

Author:

Aytekin Gahramanova
Nakhchivan Branch of ANAS
Doctor of philosophy in history
E-mail: aytekin1962@mail.ru

Key word:
villages of Nakhchivan Autonomous Republic, Public fortune, household, Education, Family Farms, employment

Abstract. The article tells about the social activity of the rural population of the autonomous republic during the years of independence. As a result of the studies carried out, it has been clarified that certain factors influence the increase of social activity of the population in the village. It was established that, first of all, to increase the activity of the rural population, to involve them in public labor, to provide preferential loans, various agricultural machinery and technological equipment to the owners of farms of the state, to provide employment of the population, to create new jobs, to increase the level of literacy of the rural population, active participation of men and- the introduction of technological achievements into the everyday life of the rural population, the emergence of urban comfort in the village, etc. had an impact. As a result, it was concluded that the measures carried out by the state in the years of independence, complex construction work, new jobs created led to the growth of socially active population in the village, and this, first of all, had a high impact on the settlement of the rural population, the increase of their families ' material income, the improvement of living

Влияние общественной активности сельского населения Нахчыванской Автономной Республики на семью и семейный быт в годы независимости

Автор:

Айтекин Гахраманова
Нахчыванское отделение НАНА
Доктор философии по истории
E-mail: aytekin1962@mail.ru

Ключевые слова:
села Нахчыванской Автономной Республики, общественная активность, быт, образование, семейные хозяйства, занятость

Аннотация. Статья рассказывает об общественной активности сельского населения автономной республики в годы независимости. В результате проведенных исследований было выяснено влияние определенных факторов на рост общественной активности населения в селе. Установлено, что это повлияло росту активности сельского населения, его вовлечению в общественный труд в первую очередь способствуют предоставление государством кредитов владельцам хозяйств на льготных условиях, предоставление сельхозтехники и технологического оборудования различного назначения, обеспечение занятости населения, открытие новых рабочих мест, повышение уровня грамотности сельского населения, активное участие женщин наряду с мужчинами в общественной жизни, постепенное увеличение активности молодежи в общественно-политической жизни, улучшение семейно-бытовых условий, создание новых информационных- внедрение достижений техники в быт сельского населения, появление городского уюта в деревне и др. В заключении был сделан вывод, что меры, проводимые государством в годы независимости, комплексные строительные работы, создание новых рабочих мест привели к росту общественно активного населения в селе, что, в первую очередь, оказало большое влияние как на расселение сельского населения в селе, рост материальных доходов их семей, улучшение уровня жизни и бытовых условий, так и на преодоление различий между городом и селом.

Azərbaycanın digər bölgələrində olduğu kimi, müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında olduğu kimi, ailələrin təsərrüfat həyatında, mədəni-məişət münasibətlərində də ciddi dəyişiklik baş vermişdir. Lakin, Azərbaycanda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında müstəqilliyin ilk illərində mövcud səbəblərdən bütün sahələrdə yaranan iqtisadi böhran kənd təsərrüfatına da öz təsirini göstərmişdir. Bu isə ilk növbədə əhalinin yaşam tərzi və məişətində daha qabarıq nəzərə çarpırdı. Belə ki, mavi qazın kəsilməsi, elektrik enrjisinin fasilələrlə verilməsi, kütləvi işsizlik əhalinin, xüsusi ilə kənd əhalisinin miqrasiyasına səbəb olmuşdur. Lakin, ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra onun təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında aqrar islahatların həyata keçirilməsi, kolxoz və sovxozların ləğv edilməsi, onların torpaq və əmlaklarının kəndlilərə paylanması, kəndliləri min illərlə arzusunda olduğu torpağa sahibləndirmişdir. Akademik İsmayıl Hacıyev qeyd etdiyi kimi, 1995-ci ildən bu sahədə inkişaf başlamış və bu inkişaf 2000-ci ildə torpaqların özəlləşdirilməsi başa çatdıqdan sonra davamlı xarakter almışdır [2, s.38].

Öz müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikasında dövlət tərəfindən həyata keçirilən islahatlar, regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən proqramlar bütün ölkə əhalisi kimi, muxtar respublikanın kənd əhalisinin həyatında və onun məişətində də mühüm dəyişiklikliyə səbəb oldu. Naxçıvan kəndlərində 1995-ci ildən etibarən yeni infrastrukturların inkişafı, dövlətin həyata keçirdiyi islahatlar, nəticəsində əsasən düzən, dağlıq və dağətəyi zonaya mənsub olan muxtar respublikanın ərazilərində yerli şəraitə, yeraltı sərvətlərə uyğun olaraq təsərrüfatın müxtəlif sahələri inkişaf yoluna qədəm qoymuş, eyni zamanda kəndli ailələrinin sosial vəziyyətinin yaxşılaşmasında da ciddi dəyişikliklər baş vermişdir. Belə ki, dövlətin dəstəyi ilə yaranan təsərrüfat sahiblərinə güzəştli şərtlərlə kreditlərin, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların verilməsi, əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması, kənd əhalisinin savadlılıq səviyyəsinin yüksəlməsi, kişilərlə yanaşı, qadınların ictimai həyatda fəal iştirakı, gənclərin ictimai-siyasi həyatda fəaliyyətlərinin getdikcə artması, ailə-məişət şəraitinin yaxşılaşması, yeni informasiya texnologiya nailiyyətlərinin kənd əhalisinin məişətinə daxil olması, kənddə şəhər rahatlığının yaranması və s. nəticəsində kənd əhalisinin həyat səviyyəsini yaxşılaşdırmaqla yanaşı, onların ictimai fəallıqlarının artmasına da öz təsirini göstərmişdir.

Coğrafi mövqeyinə görə biri-birindən fərqlənən muxtar respublika kəndlərində əhalinin təsərrüfat fəaliyyəti və məşğulluq sahələri fərqli xüsusiyyətlərə malikdir. Muxtar respublikanın ərazisini yerləşmə xüsusiyyətlərinə görə şərti olaraq üç zonaya ayırmaq olar: düzən, dağlıq və dağətəyi. Belə ki, dağlıq ərazilərdə əhalinin məşğuliyyəti əsasən heyvandarlıq olduğu halda, dağətəyi və düzənlik zonalarada qarışıq təsərrüfat formaları inkişaf edir. Bəzi kəndlərdə isə kənd təsərrüfatı sahələri ilə yanaşı, sənaye sahələri də fəaliyyət göstərir. Kənd əhalisinin təsərrüfatın müxtəlif sahələrində çalışmaları onların ictimai fəaliyyətlə məşğul olmaqları ilə yanaşı, ictimai fəallıqlarının artmasına da təsir etmişdir.

İctimai fəal insanlar dedikdə əsasən ictimai fəaliyyətlə məşğul olan insanlar nəzərdə tutulur ki, onlar hansı sahədə çalışmalarından asılı olmayaraq daha məlumatlı, əzmkar və fəal olurlar. Onlar hər işin önündə gedərək əhalidən daim dəstək alırlar. İctimai fəal insanlar yaşadıqları kənddə xeyriyyə məqsədi ilə məscid, mərasim evlərinin tikilməsində və ya suya ehtiyacı olan bir kəndə suyun çəkilməsində və yaxud ailəsi, yaxın qohumları ilə birlikdə ailə təsərrüfatlarının yaradılmasında, işlədiyi təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə daha fəal çalışır, daha çox uğurlar əldə edirlər.

Qeyd edildiyi kimi, muxtar respublikanın kənd əhalisinin ictimai fəaliyyətlə məşğul olmaqları əsas etibarı ilə ərazinin yerləşdiyi təbii-coğrafi mövqeyindən daha çox asılıdır. Məlumdur ki, muxtar respublikada kənd əhalisinin əsas məşğuliyyət sahəsi əkinçilik və heyvandarlıqdır. Onu da qeyd edək ki, hələ sovet hakimiyyəti illərində kənd əhalisinin əksəriyyəti kənd təsərrüfatının müxtəlif sahələri

ilə məşğul olduğu kimi, bir qismi də təhsil, mədəni-maarif, səhiyyə sahələrində, az bir qismi isə kənddə yaşayıb kənarda işləyənlərdən ibarət idi. Lakin, müstəqillik bərpa edildikdən sonra kəndlərdə dövlət tərəfindən kompleks quruculuq işləri aparıldığından kənd mərkəzləri, müxtəlif ictimai-iaşə müəssisələri fəaliyyət göstərdiyindən, kəndlərdə işqabiliyyətli əhalinin bir qismi həmin müəssisələrdə, bir qismi isə şəhərlərə və yaxınlıqdakı sənaye müəssisələrində işləməyə gedirlər. Bu cür ailələr digər peşələrlə məşğul olmalarına baxmayaraq, kənd təsərrüfatı ilə də məşğul olurlar. Bir qismi isə kənddə yaşamaqlarına baxmayaraq, ümumiyyətlə, kənd təsərrüfatı ilə məşğul olmurlar.

Sənaye sahələrinə, şəhərlərə yaxın kəndlərlə müqayisədə ucqarda və dağlıq ərazidə olan kəndlərdə əhali əsasən kənd təsərrüfatı ilə məşğul olur. Doğrudur, həmin kəndlərdə əhalinin bir qismi kənd mərkəzləri və onun nəzdində fəaliyyət göstərən müəssisələrdə, məktəb, səhiyyə ocaqları və s. fəaliyyət göstərirlər. Lakin, qeyd edildiyi kimi, əhalinin daha çoxu kənd təsərrüfatı sahələrində fəaliyyət göstərirlər.

Bu gün kənd ailələrininin işqabiliyyətli üzvləri təsərrüfatın müxtəlif sahələrində çalışmaları səbəbindən ailələrin sosial tərkibində müəyyən fərqliliklər var.bBelə ki, kənddə bəzi ailələrin iş qabiliyyətli üzvləri özlərinin ailə təsərrüfatlarını yaratmaqla öz fəaliyyətlərini bir istiqamət üzrə formalaşdırırlar. Yəni həmin ailə sırf kənd təsərrüfatı ilə məşğul olur və gəlirlərini bu sahədən əldə edirlər. Bəzi kəndli ailələrin iş qabiliyyətli üzvləri isə sosial tərkib qarışıq olmaqla çoxpeşəlikdir. Bu cür ailələrin içərisində təsərrüfat sahibləri, müəllim, həkim, mexanizator, mühəndis, jurnalist, fəhlə və s. müxtəlif sənət sahibləri var. Onu da demək lazımdır ki, ailələrin sosial tərkibinin dəyişməsinə urbanizasiya, yaşayış məntəqəsinin şəhərə və ya hansısa sənaye müəssisəsinə yaxınlığı, nəqliyyat vasitəsi də ciddi rol oynayır [3, s.28].

Kənd ailələrinin ictimai fəallıqlarını və onların sosial tərkibi haqqında məlumat əldə etmək üçün təbii-coğrfi şəraiti nəzərə almaqla muxtar respublikanın 10 kəndinin təsərrüfat kitablarından məlumatlar toplanıb, müqayisələr aparılmışdır. Bu cür sistemləşməni muxtar respublika üzrə ilk dəfə olaraq tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü etnoqraf H.Q.Oədirzadə hələ sovetlər dövründə kəndlərdə mövcud olan sovxoz və kolxoz təsərrüfatlarına əsasən aparmışdır [3, 29]. Lakin, müstəqillik bərpa edildikdən sonra kəndlərdə sovxoz və kolxozlar ləğv edilmiş, torpaqların, sovxoz və kolxozların əmlaklarının kəndlilərə paylanması, dövlətin dəstəyi ilə kəndlərdə ailə təsərrüfatlarının, fermerlərin yaranması ilə əlaqədər olaraq biz bu sistemləşməni təsərrüfatın yeni strukturuna uyğun aparmışıq.

Muxtar respublikanının rayonları üzrə tədqiqata cəlb edilən 10 kəndin 6-da ailələrin sayı 3561-dir (Hacıvar, Nüsnüs, Sirab, Kosacan, Qızıl Qışlaq, Bənəniyar) və bu ailələrin əksəriyyəti sosial qarışıq ailələrdir. Bu ailələrdən 50-nin ailə təsərrüfatları var. Araşdirmalar zamanı müəyyən oldu ki, bu ailə təsərrüfatlarında ailə üzvləri ilə yanaşı, digər ailələrin də üzvlərindən çalışanlar var. Bu isə təxminən 350 ailəni əhatə edir. 3561 ailənin yaşadığı 6 kənddə 350 ailə sırf kənd təsərrüfatı ilə məşğul olur. Qalan 3211 ailədə isə sosial tərkib qarışıq olmaqla çoxpeşəlikdir. Bu cür ailələr təsərrüfatla məşğul olmaqla yanaşı, digər peşələrdə də çalışırlar. Bəziləri isə ümumiyyətlə, kənd təsərrüfatı ilə məşğul olmurlar. Bu cür ailələrin içərisində vaxtilə işləyib, indi pensiya alanları da var ki, onların çoxu heç bir yerdə işləmir. Həmin ailələrin də sosial tərkibi qarışıq qrupa aid edilir. Göründüyü kimi, müasir dövrdə kənddə sosial tərkibi qarışıq ailələrin sayı daha çoxdur.

Bu gün muxtar respublikanın dağ kəndlərindən fərqli olaraq şəhərətrafı kəndlərin əhalisinin çox hissəsi ən çox sənaye komplekslərində, dövlət müəssisələrində çalışan insanlardır. Bununla yanaşı, müəyyən kəndlər var ki, orada ailə təsərrüfatları, təhsil və ictimai-iaşə müəssisələri ilə yanaşı, sənaye obyektləri fəaliyyət göstərir ki, həmin sahələrdə həm kəndin öz əhalisi, həm də yaxın kəndlərdən gəlib işləyənlər var. Məsələn, Babək rayonunun Sirab kəndində 3 çörək sexi, 9 ailə təsərrüfatı, Sirab Açıq Tipli Səhmdar Cəmiyyəti, Qızıl su Savalan "S" limonat müəsissəsi, Bəsirət MMC-Naxçıvan su, un dəyirmanı və s.kimi müəssi-

sələr fəaliyyət göstərir. Kənddə fəaliyyət göstərən üç çörək sexinin 20-yə yaxın işçisi var. Sirab Açıq Tipli Səhmdar cəmiyyətdə 150-dən artıq işçi çalışır. Savalan "S" "Qızıl su" limonat müəssisəsində isə 35 işçi çalışır. Bəsirət MMC-nin isə 20-yə yaxın işçi qrupu var. Bu sənaye obyektlərində çalışanların 135 nəfəri Sirab kənd sakinləridir. Qalanları isə yaxın kəndlərdən, Naxçıvan şəhərindən, hətta muxtar respublikanın digər rayonlarından gəlib bu sənaye müəssisələrində çalışanlar da var. 903 ailənin yaşadığı Sirab kəndində işqabiliyyətli insanların çox hissəsi sənaye və təhsil, səhiyyə və digər dövlət müəssisələrində,bir qismi isə ailə təsərrüfatlarında, xırda sahibkarlıq olan çörək sexlərində çalışırlar. Aydın olur ki, sənaye obyektlərinin fəaliyyət göstərdiyi Sirab kəndində ailələrin çoxu sənaye obyektlərində çalışmalarına üstünlük verirlər. Bununla yanaşı, Sirab kənd əhalisinin müəyyən bir hissəsi rayon mərkəzində, Naxçıvan şəhərində peşələrinə uyğun dövlət müəssisələrində müəyyən sahələrdə çalışırlar. Rəqəmlərin təhlili göstərir ki, bu gün şəhərətrafı kəndlərdə yaşayıb, ancaq kənd təsərrüfatı ilə bağlı olan ailələrin sayı bir o qədər də yüksək deyil.

Kənd əhalisinin ictimai fəallığına təsir edən amillərdən biri əhalinin məşğulluğunun təmin edilməsi və yeni iş yerlərinin açılmasıdır. Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən 2007-ci il 30 may tarixdə "Naxçıvan Muxtar Respublikasında Məşğulluq strategiyasının həyata keçirilməsi üzrə Dövlət proqramı (2007-2010)", 2013-cü il 18 dekabr tarixdə isə "2014-2015-ci illər üzrə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" kənd əhalisinin sosial müdafiəsinin genişlənməsinə, səmərəli məşğulluğun, özünəməşğulluğun təmin edilməsinə geniş imkanlar yaradıb. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq sağlamlıq imkanları məhdud, eləcə də aztəminatlı ailənin üzvü olanlar peşə kurslarına cəlb olunurlar [9].

Görülən tədbirlərin nəticəsidir ki, 2015-ci ildə kənd xidmət mərkəzlərində 46 kişi bərbər, 37 qadın bərbəri və 5 dərzi olmaqla, ümumilikdə, 88 nəfər, 2016-cı ildə 42 kişi bərbər, 31 qadın bərbəri və 6 dərzi olmaqla, ümumilikdə 79 nəfər, 2016-cı ildə 42 qadın bərbəri və 6 dərzi, 2017-ci il ərzində 72 nəfər işlə təmin olunmuş, 2018-ci ildə kənd xidmət mərkəzlərində gözəllik salonu və dərzi sexlərinin kadr təminatı ilə bağlı peşə kursları təşkil edilmiş və vakant yerlər üzrə 49 kişi bərbər, 73 bərbər-manikürçü və 16 dərzi olmaqla, 138 nəfər işlə təmin olunmuşdur. Ailə əməyinə əsaslanmaqla uzun müddət ünvanlı dövlət sosial yardımı alan 107 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün iribuynuzlu və xırdabuynuzlu mal-qara verilmişdir [8]. Rəqəmlərdən göründüyü kimi, kəndlərdə dövlətin yardımı ilə yaranan yeni-yeni iş yerləri məşğulluq problemlərini aradan qaldırır və kənd əhalisi ictimai əməyə cəlb olunur. Görülən tədbirlərin davamı olaraq 2019-cu ildə Şərur rayonunda 111, Babək rayonunda 212, Ordubad rayonunda 79, Culfa rayonunda 91, Kəngərli rayonunda 28, Şahbuz rayonunda 28, Sədərək rayonunda 12 yeni iş yerləri açılmışdır [7, s 51, 54, 58, 62, 67, 70, 74]. Ümumilikdə, 2019-cu ildə muxtar respublikanın rayonları üzrə 561 iş yeri açılmışdır. Yeni iş yerlərinin açılması nəticəsində 2019-cu ildə iş yerlərinin sayı Şərur rayonunda 571, Babək rayonunda 397, Culfa rayonunda 247, Ordubad rayonunda 301, Kəngərli rayonunda 163, Şahbuz rayonunda 141, Sədərək rayonunda isə 92-i olmuşdur. 2020-ci ildə bu rəqəm artaraq Şərur rayonunda 622, Babək rayonunda 460, Culfa rayonunda 275, Ordubad rayonunda 326, Kəngərli rayonunda 178, Şahbuz rayonunda 177, Sədərək rayonunda 98-ə çatmışdır [12].

Kənd əhalisinin ictimai əməyə cəlb olunmasında dövlətin dəstəyi ilə yaranan ailə təsərrüfatlarının da rolu böyükdür. Çünki, ailə təsərrüfatlarına təkcə bir nəfər deyil, ailənin işqabiliyyətli üzvləri, həmçinin qohumlar və digər insanlar da cəlb olunurlar. Aparılan sorğulardan məlum olur ki, ailə təsərrüfatını quran şəxs öz təsərrüfatının tərkibində fəaliyyət

göstərənlərin daha çox ailə üzvlərindən ibarət olmasını istəyir. Bunun da səbəbi aydındır, burada əsas məqsəd əldə edilən qazancın təsərrüfat sahibinin öz ailə büdcəsinə daxil olması məsələsidir. Bəzən ailə təsərrüfatında çalışanların sayı yetərincə olmadığından təsərrüfat başçısı başqa ailələrdən də təsərrüfata işçi qüvvəsi cəlb edir və yeni ictimai kollektiv yaranır.

Kənd əhalisinin ictimai həyatda məşğulluqları artdıqca, ailələrin məişətində əmək bölgülərinin düzgün təşkil edilməsinin böyük əhəmiyyəti var. Çünki, müasir kənd ailələrində əmək bölgüsü ailənin iqtisadi və mənəvi həyatının əsasını təşkil edir. Kənd ailələrində təsərrüfat və ev işlərində əmək bölgüsü ailə üzvlərinin say tərkibindən asılıdır. Ev işləri, uşaqların tərbiyəsi və ailə qayğılarının əsası qadının üzərinə düşür. Əgər ailədə nənə-baba varsa uşaqlara qulluq edilməsində, onların tərbiyə olunmasında, təsərrüfat və məişət işlərinin görülməsində yaxından iştirak edirlər. Ailənin qız övladları evin, həyətin təmizlənməsinə, yeməyin hazırlanmasına, oğlan övladları isə təsərrüfat işlərində atalarının yaxın köməkçiləri olurlar. Ümumiyyətlə, kənd ailələrində ev və təsərrüfat işlərinin yerinə yetirilməsi ailənin quruluşundan, ailədaxili münasibətlərdən, həmçinin ailə başçısının məsuliyyətindən daha çox asılıdır. Bununla yanaşı, onu da deməliyik ki, natamam ailələrdə təsərrüfat və məişət işlərinin hamısı demək olar ki, qadının çiyinləri üzərinə düşür. Aparılan sorğular nəticəsində aydın olur ki, muxtar respublikanın kəndlərində olan natamam ailələrdə qadınların müəyyən bir qismi iqtisadi durumundan asılı olaraq əkin sahələrinin əkilib-becərilməsi işlərini övladları ilə birgə görürlər, bəzən isə haqqını ödəməklə digər şəxslərə həvalə edir və ya torpağı icarəyə verib, müəyyən gəlir əldə edirlər.

Qadınların ictimai fəaliyyətləri genişləndikcə onların cəmiyyətdə və ailədə rolu dəyişir və bununla əlaqədar olaraq, ailə başçısı məsələsində də bir sıra yeni cəhətlər yaranır. Etnoqraf H.Quliyev ailə başçısı məsələsi ilə əlaqədar olaraq yazır: "Burada iki şeyi nəzərə almaq lazımdır. Hüquqi cəhətdən kənd həyətinin başçısı əhalinin siyahıya alınması proqramına daxil edilmişdir ki, bu, bəzən işin faktiki cəhəti ilə uzlaşmır. Məsələ burasındadır ki, kənd həyətinin sahibi evdə (məişət məsələlərində) həmişə rəhbər, baş bilən rolunda iştirak etmir. Hesabat sənədlərində həyətin sahibi (başçısı) kişi, ailənin başçısı isə qadın (onun arvadı) ola bilər" [5, s.61]. Ümumiyyətlə, ailə başçısı ər, yaxud arvad, oğul və qız da ola bilər. Başçılıq etməyə qadir olan adamda bir sıra keyfiyyətlərin olması zəruridir: həyat tərzi, ictimai fəallıq, intelekt, təşkilatçılıq qabiliyyəti və s.

Müxtəlif sosial tərkibli ailələri müqayisə etdikdə aydın olur ki, muxtar respublikada 1022 ailə təsərrüfatının 847-də kişilər, 177-də isə qadınlar fəaliyyət göstərirlər. Kişilər əsas etibarilə heyvandarlıq, əkinçilik, arıçılıq və s. sahələrdə, qadınlar isə kənd təsərrüfatı məhsullarının emalı, təhsil və səhiyyə sahələrində daha çox ictimai fəaliyyətlə məşğul olurlar. 2020-ci il 1 yanvar tarixinə olan statistik məlumata əsasən muxtar respublikada qeydiyyatda olan qadın sahibkarların sayı 6 min 667-dir [10].

Onu da qeyd edək ki, muxtar respublikanın rayonları üzrə ictimai fəal qadınların sayı təhsil üzrə 6914, səhiyyə və sosial və s. sahələrdə işləyən qadınların sayı 2191, istirahət, əyləncə və incəsənət sahəsində (bu sahəyə kitabxanalar, klub və s. daxildir-A. Q.) 1573 nəfər olmaqla, ictimai fəaliyyətlə məşğul olan qadınların sayı 10678 nəfər olmuşdur [4, s.107]. Göründüyü kimi, muxtar respublikanın kəndlərində qadınlar ən çox öz ictimai fəaliyyətlərini təhsil sahəsində göstərirlər.

Aydındır ki, təsərrüfatın ayrı-ayrı sahələrində çalışan əhalinin həm təsərrüfatlarında məşğulluq sahələri, həm də əldə etdikləri gəlirlər fərqlidir. Lakin bütün bunlara baxmayaraq, əhalinin iqtisadi əsası ailənin maddi gəliri ilə xarakterizə olunur.

Məlumdur ki, təsərrüfatın müəyyən sahələri mövsümi xarakter daşıyır, bunun da nəticəsində hər ay əməkhaqqı əldə edilmir. Muzdla işləyən əhali isə hər ay əməkhaqqı alır. Ailə üzvlərinin təsərrüfatın müxtəlif sahələrindən əldə etdikləri gəlirlərin fərqli olmasına baxmayaraq, onların qazancları ümumi ailə büdcəsini formalaşdırır. Aydın olur ki, ailə büdcəsinin formalaşmasının

əsas hissəsi ailə təsərrüfatlarından əldə edilən, ailədə muzdla işləyən ailə üzvlərinin aldıqları əməkhaqqlarının hesabına formalaşsa da, müəyyən bir qismi isə ailədə təqaüd alanların, dövlət tərəfindən müəyyən müddət ərzində körpə uşaqlara verilən müavinətlərin və s. hesabına formalaşır.

Sorğular zamanı məlum olur ki, əksər ailələrdə ailənin ümumi büdcəsində əməkqabiliyyətli ailə üzvlərinin hamısının gəliri toplanır. Toplanan vəsait razılıq əsasında ailənin bütün üzvlərinin ehtiyaclarına sərf olunur

Ailələrinin birgə gəlirlərinin artımı ilk növbədə oların maddi rifahının yüksəlməsinə, məişət şəraitinin yaxşılaşmasına şərait yaradır. Bu, yeməyin, paltarın, ev avadanlığının, habelə onların maddi və mənəvi tələbatlarının tam təmin olunmasında öz əksini tapır. Aydındır ki, ailələrin xərcləri ilk növbədə ailənin şəxsi ehtiyaclarını ödəməyə sərf edilir. Ailənin gündəlik xərcləri də müəyyən yerə ayrılır. İlk növbədə ev tikmək, bağ salmaq, ərzaq məhsullarını almaq və s. sərf edilən xərclər. Digəri isə, sosial-mədəni xərclərdir ki, bunlar da ailənin mədəni və təhsil səviyyəsinin yüksəldilməsi ilə yanaşı, toya, yasa, bayram və ailə şənliklərinə, kommunal, informasiya-kommunikasiya xidmətlərinə, geyim, məişət avadanlıqlarına və nəqliyyata sərf olunur. Kənd ailələri ilə sorğular zamanı aydın olur ki, ailə büdcəsinə nəzarəti bəzi ailələrdə qadınlar, bəzilərində isə kişilər yerinə yetirir. Ailə büdcəsindən hər iki halda ailə üzvlərinin ümumi razılığı əsasında istifadə edirlər.

Kənd ailələrinin maddi durumu artdıqca, onlar məişət şəraitlərini yaxşılaşdırmaq məqsədilə məişət xidmətlərinə sərf etdikləri xərc də artır. Belə ki, əgər 2000-ci ildə Şərur rayonu üzrə əhaliyə 650,1 min manat həcmində məişət xidməti göstərilmişdirsə, 2020-ci ildə bu rəqəm artaraq 10080,6; Babək rayonu üzrə 2000-ci ildə 566,9, 2020-ci ildə 7181,5 min manat; Ordubad rayonu üzrə 2000-ci ildə 274,7, 2020-ci ildə 4173,9 min manat; Culfa rayonu üzrə 2000-ci ildə 236,1, 2020-ci ildə 4112,5 min manat; Kəngərli rayonu üzrə 2004-cü ildə 323,9, 2020-ci ildə 3937,8 min manat; Şahbuz rayonu üzrə 2001-ci ildə 143,2, 2020-ci ildə 2540,1 min manat; Sədərək rayonu üzrə 2001-ci ildə 62,9, 2020-ci ildə 115,2 min manata yüksəlmişdir [11].

Etnoqrafik məlumatlara əsaslanıb deyə bilərik ki, müasir kənd ailələrinin məişətində ötən dövrlərlə müqayisədə ciddi dəyişikliklər baş verib. Məsələn, vaxtilə kənd ailələrinin hamısının həyətində ilk növbədə yaşayış evi ilə yanaşı, müəyyən təsərrüfat tikililəri tikilirdi. Onların qismi bu gün demək olar ki, məişətdən çıxıb. Onlardan ən ümdəsi təndir damının (təndirəsər) olması idi ki, hər bir ailənin xanımı ailə üzvlərini çörəklə təmin etmək məqsədi ilə lavaş yapardı. Bu prosesdə ictimai fəaliyyətindən asılı olmayaraq, qadınların hamısı iştirak edirdi. Lakin, bu gün demək Şahbuz rayonunun Keçili və Babək rayonunun Sirab kəndlərində bəzi ailələr istisna olmaqla, demək olar ki, bütün kəndlərdə lavaş yapması məişətimizdən çıxıb. Bu prosesi əsasən rayon mərkəzlərində və bəzi kəndlərdə fəaliyyətdə olan çörək sexləri yerinə yetirir.

Günümüzdə kənd evlərinin mətbəxində istifadə edilən mətbəx avadanlıqlarının çoxu elektrik avadanlıqlarla əvəz olunub. Elektrik məişət avadanlıqlarının məişətə daxil olması qadınların asudə vaxtlarının artmasına səbəb olub. Bu zaman onlar asudə vaxtlarını digər sahələrə yönəldirlər. Elm və texniki nailiyyətlər kənd əhalisinin təsərrüfat məişətinə də daxil olub. İndi otun biçilməsi, yerin şumlanması, əkin sahələrinin suvarılması və s. proseslərinin əksəriyyətini müasir texniki avadanlıqlar yerinə yetirir.

Onu da qeyd edək ki, bu gün əhalisinin sayı 324 min nəfər olan muxtar respublika kəndlərində təsərrüfatların sayı 83197-yə çatmışdır [1, s.47]. Bu say Şərur rayonunun kəndlərində 28643, Babək rayonunun kəndlərində 16628, Ordubad rayonunun kəndlərində 10846, Culfa rayonunun kəndlərində 9121, Kəngərli rayonunun kəndlərində 6210, Şahbuz rayonunun kəndlərində 5087, Sədərək rayonunun kəndlərində 4010 olmuşdur. Əhalinin say tərkibinə gəldikdə isə, 2020-ci ilin statistik məlumatlarına görə, Şərur rayonunun kəndlərində əhalinin sayı 110,2, Babək rayonunda 69,8, Ordubad rayonunda 38,9, Culfa rayonunda 33,5, Kəngərli rayonunda 26,5, Şahbuz rayonunda 20,0, Sədərək rayonunda 13,9 min

nəfər olmuş və əhalinin kənddə məskunlaşması sabitləşmişdur [6].

Nəticə etibarı ilə belə qənatə gəlmək olar ki, müstəqillik illərində dövlət tərəfindən həyata keçirilən kompleks quruculuq işləri, yaradılan yeni iş yerləri, kənd əhalisinin məşğulluğunun təmin edilməsi kənddə ictimai fəal əhalinin artmasına müsbət təsir göstərmiş, bu isə ilk növbədə həm kənd əhalisinin kənddə məskunlaşmasına, ailələrinin maddi gəlirlərinin artmasına, həyat səviyyəsinin və məişət şəraitinin yaxşılaşmasına, eyni zamanda şəhərlə kənd arasında olan fərqlərin aradan qaldırılmasına mühüm təsir göstərmişdir.

Ədəbiyyat

1. Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). – Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, – 2020. – 529 s.
2. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı. – Naxçıvan: Əcəmi, – 2020, – 224 s.
3. Qədirzadə H.Q. Muxtariyyət dövründə Naxçıvan kənd ailəsi (I kitab: 1924-1984-cü illər). – Naxçıvan: Əcəmi, – 2014, – 240s.
4. Qəhrəmanova A. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası kənd qadınlarının ictimai fəallığının ailə məişətinə təsiri //AMEA Naxçıvan Bölməsi. Elmi əsərlər (İctimai və humanitar seriyası). – Naxçıvan: Tusi, – 2021, №1, – s.106-114
5. Quliyev H. Azərbaycanda ailə məişətinin bəzi məsələləri. – Bakı: Elm, – 1986, – 96 s.
6. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin verdiyi yazılı məlumat
7. Sosial-iqtisadi inkişaf. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi. 2019, yanvar-may
8. Naxçıvan Muxtar Respublikası Əhalinin Əmək və Sosial Müdafiə nazirliyinin məlumatı (illər üzrə)].
9. // Şərq qapısı, – 2016, 12 yanvar.
10. https://naxcivanxeberleri.com/manset/38332-naxcivan-muxtar-respublikasinin-aile-qadin-ve-usaq-problemleri-uzre-dovelt-komitsinde-gorulen-islerle-bagli-kollegiya-iclasi-kecirilib.html
11. statistika.nmr.az/cource/sonsumermarket/index.php

Məqalə tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 06.01.2022, son daxilolma – 17.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 177-181
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 177-181
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.177-181

UOT 811.512.162

Zaur Vedili və ədəbi dilimiz

Müəllif:

Sədaqət Həsənova
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə elmlər doktoru, professor
E-mail:
sadaqathasanova@gmail.com

Açar sözlər:
ədəbi dil, üslub, bədii söz, poetik dil, məna

Annotasiya. Məqalədə Zaur Vedilinin dil-üslub xüsusiyyətləri haqqında danışılır. Şairin xalq yaradıcılığına münasibəti, ümumxalq dilindən faydalanmasını göstərən faktlar əsasında onun ədəbi dilimizdəki mövqeyi təyin edilir. Zaur Vedilinin poetik dilindən alınmış dil-üslub nümunələri elmi-nəzəri təhlilə cəlb edilir. Şairin dilinin zənginliyini təsdiq edən nəzəri fikirlər onun poeziyasından alınmış örnəklərlə əsaslandırılır. Məqalədə qeyd olunur ki, Zaur Vedili ədəbi fəaliyyəti boyunca xalq dilinin təbiiliyini qorumuş, bu zəngin xəzinənin gözəlliklərini yaşatmağa çalışmışdır. Bəzən müxtəlif sənətkarların yaradıcılığında bir-birinə bənzəyən, bir-birini yada salan şeirlərlə qarşılaşsaq da, etiraf olunmalıdır ki, hər bir şairin hardasa orijinallığını ortaya qoyan faktlar da vardır.

Author:

Sadagat Hasanova
Nakhchivan Teachers Institute
Doctor of science philology, professor
E-mail:
sadaqathasanova@gmail.com

Key word:
literary language, style, artistic word, poetic language, meaning

Zaur Vedili and our literary language

Abstract. The article tells about the linguistic and stylistic features of Zaur Vedili. The attitude of the poet to folk art, his position in our literary language is determined on the basis of facts indicating his benefit from the national language. Language-style samples taken from the poetic language of Zaur Vedili are involved in scientific-theoretical analysis. Theoretical ideas confirming the richness of the poet's language are substantiated by examples from his poetry. It is noted in the article that Zaur Vedili preserved the naturalness of the folk language throughout his literary activity and tried to keep the beauties of this rich treasure alive. Although sometimes in the works of different artists we meet poems that resemble each other and remember each other, it must be admitted that there are facts that reveal the originality of each poet somewhere.

Автор:

Садагат Гасанова
Нахчыванский институт учителей
Доктор наук по филологии, профессор
E-mail:
sadaqathasanova@gmail.com

Ключевые слова:
литературный язык, стиль, художественное слово, поэтический язык, смысл

Заур Ведили и наш литературный язык

Аннотация. В статье говорится о стилистических особенностях Заур Ведили. Отношение поэта к народному творчеству определяется его положением в нашем литературном языке на основе фактов, свидетельствующих о пользе общенародного языка. К научно-теоретическому анализу привлекаются языковые и стилистические образцы, заимствованные из поэтического языка Заура Ведили. Теоретические идеи, подтверждающие богатство языка поэта, обосновываются образцами из его поэзии. В статье подчеркивается, что иногда мы встречаем в творчестве разных художников стихи, которые похожи друг на друга, напоминают друг друга, следует признать, что есть факты, которые где-то раскрывают оригинальность каждого поэта. Анализ показывает, что Заур Ведили на протяжении всей своей литературной деятельности сохранял естественность народного языка, стремился сохранить красоту этого богатого сокровища.

Naxçıvan ədəbi mühiti düşündüklərini poetik dilə çevirmək məsələsində tarixin uzaq zamanlarından imzaya sahib olaraq Azərbaycan şerində xüsusi yeri və rolu olan qaynaqlardandır. Zaur Vedilinin yaradıcılığında bu mühitin müəyyən qədər rolu olmuşdur.

Zaur Vedili sinəsi sözlə dolu xalqının oğludur və ürəyini oxuculara şeirlə açan, sevincini, dərdini, təəssüf və həyəcanlarını bədiiliklə ifadə edən, sözü ustalıqla demək ənənəsini yaşadanlardan biridir. Hər şeydən öncə, sevgidən genişlənən qəlbə sahibdir:

Həyatımız vüsal adlı
Daraq ilə daranıbdı.
Qəlbimizdə sevgi dolu
Geniş dünya yaranıbdı [4, s.23].

Özünəxas dil mədəniyyətinə malik olan şair gah həzin və kədərli, gah qarşısında həmsöhbəti durmuş kimi qəlbini oxucularına açır:

Bu şirin sevgimiz bir yuxu imiş,
Qəlbimə sancılan dərd oxu imiş [4, s.24].

Sevgi duyğularını yaşamayan onun haqqında səmimi danışa bilməz. Bu təmiz duyğunu ölçü-biçiyə sığmayan hisslər çılğınlığında ifadə etməkdə səslərin işləkliyi diqqəti çəkir.

Qəlbimdə tikantək bitdi bu sevgi,
Məni parçaladı, diddi bu sevgi.
Vüsal qapısını örtdü bu sevgi,
Niyə bu sevginin sonu görünmür [4, s.27].

Müəllifin fikirlərini sadəlövhlüklə qarşılamaq olmur. Onlar nəyisə xatırladır, tanış olan deyimləri yada salır və bu prosesdə müəllifin orijinal baxışları meydana çıxır. İllər keçdikcə cavanlıqdan uzaqlaşan ömrü ağaran saçlara bənzədən şair fikrini orijinallıqla ifadə edir:

Uydum özgələrin şirin dilinə,
Qar yağdı ömrümün qara telinə [4, s.25].

Zaur Vedili ədəbi fəaliyyəti boyunca xalq dilinin təbiiliyini qorumuş, bu zəngin xəzinənin gözəlliklərini yaşatmağa çalışmışdır. Bəzən müxtəlif sənətkarların yaradıcılığında birbirinə bənzəyən, bir-birini yada salan şeirlərlə qarşılaşsaq da, etiraf olunmalıdır ki, hər bir şairin hardasa orijinallığını ortaya qoyan faktlar da vardır:

Bir baxışla ağlı başdan alırlar,
Nazlarıyla ürəyə od salırlar.
Görən onlar niyə belə olurlar?
Gözlərində ovsun yatır qızların [4, s.35].

Şairin yuxarıdakı misraları Məmməd İsmayılın bir şerini yada salır:

Hansı gözdən köz götürdü bu ocaq
Yaz mövsümü gəldi haçan qızların?
İnən belə güzgülənmək olacaq
İşi, gücü axşamacan qızların.

Şeirlərin bölgüsü, ölçüsü, gözəlliyi təxminən bərabərdir. Lakin hərə öz qələminə aid olan sözlərlə, öz ürəyinin diqtəsi ilə oxucu qarşısına çıxır. Bu onu göstərir ki, uzun illərin yaradıcılıq axtarışları, həyat hadisələrinin daha dərindən ifadəsi yolundakı cəfakeşlik hardasa özünü göstərək müəllifinin imzasını tanıda bilir. Şairin bədii mətləbi söz və ifadələrlə açılır. Şeir bədii zövqü oyadırsa, ona təsir edə bilirsə, deməli, onun poetik qayəsi vardır.

Bu illər ərzində nələr çəkmədim?
Hansı dərd qaldı li, qəlbə əkmədim?
Bu mülkü sən sökdün, mən ki sökmədim,
Daha faydasızdır bu peşmançılıq [4, s.32].

Dərd haqqında çox söz deyilib, çox fikir ortaya qoyulub. "Dərdi qəlbə əkmək" ifadəsini özünəməxsus sadəliklə söyləyən Zaurun şeirlərində adamı tutan, fərqliliyi diqqəti çəkən çox sayda deyimlər vardır. "Səadəti tora salmaq" belə maraqlı bədii dil faktlarındandır.

Həsrət bizi bizdən aldı,
Səadəti tora saldı.
Gözlərimiz ağlar qaldı,
Nə sən güldün, nə mən güldüm [4, s.33].

Ayrılığın izahını Zaur öz qələminə uyğun olaraq verir:

Qənim kəsildinsə öz vüsalına,
Daha qal demirəm, gedirsənsə, get [4, s.38].

Şairin "sevə-sevə unutmağı" da var:

Pozuldu sevdalı ömrün ahəngi,
Yarımçıq toxundu vüsal çələngi.
Əbədi deyilmiş, demək, bu sevgi,
Səni sevə-sevə unudacağam [4, s.47].

Zaur Vedilinin şeirləri bəzən sözlərin informativ funksiyasını xatırlatsa da, onların daxili anlamının dərinliyini bildirən fikirlər əsərlərinin poetik gücünü çoxaldaraq bədii keyfiyyətini artırır. Məsələn, "ömrü həsrətdən qovmaq" bədiiliyi ilə seçilən üslubi sintaksis örnəklərindəndir:

Olmadı həsrətdən qovan ömrümü,
Bürüdü fırtına, tufan ömrümü.
Vaxtsız qocaltsan da cavan ömrümü,

Səni sevə-sevə unudacağam [4, s.47].

Şairin qüruru "unudacağam" deyir. Ancaq ayrılıq asan deyil. O, intizardan çəkinərək təəssüflə deyir:

Biz ki birgə tikdik sevda mülkünü,
İndi niyə onu yıxırsan belə? [4, s.40].

Şair sevgidə güclüdür, səsi yüksək, nəğmələri şaqraqdır. Zaur sevginin gücünü də özünəxas göstərir:

Nə yerə sığıram, nə göyə, Allah,
Mən niyə beləyəm, mən niyə, Allah?
Sanıram, qadirəm hər şeyə Allah,
Bir dəli sevdaya tutulmuşam mən [4, s.36].

Təbiilik və sadəliklə bədii təsvir və ifadə vasitələrinə müraciət edən şairin bu sahədə də mövqeyi seçilir. Məsələn, onun dilindəki ilk oxunuşda üzə çıxmayan, lakin məna sanbalı ilə ilişib diqqətdə qalan gizli təzadlar fərqli bir estetikliyə səbəb olur:

Ay yazda saralan yaşıl çəmənim [4, s.29].

Bu müraciətdə, əslində, tam əks mənalı sözlərlə qarşılaşmırıq. Lakin misranın qanındakı, canındakı qarşıdurma – yazda təbiətin oyanması, çölün-çəmənin yaşıllaşması əvəzinə saralması dərin bir bədii təzad yaradır. Bu baxımdan, aşağıdakı misralar da səciyyəvidir:

Hicran saçda dənimdi,
Vüsal ona qənimdi.
Sanki dünya mənimdi
Səni sevdiyim üçün [4, s.53].

Zaur Vedilinin şeirlərindən birinin bütün bəndləri "Mən sənin xətrinə…" sözləri ilə başlayır. Əsər axıcılıq və təbiiliyi ilə seçilir və müəllifinin həm arzularını, həm də vəfa və fədakarlığını göstərir:

Mən sənin xətrinə günəşə dönüb
Qaranlıq yolları nura bələrəm.
Buluda çevrilib yaz yağışıtək
Sənin yollarına sevgi ələrəm [4, s.56].

Şeir həzin bir bulaq şırıltısı, qəlbəyatan bir musiqi təsirindədir. Bur-birini tamamlayan qafiyələr, uyğun fikirlər, sözlərin incə həyəcanı bir daha təsdiq edir ki, şeirlər şairlərin ürək salnaməsidir, düşüncələrinin qaynağıdır. Deyilənlərin bədii sənət zirvəsinə ucalmasında söz sənətkarlarının uğuru çoxdur. Məhz onların sayəsində adi sözlər, fikirlər bədii imkanların gücü nəticəsində mətnlərə sənət əsəri möhürünü vurur:

Mən sənin xətrinə Günəşi, Ayı,
İstəsən, göylərdən yerə çəkərəm.
Hicran sarayını lap özülündən
Bir göz qırpımında tamam sökərəm [4, s.57].

Şerin aşağıdakı misraları daha möhtəşəm səslənir:

Mən sənin xətrinə acı hicranı
Şah oğlu şah olsa, taxtdan salaram [4, s.57].

Zaur Vedilinin şeirləri, hər şeydən öncə, səslənmə gözəlliyi ilə diqqəti cəlb edir. Şeirdə təkcə fikir əsas deyil, onun elastik, estetik səslənməsi də çox iş görür. Dilimizin səsləri o qədər geniş imkanlara makikdir ki, bədiiliyi yüksək səviyyəyə çatdıra bilir. Bu, bir tərəfdən də, ritmin inkişafına şərait yaradır. Səslərin ahəngi, düzülüşü göstərir ki, şeriyyət təkcə qafiyə, bölgü, fasilə və ritmdə deyil, həm də səslərin daxilindədir. Sadəcə olaraq, həmin daxili sirri üzə çıxarmaq lazımdır ki, bu prosesdə sənətkarların məharəti mühüm əhəmiyyətə malikdir. Elə əsər vardır ki, onun bir sözü, bir ifadəsi, bir misrası və ya bir bəndi səs ahəngi ilə seçilir. Elə əsər də var ki, başdan-ayağa tamamlanmış bir ahəng sistemini təqdim edir. Səslərin bədii imkanlarının çoxluğu mətnin mükəmməlliyini göstərir.

Səslərin möcüzəsi şerin axıcılığında mühüm şərtlərdən biridir. O, bir tərəfdən də, şeirdə musiqililik əmələ gətirən amillərdəndir. Musiqini sevməyənlər isə çətin tapılar. Şerin dilində səslər sözlərdən az iş görmür. Səslərin bədii göstərici kimi əhəmiyyətli funksiya daşıması aşağıdakı örnəkdən də aydın olur:

Edam etdik intizara həsrəti
Sataşanda gözlərinə gözlərim [4, s.30].

"Gözlər"sözünün müxtəlif funksiyalarda təkrar işlənməsi məxsusi bir ahəng yaradır. Poetik örnəklər göstərir ki, ahəngin əlvanlığını təmin etməkdə fonetik üslub vasitələrinin özünəxas rolu vardır. Bu anlamda, ilk baxışda adi görünən və adi qəbul edilən səslərin üslub daxilində qeyri-adiliyi heyrətə səbəb olur. Belə məqamlarda danışıq səsləri poetikləşdirmə gücünə malik olaraq estetikliyin çoxalmasını əsaslandırır və bədii dilə xsüsusi ovqat gətirir:

Səni göynətsə də həsrət qamçısı,
Get, mənim gözümə görünmə daha [4, s.26].

Səslərin ahəngi bollaşdıqca bədii mətnin təsir dairəsi də genişlənir. Mətnin səslənmə

gözəlliyinin mahiyyəti də bundadır. Bu, adi səslənmə deyil, məzmuna təsir edən, ona xüsusi bəzək vuran bir vasitədir:

Mizrab ol eşq sazıma,
Qış gətirmə yazıma.
Çataram hər arzuma,
Sənə qovuşa bilsəm [4, s.41].

Ümumiyyətlə, poetic əsərlərin səs quruluşu məzmun-forma tamlığında əsas nəsələlərdən biridir. Hər bir şerin səs fiquru müəllifin bəhs etdiyi mövzuya münüsibətini təyin edə bilir. Bu, səslənmənin estetik faktor kimi dəyərləndirilməsinə əsas verir. Bir səsin dəfələrlə, lakin hər dəfə xüsusi çalarlarla təkrarı şerin məzmununu nizamlamaqda, qaydaya salmaqda heyrətamiz işlər görə bilir. Bədii fakt olaraq aşağıdakı örnəkdə "y" səsinin dinamikliyinə nəzər salaq:

Soldurdu eşq çiçəyimi,
Puç etdi hər diləyimi.
Zaur, sevən ürəyimi
Qoyubdu can üstə o qız [4, s.43].

Səslərin ahəngi duyğuların ahəng gözəlliyini ortaya qoyur:

Saçlarında küləklərin tumarı,
Ürəyimdə məhəbbətin qubarı.
Mümkün deyil sevməmək bu nigarı,
Nə gözəldi bu nigarın gözləri [4, s.50].

Şeirdə dilin xəlqiliyindən başqa, onların deyim milliliyi o qədər yüksəkdir ki, qeyri-uxtiyari poetik anlayışlara cığır açılır. Böyük mütəxəssislər bu əlaməti şerin əsas şərti kimi dəyərləndirmişlər: "Şair üçün xoşbəxtlik sayılan və olduqca çətin əldə edilən bir məziyyət – şerinin oxunmasını geniş xalq kütləsinə "məcbur edə bilmək", fikrinin və dilinin akademikdən tutmuş çobanına qədər anlaşıqlı olmasına nail olmaq – şeir yaradıcılığının ilkin şərti bundan ibarətdir" [3, s.3]. Bu şərt Zaur Vedilinin bütün əsərlərinə xasdır:

Qaşı kaman, kirpikləri oxdu, ox,
Ona qarşı məhəbbətim çoxdu, çox.
Bu dünyada bunun tayı yoxdu, yox,
Nə gözəldi bu nigarın gözləri [4, s.51].

Taniş sözlər fərqli biçimlərdə xüsusi bədii zövq yaradır. Üslubun şirinliyində dil vahidlərinin böyük rolu məlumdur. Onlardan məqamında istifadə xalq ruhunun əsərlərə çökməsinə səbəb olur:

Kədər olub tale payım,
Qəmsiz keçmir günüm, ayım.
Bağlı qalıb bəxt sarayım
Bir gözəlin ucbatından [4, s.55].

Burada "ucbatından" sözü xalq danışıq dilinin maraqlı vahidi kimi yerinə düşür. O, "səbəbindən" sinonimindən daha güclü poetiklik ifadə edir. Xalq dilindən gələn sözlər deyimin təravətini təmin edərək bədii niyyəti realllaşdırır, məzmunu dolğunlaşdırır, ona həyat verir və milli dil faktlarının bədiilikdə rolunun yüksəkliyini təsdiq edir. Məsələn, aşağıdakı örnəkdə "uyutmaq" əvəzinə, onun sinonim variantı olan "yatırmaq" işlənsəydi, bu qədər təsirli olmazdı:

Öz bəxtini uyutmusan,
Məni nə tez unutmusan? [4, s.48].

Dilimizin milli vahidi olan bu feil bədii dildə az işlənsə də, diqqətədəyər leksik-qrammatik vahid kimi üslub çaları yaradır.

Sevən qəlbə yara vurub
Xılt ürəyi ovutmusan.
Məni nə tez unutmusan? [4, s.49].

"Azərbaycan dilinin izahlı lüğəti"ndə "xılt" sözü iki mənada – hər hansı bir mayenin dibə çökən lazımsız hissəsi və ötüb keçmiş hadisədən sonra insanda iz buraxan xoşagəlməz ağır hiss, təəəssürat anlamında verilmişdir [1]. "Ərəb və fars sözləri lüğəti"ndə "xilt" ərəb mənşəli söz olaraq "qarışıq, mürəkkəb, anlaşılmaz" və s. mənalarda göstərilmişdir [2]. El ağzında "xılt ürək" "xain ürək" mənasındadır və şeirdə uğurlu mövqedədir.

Zaur Vedilinin dilində hikmətli ifadələr də özünü göstərir:

Gülüm, qələbəylə bitmir hər yarış [4, s.28].
Tanrı çatsa haraya,
Yol kəsəmməz dağ, qaya [4, s.40].

Şairin poetik sintaksisində sevda ovsunu, cahanı eşq nuruna bükmək, hicranı taxtdan salmaq, bəxt sarayı, vüsalın qoynu, dərd oxu, həsrət qamçısı, vüsal qapısı, vüsala qənim kəsilmək, hicran sarayı, həsrəti edam etmək kimi onlarla dil faktı təravəti ilə yaddaşlarda qalır.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğət. – Bakı, Şərq-Qərb, – 2006.

2. Ərəb və fars sözləri lüğət. – Bakı:Yazıçı, – 1985.
3. Hüseynov M. Poeziya dilinin milli qaynaqları. – Bakı, Elm və təhsil, – 2009.
4. Vedili Z. Qərib yurduma salam. – Bakı: Şirvannəşr, – 2011.

Məqalə filologiya üzrə elmlər doktoru, professor Akif İmanlı tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –05.01.2022 , son daxilolma – 12.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 182-186
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 182-186
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.182-186

UOT 811.512.162

Asim Yadigarın lirik şeirləri

Müəllif:

Günay Şirəliyeva
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: gunay76@gmail.com

Açar sözləri:
Naxçıvan ədəbi mühiti, ədəbiyyat, Asim Yadigar, yaradıcılıq, lirik şeirlər

Annotasiya. Naxçıvan ədəbi mühiti zaman-zaman Azərbaycan ədəbiyyatına görkəmli şair və yazıçılar bəxş edib. Bu yazıçılar içərisində öz yaradıcılığı ilə seçilənlərdən biri Asim Yadigardır. Hər bir sahədə qələmini sınayan Asim Yadigar yaradıcılığında lirik şeirlər də üstünlük təşkil edir. Məqalədə Asim Yadigarın lirik şeirləri tədqiqat obyekti olmuş, bu istiqamətdə tədqiqatlar aparılmışdır. Şairin bütün movzularda yazdığı lirik şeirləri təhlil edilmiş, elmi baxımdan şərh edilmişdir. Tədqiqatlar göstərir ki, Asim Yadigarın lirik şeirlərinin hər birində səmimiyyət, bədii ifadə vasitələrinin zənginliyi özünü həmişə daha yaxşı göstərə bilir. Bu da şairin dilinin zənginliyindən irəli gəlir. Bir sözlə, Asim Yadigar geniş yaradıcılıq imkanlarına malik olan şairlərimizdəndir. Onun heca, əruz və sərbəst vəzndə yazdığı şeirləri sübut edir ki, şair hər bir vəzndə gözəl nümunələr yaratmaq imkanına malikdir. Məhz biz də bu şeirləri tədqiqata cəlb etmiş, elmi nəticələr əldə etmişik.

Author:

Gunay Shiraliyeva
Nakhchivan Teachers Institute
Doctor of Philosophy in Philology, Associate Professor
E-mail: gunay76@gmail.com

Key words:
Nakhchivan literary environment, literature, Asim Yadigar, creativity, lyric poems

Lyric poems of Asim Yadigar

Abstract. From time to time, the Nakhchivan literary environment has endowed Azerbaijani literature with prominent poets and writers. Among these writers, one of those who stood out for their creativity is Asim heirloom. Lyrical poems also prevail in the creation of Asim Yadigar, who tried his pen in every field. In the article, lyrical poems of Asim Yadigar were the object of study, research was carried out in this direction. Lyrical poems written by the poet in all themes were analyzed and interpreted from a scientific point of view. Studies show that in each of the lyric poems of Asim Yadigar, sincerity and richness of means of artistic expression can always show itself better. And this is due to the richness of the poet's language. In short, Asim Yadigar is one of our poets who have wide creative possibilities. His poems written in syllable, aruz and free verse prove that the poet has the opportunity to create beautiful examples in each verse. We also involved these poems in research and achieved scientific results.

Автор:

Гюнай Ширалиева
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент
E-mail: gunay76@gmail.com

Ключевые слова:
Нахчыванская литературная среда, литература, Асим Ядигар, творчество, лирические стихи

Лирические стихи Асима Ядигара

Аннотация. Нахчыванская литературная среда время от времени дарила азербайджанской литературе выдающихся поэтов и писателей. Среди этих писателей одним из тех, кто выделяется своим творчеством, является Асим Ядигар. Лирические стихи также доминируют в творчестве Асима Ядигара, который пробует свое перо в каждой области. В статье объектом исследования стали лирические стихи Асима Ядигара, были проведены исследования в этом направлении. Лирические стихи поэта, написанные на все темы, были проанализированы, интерпретированы с научной точки зрения. Исследования показывают, что в каждом из лирических стихотворений Асима Ядигара искренность, богатство средств художественной выразительности всегда способны проявить себя лучше. Это также связано с богатством языка поэта. Короче говоря, Асим Ядигар - один из наших поэтов, обладающих широкими творческими возможностями. Система метрического стихосложения, используемая поэтом, доказывают, что поэт имеет возможность создавать прекрасные образцы в каждом из ее типов. Именно эти стихи мы привлекли к исследованию, получили интересные научные результаты.

Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvan həmişə sözün, sənətin, ədəbiyyatın, mədəniyyətin beşiyi kimi geniş şöhrət tapıb. Dünyanın ilk yaşayış məskənlərindən biri kimi Naxçıvanı adı Nuh tufanı ilə, Nuh peyğəmbərlə bağlı olub. Gəmiqaya, Əshabi-Kəhf, Əlincə qalası, eləcə də onlarla tarixi yerlər bu torpağın nə qədər qədim olduğunu bir daha tarixin qulağına pıçıldayıb.

Azərbaycan ədəbiyyatına Heyran xanım, Qönçəbəyim, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əvəz Sadıq, Əbülfəz Abbasquliyev, Əyyub Abbasov, Hüseybn İbrahimov, Məmməd Araz, Adil Babayev, İslam Səfərli, Hüseyn Razi, Əliyar Yusifli, Elman Həbib, Asim Yadigar kimi görkəmli şair və yazıçılar bəxş edən Naxçıvan zaman-zaman ədəbiyyatımızın inkişafına güclü təsir göstərib.

Bu yazıçılar içərisində öz yaradıcılığı ilə seçilənlərdən biri Asim Yadigardır. Asim Yadigar 1972-ci ildən bi günə kimi yerli və mərkəzi mətbuatda şeirləri ilə çıxışlar edir. Onun yaradıcılığında lirik şeirlər üstünlük təşkil edir.

Belə ki, akademik İsa Həbibbəyli şairin yaradıcılığına həsr olunmuş böyük bir məqaləsində onun lirik şeirlərindən də söz açır. O qeyd edir ki, Asim Yadigar məhəbbət lirikasında da ictimai motivləri canlandırır. Şair məhəbbət anlayışına həyat, sınaq, mənəviyyat faktoru kimi baxır, təmiz sevgi üzərində qurulmuş ailəni cəmiyyətin dayaq nöqtəsi hesab edir. **"**Qoşa ömür" şeiri məhəbbət mövzusunda olduğu kimi, cəmiyyət mövzusunda da yazılmış mənalı və ibrətamiz poetik nümunədir:

Hamıya "can" deyən anadır torpaq,
Ondan ayaq üzən yıxılar ancaq.
Torpağa kök atan bir ağac olaq,
Bir budaq mən olum, bir budaq sən ol! [5, s.8].

"Asim Yadigarın "İki sahil arasında bir cayam, sinəm olsun sənə körpü"-misraları da məhəbbət lirikasının yaddaqalan bənzətmələri sayıla bilər. Dərin səmimiyyət, obrazlı düşüncə və nikbinlik Asimin bir çox məhəbbət şeirlərini mahnı kimi səsləndirir. Şair özü də bir neçə şeirini- "Unutsam dözəcəkmi", "Unut bu sevdanı", "Bir ömrün nəğməsi"ni mahnı, nəğmə adlandırmışdır. Lirizm-Asim Yadigar şeirində də həyatı müşahidələrdəki incəliklərin, poetik detala obrazlı münasibətin ifadəsindən süzülüb gəlir. Onun "Qurban olum", "Sən varsan", "Sevda yolu", "Ömrümün baharı", "Sənsiz", "Bahar sevgi fəslidir" və sair şeirlərində də nəğmə ruhu yaşayır. Bu şeirləri məktəb uşaqları notsuz da nəğmə kimi oxuya bilərlər, yaxud bəstəkarlar həmin şeirlərə mahnı bəstələməkdə çətinlik çəkməzlər" [5, s.9-10].

Asim Yadigarın bu günə kimi ona yaxın şeirinə gözəl musiqilər bəstələnib və həmin mahnılar Bakıda və Naxçıvanda yaşayan müğənnilər tərəfindən tez-tez ifa olunur.

Şair sevgi şeirlərində məhəbbətin sevincini də, kədərini də mənalandırır. İnsan həyatını gecəli-gündüzlə müqayisə edir. Dünya gecəli-gündüzlü olduğu kimi insan həyatı da qəmli-sevincli, ağlı-qaralıdır. "Hər şeyin sonu var..." şeirində bu hiss, bu ikilik özünü açıq-aşkar göstərir:

Gecəli-gündüzlü dünyamız kimi
Qəmin, sevincin də iki üzü var.
Ağlayan ömürlük ağlamayacaq.
Hər gün gülən kəs də bir gün ağlayar [13, s. 23].

Şair insanı ağır, çətin gündə də sınmamağa, əyilməməyə səsləyir. Kədərlənəndə, qəmlənəndə ona sevinci, gülüşü xatırladır, güləndə isə vurğulayır ki, kədərə, qəmə də hazır ol. Bu şeir bir neçə qəzet və jurnalda çap olunub, şairin kitablarında yer alıb. "Sevgi" jurnalının (aprel 2010) sayında dərc edilib.

Bir azca kədər qat gülüşlərinə,
Sevinc payın olsun kədərində də.
Axşamlar günəşli səhəri düşün,
Gecəni unutma səhərində də [8, s. 11].

Asim Yadigarın məhəbbət şeirlərində bir həsrət, bir nisgil də görmək olur. Şairin bir sıra şeirlərində qaysaq bağlamış bir sevginin yaralarını açıq-aydın görmək olur. "Ölən sevgimə ağı" şeiri məhz belə bir ağrini özündə yaşadır. Lirik qəhrəmanın sevdiyi insan ona "mən sənsiz yaşamaram"- deyir. Həqiqətən də həyatda lirik qəhrəman belə bir ağrı ilə üzləşir:

"Sənsiz yaşamaram"-demişdin mənə,
"Sənsiz yaşamaram"-sözə bax, Allah!
Mənsiz yaşamadın-inandım buna,
Sinəmi yandıran közə bax, Allah!

...Yoxluğun ruhuma saldı zəlzələ,
Könül sarayım da dağıldı, gülüm.
Demişdin bu sevgi bir nağıl olar,
Doğrudan bir şirin nağıldı, gülüm [10, s.22].

Şair bu sevgini bir nağıl adlandırır. Bir mələyin dünyadan köçüb getməsi sanki onun da dünyasını qaraldır.

Şairin "Allah, bu gəlinə nə olub...", "Unut bu sevdanı", "Səni mənim qədər", "Ağla bu sevgiyə", "Gözləmə məni", "Get, gözəlim, get daha", "Sənsiz", "Əgər min sevənin olsa dünyada", "Bir damla yaş kimi", "Bir gözəl əyləşib üzü qibləyə", "Qəribə təsadüf" , "Unutsam dözəcəkmi" və sair şeirləri öz poetikliyi ilə seçilib, fərqlənib. "Get, gözəlim..." şeirində uğursuz bir sevginin göynərtisi yaşayır:

İstedadlı şair Məmməd Tahir qələm dostunun 60 illiyi münasibətilə "Palitra" qəzetində dərc etdirdiyi "Altmış yaşın epiqrafı" məqaləsində yazır: "Asim Yadigar sevgisi təkrarsızdır, kimsənin sevgisinə bənzəmir onun sevgisi. Nə vaxtsa yanımda astadan pıçıldamışdı bu misraları və uzun illərdi hərdən tək olanda, hərdən könlüm qubarlananda mən də özözümə dodaqaltı pıçıldayıram dostumun bu misralarını:

"Səni mənim qədər sevən olmadı,
Məni sənin qədər sevən tapılmaz" [9, s.15].

Asim Yadigarın sevgi şeirləri axıcıdır, səmimidir, obrazlıdır. Şair Nəriman Həsənzadənin "Sevin bir az, gül bir az..." adlı məşhur şeirindən gətirdiyi epiqrafla bir daha təsdiqləyir ki, o, poeziyada səmimiyyətin, fikri asan yolla çatdırmağın tərəfdarıdır:

Bu dünyadır – sevinci var, qəmi var,
İnsan adlı biçiləsi zəmi var,
Gülən gözün dərya boyda nəmi var,
Fikir vermə, sevin bir az, gül bir az [4, s.72].

Şair vurğulayır ki, dağ da, daş da parçalanır, ovulur, ömür sonda buğda kimi qovrulur, hamı bir gün bu fələyə ov olur, Fikir vermə, sevin bir az, gül bir az. Amma unutma ki, hər kəsə bir ömür payı verilib. Az və ya çox yaşamağından asılı olmayaraq çalış ki, ömür payını düz yaşayasan:

Əlli yaşa, səksən yaşa, yüz yaşa,
Çalış, qardaş, ömür payın düz yaşa.
Sonu birdi ya çox yaşa, az yaşa,
Fikir vermə, sevin bir az, gül bir az [15, s.72].

Asim Yadigarın ən gözəl lirik əsərlərindən biri də "Unut bu sevdanı..." şeiridir. Şair 2000-ci ildə "Şirvannəşr"də çap olunan bir kitabınını da bu adla oxucularına təqdim edib. Şeirdə təmiz, pak sevgidən söhbət açılır:

Təpədən dırnağa əzabam, qəməm,
Qoyma gözlərinin yaşına dönüm.
Mən sənə səadət verə bilmərəm,
Unut bu sevdanı başına dönüm [1, s.55-56]

Bir sevginin paklığı özündə təmiz duyğuları ehtiva edir. Ona görə də bu sevgiyə ləkə düşməsin deyə bir sevgi qəlbdə gizlədilir:

Müəllifin "Sənsiz" şeiri Xalq şairi Nəriman Həsənzadənin dilindən yazılıb. Nəriman Həsənzadə yaradıcılığına daha çox bağlı olan müəllif şairin ömür-gün yoldaşı Sara xanıma həsr etdiyi onlarla şeirə çox böyük səmimiyyətlə, həssaslıqla yanaşıb. Bu şeiri də Nəriman Həsənzadənin "dilindən" verməklə hisslərini oxuculara bir daha çatdırıb:

Sənsiz gözlərimdən düşdü bu dünya,
Bilmirəm ölüyəm, diriyəm indi.
Mən elə beləcə göz qabağında
Gəzən ölülərdən biriyəm indi.

Elə bil gülüşüm yadımdan çıxıb,
Sənsiz gülüşümə qəm ələnibdir.
Sənə min sevinclə baxan gözlərim
Nə vaxtdı qəm ilə sürmələnibdir [10, s.22].

Şeirdə Nəriman Həsənzadə yaradıcılığına sevgi, məhəbbət misraların səmimiliyində, axıcılığında özünü açıq-aydın şəkildə göstərir.

Şair İbrahim Yusifoğlu "Sözə ürək dostu, can sirdaşı deyən şair 60 yaşına çatdı" məqaləsində yazır: "Asim Yadigar nədən yazırsa-yazsın şeirlərinin mayasını saf və ülvi məhəbbət təşkil edir... Bu xarakterli şeirlər iki qismə ayrılır. "Ölın sevgimə ağı", "Ölən məhəbbət", "Ağla bu sevgiyə", "Unut bu sevdanı", "Susdu telefonun" şeirlərində məhəbbətin intizarı, keçmiş sevginin iztirabları qələmə alınır və nə qədər ağır olsa da "Unut bu sevdanı, başına dönüm" qənaətinə gəlinir.

"Sən varsan", "Bahar sevgi fəslidir", "Səni mənim qədər...", "Qoşa ömür", "Yazdım adımızı", "Gözlərin", "Sənə ehtiyacım var", "Qurbanın olum" kimi şeirlərində isə məhəbbətin qəlb oxşaması, bir ömrün qoşalaşması, sevginin

müqəddəsliyi, eşqin təmizliyi Asim Yadigar qələminə xas xüsusiyyətlərlə tərənnüm olunur" [11, s.3].

Asim Yadigarın lirik şeirlərinin hər birində səmimiyyət, bədii ifadə vasitələrinin zənginliyi özünü həmişə daha yaxşı göstərə bilir. Bu sevgi etirafları səmimi olduğu üçün oxucu qəlbinə də asanlıqla yol tapa bilir:

Yalvarıb-yaxarıb dil tökə - tökə
Gözüm gözlərini ovudacaqdı.
Ağ dəsmal olacaq qara əllərim,
Nəmli gözlərini qurudacaqdı.

İçim korun-korun yanacaq elə
Ağlımla qəlbimin qovğalarında.
Dənizə dönəcək duzlu göz yaşın,
Məni qərq edəcək dalğalarında [2, s.70-71]

Asim Yadigarın lirik şeirləri son illərdə "Bir ömrün nəğməsi" adlı kitabında bir yerə toplanaraq çap edilib. Bu kitab haqqında şairin qələm dostu, şair, Əməkdar jurnalist Əbülfət Mədətoğlu "Ədalət" qəzetində "Bir addım da yaxınlaşdım dünyana" adlı geniş bir məqalə ilə çıxış edib. Əbülfət Mədətoğlu yazır: "Asim Yadigar sözün qatlarını üzə çıxarır. O, sözü elə cilalayır ki, söz səmimiyyətini, sadəliyini itirmədən yeni söz kimi vərəqə köçür, oxucu yaddaşına yazılır. Çünki həmin söz yaşanmış duyğuların, hisslərin, düşüncələrin ifadəsidi" [12, s.7].

Şairin bir sıra məhəbbət mövzulu əsərlərində müxtəlif formalı şeirlərlə də rastlaşırıq. Fikrin poetikliyi bəzən yeni formalar tələb edir. Belə olan məqamda şair hisslərini, duyğularını qəlibə, çərçivəyə salmaq istəmir.

Görkəmli tənqidçi Vaqif Yusifli Asim Yadigarın yaradıcılığı haqqında yazdığı "Bu, Asim Yadigardır" adlı məqaləsində onun lirik şeirlərindən söz açarkən belə deyir: "Təfərrüata varmadan deyə bilərəm ki, Asim sevgi şeirlərində də öz təbiiliyinə sadiq qalır, yaşanılan hissləri, duyğuları, həyəcanları şeirə çevirir" [6, s.23].

Şairin son dövrlərdə silsilə şeirləri müxtəlif mətbuat orqanlarında dərc olunub. Bu şeirlər içərisində lirik şeirlər də az deyil. "Bu qadın sevgisiz necə yaşayır", "Yer üzündə belə gözəl yoxdu, yox", "Bir gözəl əyləşib üzü qibləyə" və sair şeirlərində biz şairi gözəllik vurğunu kimi görürük. "Bu qadın sevgisiz necə yaşayır" şeirində məhəbbətdən uzaq düşən bir qadının obrazı göz önündə canlanır. Əslində, bu şair uydurmasıdır. Bəlkə də qadın kimisə sevir, kiminsə eşqi ilə yaşayır. Lakin şair qadının ona qarşı soyuqluğunu başqa çür qələmə alır:

Elə bil ölübdü qadınlıq hissi,
Bir cansız bədəndir, yeriyir elə.
Min yol dil tökürəm, yalvarıram mən,
Susur, qara daştək kiriyir elə,
Bu qadın sevgisiz necə yaşayır? [14, s.15].

Asim Yadigarın məhəbbət mövzusunda yazdığı iki maraqlı təcnisi də vardır. Bu təcnislərində şair cinas yaratmaq naminə əllaməcilik eləmir. Öz fikrini səmimi bir şəkildə oxucuya çatdırmaq üçün dilimizin bütün poetik imkanlarından bacarıqla istifadə edir. Şairin "Gözəl" təcnisinə diqqət edək:

Çıxmışdım ovcutək maral ovuna,
Yar atdı oxunu, bilməz ovu nə.
Sındırdı qəlbimi-çətin ovuna,
Nə deyim könlümü oyana, gözəl?

Asimi incitsən bu dağlar ağlar,
Ağaclar saç yolar, budaqlar ağlar.
Sinəmə çəkdiyin bu dağlar ağlar,
Ağlar ki, zülmündən oyana, gözəl [3, s.137].

Asim Yadigar yaradıcılığında rübailərə də rast gəlirik. O, klassik Azərbaycan və Şərq poeziyasına çox gözəl bələddir. Ona görə də şairin yaradıcılığında Şərq poeziyasında aparıcı yer tutan rübailərə və qəzəllərə rast gəlmək təbii hal sayılmalıdır. Asim Yadigarın 60-dan artıq rübaisi mətbuatda çap olunub və şeir kitablarına daxil edilib. Bu rübailərin bir qismi fəlsəfi məna daşıyır. Bizə klassik şairlərin rübailərini bir daha xatırladır. Şairin rübailəri "Ədəbiyyat qəzeti"ndə, "Sevgi" jurnalında, Türkiyədə nəşr olunan "Çümüş kalem" ədəbiyyat dərgisində və kitablarında çap olunub:

Bir ovuc torpaqdır sonda hər insan,
Dünya belə olub yaranışından.
Torpaq əməlləri üzə çıxardır-
Yaxşılar gül olur, yamanlar tikan [7, s. 24].

Göründüyü kimi, Asim Yadigarın müxtəlif mövzulu lirik şeirləri var və bu şeirlər həm klassik şeir formasında, həm heca vəznində, həm də sərbəst şeir formalarında oxuculara

çatdırılıb.

Filologiya üzrə fəlsəfə doktoru Salatın Əhmədli "Vətən yoxsa biz nəyik?" məqaləsində akademik İsa Həbibbəylinin Asim Yadigarın yaradıcılığına həsr etdiyi "Vətəndaşlıq mövqeyi, plyus lirizm" məqaləsinə toxunaraq yazır: "Janr baxımından Asim Yadigarın lirikasının zənginliyini, onun heca vəznli şeirin qoşma, qəzəl, gəraylı, bayatı, təcnis, əruz vəznli şeirin qəzəl, rübai, təxmis, müxəmməs janrlarında yaddaqalan, təsirli şeirlər yazdığını,-göstərməklə yanaşı onun sərbəst şeirin az olduğunu,"xalq şeiri və klassik lirika janrlarında yazdığı şeirlərində yeni poetik söz deməyə, müasir dövrün fikirlərini ifadə etməyə, həm ideyalı, həm də cazibədar şeirlər ərsəyə gətirməyə" nail ola bildiyini, onun müasirlik üstündə köklənmiş lirikasında "xalqımızın ictimai baxışları, insanın mənəvi aləmi, nəciblik və bütövlük" xüsusi çəkiyə malik olduğu fikrindədir.: "Asim Yadigar şeirləri ilə əxlaq, öyüd-nəsihət dərsi vermir, mənəvi saflığı, pak vicdanı, sədaqəti tərənnüm etməklə oxucunu düşündürür və inandırır" [16, s. 4].

Asim Yadigar geniş yaradıcılıq imkanlarına malik olan şairlərimizdəndir. Müəllifin 600-dən artıq şeiri müxtəlif vəznlərdə yazılıb. Onun heca, əruz və sərbəst vəzndə yazdığı şeirləri sübut edir ki, şair hər bir vəzndə gözəl nümunələr yaratmaq imkanına malikdir. Bu baxımdan onun rübailəri, qəzəlləri, təxmisləri, məsnəviləri klassik şeir nümunələri kimi maraqlıdır. Digər tərəfdən şairin qoşma və gəraylıları, təcnisləri isə göstərir ki, o , bir şair kimi xalq şeiri formalarında da gözəl sənət nümunələri yarada bilib.

Bir sözlə, Asim Yadigar Azərbaycan ədəbi mühitində kifayət qədər taninan və bir şair kimi öz qiymətini layiqincə alan yaradıcılarımızdan biridir.

Ədəbiyyat

1. Asim Yadigar. Zirvə yolu. – Bakı, Şirvannəşr, – 1988. – 72 s.
2. Asim Yadigar . Unut bu sevdanı. – Bakı, Şirvannəşr, – 2000. – 132 s.
3. Asim Yadigar. Hər şeyin sonu var. – Naxçıvan, Qızıl Dağ, – 2007. – 290 s.
4. Asim Yadigar. Bir nurlu heykəl yarat. – Naxçıvan: Əcəmi, – 2014. – 248 s
5. Asim Yadigar. Seçilmiş əsərləri. [I cild], – Naxçıvan: Əcəmi, – 2016. – 360 s.
6. Vaqif Yusifli. Bölgələrdə ədəbi həyat .– Bakı: Elm və təhsil, – 2017. –268 s.
7. //– Bakı: Sevgi jurnalı. – 2012. №1(13), – 36 s.
8. // – Bakı: Sevgi jurnalı. – 2010 №2(10), – 36 s.
9. Məmməd Tahir. Altmış yaşın epiqrafı palitra. 24 yanvar 2014, №12 (2018).
10. Asim Yadigar. Şeirlər. // 525-ci qəzet, – 2016, 7 may. № 82, (4578).
11. Yusifoğlu İbrahimYusifoğlu. Sözə ürək dostu, can sirdaşı deyən şair 60 yaşına çatdı. // Şərurun səsi, 2013, 30 dekabr. № 47 (6240).
12. Əbülfət Mədətoğlu. Bir addım da yaxınlaşdım dünyana. Ədalət, 11 iyul 2018, № 121 (5351).
13. Dünyaya gəlişin bir nağıl idi. // 525 qəzet, 2019, 5 yanvar, № 02 (5213)
14. Asim Yadigar, Şeirlər. // Ədalət, 2018, 22 dekabr. № 229 (5459).
15. Asim Yadigar. Biz ona səs vermişik-İlham Heydəroğluna, // Şərq qapısı, 2018, 13 aprel, № 68 (22.979).
16. Salatın Əhmədli. Vətən yoxsa biz nəyik. // Kredo, 2019, 13 noyabr. №47 (972)

Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Həsənəli Eyvazov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 23.01.2022, son daxilolma – 14.02.2022, qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 187-194
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 187-194
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.187-194

UOT 821.161.1

Крылатые строки русской поэзии Пушкинской поры

Автор:

Ариф Зейналов
Нахчыванский государственный университет
E-mail: arifzeynalov49@gmail.com

Ключевые слова:
сетера-тура, крылатые строки, русская поэзия, пушкинская пора, стих, благозвучие

Аннотация. Статья посвящена крылатым выражениям русских поэтов пушкинской поры. В статье на основе исследовательского метода нашли отражение ставшие крылатыми поэтические строки русских поэтов пушкинской поры. Крылатые строки русских поэтов пушкинской поры обогатили русскую речь и сделали ее выразительнее. Крылатые слова нельзя смешивать с пословицами и поговорками, они во многом отличаются друг от друга. Среди крылатых слов много афоризмов, которые выражают какую-нибудь обобщенную мысль. Крылатые слова – большое богатство, но пользоваться этим словесным богатством надо умело.

Puşkinin dövründə rus poeziyasının qanadlı sətirləri

Müəllif:

Arif Zeynalov
Naxçıvan Dövlət Universiteti
E-mail: arifzeynalov49@gmail.com

Açar sözlər:
seteratura, qa-nadlı sətirlər, rus poeziyası, Puşkin dövrü, şeir, ahəngdarlıq

Annotasiya. Məqalə Puşkinin dövründə olan rus poeziyasının qanadlı ifadələrinə həsr olunur. Məqalədə Puşkinin dövründə rus şairlərinin tədqiqat metodu əsasında qanadlı poetik sətirlər əksini tapmışdır. Puşkinin dövründə olan rus şairlərinin qanadlı sətirləri rus nitqini zənginləşdirdi və gözəlləşdirdi. Qanadlı sözləri atalar sözləri və zərb-məsələləri ilə qarışdırmaq olmaz. Qanadlı sözlər arasında ümumi bir fikir ifadə edən aforizmlər çoxdur. Qanadlı sözlər böyük bir zəngin xəzinədir və onlardan bacarıqla istifadə etmək lazımdır.

Winged phrases of the Pushkin period's russian poetry

Author:

Arif Zeynalov
Naxçıvan Dövlət Universiteti
E-mail: arifzeynalov49@gmail.com

Key word:
seteratura, winged words, Russian poetry, Pushkin period, verse, euphony

Abstract. The paper considers the catchphrases of Russian poets of the Pushkin period. Based on the research method, the paper reflects Pushkin period Russian poets' poetic lines, which later became famous catchphrases. The winged words of Russian poets of the Pushkin era enriched Russian speech, made it more expressive. Such catchphrases cannot be confused with proverbs and sayings; they differ in many respects from each other. There are many aphorisms among these winged phrases that express some generalized thought. The catchphrases are great wealth, but one must use this verbal wealth skillfully.

Глобальная Всемирная паутина Интернет и сетевая культура прочно вошли в контекст мировой киберкультуры. Русская сетевая литература (сетература) появилась в середине 90-х годов XX века [1, с.6]. Русская сетевая литература существует в двух аспектах: а) перенесенные в Сеть тексты классической и современной («бумажной») литературы; б) созданные и функционирующие в глобальной информационной сети Интернет произведения. Перенесение произведения и его превращение в гипертекст представляет пользователям удобный механизм для исследования и чтения текста, т.к. читатель имеет возможность легко перейти к комментариям и вернуться к исходному тексту, вести литературный анализ фрагментов и всего произведения. В связи с этим литературные сайты превратились в литературные клубы со своей эстетической концепцией.

Благодаря техническим возможностям компьютерных технологий появилась и поэтика сетевой литературы, которая отличается динамизмом, открытостью и доступностью. К поэтическим жанрам сетевой литературы относятся: буриме, чепуха, сад расходящихся хокку, ренга, ренгуру и др., которые отличаются нарушениями традиционных канонов стихотворчества, отсутствием идейно-эстетических критериев, высокой художественности и содержательности. Хотя многие авторы говорят о формировании новой субкультуры, нового мышления, нового пространства общения, самовыражения и предсказывают сетевой литературе будущее, но нельзя забывать, что все образование, начиная с начальной школы, построено не на сетературе, а на классической художественной литературе.

«Нормы словоупотребления могут быть поняты и описаны только при учете их динамики и исторического движения» [2, с.3].

Фразеологическая норма употребления (особенно в области давних выражений и оборотов) требует к себе повышенного внимания, а языковая культура предполагает знание исторических первоисточников, а значит и восстановление исходных слов и выражений первоисточников.

В кругу поэтов пушкинской поры – золотого фонда русской поэзии – имена Пушкина А.С., Баратынского Е.А., Вяземского П.А., Дельвига А.А., Жуковского В.А., Кольцова А.В., Лермонтова М.Ю., Некрасова Н.А. и др. стоят рядом. Как бы ни были различны литературные направления и школы, к которым они принадлежали, как бы далеко ни стояли друг от друга любимые ими жанры и формы, есть ничто более важное, объединяющее их. Прежде всего это патриотичность и любовь к русскому языку. Стихотворные строчки многих русских поэтов стали крылатыми выражениями. Термин «крылатые слова», при своем появлении в Германии имевший точное значение – выражение из литературных источников или исторических документов (цитата), получивший обобщающий смысл в общей речи, приобрел значение распространительное и стал употребляться для обозначения всех явлений языка, имевших ту или иную степень выразительности. Такое значение термина укрепилось после выхода в 1864 г. книги немецкого ученого Г.Бюхмана «Geflü qelte Worte» («Крылатые слова») [3, с.183].

«В объяснении каждого крылатого слова литературного происхождения указан автор, которому оно принадлежит или приписывается, произведение, из которого данное выражение взято, и дата, когда это произведение впервые было напечатано…, по дате печатной публикации… того или иного произведения можно судить о «возрасте» крылатого слова» [4, с.7].

Каждое поколение по-своему понимает произведения прошлого, открывая в них то, что не было замечено их современниками. Настоящее освоение классического наследия русских поэтов только начинается, хотя о классиках русской поэзии написано много интересного.

Цель данной статьи – помочь понять смысл крылатых выражений классиков русской поэзии пушкинской поры, ознакомиться с нравами, обычаями, русской культурой и правильно воспринимать художе-

ственные образы, быт, психологию русского народа.

Квинтэссенция крылатых строк русской поэзии пушкинской поры «воспитывает уверенность в себе, поддерживает в трудную минуту, заставляет думать и рассуждать» [5, с.2].

БАРАТЫНСКИЙ Евгений Абрамович

Была ему звездная книга ясна,
И с ним говорила морская волна.
(«На смерть Гете», 1832)

Век шествует путем своим железным.
(«Последний поэт», 1835)

Есть что-то в ней, что красоты прекрасней,
Что говорит не с чувствами – с душой.
(«Она», 1827)

И бестолково любит он,
И бестолково ненавидит.
(«Эпиграмма», 1827)

И как нашел я друга в поколеньи,
Читателя найду в потомстве я.
(«Мой дар убог, и голос мой не громок...», 1828)

Как не любить родной Москвы!
(«Пиры», 1820)

Как сладить с глупостью глупца?
Ему впопад не скажешь слова.
(«Эпиграмма», 1827)

Молился новым образам,
Но с беспокойством староверца.
(«Уверение», 1824)

Мы все блаженствуем равно
Но все блаженствуем различно.
(«Стансы», 1825)

Не бойся едких осуждений,
Но упоительных похвал.
(«К***», 1827)

Но поражен бывает мельком свет
Ее лица необщим выраженьем.
(«Муза, 1829)

Поэзии ребяческие сны.
(«Последний поэт»)

Разочарованному чужды
Все обольщенья прежних дней!
(«Разуверение», 1821)

Свой век опередив, заране слышит гений
Рукоплескания грядущих поколений.
(«Воспоминания», 1819)

Уж я не верю увереньям,
Уж я не верую в любовь.
(«Разуверение», 1821)

ВЕЛЬТМАН Александр Фомич

Что отуманилась, зоренька ясная.
(«Муромские леса», 1831)

ВЕНЕВИТИНОВ Дмитрий Владимирович

Как знал он жизнь! Как мало жил!
(«Поэт и друг», 1827)
С печатью власти на челе.
(«Люби питомца вдохновенья...», 1827)

ВЯЗЕМСКИЙ Петр Андреевич

В бореньи с трудностью силач необычайный.
(«К В.А.Жуковскому», 1819)

Жизнь наша в старости – изношенный халат:
И совестно носить его, и жаль оставить.
(«Жизнь наша в старости...», 1875-1877)

Здравствуй, дедушка Крылов!
(«На радость полувековую…», 1838)

И жить торопится, и чувствовать спешит.
(«Первый снег», 1819)

Тройка мчится, тройка скачет.
(«Еще тройка», 1834)

Чтоб более меня читали,
Я стану менее писать.
(«К друзьям», 1814)

ГЛИНКА Федор Николаевич
Город чудный, город древний.
(«Москва, 1840)

И колокольчик – дар Валдая –
Гудит, качаясь под дугой...
(«Сон русского на чужбине», 1825)

ДАВЫДОВ Денис Васильевич
Где друзья минувших лет,
Где гусары коренные.
(«Песня старого гусара», 1817)

Жомини, да Жомини!
А об водке – ни полслова!
(Там же)
Пусть грянет Русь военною грозою –
Я в этой песни запевала!
(«Ответ», 1826)

То был век богатырей!
Но смещались шашки.
(«Современная песня», 1836)

ДЕЛЬВИГ Антон Антонович
Когда еще я не пил слез
Из чаши бытия.
(«Элегия», 1821-1822)

Не осенний частый дождичек.
(«Не осенний частый дождичек...», 1829)

Соловей мой, соловей,
Голосистый соловей!
(«Русская песня», 1825)

ЕРШОВ Петр Павлович
Будьте милостивы, братцы!
Дайте чуточку подраться.
(«Конек-горбунок», 1834)

Время катит чередом,
Час за часом, день за днем.
(Там же)
Чудо-юдо рыба-кит.
(Там же)

ЖУКОВСКИЙ Василий Андреевич
Верь тому, что сердце скажет.
(«Желание», 1811)

Все великое земное
Разлетается как дым:
Ныне жребий выпал Трое,
Завтра выпадет другим...
(«Торжество победителей», 1828)

Здесь несчастье – лживый сон;
Счастье – пробужденье.
(«Светлана», 1808-1812)

Минувших дней очарованье,
Зачем опять воскресло ты?
(«Песня», 1818)

Не говори с тоской: их нет,
Но с благодарностию: были.
(«Воспоминание», 1821)

О родина святая,
Какое сердце не дрожит,
Тебя благословляя?
(«Певец во стане русских воинов», 1812)
Скольких бодрых жизнь поблекла!
Скольких низких рок щадит!..
Нет великого Патрокла;
Жив презрительный Терсит.
(«Торжество победителей», 1828)

Спящий в гробе мирно спи;
Жизнью пользуйся, живущий.
(Там же)

ИЛЛИЧЕВСКИЙ Алексей Демьянович
Приходит Смерть; и кончен бал.
(«Три слепца», 1827)

КОЗЛОВ Иван Иванович
Не бил барабан перед смутным полком,
Когда мы вождя хоронили.
(«На погребение английского генерала сира Джона Мура, 1825)

КОЛЬЦОВ Алексей Васильевич
Ах ты, степь моя,
Степь привольная.
(«Косарь», 1836)

В золотое время
Хмелем кудри вьются.
С горести-печали
Русые секутся.
(«Вторая песня Лихача Кудрявича», 1837)

Вороти назад!
Держи около!
(«Лес», 1837)
На заре туманной юности.
(«Разлука», 1840)

Раззудись, плечо!
Размахнись, рука!
(«Косарь»)

Соловьем залетным
Юность пролетела.
(«Горькая доля», 1837)
Что, дремучий лес,
Призадумался.
(«Лес», 1837)
КУКОЛЬНИК Нестор Васильевич
Уймитесь, волнения страсти!
(«Сомнение», 1838)

ОДОЕВСКИЙ Александр Иванович
Из искры возгорится пламя.
(Ответ на послание Пушкина, 1827)

ПОЛЕЖАЕВ Александр Иванович
В России чтут
Царя и кнут.
(«Четыре нации», 1827)

Не расцвел – и отцвел
В утре пасмурных дней.
(«Вечерняя заря», 1826-1828)

РЫЛЕЕВ Кондратий Федорович
Известно мне: погибель ждет
Того, кто первый восстает
На утеснителей народа.
(«Наливайко», 1824-1825)

Куда ты ведешь нас?.. не видно ни зги!
–
Сусанину с сердцем вскричали враги.
(«Иван Сусанин», 1822)

Не сбылись, мой друг, пророчества
Пылкой юности моей.
(«Стансы», 1824)

Но где, скажи, когда была
Без жертв искуплена свобода?
(«Наливайко», 1824-1825)

Я ль буду в роковое время
Позорить гражданина сан
(«Я ль буду в роковое время...», 1824)

Я не поэт, а Гражданин.
(«Войнаровский», 1825)

СЕРЕБРЯНСКИЙ (Сребрянский) Андрей Порфирьевич
Быстры, как волны, дни нашей жизни.
(«Вино», начало 1830-х гг.)

СОЛЛОГУБ Владимир Александрович
Закинув плащ, с гитарой под рукою.
(«Серенада», 1830-е годы)

СТРОМИЛОВ Семен Николаевич
Догорай, моя лучина,
Догорю с тобой, и я!
(«То не ветер ветку клонит…» 1830-е гг.)
ТИМОФЕЕВ Алексей Васильевич
Нас венчали не в церкви,
Не в венцах, не с свечами.
(«Свадьба», 1835)

ТУМАНСКИЙ Федор Антонович
Она исчезла, утопая
В сияньи голубого дня.
(«Птичка», 1827)

ЦЫГАНОВ Николай Григорьевич
Не шей ты мне, матушка,
Красный сарафан.
(«Не шей ты мне, матушка...», 1833)

ЯЗЫКОВ Николай Михайлович
Будет буря: мы поспорим
И помужествуем с ней.
(«Пловец», 1829)

Не много нас, но мы славяне.
(«Услад», 1823)

Но туда выносят волны
Только сильного душой.
(«Пловец», 1829)

ПУШКИН Александр Сергеевич
Как уст румяных без улыбки,
Без грамматической ошибки
Я русской речи не люблю.
(«Евгений Онегин», 1833)

Мы все учились понемногу
Чему-нибудь и как-нибудь
Так воспитаньем, слава Богу,
У нас немудрено блеснуть.
(«Евгений Онегин», 1833)

Я к вам пишу-чего же боле?
Что я могу еще сказать?
(«Евгений Онегин», 1833)
Любви все возрасты покорны;
Но юным, девственным сердцам
Ее порывы благотворны.
(«Евгений Онегин», 1833)

Как женщин, он оставил книги,
И полку с пыльной их семьей,
Задернул траурной тафтой.
(«Евгений Онегин», 1833)
Мой дядя самых честных правил,
Когда не в шутку занемог,
Он уважать себя заставил
И лучше выдумать не мог.
Его пример другим наука...
(«Евгений Онегин», 1833)

И память юного поэта
Поглотит медленная Лета,
Забудет мир меня.
(«Евгений Онегин», 1833)

Но панталоны, фрак, жилет,
Всех этих слов на русском нет.
(«Евгений Онегин», 1833)

Зима!.. Крестьянин, торжествуя,
На дровнях обновляет путь.
(«Евгений Онегин», 1833)

Мороз и солнце; день чудесный!
Еще ты дремлешь, друг прелестный.
(«Зимнее утро», 1829)

Кавказ подо мною. Один в вышине
Стою над снегами у края стремнины;
Орел, с отдаленной поднявшись вершины,
Парит неподвижно со мной наравне.
Отселе я вижу потоков рожденье
И первое грозных обвалов движенье.
(«Кавказ», 1829)

Во дни печальные разлуки
Твои задумчивые звуки
Напоминали мне Кавказ.
(«Кавказский пленник», 1829)

Чем меньше женщину мы любим,
Тем легче нравимся мы ей.
(«Евгений Онегин», 1833)

Кто любит более тебя,
Пусть пишет далее меня.
(«Евгений Онегин», 1833)

Уж небо осенью дышало,
Уж реже солнышко блистало,
Короче становился день…
(«Евгений Онегин», 1833)

Куда, куда вы удалились,
Весны моей златые дни?
(«Евгений Онегин», 1833)
Пустое вы сердечным ты
Она, обмолвясь, заменила
(«Ты и вы», 1828)

Я вас любил: любовь еще быть может
В душе моей угасла не совсем.
(«Я вас любил, любовь быть может», 1829)

Люблю я пышное природы увяданье,
В багрец и в золото одетые леса...
(«Осень», 1833)

У лукоморья дуб зелёный;
Златая цепь на дубе том.
(«Руслан и Людмила», 1820)

Тираны мира! трепещите!
А вы, мужайтесь и внемлите,
Восстаньте, падшие рабы!
(«Вольность», 1817)

Оковы тяжкие падут,
Темницы рухнут – и свобода
Вас примет радостно у входа...
(«Во глубине сибирских руд...», 1827)

«Восстань, пророк, и виждь, и внемли,
Исполнись волею моей
И, обходя моря и земли,
Глаголом жги сердца людей»
(«Пророк», 1826)

Паситесь, мирные народы!
Вас не разбудит чести клич.
К чему стадам дары свободы?
Их должно резать или стричь.
Наследство их из рода в роды
Ярмо с гремушками да бич.
(«Свободы сеятель пустынный», 1823)

Ещё одно, последнее сказанье –
И летопись окончена моя.
(«Борис Годунов», 1824-1825)

Я памятник себе воздвиг нерукотворный,
К нему не зарастёт народная тропа,
Вознёсся выше он главою непокорной
Александрийского столпа.
(«Я памятник себе…», 1836)

ЛЕРМОНТОВ Михаил Юрьевич
Как сладкую песню отчизны моей,
Люблю я Кавказ.
(«Кавказ», 1830)

Гляжу на будущность с боязнью,
Гляжу на прошлое с опаской.
(«Гляжу на будущность с боязнью», 1837-1838)

На севере диком стоит одиноко
На голой вершине сосна
И дремлет, качаясь, и снегом сыпучим
Одета, как ризой, она.
(«На севере диком стоит одиноко», 1841)

Есть речи – значенье
Темно иль ничтожно,
Но им без волненья
Внимать невозможно.
(«Есть речи – значенье», 1839)

Прощай, немытая Россия,
Страна рабов, страна господ,
И вы, мундиры голубые,
И ты, им преданный народ.
(«Прощай немытая Россия», 1841)

НЕКРАСОВ Николай Алексеевич
Славная осень! Здоровый, ядреный
Воздух усталые силы бодрит.
(«Железная дорога», 1864)

Идет-гудет Зеленый Шум
Зеленый Шум, весенний шум
(«Зеленый Шум», 1862-1863)
И вот они опять, знакомые места,
Где жизнь отцов моих, бесплодна и пуста.
(«Родина», 1846)

Ты и убогая,
Ты и обильная,
Ты и могучая,
Ты и бессильная,
Матушка-Русь!
(«Кому на Руси жить хорошо», 1863-1876)

Да не робей за отчизну любезную...
Вынес достаточно русский народ.
(«Железная дорога», 1864) (6)

Велика заслуга русских поэтов пушкинской поры, и прежде всего А.С.Пушкина, в обогащении сокровищами языка русского народа.

«В ярких, глубоко типичных образах русские писатели отразили существенные явления сложной и противоречивой дей-

ствительности XIX в. Многие из этих образов вошли в галерею характеров, созданных мировой литературой, и приобрели долгую жизнь за пределами отраженной в них эпохи» (7, с. 3).

Использование лирических текстов в обучении иностранному языку представляет хорошие возможности в обучении фонетической стороне речевой деятельности, так как такого гибкого и насыщенного соединения интонаций и ритмов … нет в обычной речи» (8, с. 173).

Литература

1. Гаджиев А. Сетература: история, типология и поэтика русской сетевой литературы. – Баку: Мутарджам, – 2012, – 73 с.
2. Литературная норма в лексике и фразеологии. Под ред. Скворцова Л.И. – Москва: Наука, – 1983, – 204 с.
3. Ожегов С.И. Лексикология. Лексикография. Культура речи. – Москва: Высшая школа, – 1974, – 351 с.
4. Ашукин Н.С., Ашукина М.Г. Крылатые слова. – Москва: Художественная литература, – 1987, – 527 с.
5. Все лучшие афоризмы и цитаты, и притчи. Под ред. Королевой Е.М. – Москва: АСТ, – 2017, – 160 с.
6. Бирюкова С.Н. Словарь культуроведческой лексики русской классической литературы. – Москва: Просвещение, – 2005, – 350 с.
7. Соколов А.Н. История русской литературы XIX в. (1-я половина). – Москва: Высшая школа, – 1970, – 783 с.
8. Методика обучения иностранным языкам в средней школе. Под ред. Колковой М.К. – Санкт-Петербург: Каро, – 2018, – 223 с.

Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlı tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 07.01.2022, son daxilolma – 10.02.2022, qəbulolunma –21.02.2022

1
Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 195-199
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p.195-199
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.195-199

UOT 811.512.162

Mürəkkəb feillərdə təsirlilik və təsirsizliyin araşdırılmasına dair

Müəllif:

Şəhla Fətəliyeva
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: sehlafeteliyeva@gmail.com

Açar sözlər:
dilçilik, Azərbaycan dili, qrammatika, mürəkkəb feil, təsirlilik və təsirsizlik kateqoriyası

Annotasiya. Məqalənin yazılmasında məqsəd mürəkkəb feillərdə təsirlilik və təsirsizliyin araşdırılması ilə bağlıdır. Bu məqsədlə bir sıra araşdırmalar təhlil edilmişdir. Belə ki, Azərbaycan dilçiliyində bu məsələyə mürəkkəb feil anlayışına müxtəlif cəhətdən yanaşılmışdır. Buna görə də fikirlər çox maraqlı və müxtəlifdir. Məqalədə müxtəlif feil anlayışını, onun forma və növlərinə nəzər salınmışdır. Mürəkkəb quruluşlu feili birləşmələrdə hansı feillərin təsirli, hansıların təsirsiz olduğuna diqqət yetirilmişdir. Təbiidir ki, burada onların hamısından söhbət açmaq imkan xaricindədir. Məqalədə onların ancaq bir qismi ümumi şəkildə qruplaşdırılmış və şərh edilmişdir. Azərbaycan dilçiliyinin morfologiya bölməsində olan feilin bu kateqoriyası zəngin nümunələrlə təhlilə cəlb olunmuş və qənaətbəxş nəticəyə gəlinmişdir.

On the study of effectiveness and inactivity in compound verbs

Author:

Shahla Fataliyeva
Nakhchivan Teachers Institute
Doctor of philosophy in Philology, Associate Professor
E-mail: sehlafeteliyeva@gmail.com

Key word:
linguistics, Azerbaijani language, grammar, complex verb, category of effectiveness and ineffectiveness

Abstract. The purpose of writing the article is related to the investigation of effectiveness and ineffectiveness in complex verbs. For this purpose, a number of studies have been analyzed. Thus, in Azerbaijani linguistics, the complex verb concept has been approached in different ways. Therefore, the ideas are very interesting and diverse. The article examines the concept of various verbs, their forms and types. Attention has been paid to which verbs are effective and which are ineffective in complex verb combinations. Of course, it is impossible to talk about all of them here. In the article, only some of them are grouped and commented in a general way. This category of the verb in the morphology section of Azerbaijani linguistics was analyzed with rich examples and a satisfactory conclusion was reached.

К исследованию категории переходности/непереходности сложных глаголов

Автор:

Шахла Фаталиева
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент
E-mail: sehlafeteliyeva@gmail.com

Ключевые слова:
лингвистика, азербайджанский язык, грамматика, сложный глагол, категория переходности/непереходности

Аннотация. Цель написания статьи связана с исследованием переходности/непереходности сложных глаголов. С этой целью был проанализирован ряд исследований. Так, в fзербайджанском языкознании к понятию сложного глагола подходили с разных сторон. Поэтому идеи очень интересные и разнообразные. В статье рассмотрено понятие различных глаголов, его формы и виды. В глагольных спряжениях со сложной структурой основное внимание уделялось тому, какие глаголы переходные, а какие непереходные. Естественно, что нет возможности рассмотреть все сложные глаголы. В статье лишь некоторые из них сгруппированы и прокомментированы в общих чертах. Эта категория глагола, рассматривающаяся в разделе морфологии азербайджанского языкознания, была подвергнута анализу с богатыми примерами и получены некоторые результаты.

Dilçiliyin morfologiya bəhsində feil bir nitq hissəsi kimi zəngindir. Azərbaycan dilində feilləri təsirli və təsirsiz olaraq iki qismə ayrılır. Feillərin bir qismi subyektin obyektə təsirini bildirdiyi halda, bir qismi də subyektin obyekt üzərində təsirini göstərə bilmir. Subyektlə obyekt arasında olan bu münasibətin feillərdəki ifadəsinə təsirlilik və təsirsizlik kateqoriyası deyilir.

Bəlli olduğu üzrə türkologiya, o cümlədən Azərbaycan dilçiliyində mürəkkəb feil məsələsi mübahisəlidir. Dilçilikdə bu məsələyə - mürəkkəb feil anlayışına bunun quruluş və növlərinə müxtəlif cəhətdən yanaşdıqları üçün söylənilən fikirlər də mövzunun aktuallığı baxımından müxtəlifdir.

Bəzən eyni məsələ - bilmək və olmaq yarımmüstəqil feillərinin əmələ gətirdiyi birləşmələr (kömək etmək, tanış olmaq) məsələsi bir neçə termin (mürəkkəb feil tərkibi, feil, analitik feil) altında izah olunur.

Dilimizdə atmaq, tutmaq, çıxmaq, düşmək, gəlmək, getmək kimi feillərin yardımı ilə əmələ gələn birləşmələri (məs: əl atmaq, əl tutmaq; kuf atmaq, kuf tutmaq; yaddan çıxmaq, yada düşmək, taxta çıxmaq, taxtdan düşmək; yola getmək, cana gəlmək; fikrə gəlmək, fikrə getmək və s.) [1, səh.159]. Bəziləri mürəkkəb feil, bəziləri sabit birləşmə, bəziləri də xüsusi vəziyyətdə olan birləşmə adlandırırlar.

Bizim burada məqsədimiz haqqında söz açmaq istədiyimiz birləşmələrdir – mürəkkəb quruluşlu, sabit və qeyri-sabit feili birləşmələrdə və ya mürəkkəb feillərdə təsirlilik və təsirsizliyi araşdırmaqdır. Burada hansılar təsirli, hansılar təsirsiz olur? Buradakı müstəsna hallar nə ilə bağlıdır?

Qeyd etmək lazımdır ki, Azərbaycan dilinin lüğət tərkibində, onun qrammatik quruluşunda bu tipli birləşmələr olduqca çoxdur. Təbiidir ki, burada onların hamısından, bütün növlərindən söz açmaq imkan xaricindədir. Bu məqalədə ancaq onların bir qismini qruplaşdırıb araşdırma aparmaq məqsədəuyğundur. Burada onların hansının təsirli, hansının təsirsiz olduğunu göstərməklə kifayətlənəcəyik.

Müasir Azərbaycan dilinin olmaq, etmək feilləri əsasən, öz leksik- semantik müstəqilliyini itirmiş və yarımmüstəqil hala çevrilmişdir ki, bunların vasitəsilə əmələ gələn mürəkkəb feillərdə təsirlilik və təsirsizlik ifadəsini aşağıdakı şəkildə ümumiləşdirmək olar.

a) Olmaq feilinin yardımı ilə düzələnlərdə:

Müasir Azərbaycan dilində olmaq feilinin yardımı ilə düzələn mürəkkəb feillərin hamısı;

Dost olmaq-düşmən olmaq
Qohum olmaq-yad olmaq
Qardaş olmaq-sirdaş olmaq
Uzaq olmaq-yaxın olmaq
Yaxşı olmaq-pis olmaq
Sağlam olmaq-xəstə olmaq [2, s.66-77].

Bunlardan hər biri kimi? nəyi? haranı? suallarına cavab verən söz (obyekt) tələb etmir. Bu xüsusiyyəti aşağıdakı cümlələrdə aydın şəkildə görmək olar.

Heydər baba, sənin könlün şad olsun,
Dünya varkən, ağzın dolu dad olsun.
Səndən keçən tanış olsun, yad olsun.
Yaxud
Əkrəmin ürəyi sanki ağır yüklü əziyyətdən azad oldu.

b) Etmək və eləmək feillərinin yardımı ilə düzələnlərdə;

Etmək və eləmək feillərinin yardımı ilə düzələn mürəkkəb feillər obyektə münasibət məsələsində olmaq feilindən fərqlənir.

Belə ki, bunların əmələ gətirdiyi mürəkkəb feillərin əksəriyyəti təsirli, az bir qismi təsirsiz olur.

1. Təsirlilər:
Dərd etmək // eləmək;
Vadar etmək // eləmək;
Vəd etmək // eləmək;
Diktə etmək // eləmək;
Düçar etmək // eləmək.

Yuxarıdakı və bu tipli digər feillər cümlədə əşya ilə birbaşa əlaqəyə girir və həmin sözün təsirli olmasını tələb edir. Nümunələrə nəzər salaq:

Zəkası fəth etdi qərinələri.
Yaxud
Yataqxananı ələk-fələk edirdi.
Bayramın fikrini alt-üst eləmişdi.
2. Təsirsizlər:
Dad etmək // eləmək
Tamaşa etmək // eləmək
Hücum etmək // eləmək

Dilimizdə işlənən bu və ya bu kimi bir sıra

mürəkkəb feillər obyektlə demək olar ki, birbaşa əlaqəyə girə bilmir. Məsələn: Uşaqlar dayandıqları yerdə hərəkət edirdilər. Düşmən qəflətən hücum etdi.

Lakin elə hallar da vardır ki, etmək // eləmək sözlərinin yardımı ilə əmələ gəlmiş mürəkkəb feilin idarə etdiyi söz təsirlik halda olur, əsasən eyni məqsədə xidmət edir. Məsələn:

O, buna adət edibdir.

Nadir bu işə vərdiş edibdir.

Belə bir vəziyyət hər şeydən əvvəl, üslubi məqam və sözdə yaranan yeni məna və məna çalarları ilə bağlıdır.

Feili bağlama ilə şəxsli (təsriflənən) feillərin birləşməsində əmələ gələn mürəkkəb feillərdə də təsirlilik və təsirsizliyin ifadəsi mövcuddur.

Feili bağlama ilə şəxsli feillərin birləşməsində əmələ gələn mürəkkəb feillərin bir qismi təsirli, bir qismi (çoxu) isə təsirsiz olur.

1. Təsirlilər;

Yandırıb-yaxmaq;

Atıb-tutmaq;

Yeyib-içmək;

Qatıb-qarışdırmaq;

Alışıb-verişmək;

Nümunələrə misallarla aydınlıq gətirmək mövzunun aktuallığını daha da artırmış olar. Məsələn: Günəş hər tərəfi yandırıb-yaxırdı. Habil, ay insafsız, ürəyinizi yandırıb-yaxmaqla qəsdin nədir, nə? və s.

2. Təsirsizlik;

Dinib-danışmaq;

Alışıb-yanmaq;

Atılıb-düşmək;

Qızarıb-bozarmaq;

Aşıb-daşmaq;

Dəyib-dolaşmaq;

Yalvarıb-yapışmaq;

Qaynayıb-qarışmaq;

Oturub-durmaq;

Durub-oturmaq;

Çalıb-oynamaq;

Əzilib-büzülmək;

Məsələn: Hirsindən alışıb-yanırdı gözü.

Mən indi doktorla, ədiblə, filosoflarla oturub-dururam.

Bu səs onu daxilində itirib-batırdı.

Naz-naz xanım çox qışqırıb-bağırdı, atılıb-düşdü, əzilib-büzüldü, yalvarıb-yaxardı, lakin ərini öz fikrindən döndərə bilmədi.

Faktlardan göründüyü kimi birinci bənddəki feillər idarə etdiyi sözün təsirlik halda olmasını tələb etdiyi halda, ikinci bənddəkilər bunu tələb edə bilməmişdir.

Yeri gəlmişkən belə bir cəhəti də qeyd etək ki, bu birləşmələrin ikinci tərəfindən olan feillərə, eləcə də əvvəldə izah etdiyimiz ol, et, elə feillərinə feili sifət şəkilçisi artırıldıqda da feildəki təsir məsələsi dəyişməz qalır. [3, səh.159].

Yandırıb-yaxan;

Qatıb-qarışdıran;

Atılıb-düşən;

Qızarıb-bozaran;

Olan, edən, eləyən;

Azərbaycan dilinin lüğət tərkibində həddindən artıq şox olan müxtəlif dövrlərdə müxtəlif yollarla əmələ gələn bu sözlərin bir qismi təsirli, bir qismi isə təsirsiz olur. Elələri də vardır ki, onlar keçid prosesindədirlər.

Apardığımız araşdırmalardan, topladığımız çoxlu dil faktlarından aydın olur ki, Azərbaycan dilində təsirsiz feillərin köməyi ilə düzələn mürəkkəb feillər və ya mürəkkəb quruluşlu sözlərin hamısı müstəqil obyekt tələb etmək xüsusiyyətindən məhrumdur. Bu xüsusiyyət cümlə içərisində daha aydın nəzərə çarpır. Məsələn: O yuxuya getmədi. Qadın elə bil suala bənd imiş kimi özündən çıxdı.

Lakin elə hallar da vardır ki, həmin təsirsiz feilin əmələ gətirdiyi mürəkkəb feil (və ya sabit birləşmə) təsirli olur. Məsələn: gəl birbirimizi başa düşək. Axı mən öz səhvimi başa düşürəm və s.

2.Təsirli feillərlə əmələ gələnlərdə təsirlilik və təsirsizlik.

Təsirli feillərin yardımı ilə əmələ gələn mürəkkəb feillərin bir qismi təsirli, bir qismi isə təsirsiz olur. Dilimizdə belə feillər olduqca çoxdur. Burada onlardan bir neçəsini verməklə kifayətlənəcəyik.

Çəkmək feili ilə düzələnlər:

a) Təsirlilər: dara çəkmək, suya çəkmək, zilə çəkmək, misal çəkmək və s. Məsələn: Zalımlar qoca kişini dara çəkdilər.

b) Təsirsizlər: kef çəkmək, ləzzət çəkmək, dərd çəkmək, qəm çəkmək, qüssə çəkmək, nəm çəkmək, qıy çəkmək, sədd çəkmək və s.

Məsələn: Nəsib dayı qəh-qəhə çəkdi.

Salmaq feili ilə düzələnlər:

a) Təsirlilər: başa salmaq, işə salmaq, ələ salmaq, dilə-ağıza salmaq, təxirə salmaq və s. Məsələn:

Saz tutub, söz qoşub yada sal məni.

b) Təsirsizlər: yuva salmaq, yurd salmaq, haray salmaq, ədavət salmaq, söhbət salmaq və s.

Tutmaq feili ilə düzələnlər:

a) Təsirlilər: dilə tutmaq, sorğu-suala tutmaq, atəşə tutmaq, uca tutmaq, nəzərdə tutmaq və s. Məsələn: Müəllim tələbələri sorğu-suala tutdu.

b) Təsirsizlər: üz tutmaq, baş tutmaq, xəbər tutmaq, qəzəbi tutmaq və s.

Vermək feili ilə düzələnlər:

a) Təsirlilər: xəbər vermək, təhvil vermək, yuxuya vermək, ələ vermək və s.

b) Təsirsizlər: əl vermək, fikir vermək, salam vermək, ürək vermək, cavab vermək, əmr vermək və s. Məsələn: Yusif atasına salam verdi və s.

Gətirmək feili ilə düzələnlər:

a) Təsirlilər: həvəsə gətirmək, yoloa gətirmək, bəhanə gətirmək, təngə gətirmək və s. Məsələn: Anası oğlunu yola gətirdi.

b) Təsirsizlər:

Üstün gəlmək, kələk gəlmək;
Çətin gəlmək, ağır gəlmək;
Dilə gəlmək, sözə gəlmək;
Gözə gəlmək, üzə gəlmək;
Cana gəlmək, yola gəlmək;
Sazişə gəlmək, dəhşətə gəlmək;
Özünə gəlmək, hərəkətə gəlmək və s.

Getmək feili ilə düzələnlər:

Ağlı getmək, ürəyi getmək;
Xəyala getmək, sükuta getmək və s.

Çıxmaq feili ilə düzələnlər:

Şərik çıxmaq, sadiq çıxmaq;
Yalan çıxmaq, xain çıxmaq;
Boşa çıxmaq, yoxa çıxmaq;
Səfərə çıxmaq, ova çıxmaq və s.

Düşmək feili ilə düzələnlər:

Işə düşmək, gözə düşmək;
Dava düşmək, dərdə düşmək;
Fikrə düşmək, yola düşmək;
Əl-ayağa düşmək, gözdən düşmək və s.

Faktlardan göründüyü kimi gəlmək-getmək, çıxmaq-düşmək antonim feillərinin əmələ gətirdiyi mürəkkəb feillərin və ya mürəkkəb quruluşlu feili birləşmələr demək olar ki, təsirsiz olur, onlar müstəqil obyekt, ismin təsirlik halında olan söz tələb etmir. Təsirli feillərlə düzələnlərdə isə vəziyyət başqadır.

Belə ki, təsirli feillərin köməyi ilə əmələ gələn bu cür söz və ya birləşmələrin bir qismi təsirli, bir qismi isə təsirsiz olur. Birləşmədə təsirli feillərin təsirsizliyə doğru inkişafı, demək olar ki, müşahidə olunmur.

Bütün bu deyilənləri nəzərə alıb, birləşmə daxilində öz müstəqilliyini itirən feillərlə əmələ gələn mürəkkəb feilləri və ya mürəkkəb quruluşlu feili birləşmələri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Təsirsiz feillərlə əmələ gələnlərdə təsirlik və təsirsizlik.

Müasir Azərbaycan dilində təsirsiz feillərlə əmələ gələn mürəkkəb feillər (ya mürəkkəb quruluşlu sabit feili birləşmələr), əsasən təsirsiz olur. Fikrimizi aydınlşadırmaq üçün gəlmək-getmək, çıxmaq-düşmək kimi təsirsiz feillərin köməyi ilə düzəlmiş sözlərə (və ya birləşmələrə) diqqət yetirmək kifayətdir.

Gəlmək feili ilə:

Xoşu gəlmək, kefi gəlmək;
Heyfi gəlmək, rəhmi gəlmək;
Yazığı gəlmək, qalib gəlmək və s.

Ümumiyyətlə, türkoloqların bir qrupu belə fikirdədir ki, guya feilin növləri onların qəbul etdikləri morfoloji əlamətə görə deyil, təsirlilik bildirməsinə əsasən bölünməlidir [4, s.130-138].

Həqiqətən də bu feilin iki kateqoriyası birbirinə çox yaxındır. Bu yaxınlıq, birinci növbədə, feilin təbiətdən, yəni onun subyekt və obyektlə olan münasibətindən irəli gəlir. Yuxarıda sadaladığımız dil faktlarından aydın oldu ki, eyni fonetik tərkibdə olan feillərin yardım ilə düzələn mürəkkəb feillərin bir qismi təsirli, bir qismi təsirsiz olur. Verilmiş misalları göstərdi ki, feillərdə təsirlidən təsirsizliyə doğru meyl, təsirsizlikdən təsirliliyə doğru meylə nisbətindən daha çoxdur.

Deməli, təsirli feillər düşdüyü şəraitdən, üslubi məqamdan, hansı sözə qoşulmasından və şəraitdən asılı olaraq, yeni-yeni məna çalarlıqları kəsb edir.

Dilimizdə göz qoymaq, nəzər salmaq, baş çəkmək, baş açmaq, od qoymaq, yekun vurmaq, şillə vurmaq və s. sözlərində yuxarıda göstərilən xüsusiyyətləri aydın şəkildə göstərmək olar.

Uşağa baxmaq
Uşağa göz qoymaq
Uşağı izləmək, yoxlamaq

Xəstənin yanına getmək
Xəstəyə baş çəkmək
Xəstəni yoxlamaq
Diktora qulaq asmaq – diktoru dinləmək.

Göründüyü kimi ismi təsirlik halda deyil, başqa hallarda idarə mürəkkəb sözün sinonimi olan sadə, düzəltmə və digər tipli mürəkkəb sözlər həmin mənada əşya bildirən sözü təsirlik halda idarə edir və təsirli feil kimi tanınır. Məsələn:

Qulaq asmaq-dinləmək;
Göz qoymaq-izləmək;
Baş çəkmək-yoxlamaq;
Baş vurmaq-öyrənmək;
Baş açmaq-anlamaq;
Divan tutmaq-əzmək və s.

Qeyd etmək lazımdır ki, düzəltmə və mürəkkəb feillərin obyektlə əlaqəsi sadə feillərdə olduğu kimidir.

Ali və orta məktəblərdə feil tədris olunarkən yuxarıda sadaladığın xüsusiyyətlər diqqət mərkəzində saxlanılmalıdır. Təsirli və təsirsizlik kateqoriyasının tədrisində bu kimi tövsiyələrin verilməsi tədrisin gedişinə müsbət təsir göstərmiş olar. Bu mənada məqalədə bütün xüsusiyyətlərə toxunmaqla yaxşı nəticələr əldə edəcəyimizə əminik.

Məqalə filologiya üzrə elmlər doktoru, professor Akif İmanlı tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 30.12.2021, son daxilolma – 13.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 200-208
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 200-208
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.200-208

UOT 517.2 + 372.851

Elementar həndəsədə ekstremal məsələlərinin həllində törəmənin tətbiqi

Müəllif:

Abdulla Həsənov
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
E-mail: hesen.1955@mail.ru

Gülər Əsədova
Naxçıvan Müəllimlər İnstitutu

Açar sözlər:
törəmə, ekstremal məsələ, elementar həndəsə, elementar riyaziyyat, maksimum, minimum

Annotasiya. Elementar həndəsədə ekstremal məsələlərin tədqiqində əsasən funksional metod tətbiq edilir. Bunun üçün əvvəlcə, sərbəst dəyişən (arqument) seçilir və həndəsi proses həmin arqumentdən asılı funksiya şəklində təsvir edilir. Sonra isə diferensial hesabının elementlərindən istifadə olu-nur. Belə ki, törəmənin köməyi ilə funksiyaların xassələri-sabitliyi, monotonluğu, onun ekstremal nöqtələri, ən böyük və ən kiçik qiymətləri araşdırılır. Demək olar ki, elementar riyaziyyata aid dərsliklərdə və dərs vəsaitlərində bu məsələlərə az diqqət yetirir. Ona görə də bu məqalədə ekstremal həndəsə məsələlərinin həlli törəmənin tətbiqi ilə nəzəri və praktik cəhətdən öyrənilmişdir. Məqalə elementar riyaziyyatla məşğul olan mütəxəssislər, müəllimlər, tələbələr, şagirdlər üçün əhəmiyyətlidir.

Application of derivative in solving extreme problems in elementary geometry

Author:

Abdulla Hasanov
Nakhchivan Teachers Institute
Doctor of philosophy in mathematics, associate professor
E-mail: hesen.1955@mail.ru

Gular Asadova
Nakhchivan Teachers Institute

Key word:
derivative, extremal problem, elementary geometry, elementary mathematics, maximum, minimum

Abstract. The functional method is mainly applied in the study of extreme problems in elementary geometry. For this, first, a free variable (argument) is selected and the geometric process is described as a function depending on that argument. Then the elements of the differential calculus are used. Thus, with the help of the derivative, the properties of functions - stability, monotony, its extreme points, largest and smallest values are investigated. It can be said that textbooks and textbooks on elementary mathematics pay little attention to these issues. Therefore, in this article, the solution of extreme geometry problems is studied theoretically and practically by applying the derivative. The article is important for specialists, teachers, students, students who are engaged in elementary mathematics.

Применение производной при решении задач на экстремумы в элементарной геометрии

Автор:

Абдулла Гасанов
Нахчыванский институт учителей
Доктор философии по математике, доцент
E-mail: hesen.1955@mail.ru

Гюлер Асадова
Нахчыванский институт учителей

Ключевые слова:
производная, экстремальная задача, элементарная геометрия, элементарная математика, максимум, минимум

Аннотация. При исследовании экстремумов в элементарной геометрии в основном применяется функциональный метод. Для этого сначала выбирается независимая переменная (аргумент) и описывается геометрический процесс в виде функции, зависящей от этого аргумента. Затем используются элементы дифференциального исчисления. Так, с помощью производной исследуются свойства функций - их постоянство, монотонность, точки ее экстремумов, наибольшие и наименьшие значения. Практически в учебниках и учебных пособиях по элементарной математике этим вопросам уделяется мало внимания. Поэтому в данной статье решение задач геометрии экстремумов изучалось в теоретическом и практическом аспектах с применением производной. Статья актуальна для специалистов, преподавателей, студентов и школьников, занимающихся элементарной математикой.

I. Giriş

Elementar riyaziyyatda həndəsəyə aid bir sıra məsələlər, o cümlədən tətbiq məsələləri qarşıya çıxır ki, burada həndəsi prosesi ifadə edən funksiyanın analtik təsviri və bu funksiyanın ən böyük və ya ən kiçik qiymətinin tapılması zərurəti yaranır. Belə ki, verilmiş məsələni həll etmək üçün müstəvi fiqurun perimetri, sahəsi və ya hər hansı fəza fiqurunun həcmi, səthinin sahəsi və s. kimi elementləri bu fiqurun hər hansı digər elementindən-tərəfin uzunluğundan, radiusdan, tərəflər arasındakı bucaqdan asılı funksiya kimi təsvir edilməlidir. Bundan sonra, məsələnin həllini sona çatdırmaq üçün bu funksiyanın ekstremumları törəmənin köməyi ilə araşdırılır.

Ekstremal həndəsə məsələlərinin həlli zamanı tələbə və şagirdlər çox vaxt məsələnin şərtinə əsasən qurulacaq funksiyanın analitik yazılışının tapılmasında çətinlik çəkirlər. Bunun da əsas səbəbi asılı olmayan dəyişənin (arqumentin) düzgün seçilməməsidir. Uyğun funksiyanın analitik ifadəsini elə təsvir etmək lazımdır ki, sərbəst dəyişən məsələdə tələb olunan prosesi ifadə etsin. Aydındır ki, qurulmuş funksiyanın arqumenti sonlu parçada dəyişəcəkdir. Belə ekstremal həndəsə məsələləri əsasən törəmənin tətbiqi ilə riyazi analizin metodlarından istifadə edilərək həll edilir.

Demək olar ki, riyazi analizin elementləri məktəb riyaziyyat kursunda əhəmiyyətli bir yer tutur. Riyazi analizin elementlərinin tədrisində şagirdlər riyaziyyat, fizika, texnikanın və digər sahələrin bir çox məsələlərinin həllində səmərəli istifadə edilə bilən riyazi aparata sahib olurlar. Riyazi analizin metodlarının tətbiqi elementar üsullarla həll edilməsi mümkün olmayan və ya çətin olan bir sıra məsələlərin həll edilməsinə imkan verir. Törəmə, həmçinin inteqralın tətbiqi ilə təbiətin bir çox qanunları elmi şəkildə formalaşdırılır. Belə ki, məktəb riyaziyyat kursunda diferensial və inteqralın köməyi ilə funksiyaların xassələri araşdırılır, onların qrafikləri qurulur, ən böyük və ən kiçik qiymətlərin tapılmasına aid məsələlər həll edilir, həndəsi fiqurların sahələri və həcmləri hesablanır, fiziki proseslərin riyazi modeli qurulur və tədqiq edilir.

Bir çox elementar məsələlər, o cümlədən olimpiada məsələləri (bərabərsizliklərin və bərabərliklərin isbatı, tənliklərin tədqiqi və həndəsə məsələlərinin həlli və s.) törəmə və inteqralın köməyi ilə səmərəli şəkildə araşdırılır. Bununla yanaşı, riyazi analiz elementlərindən məktəb riyaziyyatı məsələlərinin həllində istifadə edilməsi öyrənilən nəzəriyyənin əsas anlayışlarını daha dərindən mənimsəməyə imkan verir. Burada məsələnin həlli metodunu seçmək, onun tətbiq olunma şərtlərini yoxlamaq, əldə edilmiş nəticələri təhlil etmək lazım gəlir. Əslində, çox vaxt kiçik bir riyazi tədqiqat aparılır və bu tədqiqat prosesində məntiqi təfəkkür, riyazi qabiliyyət inkişaf edir, riyazi mədəniyyət artır.

Elementar riyaziyyatın bir çox məsələləri üçün həm "elementar", həm də törəmə və inteqralın tətbiqinə əsaslanan "qeyri-elementar" həll yolu vardır. Törəmə və inteqralın tətbiqi bir qayda olaraq daha səmərəli bir həll yolu müəyyən edir. Bu zaman yeni riyazi aparatın gücünü, gözəlliyini, ümumiliyini qiymətləndirmək imkanı yaranır.

Riyazi analiz metodlarından yalnız qarşıya qoyulmuş məsələlərin həlli üçün istifadə olunmur, həm də elementar riyaziyyatın yeni faktlarının əldə edilməsi mənbəyi kimi istifadə olunur.

Elementar riyazyyatın bir çox məsələləri kimi, ekstremal həndəsə məsələlərinin tədqiqində də diferensial hesabının elementlərindən istifadə olunur. Belə ki, həndəsi prosesi ifadə edən funksiyaların xassələri- monotonluğu, onun ekstremal nöqtələri, ən böyük və ən kiçik qiymətləri törəmənin köməyi ilə araşdırılır. Qeyd edək ki, ekstremal həndəsə məsələlərinin riyazi analizin metodları ilə tədqiqi həmişə səmərəli olmur. Bəzi hallarda "elementar" həll yolu daha səmərəli olur.

Məqalənin məqsədi. Elementar riyaziyyatın səviyyəsində bir çox həndəsə məsələlərinin həllində, müxtəlif düsturların çıxarılışında diferensial hesabının elementlərindən istifadə etmək zərurəti yaranır. Bu zaman tələbələr, şagirdlər, bəzi hallarda müəllimlər çətinlik çəkirlər və riyazi analizin metodlarının tətbiqi qaydalarını, yollarını dərk edə bilmirlər. Ümumiyyətlə, elementar riyaziyyata aid dərsliklər və dərs vəsaitləri bu məsələlərə az diqqət

yetirir. Bu məqalədə də ekstremal həndəsə məsələlərinin həlli törəmənin tətbiqi ilə nəzəri və praktik cəhətdən öyrənilmişdir. Məqalə elementar ruyaziyyatla məşğul olan mütəxəssislər, müəllimlər, tələbələr, şagirdlər üçün əhəmiyyətlidir.

II. Törəmənin köməyi ilə ekstremal həndəsə məsələlərinin araşdırılmasında diferensial hesabının istifadə edilən əsas elementləri

Törəmənin tətbiq ilə ekstremal həndəsə məsələlərini həll etmək üçün istifadə olunan anlayış və teoremləri dərindən mənimsəmək lazımdır. Ona görə də həmin anlayış və teoremlər haqqında qısa məlumat verilməsi zəruridir.

1. Funksiyanın sabitlik şərti

Teorem. Tutaq ki, $f(x)$ funksiyası $[a;b]$ parçasında təyin olunub və $(a;b)$ aralığında diferensiallanandır. $f(x)$ funksiyasının $(a;b)$ aralığında sabit olması üçün $f'(x)=0$ şərtinin ödənilməsi zəruri və kafidir.

Nəticə. $[a;b]$ parçasında təyin təyin olunan və kəsilməz $f(x)$ və $g(x)$ funksiyalarının $(a;b)$ aralığında sonlu törəmələri varsa və $f'(x)=g'(x)$ olarsa, onda $f(x)=g(x)+c$, $(c=const)$.

2. Funksiyanın monotonluq şərti

Funksiyanın artma və azalma aralıqları monoton funksiyalara verilən tərifə görə tapılır. Lakin törəmənin tətbiqi ilə funksiyanın monotonluq aralıqları daha asan təyin edilir.

Tərif. Əgər $f(x)$ funksiyasının təyin olunduğu a nöqtəsinin elə ətrafı varsa ki, bu ətrafdan götürülən istənilən x üçün $x<a$ olduqda $f(x)<f(a)$ və $x>a$ olduqda $f(x)>f(a)$ olarsa, funksiya a nöqtəsində artan, $x<a$ olduqda $f(x)>f(a)$ və $x>a$ olduqda $f(x)<f(a)$ olarsa, funksiya a nöqtəsində azalandır.

Törəmənin köməyi ilə funksiyanın monotonluq aralıqlarının tapılması aşağıdakı teoremlərə əsaslanır.

Teorem (nöqtədə monotonluğun zəruri şərti). Əgər $f(x)$ funksiyası $x=a$ nöqtəsində artan (azalan) və diferensiallanandırsa, onda $f'(a)\geq 0$ $(f'(a)\leq 0)$.

Teorem (nöqtədə monotonluğun kafi şərti). Əgər $f'(x)$ törəməsi $x=a$ nöqtəsində sonlu müsbət qiymət alırsa, onda $f(x)$ funksiyası bu nöqtənin müəyyən ətrafında artan, sonlu mənfi qiymət alırsa, azalandır.

Qeyd 1. Əgər $f'(a)=0$ olarsa, onda $x=a$ nöqtəsində funksiya ya artan, ya da azalan ola bilər.

Qeyd 2. Əgər funksiyanın $x=a$ nöqtəsində törəməsi olmazsa, onda bu nöqtədə funksiya ya artan, ya da azalan ola bilər.

Teorem (monotonluğun zəruri şərti). $[a;b]$ parçasında təyin olunmuş kəsilməz, $(a;b)$ aralığında diferensiallanan $f(x)$ funksiyası bu aralıqda: 1) artandırsa, onda $f'(x)\geq 0$; 2) azalandırsa, onda $f'(x)\leq 0$.

Teorem (parçada monotonluğun kafi şərti). $[a;b]$ parçasında təyin olunmuş kəsilməz, $(a;b)$ aralığında diferensiallanan $f(x)$ funksiyasının bu aralıqda törəməsi: 1) müsbətdirsə, yəni $f'(x)>0$ isə, onda $f(x)$ funksiyası $[a;b]$ parçasında artan; 2) mənfidirsə, yəni $f'(x)<0$ isə, onda $f(x)$ funksiyası $[a;b]$ parçasında azalandır.

Qeyd 3. Təyin oblastının aralıq əmələ gətirməyən nöqtələrində funksiyanın törəməsinin sıfra çevrildiyi və ya törməsinin olmadığı hallarda da teorem qüvvəsini saxlayır.

3. Funksiyanın artma və azalma aralıqlarının tapılması alqoritmi

Funksiyanın artma və azalma aralıqlarını tapmaq üçün aşağıdakı alqoritmidən istifadə etmək əlverişlidir: **1)** funkisyanın təyin oblastı tapılır; **2)** funkisyanın törəməsi tapılır; **3)** törəmənin sıfırları və törəmənin olmadığı nöqtələr müəyyən edilir, funksiyanın təyin oblastı həmin nöqtələrlə aralıqlara ayrılır, bu aralıqların hər birində funksiyanın törəməsi işarəsini

saxlayır; **4)** sınaq nöqtəsi götürməklə hər bir aralıqda törəmənin işarəsi müəyyən edilir; **5)** hansı aralıqda $f'(x)>0$ olarsa, həmin aralıqda funksiya artan, $f'(x)<0$ olarsa, azalandır.

Qeyd 1. Təyin oblastının törəmənin sıfra çevrildiyi aralıq əmələ gətirməyən nöqtələri, həmçinin funksiyanın kəsilməz olub, lakin törəməsinin olmadığı nöqtələri də monotonluq aralığına daxil edilir.

4. Funksiyanın ekstremumları, ƏBQ və ƏKQ.

Funksiyanın araşdırılmasında onun digər xassələri kimi, ekstremumlarının, ƏBQ-nin (ən böyük qiymətinin) və ƏKQ-nin (ən kiçik qiymətinin) tapılması mühüm əhəmiyyət kəsb edir.

Tutaq ki, $y=f(x)$ funksiyası $x=x_0$ nöqtəsinin $(x_0-\delta;x_0+\delta)$ ətrafında təyin olunmuşdur.

Tərif. x_0 nöqtəsinin $(x_0-\delta;x_0)\cup(x_0;x_0+\delta)$ təcrid olunmuş δ ətrafından götürülmüş istənilən x ədədi üçün $f(x)>f(x_0)$ olarsa, onda $x=x_0$ funksiyanın minimum nöqtəsi, $f(x_0)$ isə minimum qiyməti
adlanır.

Tərif. x_0 nöqtəsinin $(x_0-\delta;x_0)\cup(x_0;x_0+\delta)$ təcrid olunmuş δ ətrafından götürülmüş istənilən x ədədi üçün $f(x)<f(x_0)$ olarsa, onda $x=x_0$ funksiyanın maksimum nöqtəsi, $f(x_0)$ isə maksimum qiyməti adlanır.

Funksiyanın maksimum və minimum nöqtələri ekstremum nöqtələri, maksimum və minimum qiymətələri isə ekstremum qiymətləri adlanır.

Funksiyanın təyin oblastına daxil olan $[a;b]$ parçasında aldığı qiymətlərdən ən böyüyünə funksiyanın bu parçadakı *ƏBQ,* ən kiçiyinə ısə funksiyanın bu parçadakı *ƏKQ* deyilir.

$y=f(x)$ funksiyasının təyin oblastının $[a;b]$ parçasındakı ƏBQ və ƏKQ aşağıdakı ardıcıllıqla tapılır:

1) verilmiş parçada funksiyasının ekstremum nöqtələri tapılır; **2)** uyğun ekstremum qiymətləri hesablanır; **3)** parçanın uc nöqtələrində $f(a)$ və $f(b)$ hesablanır; **4)** funksiyanın maksimum, minimum, $f(a)$ və $f(b)$ qiymətlərindən ən böyüyü verilmiş funksiyasının $[a;b]$ parçasında ƏBQ, ən kiçiyi isə ƏKQ olur.

Funksiya $(a;b)$ intervalında təyin olunub monotondursa, onda bu funksiyanın ekstremumları, ƏBQ və ƏKQ yoxdur.

Funksiya $[a;b]$ parçasında təyin olunub monotondursa, onda bu funksiyanın ekstremumları yoxdur, ƏBQ və ƏKQ-ni isə uc nöqtələrdə alır.

Bəzi hallarda funksiyasının ƏBQ və ƏKQ onun ifadəsinə görə birbaşa da təyin edilə bilər.

5. Funksiyanın böhran və stasionar nöqtələri

Funksiyanın təyin oblastının bəzi daxili nöqtələrində funksianın törəməsi sıfra bərabər ola bilər, həmçinin bəzi nöqtələrdə törəmə olmaya da bilər.

Tərif. Təyin oblastının törəmənin sıfra çevrildiyi və törəmənin olmadığı daxili nöqtələri funksiyanın böhran (kritik) nöqtələri adlanır.

Törəmənin sıfra bərabər olduğu nöqtələr funksiyanın stasionar nöqtələri adlanır.

6. Ekstremumun zəruri və kafi şərti

Funksiyanın ekstremumunun zəruri şərti aşağıdakı teoremlə müəyyən edilir.

Teorem. Əgər $x=x_0$ nöqtəsi $f(x)$ funksiyasının ekstremumudursa, onda bu nöqtədə funksiyanın törəməsi ya sıfra çevrilir, ya da yoxdur.

Funksiyanın monotonluğunun araşdırılmasından belə nəticə çıxarmaq olar ki, funksiyanın ekstremum nöqtələri böhran nöqtələri içərisindən axtarılmalıdır. Hansı böhran (kritik) nöqtələrinin funksiyanın ekstremum nöqtələri olduğu aşağıdakı kafi şərtlərlə müəyyən edilir.

Teorem (birinci kafi şərt). Tutaq ki, $x=x_0$ nöqtəsində $f(x)$ funksiyası kəsilməzdir və funksiyanın böhran nöqtəsidir. Bu nöqtənin təcrid olunmuş kiçik δ ətrafında funksiya diferensiallanandır. Onda aşağıdakı hallar mümkündür.

1. $x < x_0$ olduqda $f'(x) < 0$ və $x > x_0$ olduqda $f'(x) > 0$, yəni $f'(x)$ törəməsi $x = x_0$ nöqtəsindən keçdikdə işarəsini mənfidən müsbətə dəyişərsə, onda funksiya $x = x_0$ nöqtəsində minimum qiymət alır.

2. $x < x_0$ olduqda $f'(x) > 0$ və $x > x_0$ olduqda $f'(x) < 0$, yəni $f'(x)$ törəməsi $x = x_0$ nöqtəsindən keçdikdə işarəsini müsbətdən mənfiyə dəyişərsə, onda funksiya $x = x_0$ nöqtəsində maksimum qiymət alır.

3. $x < x_0$ olduqda $f'(x) < 0$ (və ya $f'(x) > 0$) və $x > x_0$ olduqda $f'(x) < 0$ (və ya $f'(x) > 0$) olarsa, yəni x_0 nöqtəsindən keçdikdən sonra işarəsini dəyişmirsə, onda $x = x_0$ nöqtəsində ekstremum yoxdur.

Teorem (ikinci kafi şərt). Tutaq ki, $x = x_0$ nöqtəsində funksiyasının birinci tərtib törəməsi $f'(x_0) = 0$. Əgər funksiyanın ikinci tərtib törəməsi $f''(x_0) < 0$ olarsa, onda $x = x_0$ nöqtəsində funksiya maksimum, $f''(x_0) > 0$ olarsa, onda $x = x_0$ nöqtəsində funksiya minimum qiymət alır.

7. Ekstremumun tapılması alqoritmi

Yuxarıda söylənilən kafi şərtə uyğun olaraq verilmiş $f(x)$ funksiyasının maksimum və minimum nöqtələri aşağıdakı ardıcıllıqla tapılır:

1) funksiyanın təyin oblastı müəyyən edilir;
2) $f'(x)$ törəməsi tapılır;
3) böhran nöqtələri (törəmənin sıfır olduğu və olmadığı nöqtələr) tapılır;
4) böhran nöqtələri funksiyanın təyin oblastını bir neçə aralığa bölür ki, həmin aralıqlarda funksiyanın işarə sabitliyi aralıqlarının tapılması qaydası ilə $f'(x)$ törəməsinin işarəsi təyin edilir;
5) böhran nöqtələrindən keçdikdə $f'(x)$ törəməsinin işarəsinin necə dəyişməsi müəyyən edilir;
6) kafi şərtlərə görə ekstremum nöqtələri müəyyən edilir.

III. Törəmənin tətbiqi ilə bəzi ekstremal həndəsə məsələlərinin həlli

Məsələ 1. Bərabəryanlı üçbucaq *R* radiuslu dairənin daxilinə çəkilmişdir. Yan tərəfə endirilən hündürlüyün ən böyük qiymətini tapın.

Həlli. *OA=OB=OC=R*, *AB=BC*, *AH=h* və aydındır ki, dairənin mərkəzi *B* təpəsindən endirilən hündürlüyün üzərində yerləşir (şəkil 1).

Məsələnin şərtinə uyğun olaraq *ABC* bərabəryanlı üçbucağının hündürlüyünü dairənin radiusundan və üçbucağın təpə bucağından asılılığını tapaq.



Şəkil 1.



Şəkil 2.

$\angle ABC=\alpha$ işarə edək. Onda $\angle ABH=180^0-\alpha$. $\Delta AHB-$dən

$$h=AB\sin(180^0-\alpha)=AB\sin\alpha.$$

ΔAOB-də $\angle ABO=\angle BAO=\frac{\alpha}{2}\Rightarrow\angle AOB=180^0-\alpha$. Kosinuslar teoreminə görə

$$AB^2=AO^2+BO^2-2AO\cdot BO\cos(180^0-\alpha)=2R^2(1+\cos\alpha)\Rightarrow AB=R\sqrt{2(1+\cos\alpha)}.$$

AB-nin ifadəsini *h*-ın ifadəsində nəzərə alsaq,

$$h(\alpha)=R\sqrt{2(1+\cos\alpha)}\sin\alpha.$$

$\cos\alpha=x$ işarə etsək, $h(x)=R\sqrt{2(1+x)}\sqrt{1-x^2}$ funksiyasını alarıq. $x\in[-1;1]$.

Funksiya $[-1;1]$ parçasında təyin olunub. Beləliklə, baxılan məsələnin həlli $[-1;1]$ parçasında

$$h(x)=R\sqrt{2(1+x)}\sqrt{1-x^2}$$

funksiyasının ƏBQ-nin tapıimasına gətirilir. Bunun üçün funksiyanın $[-1;1]$ parçasında uc nöqtələrdəki qiymətini və böhran nöqtələrini tapaq.

$$h(-1)=R\sqrt{2(1-1)}\sqrt{1-1}=0,\ h(1)=R\sqrt{2(1+1)}\sqrt{1-1}=0.$$

$$h'(x)=\left(R\sqrt{2(1+x)}\cdot\sqrt{1-x^2}\right)'=R\left[\frac{\sqrt{1-x^2}}{\sqrt{2(1+x)}}+\sqrt{2(1+x)}\cdot\frac{-x}{\sqrt{1-x^2}}\right].$$

$$R\left[\frac{\sqrt{1-x^2}}{\sqrt{2(1+x)}}+\sqrt{2(1+x)}\cdot\frac{-x}{\sqrt{1-x^2}}\right]=0\Rightarrow 3x^2+2x-1=0\Rightarrow x_1=\frac{1}{3},x_2=-1.$$

$x_2=-1$ nöqtəsi uc nöqtə olduğuna görə böhran nöqtəsi deyil. $x=\frac{1}{3}$ böhran nöqtəsidir. Bu nöqtə $[-1;1]$ parçasını $\left(-1;\frac{1}{3}\right)$ və $\left(\frac{1}{3};1\right)$ aralıqlarına ayırır. Bu aralıqlardan sınaq nöqtəsi götürüb yoxlamaqla müəyyən eilir ki, $\left(-1;\frac{1}{3}\right)$ aralığında $S'(x)>0$, $\left(\frac{1}{3};1\right)$ aralığında isə $S'(x)<0$. Yəni $x=\frac{1}{3}$ funksiyanın maksimum nöqtəsidir.

$h(x)=R\sqrt{2(1+x)}\sqrt{1-x^2}$ funksiyasının uc nöqtələrdəki qiymətlərini və maksimum qiymətini müqayisə etsək, funksiyanın ƏBQ-i $h\left(\frac{1}{3}\right)=\frac{8\sqrt{3}R}{9}$ olur.

Məsələ 2. Düz dairəvi konusun doğranı oturacaq müstəvisi ilə *x* bucağını əmələ gətirir və uzunluğu *l*-dir. *x*-in hansı qiymətində konusun həcmi ən böyük olar?

Həlli. *AM=l*, $\angle MAO=x$ (şəkil 2). Məsələnin şərtinə görə $0<x<\frac{\pi}{2}$.

Məsələnin şərtinə görə konusun *V* həcminin ən böyük qiymətini tapmaq üçün onu *x*-dən asılı funksiya ilə təsvir edək.

Məlum düstura görə:

$$V=\frac{1}{3}\pi r^2h.$$

Burada *r=AO* konusun oturacağının radiusu, *h=MO* konusun hündürlüyüdür.

Konusun radiusunu və hündürlüyünü *x*-dən asılı tapaq. *AOM* düzbucaqlı üçbucağından:

$$r=AM\cdot\cos x=l\cos x,\ h=l\sin x.$$

r və *h*-ın bu ifadələrini nəzərə alsaq, konusun həcminin *x*-arqumentindən asılılığı

$$V=\frac{1}{3}\pi l^3\cos^2 x\sin x$$

şəklində olar. Bu funksiyanın ekstremumlarını tapaq.

$$V' = \frac{1}{3}\pi l^3\left(\cos^2 x \sin x\right)' = \frac{1}{3}\pi l^3\left(-2\cos x \sin^2 x + \cos^3 x\right),$$

$$-2\cos x \sin^2 x + \cos^3 x = 0 \Rightarrow \cos x(\cos^2 x - 2\sin^2 x) = 0 \Rightarrow$$

$$\begin{cases} \cos x = 0, \\ \cos^2 x - 2\sin^2 x = 0 \end{cases} \Rightarrow \begin{cases} x = \frac{\pi}{2}, \\ \sin^2 x(ctg^2 x - 2) = 0 \end{cases} \Rightarrow \begin{cases} x = \frac{\pi}{2}, \\ x = \pm arcctg\sqrt{2}. \end{cases}$$

$x = \frac{\pi}{2}$ və $arcctgx = -\sqrt{2}$ halları məsələnin şərtini ödəmir. Ona görə də onları nəzərdən atırıq. Deməli $V(x)$ funksiyasının ekstremum nöqtəsi $x = arcctg\sqrt{2}$.

$\left(0; arcctg\sqrt{2}\right)$ aralığında $V' > 0$, $\left(arcctg\sqrt{2}; \frac{\pi}{2}\right)$ aralığında $V' < 0$ olduğundan $x = arcctg\sqrt{2}$ maksimum nöqtəsidir və $V(x)$ funksiyası bu nöqtədə ən böyük qiymətini alır.

Məsələ 3. Həcmi V olan silindr verilmişdir. Onun hündürlüyü və radiusunun hansı qiymətində ox kəsiyinin perimetri ən kiçik qiymət alar?

Həlli. Silindrin hündürlüyünü h, radiusunu r ilə işarə edək. Silindrin ox kəsiyi tərəfinin uzunluğu h və $2r$ olan düzbucaqlıdır. Ona görə də ox kəsiyinin perimetri

$$P = 4r + 2h.$$

Silindrin həcmi isə

$$V = \pi r^2 h.$$

Buradan

$$h = \frac{V}{\pi r^2}.$$

h-ın bu ifadəsini ox ox kəsiyinin perimetrinin ifadəsində nəzərə alsaq, məsələnin şərtini ifadə edən funksiya alarıq:

$$P(r) = 4r + \frac{2V}{\pi r^2}.$$

Bu funksiyanın ekstremumlarını tapaq.

$$P'(r) = \left(4r + \frac{2V}{\pi r^2}\right)' = 4 - \frac{4V}{\pi r^3}.$$

$$4 - \frac{4V}{\pi r^3} = 0 \Rightarrow \pi r^3 = V \Rightarrow r = \sqrt[3]{\frac{V}{\pi}}.$$

r-in ifadəsini h-ın ifadəsində nəzərə alsaq, $h = r = \sqrt[3]{\frac{V}{\pi}}$ alarıq.

$r = \sqrt[3]{\frac{V}{\pi}}$ böhran nöqtəsidir. $0 < r < \sqrt[3]{\frac{V}{\pi}}$ olduqda $P'(r) = 2 - \frac{2V}{\pi r^3} < 0$ və $r > \sqrt[3]{\frac{V}{\pi}}$ olduqda $P'(r) = 2 - \frac{2V}{\pi r^3} > 0$ olur. Deməli, $r = \sqrt[3]{\frac{V}{\pi}}$ böhran nöqtəsi minimum nöqtəsidir.

Beləliklə, $h = r = \sqrt[3]{\frac{V}{\pi}}$.

Məsələ 4. Perimetri 1 olan düzbucaqlı üçbucaqlardan sahəsi ən böyük olanını tapın.

Həlli. Məsələnin şərtindən aydındır ki, düzbucaqlı üçbucağın perimetri sabitdir. Perimetri sabit saxlayıb katetləri və hipotenuzu dəyişməklə müxtəlif sahəli üçbucaqlar alınır. Ona görə də sərbəst dəyişəni müəyyən edib sahəni həmin dəyişəndən asılı ifadə etmək lazımdır.

Düzbucaqlı üçbucağın katetlərini x və y ilə işarə edək. Onda hipotenuz $1 - x - y$ olar. Pifaqor teoreminə görə

$$x^2 + y^2 = (1 - x - y)^2.$$

Buradan

$$x^2+y^2=x^2+y^2-2x-2y+2xy+1\Rightarrow 2y(1-x)=1-2x\Rightarrow y=\frac{1}{2}\cdot\frac{2x-1}{x-1}.$$

Məsələnin şərtinə görə $x\in\left(0;\frac{1}{2}\right)$.

Düzbucaqlı üçbucağın sahəsi $S=\frac{1}{2}\cdot xy$. y-in x-dən asılı ifadəsini nəzərə alsaq,

$$S(x)=\frac{1}{4}\cdot\frac{x(2x-1)}{x-1}.$$

Törəmədən istifadə edərək $S(x)$ funksiyasının ən böyük qiymətini tapaq.

$$S'(x)=\frac{1}{4}\cdot\frac{2x^2-4x+1}{(x-1)^2}.$$

$$\frac{1}{4}\cdot\frac{2x^2-4x+1}{(x-1)^2}=0\Rightarrow 2x^2-4x+1=0$$

Bu tənliyin həlli $x_1=1-\frac{\sqrt{2}}{2}, x_2=1+\frac{\sqrt{2}}{2}$. Şərtə görə $x<\frac{1}{2}$ olmalıdır. Ona görə də $x_2=1+\frac{\sqrt{2}}{2}$ kökünü nəzərdən atırıq. Yəni böhran nöqtəsi $x=1-\frac{\sqrt{2}}{2}$.

Sınaq nöqtəsi ilə yoxladıqdan sonra $x\in\left(0;1-\frac{\sqrt{2}}{2}\right)$ aralığında $S'(x)>0$, $x\in\left(1-\frac{\sqrt{2}}{2};\frac{1}{2}\right)$ aralığında $S'(x)<0$. Deməli, $x=1-\frac{\sqrt{2}}{2}$ maksimum nöqtəsi olmaqla yanaşı, həm də bu nöqtədə funksiya $\left[0;\frac{1}{2}\right]$ parçasında ƏBQ-ni alır: $\max\limits_{x\in(0;0,5)} S\left(1-\frac{\sqrt{2}}{2}\right)=\frac{3-2\sqrt{2}}{4}$.

Bu məsələ törəmənin tətbiqi ilə həll edilmişdir. Bu məsələnin elementar həll yolu daha sadədir.

Məsələnin elementar həlli. Düzbucaqlı üçbucağın sahəsi $S=\frac{1}{2}\cdot xy$. Məlum bərabərsizliyə görə:

$$\sqrt{xy}\le\frac{x+y}{2}\Rightarrow xy\le\left(\frac{x+y}{2}\right)^2.$$

Burada bərabərlik işarəsi $x=y$ olduqda mümkündür. Deməli, perimetri sabit olan düzbucaqlı üçbucaqlardan sahəsi ən böyük olan katetləri bərabər olandır. Bu halda hipotenuz (1-2x)-ə bərabər olur:

$$x^2+x^2=(1-2x)^2\Rightarrow 2x^2=1-4x+4x^2\Rightarrow 2x^2-4x+1=0\Rightarrow x=1-\frac{\sqrt{2}}{2}.$$

$$S=\frac{1}{2}\cdot x^2=\frac{3-2\sqrt{2}}{4}.$$

Nəticə

1. Ekstremal həndəsə məsələlərinin həllində riyazi analizin metodlarından istifadə elementar həndəsə fənni ilə cəbr və riyazi analizin başlanğıcı fənləri arasında əlaqə yaradır.

2. Həll edilən məsələlərdən həndəsə və cəbr dərslərində, optimallaşdırma məsələlərinin tədqiqində istifadə etmək olar.

3. Ekstremal həndəsə məsələlərinin həllində diferensial hesabının elementlərindən istifadə həmişə səmərəli olmur. Bəzən elementar həll üsulu daha səmərəli olur.

Ədəbiyyat

1. Həsənov A.İ., Elementar riyaziyyat, dərslik, – Bakı: – 2021. – 463s.
2. Həsənov A.İ., Riyaziyyat III hissə, dərs vəsaiti, – Naxçıvan: – 2015. – 269s.
3. Həsənov A.İ., Tənliklərin həllində törəmənin tətbiqi. // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi Əsərləri, – 2005, № 1, – s.35.
4. Məmmədov Y.Y., Həsənov A.İ., Törəmənin tətbiqi ilə bəzi tənliklərinin həlli üsulları, // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi Əsərləri, – 2019, № 1.
5. Həsənov A.İ., Törəmənin tətbiqi ilə bərabərsizliklərin həlli üsulları. // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi Əsərləri, – 2020, № 1.
6. Həsənov A.İ., Eyniliklərin isbatında törəmənin tətbiqi. // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi Əsərləri, – 2021, № 1.

Məqalə riyaziyyat üzrə elmlər doktoru, dosent Yaqub Məmmədov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 19.01.2022, son daxilolma – 14.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 209-212
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 209-212
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.209-212

UOT 517.2

Tətbiqi riyaziyyatın bir məsələsi haqqında

Müəllif:

Azad Məmmədli
AMEA Naxçıvan Bölməsi
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
E-mail: azad_mammadli@yahoo.com

Açar sözlər:
Yer kürəsi, ekvator dairəsi, düzbucaqlı üçbucaq, radius, toxunan, Teylor sırası

Annotasiya. Məqalədə tətbiqi riyaziyyatın maraqlı bir məsələsinə baxılır: şərti olaraq ideal kürə kimi qəbul edilən Yerin ekvator dairəsi boyunca gərilmiş ipin yalnız 1 sm uzadılması nəticəsində onun Yerdən hansı məsafədə aralanması qiymətləndirilir. Hesablamalar göstərir ki, iplə Yer arasında 5 metrdən çox boşluq yaranır. Baxılan məsələnin gerçək aləmlə əlaqəsi olmasa da, aşkar edilən fakt mif deyildir, reallıqdır və özlüyündə böyük maraq doğurur. Məqalədə göstərilir ki, düzbucaqlı üçbucağın tərəflərindən ikisinin uzunluğu üçüncü tərəflə müqayisədə çox böyük, onlar arasındakı bucaq (α) kifayət qədər kiçik olduqda, Pifaqor teoremindən istifadə etmək məsələnin həllini çətinləşdirir. Bu halda sinα, cosα və tagα-nın Teylor sırasına ayrılışındakı ilk 2-3 həddin götürülməsi həlli xeyli asanlaşdırır və nəticə yüksək dəqiqliklə alınır.

About a problem in applied mathematics

Author:

Azad Mammadli
Nakhchivan Branch of ANAS
Doctor of philosophy in mathematics, associate professor
E-mail: azad_mammadli@yahoo.com

Key words:
the globe, equatorial circle, right-angled triangle, radius, tangent, Taylor series

Abstract. The article deals with one interesting problem of applied mathematics about how high a rope can be raised from the Earth, stretched along the Earth's equatorial circle, which is conditionally considered an ideal ball and subsequently lengthened by only 1 cm. Calculations show that, more than 5 metre gap is obtained between the rope and the Earth. Although the problem being under consideration has nothing to do with the real world, the revealed fact is not a myth, it is a reality that is of great interest in itself. In the article it is stated that, the use of the Pythagorean theorem makes it difficult to solve the problem in case when the length of two sides of a right-angled triangle are very large compared with the third side and the angle (α) between them is rather small. In this case, taking the first 2-3 terms of the expansions of sinα, cosα and tagα in the Taylor series greatly simplifies the solution and the result is obtained with high accuracy.

Об одной задаче прикладной математики

Автор:

Азад Мамедли
Нахчыванское отделение НАНА
Доктор философии по математике, доцент
E-mail: azad_mammadli@yahoo.com

Ключевые слова:
Земной шар, экваториальная окружность, прямоугольный треугольник, радиус, касательная, ряд Тейлора

Аннотация. В статье рассматривается одна интересная задача прикладной математики о том, на какую высоту от Земли может быть поднята веревка, протянутая вдоль экватора Земли, которая условно считается идеальном шаром, впоследствии ее удлинения всего на 1 см. Расчеты показывают, что между веревкой и Землей получается зазор более чем на 5 метров. Хотя рассматриваемая задача не имеет ничего общего с реальным миром, выявленный факт не является мифом, это реальность, которая сама по себе представляет большой интерес. В статье показано, что использование теоремы Пифагора затрудняет решение задачи, когда длины двух сторон прямоугольного треугольника очень большие по сравнению с третьей стороной, а угол (α) между ними довольно мал. В этом случае взятие первых 2-3 членов разложений sinα, cosα и tagα в ряды Тейлора значительно упрощает решение и результат получается с высокой точностью.

Belə bir məsələnin həllinə baxaq. Fərz edək ki, Yer kürəsi böyülükdə ideal bir kürənin ətrafına onun böyük dairəsi boyunca gərilmiş ip bağlanmışdır. İlkin vəziyyətdə uzunluğu ekvator xəttinin uzunluğu ilə üst-üstə düşən bu ipi cəmi 1sm uzatsaq, ipin altından adam keçə bilərmi?

Bu faktın doğru olub-olmadığını müzakirə etmək üçün mühakimənin necə aparılmasına və hesablamaların necə yerinə yetirilməsinə baxaq. Məsələnin, kalkulyatordan istifadə etmədən, əvvəlcə sırf riyazi üsulla həllinə çalışaq. Şərtləşək ki, Yer məlum radiuslu ideal kürədir. Sonra ipi, şəkil 1-də göstərildiyi kimi, mərkəzi Yerin O mərkəzi ilə üst-üstə düşən ekvator dairəsi boyunca dartaraq uzadıb C nöqtəsinə gətiririk. İpin çox az uzanması nəticəsində hansı səbəbdən kifayət qədər böyük h hündürlüyünün (h=CD) ortaya çıxmasını aydınlaşdıraq. İp əvvəlcə CB toxunanı üzrə, sonra A nöqtəsinədək dairə boyunca, daha sonra yenə də AC toxunanı boyunca gedərək C nöqtəsinə qayıdır və o, şəkil 1-dəki vəziyyətini alır. Deməli, ipin ilkin vəziyyəti ilə yeni vəziyyəti arasındakı fərq onun AB kiçik qövsündə yerləşən hissəsində ortaya çıxır. Bizə lazımdır ki, ipin AC və CB hissələrinin uzunluqları cəmi AB qövsünün uzunluğundan 1sm böyük olsun. Şəkil 1-dəki kiçik üçbucaqlar simmetrik olduğundan ipi 1sm uzatmaqla BC toxunanına 0,5 sm əlavə etmiş oluruq, başqa sözlə, BC parçasının uzunluğu BD qövsünün uzunluğundan 0,5 sm çox olur.



Şək. 1.



Şək. 2.

Bu halda C nöqtəsini hansı h hündürlüyünə qaldırmaq lazım gəldiyini araşdıraq. Bunun üçün şəkil 1-dəki OBC düzbucaqlı üçbucağını (BC tərəfi toxunan olduğundan OBC düzbucaqdır) böyüdülmüş formada şəkil 2-dəki kimi təsvir edək. Bu üçbucaqda OB=R kateti Yerin radiusudur, OC tərəfi R radiusu ilə adamın keçə biləcəyi h hündürlüyünün cəminə bərabərdir: OC=R+h. OB və OC tərəfləri arasındakı bucağı α ilə işarə etsək, onda şəkil 1-dəki BD qövsünün uzunluğu αR-ə bərabər olar. İpi C nöqtəsinə dartarkən əlavə olunan uzunluğu 2l ilə işarə edək. Onda ipin ilkin uzunluğuna BC və AC toxunanlarının hər birində, şəkil 1-də göstərildiyi kimi, l uzunluğu əlavə olunacaqdır. Deməli, l kəmiyyəti BC toxunanının uzunluğunun BD qövsündən nə qədər böyük olduğunu göstərir. Bu halda düzbucaqlı üçbucağın BC katetinin uzunluğu $\alpha R+l$ olacaqdır: BC= $\alpha R+l$ (şəkil 2).

İndi bizə α, h, R və l kəmiyyətləri arasındakı əlaqəni tapmaq lazımdır. Burada α bucağı bizi o qədər də maraqlandırmır, əsas məsələ odur ki, R və l-in qiymətlərini bildiyimiz halda h-ın qiymətini tapaq. Biz Yerin radiusunun uzunluğunu (R=6400 km), hər tərəfdən parçanın uzunluğunun nə qədər böyüdüldüyünü (l=0,5 sm) bilirik və h-ın hansı böyük qiymət alacağını bilmək istəyirik.

Məsələni Pifaqor teoreminin köməyi ilə həll etmək əlverişsizdir, belə ki, üçbucağın iki tərəfi üçüncü tərəflə müqayisədə çox böyük, bu tərəflər arasındakı α bucağı isə radianla ifadə olunmuş kifayət qədər kiçik bucaq olduğundan hesablamalarda dolaşıqlıq yarana bilər.

Şəkil 2-dən

$$\cos\alpha = \frac{R}{R+h} = \frac{R+h-h}{R+h} = 1-\frac{h}{R+h} \qquad (1)$$

yaza bilərik. Çox kiçik α bucağı üçün

$$\cos\alpha \approx 1-\frac{\alpha^2}{2} \qquad (2)$$

təqribi bərabərliyi yüksək dəqiqliklə ödənilir. Doğrudan da, olduqca kiçik α bucağı üçün yüksək dəqiqliklə ödənilən $\sin\alpha \approx \alpha$, və deməli $\sin\frac{\alpha}{2} \approx \frac{\alpha}{2}$ təqribi bərabərliklərindən istifadə etməklə, $\cos\alpha = 1-2\sin^2\frac{\alpha}{2}$ çevrilmə düsturundan (2) bərabərliyini alırıq. $\cos\alpha$ kəmiyyətini Teylor sırasına ayırmaqla və ayrılışdakı ilk iki həddi saxlayıb, qalan digər sonsuz kiçilən hədləri atmaqla da (2) münasibətini almaq olar.

(1) və (2) bərabərliklərini müqayisə edərək

$$\frac{\alpha^2}{2} \approx \frac{h}{R+h}$$

tapırıq. Burada h Yerin R radiusu ilə müqayisədə çox kiçik kəmiyyət olduğundan, $R+h$ cəmini R ilə əvəz edə bilərik. Onda, α üçün

$$\alpha^2 \approx \frac{2h}{R} \qquad (3) \text{ ifadəsini alırıq.}$$

OBC düzbucaqlı üçbucağından həm də

$$\tan\alpha \approx \frac{\alpha R+l}{R} = \alpha+\frac{l}{R}$$

(4) yaza bilərik. Digər tərəfdən α bucağı çox kiçik olduğundan, $\tan\alpha$-nın Teylor sırasına ayrılışındakı ilk iki həddi götürməklə, yüksək dəqiqliklə ödənilən

$$\tan\alpha \approx \alpha+\frac{\alpha^3}{3}$$

(5) münasibətini alırıq. (4) və (5) bərabərliklərinin müqayisəsindən

$$\alpha^3 \approx \frac{3l}{R} \qquad (6) \text{ tapırıq.}$$

Beləliklə biz α üçün bir tərəfdən (3), digər tərəfdən isə (6) ifadəsini almış oluruq. α bucağını aradan çıxarmaq üçün bu bərabərliklərdən birincisinin hər tərəfini kuba, ikincisinin hər tərəfini isə kvadrata yüksəldək. Alınmış bərabərlikləri müqayisə etdikdə aşağıdakı nəticəyə gəlirik:

$$\frac{8h^3}{R^3} \approx \frac{9l^2}{R^2} \ .$$

Buradan h üçün

$$h \approx \sqrt[3]{\frac{9}{8}Rl^2}$$

(7) alırıq. Bu düsturda $R = 6,4\cdot10^6$ m, $l = 0,5$ sm qiymətlərini nəzərə alsaq,

$$h \approx \sqrt[3]{\frac{9}{8}\left(0,5\cdot10^{-2}m\right)^2\cdot6,4\cdot10^6 m} = \sqrt[3]{\frac{9}{8}\cdot\frac{1}{4}\cdot6,4\cdot100m} = \sqrt[3]{180}m$$

taparıq. h üçün aldığımız bu qiymət adamın boyundan da xeyli çoxdur. Belə ki, 125<180<216 yaxud $5^3 < 180 < 6^3$ olduğundan, $\sqrt[3]{180} \approx 5,6$, yəni $h = 5,6m$ alırıq. Bu məsafədə nəinki adam, hətta ən böyük fil də keçə bilər. Kalkulyator vasitəsi ilə kobud hesablamalar aparmaqla da bu faktın doğruluğuna inanmaq olar.

Beləliklə biz müəyyən etdik ki, ipi cəmi 1sm uzatmaqla onunla Yer arasında 5 metrdən artıq bir boşluq yaranır.

İndi də aldığımız faktın doğruluğunu təsdiq etmək üçün məsələnin tərsini həll edək.

h=5 m qəbul edək. Yuxarıda göstərildiyi kimi, $R = 6,4\cdot10^6$ metrdir. Onda, şək. 2-dən

$$\alpha = \arccos\frac{R}{R+h} = \arccos\frac{6400000}{6400005}$$

yaza bilərik. Kalkulyator vasitəsi ilə hesablama göstərir ki, α çox kiçik kəmiyyətdir. Şəkil 2-dən $R\cdot\tan\alpha = \alpha R + l$, buradan da $l = R\cdot(\tan\alpha - \alpha)$ alırıq. Sonuncu bərabərlikdə α-nin tapılmış qiymətini və *R*-in qiymətini nəzərə alıb, kalkulyatorun köməyi ilə ipin C nöqtəsindən bir tərəfdəki *l* uzantısı üçün

$l \approx 0,004$ m, yaxud $l \approx 4$ mm qiymətini tapırıq. Deməli, məlum olur ki, ipi 5m hündürlüyə qaldırmaq üçün onu $2l \approx 8$ mm, yəni təxminən 1sm-dək uzatmaq lazımdır.

Biz ipin altından adamın keçə bilməsi üçün onu nə qədər uzatmaq lazım gəldiyini də qiymətləndirə bilərik. Bunun üçün ən hündür adamın da keçə biləcəyi *h*=2m qiymətini götürək . *h*-ın və r-in qiymətlərini

$$h^3 \approx \frac{9}{8}Rl^2$$

düsturunda nəzərə alaq ((7)düsturuna bax). Onda

$$8 \approx \frac{9}{8}l^2\cdot 6400000,$$

$$l^2 \approx \frac{8}{9}\cdot\frac{8}{64\cdot 10^5} \approx 10^{-6},$$

buradan da $l \approx 10^{-3}\,m = 1mm$ tapırıq. Deməli, hər tərəfdən 1 mm, bütövlükdə isə yalnız 2 mm Yer ətrafına çəkilmiş ipi böyütmək kifayətdir ki, onun qaldırıldığı məsafə adamın keçə biləcəyi həddə olsun.

Yekunda qeyd edək ki, aldığımız fakt hansısa bir mif deyildir, məsələnin həllindən alınan gerçək nəticədir. Məlumdur ki, bu məsələnin həyatda praktik olaraq reallaşması mümkün deyildir. Bununla belə aşkar edilən fakt özlüyündə maraq doğurur.

Ədəbiyyat

1. Иванова С.В. Формула Тейлора и ее приложения к вычислению пределов функции. Учебно-методическое пособие. – М.: МФТИ. – 2011. – 66 с.
2. Куликовский П.Г. Справочник любителя астрономии. – М.: УРСС. – 2002. – 687 с.

Məqalə riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Elşad Ağayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 18.01.2022, son daxilolma – 14.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 213-216
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 213-216
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.213-216

UOT 512.64

Vahid çevrə ilə vahid hiperbola nöqtələri arasında qarşılıqlı əlaqə

Müəllif:

Elman Mahmudov
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
E-mail:
elmanmahmudov@gmail.com

Açar sözlər:
vahid çevrə, vahid hiperbola, hiperbola asimptotları

Annotasiya. Məqalədə məqsəd vahid çevrə ilə vahid hiperbola nöqtələri arasında qarşılıqlı əlaqənin olmasını göstərməkdir. Bu məqsədlə əvvəlcə vahid çevrə və vahid hiperbola anlayışları verilmişdir. Sonra onların həndəsi olaraq birgəliyi göstərilmişdir. Bu deyilənlər vasitəsi ilə vahid çevrə nöqtələri ilə vahid hiperbola nöqtələri arasında əlaqə yaradılır. Bu zaman müəyyən olunur ki, vahid çevrənin $\varphi=90^{o}$ yə uyğun nöqtəsi (nöqtəsi) vahid hiperbolanın sonsuz uzaqlaşmış nöqtəsinə uyğun olur. Beləliklə, vahid çevrə nöqtələri ilə vahid hiperbola nöqtələri arasında qarşılıqlı əlaqə müəyyən olur. Onu da qeyd edək ki, alınmış əlaqə kompleks kəmiyyət müstəvisi üzərində alınmışdır.

Interrelation between common circle and common hyperbola points

Author:

Elman Mahmudov
Doctor of philosophy in mathematics, associate professor
E-mail:
elmanmahmudov@gmail.com

Key word:
common circle, common hyperbola, hyperbola asimptots

Abstract. The object of article is to present interrelation between common circle and common hyperbola points. For this purpose notions of common circle and common hyperbola were stated first. Then their mutuality from geometric point of view was given. By means of so called relation between common circle and common hyperbola points is formed. In this case it is defined that, corresponding point of common circle $\varphi=90^{o}$ is coordinated to infinite point of common hyperbola. So, interrelation between common circle and common hyperbola points is determined. It should be noted that, the obtained relation was gained on complex quantity plane.

Взаимодействие между точками единичной окружности и единичной гиперболы

Автор:

Эльман Махмудов
Доктор философии по математике, доцент
E-mail:
elmanmahmudov@gmail.com

Ключевые слова:
единичная окружность, единичная гипербола, асимптоты гиперболы

Аннотация. Цель статьи - показать, что существует взаимодействие между точками единичной окружности и единичной гиперболы. С этой целью сначала были даны понятия единичной окружности и единичной гиперболы. Затем геометрически показана их симметрия. Посредством этого создается связь между точками единичной окружности и единичной гиперболы. При этом определяется, что соответствующая точка единичной окружности $\varphi = 900$ _y (точка B) соответствует бесконечно удаленной точке единичной гиперболы. Таким образом, взаимодействие между точками единичной окружности и единичной гиперболы становится определенным. Отметим также, что данная связь получена на комплексной количественной плоскости.

I. Vahid çevrə ilə vahid hiperbola nöqtələri arasında əlaqəni yaratmaq üçün, əvvəlcə vahid çevrə və vahid hiperbola anlayışlarını verək. Və onların arasında əlaqəni göstərək. Bu məqsədlə vahid çevrə ilə vahid hiperbola arasındakı əlaqəyə baxaq (2;3). Əvvəlcə aşağıdakı xüsusi hallara baxaq.

1. Məlumdur ki, vahid çevrə radiusu vahidə bərabər olan çevrədir. Digər tərəfdən bilirik ki, mərkəzi koordinat başlanğıcında olan və radiusu R olan çevrənin sadə tənliyi aşağıdakı kimidir:

$$x^2 + y^2 = \mathrm{R}^2 \qquad (1)$$

Əgər bu bərabərlikdə R =1 olarsa, onda (1) bərabərliyi belə olar.

$$x^2 + y^2 = 1 \qquad (2)$$

Aldığımız (2) bərabərliyi vahid çevrənin tənliyi olur.

2. Hiperbola isə iki hissədən ibarət olan iki tərtibli əyridi. Hiperbolanın sadə tənliyi aşağıdakı kimidir

$$\frac{x^2}{a^2} - \frac{y^2}{b^2} = 1 \qquad (3)$$

əgər bu sadə tənlikdə $a = b = 1$ olarsa, onda hiperbolanın sadə tənliyi aşağıdakı kimi olar.

$$x^2 - y^2 = 1 \qquad (4)$$

Bu halda, hiperbola vahid hiperbola olar. Bundan başqa, vahid hiperbolanın, hiperbola düzbucaqlı kvadrat olar. Vahid hiperbolanın asimptotları koordinat bucaqlarını yarıya bölər. Həmçinin asimptotları hiperbola kvadratının təpə nöqtələrindən keçər. Asimptotların tənlikləri isə $y = x$ və $y = -x$ olar. Vahid hiperbolanın simmetriya mərkəzində qurulmuş koordinat sisteminin koordinat oxları, eyni zamanda vahid hiperbolanın simmetriya oxlarıdır. Hiperbolanın simmetriya mərkəzi, onun öz mərkəzi olur. Nəhayət vahid hiperbolanın təpə nöqtəsi, vahid çevrə üzərində olur.

3. Bu deyilənlərdən aydın olur ki, vahid çevrə, vahid hiperbolanın hiperbola kvadratı daxilində yerləşir. Yəni vahid çevrənin mərkəzi ilə vahid hiperbolanın mərkəzi üst-üstə düşər. Başqa sözlə, vahid çevrənin diametri, vahid hiperbola kvadratının bir tərəfinə bərabər olar. Daha doğrusu vahid çevrənin radiusu vahid hiperbolanın yarım oxlarına bərabər olar.

Yəni $\mathrm{R} = a = b = 1$ olur (Şəkil 1.). Bu isə vahid çevrə ilə vahid hiperbolanın həndəsi əlaqəsini daha da mümkün və əlverişli edər. Bu zaman vahid çevrənin mərkəzi vahid hiperbolanın simmetriya mərkəzi olur.



Şəkil 1

Bu halda isə xoy düzbucaqlı koordinat sisteminin başlanğıcı, vahid çevrənin mərkəzi və vahid hiperbolanın simmetriya mərkəzi ilə üst-üstə düşər. Eyni zamanda vahid hiperbolanın təpə nöqtəsi M(1,0) nöqtəsində olur.

II. İndi isə vahid çevrə nöqtələri ilə vahid hiperbola nöqtələri arasında qarşılıqlı əlaqə olduğunu göstərək. Bu əlaqəni vermək üçün vahid çevrənin birinci rübdəki çevrə qövsü nöqtələri ilə vahid hiperbolanın sağ hissəsinin yuxarı qanadının nöqtələri arasındakı əlaqəyə baxaq. Bunun üçün vahid çevrə-hiperbola mərkəzində xoy düzbucaqlı koordinat sistemi götürək. Sonra vahid çevrənin birinci rübdəki çevrə qovsü üzərində ixtiyari $M_1, M_2 \cdots, M_n$ nöqtələri qeyd edək (Şəkil 2). Bu nöqtələrdən qövsün toxunanı boyunca ox koordinat oxuna doğru düz xətlər keçirək. Bu düz xətlərin ox koordinat oxu ilə kəsişmə nöqtələrini uyğun olaraq $N_1, N_2 \cdots, N_n$ ilə işarə edək. Bu qayda ilə vahid çevrə qövsü üzərindəki hər bir M nöqtəsinə ox koordinat oxu üzərində bir $"N"$ nöqtəsi uyğun olar. Ancaq vahid çevrə qövsü üzərindəki B nöqtəsinə ox koordinat oxu üzərində heç bir nöqtə uyğun olmur. Çünki B nöqtəsindən keçirilən toxunan ox koordinat oxuna paralel olur.

Nəhayət ox koordinat oxu üzərində alınmış $N_1, N_2 \cdots, N_n$ nöqtələrindən yuxarı şaquli istiqamətdə perpendikulyar düz xətlər qaldıraq. Bu perpendikulyar düz xətlərlə vahid hiperbolanın yuxarı qanadının kəsişmə nöqtələrini uyğun olaraq $A_1, A_2 \cdots, A_n$ ilə işarə edək. Deməli, vahid çevrə qövsü üzərində götürülmüş $M_1, M_2 \cdots, M_n$ nöqtələrinə vahid hiperbola qanadının $A_1, A_2 \cdots, A_n$ kimi nöqtələri uyğun olur. B nöqtəsindən başqa. Çünki B nöqtəsindən çıxan toxunanın ox koordinat oxu ilə kəsişmir. Yalnız ona paralel olur.

Yəni B nöqtəsinə hiperbola üzərində heç bir nöqtə uyğun olmur. Bu B nöqtəsini "∞" ədədinin həndəsi göstərilişi kimi hesab edək. Vahid hiperbolanın "∞" ədədinə uyğun olan nöqtəsini isə həmin hiperbolanın sonsuz uzaqlaşmış nöqtəsi adlandıraq. Deməli, bu uyğunluqda vahid çevrə qövsü nöqtələrini vahid hiperbola qanadının nöqtələri və "∞" ədədi vasitəsilə göstərmiş oluruq.

Alınmış həndəsi uyğunluğu vahid çevrənin bütün nöqtələri ilə vahid hiperbola nöqtələri arasında da qurmaq olar.



Şəkil 2

Onu da qeyd edək ki, hər bir MN çevrə toxunanı, uyğun NA hiperbola ordinatına bərabər olur. Həmçinin MN toxunanları vahid çevrənin radiusuna perpendikulyar olurlar.

Bu uyğunluğu başqa üsulla da vermək olar. Belə ki, vahid çevrənin hər bir nöqtəsi üçün aşağıdakı bərabərlik doğrudur.

$$y = \cos\varphi + \vec{k}\delta\bar{m}\varphi \qquad (5)$$

Digər tərəfdən vahid hiperbola nöqtələri üçün də aşağıdakı bərabərlik doğrudur.

$$e^{\vec{k}t} = cht + \vec{k}sht \qquad (6)$$

Deməli (5) vasitəsi ilə göstərilmiş hər bir vahid çevrə nöqtəsi (6) vasitəsi ilə göstərilmiş vahid hiperbola nöqtəsinə uyğundur. Yalnız φ =90^0 olduqda $y = \cos 90 + \vec{k} \sin 90 = 0 + \vec{k} \cdot 1 = \vec{k}$ olar. Bu qiymət isə B nöqtəsinə uyğun olar. B nöqtəsi isə vahid hiperbolanın sonsuz uzaqlaşmış nöqtəsinə uyğun olur. Bu uyğunluq zamanı $M_1N_1 = N_1A_1$, $M_2N_2 = N_2A_2$ ... $M_nN_n = N_nA_n$ olur. Bu bərabərlikləri vahid hiperbola ilə vahid çevrə arasındakı əlaqəyə görə də yaza bilərik.

Ədəbiyyat

1. Мыщкис А.Д. Лекции по высшей математике. – М., – 1976
2. Mahmudov E., Mahmudov İ.Triqonometrik və hiperbolik funksiyalar haqqında // – Naxçıvan: Müəllimlər İnstitutu, Xəbərlər, – 2008. № 2. – s.
3. Mahmudov E., Mahmudov İ. Triqonometrik və hiperbolik funksiyalar arasında əlaqənin xüsusi halı. // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutu. Xəbərlər jurnalı, –2008, № 3. (15).

Məqalə riyaziyyat üzrə elmlər doktoru, dosent Yaqub Məmmədov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 12.01.2022, son daxilolma – 12.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 217-220
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 217-220
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.217-220

UOT 581.6

Bal arılarının aspergillyozuna qarşı profilaktik tədbirlər

Müəlliflər:
İsmayıl Məmmədov
AMEA Naxçıvan Bölməsi
Biologiya elmləri doktoru, dosent
E-mail:
i_memmedov68@mail.ru

Sevilə Rüstəmova
Naxçıvan Dövlət Universiteti
E-mail: sevile89.89 mail.ru

Açar sözlər:
bal arısı, göbələk, arıların aspergillyozu, diaqnostika, profilaktika, mübarizə tədbirləri

Annotasiya. Aspergilyoz arı ailələrinin infeksion xəstəliyi olub əsasən sürfələrin, bəzən də yaşlı arıların tələfatı və onların quruması, daşlaşması ilə xarakterizə edilir. Hazırda bal arılarının aspergillyozunun törədicisi Aspergillus flavus göbələyidir. A.niger və A. nidulans göbələkləri də xəstəlik törədə bilər. Hər üç göbələk obliqat aerob olmaqla adi qidalı mühitlərdə 20-350 C temperaturda inkişaf edirlər. A.flavus-un koloniyaları yaşımtıl sarı, A.niger-in koloniyaları isə tünd yaşıl rəngdə olur. Xəstəlik soyuq və nəmli iqlimdə əsasən yazda və payızda, uzun müddət buludlu və yağmurlu hava şəraitində, nəmli torpaqda və kölgəlikdə yerləşdirilmiş arı ailələrində, nəmli, pis ventilyasiya olunan arıxanalarda müşahidə olunur. Bundan başqa arıların rezistentliyinin azalması, antibiotiklərdən düzgün istifadə olunmaması və s. aspergillyozun inkişafına şərait yaradır. Aspergillyoz zamanı ehtiyatlı olmaq lazımdır, çünki insanlar da buna həssasdır. Ona görə ağız və burun nəm tənziflə bağlanmalı və xüsusi geyimdən istifadə edilməlidir. İş qurtardıqdan sonra həmin paltarları zərərsizləşdirirlər.

Authors:

Ismayil Mammadov
Nakhchivan Branch of ANAS
Doctor of biological sciences, associate professor
E-mail:
i_memmedov68@mail.ru

Sevila Rustamova
Nakhchivan State University
E-mail: sevile89.89 mail.ru

Key word:
honey bee, fungus, aspergillosis of bees, diagnosis, prevention, control measures

Preventive measures against aspergilliosis of honey bees

Abstract. Aspergillosis is an infectious disease of bee colonies and is characterized by the death of larvae, sometimes old bees, and their drying and petrification. Currently, the causative agent of aspergillosis of honey bees is Aspergillus flavus fungus. A. niger and A. nidulans fungi can also cause disease. All three fungi are obligate aerobes and grow in common nutrient environments at temperatures of 20-350 C. Colonies of A. flavus are greenish yellow, and colonies of A. niger are dark green. The disease is observed mainly in spring and autumn in cold and wet climates, in long-term cloudy and rainy weather conditions, in bee families placed in moist soil and shade, in damp, poorly ventilated apiaries. In addition, the reduction of resistance of bees, improper use of antibiotics, etc. creates conditions for the development of aspergillosis. Care must be taken with aspergillosis, as humans are also susceptible to it. That is why the mouth and nose should be closed with a damp cloth and special clothing should be used. After finishing the work, they disinfect those clothes.

Авторы:

Исмаил Мамедов
Нахчыванское отделение НАНА
Доктор наук по биологи, доцент
E-mail:
i_memmedov68@mail.ru

Севила Рустамова
Нахчыванский государственный университет
E-mail: sevile89.89 mail.ru

Ключевые слова:
пчела, грибок, аспергилез пчел, диагностика, профилактика, меры и борьбы

Профилактика асспергиллеза пчёл

Аннотация. Аспергиллез, или каменный расплод - инфекционная болезнь личинок, куколок, а иногда и взрослых пчел. Вызывается желтым грибком - аспергиллюс флавус и реже черным грибком - аспергиллюс нигер. Эти грибки, особенно желтый, широко распространены в природе и часто встречаются в почве, навозе, на растениях и продуктах. Аспергиллез пчел редко обнаруживается, его появление чаще совпадает с периодом наибольшого сбора пчелами пыльцы, а также в конце зимы и весной. Признаком аспергиллеза у взрослых пчел является затвердение брюшка, которое хорошо прощупывается при сдавливании его пальцами. При хранении в сыром месте таких трупов грибок прорастает между кольцами хитинового покрова и придает пчелам мохнатый вид. Повышенная влажность, частые дожди способствуют развитию аспергиллеза. Болезнь возникает лишь в отдельных семьях и по всей пасеке не распространяется. Аспергиллез - единственное заболевание пчел, которым могут заражаться животные и человек, при этом поражаются органы зрения и дыхания. Это обязывает пчеловодов осторожно работать с больными семьями. Необходимо предохранять глаза специальными, защитными очками, а нос и рот - влажной повязкой.

Bal arılarının bir növ kimi formalaşması 200 milyon il bundan əvvəl olmuşdur. Bal arıları Hymenoptera dəstəsinin Apidae fəsiləsinə mənsubdur. Linney 1758–ci ildə bal arılarını "bal düzəldən" mənasını verən A.mellifera olaraq adlandırmışdır. Bal arılarının taksonomiyası aşağıdakı kimidir [2].

Aləm:-Heyvanlar (Animala)
Tip:- Buğumayaqlılar (Arthropoda)
Sinif: - Həşaratlar (İnsecta)
Dəstə: - Zarqanadlılar (Hymenoptera)
Cins: -Arılar (Apis)
Növ: - Bal arısı (Apis mellifera)

Bal arısı bal, mum, arı südü, arı zəhəri və propolis kimi qiymətli məhsullar verir. Bal insan orqanizmi üçün təbii enerji mənbəyi olmaqla orqanizmin böyüməsində və sağlamlığının qorunmasında mühüm əhəmiyyətə malik qida məhsuludur. Bal qida məhsulu olmaqla yanaşı antimikrob fəallığı da vardır. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən çiban, ishal, sidiksistemi infeksiyaları, dezinteriya, dəri və ağız infeksiyalarında istifadəsi qeyd edilir.

başqa demək olar ki, qalan növlər vəhşi növlər hesab edilir. Apis cinsinə 83 növ və ya yarımnöv daxildir ki, bunlardan 10 növü bal verən arılardır [3]. Ölkəmizin təbii-iqlim şəraiti, bitki örtüyü, coğrafi yerləşimi və s. bunlara bağlı olaraq digər canlıların biomüxtəlifliyini artırdığı kimi, arı faunasının da çox zəngin olmasına öz təsirini göstərmişdir.

Naxçıvan Muxtar Respublikasının təbii-iqlim şəraiti arıçılığın inkişafı üçün olduqca əlverişlidir. Lakin bəzi xəstəliklər, xüsusən arıların aspergilyozu arıçılığa böyük iqtisadi ziyan vurur. Bu xəstəlikdən arılar tələf olur, inkişafı dayanır və məhsuldarlığı aşağı düşür, bəzən də ailə tamamilə məhv olur. Belə xəstəliklərdən biri də bal arılarının aspergilyozudur.

Aspergilyoz arı ailələrinin infeksion xəstəliyi olub əsasən sürfələrin, bəzən də yaşlı arıların tələfatı və onların quruması, daşlaşması ilə xarakterizə edilir.

Xəstəliyin törədicisi ilk dəfə ABŞ-da Hovard tərəfindən 1894-96-cü illərdə aşkar edilmişdir. Avropa ölkələrində daşlaşmış süfrə

Şəkil. Aspergilyozla yoluxmuş arı şanlarının görünüşü

Dünyada 25000-ə qədər arı növü vardır. Bunlardan Apis mellifora – dan (bal arısı) barədə Maassen 1906-cı ildə məlumat vermişdir. Rusiyada İ.L.Serbinov 1910-cu ildə

yumurtaların və yaşlı arıların aspergillyoza yoluxmalarını aşkar etmişdir. Hazırda bal arılarının aspergillyozunun törədicisi Aspergillus flavus göbələyidir. A.niger və A. nidulans göbələkləri də xəstəlik törədə bilər. Hər üç göbələk obliqat aerob olmaqla adi qidalı mühitlərdə 20-350 C temperaturda inkişaf edirlər. A.flavus-un koloniyaları yaşımtıl sarı, A.niger-in koloniyaları isə tünd yaşıl rəngdə olur. Antraktidan başqa dünyanın demək olar ki, bütün qitələrində arılar arasında müşahidə edilir [1].

Aspergillər zülalları, polisaxaridləri, disaxaridləri və monasaxaridləri parçalayan fermentlər sintez edirlər. Bundan başqa bu göbələklər arıların əzələ və sinir toxumasına güclü təsir edən toksin hasil edirlər. Həmin toksin insanda və ali heyvanlarda ölümə səbəb olur. İnsanların da arılardan aspergillyoza yoluxması haqda ədəbiyyat materialları vardır.

Göbələyin sporları fiziki və kimyəvi amillərin təsirinə çox davamlıdır. Asperillər +600C temperaturda 30 dəqiqə müddətinə patogenlik qabliyyətini saxlayır. 5% -li karbol turşusu və 5%-li formalin məhlulu bir neçə dəqiqəyə amili məhv edir.

Xəstəlik törədicisi aspergillər substratlarda və canlı bitkilər üzərində olur, yüksək istilik və nəmlik olan şəraitdə sürətlə inkişaf edirlər. İşçi arılar tərəfindən ailəyə gətirilmiş aspergillər burada sürətlə inkişaf edir və xəstəlik baş verir. Xəstəliyə ən çox zəif arı ailəsi həssasdır. Aspergilyoz, əsasən yazda, təsadüfən yaypayız fəsillərində müşahidə edilir.

Xəstəliyin baş verməsi və yayılmasında aspergillərin virulentlik, xarici mühit şəraiti və arıların fizioloji vəziyyəti mühüm rol oynayır. Arılardan başqa xəstəliyə ipək qurdu, həşaratlar, istiqanlı heyvanlar və insanlar həssasdır.

Amil orqanizmə əsasən alimentar yolla, nadir hallarda isə gövdənin tamlığının pozulması nəticəsində daxil olur. Xəstəliyin inkubasiya dövrü 2-3 gündür. Ilk öncə sürfələr xəstəliyə tutulur.Göbələyin mitselləri əvvəlcə sürfənin baş hissəsində görünür, sonra isə bütün gövdəni bürüyür. Xəstələnmiş sürfələrdə oksigenə tələbat artır və 10-12 gündən sonra ölüm baş verir. Ölmüş sürfələrdə bərkimə, daşlaşma müşahidə edir. Sürfə cəsədində biriki günə göbəliyin mitsellərinin inkişafı nəticəsində ağ təbəqə əmələ gəlir. Sonradan sürfələr göbələklərin növündən asılı olaraq sarı, yaşıl və qara rəngə boyanır.

Yaşlı arılar əsasən yaz fəslində yoluxur, xəstə arılar şanın üzərində dura bilmirsə yeşiyin döşəməsinə tökülərək ölür. Əllə təmas etdikdə, onun qarın hissəsinin bərkiməsi hiss edilir.

Xəstəliyin diaqnozu zamanı onun bərkiməsi nəzərə alınmalı və mikoloji müayinələr aparılmalıdır. Mikoloji müayinə aparmaq üçün götürülmüş arı cəsədi Petri fincanına qoyulur və mikroskopun kiçik ölçülü obyektivində müayinə edilir. Həmçinin patoloji materialdan Çapek qida mühitinə əkilir və 25-300C temperaturda yetişdirilir.

Xəstəlik soyuq və nəmli iqlimdə əsasən yazda və payızda, uzun müddət buludlu və yağmurlu hava şəraitində, nəmli torpaqda və kölgəlikdə yerləşdirilmiş arı ailələrində, nəmli, pis ventilyasiya olunan arıxanalarda müşahidə olunur. Bundan başqa arıların rezistentliyinin azalması, antibiotiklərdən düzgün istifadə olunmaması və s. aspergillyozun inkişafına şərait yaradır.

Sürfələr əsasən pup dövründən əvvəl möhürlü yuvalarda yoluxmadan 1-3 gün sonra ölürlər. Xəstəliyi əksər hallarda yumurtalarda yaranan dəyişikliklərə görə aşkar edirlər, amma ölmüş sürfələrin mumifikasiyaya qədər yaşlı arılar tərəfindən çıxarılması nəticəsində onların yoluxmasının ilkin əlamətləri adətən nəzərə çarpmır. Arı ailələrində yumurtaların yoluxması tədricən intensivləşərək bütün arı ailəsini əhatə edir ki, bu da ailənin məhvinə gətirib çıxarır [7,8,9].

Xəstəlik müşahidə edildikdə yoluxmuş sürfəli şanlar kənar edilir, arıları yüksək keyfiyyətli balla, yaxud 67%-li şəkər şirəsi ilə yemləyirlər. Əgər arı ailəsində yoluxma kəskin formadadırsa, bu zaman həmin ailə məhv edilir. Bu məqsədlə ailəyə kükürd qazı və ya formalin buxarı verilir.

Xəstəlik əlamətlərinin göründüyü arı ailələrinin balı götürülməməli və istifadə olunmamalıdır. Ona görə ki, bu göbələklər balda yaşaya bildikləri üçün insanda ağız və diş əti iltihablarına, ishala, dəri aspergilyozuna və

sümük iliyi iltihablarına səbəb ola bilər [4].

Aspergillyoz zamanı ehtiyatlı olmaq lazımdır, çünki insanlar da buna həssasdır. Ona görə ağız və burun nəm tənziflə bağlanmalı və xüsusi geyimdən istifadə edilməlidir. İş qurtardıqdan sonra həmin paltarları zərərsizləşdirirlər.

Bu xəstəliyə qarşı müxtəlif obyektlərin dezinfeksiyası üçün bir çox kimyəvi preparatlar təklif olunmuşdur. Onlara xlorlu ahəng, yeyici qələvi (NaOH, KOH), formaldehid, bir xlorlu yod, aseptol, terminator, penoxlor, hipoxlorid natri va s. aiddir. Lakin onların əksəriyyətlərinin bir çox çatışmayan xüsusiyyətləri var. Bəziləri istifadə zamanı istifadəçilərin səhhətinə pis təsir etməklə, işlədilmə prinsipi mürəkkəbdir. Bəziləri isə baha olmaqla, çətin tapılır [5].

Son illər yod preparatlarının aspergillyoz xəstəliyinin müalicə və profilaktikasında effektliyi bir çox tədqiqatçılar tərəfindən qeyd olunmuşdur. Ona görə də yeni dezinfeksiyaedici preparatların axtarılması, onların dezinfeksiya rejiminin işlənib hazırlanması (xüsüsilə aerozol dezinfeksiya) baytarliq elmi və təcrübəsi qarşısında duran ən vacib problemlərdən biridir.

Ədəbiyyat

1. Əliyev E.A., Əzimov İ.M. və b. Epizootologiya və infeksion xəstəliklər. – Bakı:Uniprint, – 2013. – 1020 s.
2. Bayramov A.B., Məhərrəmov M.M., Məmmədov İ.B. və b. Naxçıvan Muxtar Respublikasının onurğasızlar faunasının taksonomik spektri. – Naxçıvan:Əcəmi, – 2014. – 320 s.
3. Kırpık M. A., Aydoğan M. N., Örtücü S., Hasenekoğlu İ. Kafkas Arısı (Apis mellifera caucasica Pollmann, 1889) (Hymenoptera: Apidae)'nın, Dış Yüzey ve Sindirim Sistemi Mikrofungus Florasının Belirlenmesi // Kafkas univ.Vet.Fak.Dergisi, 210, Kars-Turkiye, s.347-352
4. Tutkun E., Boşgelmez A. 2003. Bal Arısı Zararlıları ve Hastalıkları Teşhis ve Tedavi Yöntemleri – Ankara:Bizim Büro Basımevi, – 2003. – 365 s.
5. Мукминов М.Н., Угрютов В.С., Равилов А.З. и др. Разработка средств лечения и профилактика асспергиллеза пчёл. // Сб.науч.трудов 2-го съезда ветеринарных врачей Республика Татарстан, Казан – – 2001, – с.182-185
6. Гробов О.Ф., Лихотин А.К. Болезни и вредители пчёл. – Москва: Колос, – 2003. – 287 с.
7. Смирнов А.М. Оздоровление пчёл: система мер // Пчеловодство, – 1991. №8,10, – с. 23-26.
8. Сычев М.М. Грибковые болезни пчёл: профилактика и меры борьбы // Пчеловодство, – 1995, № 3, – с.19-22.
9. Яременко Н.А., Темиров Р.Т. Эпизоотическое состояние и дальнейшие задачи по борьбе с болезнями пчёл // Ветеринария, – 1996, №12, – с. 3-5.

Məqalə AMEA-nın həqiqi üzvü, biologiya üzrə elmlər doktoru, professor Tariyel Talıbov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 25.01.2022, son daxilolma –11.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 221-225
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 221-225
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.221-225

UOT
634.8.632.9.63:502.17

Üzüm bağının salınması üçün ərazi seçimində nəzərə alınmalı əsas amillər

Müəllif:

Cabbar Nəcəfov
AMEA Naxçıvan Bölməsi
Aqrar elmlər üzrə fəlsəfə doktoru
E-mail: haci-cabbar71@mail.ru

Açar sözlər:
makroiqlim, şaxta, sort, torpaq, relyef, flora, regenerasiya, struktur, ekologiya

Annotasiya. Azərbaycan Respublikasında iqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi çərçivəsində qeyri-neft sektorunun inkişafının təmin edilməsi, o cümlədən aqrar sektorda üzümçülüyün dinamik inkişaf etdirilməsi ölkənin əsas prioritetlərindəndir. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" və "2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" Azərbaycan Respublikasının üzümçülüyə dair aqrar siyasətini və strategiyasını formalaşdıran mühüm Dövlət sənədləri əsasında kənd təsərrüfatında yaxın gələcəkdə üzümçülüyü yenidən geniş inkişaf etdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir. Üzümçülüyün inkişaf etdirilməsində bir sıra faktorlar, o cümlədən sortların seçimi də maddi gəlirin əldə olunmasında mühüm əhəmiyyət kəsb edir. Ona görə də yeni üzüm bağı salınarkən torpaq-iqlim, ekoloji amillər, qlobal istiləşmənin təsirləri, aqrobioloji tələblər və sort tərkibinin ampeloqrafik xüsusiyyətləri üzümçülükdə aktual məsələlərdən biri olaraq ərzaq təhlükəsizliyində mühüm rol oynayır. Məqalədə dəyərli fermer və bağbanlarımız üçün bir sıra tövsiyələr verilir.

In choosing a territory for planting a vineyard key factors to consider

Author:

Jabbar Najafov
Nakhchivan Branch of ANAS
Doctor of Philosophy in Agrarian Sciences
E-mail: haci-cabbar71@mail.ru

Key word:
macroclimate, frost, variety, soil, relief, flora, regeneration, structure, ecology

Abstract. Ensuring the development of the non-oil sector within the framework of increasing the efficiency of the economy and increasing the competitiveness of the Republic of Azerbaijan, including the dynamic development of viticulture in the agricultural sector, is one of the main priorities of the country. "State Program on the Development of Viticulture in the Republic of Azerbaijan in 2012-2020" and "State Program on the Development of Wine-growing in the Republic of Azerbaijan in 2018-2025" based on the important State documents that form the agrarian policy and strategy of the Republic of Azerbaijan on viticulture, viticulture will be re-established in agriculture in the near future. broad development directions have been defined. In the development of viticulture, a number of factors, including the selection of varieties, are of great importance in obtaining financial income. Therefore, when planting a new vineyard, soil-climate, environmental factors, effects of global warming, agrobiological requirements and ampelographic characteristics of the variety composition play an important role in food security as one of the actual issues in viticulture. The article provides a number of recommendations for our valuable farmers and gardeners.

Основные факторы, влияющие на выбор участка для виноградников

Автор:

Джаббар Наджафов
Нахчыванский филиал НАНА
доктор философии в области аграрных наук
E-mail: haci-cabbar71@mail.ru

Ключевые слова:
макроклимат, мороз, сорт, почва, рельеф, флора, регенерация, структура, экология

Аннотация. Обеспечение развития ненефтяного сектора в рамках повышения эффективности экономики и повышения конкурентоспособности Азербайджанской Республики, а также динамичное развитие виноградарства в сельскохозяйственном секторе является одним из основных приоритетов страны. На основе важных государственных документов - «Государственная программа развития виноградарства в Азербайджанской Республике на 2012-2020 годы» и «Государственная программа развития виноделия в Азербайджанской Республике на 2018-2025 годы», формирующих аграрную политику и стратегию в стране, определены широкие направления развития Азербайджанской Республики. Ряд факторов развития виноградарства, в том числе и выбор сорта, имеют значение для получения материального дохода. Поэтому почвенно-климатические, экологические факторы, влияние глобального потепления, агробиологические требования и ампелографические характеристики сортового состава являются одним из наиболее актуальных вопросов в виноградарстве и играют важную роль в обеспечении продовольственной безопасности при закладке нового виноградника. В статье дан ряд рекомендаций для наших виноградарей-фермеров и садовников.

Üzüm bağının salınması üçün əkin yerinin seçilməsi, üzümçülükdə işləri planlaşdırarkən verilən ilk və həm də, çox vacib qərardır. Yeni üzüm bağı salmaq üçün 5 əsas amil diqqətə alınmalıdır:

- yer (ərazi) seçimi;
- idarəetmə sistemi və əmək ehtiyatları;
- məhsul üçün risk faktorları;
- üzüm sortlarının seçilməsi;
- maliyə faktorları.

Eyni zamanda torpaq-iqlim şəraiti üçün tələblərə ətraflı baxmaq lazımdır.

Tədqiqat metodları və eksperimenal hissə

1.Makroiqlim

Ərazi üçün dəniz səviyyəsinə görə hündürlük, yağıntı və temperatur məlumatları, həmçinin böyük su hövzələrinə və ya dağlar – yaylalar kimi topoqrafik xüsusiyyətlərə malik olan obyektlərə yaxınlıq daha uyğun olar. Naxçıvan Muxtar Respublikasının iqlimi kəskin kontinentallığı (k>250) ilə səciyyələnir. Müəyyən edilmişdir ki, Muxtar respublikada iqlimin formalaşmasına başlıca olaraq onun coğrafi mövqeyi - ərazinin hər tərəfdən dağ silsilələri (Köknur-Alangöz, Zəngəzur və Dərələyəz) ilə əhatə olunması və iri su hövzələrindən (Qara dəniz, Xəzər dənizi, Aralıq dənizi) uzaqda yerləşməsi çox təsir göstərir [5, 9].

2. Qış şəraiti

Bölgədəki ən aşağı dərəcəli şaxtaları nəzərə alaraq, (Naxçıvan MR üçün qışda basdırılan) basdırılan və ya basdırılmayan üzüm kultivasıyası barədə bir qərarın verilməsi tələb olunur [5]. Burada əsas məsələ tənəyə ştamplı və ya ştampsız forma verilməsi də məhz qışda basdırma kultivasiyasından asılıdır.

3. Yaz şaxtaları

Yaz (xüsusilə də gecikmiş yaz) şaxtalarına yüksək həssaslığı nəzərə alaraq hansı sortların yetişdirilə biləcəyini və kolların hansı sistemlə becərilə biləcəyini seçmək lazımdır. Şaxtadan mühafizə sistemlərindən hər hansı birindən daimi istifadə edildiyində xərclər artır [10]. Ona görə də yazda kolların açılmasını mümkün qədər gecikdirmək lazım gəlir ki, həm tənəkləri şaxta vurmasın, həm də xərclər azalsın. Basdırılma tələb olunan bölgələrdə tənəklər payızda basdırılmırsa, məhsulun 80 %-ə qədəri itirilmiş sayılır.

4. Yay şəraiti

Hesab olunur ki, temperatur 35 ° C-dən yuxarı olduqda üzüm bitkisində bəzi metabolik proseslər zəifləyirr, gilələr büzülür və kiçilir, həmçinin məhsulun keyfiyyət riski artır. Naxçıvan Muxtar Respublikasında yayda temperatur daha müntəzəm dəyişir və temperatur 440 C – ni keçir. Təbii ki, qlobal istiləşmənin təsirlərinə qarşı tədbirlər görmək lazım gəlir [7, s. 67-71]. Havanın maksimum temperaturu iyun – iyul aylarında olur, avqust ayında nisbətən sərin olur, sentyabrdan başlayaraq temperatur tədricən aşağı düşməyə başlayır.

5. Fəal temperaturların cəmi

Vegetasiya fazalarının uzunluğu üzüm bağı üçün sortların seçiminə təsir göstərir. Yetişdirmək istədiyimiz sortlar üçün FTC (fəal temperatur cəmi) miqdarının kifayət olduğundan əmin olmaq lazımdır. Naxçıvan MR-in düzən və aşağı dağlıq zonalarında fəal günəş enerjisinin intensivliyi aprel-oktyabr ayları ərzində 58-60 kkal/sm2 təşkil edir və bunu fotosıntezin yüksək və məhsuldar olması üçün olduqca əlverişli hesab etmək olar [5].

6. Mezoiqlim

Sahənin yamacı, görünüşü, nisbi yüksəkliyi və su obyektlərinə yaxınlığı və ya ərazinin digər kiçik topoqrafik xüsusiyyətləri kimi səciyyəvi xüsusiyyətləri üzümün böyüməsinə və inkişafına təsir göstərə bilər. Deməli üzüm bağı salınarkən bu faktorlara, xüsusilə də relyefə diqqət yetirmək lazımdır [9].

7. Relyef

Gələcək üzüm bağınının relyefi havanın hərəkətinə (külək), şaxtanın zədələməsi riskinə

və suyun axmasına təsir edəcək.

8. Yamac, ərazinin sahəsinə görə hündürlüyün dəyişməsinin faizi kimi ölçülür və potensial üzüm bağının baxdığı istiqamətdir (sıraların ənəvi olaraq şimal-cənub istiqamətində deyil, sıraların şərq-qərb istiqamətində salınması tövsiyə olunur). Bu amillər torpağın nəmliyinə, gün yanıqlarına, giləmeyvə yetişməsinə və xəstəliyə qarşı həssaslığa təsir göstərə bilər [10].

9. Torpağın yararlılığı

Diqqət edilməli olan əsas torpaq amilləri drenaj, su saxlama qabiliyyəti, struktur, pH (arzu olunan diapazon 5,5-8,0), üzvi maddələr və ya toksiklik kimi köklərin inkişafını məhdudlaşdıra bilən hər hansı maneələrdir.

Naxçıvan MR ərazisinin özünəməxsus torpaq örtüyü vardır. Burada yayılmış torpaq tipləri, yarımtipləri və s. taksonomik vahidlər relyef xüsusiyyətlərinin, torpaq əmələgətirmə proseslərinin təsiri altında formalaşmışdır. Müəyyən edilmiş torpaq tipləri fiziki-coğrafi şəraitə uyğun olaraq bir-birindən aydın şəkildə fərqlənməklə, bütün səciyyəvi zonal əlamətlərə malikdirlər. Bölgədə yayılmış dağ və düzən torpaqlarını əsasən aşağıdakı torpaq tiplərinə bölmək olar (Dağ – çəmən):

1. İbtidai və torflu dağ – çəmən; 2. Çimli dağ – çəmən; 3. Boz-qır dağ – çəmən; 4. Qəhvəyi dağ-meşə; 5. Tipik qəhvəyi dağ-meşə; 6. Karbonatlı və qismən bozqırlaşmış dağ qəhvəyi; 7. Mədəniləşmiş tünd və adi dağ-boz qəhvəyi; 8. Qismən çürüntülü – sulfatlı (əhəngli) və tam inkişaf etməmiş şabalıdı (boz qəhvəyi); 9. Açıq şabalıdı (boz qəhvəyi); 10. Suvarılan tipik boz; 11. Açıq və ibtidai boz – çəmən; 12. Suvarılan subasar – allüvial – çəmən; 13. Tipik və şoranlı şorakətlər

10. Suyun keyfiyyəti və miqdarı [5]

Üzüm bağının əkilməsi üçün maneə sayıla bilən əsas su problemlərinə, tərkibində ümumi həll olunmuş duzların miqdarı daxildir (maksimum 1-1,5 q/litr).

11. Torpaqdan əvvəlki istifadə dövrü

Kənd təsərrüfatı torpaqlarının əvvəllərdə kultivasiyası zamanı istifadə edilən pestisidlər əkilmiş cavan üzüm tinglərində toksiklik yarada bilər və əvvəllərdə torpaqlardan qeyri-kənd təsərrüfatı məqsədli istifadə nəticəsində torpağın bərkiməsi, tərkibindəki kimyəvi maddələr, yanıq qalıqları və s. səbəblər üzüm kollarının zəif böyüməsinə səbəb ola bilər.

Naxçıvan MR-in ərazisi zəngin floraya və çox əlvan bitki örtüyünə malikdir. Bu ilk növbədə təbii şəraitin, geoloji və geomorfoloji quruluşun son dərəcə mürəkkəb olması ilə əlaqədardır. Sərt ontinental iqlimi, oroqrafik cəhətdən rəngarəng olan Naxçıvan Muxtar Respublikası tipik dağlıq bölgədir.

Muxtar Respublikada iqlimin quraqlığı və kontinentallığı ilə əlaqədar olaraq bitki örtüyü və onun şaquli və üfüqi zonalılığı Azərbaycanın digər regionlarından kəskin şəkildə fərqlənir. Belə ki, bitki örtükləri eynilik təşkil etdiyi halda, Kür-Araz ovalığında səhralar hündürlüyü – 28 m-lə 350 m arasındakı əraziləri, muxtar respublikada isə bu 600-700 m-lə 1100 m arasındakı əraziləri əhatə edir. 1100-1200 m-lə 1500 m arasındakı friqana tipli kserofit bitkililiyi, 1500-1700 m-lə 1900 m arasındakı dağ-bozqır bitkililiyi, 1900-2300 m-də qarika, yaxud çəmən-bozqır bitkililiyi, kserofit kollu çəmənliklər, bəzən kiçik meşələr (Biçənək meşəliyi), 2350-2400-2500 m-də subalp bitkililiyi (çəmənlər, yaxud çəmənli-bozqırlı sahələrin bitkililiyi), 2400-3000 m və 3500 m hündürlüklərdə isə subalp və xırda boylu Alp çəmənliyi və Alp xalıları geniş ərazilərdə öz müxtəlifliyi ilə fərqlənir.

Müəyyən edilmişdir ki, göstərildiyi kimi, Naxçıvan MR-in ərazisi bitki növləri ilə daha zəngindir və Azərbaycan florasının 43%-ni təşkil edir [5].

Torpaq bütün bitkilərin yetişdirilməsində əvəzolunmaz rol oynadığından, regenerativ əkinçiliyin də köməyindən istifadə etmək lazım gəlir. Regenerativ üzümçülük torpağın emalıdır, üzüm yetişdirmə deyildir. O, üzüm bağının aqroekologiyasına daha mürəkkəb ekosistemin bir hissəsi kimi baxır, orada bitən hər şey, o cümlədən torpağın altındakı sirli gizli aləm da daxil olmaqla – yerin altında göbələklər, bakteriyalar, protistlər, həşəratlar, nematodlar, artropodlar və s., həmçinin bitki kökləri də daxil olmaqla kompleks həyat şəbəkəsi mövcuddur. Bu həyat əsasən bitkilərin böyüməsinə əsaslanır: torpaqdan su və qida maddələrini udmaqla yanaşı, bitkilər torpağa

fotosintetik məhsullar buraxaraq torpağın mikrohəyatını da dəstəkləyir və daha sonra bu mürəkkəb icmanın qidalanmasına kömək edir.

Mikorizal göbələklərin üzümün kökləri ilə qarşılıqlı təsiri onun üçün çoxlu miqdarda qida əldə etmək imkanı yaradır, buna görə də bitki bunun əvəzini məmnuniyyətlə "ödəyir". Köklərə yaxın torpaq qatında rizosfer adlanan mikrofloralar birliyi kimyəvi siqnallar vasitəsilə üzümün biologiyasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

Beləliklə, regenerativ (bərpaedici) kənd təsərrüfatı üçün bütün vasitələr bu yeraltı ekologiyanı dəstəkləmək və qidalandırmaq məqsədi daşıyır. Digər bitkilərin də yaxşı səviyyədə üzvi material kimi torpaqda böyüməsi çox vacibdir. Buna görə də herbisidlər – hətta üzvi herbisidlər də yararlı deyil. Torpaqda üzümdən başqa heç nə bitmirsə, onda onun üzvi materialı azdır, ömrü azdır və torpaq, bərkimə və eroziya riski altındadır: torpağın strukturu orada böyüyən bitkilərin köklərindən asılıdır və onlar torpaq hissəciklərini əmələ gətirməklə ona kömək edir.

Regenerativ əkinçiliyin başqa bir cəhəti də torpağın strukturunu pozmamaqdır. Torpağın çizellənməsi və ya becərilməsi əla və gözəl görünür, lakin torpaq həyatı üçün çox da yaxşı deyil. Becərmə alaq otlarına qarşı effektiv mübarizə apara bilsə də, həm də torpağın strukturunu və torpaq həyatının kövrək ekoloji tarazlığını pozur, həmçinin torpaqda olan üzvi materialı oksidləşdirir, hansı ki, fermerlər onları toplamaq üçün çox əziyyət çəkirlər. Buna görə də, regenerativ üzümçülük mümkün olduqca, cərgə arası torpaqda və hətta kol sıralarında da torpağın daimi bitki örtüyünü nəzərdə tutur.

Regenerativ əkinçiliyin əsas aspekti bitki örtüyündən səmərəli istifadədir. Torpaqda azot azdırsa, azot fiksasiya edən bitkilər yaxşı seçimdir. Torpağın strukturu yoxdursa, güclü mil kökləri olan bitkiləri əkmək lazım gəlir. Hər şey torpağın düzgün işləməsi ilə bağlıdır: bir neçə ildən sonra üzüm bağı özünü tarazlaya bilər və aktiv torpaq qatı kolların böyüməsi və inkişafı üçün kifayət qədər qida təmin edə bilər. Aktiv ekosistem həm sabit, həm də öz özünü korrektə edən sistemdir. Düzgün torpaq strukturu və mikroorqanizmlər ilə birlikdə üzüm göbələk xəstəliklərinə qarşı daha davamlı ola bilər (tamamilə olmasa da: hələ də bir dəfə dərman çiləmə lazımdır).

Regenerativ (bərpaedici) üzümçülük üzüm bağının aqroekosistemini başa düşmək və problemləri həll etmək üçün ağıllı yanaşmalardan istifadə etməklə, mahiyyətcə yaxşı əkinçilikdir. Burada heç bir resept yoxdur, yalnız yaxşı üzüm yetişdiricilərinin məharətlə istifadə etdiyi "üsullar toplusu" var. Bir növ, bunda yeni heç nə yoxdur və bəzi qabaqcıl üzümçülər öz yanaşmalarını bu şəkildə təsvir etməsələr də, bərpaedici (regenerativ) əkinçiliklə məşğuldurlar. Ancaq növbəti bir neçə il ərzində üzümçülük kontekstində regenerativ əkinçiliyin də geniş vüsət alacağını demək olar.

Hər hansı bir bölgədə üzüm bağı salmaq üçün yuxarıda qeyd olunanlardan başqa sortların seçilməsi də mühüm ol oynayır [1, 2, s. 71-74; 3, 4, s. 144-146; 6, s. 61-63; 8]. Bu sortlar ərazinin torpaq-iqlim şəraitinə uyğunlaşmış aborigen sortlar və ya yerli iqlimə uyğunlaşdırılmış introduksiya olunmuş sortlardan ibarət olduqda daha məqsədə uyğun olar. Bir faktı da qeyd etmək yerinə düşər ki, hər hansı bir bölgəyə kənardan gətirilmiş üzüm sortları mütləq bitki-karantin prosedurundan keçirilməlidir ki, bölgədə müxtəlif xəstəlik-zərərverici, virus və bakterial mənşəli fitopatoloji problemlər yaranmasın.

Aşağıda Naxçıvan MR-in aborigen sortlarından bəzilərini təqdim edirik. Bu sortlar və başqaları AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitunun Nəbatat təcrübə sahəsində tarla-kolleksiya bağında qorunur və becərilir.

- üzüm bitkisinin ətraf mühitin mənfi amillərinə və başlıca xəstəliklərinə qarşı davamlı olan seçilmiş süfrə istiqamətli – Kişmişi sortları, Təbrizi, Bəndi, Qara kürdəşi, Qara xəlili, Qızıl üzüm, Bayan şirə, Nəxşəbi, Sahibi, Naxçıvan qırmızı şanısı, Sarı və Qırmızı Şəfeyi, Qırmızı İnəkəmcəyi;

- seçilmiş universal və texniki istiqamətli – Batıx, Bənəniyar, Ağ kələnpur, Cəlali, Daş qara, Şahtaxtı, Talibi, Tula gözü, Tülküquyruğu, Arazvari, Hərnəqırna sortunun formaları, Məşədi Əli, Qoyun gözü və s. sortların əkilməsini

tövsiyə edirik.

NƏTİCƏ

- yeni üzüm bağı salınarkən ərazinin torpaq – iqlim şəraiti, torpaq tipləri, torpaqdakı bitki örtüyü, relyef, iqlim dəyişkənliyi nəzərə alınmalıdır;

- bərpaedici (regenerativ) əkinçilik tətbiq olunmalıdır;

- torpağım strukturu, eroziya riski, becərilmə mexanizmi dəyişən iqlim şərtləri nəzərə alınmaqala qorunmalı və əlavə aqrotexniki işlər aparılmalıdır;

- tövsiyə olunan üzüm sortları və konkret əraziyə aid aborigen sortlar əkilməlidir.

Ədəbiyyat

1. Quliyev.V.M., Nəcəfov C.S. və b. Azərbaycan ampeloqrafiyası [3 cilddə], – Bakı: Müəllim, c. I – 2017, – 740 s.
2. Qurbanov M.R., Nəcəfov.C.S. Naxçıvan Muxtar Respublikasının aborigen üzüm sortları // AMEA-nın məruzələri, – Bakı: Elm, – 2009, № 5, – s. 71-74
3. Səlimov V.S., Pənəhav T.M. Azərbaycanın üzüm sortları / - Bakı, - 2016, - 286 s.
4. Nəcəfov.C.S. Naxçıvan Muxtar Respublikasında üzümün sort tərkibi və onun daha da zənginləşdirilməsi yolları // AMEA Naxçıvan Bölməsinin xəbərləri, Təbiət və texniki elmlər seriyası, – Naxçıvan: Tusi, – 2006, № 5, – s. 144-146
5. Nəcəfov C.S. Naxçıvan Muxtar Respublikasının azyayılmış qiymətli üzüm sortlarının biomorfoloji və texnoloji-təsərrüfat xüsusiyyətlərinin öyrənilməsi. Kənd təsərrüfatı elm. Nam. … dis. Avtoref./ – Bakı, – 2008. – 20 s.
6. Əmirov R.V., Qəhrəmanov S.H, Nəcəfov C.S. Naxçıvan Muxtar Respublikasının bəzi azyayılmış süfrə üzüm sortlarının məhsuldarlığına və keyfiyyətinə Naxçıvan seolitinin mineral gübrələrlə birlikdə tətbiqinin təsiri // Azərbaycan Aqrar Elmi, – Bakı: – 2010, № 1-2, – s. 61-63
7. Quliyev Varis, Nəcəfov Cabbar. Üzümlüklərdə tənəklərin pestisid-funqisidlərlə zədələnməsi və iqlimin dəyişməsi ilə əlaqədar yaranmiş ekoloji problemlər // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Təbiət və texniki elmlər seriyası, – Naxçıvan: Tusi, – 2020, № 2, – s. 67-71
8. Джаббар Наджафов. Ценные аборигенные виноградные сорта Нахчыванской АР Азербайджана. http://dnb.d-nb.de. LAP Lambert Academic Publishing Omni Scriptum Gmbh. ISBN:978-3-659-40114-5, Saarbrücken 2015, Germany
9. http://vitis.agro.gov.az/
10. http://vinograd.info/

Məqalə biologiya üzrə elmlər doktoru, dosent İsmayıl Məmmədov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –12.01.20222 , son daxilolma –02.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 226-228
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 226-228
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.226-228

UOT 581.5/1

Nəbatat bağında amerika çiçəkbaharı Phytolacca americana L. bitkisinin introduksiyası və bioekoloji xüsusiyyətlərinin öyrənilməsi

Müəllif:

Teyyub Paşayev
AMEA Naxçıvan Bölməsi
E-mail:
teyyubpashayev@mail.ru

Açar sözlər:
Phytolacca americana, Nəbatat bağı, dekorativ, bioekoloji, istixana

Annotasiya. Məqalədə son illərdə AMEA Naxçıvan Bölməsinin Nəbatat bağında yerli və kənardan gətirilmə ağac və kol bitkiləri üzərində aparılan tədqiqat işlərinin nəticələri haqqında məlumatlar verilir. Tədqiqatlardan alınan nəticələrə uyğun olaraq muxtar respublikamızın iqliminə uyğunlaşan və davamlılığı müəyyən edilən ağac və kol bitkiləri artırılaraq yaşıllaşdırma işlərində istifadə üçün tövsiyə olunur. Naxçıvan Muxtar Respublikasının şəhər və qəsəbələrinin yaşıllaşdırılmasında istifadə oluna biləcək dekorativ bitki növlərinin müəyyən edilməsi üçün hazırda burada yerli və müxtəlif regionlardan gətirilmiş dekorativ ağac və kol bitkiləri üzərində tədqiqat işləri aparılır. 2015 – cü ildə AMEA Mərdəkan Dendrologiya İnstitutundan gətirilmiş Amerika çiçəkbaharı - Phytolacca americana L. bitkisi qələm və kök pöhrələri vasitəsilə artırılaraq bir neçə yeni bitki əldə edilmişdir. Xeyli sayda Phytolacca americana L. bitkisinin toxumları istilikxanada əkilmiş lakin hələlik cücərti alınmamışdır. 7 il müddətində bu bitki üzərində tədqiqatlar aparılmış bitkinin bioekoloji xüsusiyyətləri, artırılma üsulları öyrənilmişdir.

Instruction and study of bioecological characteristics of phytolacca americana l. plant in a botanical garden

Author:

Teyyub Pashayev
Nakhchivan Branch of ANAS
E-mail:
teyyubpashayev@mail.ru

Key word:
Phytolacca americana, Botanical garden, decorative, bioecological, greenhouse

Abstract. The article provides information on the results of research conducted on local and imported trees and shrubs in the Botanical Garden of Nakhchivan Department of ANAS in recent years. According to the results obtained from the researches, trees and shrubs adapted to the climate of our autonomous republic and whose durability is determined are recommended for use in greening works by increasing them. In order to determine the types of decorative plants that can be used in the greening of the cities and towns of Nakhchivan Autonomous Republic, research is currently being carried out on decorative trees and shrubs brought here from different regions. In 2015, Phytolacca americana L. brought from Mardakan Institute of Dendrology of ANAS was propagated by cuttings and root cuttings, and several new plants were obtained. A large number of Phytolacca americana L. seeds have been planted in the greenhouse but have not yet germinated. For 7 years, researches were conducted on this plant, bioecological features of the plant, breeding methods were studied.

Изучение интродукции и биоэкологических особенностей вида Phytolacca americana l. в ботаническом саду

Автор:

Тейюб Пашаев
Нахчыванское отделение НАНА
E-mail:
teyyubpashayev@mail.ru

Ключевые слова:
Phytolacca americana, ботанический сад, декоративный, биоэкологический, оранжерейный

Аннотация. В статье представлены сведения о результатах научно-исследовательских работ по местным и завезённым деревьям и кустарникам за последние годы в Ботаническом саду Нахчыванского Отделения НАНА. В данной статье излагаются результаты изучения интродукции и биоэкологических особенностей американского лаконоса - Phytolacca americana L., родиной которого является Северная Америка и широко распространенного на полуострове Малая Азия, Балканах, странах Средиземноморья, Центральной Европы, Иране, Афганистане, Азербайджане и др. многих странах. По результатам исследований деревья и кустарники, адаптированные и устойчивые к климату автономной республики рекомендованы нами для использования в озеленительных работах. С целью определения декоративных видов растений, которые могут быть использованы в озеленении городов и поселков Нахчыванской Автономной Республики, проводятся исследования местных и завезенных из различных регионов декоративных деревьев и кустарников. В 2015 году американский лаконос - Phytolacca americana L., привезенный из Мардакянского института дендрологии НАНА, размножен черенками и корневыми отпрысками для получения нескольких новых экземпляров. Исследования продолжаются.

Amerika çiçəkbaharı - *Phytolacca americana* L. (çiçəkləri)

Amerika çiçəkbaharı - *Phytolacca americana* L.(meyvələri)

Amerika çiçəkbaharı - Phytolacca americana L. Çiçəkbaharkimilər fəsiləsinin Qırmızıdil cinsinə daxil olan çoxillik bitki növüdür. Ana vətəni Şimali Amerika hesab olunan Amerika çiçəkbaharı Kiçik Asiya yarımadası, Balkanlar, Aralıq dənizi, Orta Avropa ölkələri, İran, Əfqanıstan, Azərbaycan və s. ərazilərdə geniş yayılmışdır. 2015 – ci ildən AMEA Naxçıvan Bölməsinin Nəbatat bağında istixanada əkilərək tədqiqatlara cəlb edilmiş, hal – hazırda becərilir və üzərində fenoloji müşahidələr aparılır.

Yer kürəsinin ayrı - ayrı ərazilərində geniş yayılmış istilaçı bir növ kimi tanınmış amerika çiçəkbaharı çox fərqli iqlim qurşaqlarına, ekoloji cəhətdən fərqli bölgələrə, əkin sahələrinə və s. asanlıqla uyğunlaşa bilən bir bitkidir. Bu bitki əkin sahələrindən kənarda meşə talalarında, kolluqlarda, nəmli olan otlaq ərazilərində, çay kənarları və digər təbii ərazilərdə rast gəlinir. P. americana orta səviyyəli nəmliyi və pH – ın miqdarı 4,0 - 8,0 səviyyəsində olan torpaqlarda asanlıqla yaşayıb inkişaf edir. Çox güclü kök sisteminə malik olduğundan təbii fəlakətlər, yanğınlar və digər məhvedici hadisələrdən sonra köklərindən sürgünlər verərək yenidən yaşmağa davam edə bilirlər. Bu bitki çox fərqli olan torpaq – iqlim amillərinə asanlıqla uyğunlaşa bildiyindən hazırda dünyanın hər yerində geniş yayılmışdır.

Azərbaycanda bu bitki Xəzər dənizi sahillərindəki bəzi ərazilərdə Aran zonasından orta dağlıq qurşağa kimi olan 1000 – 1800 m hündürlüklərdə rast gəlinir. P. americana toxumla və kök uzantıları vasitəsilə asanlıqla çoxalan bir bitkidir. Dikduran və nisbətən qalın gövdəsi düzdurandır, budaqlanmışdır, yaşıl bəzən isə qırmızı olur. 1,5 – 3 m hündürlükdə olur. Güclü kök sisteminə malikdir, köklərinin üzəri qəhvəyi rəngli nazik qabıqla örtülüdür. Yarpaqları qarşılıqlı, ardıcıl və yaxud topa şəklində düzülmüşdür. Sadə, ovalşəkilli yarpaqlarının uc hissəsi sivriləşmiş formadadır. Yarpaq kənarları düzdür, tüksüzdür, uzunluqları 10 - 15 eni isə 4 – 10 sm – dək ola bilir. Yarpaqlarında xoşagəlməz bu bitkiyə xas olan bir iy vardır [3.s.120-121;4.s.295-296; 5.s.87-104].

May ayından sonra çiçəkləməyə başlayır və sentyabr – oktyabrda meyvələr əmələ gəlir. Meyvələr uzun saplağın üzərində salxım şəklində topa halında yerləşirlər. Çiçəklər qısa ağımtıl saplaqlarla salxıma bitişir və alt hissələri yaşıl rənglidir, 5 ədəd ləçəyə bənzər kiçik bozumtul yarpaqcıqları vardır, 5 mm diametrindədir. Meyvələri əvvəlcə qırmızı rəngdə yetişdikdən sonra isə tünd qara olub, üzüm gilələri formasındadır, suludur, alt və üst hissələrdən basıqdır.

Xalq təbabətində eksperimental tibdə və Çin təbabətində əsasən böyrək, sidik kisəsi, qaraciyər, ürək - damar, dəri - zöhrəvi xəstəlikləri, iflic, avitaminoz, xoş və bəd xassəli

şişlər, dizenteriya və ilan vurma zamanı istifadə olunur. Antibakterial, antihelmint, antitoksik, öd və sidikqovucu, hərarətsalan və iltihab proseslərinə qarşı təsirə malikdir. Flavonoid, saponin, alkaloid, efir yağları, steroid və antosianlarla zəngindir. Müalicə məqsədi ilə bitkinin yarpaqları, kökü və toxumları istifadə edilir. Cövhər, tinktura, ekstrakt və maz şəklində istifadə edilir [1.s.441-449; 2.s.126-142].

Amerika çiçəkbaharı günəş şüalarının bol olduğu yerlərdə daha yaxşı inkişaf edir, kölgəli yerlərdə isə bitkinin böyüməsi zəifləyir, sürgünləri inkşafdan dayanır. Bu bitki zəhərli olduğu üçün onunla işlədikdə və yaxud yerini dəyişmək zamanı yalnız əlcəklə və çox ehtiyatla işləmək lazımdır. Əks halda əldə və bitkinin dəydiyi digər yerlərdə qızartılar və qaşınmalar baş verəcəkdir. Buna baxmayaraq, Amerika çiçəkbaharı dekorativ bitki kimi bəzək bağçılıqda kol bitkilərindən hazırlanan kompozisiyaların yaradılmasında həmişə istifadə edilir.

Ədəbiyyat

1. Akyol N., Önen H., Sarı T., 2015. Phytolacca americana Türkiye İstilacı Bitkiler Kataloğu, Editör Huseyin Onen, T.C. Gıda, Tar. ve Hay. Bakanlığı. TAGEM, Bit. Sağ. Araş. Daire Başk., – Ankara, L. – s. 441-449. ISBN: 978-605
2. Блинова К.Ф. и др. Ботанико – фармакогностический словарь: Справ. пособие/ Под ред. К.Ф. Блиновой, Г.П. Яковлева – М.: Высш. шк., – 1990. – 252 с.
3. Губанов И.А. и др. Дикорастущие полезные растения СССР/ отв.ред. Т.А.Работнов. – М.: Мысль, – 1976. – с.120 - 121
4. Лекарственные растения. — иллюстрированный энциклопедический словарь. – М.: Эксмо, – 2007. – с. 295-296.
5. Орлов Б.Н. Ядовитые животные и растения СССР. – Изд., Высшая школа, – 1990, – 272 с.

Məqalə biologiya üzrə fəlsəfə doktoru Lamiyə Quliyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 05.01.2022, son daxilolma –15.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 229-234
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 229-234
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.229-234

UOT 597

Kiçik dağ çaylarının makrozoobentosu

Müəlliflər:

Akif Bayramov
AMEA Naxçıvan Bölməsi
E-mail:
akifbayramov50@mail.ru

Mahir Məhərrəmov
AMEA Naxçıvan Bölməsi
E-mail: mahirm@gmail.com

Açar sözlər:
Ordubad rayonu, makrobentik fauna, su axımı, saprobioloji müşahidələr

Annotasiya. Axımı Ordubad rayonu ərazisində formalaşan kiçik dağ çayları Əylisçay, Gənzəçay və Kotamçayın makrozoobentosu ilk dəfə öyrənilmişdir. Əylisçayda 11 sistematik qrupa aid 32 növün, Gənzəçayda 9 sistematik qrupa aid 23 növün və Kotamçayda isə 12 sistematik qrupa aid 38 növün yayıldığı müəyyən edilmişdir. Çayların makrobentik faunasında Coleoptera (8 növ), Trichoptera (12 növ) və Chironomidae (9 növ) sistematik qruplarına mənsub olan su-hava həyat tərzli reofil növlər (ümumi növlərin 85%-i) ilə üstünlük təşkil etmişlər. Çaylarda makrobentofaunanın yüksək kəmiyyət və keyfiyyət göstəriciləri yaz və erkən yay aylarına təsadüf etmişdir. Biogöstərici makrobentik orqanizm növlərinə görə Əylisçay və Gənzəçayın sularının ekoloji vəziyyətini təmiz, oliqosaprob sular, Kotamçayın suyunun isə kifayət qədər təmiz, β-mezasaprob kimi qiymətləndirmək olar. Başqa sözlə, yaz-yay aylarında hər 3 çayın suyu təmiz, içməli su kimi isə keyfiyyəti yüksəkdir. Saprobioloji müşahidələr göstərdi ki, həmin çay ekosistemlərində üzvi maddənin destruksiyası onun toplanmasını xeyli üstələyir.

Macrozoobenthos of small mountain rivers

Authors:

Akif Bayramov
Nakhchivan Branch of ANAS
E-mail:
akifbayramov50@mail.ru

Mahir Maharramov
Nakhchivan Branch of ANAS
Email: mahirm@gmail.com

Key word:
Ordubad district, macrobenthic fauna, water runoff, saprobiological observations

Abstract. The macrozoobenthos of the small mountain rivers Aylischay, Ganzachay and Kotamchay, which are formed on the territory of the Ordubad district, was studied for the first time. In Aylischay, 32 species from 11 systematic groups were identified, in Ganzachay, 23 species from 9 systematic groups, and in Kotamchay 38 species from 12 systematic groups. The macrobenthic fauna of the rivers was dominated (85% of the total number of species) by rheophilic species of larvae of aquatic insects belonging to the systematic groups Coleoptera (8 species), Trichoptera (12 species) and Chironomidae (9 species). High quantitative and qualitative indicators of the macrobenthic fauna of the rivers were noted in spring and early summer. According to the species of saprobic macrobenthic organisms, the ecological state of the waters of Aylischay and Ganzachay can be assessed as clean, oligosaprobic waters, and the waters of Kotamchay can be assessed as fairly clean, β-mesasaprobic. In other words, in spring and summer, the water of all three rivers is clean, and the quality is not inferior to drinking water. Saprobiological observations have shown that the destruction of organic matter in these river ecosystems significantly exceeds its accumulation.

Макрозообентос малых горных рек

Авторы:

Акиф Байрамов
Нахчыванское отделение НАНА
E-mail:
akifbayramov50@mail.ru

Махир Магеррамов
Нахчыванское отделение НАНА
Email: mahirm@gmail.com

Ключевые слова:
Ордубадский район, макробентическая фауна, сток воды, сапробиологические наблюдения

Аннотация. Впервые изучен макрозообентос малых горных рек Айлисчай, Ганзачай и Котамчай, формирующихся на территории Ордубадского района. В Айлисчае выявлено 32 вида из 11 систематических групп, в Ганзачае – 23 вида из 9 систематических групп, а в Котамчае – 38 видов из 12 систематических групп. В макробентической фауне рек преобладали (85% от общего числа видов) реофильные виды личинок водно-воздушных насекомых, относящихся к систематическим группам Coleoptera (8 видов), Trichoptera (12 видов) и Chironomidae (9 видов). Высокие количественные и качественные показатели макробентофауны рек отмечены весной и в начале лета. По видам сапробных макробентосных организмов экологическое состояние вод Айлисчая и Ганзачая можно оценить как чистое, олигосапробные воды, а воды Котамчая – как достаточно чистое, β-мезасапробные. Другими словами, весной и летом вода всех трёх рек чистая, и качество не уступает питьевой воде. Сапробиологические наблюдения показали, что деструкция органического вещества в этих речных экосистемах значительно превышает его накопление.

Giriş. Naxçıvan Muxtar Respublikasının digər rayonlarından fərqli olaraq Ordubad rayonunun ərazisində təbii hidroqrafik şəbəkə atmosfer yağıntılarının nisbi bolluğundan asılı olaraq daha yaxşı inkişaf etmişdir. Şəbəkə başlanğıcını Zəngəzur dağ silsiləsinin cənub-qərb yamaclarından götürən, yatağı bəzən çox böyük çay daşları ilə örtülü iri və kiçik tipik dağ çaylarından ibarətdir. Çayların illik axımı qar, yağış və yeraltı suların hesabına formalaşır. Yaz-yay aylarında bu çaylar gur suludur, onlarda güclü sel hadisələri baş verə bilir. Onların hamısında sel gətirmə konusları mövcuddur. Çayların yuxarı hissələri iti axınlı, astanalıdır, irili-xırdalı şəlalələrə rast gəlinir. Hidrokimyəvi tərkibinə görə Ordubad rayonu çaylarının suyu əhalinin içməli suya olan tələbatının ödənilməsi, təsərrüfat və texniki məqsədlər tam yararlıdır.

Son illər rayon ərazisində formalaşan su ehtiyatlarından səmərəli istifadə edib əhalinin içməli su ilə təchizatını, kənd təsərrüfatı sahələrinin suvarma suyuna olan ehtiyacını daha da yaxşılaşdırmaq, həmçinin elektrik enerjisi istehsalı məqsədi ilə çayların yatağı üzərində yaradılmış hidrotexniki qurğular və suvarma kanalları xüsusi xalq təsərrüfatı əhəmiyyəti daşıyır (Şəkil).

Su şəbəkəsi bütünlükdə rayonun iqliminə, havasının rütubətinə və istiliyinə müəyyən təsirini göstərməklə bərabər, həm də zəngin növmüxtəlifliyinə malik olan su canlılarının geniş yaşayış mühitidir. Çay ekosistemlərində əsas trofik halqalardan birini makrozoobentos toplumları-dib yatağın çoxhüceyrəli onurğasız sakinləri təşkil edir. Müşahidələr göstərmişdir ki, bütün dağ çaylarında dib faunası mənbədən mənsəbə doğru, başlıca olaraq, suyun axın sürətinə uyğunlaşmış makrobentik növlərin populyasiyalarından ibarətdir.



Şəkil. Naxçıvan Muxtar Respublikasının hidroqrafik şəbəkəsi
("Naxçıvan Muxtar Respublikasının coğrafiyası" kitabından)

Dağ çayları ekosistemlərində suyun dəyişən sürətindən asılı olaraq formalaşan biotoplar, abiotik və biotik mühit amilləri makrobentik dib faunasının miqdarca inkişafına və məkanca paylanmasına özünün güclü təsirini göstərib fərqli ekoloji xüsusiyyətlərə və zəngin növmüxtəlifliyinə malik reofil heyvan qrupunu əmələ gətirir.

Makrozoobentos müxtəlif tipli sututarlarda hidrobioloji rejimin tənzim edilməsində, canlılar arasında mövcud olan qida və enerji münasibətlərində əhəmiyyətli rol oynayır. Biogöstərici növlərin kəmiyyət göstəriciləri suların üzvi çirklənmə səviyyəsini bioloji üsullarla qiymətləndirməyə imkan verir. Qeyd etmək lazımdır ki, tibbi və baytarlıq əhəmiyyəti ilə seçilən çoxsaylı qansorucu ikiqanadlı (Diptera) növlərinin çoxalması və inkişafı su mühitində baş verir.

Ədəbiyyat icmalı. Naxçıvan təbii rayonunda sututarların dib faunası haqqında ilk elmi məlumatlar XX əsrin ikinci onilliyinə təsadüf edir. Muxtariyyətinin ilk illərindən başlayaraq Naxçıvan MR-in hidrofaunası Azərbaycan mütəxəssislərinin önəm verdikləri əsas tədqiqat sahələrindən biri olmuşdur. Ölkə mütəxəssisləri tərəfindən yerinə yetirilən hidrobioloji tədqiqat işləri təbii olaraq Ordubad rayonunun da faunasını əhatə etmişdir. 2003-cü ildən başlayaraq AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşları tərəfindən sututarlarımızda, o cümlədən iri və kiçik çaylarımızda formalaşmış zəngin makrozoobentik fauna sistemli şəkildə öyrənilməyə başlanılmışdır [1, s. 4-8; 2, s. 244-254; 3, s. 189-197; 4, s. 189-196; 5, s. 343-378].

İşin məqsədi: Arazın sol qollarını təşkil edən və su axımı Ordubad rayonu ərazisində formalaşan Əylisçayın, Gənzəçayın və Kotamçayın dib faunasının öyrənilməsi nəzərdə tutulmuşdur. Əsas məqsəd gursulu dövrlərdə Arazla qovuşa bilən kiçik dağ çaylarının dib faunasının növ tərkibini, onun əsas sistematik qruplarını, faunaların biosenotik oxşarlığını, inkişaf dinamikasını və yüksəklik qurşaqları üzrə paylanması qanunauyğunluqlarını müəyyən etməkdən ibarət olmuşdur.

İşin materialı və metodikası: Makrozoobentos nümunələri çayların yuxarı, orta və aşağı axınlarında müxtəlif biotoplardan hidrobioloji tor və tutum sahəsi 0,01 m2 olan təkmilləşdirilmiş metal boru (d=11 sm) vasitəsi ilə toplanılmışdır. Materiallar laboratoriya şəraitində MBS-10 (İstehsalçı LZOS, Rusiya Federasiyası) binokulyar mikroskopu altında müayinə edilmişdir. Təyinedici kitablara və İnternet mənbələrinə əsasən orqanizmlərin növü və sistematik vəziyyəti təyin edilmişdir. Material əldə edilərkən həmçinin suyun axın sürəti, temperaturu, şəffaflığı, dərinliyi, pH-ı, qruntun növü, ali su bitkilərinin inkişafı və hava şəraiti qeyd edilmişdir [6, s. 3-50; 7, s. 33-35; 8, s. 15-455; 9, 10].

Eksperimental hissə: Əylisçay, Gənzəçay və Kotamçay axımı rayon ərazisində formalaşan və sosial-iqtisadi əhəmiyyəti ilə fərqlənən kiçik dağ çaylarıdır. Onlar sululuğuna görə rayonun digər çaylarından geri qalır və axımı il müddətində olduqca qeyri-bərabər paylanır. Yaz fəslində hidrometeoroloji şərait səbəbindən gursulu hesab edilən çayların suyu yay aylarında xeyli azalır. Bu fəsillərdə leysan yağışları həmin çaylarda güclü sel hadisələrinin baş verməsinə səbəb olur. Hər 3 çay qədim dağ dərələrinə malik olub bölgənin şərq hissəsində hidroqrafik şəbəkənin müxtəlifliyinə ciddi təsirini göstərə bilmişdir.

Əylisçayın uzunluğu 24 km, su toplayıcı sahəsi 58 km2-dir. Başlanğıcını Zəngəzur dağ silsiləsinin 3100 m yüksəkliyindən alır. Vərdənədərə və Dabaxlıdağ adlı çayların birləşməsindən əmələ gəlmişdir. Su axımının çox hissəsi qar, yağış və yeraltı suların hesabına formalaşır.

Gənzəçayın uzunluğu 17 km, su toplayıcı sahəsi 45 km2-dir. Zəngəzur dağ silsiləsinin cənub-qərb yamacından, 2700 m yüksəklikdən başlanğıc götürür. Axımı əsasən qar, yağış və qismən də yeraltı sulardan əmələ gəlir.

Kotamçay Zəngəzur dağ silsiləsinin cənub-qərb yamaclarında 1640 m hündürlükdən başlayır. Eyniadlı kəndin yaxınlığında 617 m dəniz səviyyəsindən hündürlükdə Arazla qovuşa bilir. Uzunluğu 8 km, su toplayıcı sahəsi 22 km2-dir. Əsasən qar və yağış suları ilə qidalanır.

Çaylarda yaz-yay aylarında toplanılmış nümunələrin işlənilməsi nəticəsində aşkar edilmiş makrobentik orqanizmlərin sistematik qruplar üzrə növ tərkibi aşağıdakı cədvəldə (Cədvəl) öz əksini tapmışdır.

Əylisçay, Gənzəçay və Kotamçayın makrozoobentosu

Sistematik qrupların və növlərin adı	Çayların adı		
	Əylisçay	Gənzəçay	Kotamçay
Oligochaeta			
1. Tubifex tubifex (Müller, 1774)	+		
2. Eiseniella tetraedra (Savygni, 1826)			+
Hirudinea			
3. Glossiphonia heteroclita, (Linnaeus, 1761)	+		+
4. Helobdella stagnalis (Linnaeus, 1758)	+		+
Mollusca			
5. Unio crassis Philipsson, 1788	+	+	
6. Physa fontinalis (Linnaeus, 1758)			+
Ostracoda			
7. Candona neglecta (Sars, 1887)			+
8. Ilyocypris divisa Klie, 1926	+		
9. Ostracoda sp.		+	+
Ephemeroptera			
10.Cloeon dipterum (Linnaeus, 1761)	+	+	+
11.Lepthophlebia s.margin. (Linnaeus, 1767)	+		
12.Ephemera vulqare (Linnaeus, 1758)			+
13.Habrophlebia fusca (Curtis, 1834)		+	
Odonata			
14.İschnura pumilio Charpentier, 1823	+		+
15.Anax imperator (Leach, 1815)			+
16.Brachytron pratense (Mueller, 1764)			+
17.Libellula depressa Linnaeus, 1758	+	+	+
Plecoptera			
18.Capnia bifrons (Newman, 1838)	+	+	
19.Leuctra nigra (Olivier, 1811)	+		
20.Nemoura marginata Pictet,1836	+	+	+
21.Perlodes dispar (Rambur, 1842)	+		
Coleoptera			
22.Hydaticus seminiger (De Geer, 1778)			+
23.Agabus undulatus (Schrank, 1776)			+
24.Agabus bipustulatus (Linnaeus, 1767)			+
25.Ilybius fuliginosus (Fabricius, 1792)	+	+	+
26.Hydroporus sp.		+	+
27.Helophorus aquaticus (Linnaeus, 1758)	+	+	
28.Hydrobius fuscipes (Linnaeus, 1758)			+
29.Limnius volckmari (Panzer, 1793)	+	+	+
Trichoptera			
30.Cheumatopsyche lepida (Pictet, 1834)			+

31.Hydropsyche ornatula McLachlan, 1878	+	+	+
32.Phylopotamus montanus (Donovan, 1813)		+	+
33.Hydroptila fortunata Morton, 1893	+		+
34.Phryganea bipunctata Retzius, 1783	+		+
35.Phryganea pilosa Fabricius, 1775		+	+
36.Mystacides azureus Linnaeus, 1761	+		
37.Limnephilus bipunctatus Curtis, 1834	+		
38.Limnephilus decipiens Kolenati, 1848	+		
39.Potamophylax stellatus (Curtis, 1834)		+	+
40.Apatania muliebris McLachlan,1866		+	
41.Notidobia ciliaris (Linnaeus, 1761)		+	
Diptera			
42.Tabanus bovinus Linnaeus, 1758	+		+
43.Haemotopota crassicornis Wahlberg, 1848		+	
44.Dixella amphibia (De Geer, 1778)	+		+
45.Limnobia sp.	+		
46.Pericoma sp.			+
Simulidae			
47.Eusimulium znoikoi Rubtsov, 1940	+		
48.Odaqmia varieqata (Meigen, 1818)		+	+
49.Simulium kurense Rubt. et Djafarov, 1951	+		
50.Simulium sp.			+
Chironomidae			
51.Ablabesmyia monilis (Linnaeus, 1758)	+		
52.Procladius choreus (Meigen, 1804)			+
53.Cryptochironomus anomalis Kieffer, 1908	+		+
54.Polypedulum nubeculosum Meygen, 1804			+
55.Cricotopus silvestris Fabricius, 1794		+	+
56.Eukiefferlla sellata Pankratova, 1950	+	+	
57.Eukiefferlla oxiana Pankratova, 1950	+	+	
58.Psectrocladius psilopterus (Kieffer, 1906)			+
59.Psectrocladius sp.			+
60.Diamesa nivalis Pankratova, 1950	+	+	+
Cəmi: 60	32	23	38

Göründüyü kimi, Əylisçayın makrobentik faunası - 11 sistematik qrup və 32 növlə, Gənzəçayın - 9 sistematik qrup və 23 növlə, Kotamçayınki isə 12 sistematik qrup və 38 növlə təmsil olunmuşdur. Növlərinin zənginliyinə görə Kotamçayın üstünlüyü çay yatağında bitki örtüklü sahələrin və qarışıq biotopların bolluğu ilə əlaqədardır. Gənzəçayın sakit axarlı sahələrində iri çay daşlarının əmələ gətirdiyi biotop cəmi 2 növ mütləq makrobentik dib onurğasızının yaşaya bilməsinə imkan vermişdir. Çayların dib faunasında Coleoptera (8 növ), Trichoptera (12 növ) və Chironomidae (9 növ) sistematik qrupları su-hava həyat tərzli növlərin zənginliyi ilə fərqlənmişlər. Həmin çay ekosistemlərində Naxçıvan MR-in digər çaylarında olduğu kimi makrobentofaunanın yüksək göstəriciləri yaz və erkən yay aylarına təsadüf etmişdir.

Çayların cüt-cüt müqayisə edilən biosenotik

oxşarlıq dərəcələrinin aşağı qiymətləri hesablanmışdır. Bunu mühitin fərqli biotik və abiotik amilləri (yatağı təşkil edən qruntların müxtəlifliyi, su sərfinin erkən və kəskin dəyişilməsi, biotopların müvəqqəti xarakteri və s.) və həmin çayların eyni axın hissələrində oxşar növ tərkibli zoosenozların formalaşa bilməməsi ilə əlaqələndirmişik.

Bol sulu dövrlərdə hər 3 çayın orta axınında mühitin üzvi çirklənməsinə olduqca həssas (0,50 – 1,50; oliqosaprob) növlər - (Capnia bifrons (Newman, 1838), Leuctra nigra (Olivier, 1811), Nemoura marginata Pictet,1836, Perlodes dispar (Rambur, 1842) və Apatania muliebris McLachlan,1866) 20-50% rastgəlmə tezliyi ilə fərqlənmişlər. Həmin biogöstərici orqanizmlərinə görə Əylisçay və Gənzəçay sularının ekoloji vəziyyətini təmiz, oliqosaprob sular (S = 0,50 – 1,50), Kotamçayın suyunun isə kifayət qədər təmiz, β-mezasaprob (S = 0,51 – 2,50) kimi qiymətləndirmək olar. Kotamçay erkən yaz günlərindən daha tez zoogen və antropogen təsirlərə məruz qalır. Başqa sözlə, yaz-yay aylarında bioloji göstəricilərinə görə, hər 3 çayın suyu təmiz, içməli su kimi isə keyfiyyəti yüksəkdir.

Nəticələr. Kiçik çayların makrobentik faunası müvafiq olaraq aşağıdakı sistematik qrup və növ sayı ilə təmsil olunmuşdur: Əylisçay - 11 sistematik qrup və 32 növ, Gənzəçay - 9 sistematik qrup və 23 növ, Kotamçay isə 12 sistematik qrup və 38 növ. Çayların dib faunasında Coleoptera (8 növ), Trichoptera (12 növ) və Chironomidae (9 növ) sistematik qrupları növlərinin zənginliyi ilə fərqlənmişlər. Həmin çay ekosistemlərində Naxçıvan Muxtar Respublikasının digər çaylarında olduğu kimi dib faunasının yüksək göstəriciləri yaz və erkən yay aylarına təsadüf etmişdir. Biogöstərici orqanizmlərinə görə Əylisçay və Gənzəçay sularının ekoloji vəziyyətini təmiz, oliqosaprob sular (S = 0,50 – 1,50), Kotamçayın suyunun isə kifayət qədər təmiz, β-mezasaprob (S = 0,51 – 2,50) kimi qiymətləndirmək olar. Başqa sözlə, yaz-yay aylarında hər 3 çayın suyu təmiz, içməli su kimi isə keyfiyyəti yüksəkdir. Saprobioloji müşahidələr göstərir ki, hər 3 çay ekosistemində üzvi maddənin destruksiyası onun toplanmasını xeyli üstələyir.

Ədəbiyyat

1. Софиев З.П. Донная фауна водоёмов Нах.АССР: Автореф. дисс…, канд. биол. наук. – Баку, – 1969, – 21 с.
2. Bayramov A.B., Məmmədov T.M., Fərəcov H.R. Naxçıvan Muxtar Respublikasının əsas çaylarının hidrobioloji xüsusiyyətləri // Naxçıvan Regional Elm Mərkəzinin əsərləri, VII bur. – Bakı: Elm, – 2003, – s. 244-254.
3. Bayramov A.B., Məhərrəmov M.M., Məmmədov T.M., Axundov A.Y. Naxçıvan Muxtar Respublikasında aparılmış hidrobioloji və ixtioloji tədqiqat işlərinin nəticələri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Təbiət və texniki elmlər seriyası, – 2014, c. 10, № 4, – s. 189-197.
4. Bayramov A.B. Çay ekosistemlərində mühit amillərinin dib faunasının inkişafına təsiri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Təbiət və texniki elmlər seriyası, – 2016, c. 12, № 2, – s.189-197.
5. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Fiziki coğrafiya. I cild. – Naxçıvan: Əcəmi, – 2017, – 455 s.
6. Методические рекомендации по сбору и обработке материалов при гидробиологических исследованиях на пресноводных водоёмах. Зообентос и его продукция. – Ленинград: Изд-во Зоологического Института АН СССР, – 1984, – 51 с.
7. Методы мониторинга в Каспийском море. – Баку: Полиграф, – 2000, – с. 33-35.
8. Определитель зоопланктона и зообентоса пресных водоёмов Европейской России. Под редакцией В.П. Алексеева и С.В.Цалолихина., т. 2. Зообентос. – М-С.: Изд-во ЗИН РАН, – 2016, – 457 с.
9. http://eol.org/encyclopedia of life
10. http//www/faunaeur.org

Məqalə biologiya üzrə fəlsəfə doktoru, dosent Asif Axundov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –06.01.2022 , son daxilolma –14.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 235-240
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 235-240
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4, с.235-240

UOT 636.03

Müxtəlif canlı çəkiyə malik ətlik-yunluq ana qoyunların süd məhsuldarlığı və onun nəslin böyümə intensivliyinə təsiri

Müəllif:

Əlövsət İbrahimov
Aqrar elmlər üzrə fəlsəfə dok toru
AMEA Naxçıvan Bölməsi
E-mail: ibrahimov@ mail.ru

Açar sözlər:
ətlik və yunluq qoyunlar, diri çəki, süd məhsuldarlığı, mütləq artım, orta sutkalıq çəki artımı, quzular

Annotasiya. İşin məqsədi Balbas cinsindən olan ətlik-yunluq ana qoyunların diri çəkisinin süd məhsuldarlığına və balaların böyümə sürətinə təsirini öyrənməkdir. Təcrübə üçün hər qrupda 10 ana qoyun olmaqla quzulu qoyunlardan 3 qrup yaradılmışdır. Diri çəkisi müxtəlif olan qoyunlar: I qrup - diri çəkisi 55 kq-a qədər, II – 55-kq-dan -60 kq-a dək, III - 60 kq və yuxarı. Heyvanlar eyni istehsalat şəraitində saxlanılaraq müəyyən edilmişdir ki, bütün laktasiya dövründə (105 gün) III qrupdan olan qoyunlardan süd sağımı I qrupdan olan ana qoyunlardan 9,10%, II qrupdan isə 4,70% çox olmuşdur. Böyümənin bütün dövrlərində diri çəkisi 60 kq və daha çox olan III qrupdan ana qoyunlardan alınan nəsillər I və II qrupların quzularını üstələyir. İqtisadi səmərəliliyin hesablanması göstərdi ki, quzuların satışından əldə edilən 1 başa qazanc III qrupdan olan qoyunlarda daha yüksək olmuşdur. Rentabellik səviyyəsinə görə onlar I və II qruplardakı ana qoyunları 10,78 və 5,65 % üstələyirlər.

Author:

Alovset Ibrahimov
Doctor of philosophy in Agrarian Sciences
Nakhchivan Department of Anas
E-mail: ibrahimov@ mail.ru

Milk producing ability of meat-wool ewes with different live weight and its influence on the offspring growth rates

Key word:
meat-wool ewes, live weight, milk producing ability, absolute weight gain, average daily weight gain, ewe lamb

Abstract. The research was carried out in the farm of Hasan Gumbat oglu Ismailov, Ordubad district of the Nakhchivan Autonomous Republic. The aim of the work is studying the effect of the live weight of meat-wool ewes of the Balbas breed on milk productivity and the growth rate of offspring. In order to conduct the experiment, 3 groups of 10 ewes with lambs were formed. The ewes in the groups had different live weight: Group I -up to 55 kg, Group II -from 55 to 60 kg, Group III –60 kg and over. The animals were managed under the same production conditions. It was found that throughout the entire lactation (105 days), the ewes of Group III significantly outperformed the ewes of Group I by 9,10% and Group II -by 4,70%. There-fore, it may be emphasized that meat-wool ewes in our experiment are characterized by a stable lactation curve with a peak during the second control period. The offspring obtained from Group III ewes with a live weight of 60 kg and over exceeded the offspring of Groups I and II at all growth stages. The calculation of economic efficiency showed that the profit from the sale of lambs per head was higher than that of Group III. In terms of profitability, they exceeded the ewes of Groups I and II by 10,78% and 5,65%. It follows that the farms engaged in breeding meat-wool sheep of the Balbas breed should take into account the influence of the ewe live weight on the milk production and lamb growth rates and select ewes with live weight of 60 kg and over.

Автор:

Аловсат Ибрагимов
Доктор философии по аграрным наукам
Нахчыванское отделение НАНА
E-mail: Ибрагимов@ mail.ru

Молочная продуктивность мясо-шерстных овцематок с разной живой массой и ее влияние на интенсивность роста потомства

Ключевые слова:
мясо-шерстные овцематки, живая масса, молочная продуктивность, абсолютный прирост, среднесуточный прирост, ярки

Аннотация. Целью работы является изучение влияния живой массы мясошерстных овцематок балбасской породы на молочную продуктивность и интенсивность роста потомства. Для проведения опыта сформированы 3 группы овцематок с ягнятами, по 10 маток в группе. Овцематки с разной живой массой: I группа – с живой массой до 55 кг, II – от 55 до 60 кг, III – 60 кг и более. Животных содержали в одинаковых производственных условиях. Установлено, за весь лактационный период (105 дней) овцы из III группы достоверно превосходят маток из I группы на 9,10%, а из II группы – на 4,70%. Потомство, полученное от маток из III группы с живой массой 60 кг и более во все периоды роста, превосходит ярок из I и II групп. Расчёт экономический эффективности показал, что прибыль от реализации ягнят в расчете на 1 гол. была выше у овцематок из III группы. По рентабельности они превосходили овцематок I и II групп на 10,78% и 5,65% соответственно.

Giriş

Müasir şəraitdə heyvanlardan alınan məhsulların məhsuldarlığını artırmaq və onun istehsalı üçün lazım olan xərclərin azaldılmasına nail olmaq lazımdır. Bütün bunlar qoyunçuluğun uğurlu inkişafına təsir göstərən əsas amillərdir [1; 2; 3; 4].

Qoyunçuluqda əsas vəzifə sağlam və keyfiyyətli nəsil əldə etməkdir. Postembrional dövrdə balaların məhsuldarlığı və həyat qabiliyyəti qoyunlardan alınan südün miqdarından və keyfiyyətindən asılıdır [5].

Öz növbəsində süd istehsalına bir çox müxtəlif amillər təsir edir [6].

M.A.Dmitriyeva, A.D.Volkov müəyyən etmişdir ki, "Qoyunçuluqda əsas damazlıq əlamətlərindən biri diri çəkidir, məhsuldarlıq istiqamətindən asılı olaraq digər məhsul növləri ilə eyniləşdirilə bilər" [7].

O.A.Kobzar öz tədqiqatlarında qeyd edir ki, "Canlı çəkisi 60 kq-a qədər olan qoyunların süd məhsuldarlığı ilə 61-70 kq arasında olan süd məhsuldarlığı arasında fərq 23,3% təşkil edir" [8].

T.V.Murzina və başqaları bildirirlər ki, "Doğuşdan yeddi aya qədər olan dövrdə diri çəkisi 56-60 və 61-65 kq olan analardan alınan quzular ən intensiv inkişaf edir" [9].

Yuxarıdakı məlumatları təhlil edərək, ana qoyunların diri çəkisinin balaların məhsuldarlığına müsbət təsirini qeyd edə bilərik. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası şəraitində Balbas cinsli qoyunların diri çəkisinin məhsuldarlığa təsirinin öyrənilməsinə yönəlmiş tədqiqatlar aparılmamışdır və bu məqsədlə gələcək yetişdirmə üçün yeni parametrlərin tapılmasına obyektiv ehtiyac vardır.

İşin məqsədi Balbas cinsindən olan yarımqaba yunlu ana qoyunların diri çəkisinin süd məhsuldarlığına təsirini və onların balalarının diri çəkisinin artım dinamikasını öyrənməkdən ibarətdir.

Tapşırıqlar: 1) qoyunların diri çəkisinin onların süd məhsuldarlığına təsirini öyrənmək;
2) süd məhsuldarlığının quzuların diri çəkisinə təsirini qiymətləndirmək;

3) təcrübənin iqtisadi səmərəliliyini hesablamaq.

Tədqiqatın obyekti və üsulları

Cədvəl 1-də təqdim olunan eksperimental sxemə uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda yerləşən məxsus fermer təsərrüfatında elmi-istehsalat təcrübəsi aparılmışdır.

Cədvəl 1

Təcrübənin sxemi

Ana qoyunların canlı kütləsi		
55 kq-a dək	60 kq-dək	60 kq və yuxarı
heyvanların miqdarı, başla		
10 ana qoyun və 10 quzu	10 ana qoyun və 10 quzu	10 ana qoyun və 10 quzu
öyrənilən göstəricilər: -laktasiya ərzində ana qoyunların süd məhsuldarlığı; -orta gündəlik süd; -quzuların doğulduqda, 20 günlük və 4 aylıqda canlı kütləsi; -mütləq artım		
Təcrübənin iqtisadi səmərəliliyi;		

Qoyunların süd məhsuldarlığı Y.İ.İmigeyevin metodikasına əsasən nəzarət sağımı aparılaraq öyrənilmişdir. [10]. Heyvanlar eyni şəraitdə saxlanılmışdır. Nəticələr Excel proqramından istifadə etməklə biometrik olaraq işlənilmişdir [11].

Nəticələr və onun müzakirəsi

1-ci və ikinci şəkillərdə laktasiya dövrləri üzrə ana qoyunların süd sağımının nəticələri verilmişdir.

Nəzarət dövrləri(sağımı) üzrə ana qoyunların südveriminin dinamikasının təhlilindən (şək. 1) belə nəticə çıxır ki,(qənaətə gəlmək olur ki) II nəzarət dövründə bütün təcrübi qrupların qoyunlarından maksimum süd alınmışdır. III qrupdan olan heyvanlar laktasiyanın bütün dövrlərində I və II qrupların qoyunlarından, xüsusilə ikinci pik qrupda 2,64 kq (P> 0,99) və 1,93 kq (P> 0,999) ilə əhəmiyyətli dərəcədə fərqlənmişlər. Sonda III qrupda olan

ana qoyunların laktasiya müddətində süd sağımı I və II qruplardakı heyvanlarla müqayisədə 10,86 kq (P>0,999) və 5,61 kq (P>0,99) çox olmuşdur.



Şəkil 1. Laktasiya dövründə ana qoyunlardan süd sağımı dinamikası, kq



Şəkil. 2. Laktasiya dövründə ana qoyunlardan gündəlik süd sağımı, q

Cədvəl 2

Quzuların canlı kütləsi, kq

Qruplar	Göstəricilər		
	Doğulduqda	20 günlük	4 aylıq
I	3,93±0,04	8,92±0,08	28,85±0,39
II	3,96±0,06	9,12±0,07	29,95±0,26
III	4,00±0,05	9,32±0,12	31,16±0,28

Beləliklə, qeyd etmək olar ki, bizim təcrübəmizdə balbas cinsli ana qoyunlar ikinci nəzarət dövründə laktasiyanın pik nöqtəsi və sabit laktasiya əyrisi (şək. 2) ilə xarakterizə olunur.

Tədqiqat dövrü üçün təcrübə qruplarında olan quzuların diri çəkisi 2-ci cədvəldə verilmişdir.

Əldə edilmiş məlumatların təhlili (cədvəl 2) aşağıdakı qanunauyğunluğu aşkar etdi: III qrupdakı ana qoyunlardan doğulan balaların diri çəkisi I və II qruplardakı quzularla müqayisədə 20 günlük yaşda 0,40 kq (P> 0,95) və 0,20 kq, 4 aylıqda 2,31 kq (P>0,999) və 1,21 kq (P>0,99) müvafiq olaraq çox olmuşdur.



Şəkil 3. Mütləq artım, kq

Cədvəl 3

Təcrübənin iqtisadi səmərəliliyi

Qruplar	Göstəricilər			
	Quzularda diri çəki artımının dəyəri, man	Çəkilən xərc, man.	Bir baş ana qoyundan mənfəət, man	Rentabellik, %
I	54,44	40,43	14,01	34,67
II	56,52	40,43	16,09	39,80
III	58,80	40,43	18,37	45,45

Təcrübə qrupundakı quzuların böyümə intensivliyinin nəticələrini təhlil etdikdə aydın olur ki, III qrupdakı heyvanlarda böyümənin daha intensiv getdiyi müşahidə olunur (şək. 3). Süd əmər dövrü (4 aylıq) üçün mütləq artımın nəticələrinə görə bu qrupun quzuları I və II qrupda olan quzulardan müvafiq olaraq 8,98% (P>0,999) və 4,29% (P>0,99) yüksək olmuşdur.

III qrup ana qoyunlardan (diri çəkisi 60 kq və ya yuxarı olan) doğulan quzuların üstünlüyünü onunla izah etmək olar ki, qoyunların südlü olması nəslin böyüməsinə və inkişafına müsbət təsir göstərir. Quzuların böyüməsində ana qoyunun süd məhsuldarlığı ilə diri çəki artımı arasında müsbət korrelyativ əlaqə vardır. Bunun nəticəsidir ki, südəmizdirmə dövründə daha çox süd alan III qrupun quzuları süddən kəsilməzdən əvvəl diri çəkidə az süd verən ana qoyunlardan olan həmyaşıdlarını üstələmişlər.

Müxtəlif bədən çəkisi olan ana qoyunların süd məhsuldarlığına təsirinin iqtisadi səmərəsi quzuların diri çəkisinin artmasına çəkilən xərclərdən və onun istehsalına çəkilən xərclərdən hesablanmışdır (cədvəl 3).

III qrup qoyunların 1 başına quzu satışından əldə edilən gəlir daha çox olmuşdur. Rentabellik səviyyəsinə görə bu qrupda olan heyvanlar I və II qruplardakı ana qoyunlardan müvafiq olaraq 10,78 və 5,65% çox olması ilə fərqlənirlər.

Qoyunların diri çəkisinin yüksək olması onların süd məhsuldarlığına müsbət təsir göstərir. Diri çəkisi 60 kq və yuxarı olan qoyunlarda süd məhsuldarlığı xeyli yüksək olur və buna uyğun olaraq quzular süddən kəsildikdə yüksək çəki artımına malik olurlar.

Nəticə

Aparılmış tədqiqatlar əsasında müəyyən edilmişdir ki, III qrupda olan ana qoyunların tədqiqat dövründə süd məhsuldarlığı I və II qrupdakı ana qoyunlardan 10,86 və 5,61 kq çox olmuşdur. Bu qrupda olan qoyunların quzuları 4 aylığa çatdıqda I və II qrupdakı heyvanların quzularını diri çəki artımına görə 8,0 və 3,81 % üstələmiş olurlar.

Belə ki, Balbas cinsindən olan ətlik və yunluq qoyunların yetişdirilməsi ilə məşğul olan təsərrüfatlarda qoyunların diri çəkisinin süd məhsuldarlığına və quzuların böyümə sürətinə təsirini nəzərə almaq və diri çəkisi 60 kq və daha yuxarı olan ana qoyunları seçmək lazımdır.

Ədəbiyyat

1. Abdullayev Q. Q., Əliyev M. İ. Qoyunçuluq. – Bakı, – 2014, – 365 s.
2. Волков И. В., Хамируев Т. Н., Базарон Б.З. [и др.]. Эффективность раннего использования полугрубошерстных ярок Агинской породы для воспроизводства стада. // Сельскохозяйственный журнал. – 2020. № 4 (13). – с. 28-36.
3. Афанасьева А. И. Использование современных биотехнологических методов в животноводстве Алтайского края. / Аграрная наука – сельскому хозяйству: сборник статей в 3 кн. / XI Международная научно-практическая конференция (4-5 февраля 2016 г.). – Барнаул: РИО Алтайского ГАУ, – 2016. Кн. 3. – с. 68-72.
4. Казанцев Д. А., Л. В. Растопшина. Экономическая эффективность производства пантов в зависимости от возраста и класса маралов / Аграрная наука – сельскому хозяйству: сборник материалов: в 2 кн. / XIII Международная научно-практическая конференция (15-16 февраля 2018 г.). – Барнаул: РИО Алтайского ГАУ, – 2018. Кн. 2. – с. 244-246.
5. Афанасьева А. И., Сарычев В. А. Биохимические показатели крови ягнят западно-сибирской мясной породы при подсосе с овцематками, получавшими в период лактации йод-полимерный препарат «Монклавит-1» // Вестник ИрГСХА. – 2020. № 98. – с. 19-27.
6. Зуева Е. М., Владимиров Н. И. Молочная продуктивность и некоторые экстерьерные особенности коз разных пород пригородной зоны г. Барнаула // Наука и инновации: векторы развития: сборник научных статей в 2 кн. / Международная научно-практическая конференция молодых ученых. – Барнаул: РИО Алтайского ГАУ, – 2018. Кн. 1. – с. 156-158.

7. Дмитриева М. А., Волков А. Д. Влияние различных вариантов подбора на живую массу овец. // Вестник КрасГАУ. – 2009. № 10 (37). – с. 107-111.
8. Кобзарь, О. А. Молочна продуктивність вівцематок таврійського типу асканійської тонко-рунної. // Науковий вісник «Асканія-Нова». – 2008. Вип. 1. – с. 152-158.
9. Мурзина Т. В., Вершинин А. С., Дамдинова Л. Г. Мясная продуктивность валушков аргунского типа забайкальской породы в зависимости от живой массы овцематок // Сибирский вестник сельскохозяйственной науки. – 2014. № 2. – с. 38-42.
10. Имигеев Я. И., Разумеев К. Э., Абдурасулов А. Х., Касымбеков Р. К. Методика определения молочности овец и коз // Сборник научных трудов Ставропольского научно-исследовательского института животноводства и кормопроизводства. – 2007. Т. 2. № 2-2. – с. 28-34.
11. Коростелева Н. И., Кондрашкова И. С., Рудишина Н. М., Камардина И.А. Биометрия в животноводстве: учебное пособие. – Барнаул: Изд-во АГАУ, – 2009. – 210 с.

Məqalə biologiya üzrə fəlsəfə doktoru, dosent Asif Axundov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma –14.01.2022 , son daxilolma – 10.02.2022 , qəbulolunma –21.02.2022

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 1, s. 241-245
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 1, p. 241-245
Нахчыванский институт учителей. Научные труды, 2022, № 1, с.241-245

UOT 612+796.071

Havanın hərarət və rütubətinin idmançının fiziki iş qabiliyyətinə təsiri

Müəllif:

Xatın Ağayeva
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: atunagayeva94@gmail.com

Açar sözlər:
fiziologiya, idman, idmançı, məşq, hərarət, rütubət

Annotasiya. Məqalə idmançının uğur qazanmasında təbii amillərdən olan havanın təsiri məsələlərinə həsr olunmuşdur. İdmançının uğur qazanması üçün onun yalnız davamlı məşq etməsi kifayət deyil. Belə ki, idmançının hansı şəraitdə məşq etməsinin, yarış keçiriləcək əraziyə adaptasiya ola bilməsinina, sağlamlıq vəziyyətinin, məşq-istirahət növbələşməsinin düzgün təşkil olunmamasının, qida rejimin müvəffəqiyyətə əhəmiyyətli dərəcədə təsiri vardır. Sadalanan şərtlərlə birlikdə havanın hərarət və rütubətinin idmançının iş qabiliyyətinə təsiri də çox əhəmiyyətlidir. Havanın həddən artıq soyuq olması və ya həddən artıq isti olması, o cümlədən nisbi rütubətin normadan az və ya çox olması idmançının orqanizminin reaksiya verməsinə səbəb ola bilər. Məqalədə havanın hərarət və rütubətinin idmançının iş qabiliyyətinə təsiri araşdırılmış, istilik, tər ifrazı, su-buz balansı haqqında ətraflı məlumat verilmişdir. Eyni zamanda məşq və yarış prosesində suyun necə və nə qədər qəbulunun əhəmiyyətindən də bəhs olunmuşdur.

Affect of the temperature and humidity to the physical work of a sportsman

Author:

Khatin Agayeva
Nakhchivan Teachers Institute
E-mail: atunagayeva94@gmail.com

Key word:
physiology, sport, sportsmam, training, temperature, humidity

Abstract. The article deals with the affect of weather as one of the natural factors for the success of sportsman . It is not enough for a sportsman success to do continuous training for success. Thus, the conditions under which the exercises exist, the ability to adapt to the competition strategy, the correct setting of the situation, affect the diet. Along with the listed conditions, the effect of air temperature and humidity on the work is also very important. The weather may be too cold, too hot, that extra relative humidity may be lower or higher than normal. In the article, the affect of air temperature and humidity on the ability to work in heat was investigated, and detailed information was given about secretion, water-ice balance. At the same time, it is also discussed how and how much water is harmful during training and competition.

Влияние температуры и влажности воздуха на физическую работоспособность спортсмена

Автор:

Хатын Агаева
Нахчыванский институт учителей
E-mail: atunagayeva94@gmail.com

Ключевые слова:
физиология, спорт, спортсмен, тренировка, температура, влажность

Аннотация. Статья посвящена вопросам влияния природных факторов на успехи спортсмена. Для того чтобы спортсмен добился успеха, ему недостаточно просто постоянно тренироваться. Так, значительное влияние на успех оказывают условия, в которых тренируется спортсмен, невозможность адаптации к местности, где будут проводиться соревнования, состояние здоровья, неправильная организация чередования тренировок и отдыха, режим питания. В сочетании с перечисленными условиями влияние температуры и влажности воздуха на работоспособность спортсмена также имеет большое значение. Слишком холодная или слишком жаркая погода, в том числе с относительной влажностью ниже или выше нормы, может вызвать реакцию организма спортсмена. В статье исследуется влияние температуры и влажности воздуха на работоспособность спортсмена, дается подробная информация о жаре, выделении пота, водно-ледяном балансе. В то же время была подчеркнута важность того, как и сколько воды следует принимать в процессе тренировок и соревнований.

Giriş

Uzun illərdir davam edən araşdırmalar nəticəsində mütəxəssislər ortaq fikrə gəlmişdirlər ki, İdmançının uğur qazanması üçün onun yalnız davamlı məşq etməsi kifayət deyil. Belə ki, idmançının hansı şəraitdə məşq etməsinin, yarış keçiriləcək əraziyə adaptasiya ola bilməsinina, sağlamlıq vəziyyətinin, məşq-istirahət növbələşməsinin düzgün təşkil olunmamasının, qida rejimin müvəffəqiyyətə əhəmiyyətli dərəcədə təsiri vardır. Sadalanan şərtlərlə birlikdə havanın hərarət və rütubətinin idmançının iş qabiliyyətinə təsiridə çox əhəmiyyətlidir. Havanın həddən artıq soyuq olması vəya həddən artıq isti olması o cümlədən nisbi rütubətin normadan az vəya çox olması idmançının orqanizminin reaksiya verməsinə səbəb ola bilər. Bəs bu təsir necə müəyyən oluna bilər və görülməli olan tədbirlər nələrdən ibarətdir? Bu məqalədə havanın hərarət və rütubətinin idmançının iş qabiliyyətinə təsiri araşdırılmış istilik, tər ifrazı, su-buz balansı haqqında ətraflı məlumat verilmişdir. Və bundan başqa yarış zamanı su içmə qaydası haqqında ətraflı danışılmışdır.

Gərgin və uzunmüddətli idman fəaliyyəti zamanı (məs; marafon qaçışında) işləyən əzələlərdə istilik yaranması əsas mübadiləyə nisbətən 15-20 dəfə artır. Əzələlərdə əzələ gərginliyi nəticəsində yaranan istilik qana keçərək, onunla birlikdə bədənə daxil olur və onun hərarətini 39-400 S qədər (işçi hipertermiya) artırır. Bu vəziyyətdə orqanizmin istilik tənzimi istiliyin xaric olunmasını artırır. Bunun üçün qan dövranının köməyilə istilik bədənin səthindən tər vasitəsilə mühitə verilir.

Havanın hərarəti və rütubətin artması istiliyin verilməsini çətinləşdirir və bədəni istivurma həddinə çatdıra bilər. Xarici hərarət artıqca bədən hərarəti yüksəlir. Isti və rütubətli havada marafonçunun bədən hərarəti 410 S çata bilər. Sürətli tər ifrazı bədənin su balansını pozur (dehidratasiya). Ürək-damar sisteminin üzərinə gərginlik düşür. Ona görə də bu şəraitdə idmançının iş qabiliyyəti azalır və istivurma qorxusu yaranır. Yüksək hərarətli, rütubətli hava şəraitində idmançıda iş qabiliyyətinin azalmasına 3 əsas amil səbəb olur:

1. Bədən istiliyinin həddən artıq artması (işçi hipertermiya);

2. Sürətli dehidratasiya (su balansının pozulması);

3. Ürək-damar sisteminin oksigen daşıyıcısı imkanlarının azalması [1, s.32].

Havanın temperaturunun və rütubətinin artması şəraitində istivermənin fiziki mexanizmi. Havanın temperaturunun və rütubətinin artması şəraitində istivermənin çoxalması iki əsas fizioloji mexanizmlə baş verir.

1. Dərinin qan axınının artması;

2. Tərləmənin artması;

Yaşlı adamda xarici mühitin komfort şəraitində dərinin qan axını sakit vaxtı təxminən 0.16 l/m2/dəq. olur, iş zamanı isə 1 l/m2/dəq. çatır. Xarici mühitin çox yüksək temperaturunda 2.6 l/m2/dəqiqəyə qədər olur. Bu onu göstərir ki, havanın isti şəraitində istivurmanın qarşısını almaq üçün ürək atmasının 20%-i dərinin damarlarına istiqamətlənir.

Komfort şəraitində isə həmin işin icrası zamanı ürək atmasının payı 5% olur. Fiziki yükün şiddəti dərinin temperaturuna təsir etmir.

Dərinin temperaturu onun qan təchizatının miqdarı ilə düz mütənasibdir. Dəriyə gələn çoxlu qan onun temperaturunu artırır və əgər xarici mühitin temperaturu dərinin temperaturundan azdırsa, istiliyin keçirmə və radiasiya yolu ilə verilməsi çoxalır. Dərinin temperaturunun artması bədənə təsir edən xarici radiasiyanı azaldır.

Küləkli havada istivermə artır, dərinin temperaturu azalır və işçi hipertermiya zəifləyir. Bu isə velosiped idmanında, qaçışda işi asanlaşdırır.

İstiliyə uyğunlaşma zamanı fizioloji dəyişikliklər və onların mexanizmi. Istiliyə uyğunlaşma zamanı orqanizmdə bir sıra fizioloji dəyişikliklər baş verir. Bunlardan əsası tər ifrazı, bədənin nüv\si və dərisinin temperaturunun, ürək təqəllüsünün sıxlığının isti şəraitdə azalmasıdır.

İstiliyə uyğunlaşmanın əsas mexanizmi bədən tərəfindən istilikvermənin çoxalmasıdır.

İstilikvermənin çoxalmasının uyğunlaşma mexanizminin əsas effekti bədənin temperaturunun azalmasıdır. Bu zaman sakit şəraitdə bədənin temperaturu və iş zamanı onun artımı

azalır.

İstiliyə uyğunlaşma zamanı duzların miqdarı azalır. Tərləmədə duzlara nisbətən su daha çox itkiyə məruz qalır. Nəticədə su içmə hissi artır, bu da itirilən suyun qaytarılmasına səbəb olur.

İstiliyə uyğunlaşma zamanı dəri kapilyarlarının keçiriciliyi azalır. Bu isə molekullarının damardan çıxmasına mane olur.

Bütövlükdə istiliyə uyğunlaşma zamanı dövran edən qanın həcmi çoxalır.

İdmançılarda istiliyə uyğunlaşma. Dözümlülük tələb edən idman növlərində məşq və yarış yükləri bədənin nüvəsinin temperaturunu 400 S-yə qədər artırır. Bu, uyğunlaşdırıcı reaksiyaların əmələ gəlməsinə səbəb olur. Dözümlülüyü məşq etdirən idmançılarda bədənin temperaturunun tənzimi təkmilləşir: istilik istehsalı azalır, tər ifrazının çoxalması hesabına istilik itkilərinə davamiyyət artır. Idmançılarda havanın adi və yüksək temperaturu şəraitində fiziki iş zamanı daxili və dəri temperaturu, məşq etməmiş insanlara nisbətən az olur. Duzların da miqdarı tərin tərkibində azalır. Havanın yüksək temperaturu və rütubəti şəraitində keçirilən yarışlara hazırlanmaq üçün idmançılar həmin şəraitdə 7-12 gün məşq etməlidirlər. Belə şərait olmayanda xüsusi geyimdə məşq aparılmalıdır [1, s. 23]

Tər ifrazı və tər ixracı. Tər ifrazının və ixracının sürəti bir sıra amillərdən asılıdır.bunlardan əsası enerji istehsalının və xarici mühitin fiziki şəraitidir (temperatur və rütubətlik).

Əgər eyni fiziki yük müxtəlif temperaturda (ən yüksək və ən aşağı dərəcəni hesaba almasaq) icra olunursa, bədənin daxili temperaturu dəyişilmir, ancaq tər ixracı dərinin temperaturu ilə düz mütənasib xətlə artır. Əksinə xarici mühitin sabit temperaturda dərinin orta temperaturu da sabit qalır. Tər ixracının sürəti isə fiziki yükün şiddətindən asılı olaraq bədənin daxili temperaturu ilə düz mütənasib xətli olur. Deməli, icra olunan işin şiddəti artıqca tər ixracının sürətui çoxalır. Havanın yüksək nəmliyi tər icracını çətinləşdirir: tər ifrazı artır, tər ixracı pisləşir.

Gərgin idman fəaliyyəti zamanı tər ixracının sürəti çox olur. Mis., marafon qaçışı zamanı nisbətən aşağı rütubətli hava şəraitində məşq etmiş idmançıda tər ixracının sürəti 20-25 ml/dəq. (1200-1500ml/saat) olur.

Su-duz balansı. Yüksək temperatur və havanın rütubətliyi şəraitində əzələ işi zamanı çoxlu tər ixracının ağır nəticələrindən biri orqanizmin su-duz müvazinətinin pozulmasıdır. Bu, bədənin çoxlu su itirməsində və kəskin dehidratasiyasının əmələ gəlməsində, eyni zamanda bəzi duzların miqdarının dəyişməsində özünü göstərir.

Dehidratasiyanın səbəbi müxtəlif ola bilər: xarici mühitdə yüksək temperatur olanda (termik dehidratasiya), uzunmüddətli və şiddətli əzələ işi zamanı (işçi dehidratasiya), nəhayət, göstərilən hər iki şəraitdə (termo-işçi dehidratasiya).

Dehidratasiyanın müxtəlif formaları orqanizmdə müxtəlif dəyişikliklərə gətirib çıxarır. Belə ki, işçi dehidratasiya kəskin fiziki iş qabiliyyətini azaldır. Ağır işçi dehidratasiya uzunmüddətli və şiddətli işin icrası zamanı, xüsusilə yüksək temperatur və rütubətli hava şəraitində baş verir. Burada məqsəd bədənin temperaturu lazımı səviyyədə saxlamaqdır. Ağır əzələ işi zamanı çoxlu tər ixracı ilə əlaqədar bədəndə su çatışmalığı olur. Mis., havanın isti şəraitində keçirilən yarış zamanı marafonçular tərlə 6 l su itirirlər. Çoxlu su itirmiş insanın istiyə qarşı davamlılığı və onun işgüzarlığı azalır. Dehidratasiya şəraitində orqanizmin temperaturunun nizamlanması pisləşir. Dehidratasiya səviyyəsi artdıqca əzələ işi zamanı bədənin temperaturu yüksəlir və bu, tər vəzilərinin fəallığını azaldır [1, s.33]

İşçi dehidratasiya zamanı çəkinin 4% azalması plazmanın 16-18% aşağı düşməsinə səbəb olur. Buna müvafiq dövr edən qanın miqdarı, qayıdan venoz qanı azaldır və bunun nəticəsi kimi sistolik həcm azalır. Bunun qarşısını almaq üçün ürək təqəllüsünün sıxlığı artır. Qanın plazmasının azalmasının başqa nəticəsi hemokonsentrasiyadır, bu da hemotokriti və qanın qatılığını çoxaldır, nəticədə ürəyin işgüzarlığı azalır. Bədənin su itirməsinin bir nəticəsi də hüceyrəarası və hüceyrədaxili mayenin həcminin azalmasıdır. Hüceyrədə suyun azalması elektrolitlərin müvazinətini dəyişir və normal həyat fəaliyyəti pozulur.

Su-duz balansının normal olmasına nəzarət

edən fizioloji mexanizmlər müxtəlifdir.

Əzələ işi zamanı böyrəklərdə qan dövranı azalır, böyrək yumaqcıqlarından suyun süzülməsinin sürəti aşağı düşür, sidik ifrazının sürəti azalır. Havanın isti şəraitində fiziki iş zamanı, böyrəkdə qan dövranı və sidik ifrazının sürətinin azalması, böyrəklər tərəfindən suyun saxlanılmasına gətirib çıxarır (antidiurez). Bunun mexanizmlərindən biri hipofiz vəzi tərəfindən qana antidiuretik hormonun çoxlu miqdarda ifraz olunmasıdır. Əzələ işi zamanı tər ifrazının əlavə əhəmiyyətli mənbəyi qlikogenin parçalanması ilə əlaqədar "endogen" suyunun azad olmasıdır. Hər qram qlikogen 2.7 q suyu özündə saxlayır.

Beləliklə, qlikogenoliz təkcə enerji mənbəyi deyil, həmçinin fiziki iş zamanı əlavə su mənbəyi kimi istifadə olunur.

İsti şəraitində gərgin əzələ iş zamanı tərlə itirilmiş suyun qaytarılması üçün idmançı məsafə boyu su içməlidir.

Orqanizm su ilə mineral duzları da itirir. Tər ifrazının sürəti artıqca tərdə natrium və xlorun miqdarı artır, kalsiumun miqdarı azalır, kalium və maqnezium ionlarının miqdarı dəyişilir. Deməli, uzunmüddətli gərgin fiziki iş zamanı (məs., marafon qaçış) idmançı tərlə əsasən hüceyrəarası sahədə, plazmada və toxuma mayelərində olan natrium və xlor ionlarını itirir. Sidiklə itirilən elektrolitlərin miqdarı az olur.

İsti şəraitdə fiziki iş zamanı böyrək damarlarının daralması və bədənin temperaturunun yüksəlməsi böyrək yumaqcıqlarının keçirilmə qabiliyyətini gücləndirir, nəticədə sidikdə zülal görünə bilir (işçi proteinuriya).

Qan dövranı sistemi. Havanın yüksək temperaturu şəraitində sakit vəziyyətdə olan insanın bədəninin qızdırılması (isti günəşli gün) dərinin qan təchizatını artırır, ürək təqəllüsünün sıxlığının çoxalması hesabına ürək atması artır. Sistolik həcm bu zaman dəyişmir. Ümumi periferik damar müqaviməti və arterial (sistolik) təsyiq azalır. Belə ki, fin hamamında (sauna) quru isti hava şəraitində ürət atması 70%, ürək təqəllüsünün sıxlığı 60% artır.

Çoxalmış ürək artması istilik verimini gücləndirmək üçün dəri damarlarına yönəlir. Bundan başqa, dərinin qan təchizatı əlavə ürək atmasının əzələlərə tərəf paylaşdırılması hesabına da artır. Böyrəklərin qan təchizatı dərinin temperaturunun artması ilə düz mütənasib azalır.

Aerob .iddətli iş zamanı havanın yüksək temperaturu O2 sərfinin ümumi sürətinə təsir göstərir. Qısa müddətli fiziki iş zamanı (məs., 4-6 dəq.) havanın yüksək temperaturu ürək-damar sisteminin fəaliyyətinə təsir göstərmir. Uzunmüddətli fiziki iş zamanı havanın isti şəraitində istilik verimini çoxaltmaq üçün ürək-damar sistemi işləyən əzələlərə kifayət miqdarda qanla O2 çatdırılmalıdır, dərinin qan təchizatını artırmalıdır. Bu məsələ dövr edən qanın azalmasına və qatılığının artmasına görə daha da çətinləşir.

Yarış zamanı su içmə qaydası. Qeyd olunduğu kimi, isti şəraitdə gərgin əzələ işi zamanı sürətli tər ifrazı orqanizmdən çoxlu su və duzlar itkisinə səbəb olur. Nəticədə iş qabiliyyəti və istiliyə davamlılıq azalır. Yarış zamanı suyun qəbul olunmasının mənfi təsiri barədə çox danışılır. Lakin fizioloji tədqiqatlar sübut edir ki, gərgin əzələ iş nəticəsində itirilən su həmin miqdarda bərpa olunmalıdır. Belə olmayanda idmançılar dehidratasiya inkişaf edir. bu isə xüsusilə isti hava şəraitində bədəni istivurma qorxusuna gətirib çıxara bilər. Sulu karbon məhlulu nəinki suyun itkisini bərpa edir, eyni zamanda qanda qlükozanın normal miqdarını da qoruyur. Bu isə uzunmüddətli fiziki iş zamanı yüksək iş qabiliyyətini saxlamağa imkan verir.

Bununla əlaqədar məsləhət görülür ki, suyun tez-tez kiçik həcmdə (150-250 ml) 10-15 dəq fasilə ilə qəbul olunsun. Sərin su (8-13 dərəcə) mədədən bağırsaqlara daha tez keçir və eyni zamanda istiliyin verilməsini çoxaldır.

Soyuğa uyğunlaşmanın fizioloji mexanizmi. Dəri damarlarının daralması (vazokonstrikasiya) nəticə sində qanla istiliyin bədənin nüvəsindən onun səthinə daşınması azalır. İstiliyin daşınmasının azalması bədən nüvəsi temperaturunun düşməsinin qarşısını alır. Lakin tədricən dərinin temperaturu enir. Nəhayət, bunun nəticəsində bədənin temperaturu xarici mühitin temperaturuna yaxınlaşır, bu isə istilik verimini azaldır.

Dəri damarlarının əhəmiyyətli dərəcədə

daralması ətraflarda, xüsusilə əllərdə və ayaqlarda olur. Belə ki, əllərin barmaqlarında qan təchizatı 100 dəfə azalır. Bu səbəbə görə barmaqların temperaturu xarici mühitin temperaturuna yaxınlaşır.

Başın qan damarları soyuq şəraitdə az daralır. Ona görə açıq başdan 25%-ə qədər istilik ətraf mühitə yayılır.

Soyuğa uyğunlaşmanın başqa bir mexanizmi soyuqda titrəmə hesabına istilik hesabının çoxalmasıdır. Soyuq şəraitdə sakit vaxtı oksigen sərfi artır. Bu artımın miqdarı xarici temperaturdan, yağların miqdarından, istidə və soyuqda qalma müddətindən asılıdır. Oksigenin sərfinin sürəti ürək atmasının miqdarı ilə yanaşı artır. Belə ki, havanın temperaturu 50 olanda çılpaq adamda oksigen sərfinin sürəti və ürək artması iki dəfə artır.

Havanın soyuq şəraitində fiziki iş qabiliyyəti. Soyuq hava şəraitində əzələ işi zamanı istilik balansını qorumaq üçün istilik istehsalı çoxalmalıdır. Əlavə istilik istehsalını təmin etmək üçün əzələ fəaliyyəti kifayət səviyyədə olmayanda bədənin temperaturu azalır (hipotermiya).

Bəzi idman növlərində (məs., qış idman növləri) məşqlər və yarışlar soyuq hava şəraitində keçir. Lakin şaxta və küləkli hava şəraiti istisna olunsa, soyuq hava şəraitində idmançının işgüzarlığı və bədənin temperaturunun tənzimlənməsi çətinləşir. Ona görə ki, şiddətli əzələ fəaliyyəti zamanı maddələr mübadiləsi hesabına çoxlu enerji istehsal olunur. Belə ki, qeyri-iradi əmələ gələn soyuq titrəməsi əsas mübadiləni 2-5 dəfə artırırsa, əzələ fəaliyyəti 20-30 dəfə artırır. Bundan başqa xarici mühitin aşağı temperatur şəraitində istilik verimi asanlaşır, yəni yüksək iş qabiliyyəti nümayiş etdirməsi, dözümlülüyün məşqi üçün imkan yaranır.

Peşəkar idmançı öz məşqçisinin və həkiminin köməyi ilə məşq prosesində bütün bunları nəzərə almalı və qələbə qazanmaq üçün zəruri olan tədbirləri görməlidir.

Nəticə

Məqalədən belə nəticəyə gəlmək olar ki, idmançının qələbə qazanması üçün bir çox amil nəzərə alınmalı və şəraitdən düzgün istifadə edilməlidir. İdmançı və məşqçi aşağıdakı şərtləri mütləqbilməli və nəzərə almalıdır.

1. Başın qan damarları soyuq şəraitdə az daralır. Ona görə açıq başdan 25%-ə qədər istilik ətraf mühitə yayılır.

2. İsti şəraitdə gərgin əzələ işi zamanı sürətli tər ifrazı orqanizmdən çoxlu su və duzlar itkisinə səbəb olur.

3. Soyuq hava şəraitində əzələ işi zamanı istilik balansını qorumaq üçün istilik istehsalı çoxalmalıdır. Əlavə istilik istehsalını təmin etmək üçün əzələ fəaliyyəti kifayət səviyyədə olmayanda bədənin temperaturu azalır (hipotermiya).

4. İşçi dehidratasiya zamanı çəkinin 4% azalması plazmanın 16-18% aşağı düşməsinə səbəb olur. Buna müvafiq dövr edən qanın miqdarı, qayıdan venoz qanı azaldır və bunun nəticəsi kimi sistolik həcm azalır.

5. Əzələ işi zamanı tər ifrazının əlavə əhəmiyyətli mənbəyi qlikogenin parçalanması ilə əlaqədar "endogen" suyunun azad olmasıdır. Hər qram qlikogen 2.7 q suyu özündə saxlayır.

Ədəbiyyat

1. Qayıbov R.H. İdman fiziologiyası, ADBTİA – Bakı:Adiloğlu, – 2019, 289 s.
2. Qayıbov R.H., Quliyev Y.N. İdman fiziologiyası. Dərs vəsaiti, – Bakı: – 2012, – 86 s.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru Qızıllı Əliyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 15.01.2022, son daxilolma – 09.02.2022, qəbulolunma –21.02.2022

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi pedaqogika, psixologiya, tarix, filologiya, riyaziyyat və informatika, biologiya və incəsənət üzrə yazılmış mövcud tələblərə cavab verən keyfiyyətli elmi məqalələrin dərc edilməsindən ibarətdir.

2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və keyfiyyətlə redaktə olunmuş orijinal elmi məqalələr dərc edilir.

3. Məqalələrin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.

4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.

5. Dərc olunan hər məqalə haqqında redaksiya heyəti üzvlərindən ən azı birinin, həmin sahə üzrə mütəxəssisin rəyi təqdim olunmalıdır.

6. Məqalələr üç dildə - Azərbaycan, ingilis və rus dilərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə açar sözlər və xülasə verilməlidir.

7. Məqalənin mətni kompyuterdə A4 formatında "14" ölçülü hərflərlə, səhifənin parmetrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1,5 sm məsafə ilə, sətirdən-sətrə "defislə" keçmədən, sətir aralığı 1 interval olmaq şərtilə Times New Roman şriftində yazılır. Mətnin daxilində olan cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.

8. Səhifənin başlığında sağ küncdə "12" ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı, sonra aşağıda "12" ölçülü adi şirftlə işlədiyi təşkilatın adı (məs: Naxçıvan Müəllilər İnstitutu, Naxçıvan Dövlət Unversiteti, AMEA Naxçıvan Bölməsi və s), 1 interval ara verməklə «12» ölçülü qalın və böyük hərflərlə məqalənin adı, aşağıda 1 interval ara verməklə məqalənin yazıldığı dildə xülasə və açar sözlər yazılır. Məqalənin əsas mətni yenə də 1 sətir boş buraxmaqla yazılır.

9. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı "12" ölçülü hərflərlə yazılmalıdır. İstinadlar əlifba ardıcıllığı ilə deyil, ədəbiyyatların mətndə rast gəlindiyi aradıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir. «Ədəbiyyat» sözü səhifənin ortasında qalın hərflərlə yazılmalıdır.

Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə yığılır. Məs:

Kitablar:

Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, 2007, 182 s.

Məcmuə məqalələri:

Həbibbəyli I.Ə. Naxçıvanda elm və mədəniyyət /Azərbaycan tarixində Naxçıvan. Bakı: Elm, 1996, s.73-91.

Jurnal məqalələri:

Seyidov M.A., Seyidova A.M. Kimyəvi elementlərin tədrisində fənlərarası əlaqədən istifadə metodikası // Naxçıvan Müəllimlər Institutunun Xəbərləri, 2008, №1 (13), s. 97-100.

10. Məqalənin xülasəsində müəllifin adı və soyadı "12" ölçülü kiçik və qalın, mövzunun adı böyük və qalın, xülasənin özü və açar sözlər isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir. Məqalənin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.

11. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-15 səhifədən ibarət olmalıdır.

12. Çap olunmuş əlyazma disketlə birlikdə jurnalın redaksiyasına şəxsən təqdim edilir. Əlyazmaların elektron qaydada təqdim edilməsi də mümkündür. Bu zaman əlyazma jurnalın elektron poçtuna (elmieserler@nmi.edu.az, contact@elmieserler.net) göndərilir.

13. Müəlliflər redaksiyaya əlyazma ilə birgə doldulmuş anket də təqdim edirlər. Anketdə müəllif haqqında ətraflı məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və elmi adı, ünvanı, iş və ev telefonları, elektron poçt ünvanı) verilir.

Qeyd: "Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər" jurnalının hər bir nömrəsində müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.

TO THE ATTENTION OF AUTHORS

1. The main purpose of the journal is the publication of SCIENTIFIC articles of high quality meeting determined needs written on pedagogy, psychology, history, philology, mathematics and informatics, biology and art

2. Briefly and perfectly edited SCIENTIFIC articles which are the results of novel researches not presented to other publications are published in the journal.

3. The number of co-authors of the articles with more than 3 is undesirable.

4. The author is directly responsible for the quality of the articles and the correctness of the facts suggested in the article.

5. At least, one of the members of editorial staff, the review of specialist in that field should be presented about every article to be published.

6. The articles may be published in 3 languages - Azerbaijani, English and Russian. Except the language of the article, key words and resume should be given in 2 other languages.

7. The text of the article is presented to the editorial office of the journal written in computer, with A4 format, in "14" size type, with the margin parameters of 2 cm at the top, 2 cm at the bottom, 3 cm on the left and 1,5 cm on the right, without shifting with "hyphen" from line to line, with the line space of 1 interval and in Times New Roman type. The parameters of the schedule in the text must be – 3,7 cm from right and left.

8. At the top of the page, the title of the article is written in "12" bold type and capital letters leaving 1 interval space, with the name and surname of the author (authors) written in "12" bold type leaving 1 interval space (for example, Nakhchivan Teachers' Institute, Nakhchivan State University, Nakhchivan section of ANAS and so on). The main text of the article is written below leaving 1 line space.

9. SCIENTIFIC sources should be quoted related to the theme. The list of references given at the end of the article should be written in "12" size type. The list of references should not be numbered in alphabetic order, it should be numbered in the order as the quoted references are met in the text. For example, it should be marked as [1], [1, p.119]. If the same reference is quoted once again in another place of the text, the very reference should be shown in previous number. The word "Reference" should be written in bold type. The list of references is given in case letters in the language which is written. For example,

Books:

Mehrabov, A., Javadov I. Monitoring and evaluation in comprehensive schools. Baku, 2007, 182 pp.

Articles in bouk:

Habibbaily I.A. Science and Culture in Nakhchivan/ Nakhchivan in Azerbaijan history. Baku: Science, 1996 p.73-91

Articles in journal:

Seyidov M.A., Seyidova A.M. Usage methods of interdisciplinary relationships in the teaching of chemical elements// News of Nakhchivan Teachers' Institute, 2008, № 1 (13), p.97-100.

10. In the resume of the article, the name and surname of the author sould be written in "12" size case, bold letters; the title of the theme should be written in capital and bold letters; and the resume itself is written in ordinary letters. The resume should encompass the theme completely, the results obtained should be given in detail. The resumes of the article in different languages should overlap and be relevant to the content of the article.

11. The total volume of the article should not exceed 15 pages including graphic materials, photos, tables, formulae, the list of references and resumes.

12. The printed manuscript is presented to the editorial office together with the floppy disk. Manuscripts are also available electronically. In this case, the manuscript is sent to the journal's e-mail (elmieserler@nmi.edu.az, contact@elmieserler.net).

13. The authors also submit a review with the manuscript. In the review, the author will be given detailed information about the author (surname, name and patronymic, workplace, post, degree of science and SCIENTIFIC title, address, work and home phones, electronic mail address).

Note: Only one article by the author is considered to be published in every issue of "Nakhchıvan Teachers Institute. Scientific works".

К СВЕДЕНИЮ АВТОРОВ

1. Основная цель журнала – публикация качественных научных статей по педагогике, психологии, истории, филологии, математике и информатике, биологии и искусствоведению, отвечающих установленным требованиям.

2. В журнале публикуются результаты исследований в виде оригинальных и тщательно отредактированных научных статей, ранее не представленных к другим изданиям.

3. Количество соавторов более трех человек нежелательно.

4. Автор носит прямую ответственность за качество содержания статьи и достоверность указанных в ней фактов.

5. Для опубликования статьи в журнале необходимо представить рецензию одного специалиста по этой области научных знаний и представления одного из сотрудников редколлегии.

6. Статьи могут быть написаны на одном из трех языков - азербайджанском, английском или русском. Ключевые слова и аннотации должны быть написаны и на двух других языках.

7. Текст статьи должен быть сверстан на компьютере шрифтом Times New Roman, (размер шрифта -14 pt) на бумаге A4 с полями: верхним – 2 см; нижним – 2 см; правым – 3 см; левым – 1,5 см, без переносов с межстрочным интервалом 1,5 см. Параметры внутритекстовых таблиц - 3,7 см с правой и левой стороны.

8. Текст статьи должен быть написан следующим образом: в правом верхнем углу первой страницы имя и фамилия автора (авторов) заглавными жирными и прямыми буквами (размер шрифта -12 pt), ниже прописным шрифтом (размер шрифта – 12 pt) - место работы (например, Нахчыванский институт учителей, Нахчыванский государственный университет, Нахчыванский отделение НАНА и т. д.), далее через интервал по середине заглавными жирными и прямыми буквами (размер шрифта -12 pt) – название статьи, ниже через интервал с начала строки с отступом - аннотацию и ключевые слова на языке оригинала, далее через интервал - основной текст статьи

9. В статье делаются ссылки на научные источники по тематике. Список литератур, данный в конце статьи, пишется прописными буквами размером 12 pt. Ссылки нумеруются по последовательности размещения их в тексте, а не по алфавиту. Ссылки вставляются прямо в тексте научной работы в виде [1, с. 2] или просто [1]. При повторной ссылке указывается номер той же литературы. Слово «Литература» пишется жирными буквами по середине, через интервал за текстом.

Список литературы составляется прописным шрифтом на языке оригинала. Напр:

Книги:

Мехрабов А., Джавадов И. Мониторинг и оценка в средних школах. Баку, 2007, 182 с.

Статьи в сборнике:

Габиббейли И.А. Наука и культура в Нахчыване / Нахчыван в истории Азербайджана. Баку: Наука, 1996, с. 73-91.

Журнальные статьи:

Сейидов М.А., Сейидова А.М. Методика применения химических методов в обучении химическим элементам // Известия Нахчыванского института учителей, 2008, №1 (13), с. 97-100.

10. В аннотации имя и фамилия автора пишутся прописными и жирными, название статьи заглавными и жирными, а сама аннотация и ключевые слова прописными буквами. Аннотация должна полностью отражать содержание статьи, подробно освещать полученные результаты. Аннотации на разных языках должны быть идентичны, соответствовать содержанию статьи.

11. Общий объем статьи должен быть в пределах 5-15 страниц, включая графические материалы, фото, таблицы, список литературы и аннотации.

12. Напечатанная рукопись вместе с дискетой лично представляется в редакцию. Можно представить рукописи и через интернет. При этом рукопись можно отправить на mail-адрес редакции (elmieserler@nmi.edu.az, contact@elmieserler.net).

13. Автор вместе с рукописью представляет в редакцию и анкет автора, который содержит подробные сведения о нем (фамилии, имени и отчестве, месте работы, должности, ученой степени и ученом звании, адресе, рабочем и домашнем телефоне, электронном адресе)

Примечание. В каждом номере журнала «Нахчыванский институт учителей. Научные труды» предусмотрена публикация одной статьи автора.

DÜZƏLİŞLƏR ÜÇÜN SƏHİFƏ

Jurnalın 3-cü nömrəsinin Filologiya bölməsində (səh.206-210) çap edilmiş “Kaspi qəzeti milli oyanış və azərbaycançılıq haqqında” adlı məqalə (müəllifi Ayşən İmanlı) Pedaqogika: nəzəriyyə və tarix bölməsində verilmiş sayılsın.

PAGE FOR CORRECTION

The article "Kaspi newspaper about national awakening and Azerbaijaniness" (author Ayshen Imanli) published in the Philology section of the 3rd issue of the magazine (p. 206-210) should be considered given in the Pedagogy: theory and history section.

СТРАНИЦА ДЛЯ ИСПРАВЛЕНИЙ

Статью на тему «Каспийская газета о национальном пробуждении и азербайджанстве» (автор Айшен Иманлы), помещенную в разделе Филологии 3-го номера журнала (стр.206-210) , считать включенной в раздел Педагогика: теория и история.

Nəşriyyatının direktoru: Zöhrə Sadiqova
Redaktor: Tünzalə Abdullayeva
Korrektor: Aruzə Qurbanova

Yığılmağa verilmişdir: 05.02.2022
Çapa imzalanmışdır: 20.02.2022
Kağız formatı: A4
Şərti çap vərəqi: "Times New Roman" qarnituru
Tirajı: 150

İnternet saytı: https//elmieserler.net
E-mail: contact@elmieserler.net
elmihisse@nmi.edu.az
Ünvan: Az – 7003, Naxçıvan şəhəri,
Heydər Əliyev prospekti-2